Azərbaycan Respublikasının Mülki Məcəlləsi

(28 dekabr 1999-cu il tarixli, 779-IQ nömrəli Qanun ilə təsdiq edilmişdir)

(26 may 2000-ci il tarixli, 886-IQ nömrəli Qanuna əsasən 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minir)

Ümumi hissə

Birinci bölmə. Giriş müddəaları

1-ci fəsil. Mülki hüquq sahəsində qanunvericilik

Maddə 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin məqsəd və vəzifələri

1.1. Bu Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etməkdir.

1.2. Bu Məcəllənin vəzifələri aşağıdakılardır:

- mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləmək;
- mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək;
- fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi *və ailə həyatının,* şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq;
- mülki dövriyyəni təmin etmək;
- sahibkarlıq fəaliyyətini dəstəkləmək;
- sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq. (20)

Maddə 2. Azərbaycan Respublikasının mülki qanunvericiliyi

2.1. Azərbaycan Respublikasının mülki qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və bu Məcəllədən, digər qanunlardan və onların əsasında qəbul edilən, mülki hüquq normalarını müəyyənləşdirən başqa normativ hüquqi aktlardan ibarətdir.

2.2. Mülki qanunvericilik mülki hüquq münasibətləri subyektlərinin hüquqi vəziyyətini, mülkiyyət hüququnun və başqa əmlak hüquqlarının əmələ gəlməsi əsaslarını və həyata keçirilməsi qaydasını müəyyənləşdirir, müqavilə və digər öhdəlik münasibətlərini, habelə sair əmlak münasibətlərini və onlarla bağlı olan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir.

2.3. Ailə, əmək münasibətləri, təbii ehtiyatlardan istifadə, ətraf mühitin mühafizəsi, müəlliflik hüququ və əlaqədar hüquqlar ilə bağlı münasibətlər, əgər ailə, əmək, torpaq, təbiəti mühafizə, müəlliflik və digər xüsusi qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir.

2.4. İnsanın özgəninkiləşdirilməyən hüquq və azadlıqlarının, digər qeyri-maddi nemətlərin gerçəkləşdirilməsi və müdafiəsi ilə bağlı münasibətlər, əgər bu münasibətlərin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir.

2.5. Əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlar bir tərəfin digər tərəfə inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə və inzibati münasibətlərə tətbiq edilmir.

2.6. Qanundan aşağı qüvvəli normativ hüquqi aktlar mülki münasibətlərin tənzimlənməsi üçün yalnız o halda tətbiq edilir ki, onlar bu Məcəlləyə uyğun gəlsin və ona zidd olmasın.

Maddə 3. Mülki qanunvericilik və beynəlxalq hüquq aktları

3.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr bu Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə (beynəlxalq müqavilədən onun tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə) birbaşa tətbiq edilir.

3.2. Əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilədə müəyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulan normalardan fərqlənərsə, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir.

Maddə 4. Mülki hüquq münasibətlərinin obyektləri

Əmlak və ya qeyri-əmlak dəyəri olan, qanunvericiliklə mülki dövriyyədən çıxarılmamış maddi və ya qeyri-maddi nemətlər mülki hüquq münasibətlərinin obyektləri ola bilərlər.

Maddə 5. Mülki hüquq münasibətlərinin subyektləri

5.1. İstər sahibkarlıq fəaliyyəti ilə məşğul olan, istərsə də məşğul olmayan hər hansı fiziki və ya hüquqi şəxslər mülki hüquq münasibətlərinin subyektləri ola bilərlər.

5.2. Dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının digər şəxslərlə mülki hüquq münasibətləri, qanunda ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericiliklə tənzimlənir.

5.3. Mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar.

Maddə 6. Mülki qanunvericiliyin prinsipləri

6.1. Mülki qanunvericiliyin prinsipləri aşağıdakılardır:

6.1.1. mülki hüquq subyektlərinin bərabərliyi;

6.1.2. mülki hüquq subyektlərinin iradə sərbəstliyi;

6.1.3. mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi;

6.1.4. mülkiyyətin toxunulmazlığı;

6.1.5. müqavilələr azadlığı;

6.1.6. *şəxsi və ailə həyatına* kimsənin özbaşına qarışmasının yolverilməzliyi;

6.1.7. mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması;

6.1.8. pozulmuş hüquqların bərpasının təmin edilməsi;

6.1.9. mülki hüquqların məhkəmə müdafiəsi.

6.2. Fiziki və hüquqi şəxslər mülki hüquqları öz mənafelərini gerçəkləşdirmək üçün iradələrinə uyğun olaraq əldə edir və həyata keçirirlər. Onlar müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə və qanunvericiliyə zidd olmayan hər hansı müqavilə şərtləri qoymaqda sərbəstdirlər.

6.3. Dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin sağlamlığının və mənəviyyatının qorunması, digər şəxslərin hüquq və azadlıqlarının, şərəfinin və təmiz adının müdafiəsi üçün zəruri olduqda mülki hüquqlar yalnız qanunla məhdudlaşdırıla bilər.

6.4. Mallar, xidmətlər və maliyyə vəsaiti Azərbaycan Respublikasının bütün ərazisində sərbəst hərəkət edir. Əgər insanların təhlükəsizliyinin təmin edilməsi, həyatının və sağlamlığının müdafiəsi, təbiətin və mədəniyyət sərvətlərinin qorunması üçün zəruridirsə, malların və xidmətlərin hərəkəti üçün məhdudiyyətlər qanuna müvafiq surətdə tətbiq edilə bilər. (20)

Maddə 7. Mülki qanunvericiliyin zamana görə qüvvəsi

7.1. Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində nəzərdə tutulanlar istisna olmaqla, mülki qanunvericilik müddəalarının geriyə qüvvəsi yoxdur və onlar qüvvəyə mindikdən sonra əmələ gəlmiş münasibətlərə tətbiq edilir.

7.2. Qanunla birbaşa nəzərdə tutulmuş hallarda mülki qanunvericiliyin geriyə qüvvəsi ola bilər.

7.3. Mülki hüquq subyektlərinə ziyan vurarsa və ya onların vəziyyətini pisləşdirərsə, mülki qanunvericiliyin geriyə qüvvəsi ola bilməz.

Maddə 8. Mülki qanunvericiliyin məkana görə qüvvəsi

8.1. Mülki qanunvericilik Azərbaycan Respublikasının istisnasız olaraq bütün ərazisində qüvvədədir.

8.2. Mülki qanunvericilikdə nəzərdə tutulan hüquqlar Azərbaycan Respublikasının bütün ərazisində maneəsiz həyata keçirilə bilər və hökmən mühafizə edilməlidir.

Maddə 9. Mülki qanunvericiliyin şəxslərə görə qüvvəsi

9.1. Mülki qanunvericilik Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslər üçün qüvvədədir.

9.2. Mülki qanunvericiliklə müəyyənləşdirilmiş qaydalar, əgər qanunda ayrı hal nəzərdə tutulmayıbsa, əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin iştirak etdiyi münasibətlərə də tətbiq olunur.

9.3. Qanunu bilməmək və ya onu yanlış başa düşmək qanunun tətbiq edilməməsinə və ya nəzərdə tutulmuş məsuliyyətdən azad edilməyə əsas verə bilməz.

Maddə 10. İşgüzar adətlər

10.1. Sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində təşəkkül tapan və geniş tətbiq edilən, qanunvericilikdə nəzərdə tutulmayan davranış qaydası, hansısa aktda qeyd edilib-edilmədiyindən asılı olmayaraq, işgüzar adət sayılır.

10.2. Qanunvericiliyə və ya müqaviləyə zidd olan işgüzar adətlər tətbiq edilmir.

Maddə 11. Mülki qanunvericiliyin analogiya üzrə tətbiqi

11.1. Mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu, onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir (qanunun analogiyası).

11.2. Oxşar münasibətləri tənzimləyən mülki hüquq normaları olmadıqda tərəflərin hüquq və vəzifələri mülki qanunvericilik prinsipləri əsas götürülməklə tənzimlənir (hüququn analogiyası). Hüququn analogiyası tətbiq edilərkən ədalət, insaf və mənəviyyat tələbləri nəzərə alınmalıdır.

~~11.3. Mülki hüquqları məhdudlaşdıran və ya məsuliyyət müəyyənləşdirən mülki qanunvericilik normalarının analogiya üzrə tətbiqinə yol verilmir.~~

11.4. Xüsusi münasibətləri tənzimləyən mülki qanunvericilik müddəaları (istisna normaları) analogiya üzrə tətbiq edilməməlidir.

11.5. Mülki hüquq münasibətlərini tənzimləyən hüquq normasının olmaması və ya onun qeyri-müəyyənliyi məhkəmənin mülki işə baxmaqdan imtina etməsinə əsas verə bilməz. (12)

Maddə 12. Mülki hüquqların siyasi hüquqlardan asılı olmaması

12.1. Mülki hüquqların həyata keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyası və ya qanunları ilə müəyyənləşdirilmiş siyasi hüquqlardan asılı deyildir.

12.2. Mülki hüquq münasibətlərinin subyektləri həm qanunla birbaşa qadağan olunmamış hərəkətləri, həm də qanunda bilavasitə nəzərdə tutulmamış hərəkətləri icra edə bilərlər.

Maddə 13. Sahibkarlıq fəaliyyəti

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə~~, öz riski ilə~~ həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir. (12)

2-ci fəsil. Mülki hüquq və vəzifələr, onların müdafiəsi

Maddə 14. Mülki hüquqların və vəzifələrin əmələ gəlməsi

14.1. Mülki hüquqlar və vəzifələr mülki qanunvericilikdə nəzərdə tutulan əsaslardan, habelə fiziki və hüquqi şəxslərin qanunvericilikdə nəzərdə tutulmasa da, mülki qanunvericiliyin prinsiplərinə görə mülki hüquqlar və vəzifələr doğuran hərəkətlərindən əmələ gəlir.

14.2. Mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsasları aşağıdakılardır:

14.2.1. Qanunvericilikdə nəzərdə tutulmuş müqavilələr və başqa əqdlər, habelə qanunvericilikdə nəzərdə tutulmasa da, ona zidd olmayan müqavilələr və başqa əqdlər.

14.2.2. Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının qanunvericilikdə mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsası kimi nəzərdə tutulmuş aktları.

14.2.3. Mülki hüquqlar və vəzifələr müəyyənləşdirən məhkəmə aktları.

14.2.4. Qanunvericiliyin yol verdiyi əsaslar üzrə əmlak əldə edilməsi.

14.2.5. Elm, ədəbiyyat, incəsənət əsərlərinin, ixtiraların və əqli fəaliyyətin digər nəticələrinin yaradılması.

14.2.6. Başqa şəxsə zərər vurulması.

14.2.7. Əsassız varlanma.

14.2.8. Fiziki və hüquqi şəxslərin digər hərəkətləri.

14.2.9. Qanunvericiliyin mülki hüquq nəticələrinin baş verməsi ilə bağladığı hadisə.

14.3. *Əgər qanunla əmlak hüquqlarının yaranması üçün ayrı qayda nəzərdə tutulmayıbsa, dövlət* qeydiyyatına alınmalı əmlak hüquqları onların qeydə alındığı andan əmələ gəlir. (12)

Maddə 15. Mülki hüquqların həyata keçirilməsi

~~15.1. Fiziki və hüquqi şəxslər özlərinə mənsub mülki hüquqları, o cümlədən onları müdafiə etmək hüququnu öz istədikləri kimi həyata keçirirlər.~~

15.2. Fiziki və hüquqi şəxslərin özlərinə mənsub *mülki hüquqlardan istifadə etməməsi*, qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, bu hüquqlara xitam verilməsinə səbəb olmur. (12)

Maddə 16. Mülki hüquqların həyata keçirilməsinin məhdudlaşdırılması

16.1. Fiziki və hüquqi şəxslərin yalnız və yalnız başqa şəxsə ziyan vurmaq niyyəti ilə həyata keçirdikləri hərəkətlərə, habelə hüquqdan digər formalarda sui-istifadə edilməsinə yol verilmir.

~~16.2. Mülki hüquqlardan rəqabəti məhdudlaşdırmaq məqsədi ilə istifadə edilməsinə, habelə bazarda hakim mövqedən sui-istifadə olunmasına yol verilmir.~~ (12)

Maddə 17. Mülki hüquqların müdafiəsi

17.1. Bütün dövlət hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları, fiziki və hüquqi şəxslər mülki hüquqlara hörmət bəsləməyə və onların müdafiəsinə kömək göstərməyə borcludurlar.

~~17.2. Mülki hüquqların məhkəmə müdafiəsini Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müəyyənləşdirdiyi iş aidiyyətinə uyğun olaraq ümumi yurisdiksiya məhkəmələri və iqtisadi məhkəmələr həyata keçirirlər. Müqavilədə tərəflər arasındakı mübahisənin məhkəməyə müraciət edilənədək nizama salınması nəzərdə tutula bilər.~~

~~17.3. Mülki hüquqların inzibati qaydada müdafiəsi yalnız qanunvericilikdə nəzərdə tutulmuş hallarda həyata keçirilir. İnzibati qaydada qəbul edilmiş qərardan məhkəməyə şikayət verilə bilər.~~ (12)

Maddə 18. Mülki hüquqların müdafiəsi üsulları

Mülki hüquqların müdafiəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada və qanuna, ictimai qaydaya və əxlaqa zidd olmayan üsullarla həyata keçirilir.

Maddə 19. Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının aktının etibarsız sayılması

Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının mülki qanunvericiliyə uyğun gəlməyən, fiziki və ya hüquqi şəxsin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozan qeyri-normativ xarakterli aktı məhkəmə tərəfindən etibarsız sayıla bilər.

~~***Maddə 20. Mülki hüquqların özümüdafiəsi***~~

~~20.1. Şəxslərin öz mülki hüquqlarını qanunvericiliklə qadağan edilməyən bütün üsullarla özümüdafiə etmək hüququ vardır.~~

~~20.2. Mülki hüquqların özümüdafiəsi üsulları mülki hüquq pozuntusuna mütənasib olmalı və onun qarşısının alınması üçün zəruri hərəkətlərdən kənara çıxmamalıdır.~~ (12)

Maddə 21. Zərərin əvəzinin ödənilməsi (km4)

21.1. *Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs* ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın.

21.2. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

21.3. Zərərin əvəzinin ödənilməsi ilə bağlı tələbin həcminin müəyyənləşdirilməsi zamanı zərərçəkənin, onun işçisinin və qanunvericiliklə nəzərdə tutulmuş hallarda üçüncü şəxslərin davranışının zərərin yaranmasına və artmasına hansı həcmdə şərait yaratması nəzərə alınmalıdır. (12)

~~***Maddə 22. Dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının vurduqları zərərin əvəzinin ödənilməsi***~~

~~Dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının və ya həmin orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi), o cümlədən dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının qanunvericiliyə uyğun gəlməyən qeyri-normativ aktının qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə dəyən zərərin əvəzi Azərbaycan Respublikasının və ya müvafiq bələdiyyənin hesabına ödənilməlidir.~~ (12)

Maddə 23. Şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi (km4)

23.1. Fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi *və ailə* həyatının sirrini və ya şəxsi *və ailə* toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Faktik məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir. Marağı olan şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir.

23.2. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi *və ailə* həyatının sirrinə qəsd edən məlumatlar kütləvi informasiya vasitələrində yayılmışdırsa, həmin kütləvi informasiya vasitələrində də təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir. Digər hallarda təkzib qaydasını məhkəmə müəyyənləşdirir.

23.3. Kütləvi informasiya vasitələrində hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş fiziki şəxsin həmin kütləvi informasiya vasitələrində öz cavabının dərc edilməsi hüququ vardır.

23.4. Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

23.5. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumatlar yayılmış şəxsin ixtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin.

23.6. Bu maddənin fiziki şəxsin işgüzar nüfuzunun müdafiəsinə dair qaydaları müvafiq olaraq hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də tətbiq edilir. (20)

İkinci bölmə. Şəxslər

3-cü fəsil. Fiziki şəxslər

Maddə 24. Fiziki şəxs anlayışı

24.1. Fiziki şəxs hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir.

24.2. Azərbaycan Respublikasında bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir.

Maddə 25. Fiziki şəxsin mülki hüquq qabiliyyəti

25.1. Fiziki şəxsin mülki hüquq qabiliyyəti insanın mülki hüquqlara malik olmaq və mülki hüquq vəzifələri daşımaq qabiliyyətidir. Bütün fiziki şəxslərin mülki hüquq qabiliyyəti eyni dərəcədə tanınır.

25.2. Fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir. Beyinin fəaliyyətinin dayanması ölüm anı sayılır.

25.3. Vərəsə olmaq hüququ maya bağlandığı andan əmələ gəlir, bu hüququn həyata keçirilməsi isə yalnız doğumdan sonra mümkündür.

25.4. Fiziki şəxs hüquq qabiliyyətindən məhrum edilə bilməz.

Maddə 26. Ad hüququ

26.1. Hər bir fiziki şəxsin addan, ata adından və soyaddan ibarət adı olmaq hüququ vardır.

26.2. Fiziki şəxs hüquq və vəzifələri öz adı ilə əldə edir və həyata keçirir.

26.3. Qanunla nəzərdə tutulmuş hallarda və qaydada fiziki şəxs təxəllüsdən (uydurma addan) istifadə edə bilər.

26.4. Fiziki şəxsin qanunla müəyyənləşdirilmiş qaydada öz adını dəyişdirmək ixtiyarı vardır. Fiziki şəxsin adını dəyişdirməsi, onun əvvəlki adı ilə əldə etdiyi hüquq və vəzifələrə xitam vermir və ya bunları dəyişdirmir. Fiziki şəxs adını dəyişdirməsi barədə öz borclularına və kreditorlarına məlumat verməlidir və adının dəyişməsi barədə həmin şəxslərdə məlumatın olmamasının doğurduğu nəticələrin riskini daşıyır. Adını dəyişdirmiş fiziki şəxsin ixtiyarı vardır ki, əvvəlki adına rəsmiləşdirilmiş sənədlərdə öz hesabına müvafiq dəyişikliklər aparılmasını tələb etsin.

26.5. Fiziki şəxsin doğularkən aldığı ad, habelə adını dəyişdirməsi vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı üçün müəyyənləşdirilmiş qaydada qeydə alınmalıdır.

26.6. Başqa şəxsin adı ilə hüquq və vəzifələr əldə edilməsinə yol verilmir.

26.7. Fiziki şəxsin adından qanunsuz istifadə nəticəsində ona vurulmuş ziyanın əvəzi bu Məcəlləyə müvafiq surətdə ödənilməlidir.

26.8. Fiziki şəxsin adı onun şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunan üsullarla və ya formada təhrif edildikdə və ya istifadə olunduqda bu Məcəllənin 23-cü maddəsində nəzərdə tutulan qaydalar tətbiq edilir.

Maddə 27. Fiziki şəxsin yaşayış yeri

27.1. Fiziki şəxsin adətən yaşadığı yer onun yaşayış yeri sayılır. Şəxsin bir neçə yaşayış yeri ola bilər.

27.2. On dörd yaşına çatmamış şəxslərin yaşayış yeri valideynlik hüquqlarını itirməmiş valideynlərinin yaşayış yeri sayılır, qəyyumluq altında olan şəxsin yaşayış yeri isə qəyyumun yaşayış yeri sayılır.

27.3. Əgər şəxs hər hansı səbəbdən öz yaşayış yerini müəyyən müddətə tərk edirsə, o, yaşayış yerini itirmir.

Maddə 28. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti

28.1. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətidir.

28.2. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti, o, yetkinlik yaşına, yəni on səkkiz yaşına çatdıqda tam həcmdə əmələ gəlir.

28.3. 7 yaşınadək olan yetkinlik yaşına çatmayanların (azyaşlılar) fəaliyyət qabiliyyəti yoxdur. 7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların məhdud fəaliyyət qabiliyyəti vardır.

28.4. On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayan əmək müqaviləsi üzrə işləyirsə və ya valideynlərinin, övladlığa götürənlərin və ya *himayəçinin* razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, tam fəaliyyət qabiliyyətli sayıla bilər. Hər iki valideynin, övladlığa götürənlərin və ya *himayəçinin* razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı ilə, belə razılıq olmadıqda isə məhkəmənin qərarı ilə yetkinlik yaşına çatmayan tam fəaliyyət qabiliyyətli sayılır (emansipasiya).

28.5. Valideynlər, övladlığa götürənlər və himayəçi tam fəaliyyət qabiliyyətli sayılmış yetkinlik yaşına çatmayanın öhdəlikləri üçün, o cümlədən onun ziyan vurması nəticəsində əmələ gəlmiş öhdəliklər üçün məsuliyyət daşımırlar.

28.6. On səkkiz yaşına çatanadək nikaha girməyə qanunun yol verdiyi halda, on səkkiz yaşına çatmamış fiziki şəxs nikaha girdiyi vaxtdan tam həcmdə fəaliyyət qabiliyyəti əldə edir. Nikah bağlanması nəticəsində əldə edilmiş fəaliyyət qabiliyyəti nikahın on səkkiz yaşına çatanadək pozulduğu halda da tam həcmdə saxlanılır.

28.7. Nikah etibarsız sayıldıqda məhkəmə yetkinlik yaşına çatmayan ərin (arvadın) tam fəaliyyət qabiliyyətini məhkəmə tərəfindən müəyyənləşdirilən andan itirməsi barədə qərar qəbul edə bilər.

28.8. Ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən şəxslər də məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayıla bilər. Onlar üzərində qəyyumluq müəyyənləşdirilir.

Fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin adından əqdləri onun qəyyumu bağlayır. *Fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxsin bağladığı əqd sonradan qəyyumun razılığı ilə etibarlı hesab edilə bilər.*

28.9. Fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxsin sağaldığı və ya sağlamlıq vəziyyətinin xeyli yaxşılaşdığı halda məhkəmə onu fəaliyyət qabiliyyətli sayır. Onun üzərində müəyyənləşdirilmiş qəyyumluq məhkəmə qərarına əsasən ləğv edilir. (12)

Maddə 29. 14 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti

29.1. Bu Məcəllənin 29.2-ci maddəsində göstərilmiş əqdlər istisna olmaqla, 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdləri onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər. *Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan onun valideynləri, övladlığa götürənlər və qəyyumlar tərəfindən bəyənildikdə etibarlıdır.*

29.2. 7 yaşından 14 yaşınadək olan şəxslərin aşağıdakı əqdləri müstəqil bağlamaq ixtiyarı vardır:

29.2.1. xırda məişət əqdləri;

29.2.2. əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş elə əqdlər ki, onlardan əmələ gələn hüquqların notariat qaydasında təsdiqlənməsi və ya dövlət qeydiyyatına alınması tələb olunmur;

29.2.3. qanuni nümayəndənin özünün və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdlər.

29.3. 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın əqdləri, o cümlədən müstəqil bağladığı əqdlər üzrə əmlak məsuliyyətini onun valideynləri, övladlığa götürənlər və ya qəyyum daşıyır, bu şərtlə ki, həmin şəxslər öhdəliyin onların təqsiri üzündən pozulmadığını sübuta yetirməsinlər. Qanuna uyğun olaraq bu şəxslər azyaşlıların vurduqları ziyan üçün də cavabdehdirlər. (12)

Maddə 30. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti

30.1. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar bu Məcəllənin 30.2-ci maddəsində göstərilənlər istisna olmaqla, əqdləri öz qanuni nümayəndələrinin—valideynlərinin, övladlığa götürənlərin və ya *himayəçinin* yazılı razılığı ilə bağlayırlar. Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan valideynləri, övladlığa götürənlər və ya *himayəçi* tərəfindən ~~yazılı surətdə~~ bəyənildikdə də etibarlıdır.

30.2. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların ixtiyarı vardır ki, valideynlərinin, övladlığa götürənlərin və ya *himayəçinin* razılığı olmadan müstəqil surətdə:

30.2.1. öz qazancı, təqaüdü və digər gəlirləri barəsində sərəncam versin;

30.2.2. elm, ədəbiyyat və ya incəsənət əsərinin, ixtiranın və ya qanunla qorunan digər əqli fəaliyyət nəticəsinin müəllifi hüquqlarını həyata keçirsin;

~~30.2.3. qanuna uyğun olaraq kredit idarələrinə əmanətlər qoysun və onlar barəsində sərəncam versin;~~

30.2.4. xırda məişət əqdləri və bu Məcəllənin 29.2-ci maddəsində nəzərdə tutulan digər əqdlər bağlasın. On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayanların kooperativ üzvü olmaq ixtiyarı da vardır.

30.3. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar bu Məcəllənin 30.1 və 30.2-ci maddələrinə uyğun bağladıqları əqdlər üzrə müstəqil surətdə əmlak məsuliyyəti daşıyırlar. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar vurduqları ziyana görə bu Məcəlləyə uyğun məsuliyyət daşıyırlar.

30.4. Yetərli əsaslar olduqda məhkəmə valideynlərin, övladlığa götürənlərin və ya *himayəçinin* və ya qəyyumluq və himayəçilik orqanının vəsatəti ilə 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanın (əgər o, tam həcmdə fəaliyyət qabiliyyəti əldə etməyibsə) öz qazancı, təqaüdü və ya digər gəlirləri barəsində müstəqil sərəncam vermək hüququnu məhdudlaşdıra və ya ala bilər. (12)

Maddə 31. Fiziki şəxsin hüquq qabiliyyətindən və fəaliyyət qabiliyyətindən məhrum edilməsinin və bunların məhdudlaşdırılmasının yolverilməzliyi

31.1. Fiziki şəxs heç bir halda hüquq qabiliyyətindən məhrum edilə bilməz. Fiziki şəxsin hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti yalnız qanunla müəyyənləşdirilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər.

31.2. Fiziki şəxslərin fəaliyyət qabiliyyətinin və ya onların sahibkarlıq fəaliyyəti və ya başqa fəaliyyətlə məşğul olmaq hüququnun məhdudlaşdırılmasının qanunla müəyyənləşdirilmiş şərtlərinin və qaydasının gözlənilməməsi müvafiq məhdudiyyəti qoymuş dövlət orqanının və ya digər orqanın aktının etibarsızlığına səbəb olur.

31.3. Fiziki şəxsin hüquq qabiliyyətindən və ya fəaliyyət qabiliyyətindən tamamilə və ya qismən imtina etməsi və hüquq qabiliyyətinin və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına yönəldilmiş digər əqdlər əhəmiyyətsizdir.

Maddə 32. Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması

32.1. Spirtli içkilərdən, *narkotik vasitələrdən və ya psixotrop maddələrdən* sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan fiziki şəxsin fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırıla bilər. Belə şəxsin üzərində himayəçilik təyin edilir. Onun xırda məişət əqdləri bağlamaq ixtiyarı vardır. O yalnız himayəçisinin razılığı ilə başqa əqdlər bağlaya bilər, habelə qazanc, pensiya və digər gəlirlər götürə bilər və bunlar barəsində sərəncam verə bilər. Lakin bu cür fiziki şəxs bağladığı əqdlər üzrə və vurduğu ziyan üçün müstəqil surətdə əmlak məsuliyyəti daşıyır. *Fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin himayəçinin razılığı tələb olunan hallarda, belə razılıq olmadan bağladığı əqd sonradan himayəçinin yazılı razılığı ilə etibarlı hesab edilə bilər.*

32.2. Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına səbəb olan əsaslar aradan qalxdıqda məhkəmə onun fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasını ləğv edir. Fiziki şəxsin üzərində təyin edilmiş himayəçilik məhkəmənin qərarına əsasən ləğv olunur. (12, 22)

Maddə 33. Qəyyumluq və himayəçilik

33.1. Qəyyumluq və himayəçilik fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün təyin edilir. Yetkinlik yaşına çatmayanlar üzərində qəyyumluq və himayəçilik həmçinin onların tərbiyələndirilməsi məqsədi ilə təyin edilir. Qəyyumların və himayəçilərin buna uyğun hüquq və vəzifələri Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyənləşdirilir.

33.2. Qəyyumlar və himayəçilər istənilən şəxslərlə münasibətlərdə, o cümlədən məhkəmədə öz qəyyumluğunda olanların hüquq və vəzifələrini xüsusi səlahiyyət almadan müdafiə edirlər.

33.3. Yetkinlik yaşına çatmayanların valideynləri, onları övladlığa götürənlər olmadıqda, valideynləri məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edildikdə, habelə bu cür fiziki şəxslər başqa səbəblərə görə valideyn himayəsindən məhrum olduqda, o cümlədən valideynləri onları tərbiyələndirməkdən və ya hüquq və mənafelərini müdafiə etməkdən boyun qaçırdıqda onların üzərində qəyyumluq və himayəçilik təyin edilir.

33.4. On dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlar, habelə psixi pozuntuya görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslər üzərində qəyyumluq təyin edilir.

33.5. Qəyyumlar qəyyumluqda olanların qanun üzrə nümayəndələri olur və onların adından və onların mənafeləri üçün bütün zəruri əqdləri bağlayırlar.

33.6. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində, habelə spirtli içkilərdən, *narkotik vasitələrdən və ya psixotrop maddələrdən* sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxslər üzərində himayəçilik təyin edilir. (22)

33.7. Himayəçilər himayəçilikdə olan fiziki şəxslərin müstəqil surətdə bağlamağa ixtiyarı çatmadığı əqdlərin bağlanmasına razılıq verirlər. Himayəçilər himayədə olanlara öz hüquqlarını həyata keçirməkdə və vəzifələrini icra etməkdə kömək göstərir, habelə onları üçüncü şəxslərin sui-istifadəsindən qoruyurlar.

Maddə 34. Qəyyumluq və himayəçilik orqanları

34.1. Qəyyumluq və himayəçilik orqanları qanunvericiliklə müəyyənləşdirilir.

34.2. Fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan sayılması və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması barədə qərarın qanuni qüvvəyə mindiyi gündən etibarən üç gün ərzində məhkəmə həmin fiziki şəxs üzərində qəyyumluq və himayəçilik təyin edilməsi üçün onun yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanına bu barədə məlumat verməlidir.

34.3. Qəyyumluqda olanların yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı onların qəyyumlarının və himayəçilərinin fəaliyyətinə nəzarət edir.

Maddə 35. Qəyyumlar və himayəçilər

35.1. Qəyyumu və ya himayəçini qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsin yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı fiziki şəxs üzərində qəyyumluq və ya

himayəçilik qoyulması zərurətinin ona məlum olduğu andan üç ay ərzində təyin edir. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsə qəyyum və ya himayəçi təyin edilənədək qəyyum və ya himayəçi vəzifələrini qəyyumluq və himayəçilik orqanı icra edir. Qəyyumun və ya himayəçinin təyin edilməsi barədə maraqlı şəxslər məhkəməyə etiraz verə bilərlər.

35.2. Qəyyumlar və himayəçilər yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxslərdən təyin edilir. Valideynlik hüquqlarından məhrum edilmiş fiziki şəxslər qəyyum və himayəçi təyin oluna bilməzlər.

35.3. Qəyyum və ya himayəçi öz razılığı ilə təyin edilir. Bu zaman onun əxlaqi və digər şəxsi keyfiyyətləri, qəyyumluq və ya himayəçilik vəzifələrini yerinə yetirmək qabiliyyəti, onunla qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxs arasında mövcud münasibətlər, mümkünsə, həm də qəyyumluqda və ya himayədə olanın arzusu nəzərə alınmalıdır.

35.4. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan və müvafiq tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və ya digər oxşar müəssisələrdə olan və ya bu müəssisələrə yerləşdirilmiş fiziki şəxslərin qəyyumları və himayəçiləri həmin müəssisələrdir.

35.5. Qəyyumluq və himayəçilik vəzifələri, qanunla nəzərdə tutulan hallardan başqa, əvəzsiz icra edilir.

35.6. Yetkinlik yaşına çatmayan fiziki şəxslərin qəyyumları və himayəçiləri öz qəyyumluğunda və ya himayəsində olanlarla birlikdə yaşamalıdırlar. Himayəçi ilə on altı yaşına çatmış himayədə olanın ayrılıqda yaşamasına qəyyumluq və himayəçilik orqanının razılığı ilə bu şərtlə yol verilir ki, ayrı yaşama himayədə olanın tərbiyəsinə, hüquq və mənafelərinin müdafiəsinə mənfi təsir göstərməsin. Qəyyumlar və himayəçilər yaşayış yerinin dəyişməsi barədə qəyyumluq və himayəçilik orqanlarına məlumat verməyə borcludurlar.

35.7. Qəyyumlar və himayəçilər öz qəyyumluğunda və ya himayəsində olanların saxlanması, onlara baxılmasının və onların müalicəsinin təmin edilməsi, onların təhsil alması və tərbiyələnməsi qayğısına qalmağa, onların hüquq və mənafelərini qorumağa borcludurlar.

35.8. Bu Məcəllənin 35.7-ci maddəsində göstərilən vəzifələr məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış yetkinlik yaşına çatmış fiziki şəxslərin himayəçilərinə həvalə edilmir.

35.9. Fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli sayılmasına səbəb olmuş əsaslar aradan qalxdıqda qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın fəaliyyət qabiliyyətli sayılması və onun üzərindən qəyyumluğun və ya himayəçiliyin götürülməsi barədə məhkəmə qarşısında vəsatət qaldırmağa borcludur.

Maddə 36. Qəyyumluqda və himayədə olanın əmlakı barəsində sərəncam verilməsi

36.1. Qəyyumluqda və ya himayədə olan fiziki şəxsin müstəqil surətdə sərəncam verməyə ixtiyarı çatdığı gəlirlər istisna olmaqla, onun gəlirləri, o cümlədən qəyyumluqda və ya himayədə olana onun əmlakının idarə edilməsindən çatası gəlirlər qəyyum və ya himayəçi tərəfindən yalnız və yalnız qəyyumluqda və ya himayədə olanın mənafeləri üçün, həm də qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi alınmaqla

xərclənir. Qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi olmadan qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın saxlanması üçün zəruri xərcləri qəyyumluqda və ya himayədə olana onun gəliri kimi çatası məbləğlər hesabına ödəyə bilər.

36.2. Qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almadan qəyyum qəyyumluqda və ya himayədə olanın əmlakının özgəninkiləşdirilməsinə, o cümlədən dəyişdirilməsinə və ya bağışlanmasına, bu əmlakın icarəyə, əvəzsiz istifadəyə verilməsinə və ya girov qoyulmasına dair əqdləri, qəyyumluqda və ya himayədə olana mənsub hüquqlardan imtinaya, onun əmlakının bölüşdürülməsinə və ya bu əmlakdan payların ayrılmasına səbəb olan əqdləri, habelə qəyyumluqda və ya himayədə olanın əmlakının azalmasına səbəb olan hər hansı digər əqdləri bağlaya bilməz, himayəçi isə onların bağlanmasına razılıq verə bilməz. Qəyyumluqda olanın əmlakının idarə edilməsi qaydası qanunvericiliklə müəyyənləşdirilir.

36.3. Qəyyumun, himayəçinin, onların ərinin (arvadının) və yaxın qohumlarının ixtiyarı yoxdur ki, qəyyumluqda və ya himayədə olana hədiyyə kimi əmlak verilməsi və ya onun əvəzsiz istifadəsinə əmlak verilməsi istisna olmaqla, qəyyumluqda və ya himayədə olanla əqdlər bağlasın, habelə əqdlər bağlanarkən və ya qəyyumluqda və ya himayədə olanla qəyyumun və ya himayəçinin əri (arvadı) və onların yaxın qohumları arasında məhkəmə işləri aparılarkən qəyyumluqda və ya himayədə olanı təmsil etsinlər.

Maddə 37. Qəyyumluqda və ya himayədə olanın əmlakının etibarnamə ilə idarə edilməsi

37.1. Qəyyumluqda və ya himayədə olanın daşınar və qiymətli daşınmaz əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda qəyyumluq və himayəçilik orqanı özünün müəyyənləşdirdiyi idarəçi ilə həmin əmlakın etibarnamə ilə idarə edilməsinə dair müqavilə bağlayır. Bu halda qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın etibarnamə ilə idarəetməyə verilməmiş əmlakı barəsində öz səlahiyyətlərini saxlayır. Qəyyumluqda və ya himayədə olanın əmlakının etibarnamə ilə idarə edilməsi səlahiyyətlərini həyata keçirərkən idarəçiyə bu Məcəllənin 36.2 və 36.3-cü maddələrində nəzərdə tutulan qaydalar tətbiq edilir.

37.2. Qəyyumluqda və ya himayədə olanın əmlakının etibarnamə ilə idarə edilməsinə əmlakın etibarnamə ilə idarə edilməsinə dair müqaviləyə xitam verilməsi üçün qanunvericilikdə nəzərdə tutulan əsaslar üzrə, habelə qəyyumluğa və ya himayəçiliyə xitam verildiyi hallarda xitam verilir.

Maddə 38. Qəyyumların və himayəçilərin öz vəzifələrinin icrasından azad və kənar edilməsi. Qəyyumluğa və himayəçiliyə xitam verilməsi

38.1. Yetkinlik yaşına çatmayan şəxs valideynlərinə qaytarıldıqda və ya övladlığa götürüldükdə qəyyumluq və himayəçilik orqanı qəyyumu və ya himayəçini öz vəzifələrinin icrasından azad edir.

38.2. Qəyyumluqda olan müvafiq tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisəsinə və ya digər oxşar müəssisəyə yerləşdirildikdə qəyyumluq və himayəçilik orqanı bundan əvvəl təyin edilmiş qəyyumu və ya himayəçini, əgər bu, qəyyumluqda olanın mənafelərinə zidd deyilsə, öz vəzifələrinin icrasından azad edir.

38.3. Üzrlü səbəblər olduqda (xəstəlik, əmlak vəziyyətinin dəyişməsi, qəyyumluqda olanla qarşılıqlı anlaşmanın yoxluğu və i.a.) qəyyum və ya himayəçi öz xahişi ilə vəzifələrinin icrasından azad edilə bilər.

38.4. Qəyyum və ya himayəçi onun üzərinə düşən vəzifələri gərəyincə yerinə yetirmədikdə, o cümlədən qəyyumluqdan və ya himayəçilikdən tamah məqsədi ilə istifadə etdikdə və ya qəyyumluqda olanı nəzarətsiz və lazımi köməksiz qoyduqda qəyyumluq və himayəçilik orqanı qəyyumu və ya himayəçini bu vəzifələrin icrasından kənar edə bilər və təqsirli fiziki şəxsin qanunla müəyyənləşdirilmiş məsuliyyətə cəlb olunması üçün zəruri tədbirlər görə bilər.

38.5. Qəyyumun, himayəçinin və ya qəyyumluq və himayəçilik orqanının ərizəsinə əsasən məhkəmə qəyyumluqda olanın fəaliyyət qabiliyyətli sayılması və ya onun fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasının ləğv edilməsi haqqında qərar çıxardıqda yetkinlik yaşına çatmış fiziki şəxs üzərində qəyyumluğa və himayəçiliyə xitam verilir.

38.6. Qəyyumluqda olan azyaşlı on dörd yaşına çatdıqda onun üzərində qəyyumluğa xitam verilir, qəyyum vəzifələrini həyata keçirmiş fiziki şəxs isə bu barədə əlavə qərar çıxarılmadan yetkinlik yaşına çatmayanın himayəçisinə çevrilir.

38.7. Qəyyumluqda olan yetkinlik yaşına çatmayanın on səkkiz yaşına çatdığı, habelə nikaha girdiyi və yetkinlik yaşına çatanadək tam fəaliyyət qabiliyyəti əldə etdiyi digər hallarda yetkinlik yaşına çatmayan üzərində himayəçiliyə xüsusi qərarsız xitam verilir.

Maddə 39. Fəaliyyət qabiliyyətli fiziki şəxs üzərində patronaj

39.1. Sağlamlıq vəziyyətinə görə müstəqil surətdə öz hüquqlarını həyata keçirməyə və müdafiə etməyə, öz vəzifələrini icra etməyə qadir olmayan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsin xahişi ilə onun üzərində patronaj təyin edilə bilər. Patronaj təyin edilməsi fiziki şəxsin hüquqlarının məhdudlaşdırılmasına səbəb olmur.

39.2. Yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsin patronu (köməkçisi) həmin fiziki şəxsin razılığı ilə qəyyumluq və himayəçilik orqanı tərəfindən təyin edilir.

39.3. Patron (köməkçi) fiziki şəxslə bağlanmış tapşırıq və ya etibarnamə ilə idarəetmə müqaviləsinə əsasən yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsə mənsub əmlak barəsində sərəncam verir. Məişət tələbatının saxlanmasına və ödənilməsinə yönəldilən məişət əqdlərini və başqa əqdləri patron (köməkçi) fiziki şəxsin razılığı ilə bağlayır.

39.4. Bu Məcəllənin 39.1-ci maddəsinə uyğun olaraq yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxs üzərində təyin edilmiş patronaja patronajda olan fiziki şəxsin tələbi ilə xitam verilir. Patronajda olan fiziki şəxsin patronu (köməkçisi) bu Məcəllənin 38-ci maddəsində nəzərdə tutulan hallarda öz vəzifələrini yerinə yetirməkdən azad edilir.

Maddə 40. Fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi

40.1. Əgər fiziki şəxsin olduğu yer məlum deyildirsə və iki il ərzində o, yaşayış yerində görünməmişsə, maraqlı şəxslərin ərizəsinə əsasən məhkəmə fiziki şəxsi xəbərsiz itkin düşmüş hesab edə bilər.

40.2. İtkin düşmə haqqında son məlumatların alındığı günü müəyyənləşdirmək mümkün olmadıqda, xəbərsiz itkin düşmüş sayılma üçün müddətin hesablanması itkin düşmüş haqqında son məlumatların alındığı aydan sonrakı ayın birinci günündən, həmin ayı müəyyənləşdirmək mümkün olmadıqda isə növbəti ilin yanvar ayının 1-dən başlanır.

40.3. Xəbərsiz itkin düşmə haqqında məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra həmin şəxsin qanuni vərəsələri xəbərsiz itkin düşmüşün əmlakını etibar olunmuş əmlak kimi idarə etmək, o cümlədən ondan fayda götürmək ixtiyarı əldə edirlər. Bu əmlakdan xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verilir və borclar ödənilir.

40.4. Xəbərsiz itkin düşmüş fiziki şəxsin qanuni əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda, əgər onun qanuni vərəsələri yoxdursa, məhkəmənin qərarı ilə bu əmlak qəyyumluq və himayəçilik orqanı tərəfindən müəyyənləşdirilən və həmin orqanla bağlanan etibarnamə ilə idarəetmə müqaviləsi əsasında fəaliyyət göstərən şəxsə verilir. Xəbərsiz itkin düşmüş şəxsin əmlakının idarəçisi itkin düşmüş şəxsin əmlakı hesabına onun borclarını ödəyir, əmlakı həmin şəxsin xeyrinə idarə edir, xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verir. Əgər idarəçinin təyin edildiyi gündən üç il keçənədək şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında məhkəmə qərarı ləğv edilməzsə və şəxsin ölmüş sayılması haqqında məhkəməyə müraciət edilməzsə, qəyyumluq və himayəçilik orqanı fiziki şəxsin ölmüş sayılması haqqında ərizə ilə məhkəməyə müraciət etməyə borcludur.

40.5. Xəbərsiz itkin düşmüş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə məhkəmə onun xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında qərarı, habelə onun əmlakının idarə olunması haqqında qərarı ləğv edir.

Maddə 41. Fiziki şəxsin ölmüş elan edilməsi

41.1. Əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşərsə və ondan altı ay ərzində xəbər çıxmazsa, o, məhkəmə qaydasında ölmüş elan edilə bilər.

41.2. Hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçu və ya digər şəxs hərbi əməliyyatların qurtardığı gündən azı iki il keçdikdən sonra məhkəmə qaydasında ölmüş elan edilə bilər.

41.3. Şəxsin ölmüş elan edilməsi haqqında məhkəmə qərarının qanuni qüvvəyə mindiyi gün onun ölüm günü sayılır.

41.4. Bu Məcəllənin 41.1 və 41.2-ci maddələrində nəzərdə tutulan hallarda məhkəmə şəxsin həlakının güman edildiyi günü onun ölüm günü saya bilər.

Maddə 42. Ölmüş elan edilmiş şəxsin gəlməsinin nəticələri

42.1. Ölmüş elan edilmiş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə məhkəmə onun ölmüş elan edilməsi barədə qərarı ləğv edir.

42.2. Nə vaxt gəlməsindən asılı olmayaraq, şəxs onun ölmüş elan edilməsindən sonra əvəzsiz olaraq başqa şəxsə verilmiş əmlakın qalan hissəsinin qaytarılmasını tələb edə bilər.

42.3. Ölmüş elan edilmiş şəxsin əmlakını əvəzli əldə etmiş şəxs bu əmlakı ona qaytarmağa o halda borcludur ki, əmlakı əldə edərkən onun ölmüş elan edilmiş şəxsin sağ olduğunu bildiyi sübuta yetirilsin.

42.4. Əgər ölmüş elan edilmiş şəxsin əmlakı dövlətin mədaxilinə keçirilmiş və satılmışdırsa, həmin şəxsin ölmüş elan edilməsi haqqında qərarın ləğvindən sonra əmlakın satışından götürülmüş məbləğ ona qaytarılır.

4-cü fəsil. Hüquqi şəxslər

§ 1. Əsas müddəalar

Maddə 43. Hüquqi şəxs anlayışı və onun növləri

43.1. Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır.

43.2. Hüquqi şəxslər bir fiziki və ya hüquqi şəxs tərəfindən, yaxud fiziki və hüquqi şəxslərin toplusu tərəfindən yaradıla bilər, üzvlüyə əsaslana bilər, üzvlərin olmasından asılı ola və ya asılı olmaya bilər, sahibkarlıq fəaliyyəti ilə məşğul ola və ya məşğul olmaya bilər.

43.3. Azərbaycan Respublikası mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edir. Bu hallarda Azərbaycan Respublikasının səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

43.4. Bələdiyyələr mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edirlər. Bu hallarda bələdiyyənin səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

43.5. Hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri) qurumlar ola bilər.

43.6. Qeyri-kommersiya qurumları olan hüquqi şəxslər ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları formasında, habelə qanunvericilikdə nəzərdə tutulan digər formalarda yaradıla bilər. Qeyri-kommersiya hüquqi şəxsləri sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün qeyri-kommersiya hüquqi şəxsləri təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilərlər.

Maddə 44. Hüquqi şəxsin hüquq qabiliyyəti

44.1. Hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Hüquqi şəxsin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

44.2. Kommersiya hüquqi şəxsləri qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik ola və mülki vəzifələr daşıya bilərlər. Siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər.

44.3. Hüquqi şəxsin hüquqları yalnız qanunla nəzərdə tutulan hallarda və qaydada məhdudlaşdırıla bilər. Hüquqi şəxs öz hüquqlarının məhdudlaşdırılması haqqında qərardan məhkəməyə etiraz verə bilər.

44.4. Hüquqi şəxsin xüsusi icazə (lisenziya) alınması zəruri olan fəaliyyəti həyata keçirmək hüququ belə lisenziyanın alındığı andan və ya lisenziyada göstərilən vaxtda əmələ gəlir və bu hüquqa, əgər qanunvericiliklə ayrı qayda müəyyənləşdirilməyibsə, lisenziyanın müddəti qurtardıqda xitam verilir.

Maddə 45. Hüquqi şəxsin yaradılması

45.1. Hüquqi şəxs onun təsis edilməsi və nizamnaməsinin hazırlanması yolu ilə yaradılır.

45.2. Əgər hüquqi şəxs bir neçə təsisçi tərəfindən yaradılırsa, təsisçilər müqavilə bağlayaraq hüquqi şəxsin nizamnaməsini, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini müəyyənləşdirirlər.

Maddə 46. Hüquqi şəxsin təsisçilərinin məsuliyyəti

Hüquqi şəxsin təsisçiləri hüquqi şəxsin dövlət qeydiyyatına alınmasına qədər əmələ gəlmiş, hüquqi şəxsin yaradılması ilə bağlı olan öhdəliklər üzrə birgə məsuliyyət daşıyırlar.

Maddə 47. Hüquqi şəxsin nizamnaməsi

47.1. Hüquqi şəxsin təsisçiləri tərəfindən təsdiq edilmiş nizamnaməsi hüquqi şəxsin təsis sənədidir. Bir təsisçinin yaratdığı hüquqi şəxs həmin təsisçinin təsdiq etdiyi nizamnamə əsasında fəaliyyət göstərir.

47.2. Hüquqi şəxsin nizamnaməsində hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydası müəyyənləşdirilir. Qeyri-kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyətinin predmeti və məqsədləri müəyyənləşdirilir. *Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.*

47.3. Nizamnamədə dəyişikliklər dövlət qeydiyyatına alındığı andan üçüncü şəxslər üçün hüquqi qüvvəyə minir. Lakin hüquqi şəxslər və onların təsisçiləri (iştirakçıları) həmin dəyişiklikləri nəzərə almaqla hərəkət etmiş üçüncü şəxslərlə münasibətlərdə həmin dəyişikliklərin qeydə alınmadığına istinad edə bilməzlər. (38)

Maddə 48. Hüquqi şəxslərin dövlət qeydiyyatı

48.1. Hüquqi şəxs müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmalıdır. Dövlət qeydiyyatının məlumatları, o cümlədən kommersiya təşkilatları üçün firma adı ümumi tanışlıq üçün açıq olan hüquqi şəxslərin dövlət reyestrinə daxil edilir.

48.2. *Hüquqi şəxsin dövlət qeydiyyatına alınmasından imtina edilməsinə «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda yol verilir.* ~~Hüquqi şəxsin yaradılmasının məqsədəuyğun olmaması mülahizələrinə görə qeydiyyatdan imtinaya yol verilmir.~~ Dövlət qeydiyyatına almaqdan imtina edilməsindən, habelə qeydiyyatdan yayınmaqdan məhkəməyə şikayət verilə bilər.

48.3. Hüquqi şəxs yalnız qanunla müəyyənləşdirilmiş hallarda yenidən qeydə alınmalıdır. (10)

Maddə 49. Hüquqi şəxsin orqanları

49.1. Hüquqi şəxslər qanunvericiliyə və nizamnaməyə uyğun fəaliyyət göstərən öz orqanları vasitəsi ilə mülki hüquqlar əldə edir və öhdələrinə mülki vəzifələr götürürlər. Hüquqi şəxsin orqanlarının seçilməsi və ya təyin edilməsi qaydası nizamnamə ilə müəyyənləşdirilir.

49.2. Hüquqi şəxs öz iştirakçıları, habelə təmsilçiləri vasitəsi ilə mülki hüquqlar əldə edə bilər və öhdəsinə mülki vəzifələr götürə bilər.

49.3. Hüquqi şəxs adından çıxış edən şəxs, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxs təmsil etdiyi hüquqi şəxsin mənafeləri üçün vəzifələrini yerinə yetirərkən vicdanla, peşəkar qaydada və məntiqlə hərəkət etmək, hüquqi şəxsin və onun bütün iştirakçılarının maraqlarına sadiq olmaq və hüquqi şəxsin maraqlarını öz maraqlarından üstün tutmaq və ehtiyatlı olmağa borcludur. Həmin şəxs, bu vəzifələrin hüquqi şəxsin maraqlarına uyğun olaraq yerinə yetirilməsi üçün məsuliyyət daşıyır. Hüquqi şəxsin iştirakçılarının tələbi ilə o, vəzifələrini pozduğu halda, pozuntu nəticəsində hüquqi şəxsə dəymiş zərərin əvəzini ödəməlidir. (29)

Maddə 50. Hüquqi şəxsin adı

50.1. Hüquqi şəxsin öz təşkilati-hüquqi formasını göstərən adı olur. Qeyri-kommersiya təşkilatının adında hüquqi şəxsin fəaliyyətinin xarakteri göstərilməlidir.

50.1-1. Qeyri-hökumət təşkilatlarının adında Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadə edilə bilməz.

50.2. Kommersiya təşkilatı olan hüquqi şəxsin firma adı olmalıdır. Firma adı qanunla müəyyənləşdirilmiş qaydada qeydə alınmış hüquqi şəxsin həmin addan istifadəyə müstəsna hüququ vardır. Firma adlarının qeydiyyatı və işlədilməsi qaydası qanunvericiliklə müəyyənləşdirilir.

50.3. Başqa hüquqi şəxsin firma adı ilə hüquqlar və vəzifələr əldə etməyə yol verilmir. Özgəsinin qeydə alınmış firma adından haqsız istifadə edən şəxs firma adına hüququ olanın tələbi ilə ondan istifadəyə son qoymalı və vurduğu zərərin əvəzini ödəməlidir. (38)

Maddə 51. Hüquqi şəxsin olduğu yer

Hüquqi şəxsin daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yer hüquqi şəxsin olduğu yer sayılır.

Maddə 52. Hüquqi şəxsin məsuliyyəti

52.1. Hüquqi şəxs öz öhdəlikləri üçün ona mənsub bütün əmlakla cavabdehdir.

52.2. Bu Məcəllədə və ya hüquqi şəxsin nizamnaməsində nəzərdə tutulan hallar istisna olmaqla, hüquqi şəxsin təsisçisi (iştirakçısı) hüquqi şəxsin öhdəlikləri üçün, hüquqi şəxs isə təsisçinin (iştirakçının) öhdəlikləri üçün cavabdeh deyildir.

Maddə 53. Nümayəndəliklər və filiallar

53.1. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsi nümayəndəlik sayılır.

53.2. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölməsi filial sayılır.

53.3. Nümayəndəliklər və filiallar hüquqi şəxs deyildirlər və hüquqi şəxsin təsdiq etdiyi əsasnamələr üzrə fəaliyyət göstərirlər. Nümayəndəliklərin və filialların rəhbərləri hüquqi şəxs tərəfindən təyin edilir və onun etibarnaməsi əsasında fəaliyyət göstərirlər. *Təsisçilərinin əcnəbilər və ya xarici hüquqi səxslər olduğu qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdır.* (38)

Maddə 54. İdarə

54.1. Hüquqi şəxsin idarəetmə, sosial-mədəni və ya digər qeyri-kommersiya xarakterli funksiyaların həyata keçirilməsi üçün yaratdığı təşkilat idarə sayılır.

54.2. İdarə hüquqi şəxs deyildir və hüquqi şəxsin təsdiq etdiyi əsasnamə üzrə fəaliyyət göstərir.

54.3. İdarə ona təhkim edilmiş əmlak barəsində qanunla müəyyənləşdirilmiş hədlərdə, öz fəaliyyətinin məqsədlərinə, hüquqi şəxsin tapşırıqlarına və əmlakın təyinatına uyğun sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir.

54.4. İdarənin öhdəlikləri üçün məsuliyyət idarəni yaratmış hüquqi şəxsin üzərinə düşür.

54.5. Dövlət idarələrinin və digər idarələrin ayrı-ayrı növlərinin hüquqi vəziyyətinin xüsusiyyətləri qanunvericiliklə müəyyənləşdirilir.

Maddə 55. Hüquqi şəxsin yenidən təşkili

55.1. Hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilə bilər.

55.2. Qanunla müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin bölünməsi və ya tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması şəklində yenidən təşkili məhkəmənin qərarı ilə həyata keçirilir.

55.3. Məhkəmə hüquqi şəxsin kənar idarəçisini təyin edir və ona hüquqi şəxsi yenidən təşkil etməyi tapşırır. Kənar idarəçinin təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Kənar idarəçi məhkəmədə hüquqi şəxsin adından çıxış edir, bölünmə balansını tərtib edib baxılmaq üçün onu yenidən təşkil nəticəsində yaranan hüquqi şəxslərin nizamnamələri ilə birlikdə məhkəməyə verir. *Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı, qanunvericiliyin tələblərinə riayət edilməklə* yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün əsasdır.

55.4. Qoşulma şəklində yenidən təşkil halı istisna olmaqla, hüquqi şəxs yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alındığı andan yenidən təşkil edilmiş sayılır.

55.5. Hüquqi şəxs başqa hüquqi şəxsin ona qoşulması şəklində yenidən təşkil edilərkən qoşulan hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan birinci hüquqi şəxs yenidən təşkil edilmiş sayılır. (10)

Maddə 56. Hüquqi şəxslər yenidən təşkil edilərkən hüquq varisliyi

56.1. Hüquqi şəxslər birləşdikdə onlardan hər birinin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir.

56.2. Hüquqi şəxs digər hüquqi şəxsə qoşulduqda qoşulan hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq əvvəlki hüquqi şəxsə keçir.

56.3. Hüquqi şəxs bölündükdə onun hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranmış hüquqi şəxslərə keçir.

56.4. Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs ayrıldıqda yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq onların hər birinə keçir.

56.5. Bir növdən olan hüquqi şəxs digər növdən olan hüquqi şəxsə çevrildikdə (təşkilati-hüquqi formanın dəyişməsi) yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir.

Maddə 57. Təhvil aktı və bölünmə balansı

57.1. Təhvil aktında və bölünmə balansında yenidən təşkil edilmiş hüquqi şəxsin bütün kreditorları və borcluları barəsində öhdəliklərinin hamısı, o cümlədən tərəflərin mübahisə etdikləri öhdəliklər üzrə hüquqi varislik haqqında müddəalar olmalıdır.

57.2. Təhvil aktı və bölünmə balansı hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş onun təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı tərəfindən təsdiq edilir və nizamnamələrlə birlikdə yeni yaranmış hüquqi şəxslərin dövlət qeydiyyatına alınması və ya mövcud hüquqi şəxslərin nizamnamələrində dəyişikliklər edilməsi üçün təqdim olunur.

57.3. Nizamnamələrlə birlikdə təhvil aktının və bölünmə balansının təqdim edilməməsi, habelə onlarda yenidən təşkil edilmiş hüquqi şəxsin öhdəlikləri üzrə hüquq varisliyi haqqında müddəaların olmaması yeni yaranmış hüquqi şəxsləri dövlət qeydiyyatına almaqdan imtina edilməsinə səbəb olur.

Maddə 58. Hüquqi şəxs yenidən təşkil edilərkən onun kreditorlarının hüquqları üçün təminatlar

58.1. Hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı, bu Məcəllənin 55.3-cü maddəsində nəzərdə tutulan hallarda isə kənar idarəçi hüquqi şəxsin yenidən təşkili barəsində onun kreditorlarına yazılı bildiriş göndərməyə borcludurlar.

58.2. Yenidən təşkil edilən hüquqi şəxsin kreditorunun ixtiyarı var ki, yenidən təşkil edilən hüquqi şəxsin borclu olduğu öhdəliklərə xitam verilməsini və ya onların vaxtından əvvəl icra olunmasını və zərərin əvəzinin ödənilməsini tələb etsin.

58.3. Əgər bölünmə balansı yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisini müəyyənləşdirməyə imkan vermirsə, yeni yaranmış hüquqi şəxslər yenidən təşkil edilmiş hüquqi şəxsin öhdəlikləri üçün onun kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar.

Maddə 59. Hüquqi şəxsin ləğvi

59.1. Hüquqi şəxsin ləğvi onun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi deməkdir.

59.2. Hüquqi şəxs aşağıdakı hallarda ləğv edilə bilər:

59.2.1. onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə, o cümlədən hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ilə əlaqədar olaraq;

59.2.2. hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayıldığı halda;

59.2.3. lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirildikdə və ya qanunvericilik digər şəkildə dəfələrlə və ya kobudcasına pozulduqda və ya ictimai birlik və ya fond onun nizamnamə məqsədlərinə zidd fəaliyyətlə müntəzəm məşğul olduqda, habelə bu Məcəllədə nəzərdə tutulan başqa hallarda məhkəmənin qərarı ilə.

59.3. Bu Məcəllənin 59.2-ci maddəsində göstərilən əsaslar üzrə hüquqi şəxsin ləğv edilməsi tələbini məhkəməyə qanunla bu cür tələb irəli sürmək hüququ verilmiş dövlət orqanı və ya yerli özünüidarə orqanı irəli sürə bilər. Hüquqi şəxsin ləğv edilməsi haqqında məhkəmənin qərarı ilə onun təsisçilərinə (iştirakçılarına) və ya hüquqi şəxsin nizamnaməsi ilə onun ləğvi üçün vəkil edilmiş orqana hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə edilə bilər.

59.4. Hüquqi şəxs müflis olma nəticəsində də ləğv edilir.

59.5. Əgər ləğv edilən hüquqi şəxsin əmlakının dəyəri kreditorların tələblərinin ödənilməsi üçün yetərli deyildirsə, o yalnız müflis olma nəticəsində ləğv edilə bilər.

Maddə 60. Hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş şəxsin vəzifələri

60.1. Hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı bu barədə hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən orqana ləngimədən məlumat verməyə borcludurlar. Həmin orqan isə hüquqi şəxsin ləğv prosesində olduğu barədə məlumatları hüquqi şəxslərin dövlət reyestrinə daxil edir.

60.2. Hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı ləğvetmə komissiyasını (təsviyəçini) təyin edir və bu Məcəlləyə uyğun olaraq ləğvetmə qaydasını və müddətlərini müəyyənləşdirirlər.

60.3. Ləğvetmə komissiyasının təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Ləğvetmə komissiyası ləğv edilən hüquqi şəxsin adından məhkəmədə çıxış edir.

Maddə 61. Hüquqi şəxsin ləğvi qaydası

61.1. Ləğvetmə komissiyası hüquqi şəxsin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbuat orqanlarında onun ləğv edilməsi və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında məlumat dərc etdirir. Bu müddət ləğvetmə haqqında məlumatın dərc edildiyi gündən etibarən iki aydan az ola bilməz. Ləğvetmə komissiyası kreditorları aşkar etmək və debitor borcunu almaq üçün tədbirlər görür, habelə hüquqi şəxsin ləğvi haqqında kreditorlara bildiriş göndərir.

61.2. Kreditorların tələblərinin irəli sürülməsi müddəti qurtardıqdan sonra ləğvetmə komissiyası aralıq ləğvetmə balansı tərtib edir. Balansa ləğv edilən hüquqi şəxsin əmlakının tərkibi, kreditorların irəli sürdükləri tələblərin siyahısı, habelə bu tələblərə baxılması nəticələri haqqında məlumatlar daxil edilir. Aralıq ləğvetmə balansını hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı təsdiq edir.

61.3. Əgər ləğv edilən hüquqi şəxsdə olan pul vəsaiti kreditorların tələblərini ödəmək üçün yetərli deyildirsə, ləğvetmə komissiyası hüquqi şəxsin əmlakını açıq hərracda satır.

61.4. Ləğv edilən hüquqi şəxsin kreditorlarına pul vəsaitini ləğvetmə komissiyası bu Məcəllənin 62-ci maddəsində müəyyənləşdirilmiş növbəlik qaydasında, aralıq ləğvetmə balansına uyğun olaraq, onun təsdiq edildiyi gündən başlayaraq ödəyir.

61.5. Kreditorlar ilə hesablaşmalar başa çatdıqdan sonra ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. Həmin balansı hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı təsdiq edir. Ləğvetmə komissiyası təsdiq olunmuş ləğvetmə balansını hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına göndərir.

61.6. Kreditorların tələbləri ödənildikdən sonra hüquqi şəxsin qalan əmlakı, əgər hüquqi şəxsin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, onun təsisçilərinə (iştirakçılarına) verilir.

61.7. Hüquqi şəxsin ləğvi bu barədə qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan başa çatmış, hüquqi şəxs isə mövcudluğuna son qoymuş sayılır.

Maddə 62. Kreditorların tələblərinin ödənilməsi

62.1. Hüquqi şəxs ləğv edilərkən onun kreditorlarının tələbləri aşağıdakı növbə ilə ödənilir:

62.1.1. birinci növbədə ləğv edilən hüquqi şəxsin əmlakının girov qoyulması ilə təmin edilmiş öhdəliklər üzrə kreditorların tələbləri ödənilir;

62.1.2. ikinci növbədə müvafiq vədəli ödənişlərin kapitallaşdırılması yolu ilə o fiziki şəxslərin tələbləri ödənilir ki, ləğv edilən hüquqi şəxs onların qarşısında həyata və ya sağlamlığa zərər vurulması üçün məsuliyyət daşıyır;

62.1.3. üçüncü növbədə işdənçıxma müavinətlərinin verilməsi və əmək müqaviləsi üzrə işləyən şəxslərin əməyinin ödənilməsi üzrə, müəlliflik müqavilələrinə əsasən haqların ödənilməsi üzrə hesablaşmalar aparılır;

62.1.4. dördüncü növbədə büdcəyə məcburi ödənişlər *və büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları* üzrə borc ödənilir;

62.1.5. beşinci növbədə qalan kreditorlar ilə hesablaşmalar aparılır.

62.2. Hər növbənin tələbləri əvvəlki növbənin tələbləri tam ödənildikdən sonra ödənilir.

62.3. Ləğvetmə komissiyası kreditorun tələblərini ödəməkdən imtina etdikdə və ya onlara baxmaqdan boyun qaçırdıqda kreditorun ixtiyarı var ki, hüquqi şəxsin ləğvetmə balansı təsdiq edilənədək ləğvetmə komissiyasına qarşı iddia ilə məhkəməyə müraciət etsin.

62.4. Ləğvetmə komissiyasının tələblər irəli sürülməsi üçün müəyyənləşdirdiyi müddət qurtardıqdan sonra kreditorun bildirdiyi tələblər kreditorların vaxtında bildirdikləri tələblər ödənildikdən sonra ləğv edilən hüquqi şəxsin qalan əmlakından ödənilir.

62.5. Ləğv edilən hüquqi şəxsin kreditorlarının ləğvetmə komissiyası tərəfindən qəbul edilməmiş tələbləri kreditorun iddia ilə məhkəməyə müraciət etmədiyi hallarda, habelə məhkəmə qərarı ilə kreditora ödənilməsindən imtina edilmiş tələbləri ödənilmiş sayılır. (16)

Maddə 63. Hüquqi şəxsin müflis olması

63.1. Əgər hüquqi şəxs kreditorların tələblərini ödəməyə qadir deyildirsə, o, məhkəmənin qərarı ilə müflis sayıla bilər.

63.2. Hüquqi şəxsin məhkəmə tərəfindən müflis sayılması əsasları və qaydası Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə müəyyənləşdirilir.

§ 2. Kommersiya təşkilatları

Maddə 64. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri

64.1. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri təsisçilərinin (iştirakçılarının) paylarına bölünmüş nizamnamə (şərikli) kapitalı olan kommersiya təşkilatlarıdır. Təsisçilərin (iştirakçıların) maya qoyuluşları hesabına yaranmış əmlak, habelə təsərrüfat ortaqlığının və ya cəmiyyətinin öz fəaliyyəti prosesində istehsal və əldə etdiyi əmlak mülkiyyət hüququ ilə ona mənsubdur. Bu Məcəllədə nəzərdə tutulan hallarda təsərrüfat ortaqlığını bir şəxs yarada bilər.

64.2. Təsərrüfat ortaqlıqları tam ortaqlıq və ya kommandit ortaqlığı formasında yaradıla bilər.

64.3. Təsərrüfat cəmiyyətləri məhdud və ya əlavə məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradıla bilər.

64.4. Yalnız fərdi sahibkarlar və (və ya) kommersiya təşkilatları tam ortaqlıqların iştirakçıları və kommandit ortaqlıqlarında tam ortaqlar ola bilərlər.

64.5. Təsərrüfat cəmiyyətlərinin iştirakçıları və kommandit ortaqlıqlarının maya qoyanları fiziki və hüquqi şəxslər ola bilərlər.

64.6. Dövlət orqanları və yerli özünüidarə orqanları təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilməzlər.

64.7. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, başqa təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin təsisçiləri (iştirakçıları) ola bilərlər.

64.8. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

64.9. Təsərrüfat cəmiyyəti iştirakçısının mayasının pulla qiymətləndirilməsi cəmiyyətin təsisçiləri (iştirakçıları) arasında razılaşmaya əsasən yerinə yetirilir və müstəqil ekspert yoxlamasından (auditdən) keçirilməlidir.

Maddə 65. Təsərrüfat ortaqlığı və ya cəmiyyəti iştirakçılarının hüquq və vəzifələri

65.1. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin iştirakçıları:

65.1.1. bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, ortaqlığın və ya cəmiyyətin işlərinin idarə olunmasında iştirak edə bilər;

65.1.2. nizamnamədə müəyyənləşdirilmiş qaydada ortaqlığın və ya cəmiyyətin fəaliyyətinə dair məlumat ala bilər və onun mühasibat kitabları və digər sənədləri ilə tanış ola bilər;

65.1.3. mənfəət bölgüsündə iştirak edə bilər;

65.1.4. ortaqlığın və ya cəmiyyətin ləğv edildiyi halda kreditorlar ilə hesablaşmalardan sonra əmlakdan qalan hissəni və ya onun dəyərini ala bilərlər.

65.2. Təsərrüfat ortaqlığı və ya cəmiyyəti iştirakçılarının bu Məcəllədə, ortaqlığın və ya cəmiyyətin nizamnaməsində nəzərdə tutulan başqa hüquqları da ola bilər.

65.3. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin iştirakçıları:

65.3.1. nizamnamədə nəzərdə tutulan qaydada, miqdarda, üsullarla və müddətlərdə maya qoymalıdırlar;

65.3.2. ortaqlığın və ya cəmiyyətin fəaliyyətinə dair məxfi məlumatı açıqlamamalıdırlar;

65.3.3. onun nizamnaməsində nəzərdə tutulan digər vəzifələri daşımalıdırlar.

Maddə 66. Təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin çevrilməsi

66.1. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri iştirakçıların ümumi yığıncağının qərarı ilə bu Məcəllədə müəyyənləşdirilmiş qaydada başqa növlü təsərrüfat ortaqlıqlarına və cəmiyyətlərinə çevrilə bilər.

66.2. Ortaqlıq cəmiyyətə çevrilərkən cəmiyyətin iştirakçısı (səhmdarı) olmuş hər bir tam ortaq ortaqlıqdan cəmiyyətə keçmiş öhdəliklər üzrə iki il ərzində özünün bütün əmlakı ilə subsidiar məsuliyyət daşıyır. Keçmiş ortağın ona mənsub payları (səhmləri) özgəninkiləşdirməsi onu bu cür məsuliyyətdən azad etmir.

Maddə 67. Törəmə təsərrüfat cəmiyyəti

67.1. Təsərrüfat cəmiyyəti o halda törəmə cəmiyyət sayılır ki, digər (əsas) təsərrüfat ortaqlığı və ya cəmiyyəti onun nizamnamə kapitalında üstün iştirakına görə və ya onlar arasında bağlanmış müqaviləyə müvafiq surətdə həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olur.

67.2. Törəmə cəmiyyət əsas ortaqlığın və ya cəmiyyətin borcları üçün cavabdeh deyildir.

67.3. Törəmə cəmiyyətə onun üçün məcburi göstərişlər vermək hüququ olan əsas ortaqlıq və ya cəmiyyət həmin göstərişlərin icrası üçün törəmə cəmiyyətin bağladığı əqdlər üzrə onunla birgə məsuliyyət daşıyır. Əsas ortaqlıq və ya cəmiyyət törəmə cəmiyyətə onun üçün məcburi göstərişlər vermək hüququna yalnız o halda malik sayılır ki, bu hüquq törəmə cəmiyyətlə müqavilədə nəzərdə tutulmuş olur.

67.4. Törəmə cəmiyyətin iştirakçıları (səhmdarları) əsas ortaqlıqdan və ya cəmiyyətdən onun təqsiri üzündən törəmə cəmiyyətə dəymiş zərərin əvəzini ödəməyi tələb edə bilərlər. Zərər yalnız əsas ortaqlığın və ya cəmiyyətin törəmə cəmiyyət üçün məcburi göstərişinin törəmə cəmiyyət tərəfindən icrası nəticəsində baş verdikdə əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən vurulmuş sayılır.

67.5. Törəmə cəmiyyət əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən müflis olduqda əsas ortaqlıq və ya cəmiyyət onun borcları üzrə subsidiar məsuliyyət daşıyır. Törəmə cəmiyyət yalnız əsas ortaqlığın və ya cəmiyyətin onun üçün məcburi göstərişini icra etməsi nəticəsində müflis olduqda əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən müflis olmuş sayılır.

Maddə 68. Asılı təsərrüfat cəmiyyəti

68.1. Təsərrüfat cəmiyyəti o halda asılı cəmiyyət sayılır ki, məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxu digər (üstün, iştirakçı) ortaqlığa və ya cəmiyyətə mənsub olur.

68.2. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxunu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxunu

əldə edən təsərrüfat ortaqlığı və ya cəmiyyəti bu barədə məlumatı ləngimədən dərc etdirməlidir.

Maddə 69. Tam ortaqlıq

69.1. Ortaqlıq o halda tam ortaqlıq sayılır ki, onun iştirakçıları (tam ortaqları) nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyırlar.

69.2. Şəxs yalnız bir tam ortaqlığın iştirakçısı ola bilər.

69.3. Tam ortaqlığın firma adına onun bütün iştirakçılarının adları və «tam ortaqlıq» sözləri daxil edilməli və ya «və ortaqları» və «tam ortaqlıq» sözləri əlavə edilməklə bir və ya bir neçə iştirakçının adı daxil edilməlidir.

Maddə 70. Tam ortaqlığın nizamnaməsi

Tam ortaqlığın nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilən məlumatlardan əlavə, ortaqlığın şərikli kapitalının miqdarı və tərkibi haqqında; hər bir iştirakçının şərikli kapitaldakı payının miqdarı və dəyişdirilməsi qaydası haqqında; onların mayalarının tərkibi və maya qoyması qaydası haqqında; maya qoyulması üzrə vəzifələrin pozulmasına görə iştirakçıların məsuliyyəti haqqında şərtlər göstərilməlidir.

Maddə 71. Tam ortaqlıqda idarəetmə

71.1. Tam ortaqlığın fəaliyyəti bütün iştirakçıların ümumi razılığı ilə idarə edilir. Tam ortaqlığın nizamnaməsində qərarın iştirakçıların səs çoxluğu ilə qəbul olunduğu hallar nəzərdə tutula bilər.

71.2. Əgər nizamnamədə tam ortaqlıq iştirakçılarının səslərinin sayını müəyyənləşdirməyin başqa qaydası nəzərdə tutulmayıbsa, tam ortaqlığın hər iştirakçısının bir səsi vardır.

71.3. Ortaqlığın hər bir iştirakçısı ortaqlığın işlərini aparmağa vəkil edilib-edilmədiyindən asılı olmayaraq işlərin aparılmasına dair bütün sənədlərlə tanış ola bilər. Bu hüquqdan imtina və ya onun məhdudlaşdırılması, o cümlədən ortaqlıq iştirakçılarının razılaşması üzrə imtina və ya məhdudlaşdırma əhəmiyyətsizdir.

Maddə 72. Tam ortaqlığın işlərinin aparılması

72.1. Əgər tam ortaqlığın nizamnaməsində onun bütün iştirakçılarının işləri birlikdə aparması və ya işlərin aparılmasının ayrı-ayrı iştirakçılara tapşırılması müəyyənləşdirilməyibsə, tam ortaqlığın hər bir iştirakçısı ortaqlıq adından fəaliyyət göstərə bilər.

72.2. Ortaqlığın iştirakçıları onun işlərini birlikdə apararkən hər bir əqdin bağlanması üçün ortaqlığın bütün iştirakçılarının razılığı tələb edilir.

72.3. Əgər ortaqlığın iştirakçıları onun işlərinin aparılmasını iştirakçıların birinə və ya bəzilərinə tapşırarlarsa, qalan iştirakçılar ortaqlıq adından əqdlər bağlamaq üçün ortaqlığın işlərinin aparılmasının tapşırıldığı iştirakçıdan (iştirakçılardan) etibarnamə almalıdırlar.

72.4. Üçüncü şəxslərlə münasibətlərdə ortaqlıq onun iştirakçılarının səlahiyyətlərini məhdudlaşdıran nizamnamə müddəalarına istinad edə bilməz, amma əqdin bağlandığı vaxt ortaqlıq iştirakçısının ortaqlıq adından fəaliyyət göstərmək hüququ olmadığını üçüncü şəxsin bildiyini və ya bilməli olduğunu ortaqlığın sübuta yetirdiyi hallar istisna təşkil edir.

72.5. Ortaqlığın işlərinin aparılması üzrə bir və ya bir neçə iştirakçıya verilmiş səlahiyyətlərə məhkəmə ciddi əsaslar olduqda, o cümlədən vəkil edilmiş şəxs (şəxslər) öz vəzifələrini kobudcasına pozduqda və ya onun işləri ağılla aparmağa qadir olmadığı aşkara çıxdıqda ortaqlığın bir və ya bir neçə digər iştirakçısının tələbi ilə xitam verə bilər. Məhkəmə qərarına əsasən ortaqlığın nizamnaməsində müvafiq dəyişikliklər edilir.

Maddə 73. Tam ortaqlıq iştirakçısının vəzifələri

73.1. Tam ortaqlığın iştirakçısı nizamnamənin şərtlərinə uyğun olaraq ortaqlığın fəaliyyətində iştirak etməyə borcludur.

73.2. Tam ortaqlığın iştirakçısı ortaqlıq qeydə alınanadək onun şərikli kapitalına maya qoymağa borcludur.

73.3. Tam ortaqlıq iştirakçısının ixtiyarı yoxdur ki, qalan iştirakçıların razılığı olmadan öz adından öz mənafeləri və ya üçüncü şəxslərin mənafeləri üçün ortaqlığın fəaliyyət predmetini təşkil edən əqdlərlə eyni xarakterli əqdlər bağlasın.

73.4. Bu qayda pozulduqda ortaqlıq öz mülahizəsi ilə həmin iştirakçıdan ortaqlığa vurulmuş zərərin əvəzini ödəməyi və ya bu cür əqdlər üzrə əldə etdiyi bütün faydanı ortaqlığa verməyi tələb edə bilər.

Maddə 74. Tam ortaqlığın mənfəətinin və zərərinin bölüşdürülməsi

74.1. Tam ortaqlığın mənfəəti və zərəri, əgər nizamnamədə və ya iştirakçıların digər razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, onun iştirakçıları arasında onların şərikli kapitaldakı paylarına mütənasib surətdə bölüşdürülür. Ortaqlıq iştirakçısının mənfəət və zərərdə iştirakdan kənar edilməsi barədə razılaşma əhəmiyyətsizdir.

74.2. Əgər ortaqlığın düşdüyü zərər nəticəsində onun xalis aktivlərinin dəyəri şərikli kapitalının miqdarından az olarsa, ortaqlığın götürdüyü mənfəət, xalis aktivlərin dəyəri artıb şərikli kapitalın miqdarını ötənədək onun iştirakçıları arasında bölüşdürülmür.

Maddə 75. Tam ortaqlıq iştirakçılarının onun öhdəlikləri üzrə məsuliyyəti

75.1. Tam ortaqlığın iştirakçıları ortaqlığın öhdəlikləri üzrə özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar.

75.2. Tam ortaqlığın təsisçisi olmayan iştirakçısı onun ortaqlığa daxil olmasından əvvəl əmələ gəlmiş öhdəliklər üzrə digər iştirakçılarla bərabər məsuliyyət daşıyır.

75.3. Ortaqlıqdan çıxmış iştirakçı ortaqlığın onun çıxdığı anadək əmələ gəlmiş öhdəlikləri üzrə ortaqlığın onun çıxdığı il üçün fəaliyyəti barəsində hesabatın təsdiq edildiyi gündən iki il ərzində qalan iştirakçılarla bərabər məsuliyyət daşıyır.

75.4. Bu maddədə nəzərdə tutulan məsuliyyətin məhdudlaşdırılması və ya aradan qaldırılması haqqında ortaqlıq iştirakçılarının razılaşması əhəmiyyətsizdir.

Maddə 76. Tam ortaqlıq iştirakçılarının tərkibinin dəyişdirilməsi

76.1. Tam ortaqlığın hər hansı iştirakçısı ortaqlıqdan çıxdıqda və ya öldükdə, iştirakçılardan biri xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli və ya müflis sayıldıqda, məhkəmənin qərarına əsasən iştirakçılardan biri barəsində yenidən təşkil prosedurlarına başlandıqda, ortaqlıqda iştirak edən hüquqi şəxs ləğv olunduqda və ya iştirakçılardan birinin kreditoru tərəfindən tutma onun şərikli kapitaldakı payına uyğun əmlak hissəsinə yönəldildikdə ortaqlıq öz fəaliyyətini, əgər bu, ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında nəzərdə tutulubsa, davam etdirə bilər.

76.2. Tam ortaqlıq iştirakçılarının ixtiyarı var ki, iştirakçılardan hər hansı birinin məhkəmə qaydasında ortaqlıqdan çıxarılmasını qalan iştirakçıların yekdil qərarı ilə və bunun üçün ciddi əsaslar olduqda, məsələn, həmin iştirakçı öz vəzifələrini kobudcasına pozduqda və ya onun işləri ağılla aparmağa qadir olmadığı aşkara çıxdıqda tələb etsinlər.

Maddə 77. İştirakçının tam ortaqlıqdan çıxması

77.1. Tam ortaqlıq iştirakçısının ixtiyarı var ki, ortaqlıqda iştirakdan imtina etdiyini bildirərək ortaqlıqdan çıxsın.

77.2. İştirakçı tam ortaqlıqda iştirakdan imtina etdiyini ortaqlıqdan faktik çıxmasına ən geci altı ay qalmış bildirməlidir.

77.3. Ortaqlıqdan çıxmaq hüququndan imtina haqqında ortaqlıq iştirakçıları arasında razılaşma əhəmiyyətsizdir.

Maddə 78. İştirakçının tam ortaqlıqdan çıxmasının nəticələri

78.1. Tam ortaqlıqdan çıxmış iştirakçıya, əgər nizamnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakı hissəsinin dəyəri ödənilir. Çıxan iştirakçı ilə qalan iştirakçılar arasında razılaşmaya əsasən əmlak dəyərinin ödənilməsi əmlakın naturada verilməsi ilə əvəz edilə bilər. Çıxan iştirakçıya ortaqlıq əmlakından çatası hissə və ya onun dəyəri, bu Məcəllənin 80-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, onun çıxdığı məqamda tərtib edilən balans üzrə müəyyənləşdirilir.

78.2. Tam ortaqlığın iştirakçısı öldükdə onun vərəsəsi tam ortaqlığa, əgər ortaqlığın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, yalnız digər iştirakçıların razılığı ilə daxil ola bilər. Tam ortaqlıqda iştirak etmiş və yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisi olan hüquqi şəxs, əgər ortaqlığın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, ortaqlığa onun digər iştirakçılarının razılığı ilə daxil ola bilər. Ortaqlığa daxil olmayan vərəsə (hüquq varisi) ilə hesablaşmalar bu Məcəllənin 78.1-ci maddəsinə uyğun aparılır. Tam ortaqlıq iştirakçısının vərəsəsi (hüquq varisi) bu Məcəllənin 75.2 və 75.3-cü maddələrinə uyğun olaraq, çıxan iştirakçının üçüncü şəxslər qarşısında cavab verməli olduğu ortaqlığın öhdəlikləri üzrə ortaqlığın çıxan iştirakçısından ona keçmiş əmlak həddində məsuliyyət daşıyır.

78.3. Əgər iştirakçılardan biri ortaqlıqdan çıxırsa, ortaqlığın şərikli kapitalında qalan iştirakçıların payları, əgər nizamnamədə və ya iştirakçıların başqa razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, müvafiq surətdə artır.

Maddə 79. İştirakçının tam ortaqlığın şərikli kapitalındakı payının verilməsi

79.1. Tam ortaqlığın iştirakçısı onun qalan iştirakçılarının razılığı ilə şərikli kapitaldakı payını və ya onun bir hissəsini ortaqlığın başqa iştirakçısına və ya üçüncü şəxsə verə bilər.

79.2. Pay (pay hissəsi) başqa şəxsə verildikdə payı (pay hissəsini) vermiş iştirakçıya mənsub hüquqların hamısı və ya müvafiq hissəsi ona keçir. Pay (pay hissəsi) verilmiş şəxs bu Məcəllənin 75.2-ci maddəsində müəyyənləşdirilmiş qaydada ortaqlığın öhdəlikləri üzrə məsuliyyət daşıyır.

79.3. Ortaqlıq iştirakçısının özünün bütün payını başqa şəxsə verməsi onun ortaqlıqda iştirakına xitam verir və bu Məcəllənin 75.2 və 75.3-cü maddələrində nəzərdə tutulan nəticələrə səbəb olur.

Maddə 80. İştirakçının tam ortaqlığın şərikli kapitalındakı payına tutmanın yönəldilməsi

80.1. İştirakçının ortaqlıqda iştirakla bağlı olmayan borcları (şəxsi borcları) üzrə tutmanın iştirakçının tam ortaqlığın əmlakındakı payına yönəldilməsinə yalnız onun başqa əmlakının borcları ödəməyə kifayət etmədiyi halda yol verilir. Həmin iştirakçının kreditorları tam ortaqlıqdan tutmanın borclunun şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakı hissəsinə yönəldilməsi məqsədi ilə həmin hissəni ayırmağı tələb edə bilərlər. Ortaqlığın əmlakının ayrılmalı hissəsi və ya onun dəyəri kreditorların ayırma tələbini irəli sürdükləri məqamda tərtib edilmiş balans üzrə müəyyənləşdirilir.

80.2. İştirakçının tam ortaqlığın şərikli kapitalındakı payına uyğun əmlaka tutmanın yönəldilməsi onun ortaqlıqda iştirakına xitam verir və bu Məcəllənin 75.3-cü maddəsində nəzərdə tutulan nəticələrə səbəb olur.

Maddə 81. Tam ortaqlığın ləğvi

81.1. Tam ortaqlıq bu Məcəllənin 59-cu maddəsində göstərilən əsaslar üzrə, habelə ortaqlıqda yeganə bir iştirakçının qaldığı halda ləğv edilir. Həmin iştirakçının ixtiyarı var ki, ortaqlıqda yeganə iştirakçı kimi qaldığı andan altı ay ərzində ortaqlığı bu Məcəllədə müəyyənləşdirilmiş qaydada təsərrüfat cəmiyyətinə çevirsin.

81.2. Bu Məcəllənin 76.1-ci maddəsində nəzərdə tutulan hallarda da tam ortaqlıq, əgər ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında ortaqlığın öz fəaliyyətini davam etdirəcəyi nəzərdə tutulmayıbsa, ləğv edilir.

Maddə 82. Kommandit ortaqlığı

82.1. Kommandit ortaqlığı elə bir ortaqlıqdır ki, ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçıları (tam ortaqlar) ilə yanaşı ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı—maya qoyanı (kommanditçi) vardır.

82.2. Kommandit ortaqlığında iştirak edən tam ortaqların hüquqi vəziyyəti və ortaqlığın öhdəlikləri üzrə onların məsuliyyəti bu Məcəllənin tam ortaqlıq iştirakçıları haqqında qaydaları ilə müəyyənləşdirilir.

82.3. Şəxs yalnız bir kommandit ortaqlığında tam ortaq ola bilər. Tam ortaqlığın iştirakçısı kommandit ortaqlığında tam ortaq ola bilməz. Kommandit ortaqlığındakı tam ortaq tam ortaqlığın iştirakçısı ola bilməz.

82.4. Kommandit ortaqlığının firma adında bütün tam ortaqların adları ilə «kommandit ortaqlığı» sözləri və ya «və ortaqları» və «kommandit ortaqlığı» sözləri əlavə edilməklə azı bir tam ortağın adı göstərilməlidir.

82.5. Əgər kommandit ortaqlığının firma adına maya qoyanın adı daxil edilərsə, həmin maya qoyan tam ortağa çevrilir.

82.6. Bu Məcəllənin tam ortaqlıq haqqında qaydaları kommandit ortaqlığına bu şərtlə tətbiq edilir ki, həmin qaydalar bu Məcəllənin kommandit ortaqlığı haqqında qaydalarına zidd olmasın.

Maddə 83. Kommandit ortaqlığının nizamnaməsi

Kommandit ortaqlığının nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilmiş məlumatlardan savayı, ortaqlığın şərikli kapitalının miqdarı və tərkibi haqqında; tam ortaqlardan hər birinin şərikli kapitaldakı payının miqdarı və dəyişdirilməsi qaydası haqqında; onların qoyduqları mayaların tərkibi və maya qoyması qaydası haqqında; maya qoyulması üzrə vəzifələri pozmağa görə onların məsuliyyəti haqqında; maya qoyanların verdikləri mayaların məcmu miqdarı haqqında şərtlər göstərilməlidir.

Maddə 84. Kommandit ortaqlığında idarəetmə və onun işlərinin aparılması

84.1. Kommandit ortaqlığında idarəetməni tam ortaqlar həyata keçirirlər. Onun tam ortaqlar tərəfindən idarə edilməsi və işlərinin aparılması qaydasını tam ortaqlar bu Məcəllənin tam ortaqlıq haqqında qaydalarına əsasən müəyyənləşdirirlər.

84.2. Maya qoyanların kommandit ortaqlığının idarə edilməsində və işlərinin aparılmasında iştirak etmək, onun adından etibarnaməsiz çıxış etmək ixtiyarı yoxdur. Onlar ortaqlığın idarə edilməsi və işlərinin aparılması üzrə tam ortaqların hərəkətləri barəsində mübahisə edə bilməzlər.

Maddə 85. Kommandit ortaqlığına maya qoyanın hüquq və vəzifələri

85.1. Kommandit ortaqlığına maya qoyan şərikli kapitala maya qoymağa borcludur. Mayanın qoyulması maya qoyana ortaqlıq tərəfindən verilən iştirak şəhadətnaməsi ilə təsdiqlənir.

85.2. Kommandit ortaqlığına maya qoyanın aşağıdakı hüquqları vardır:

85.2.1. ortaqlığın mənfəətinin onun şərikli kapitaldakı payına düşən hissəsini nizamnamədə nəzərdə tutulan qaydada almaq;

85.2.2. ortaqlığın illik hesabatları və balansları ilə tanış olmaq;

85.2.3. maliyyə ili qurtardıqda ortaqlıqdan çıxmaq və nizamnamədə nəzərdə tutulan qaydada öz mayasını almaq;

85.2.4. şərikli kapitaldakı payını və ya onun hissəsini digər maya qoyana və ya üçüncü şəxsə vermək.

85.3. Maya qoyanlar bu Məcəllənin 93.3-cü maddəsində nəzərdə tutulan şərtlərə və qaydaya tətbiqən payı (onun hissəsini) satın almaqda üçüncü şəxslər qarşısında üstünlük hüququna malikdirlər. Maya qoyanın bütün payını başqa şəxsə verməsi onun ortaqlıqda iştirakına xitam verir.

85.4. Kommandit ortaqlığının nizamnaməsində maya qoyanların başqa hüquqları da nəzərdə tutula bilər.

Maddə 86. Kommandit ortaqlığının ləğvi

86.1. Kommandit ortaqlığına maya qoyanların hamısı ortaqlıqdan çıxdıqda o ləğv edilir. Lakin tam ortaqlar kommandit ortaqlığını ləğv etmək əvəzinə onu tam ortaqlığa çevirə bilərlər. Kommandit ortaqlığı tam ortaqlığın ləğv edilməsi əsasları üzrə də ləğv edilir. Lakin əgər kommandit ortaqlığında azı bir tam ortaq və bir maya qoyan qalırsa, ortaqlıq saxlanılır.

86.2. Kommandit ortaqlığı ləğv edildikdə, o cümlədən müflis olduqda maya qoyanlar ortaqlığın kreditorlarının tələbləri ödənildikdən sonra onun qalan əmlakından mayaları almaqda tam ortaqlar qarşısında üstünlük hüququna malikdirlər. Ortaqlığın bundan sonra qalan əmlakı, əgər nizamnamədə və ya tam ortaqların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, tam ortaqlar arasında onların ortaqlığın şərikli kapitalındakı paylarına mütənasib surətdə bölüşdürülür.

Maddə 87. Məhdud məsuliyyətli cəmiyyət

87.1. Bir və ya bir neçə şəxs *(fiziki və (və ya) hüquqi şəxs)* tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət məhdud məsuliyyətli cəmiyyət sayılır. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar. *Cəmiyyət öz iştirakçılarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımır.*

87.2. Cəmiyyət bu Məcəlləyə müvafiq olaraq yeni cəmiyyətin yaradılması və ya bu Məcəllədə müəyyən edilmiş qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla fəaliyyət göstərən hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) yolu ilə yaradıla bilər.

87.3. Cəmiyyətin yaradılması təsis yığıncağının keçirilməsini və müqavilənin bağlanmasını (bu Məcəllənin 45.2-ci maddəsində nəzərdə tutulmuş halda) və ya cəmiyyətin yaradılması haqqında qərarın qəbul edilməsini (cəmiyyət bir şəxs tərəfindən yaradıldıqda), nizamnamə kapitalının ödənilməsini və nizamnamənin hazırlanmasını əhatə edir.

87.4. Cəmiyyətin yaradılması zamanı təsis yığıncağı cəmiyyətin nizamnamə kapitalı təsisçilər tərəfindən tamamilə formalaşdırıldıqdan sonra keçirilir. Təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətlidir (yetərsay var).

Yetərsay olmadıqda, yığıncaq təkrarən keçirilir. Təkrarən keçirilən təsis yığıncağında da Yetərsay olmadıqda, cəmiyyətin yaradılması, iclasda iştirak edən təsisçilər və ya onların nümayəndələri tərəfindən baş tutmamış hesab edilir və bu qərar bütün təsisçilərin nəzərinə yeddi gün müddətində çatdırılır.

87.5. Cəmiyyətin yaradılması zamanı keçirilən təsis yığıncağı:

87.5.1. cəmiyyətin yaradılması zamanı nizamnamə kapitalına ödənilən pul olmayan əmanətlərin dəyərini təsdiq edir;

87.5.2. cəmiyyətin yaradılması barədə qərarı qəbul edir və onun nizamnaməsini təsdiq edir;

87.5.3. bu Məcəllə və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş cəmiyyətin idarəetmə orqanlarını təşkil edir;

87.5.4. cəmiyyətin yaradılması və cəmiyyətin fəaliyyətinin başlanılması ilə əlaqədar bu Məcəlləyə, digər qanunvericilik aktlarına və təsisçilər arasında bağlanılmış müqaviləyə zidd olmayan digər məsələləri həll edir.

87.6. Cəmiyyətin təsis yığıncağında cəmiyyətin təsis edilməsi, nizamnamənin təsdiq edilməsi, cəmiyyətin yaradılması zamanı nizamnamə kapitalına ödənilən pul olmayan əmanətlərin dəyərinin təsdiq edilməsi, idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar təsisçilər tərəfindən yekdilliklə, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə qəbul edilir.

87.7. Cəmiyyətin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə cəmiyyətin təsisçiləri birgə məsuliyyət daşıyırlar.

87.8. Məhdud məsuliyyətli cəmiyyətin firma adında cəmiyyətin adı, habelə «məhdud məsuliyyətli cəmiyyət» sözləri göstərilməlidir.

87.9. Məhdud məsuliyyətli cəmiyyətin hüquqi vəziyyəti, habelə onun iştirakçılarının hüquq və vəzifələri bu Məcəllə ilə müəyyənləşdirilir. (3)

Maddə 88. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları

88.1. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının sayı qanunvericiliklə müəyyənləşdirilmiş həddi keçməməlidir. Əks halda o bir il ərzində səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onun iştirakçılarının sayı azaldılıb qanunla müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir.

88.2. Məhdud məsuliyyətli cəmiyyətin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilməz.

Maddə 89. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsi

Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilmiş məlumatlardan savayı, cəmiyyətin nizamnamə kapitalının miqdarı haqqında; iştirakçılardan hər birinin payının miqdarı haqqında; onların qoyduqları mayaların tərkibi və maya qoyması qaydası haqqında; maya qoyulması üzrə öhdəlikləri pozmağa görə iştirakçıların məsuliyyətləri haqqında; cəmiyyəti idarəetmə orqanlarının tərkibi və

səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qərarlar qəbul edilən məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında şərtlər göstərilməlidir.

Maddə 90. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı

90.1. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı onun iştirakçılarının mayalarının dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalı onun kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. Cəmiyyətin nizamnamə kapitalının miqdarı onun kreditorlarının mənafelərinə təminat verən məbləğdən az ola bilməz.

90.2. Məhdud məsuliyyətli cəmiyyətin təsisçiləri cəmiyyət qeydə alınanadək nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar.

90.3. Məhdud məsuliyyətli cəmiyyət iştirakçısının cəmiyyətinin nizamnamə kapitalına maya qoymaq vəzifəsindən azad edilməsinə, o cümlədən cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə azad edilməsinə yol verilmir.

90.4. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı yalnız onun tam ödənilməsindən sonra bu Məcəllədə və cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin əmlakı hesabına iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib şəkildə artırılması və (və ya) iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsilə və (və ya) cəmiyyətə qəbul edilən yeni iştirakçıların mayaları hesabına artırıla bilər.

90.5. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılması, cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının qərarı ilə həyata keçirilir. Belə qərar yalnız cəmiyyətin ötən il üçün mühasibat hesabatının göstəriciləri əsasında qəbul edilə bilər. Nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılan miqdarı cəmiyyətin xalis aktivlərinin dəyəri, nizamnamə kapitalının miqdarı və cəmiyyətin ehtiyat fondu arasındakı fərqi keçməməlidir. Cəmiyyətin nizamnamə kapitalı bu maddədə müəyyən edilmiş qaydada artırıldıqda, iştirakçıların mayalarının məbləği dəyişmədən, bütün iştirakçıların mayalarının nominal dəyəri proporsional surətdə artır.

90.6. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iştirakçıların əlavə payları hesabına artırılması, cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada, cəmiyyətin ümumi yığıncağının qərarı ilə həyata keçirilir. Bu qərarla əlavə payların ümumi dəyəri, həmçinin iştirakçının əlavə payının dəyəri və onun payının nominal dəyərinin artırıldığı məbləğ arasındakı nisbət müəyyən edilməlidir. Həmin nisbət iştirakçının payının nominal dəyərinin onun əlavə payına bərabər və ya ondan az məbləğdə arta biləcəyi nəzərə alınmaqla müəyyən edilir. Hər bir iştirakçı əlavə payların ümumi dəyərindən artıq olmayan, həmin iştirakçının nizamnamə kapitalında olan mayasının məbləğinə proporsional olaraq, əlavə pay qoymaq hüququna malikdir. İştirakçılar tərəfindən əlavə paylar, bu barədə ümumi yığıncağın qərarı qəbul edildikdən sonra nizamnamədə və ya ümumi yığıncağın qərarında müəyyən edilmiş müddətdə qoyulmalıdır. Əlavə pay qoymaq üçün müəyyən edilmiş müddətin ötürülməsi nizamnamə kapitalının qeyd edilən üsulla artırılmasının baş tutmamasına səbəb olur.

90.7. Bu Məcəllənin 90.6-cı maddəsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının cəmiyyətin nizamnamə kapitalının artırılması haqqında qərarı iştirakçının

(iştirakçıların) əlavə maya qoyulması haqqında ərizəsi və (və ya) əgər nizamnamədə qadağan edilməmişdirsə, üçüncü şəxsin (şəxslərin) onun (onların) cəmiyyətə iştirakçı kimi qəbul edilməsi və maya qoyması haqqında ərizəsi əsasında qəbul edilir. Ərizədə mayaların məbləği və tərkibi, onların qoyulma qaydası və müddəti, iştirakçının və ya üçüncü şəxsin nizamnamə kapitalında malik olmaq istədikləri mayaların məbləği göstərilir. Ərizədə mayaların qoyulmasının və cəmiyyətə daxil olmanın digər şərtləri də göstərilə bilər. Cəmiyyətin ümumi yığıncağı iştirakçıların ərizəsi əsasında nizamnamə kapitalının artırılması haqqında qərarın qəbul edilməsi ilə eyni zamanda nizamnamə kapitalının məbləğinin və ərizə vermiş iştirakçının mayasının nominal dəyərinin artırılması ilə əlaqədar nizamnaməyə edilən dəyişikliklər haqqında da qərar qəbul edir. Ümumi yığıncaq üçüncü şəxsin ərizəsi əsasında nizamnamə kapitalının artırılması haqqında qərarla yanaşı, üçüncü şəxsin cəmiyyətə qəbul edilməsi, onun mayasının nominal dəyərinin müəyyən edilməsi və iştirakçıların mayalarının məbləğlərinin dəyişməsi ilə əlaqədar nizamnaməyə edilən dəyişikliklər haqqında qərar qəbul edir. Cəmiyyətə qəbul edilən üçüncü şəxsin mayasının nominal dəyəri onun payının dəyərinin məbləğinə bərabər və ya ondan az olmalıdır. Əgər nizamnamə kapitalının artırılması baş tutmamışdırsa, cəmiyyət ağlabatan müddətdə iştirakçıların əlavə mayalarını və üçüncü şəxslərin mayalarını müvafiq olaraq geri qaytarmalıdır.

90.8. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə həyata keçirilə bilər. Bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nisbəti saxlanılmaqla həyata keçirilir. Cəmiyyətin nizamnamə kapitalının azaldılması cəmiyyətin ümumi yığıncağının qərarı əsasında həyata keçirilir. Nizamnamə kapitalının azaldılması haqqında ümumi yığıncağın qərarı qəbul edildikdən sonra nizamnamədə və ya cəmiyyətin ümumi yığıncağının qərarında müəyyən edilmiş müddətdə cəmiyyət özünün bütün kreditorlarına bu barədə yazılı məlumat göndərməlidir. Məlumat alındığı gündən bir ay müddətində cəmiyyətin kreditorlarının cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl yerinə yetirilməsini və ya xitamını, düşdükləri zərərin əvəzinin ödənilməsini tələb etmək hüquq vardır.(3)

Maddə 90-1. Məhdud məsuliyyətli cəmiyyətdə mənfəətin bölüşdürülməsi

90-1.1. Məhdud məsuliyyətli cəmiyyətin fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətin iştirakçılar arasında bölüşdürülməsi cəmiyyətin ümumi yığıncağı tərəfindən qəbul edilən qərar əsasında cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada həyata keçirilir. Həmin qərarda mənfəətin tamamilə və ya qismən bölüşdürülməsi müəyyən edilə bilər.

90-1.2. Məhdud məsuliyyətli cəmiyyətin hər bir iştirakçısının nizamnamə kapitalındakı mayalarına uyğun olaraq mənfəət almaq hüququ vardır. Cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmamışdırsa, xalis mənfəət ümumi yığıncağın qərarı qəbul edildikdən sonra bir ay müddətində ödənilməlidir.

90-1.3. Məhdud məsuliyyətli cəmiyyət aşağıdakı hallarda mənfəətin bölüşdürülməsi haqqında qərar qəbul edə bilməz:

90-1.3.1. əgər bu Məcəllənin 90-1.1-ci maddəsində nəzərdə tutulan qərar qəbul edildiyi anda cəmiyyət qanunla müəyyən edilmiş müflisləşmə və ya iflas əlamətlərinə uyğun gəlirsə və ya həmin qərarın qəbul edilməsi nəticəsində belə əlamətlər əmələ gələcəksə;

90-1.3.2. əgər bu Məcəllənin 90-1.1-ci maddəsində nəzərdə tutulan qərar qəbul edildiyi anda cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalından azdırsa və ya həmin qərarın qəbul edilməsi nəticəsində onun məbləğindən az olacaqsa. (3)

Maddə 91. Məhdud məsuliyyətli cəmiyyətdə idarəetmə

91.1. Məhdud məsuliyyətli cəmiyyətin ali orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. *Bir iştirakçısı olan cəmiyyətdə cəmiyyətin ümumi yığıncağının səlahiyyətləri iştirakçı tərəfindən təkbaşına həyata keçirilir. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya) təftiş komissiyası (müfəttiş) yaradıla bilər.* Məhdud məsuliyyətli cəmiyyətdə onun fəaliyyətinə cari rəhbərliyi həyata keçirən və iştirakçılarının ümumi yığıncağına hesabat verən icra orqanı (kollegial və (və ya) təkbaşçı) yaradılır. Cəmiyyəti təkbaşçı idarəetmə orqanı onun iştirakçıları olmayanların sırasından da seçilə bilər.

91.1-1. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər. Hər bir iştirakçının cəmiyyətin iştirakçılarının ümumi yığıncağında iştirak etmək, cəmiyyətin orqanlarını seçmək (təyin etmək), onlara seçilmək (təyin edilmək) və səsvermədə iştirak etmək, şəxsən iştirak etmək və ya bu Məcəllə ilə müəyyən edilmiş qaydada təyin etdiyi nümayəndə vasitəsilə təmsil olunmaq hüququ vardır. İştirakçıların həmin hüquqlarını məhdudlaşdıran hər hansı razılaşma və ya hərəkət etibarsızdır. Cəmiyyətin iştirakçılarının ümumi yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır. Cəmiyyətin iştirakçısı olmayan kollegial icra orqanının rəhbəri və üzvləri və ya cəmiyyətin təkbaşçı icra orqanının rəhbəri ümumi yığıncaqda məşvərətçi səs hüququ ilə iştirak edə bilər. Bu Məcəllə ilə cəmiyyətin iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilən məsələlərdən başqa, cəmiyyətin nizamnaməsinə uyğun olaraq cəmiyyətin iştirakçılarının ümumi yığıncağının səlahiyyətlərinə digər məsələlər də aid edilə bilər. Nizamnamədə müəyyən edilib-edilməməsindən asılı olmayaraq, ümumi yığıncaq cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə edə bilər.

91.1-2. Cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq çağırılır.

91.1-3. Cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağı nizamnamədə müəyyən edilən hallarda və qaydada çağırılır. Növbədənkənar ümumi yığıncaq icra orqanının öz təşəbbüsü ilə, habelə direktorlar şurasının (müşahidə şurasının), təftiş komissiyasının (müfəttişin) və ya bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə çağırılır. Ləğvetmə prosesində olan cəmiyyətin növbədənkənar ümumi yığıncağı ləğvetmə komissiyası tərəfindən çağırılır.

91.1-4. Bir iştirakçıdan ibarət olan cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər barəsində qərarlar həmin iştirakçı tərəfindən təkbaşına qəbul edilir və yazılı surətdə rəsmiləşdirilir.

91.2. Cəmiyyəti idarəetmə orqanlarının səlahiyyətləri, habelə onların qərarlar qəbul etməsi və cəmiyyətin adından çıxış etməsi qaydası bu Məcəlləyə və cəmiyyətin nizamnaməsinə uyğun olaraq müəyyənləşdirilir.

91.3. Məhdud məsuliyyətli cəmiyyət iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

91.3.1. cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;

91.3.2. cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

91.3.3. cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;

91.3.4. cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

91.3.5. *cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya)* təftiş komissiyasını (müfəttişini) seçmək.

91.4. Məhdud məsuliyyətli cəmiyyət illik maliyyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir (kənar audit). Cəmiyyətin illik maliyyə hesabatının auditor yoxlanışı hər hansı iştirakçının tələbi ilə də aparıla bilər. Bu halda auditor yoxlanışı həmin yoxlamanı tələb edən iştirakçının hesabına aparılır. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydası qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir.

91.5. Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, cəmiyyətin işlərinin aparılması nəticələri haqqında cəmiyyət tərəfindən məlumatların dərc edilməsi (açıq hesabat) tələb olunmur.(3)

Maddə 91-1. Məhdud məsuliyyətli cəmiyyətin direktorlar şurası (müşahidə şurası)

91-1.1. Bu Məcəllənin 91.1-ci maddəsində nəzərdə tutulmuş halda yaradılmış direktorlar şurası (müşahidə şurası) cəmiyyətin ümumi yığıncaqlar arasındakı dövrdə onun icra orqanının fəaliyyətinə nəzarəti həyata keçirir. Əgər nizamnamədə təftiş komissiyasının seçilməsi (müfəttişin təyin edilməsi) nəzərdə tutulmamışdırsa, bu Məcəlləyə uyğun olaraq təftiş komissiyasının (müfəttişin) səlahiyyətləri direktorlar şurasına (müşahidə şurasına) verilə bilər.

91-1.2. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) yaradılması və fəaliyyəti, habelə səlahiyyətlərinə xitam verilməsi qaydası nizamnamə ilə müəyyən edilir.

91-1.3. Cəmiyyətin təkbaşına rəhbəri, kollegial icra orqanının rəhbəri (üzvü), kənar idarəçi direktorlar şurasının (müşahidə şurasının) üzvü ola bilməz. (3)

Maddə 91-2. Məhdud məsuliyyətli cəmiyyətin icra orqanı

91-2.1. Cəmiyyətin icra orqanının fəaliyyəti və onun tərəfindən qərarların qəbul edilməsi qaydası cəmiyyətin nizamnaməsi və daxili sənədləri ilə müəyyən edilir.

91-2.2. Cəmiyyətin kollegial icra orqanı yalnız fiziki şəxslərdən ibarət ola bilər.

91-2.3. Cəmiyyət və cəmiyyətin təkbaşına rəhbəri arasında müqavilə həmin şəxsin seçildiyi (təyin edildiyi) cəmiyyətin iştirakçılarının ümumi yığıncağında sədrlik edən şəxs və ya ümumi yığıncağın qərarı ilə müvəkkil edilən şəxs tərəfindən imzalanır. Təkbaşına rəhbərin səlahiyyətləri bu Məcəllənin 91-2.4-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, fiziki şəxs tərəfindən həyata keçirilir.

91-2.4. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda cəmiyyətin icra orqanının səlahiyyətləri müqavilə əsasında başqa fiziki və ya hüquqi şəxslərə (kənar idarəçiyə) verilə bilər. Kənar idarəçi ilə ümumi yığıncaqda təsdiq olunan və cəmiyyətin adından ümumi yığıncaqda sədrlik edən və ya ümumi yığıncağın səlahiyyət verdiyi iştirakçılardan biri tərəfindən imzalanan müqavilə bağlanır.

91-2.5. Kənar idarəçi icra orqanı kimi cəmiyyətə münasibətdə idarəetməni qeyri-qənaətbəxş həyata keçirməsi nəticəsində və üçüncü şəxslərə ziyan vurduğu zərərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. (3)

Maddə 91-3. Məhdud məsuliyyətli cəmiyyətin təftiş komissiyası (müfəttişi)

91-3.1. Bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş halda cəmiyyətin iştirakçılarının ümumi yığıncağının qərarı ilə təftiş komissiyası (müfəttiş) seçilir (təyin edilir).

91-3.2. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

91-3.3. Cəmiyyətin təftiş komissiyasının üzvlüyünə (müfəttiş kimi) fiziki şəxslər seçilir (təyin edilir). Cəmiyyətin iştirakçısı olmayan şəxslərin də təftiş komissiyasına üzv seçilməsinə (müfəttiş təyin edilməsinə) yol verilir. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya kollegial icra orqanının rəhbəri (üzvü), təkbaşına rəhbər və ya kənar idarəçi təftiş komissiyasına üzv seçilə (müfəttiş təyin edilə) bilməz.

91-3.4. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətini yoxlamaq və bu məqsədlə cəmiyyətin fəaliyyətinə aid olan bütün sənədləri əldə etmək hüququ vardır. Təftiş komissiyasının (müfəttişin) tələbi ilə direktorlar şurasının (müşahidə şurasının) və ya kollegial icra orqanının rəhbəri (üzvləri), təkbaşına rəhbər, kənar idarəçi şifahi və ya yazılı formada zəruri məlumatları təqdim etməyə borcludurlar.

91-3.5. Cəmiyyətin təftiş komissiyası (müfəttiş) varsa, bu nəzarət orqanının rəyi olmadan cəmiyyətin iştirakçılarının ümumi yığıncağı cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını təsdiq edə bilməz, habelə mənfəət və zərərin bölüşdürülməsinə dair qərar qəbul edə bilməz. (3)

Maddə 92. Məhdud məsuliyyətli cəmiyyətin yenidən təşkili və ləğvi

92.1. Məhdud məsuliyyətli cəmiyyət onun iştirakçılarının yekdil qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər. Cəmiyyətin yenidən təşkilinin və ləğvinin başqa əsasları, habelə onun yenidən təşkili və ləğvi qaydası bu Məcəllə ilə müəyyənləşdirilir.

92.2. Məhdud məsuliyyətli cəmiyyət səhmdar cəmiyyətinə çevrilə bilər.

Maddə 93. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı payın keçməsi

93.1. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı cəmiyyətin nizamnamə kapitalındakı payını və ya onun bir hissəsini həmin cəmiyyətin bir və ya bir neçə iştirakçısına sata bilər və ya başqa qaydada güzəşt edə bilər.

93.2. Cəmiyyət iştirakçısının öz payını (onun bir hissəsini) üçüncü şəxslərə özgəninkiləşdirilməsinə, əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, yol verilir.

93.3. Cəmiyyətin iştirakçıları iştirakçının payını (onun bir hissəsini) öz paylarının miqdarına mütənasib surətdə satın almaqda üstünlük hüququna malikdirlər, bu şərtlə ki, cəmiyyətin nizamnaməsində və ya onun iştirakçılarının razılaşmasında həmin hüququn həyata keçirilməsinin ayrı qaydası nəzərdə tutulmasın. Əgər cəmiyyətin iştirakçıları xəbərdar edildikləri gündən bir ay ərzində və ya cəmiyyətin nizamnaməsində və ya onun iştirakçılarının razılaşmasında nəzərdə tutulan başqa müddətdə öz üstünlük hüququndan istifadə etməzlərsə, iştirakçının payı üçüncü şəxsə özgəninkiləşdirilə bilər.

93.4. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsinə uyğun olaraq iştirakçının payının (onun bir hissəsinin) üçüncü şəxslərə özgəninkiləşdirilməsi mümkün olmadıqda, cəmiyyətin digər iştirakçıları isə onu satın almaqdan imtina etdikdə cəmiyyət iştirakçının payını əldə etməyə borcludur.

93.5. İştirakçının payını (onun bir hissəsini) məhdud məsuliyyətli cəmiyyətin özünün əldə etdiyi halda cəmiyyət onu özünün nizamnaməsində nəzərdə tutulan müddətlərdə və qaydada başqa iştirakçılara və ya üçüncü şəxslərə satmağa və ya bu Məcəllənin 90.4 və 90.5-ci maddələrinə uyğun olaraq öz nizamnamə kapitalını azaltmağa borcludur.

93.6. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı paylar cəmiyyətin iştirakçısı olan fiziki şəxslərin vərəsələrinə və hüquqi şəxslərin hüquq varislərinə bu şərtlə keçir ki, cəmiyyətin nizamnaməsində payların onlara yalnız cəmiyyətin qalan iştirakçılarının razılığı ilə keçməsi nəzərdə tutulmasın. Payın keçməsinə razılıq verməkdən imtina edilməsi cəmiyyətin nizamnaməsində nəzərdə tutulan qaydada və şərtlərlə cəmiyyətin həmin payın həqiqi dəyərini iştirakçının vərəsələrinə (hüquq varislərinə) ödəməsi və ya həmin dəyərə bərabər əmlakı onlara naturada verməsi vəzifəsinin yaranmasına səbəb olur.

Maddə 94. İştirakçının məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı payına tutmanın yönəldilməsi

94.1. İştirakçının şəxsi borcları üzrə tutmanın onun məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı payına yönəldilməsinə yalnız onun başqa əmlakının borclarını ödəməyə kifayət etmədiyi halda yol verilir. Həmin iştirakçının kreditorları məhdud məsuliyyətli cəmiyyətdən tutmanın yönəldilməsi məqsədi ilə cəmiyyətin əmlakının borclunun nizamnamə kapitalındakı payına uyğun hissəsinin dəyərini ödəməyi və ya bu əmlak hissəsini ayırmağı tələb edə bilərlər. Cəmiyyətin əmlakının ayrılmalı hissəsi və ya onun dəyəri kreditorların tələb irəli sürdükləri məqamda tərtib edilmiş balans üzrə müəyyənləşdirilir.

94.2. İştirakçının məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı bütün payına tutmanın yönəldilməsi onun cəmiyyətdə iştirakına xitam verir.

Maddə 95. Məhdud məsuliyyətli cəmiyyət iştirakçısının cəmiyyətdən çıxması

Məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı onun digər iştirakçılarının razılığından asılı olmayaraq istənilən vaxt cəmiyyətdən çıxa bilər.

Maddə 96. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı cəmiyyətdən çıxarkən hesablaşmalar

96.1. Məhdud məsuliyyətli cəmiyyətdən çıxan iştirakçıya, əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının nizamnamə kapitalındakı payına uyğun əmlak hissəsi ödənilir. Çıxan iştirakçının cəmiyyət ilə razılaşmasına əsasən əmlakın dəyərinin ödənilməsi əmlakın naturada verilməsi ilə əvəz edilə bilər. Cəmiyyətin əmlakının çıxan iştirakçıya düşən hissəsi və ya onun dəyəri iştirakçının çıxdığı məqamda tərtib edilən balans üzrə müəyyənləşdirilir.

96.2. Əgər məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalına maya kimi əmlakdan istifadə hüququ verilmişdirsə, müvafiq əmlak cəmiyyətdən çıxan iştirakçıya qaytarılır. Həmin əmlakın normal aşınma nəticəsində dəyərinin azalmasının əvəzi ödənilmir.

96.3. Cəmiyyət iştirakçısının vərəsəsi və ya onun iştirakçısı olan hüquqi şəxsin hüquq varisi cəmiyyətə daxil olmadıqda onunla hesablaşmalar bu maddənin qaydalarına uyğun aparılır.

Maddə 97. Əlavə məsuliyyətli cəmiyyət

97.1. Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət əlavə məsuliyyətli cəmiyyət sayılır. Belə cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə öz mayalarının dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilən, hamısı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar. İştirakçılardan biri müflis olduqda cəmiyyətin öhdəlikləri üzrə onun məsuliyyəti, əgər cəmiyyətin nizamnaməsində məsuliyyətin bölünməsinin ayrı qaydası nəzərdə tutulmayıbsa, qalan iştirakçılar arasında onların mayalarına mütənasib surətdə bölünür.

97.2. Əlavə məsuliyyətli cəmiyyətin firma adında cəmiyyətin adı, habelə «məhdud məsuliyyətli cəmiyyət» sözləri göstərilməlidir.

97.3. Əlavə məsuliyyətli cəmiyyətə, əgər bu maddədə ayrı qayda nəzərdə tutulmayıbsa, bu Məcəllənin məhdud məsuliyyətli cəmiyyət haqqında qaydaları tətbiq edilir.

Maddə 98. Səhmdar cəmiyyəti

98.1. Nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət səhmdar cəmiyyəti sayılır.

98.2. Səhmlər buraxmağa yalnız səhmdar cəmiyyətlərinin hüququ vardır. *Səhmdar cəmiyyətinin əmlakı onun səhmlərinin yerləşdirilməsi, maliyyə-təsərrüfat fəaliyyəti nəticəsində, habelə qanunla qadağan edilməmiş digər mənbələr hesabına yaranır.*

98.3. Səhmdar cəmiyyəti bu Məcəlləyə müvafiq olaraq yeni cəmiyyətin yaradılması və ya bu Məcəllədə müəyyən edilmiş qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla, fəaliyyət göstərən hüquqi şəxsin yenidən təşkili (birləşmə, bölünmə, ayrılma, çevrilmə) yolu ilə yaradıla bilər.

98.4. Səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) onun öhdəlikləri üçün cavabdeh deyildirlər və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.

98.5. Səhmdar cəmiyyəti *bir şəxs (fiziki və ya hüquqi şəxs)* tərəfindən yaradıla bilər və ya cəmiyyətin bütün səhmlərini bir səhmdarın əldə etdiyi halda *bir şəxsdən (fiziki və ya hüquqi şəxsdən)* ibarət ola bilər. Bu barədə məlumat cəmiyyətin nizamnaməsində göstərilməli, qeydə alınmalı və hamının tanış olması üçün dərc edilməlidir. Səhmdar cəmiyyətinin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilməz.

98.6. Səhmdar cəmiyyətinin firma adında onun adı, habelə «açıq səhmdar cəmiyyəti» və ya «qapalı səhmdar cəmiyyəti» sözləri göstərilməlidir.

98.7. Səhmdar cəmiyyətinin hüquqi vəziyyəti və səhmdarların hüquq və vəzifələri bu Məcəlləyə uyğun olaraq müəyyənləşdirilir.

98.8. Dövlət müəssisələri özəlləşdirilərkən səhmdar cəmiyyətlərinin yaradılması xüsusiyyətləri həmin müəssisələrin özəlləşdirilməsinə dair qanunvericiliklə müəyyənləşdirilir.

98.9. Səhmdar cəmiyyətinin yaradılması təsis yığıncağının keçirilməsini və müqavilənin bağlanmasını (bu Məcəllənin 45.2-ci maddəsində nəzərdə tutulmuş halda) və ya səhmdar cəmiyyətinin yaradılması haqqında qərarın qəbul edilməsini (səhmdar cəmiyyəti bir şəxs tərəfindən yaradıldıqda), səhmlərin təsisçilər arasında bölüşdürülməsini və nizamnamənin hazırlanmasını (qəbul olunmasını) əhatə edir.

98.10. Səhmdar cəmiyyətinin yaradılması zamanı təsis yığıncağı təsisçilər arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş müddətdə, səhmdar cəmiyyətinin bütün səhmləri təsisçilər arasında bölüşdürüldükdə keçirilir. Təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətlidir (yetərsay var). Yetərsay olmadıqda, yığıncaq təkrarən keçirilir. Təkrarən keçirilən təsis yığıncağında da Yetərsay olmadıqda, səhmdar cəmiyyətinin yaradılması iclasda iştirak edən təsisçilər və ya onların nümayəndələri tərəfindən baş tutmamış hesab edilir və bu qərar yeddi gün müddətində bütün təsisçilərin nəzərinə çatdırılır.

98.11. Səhmdar cəmiyyətinin yaradılması zamanı keçirilən təsis yığıncağı:

98.11.1. səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərini təsdiq edir;

98.11.2. səhmdar cəmiyyətinin yaradılması barədə qərarı qəbul edir və onun nizamnaməsini təsdiq edir;

98.11.3. bu Məcəllə və səhmdar cəmiyyətinin nizamnaməsi ilə nəzərdə tutulmuş səhmdar cəmiyyətinin idarəetmə, nəzarət və icra orqanlarını təşkil edir;

98.11.4. səhmdar cəmiyyətinin yaradılması və cəmiyyətin fəaliyyətinin başlanılması ilə əlaqədar bu Məcəllə, digər qanunvericilik aktlarına və təsisçilər arasında bağlanılmış müqaviləyə zidd olmayan digər məsələləri həll edir.

98.12. Səhmdar cəmiyyətinin təsis yığıncağında cəmiyyətin təsis edilməsi, nizamnamənin təsdiq edilməsi, səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərinin təsdiq edilməsi, idarəetmə, nəzarət və icra orqanlarının formalaşdırılması barədə qərarlar təsisçilər tərəfindən yekdilliklə, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə qəbul edilir.

98.13. Səhmdar cəmiyyətinin təsisi zamanı səhmlərin buraxılışı və dövlət qeydiyyatı bu Məcəllə və ona uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

98.14. Səhmdar cəmiyyətinin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə cəmiyyətin təsisçiləri birgə məsuliyyət daşıyırlar. (3)

Maddə 99. Açıq səhmdar cəmiyyəti

99.1. Səhmdar cəmiyyətinin iştirakçıları onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bildikdə, o, açıq səhmdar cəmiyyəti sayılır. Bu cür səhmdar cəmiyyəti buraxdığı səhmlərə açıq abunə yazılışını və onların sərbəst satışını həyata keçirə bilər.

99.2. Açıq səhmdar cəmiyyəti illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün hər il dərc etməyə borcludur.

99.3. Açıq səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağında qəbul edilir və bu barədə məlumat açıqlanır. Bu məlumatın açıqlanması qaydası səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmalıdır.

99.4. Açıq səhmdar cəmiyyətinə aidiyyəti olan şəxs ilə həmin cəmiyyət arasında bağlanılan hər hansı əqd, razılaşma və yaxud əlaqəli əqdlər məcmusu aidiyyəti şəxslə əqd hesab edilir. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, aidiyyəti şəxslərin siyahısı, onlarla cəmiyyət arasında əqdlərin bağlanması və belə əqdlər barədə məlumatın açıqlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3, 29)

Maddə 100. Qapalı səhmdar cəmiyyəti

100.1. Səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyəti qapalı səhmdar cəmiyyətidir. Bu cür cəmiyyət buraxdığı səhmlərə açıq abunə yazılışı apara bilməz və ya başqa şəkildə onları əldə edilmək üçün şəxslərin qeyri-məhdud dairəsinə təklif edə bilməz.

100.2. Qapalı səhmdar cəmiyyətinin iştirakçılarının sayı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddi keçməməlidir, əks halda o, bir il ərzində açıq səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onların sayı

azaldılıb müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir.

100.3. Qapalı səhmdar cəmiyyəti bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədləri hamının tanış olması üçün dərc etməyə borcludur.

Maddə 101. Qapalı səhmdar cəmiyyətinin səhmlərinin başqasına keçməsi

101.1. Qapalı səhmdar cəmiyyətinin səhmdarları həmin cəmiyyətin digər səhmdarlarının satdıqları səhmləri əldə etməkdə üstünlük hüququna malikdirlər. Əgər səhmdarlardan heç biri cəmiyyətin nizamnaməsində nəzərdə tutulan müddətdə *lakin satış elan olunduğu tarixdən etibarən otuz gün ərzində* özünün üstünlük hüququndan istifadə etməzsə, *sonrakı otuz gün ərzində* səhmdar cəmiyyəti həmin səhmləri onların mülkiyyətçisi ilə razılaşdırılmış qiymətə özü əldə edə bilər. Səhmdar cəmiyyəti səhmləri əldə etməkdən imtina etdikdə və ya onların qiymətinə dair razılığa gəlinmədikdə səhmlər üçüncü şəxsə özgəninkiləşdirilə bilər. *Bu zaman səhmin satış qiyməti səhmdarlara və ya səhmdar cəmiyyətinə təklif edilən qiymətdən aşağı olmamalıdır. Əks halda səhmdar cəmiyyəti həmin əqdin etibarsız hesab edilməsini və səhmin həmin qiymətə cəmiyyətə satılmasını məhkəmə qaydasında tələb edə bilər.*

101.2. Qapalı səhmdar cəmiyyətinin səhmləri girov qoyulduqda və sonradan onlara girov saxlayan tərəfindən tutma yönəldildikdə müvafiq olaraq bu Məcəllənin 101.1-ci maddəsinin qaydaları tətbiq edilir.

101.3. Əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, qapalı səhmdar cəmiyyətinin səhmləri səhmdar olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxsin hüquq varislərinə keçir. Cəmiyyət səhmlərin səhmdar olan fiziki şəxsin vərəsələrinə və ya hüquqi şəxsin hüquq varislərinə keçməsinə razılıq verməkdən imtina etdikdə bu Məcəllənin 101.1-ci maddəsinin qaydaları tətbiq edilir. (3)

Maddə 102. Səhmdar cəmiyyətinin nizamnaməsi

102.1. Səhmdar cəmiyyətinin nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilən məlumatlardan savayı, cəmiyyətin buraxdığı səhmlərin kateqoriyaları, onların nominal dəyəri və miqdarı haqqında; cəmiyyətin nizamnamə kapitalının miqdarı haqqında; səhmdarların hüquqları haqqında; cəmiyyəti idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında şərtlər göstərilməlidir.

102.2. Səhmdar cəmiyyətinin nizamnaməsində qanunvericiliyə zidd olmayan digər məlumatlar da nəzərdə tutula bilər.

102.3. Səhmdar cəmiyyətinin nizamnaməsinin tələblərinə riayət edilməsi cəmiyyətin bütün orqanları, vəzifəli şəxsləri və səhmdarları üçün məcburidir.

102.4. Səhmdar cəmiyyəti öz səhmdarlarına nizamnamə, ona edilən əlavə və dəyişikliklər ilə tanış olmaq imkanını yaratmalıdır. Səhmdarın tələbi ilə nizamnamənin surəti ona verilməlidir.

102.5. Cəmiyyətin nizamnaməsində əlavə və dəyişikliklərin edilməsi qərarı səhmdarların ümumi yığıncağında, səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir. (3)

Maddə 103. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı

103.1. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı cəmiyyətin səhmdarlar tərəfindən əldə edilmiş səhmlərinin nominal dəyərindən təşkil olunur. *Səhmdar cəmiyyətinin nizamnamə kapitalına qoyuluşların formaları bu Məcəllə və təsisçilər arasında bağlanmış müqavilə ilə müəyyən edilir. Səhmdar cəmiyyətinin nizamnaməsinə qoyuluşlar pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar ola bilər. Səhmdar cəmiyyətinin yaradılması zamanı pul olmayan əmlakın dəyəri təsis yığıncağının qərarı ilə, səhmdar cəmiyyəti yaradıldıqdan sonra isə - səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə müəyyən edilir.*

103.2. Cəmiyyətin nizamnamə kapitalı cəmiyyətin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. O, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz.

103.3. Səhmdar cəmiyyətinin təsisçiləri cəmiyyət qeydə alınanadək nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar. Səhmdar cəmiyyəti təsis edilərkən onun bütün səhmləri təsisçilər arasında bölünməlidir.

103.4. Səhmdarı cəmiyyətin səhmlərini ödəmək vəzifəsindən azad etməyə, o cümlədən cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə azad etməyə yol verilmir.

103.5. Əgər ikinci və hər növbəti maliyyə ili başa çatarkən cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, cəmiyyət öz nizamnamə kapitalının azalmasını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. Əgər cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdarından az olarsa, cəmiyyət ləğv edilməlidir.

103.6. Cəmiyyətin nizamnaməsində səhmlərin sayının, məcmu nominal dəyərinin və ya bir səhmdara mənsub səslərin maksimum sayının məhdudlaşdırılması müəyyənləşdirilə bilər. (3)

Maddə 104. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının artırılması

104.1. Səhmdarların ümumi yığıncağının qərarına əsasən səhmdar cəmiyyəti səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə nizamnamə kapitalını artıra bilər. *Səhmdar cəmiyyətinin səhmlərinin nominal dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydaları qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*

104.2. Cəmiyyətin nizamnaməsində sadə (adi) və ya digər səsli səhmlərə sahib olan səhmdarların cəmiyyət tərəfindən əlavə buraxılan səhmləri satın almaqda üstünlük hüququ müəyyənləşdirilə bilər. (3)

Maddə 105. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılması

105.1. Səhmdarların ümumi yığıncağının qərarına əsasən səhmdar cəmiyyəti səhmlərin nominal dəyərini azaltmaq yolu ilə və ya səhmlərin bir hissəsini satın alıb onların ümumi miqdarını azaltmaq yolu ilə nizamnamə kapitalını azalda bilər.

105.2. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılması haqqında səhmdarların ümumi yığıncağının qərarı qəbul edildiyi gündən on beş təqvim günü müddətində cəmiyyət kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir. Cəmiyyətin kreditorları məlumatı aldıqdan sonra otuz təqvim günü ərzində cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini və çəkdikləri zərərin ödənilməsini tələb edə bilərlər.

105.3. Səhmlərin bir hissəsinin satın alınması və ödənilməsi yolu ilə səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılmasına bu şərtlə yol verilir ki, belə imkan cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş olsun.

105.4. Səhmdar cəmiyyəti tərəfindən nizamnamə kapitalının müvafiq icra hakimiyyəti tərəfindən müəyyənləşdirilmiş minimum miqdardan aşağı endirilməsi cəmiyyətin ləğvinə səbəb olur. (3)

Maddə 105-1. Səhmdar cəmiyyətinin yerləşdirilmiş səhmlərinin geri alınması

105-1.1. Səhmdar cəmiyyəti tərəfindən yerləşdirilmiş səhmlərin geri alınması bu Məcəllə və ya cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş hallarda səhmdarların tələbi ilə həyata keçirilir.

105-1.2. Cəmiyyət nizamnamə kapitalının miqdarını və səhmlərin sayını azaltmaq məqsədi ilə, ümumi yığıncağın qərarı əsasında, əvvəl yerləşdirilmiş səhmlərinin bir hissəsini geri ala bilər. Bu zaman dövriyyədə qalan səhmlərin ümumi nominal dəyəri qanunvericiliklə nizamnamə kapitalı üçün müəyyən edilmiş məbləğin minimal həddindən aşağı olmamalıdır.

105-1.3. Səhmlərin geri alınması səhm sahiblərinin razılığı ilə, səhmlərin geri alınması birja vasitəsi ilə həyata keçirildiyi hal istisna olunmaqla, ümumi yığıncaqda səhmin müəyyən olunmuş qiyməti ilə həyata keçirilir.

105-1.4. Aşağıdakı hallarda cəmiyyətin səhmlərinin geri alınması qərarı qəbul edilə bilməz:

105-1.4.1. cəmiyyətin nizamnamə kapitalı tam formalaşmadıqda;

105-1.4.2.cəmiyyətin ləğvi barədə qərar qəbul edildikdə;

105-1.4.3. səhmdarların tələbi əsasında onların səhmlərinin geri alınması başa çatmadıqda.

105-1.5. Geri alınmış səhmlər səsvermə zamanı nəzərə alınmır və onlar üzrə dividendlər hesablanmır. Bu səhmlər geri satın alındığı tarixdən bir il müddətində ya təkrarən yerləşdirilməli, ya da ümumi yığıncağın qərarı ilə ləğv edilməlidir. (3)

Maddə 106. Səhmdar cəmiyyətinin qiymətli kağızlarının buraxılması

106.1. Səhmdar cəmiyyətinin səhmlərinin, istiqrazlarının və digər növ qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi, dövriyyəsi və ləğvi bu Məcəlləyə, bu Məcəlləyə müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlara və cəmiyyətin nizamnaməsinə müvafiq olaraq həyata keçirilir.

106.2. Səhmdar cəmiyyətinin adi və imtiyazlı səhmlər buraxmaq hüququ vardır. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının ümumi həcmində imtiyazlı səhmlərin payı iyirmi beş faizdən çox ola bilməz. İmtiyazlı səhm öz sahiblərinə səhmdar cəmiyyətinin ləğvindən sonra qalan əmlak hissəsini almaqda başqa səhmdarlara nisbətən üstünlük hüququ və bu cür səhmlərin buraxılması şərtlərində nəzərdə tutulan digər hüquqları verir. Bu Məcəllədə və səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmuş hallar istisna olunmaqla, imtiyazlı səhmlər öz sahiblərinə cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək hüququ vermir.

106.3. Səhmdar cəmiyyətinin qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası bu Məcəllənin 1078-26-cı maddəsinə müvafiq olaraq həyata keçirilir. (3)

Maddə 106-1. Səhmdar cəmiyyətinin səhmdarları

106-1.1. Səhmdar cəmiyyətinin səhmdarı cəmiyyətin bir və ya daha çox sayda səhmlərinin bu Məcəllə ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir.

106-1.2. Bir neçə şəxsə bir səhm mənsub olduğu halda, onlar səhmdar cəmiyyətinə münasibətdə bir səhmdar kimi tanınırlar və öz hüquqlarını nümayəndə vasitəsi ilə həyata keçirə bilərlər.

106-1.3. Səhmdar cəmiyyətinin adi səhminin sahibi olan səhmdarının qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:

106-1.3.1. cəmiyyətin idarə edilməsində bu Məcəllə, digər qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

106-1.3.2. qanunvericiliklə müəyyən edilmiş qaydada, cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

106-1.3.3. cəmiyyətin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;

106-1.3.4. cəmiyyətin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;

106-1.3.5. cəmiyyətin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

106-1.3.6. cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;

106-1.3.7. cəmiyyətin xalis mənfəətindən dividend almaq;

106-1.3.8. cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

106-1.3.9. bu Məcəllədə və səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

106-1.4. Səhmdar cəmiyyətinin imtiyazlı səhminin (hər bir növ üzrə) sahibi olan səhmdarının hüquqları bu Məcəllə və səhmdar cəmiyyətinin nizamnaməsi ilə müəyyən edilir.

106-1.5. Səhmdar cəmiyyətinin nizamnaməsində aşağıdakı məsələlər üzrə qərarların qəbul edilməsində imtiyazlı səhm sahibi səs hüququ əldə edir:

106-1.5.1. səhmdar cəmiyyətinin yenidən təşkil edilməsi;

106-1.5.2. səhmdar cəmiyyətinin ləğv edilməsi;

106-1.5.3. səhmdara məxsus olan imtiyazlı səhm növü üzrə hüquqlarını məhdudlaşdıran dəyişiklik və əlavələrin nizamnamədə edilməsi.

106-1.6. Səhmdar cəmiyyətinin səhmdarının vəzifələri aşağıdakılardır:

106-1.6.1. qanuna və (və ya) nizamnaməyə əsasən kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;

106-1.6.2. səhmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə reyestrsaxlayıcısına on təqvim günü ərzində yazılı bildiriş vermək;

106-1.6.3. qanunvericiliklə müəyyən edilmiş başqa vəzifələri yerinə yetirmək.

106-1.7. Səhmdar cəmiyyətinin səhmdarlarının hüquqlarının müdafiəsi bu Məcəllə, digər qanunlar və normativ hüquqi aktlara uyğun olaraq təmin edilir. (3)

Maddə 106-2. Səhmdar cəmiyyətinin səhmdarlarının reyestri

106-2.1. Səhmdar cəmiyyəti dövlət qeydiyyatına alındığı tarixdən otuz təqvim günündən gec olmayaraq səhmdarlarının reyestrinin aparılmasını təmin etməlidir.

106-2.2. Səhmdar cəmiyyəti, adlı səhmlərin sahiblərinin sayı iyirmidən çox olmadıqda, reyestri özü apara bilər, digər hallarda reyestrin aparılmasını qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcıya həvalə etməlidir.

106-2.3. Səhmdar ildə bir dəfə cəmiyyətin icra orqanından səhmdarların reyestrinin ona təqdim edilməsini tələb edə bilər. Bu halda səhmdar cəmiyyətinin icra orqanı səhmdarların reyestrini beş gün ərzində həmin səhmdara təqdim etməlidir. (3)

Maddə 106-3. Səhmdar cəmiyyətinin mənfəəti və dividendlər

106-3.1. Səhmdar cəmiyyətinin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin səhmdar cəmiyyətinin maliyyə ili üzrə bölüşdürülməsi səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə qəbul edilir.

106-3.2. Səhmdar cəmiyyəti nizamnamədə müəyyən edilməsindən asılı olaraq, dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Səhmdar cəmiyyətinin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır.

106-3.3. Adi səhm üzrə dividend səhmdar cəmiyyətinin xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.

106-3.4. İmtiyazlı səhm üzrə dividend səhmdar cəmiyyətinin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, imtiyazlı səhm sahiblərinə, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində ödənilən vəsaitdir. Həmin vəsaitin ödənilməsini təmin etmək üçün səhmdar cəmiyyəti öz vəsaitləri hesabına xüsusi fondlar yarada bilər.

106-3.5. Dividendlər və onların ödənilməsi qaydası haqqında qərar (həmin məsələ nizamnamədə müəyyən edilmədikdə) cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya həmin orqanlar formalaşdırılmadıqda cəmiyyətin icra orqanının təklifi ilə ümumi yığıncaq tərəfindən qəbul edilir.

106-3.6. Səhmdar cəmiyyəti adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) imtiyazlı səhmlərin bütün növləri üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra həyata keçirir.

106-3.7. Dividendlərin hesablanmasında (bölüşdürülməsində) ilk növbəlilik hüququnu verən imtiyazlı səhmlər üzrə dividendlər digər imtiyazlı səhmlər üzrə dividendlərdən əvvəl bölüşdürülür.

106-3.8. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.

106-3.9. Əgər səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, səhmdar cəmiyyəti dividendləri elan edə və ödəyə bilməz. (3)

Maddə 107. Səhmdar cəmiyyətində idarəetmə

107.1. Səhmdar cəmiyyətinin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

107.1.1. cəmiyyətin nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;

107.1.2. cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

107.1.3. cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, bir şərtlə ki, cəmiyyətin nizamnaməsində bu məsələlərin həlli direktorlar şurasının (müşahidə şurasının) səlahiyyətinə aid edilməsin;

107.1.4. cəmiyyətin illik hesabatlarını, mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;

107.1.5. cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

107.2. Bu Məcəllə ilə səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz.

107.3. Səhmdarlarının sayı əllidən çox olan cəmiyyətdə direktorlar şurası (müşahidə şurası) yaradılır. Direktorlar şurasının (müşahidə şurasının) yaradıldığı halda cəmiyyətin nizamnaməsində onun müstəsna səlahiyyəti müəyyənləşdirilməlidir. Nizamnamə ilə direktorlar şurasının (müşahidə şurasının) müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz.

107.4. Cəmiyyətin icra orqanı kollegial (idarə heyəti, müdiriyyət) və (və ya) təkbaşçı (direktor, baş direktor) ola bilər. O, cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, direktorlar şurasına (müşahidə şurasına) və səhmdarların ümumi yığıncağına hesabat verir. Bu Məcəllə ilə və ya cəmiyyətin nizamnaməsi ilə cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli cəmiyyətin icra orqanının səlahiyyətinə aiddir. Səhmdarların ümumi yığıncağının qərarı ilə cəmiyyətin icra orqanının səlahiyyətləri müqaviləyə əsasən başqa kommersiya təşkilatına və ya fərdi sahibkara (idarəçiyə) verilə bilər.

107.5. Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının səlahiyyətləri, habelə onların qərarlar qəbul etməsi və cəmiyyətin adından çıxış etməsi qaydası bu Məcəlləyə və cəmiyyətin nizamnaməsinə uyğun olaraq müəyyənləşdirilir.

107.6. Bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədlərin dərci zamanı səhmdar cəmiyyəti illik maliyyə hesabatının yoxlanılması üçün əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditoru cəlb etməyə borcludur. Nizamnamə kapitalında məcmu payı on faiz və ya daha çox olan səhmdarların tələbi ilə səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışı hər bir vaxt keçirilməlidir. Səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışının keçirilməsi qaydası qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir.

Maddə 107-1. Səhmdarların ümumi yığıncağının çağırılması

107-1.1. Səhmdarların ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər.

107-1.2. Səhmdarların növbəti ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik ümumi yığıncaq).

107-1.3. Səhmdarların illik ümumi yığıncağı maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq, direktorlar şurası (müşahidə şurası) tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası)

olmadıqda, səhmdarların ümumi yığıncağının çağırılması cəmiyyətin icra orqanı tərəfindən həyata keçirilir.

107-1.4. Səhmdarların ümumi yığıncağının çağırılmasına qırx beş gün qalmış yığıncağın çağırılması barədə kütləvi informasiya vasitələri ilə məlumat verilməli (qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olunmaqla), habelə səhmdarlara və ya nominal saxlayıcılara bu barədə yazılı bildiriş göndərilməlidir. Nominal saxlayıcı həmin bildirişin səhmdara çatdırılmasını təmin etməlidir.

107-1.5. Səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

107-1.5.1. cəmiyyətin adı və olduğu yer;

107-1.5.2. səhmdarların ümumi yığıncağının keçirilmə tarixi, vaxtı və ünvanı;

107-1.5.3. səhmdarların ümumi yığıncağının gündəliyi;

107-1.5.4. səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olunma qaydası.

107-1.6. Səhmdarların növbədənkənar ümumi yığıncağı direktorlar şurasının (müşahidə şurasının) öz təşəbbüsü ilə və ya təftiş komissiyasının (müfəttişin), yaxud səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə cəmiyyətin icra orqanı tərəfindən çağırılır. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) olmadıqda səhmdarların növbədənkənar ümumi yığıncağı icra orqanının təşəbbüsü ilə çağırılır.

107-1.7. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.

107-1.8. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:

107-1.8.1. üç iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin edib, qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olunmaqla, bu barədə kütləvi informasiya vasitələrində elan verməlidir;

107-1.8.2. beş iş günü müddətində səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;

107-1.8.3. otuz gündən tez, qırx beş gündən gec olmayaraq, səhmdarların ümumi yığıncağının keçirilməsini təmin etməlidir. (3)

Maddə 107-2. Səhmdarların ümumi yığıncağında yetərsay

107-2.1. Səhmdarların ümumi yığıncağında səsli səhmlərin altmış faizinin sahibləri iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.

107-2.2. Səhmdarların ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq bu Məcəllənin 107-1.8-ci maddəsində müəyyən edilmiş qaydada yenidən çağırılmalıdır. Bu

zaman ümumi yığıncağın gündəliyi dəyişdirilməməlidir. Yenidən çağırılan ümumi yığıncaq səsli səhmlərin 40 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

107-2.3. Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq bu Məcəllənin 107-1.8-ci maddəsində müəyyən edilmiş qaydada, gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq səsli səhmlərin 25 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

107-2.4. 107-2.3-cü maddəyə əsasən təkrarən çağırılan ümumi yığıncağın keçirilməsi üçün yetərsay təmin olunmadıqda, cəmiyyət qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanına məlumat verərək, yetərsaydan asılı olmadan ümumi yığıncağın qərarı ilə və ya müvafiq icra hakimiyyəti orqanının iddiası əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər. Səhmdarların cəmiyyətin ləğv edilməsi haqqında ümumi yığıncağın qərarından məhkəməyə şikayət etmək hüququ vardır. (3)

Maddə 107-3. Səhmdarın ümumi yığıncaqda iştirakı qaydası

107-3.1. Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirir. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

107-3.2. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş halda, səhmdar ümumi yığıncağın gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf), imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və sair) təsdiq edilməklə, yazılı sənəd vasitəsilə səsvermədə qiyabi iştirak edə bilər.

107-3.3. Qiyabi səsvermənin reqlamenti cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-3.4. Səhm bir neçə şəxsin ümumi birgə mülkiyyətində olduğu halda, ümumi yığıncaqda səsvermə səlahiyyəti onun mülkiyyətçilərinin birinə və ya onların ümumi nümayəndəsinə qanunvericilikdə müəyyən olunmuş qaydada həvalə edilir.

107-3.5. Səhmdarların ümumi yığıncağında səsvermə «bir səsli səhm -- bir səsdir» prinsipi əsasında həyata keçirilir. (3)

Maddə 107-4. Hesablama komissiyası

107-4.1. Səhmdarlarının sayı yüzdən çox olan cəmiyyətlərin ümumi yığıncaqlarında səsvermənin nəticələrinin müəyyən edilməsi üçün sayı üç nəfərdən az olmayan hesablama komissiyası yaradılmalıdır. Hesablama komissiyasına direktorlar şurasının (müşahidə şurasının) üzvləri, təftiş komissiyasının üzvləri (müfəttiş), icra orqanlarının üzvləri (təkbaşçı icra orqanı) və həmin vəzifələrə (vəzifəyə) seçilməyə namizədlər daxil edilməməlidir.

107-4.2. Hesablama komissiyasının yaradılması qaydası cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-4.3. Hesablama komissiyasının protokolu ümumi yığıncağın protokoluna əlavə olunur. (3)

Maddə 107-5. Səhmdarların ümumi yığıncağının qərarı

107-5.1. Səhmdarların ümumi yığıncağının qərarı, bu Məcəllə və cəmiyyətin nizamnaməsi ilə başqa hal nəzərdə tutulmadıqda, bu Məcəllənin 107-3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ümumi yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul edilir. Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir.

107-5.2. Səhmdarların ümumi yığıncağının gündəliyinə daxil edilməmiş məsələlər üzrə qərar qəbul edə bilməz.

107-5.3. Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar on beş təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.

107-5.4. Səhmdarların ümumi yığıncağının qərarından səhmdar məhkəməyə şikayət edə bilər. (3, 19)

Maddə 107-6. Səhmdarların ümumi yığıncağının protokolu

107-6.1. Səhmdarların ümumi yığıncağının protokolu yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir.

107-6.2. Səhmdarların ümumi yığıncağının protokolunda aşağıdakılar göstərilir:

107-6.2.1. ümumi yığıncağın keçirilmə vaxtı və yeri;

107-6.2.2 ümumi yığıncağın gündəliyi;

107-6.2.3. ümumi yığıncağın iştirakçılarının səsli səhmlərinin sayı;

107-6.2.4. iştirak edən səsvermə hüququna malik olan səhmdarların sayı;

107-6.2.5. çıxışların xülasəsi;

107-6.2.6. səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;

107-6.2.7. ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarın dəqiq və səlis ifadə olunmuş mətni.

107-6.3. Səhmdarın tələbi ilə protokolun surəti ona təqdim edilməlidir. (3)

Maddə 107-7. Səhmdar cəmiyyətinin direktorlar şurası (müşahidə şurası)

107-7.1. Bu Məcəllənin 107.3-cü maddəsi ilə nəzərdə tutulmuş halda cəmiyyətin direktorlar şurası (müşahidə şurası) yaradılır. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

107-7.2. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin sayı və onlara olan tələblər cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-7.3. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) tərkibi nizamnamədə nəzərdə tutulmuş sayın yarısına qədər azaldıqda, otuz təqvim günü ərzində cəmiyyətin növbədənkənar ümumi yığıncağı çağırılaraq, direktorlar şurasına (müşahidə şurasına) yeni üzvlər seçilməlidir.

107-7.4. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri ümumi yığıncaqda üç ildən artıq olmayan müddətə bu Məcəllə ilə və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada seçilirlər.

107-7.5. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvü fiziki şəxs olmalıdır. Direktorlar şurasının (müşahidə şurasının) üzvlüyünə, nizamnamədə başqa hal nəzərdə tutulmamışdırsa, cəmiyyətin səhmdarı olmayan şəxs də seçilə bilər. Cəmiyyətin icra orqanlarının üzvləri (təkbaşçı icra orqanı) direktorlar şurasına (müşahidə şurasına) üzv seçilə bilməz.

107-7.6. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya onun üzvünün səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi ümumi yığıncağın qərarı ilə həyata keçirilə bilər. (3)

Maddə 107-8. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) sədri

Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) sədri səhmdarların ümumi yığıncağı tərəfindən direktorlar şurasının (müşahidə şurasının) üzvləri arasından seçilir. Direktorlar şurasının (müşahidə şurasının) sədri şuraya rəhbərlik edir. (3)

Maddə 107-9. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) iclası

107-9.1. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) sədri onun iclaslarını üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədrlik edir. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin), icra orqanının, şura üzvlərinin və nizamnamə ilə müəyyən edilə bilən digər şəxslərin tələbi ilə də direktorlar şurasının (müşahidə şurasının) iclası şuranın sədri tərəfindən çağırılır. Şuranın iclasının keçirilməsi qaydaları cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-9.2. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, şuranın sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir.

107-9.3. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) iclası çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol şuranın sədri tərəfindən imzalanır. (3)

Maddə 107-10. Səhmdar cəmiyyətinin icra orqanı

107-10.1. Cəmiyyətin icra orqanına direktorlar şurasının (müşahidə şurasının) üzvləri seçilə bilməz.

107-10.2. Cəmiyyətin icra orqanının səlahiyyətlərinə bu Məcəllə ilə və nizamnamə ilə cəmiyyətin idarəetmə orqanlarının müstəsna səlahiyyətlərinə aid edilməmiş bütün məsələlər daxildir.

107-10.3. Cəmiyyətin kollegial icra orqanının üzvlərinin sayı və tərkibi, habelə fəaliyyətinin qaydaları cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-10.4. Cəmiyyətin icra orqanının üzvlərinin eyni zamanda digər təşkilatda vəzifə tutmasına, qanunvericiliyə zidd olmadıqda, cəmiyyətin ümumi yığıncağının və ya direktorlar şurasının (müşahidə şurasının) razılığı ilə yol verilir.

107-10.5. Hər hansı bir əqdin bağlanması nəticəsində cəmiyyətin icra orqanının üzvünün şəxsi marağı ilə cəmiyyətin mənafeyi ziddiyyət təşkil etdikdə o, bu barədə direktorlar şurasına (müşahidə şurasına) məlumat verməlidir. Həmin əqdin bağlanması yalnız direktorlar şurasının (müşahidə şurasının) müvafiq qərarı əsasında həyata keçirilə bilər.

107-10.6. Cəmiyyətin icra orqanının və ya direktorlar şurasının (müşahidə şurasının) üzvü mülkiyyətində olan qiymətli kağızlarla əqdi bağlamazdan əvvəl bu barədə məlumatı kütləvi informasiya vasitələrində açıqlamalıdır.

107-10.7. Cəmiyyətin səhmlərinin iyirmi faizinə malik olan səhmdar cəmiyyətin icra orqanının üzvü seçilə bilməz. (3)

Maddə 107-11. Səhmdar cəmiyyətinin təftiş komissiyası (müfəttişi)

107-11.1. Səhmdarların sayı əllidən çox olan cəmiyyətlərdə maliyyə-təsərrüfat fəaliyyətinə nəzarətin həyata keçirilməsi üçün ümumi yığıncaqda təftiş komissiyası (müfəttiş) seçilir (təyin edilir). Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda səhmdarların sayı əllidən çox olmayan cəmiyyətlərdə də təftiş komissiyası (müfəttiş) seçilə (təyin edilə) bilər.

107-11.2. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-11.3. Cəmiyyətin təftiş komissiyasının üzvlüyünə (müfəttiş kimi) fiziki şəxslər seçilir. Təftiş komissiyasının üzvü (müfəttiş) cəmiyyətin səhmdarı, direktorlar şurasının (müşahidə şurasının) və cəmiyyətin icra orqanlarının üzvü ola bilməz.

107-11.4. Cəmiyyətin təftiş komissiyasının üzvlərinin (müfəttişin) səlahiyyət müddəti nizamnamə ilə üç ildən artıq olmayan müddətə müəyyən edilir.

107-11.5. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin təftişi cəmiyyətin təftiş komissiyasının (müfəttişin) təşəbbüsü ilə ümumi yığıncağın və ya direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə və ya cəmiyyətin səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və cəmiyyətin icra orqanının tələbi ilə həyata keçirilir.

107-11.6. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) tələbi ilə cəmiyyətin bütün orqanları və vəzifəli şəxsləri cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər. (3)

Maddə 108. Səhmdar cəmiyyətinin yenidən təşkili və ləğvi

108.1. Səhmdar cəmiyyəti səhmdarların ümumi yığıncağının qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər. Səhmdar cəmiyyətinin yenidən təşkilinin və ləğvinin başqa əsasları və qaydası bu Məcəllə ilə müəyyənləşdirilir.

108.2. Səhmdar cəmiyyəti məhdud məsuliyyətli cəmiyyətə çevrilə bilər.

Maddə 109. Kooperativlər haqqında əsas müddəalar

109.1. Kooperativ fiziki və (və ya) hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə yaradılır.

109.2. Kooperativ üzvü bu Məcəllənin tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı, mütləq və əlavə pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak edən və səs hüququ olan fiziki və (və ya) hüquqi şəxsdir.

109.3. Kooperativin ortaq (assosiativ) üzvü bu Məcəllənin tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı və yalnız mütləq pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak etmək və bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla səs hüququna malik olmayan fiziki və (və ya) hüquqi şəxsdir.

109.4. Kooperativ üzvünün əmlak pay haqqı nizamnamə ilə müəyyənləşdirilən qaydada və həcmdə üzvlər tərəfindən ödənilən daşınar və (və ya) daşınmaz əmlakdan, habelə pulla qiymətləndirilən əmlak hüquqlarından ibarət olan pay haqqıdır. Əmlak pay haqqı mütləq və əlavə ola bilər.

109.5. Mütləq əmlak pay haqqı üzv tərəfindən mütləq qaydada ödənilən, kooperativin fəaliyyətində iştirak etmək, səs vermək və əsas kooperativ ödənişlərini almaq hüququ verən əmlak payıdır.

109.6. Əlavə əmlak pay haqqı üzv tərəfindən bu Məcəllənin 109.5-ci maddəsində göstərilən pay haqqından əlavə, öz arzusu ilə ödənilən və kooperativ ödənişlərindən (əsas kooperativ ödənişlərindən) başqa, həmçinin dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ verən paydır.

109.7. Üzvlük haqqı iştirakçının kooperativ üzvlüyünə daxil olması zamanı bununla bağlı xərclərin ödənilməsi üçün verilən pul məbləğidir. Kooperativ üzvünün kooperativ ödənişləri (əsas kooperativ ödənişləri) və dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ vardır.

109.8. Kooperativ ödənişləri (əsas kooperativ ödənişləri) üzvlərin mütləq əmlak pay haqqına, kooperativdə şəxsi əməyinə və digər növ fəaliyyətinə mütənasib surətdə onlara ödənilən kooperativ mənfəətinin bir hissəsidir.

109.9. Dividend (əlavə kooperativ ödənişləri) yalnız səs hüququna malik olan üzvlərə onların əlavə əmlak pay haqlarına və kooperativin ortaq (assosiativ) üzvlərinin mütləq əmlak pay haqlarına mütənasib surətdə ödənilən kooperativ mənfəətinin bir hissəsidir.

109.10. Kooperativin nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilən məlumatlardan savayı kooperativ üzvlərinin pay haqlarının miqdarı haqqında; pay haqlarının verilməsi qaydası və onların verilməsi öhdəliyinin pozulmasına görə kooperativ üzvlərinin məsuliyyəti haqqında; kooperativin idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul

etməsi qaydası haqqında; kooperativin düşdüyü zərərin ödənilməsi qaydası haqqında şərtləri, sənədlərin tərtibi qaydaları (kooperativə qəbulun, üzvlərin siyahısının və pay haqlarının qəbulunun rəsmiləşdirilməsi, kooperativ üzvlərinin ümumi yığıncağının və digər idarəetmə orqanlarının protokollarının tərtibi və sair) göstərilməlidir.

109.11. Kooperativ qanunla qadağan olmayan istənilən sahədə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada sahibkarlıq fəaliyyətini həyata keçirə bilər. Fəaliyyət xarakterinə görə kooperativlər istehsal, istehlak, qarışıq (istehsal-istehlak) və digər növlərdə ola bilər.

109.12. Kooperativ öz üzvləri ilə onların istehsal etdiyi məhsulları kooperativə satmaq, iş və xidmətləri yerinə yetirmək barədə müqavilələr bağlaya bilər.

109.13. Dövlət orqanları, bələdiyyələr, digər fiziki və hüquqi şəxslər koopertivlə münasibətlərini müqavilə əsasında qururlar. Dövlət orqanları və bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, kooperativlərin təsərrüfat, maliyyə, təşkilati (idarəetmə orqanlarının formalaşdırılması) və digər fəaliyyətinə müdaxilə etmirlər.

109.14. Kooperativdə maliyyə-təsərrüfat fəaliyyətinin operativ və mühasibat uçotu, statistika hesabatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada aparılır.

109.15. Kooperativ öz fəaliyyətini həyata keçirmək üçün muzdla işçilər tutmaq hüququna malikdir. Kooperativin belə işçilərlə əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

109.16. Kooperativin, şəxsi əməyini tətbiq etməklə onun fəaliyyətində iştirak edən üzvləri ilə əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi, bu Məcəllə və kooperativin nizamnaməsi ilə tənzimlənir.

109.17. Kooperativin adında onun fəaliyyətinin əsas məqsədi, habelə «kooperativ» sözü olmalıdır. (2)

Maddə 109-1. Kooperativin yaradılması

109-1.1. Kooperativ beşdən az olmayan fiziki və (və ya) hüquqi şəxslər tərəfindən yaradılır.

109-1.2. Kooperativ yaratmaq məqsədilə fiziki və (və ya) hüquqi şəxslər təşəbbüs qrupu yaradırlar. Təşəbbüs qrupunun vəzifələrinə aşağıdakılar daxildir:

109-1.2.1. pay haqqı fondunun həcmi və onun yaranma mənbələri göstərilməklə kooperativin nəzərdə tutulan fəaliyyətinin əsaslandırılması;

109-1.2.2. kooperativin nizamnamə layihəsinin hazırlanması;

109-1.2.3. kooperativin üzvlüyünə daxil olmaq barədə fiziki və (və ya) hüquqi şəxslərdən ərizələrin qəbul edilməsi;

109-1.2.4. kooperativin təsis yığıncağının hazırlanması və keçirilməsi.

109-1.3. Kooperativin təsis yığıncağı kooperativin yaradılması və onun üzvlüyünə daxilolma barədə qərar qəbul edir; kooperativin nizamnaməsini təsdiq edir; bu Məcəllənin 111-ci maddəsini müddəalarını nəzərə almaqla kooperativin idarəetmə orqanlarını formalaşdırır.

109-1.4. Kooperativin üzvləri öz aralarında bu Məcəllənin 45.2-ci maddəsinə uyğun olaraq təsis müqaviləsi bağlayırlar.

109-1.5. Kooperativin təsis yığıncağının qərarı protokolla rəsmiləşdirilir. (2)

Maddə 109-2. Kooperativin üzvləri

109-2.1. Kooperativin nizamnaməsini qəbul edən və nizamnamə ilə müəyyənləşdirilmiş qaydada və həcmdə üzvlük haqqı və əmlak pay haqqı ödəyən 16 yaşına çatmış fiziki şəxslər və (və ya) hüquqi şəxslər kooperativin üzvü ola bilərlər.

109-2.2. Kooperativin üzvü olan hüquqi şəxslə kooperativdə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müvafiq səlahiyyət verdikləri nümayəndələri vasitəsilə təmsil olunmalıdırlar.

109-2.3. Kooperativin üzvləri kooperativin işində onun fəaliyyət xarakterinə əsasən şəxsi əməyini tətbiq etməklə və ya tətbiq etməməklə iştirak edirlər.

109-2.4. Kooperativin nizamnaməsində ayrı hal nəzərdə tutulmayıbsa, kooperativin üzvü başqa kooperativin də üzvü ola bilər.

109-2.5. Kooperativin üzvlərinə [ortaq (assosiativ) üzvlər istisna olmaqla] onların mütləq əmlak paylarına görə dividendlər ödənilmir.

109-2.6. Kooperativin üzvü yaşına və səhhətinə görə pensiyaya çıxdıqda, kooperativdən kənarda seçkili işə keçdikdə, hərbi xidmətə çağırıldıqda və kooperativin nizamnaməsində nəzərdə tutulmuş digər hallarda kooperativin ümumi yığıncağının qərarına əsasən kooperativdə ortaq (assosiativ) üzvlüyə keçə bilər.

109-2.7. Kooperativin ortaq (assosiativ) üzvünün mütləq əmlak pay haqqının miqdarı və pay haqqı üzrə ödənilən dividendlərin şərtləri kooperativin nizamnaməsinə uyğun olaraq ortaq (assosiativ) üzvlə kooperativ arasında bağlanılan müqavilə əsasında müəyyənləşdirilir. Kooperativin ortaq (assosiativ) üzvünün mütləq əmlak pay haqqının miqdarı kooperativin nizamnaməsində müəyyənləşdirildikdə kooperativin digər üzvlərini mütləq pay haqqı miqdarından artıq məbləğdə müəyyənləşdirilə bilər.

109-2.8. Kooperativin ortaq (assosiativ) üzvü, onun kooperativdə üzvlüyü ilə bağlı şərtlərin kooperativin nizamnaməsində dəyişdirilməsi halları istisna olmaqla səs hüququna malik deyildir. (2)

Maddə 109-3. Kooperativ üzvlüyünə qəbul

Kooperativin üzvlüyünə qəbul, üzv olmaq istəyən şəxsin kooperativə rəsmi müraciəti əsasında nizamnamə ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir. Kooperativin üzvünə üzvlük kitabçası verilir. Kitabçada göstərilən yazıların məzmunu kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir. (2)

Maddə 109-4. Kooperativ üzvlərinin hüquq və vəzifələri

109-4.1. Kooperativin üzvlərinin aşağıda göstərilən hüquqları vardır:

109-4.1.1. kooperativə daxil olmaq və könüllü qaydada kooperativdən çıxmaq;

109-4.1.2. kooperativin idarə edilməsində və fəaliyyətində iştirak etmək, kooperativin orqanlarını seçmək və onlara seçilmək;

109-4.1.3. kooperativin fəaliyyətinə dair məlumat almaq və onun maliyyə, eləcə də digər sənədləri ilə tanış olmaq;

109-4.1.4. kooperativin fəaliyyətinin yaxşılaşdırılması, onun orqanlarının və vəzifəli şəxslərinin işində olan nöqsanların aradan qaldırılması barədə təkliflər vermək;

109-4.1.5. mənfəətin bölüşdürülməsində iştirak etmək və digər ödənişləri almaq;

109-4.1.6. kooperativ ləğv edildikdə kreditorlarla hesablaşmalardan sonra əmlakın onun payına düşən hissəsini və ya bu hissənin dəyərini almaq;

109.4.1.7. kooperativin üzvləri üçün nəzərdə tutulmuş imtiyazlardan və güzəştlərdən istifadə etmək;

109.4.1.8. bu Məcəllə və kooperativin nizamnaməsi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

109-4.2. Bu Məcəllənin 109-4.1.2-ci və 109-4.1.7-ci maddələrində nəzərdə tutulan hüquqlar kooperativin ortaq (assosiativ) üzvlərinə şamil olunmur.

109-4.3. Kooperativin fəaliyyətində şəxsi əməyi ilə iştirak edən üzvlərin göstərilən hüquqlardan savayı, öz əməyinə görə pul və ya natura ilə əməkhaqqı almaq hüququ vardır.

109-4.4. Kooperativin üzvlərinin aşağıda göstərilən vəzifələri vardır:

109-4.4.1. kooperativə daxil olduqda nizamnamədə nəzərdə tutulmuş qaydada və həcmdə üzvlük haqqı və mütləq əmlak pay haqqı vermək və kooperativin fəaliyyəti ilə əlaqədar üzərinə götürdüyü digər öhdəlikləri yerinə yetirmək;

109-4.4.2. nizamnaməyə əməl etmək, kooperativin orqanlarının qərarlarını yerinə yetirmək;

104-4.4.3. bu Məcəllənin 110.4-cü maddəsində nəzərdə tutulmuş hallarda və qaydada kooperativdə əmələ gəlmiş zərərin ödənilməsində iştirak etmək;

109-4.4.4. qanun və nizamnamə ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək. (2)

Maddə 110. Kooperativin əmlakı

110.1. Kooperativin mülkiyyətində olan əmlak kooperativin nizamnaməsinə müvafiq surətdə onun üzvlərinin paylarına bölünür. Kooperativin əmlakı (vəsaitləri) onun əsas fondlarından, dövriyyə vəsaitindən və balansında göstərilən digər maddi dəyərlərdən ibarətdir. Kooperativin əmlakının formalaşdırılması mənbələri onun öz vəsaiti və cəlb edilmiş vəsait ola bilər. Kooperativin öz vəsaitini onun nizamnaməsində nəzərdə tutulmuş əmlak pay haqları, sahibkarlıq fəaliyyətindən, öz vəsaitlərinin banklarda və digər kredit təşkilatlarında, qiymətli kağızlarda yerləşdirilməsindən daxil olan gəlirlər, kreditlər, fiziki və hüquqi şəxslərin ianələri və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırır. Kooperativ tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş qaydada cəlb edilən vəsaitin həcmi kooperativin ümumi vəsaitlərinin (əmlakının) 50 faizindən çox olmamalıdır. Kooperativin əmlakı onun xüsusi mülkiyyətindədir. Kooperativin üzvü onun mülkiyyətində olan əmlakı müqavilə əsasında istifadə edilmək üçün kooperativə verə bilər. Kooperativ ittifaqı onun mülkiyyətində olan əmlakı müqavilə əsasında istifadə edilmək üçün onun üzvü olan kooperativə verə və ittifaqın nizamnaməsində müəyyənləşdirilmiş digər məqsədlər üçün istifadə edə bilər

110.2. Əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativin üzvü kooperativ qeydə alınanadək pay haqqını tamamilə verməyə borcludur.

110.3. Kooperativin nizamnaməsi ilə müəyyənləşdirilə bilər ki, kooperativə mənsub əmlakın bir hissəsini nizamnamə ilə təyin edilən məqsədlər üçün istifadə olunan bölünməz fondlar təşkil edir. Bölünməz fondların yaradılmasına dair qərarı kooperativin üzvləri, əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, yekdilliklə qəbul edirlər.

110.4. Kooperativin üzvləri əmələ gəlmiş zərəri illik balansın təsdiqindən sonra iki ay ərzində əlavə haqlar vermək yolu ilə ödəməyə borcludurlar. Bu vəzifə yerinə yetirilmədikdə kreditorların tələbi ilə kooperativ məhkəmə qaydasında ləğv edilə bilər. Kooperativin üzvləri onun öhdəlikləri üçün kooperativin hər bir üzvünün əlavə haqqının verilməmiş hissəsi həddində birgə subsidiar məsuliyyət daşıyırlar.

110.5. Kooperativin ləğvindən sonra qalan əmlak kooperativin üzvləri arasında onun nizamnaməsinə uyğun olaraq bölüşdürülür.(2)

Maddə 110-1. Kooperativ üzvlərinin pay haqları və kooperativin pay fondu

110-1.1. Kooperativ üzvlərinin kooperativə verdiyi əmlak pay haqları kooperativin pay fondunu təşkil edir. Kooperativin pay fondu kooperativin pay fondu kooperativin kreditorlarının maraqlarına təminat verən kooperativ əmlakının minimal həddini müəyyənləşdirir. Kooperativə daxil olarkən ödənilən üzvlük haqqı pay fonduna daxil deyildir və kooperativin üzvü kooperativdən çıxdıqda qaytarılmır.

110-1.2. Kooperativ üzvlərinin pay haqlarına onların şəxsi borclarına görə tutma yalnız bu Məcəllənin 112.5-ci maddəsində nəzərdə tutulmuş halda və qaydada yönəldilə bilər.

110-1.3. Kooperativin pay fondunun və mütləq payın həcmi, mütləq və əlavə payların ödənilmə qaydası, əmlakla (əmlak hüquqları ilə) ödənilən payların qiymətləndirilmə qaydası nizamnamə ilə müəyyənləşdirilir. Qiymətləndirməyə bu sahədə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məşğul olan şəxslər cəlb edilə bilər.

110-1.4. Əgər ikinci və sonrakı illərin sonunda kooperativin xalis aktivlərinin dəyəri pay fondunun dəyərindən az olarsa, kooperativ üzvlərinin ümumi yığıncağı pay fondunun

azaldığını elan etməyə və onu qanunvericiliklə müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur.

110-1.5. Kooperativ üzvlərinin ümumi yığıncağının qərarı ilə pay fondu artırıla və ya azaldıla bilər. Pay fondunun miqdarı kooperativin xalis aktivlərinin miqdarından artıq olmamalıdır. Kooperativin pay fondunun miqdarı onun xalis aktivlərinin miqdarından artıq olduqda kooperativin pay fondu göstərilən fərq məbləğində mütləq pay haqlarının proporsional azaldılması yolu ilə azaldılmalıdır.

110-1.6. Kooperativin pay fondunun artırılmasına mütləq pay haqları miqdarının artırılması ilə yol verilir. (2)

Maddə 110-2. Kooperativin mənfəəti və onun bölüşdürülməsi

110-2.1. Kooperativin mənfəəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məcburi ödənişlər verildikdən sonra, kooperativin nizamnaməsində nəzərdə tutulmuş hallarda və qaydada kooperativin fondlarına, kreditorlarla hesablaşmaların həyata keçirilməsinə, kooperativin nizamnaməsi ilə müəyyənləşdirilmiş digər məqsədlərə və (və ya) kooperativ ödənişlərinin və dividendlərin ödənilməsinə yönəldilir.

110-2.2. Kooperativin mənfəəti kooperativin üzvləri arasında onların pay (mütləq və əlavə) haqları məbləğinə, habelə kooperativin fəaliyyətində şəxsi əməyi ilə və (və ya) digər formada iştirakına uyğun olaraq bölüşdürülür.

110-2.3. Kooperativ üzvlərinin ümumi yığıncağı ödənilən kooperativ ödənişlərinin və dividendlərin kooperativin mənfəətinin müəyyən miqdarı ilə məhdudlaşdırılmasını müəyyənləşdirə bilər. (2)

Maddə 110-3. Kooperativin və onun üzvlərinin əmlak məsuliyyəti

110-3.1. Kooperativ öz öhdəliklərinə görə ona məxsus olan əmlakı ilə cavabdehdir.

110-3.2. Kooperativ öz üzvlərinin kooperativin fəaliyyəti ilə əlaqədar götürdükləri öhdəliklərinə və bu Məcəllənin 112.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla başqa öhdəliklərinə (borclarına) görə məsuliyyət daşımır.

110-3.3. Kooperativ yaradıldıqdan sonra ona üzv olan şəxs üzv olmasından əvvəl kooperativin götürdüyü öhdəliklərə görə məsuliyyət daşıyır, bir şərtlə ki, nizamnamədə ayrı qayda nəzərdə tutulmasın. Kooperativə üzv olmaq istəyən şəxsə bu barədə bütün zəruri məlumatlar verilməlidir.

110-3.4. Kooperativin üzvləri kooperativin öhdəliklərinə görə subsidiar məsuliyyət daşıyırlar. Kooperativ üzvlərinin kooperativin öhdəliklərinə görə subsidiar məsuliyyəti kooperativin öz öhdəliklərinin silinməsi üçün kifayət qədər vəsaitləri olmadıqda yaranır və bu Məcəllənin 110.4-cü maddəsinə müvafiq qaydada müəyyənləşdirilir. (2)

Maddə 111. Kooperativdə idarəetmə

111.1. Kooperativin ali idarəetmə orqanı onun üzvlərinin ümumi yığıncağıdır. Üzvlərinin sayı əllidən çox olan kooperativdə onun icra orqanlarının fəaliyyətinə nəzarət edən müşahidə şurası yaradıla bilər. Müşahidə şurası üzvlərinin kooperativ adından fəaliyyət

göstərmək ixtiyarı yoxdur. Kooperativin icra orqanları idarə heyəti və (və ya) onun sədridir. Onlar kooperativin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, müşahidə şurasına və kooperativ üzvlərinin ümumi yığıncağına hesabat verirlər. Kooperativin müşahidə şurasının və idarə heyətinin üzvləri, habelə kooperativin sədri yalnız kooperativin üzvlərindən ola bilər. Müşahidə şurasının və ya icra orqanının üzvü oxşar kooperativin üzvü ola bilməz. Kooperativin üzvü eyni zamanda müşahidə şurasının üzvü və idarə heyətinin və ya kooperativin sədri ola bilməz.

111.2. Kooperativin idarəetmə orqanlarının səlahiyyətləri və onların qərarlar qəbul etməsi qaydası kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir.

111.3. Kooperativ üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

111.3.1. kooperativin nizamnaməsini dəyişdirmək;

111.3.2. kooperativin müşahidə şurasını yaratmaq və onun üzvlərinin səlahiyyətlərinə xitam vermək, habelə kooperativin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə xitam vermək, bir şərtlə ki, kooperativin nizamnaməsinə görə bu hüquq onun müşahidə şurasına verilmiş olmasın;

111.3.3. kooperativ üzvlərini qəbul etmək və çıxarmaq;

111.3.4. kooperativin illik hesabatlarını və mühasibat balanslarını təsdiq etmək və zərəri bölüşdürmək;

111.3.5. kooperativin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;

111.3.6. kooperativin nizamnaməsi ilə ümumi yığıncağın müstəsna səlahiyyətinə başqa məsələlərin həlli də aid edilə bilər.

111.4. Kooperativin ümumi yığıncağının və ya müşahidə şurasının müstəsna səlahiyyətinə aid edilmiş məsələləri onlar həll edilmək üçün kooperativin icra orqanlarına verə bilməzlər.

111.5. Ümumi yığıncaqda qərarlar qəbul edilərkən kooperativ üzvünün bir səsi vardır.

111.6. Üzvlərinin sayı 200-dən çox olan kooperativlərdə kooperativ üzvlərinin ümumi yığıncağı kooperativin nizamnaməsinə uyğun olaraq müvəkkillərin yığıncağı şəklində keçirilə bilər. Müvəkkillərin sayı kooperativ üzvlərinin sayı nəzərə alınaraq müəyyənləşdirilir. Müvəkkillər kooperativin nizamnaməsində, aşağıdakılar da daxil olmaqla, nəzərdə tutulmuş qaydada açıq və ya gizli səsvermə yolu ilə seçilir: müvəkkil seçilən kooperativ üzvlərinin sayı; müvəkkillərin səlahiyyətlərinin müddəti; onların seçilmə qaydası. Müvəkkillər öz səlahiyyətlərini başqa şəxslərə, o cümlədən kooperativ üzvlərinə verə bilməzlər. Bu Məcəllənin və kooperativin nizamnaməsinin kooperativ üzvlərinin ümumi yığıncağı barədə müddəaları müvəkkillərin yığıncağına da şamil edilir.

111.7. Kooperativ üzvlərinin ümumi yığıncağı üzvlərin (yaxud onların nümayəndələrinin) yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Müvəkkillərin yığıncağı seçilmiş müvəkkillərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

111.8. Kooperativ üzvlərinin ümumi yığıncağı idarə heyəti (sədr) tərəfindən ildə bir dəfədən az olmayaraq nizamnamə ilə müəyyənləşdirilmiş müddətlərdə və qaydada, ancaq maliyyə ilinin başa çatmasından ən geci üç ay keçənədək çağırılır. Kooperativ üzvlərinin növbədənkənar ümumi yığıncağı idarə heyətinin (sədrin), müşahidə şurasının və təftiş komissiyasının (müfəttişin) təşəbbüsü, yaxud səs hüququna malik olan üzvlərin azı dörddə birinin tələbi ilə çağırılır. İdarə heyətinin (sədrin), müşahidə şurasının və təftiş komissiyasının (müfəttişin) təşəbbüsü, yaxud səs hüququna malik olan üzvlərin ən azı dörddə birinin tələbi ilə kooperativ üzvlərinin növbədənkənar ümumi yığıncağı idarə heyəti (sədr) tərəfindən on beş gün müddətində kooperativin nizamnaməsində müəyyənləşdirilmiş qaydada çağırılır.

111.9. Kooperativin müşahidə şurası yaradıldıqda onun üzvlərinin sayı və səlahiyyət müddəti kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən müəyyənləşdirilir. Müşahidə şurasının iclası zərurət olduqda, lakin yarım ildə bir dəfədən az olmayaraq çağırılır. Müşahidə şurasının iclaslarının keçirilməsi qaydaları kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir. Nizamnamədə nəzərdə tutulmuş hallarda kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən müşahidə şurası, yaxud onun ayrı-ayrı üzvləri onların səlahiyyət müddəti bitməzdən əvvəl geri çağırıla bilər.

111.10. Kooperativin idarə heyəti və (və ya) onun sədri kooperativin cari fəaliyyətinə kooperativ üzvlərinin ümumi yığıncaqları arasındakı dövrdə rəhbərlik edir, onun işlərini aparır, kooperativi təmsil edir. Kooperativ üzvlərinin sayı əllidən çox olduqda kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən onun üzvlərindən kooperativin idarə heyəti seçilir. İdarə heyətinə rəhbərliyi kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən seçilən (təyin edilən) sədr həyata keçirir. Kooperativin idarə heyətinin və (və ya) onun sədrinin (təyin edilməsi), onların səlahiyyətləri və səlahiyyət müddəti, idarə heyəti sədrinin kooperativin əmlakına sərəncam vermək hüququ, onun əmək haqqı, məsuliyyəti, habelə vaxtından əvvəl vəzifədən azad edilməsi (istefa verməsi) əsasları və qaydası kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir.

111.11. Əgər idarə heyəti yaradılmışdırsa, nizamnamədə sədrin və idarə heyətinin səlahiyyətləri (təkbaşına və kollegial qaydada həyata keçirilən səlahiyyətlər) ayrıca göstərilməlidir.

111.12. Kooperativin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirmək məqsədi ilə kooperativ üzvlərinin ümumi yığıncağı kooperativ üzvlərinin sayı əllindən çox olduqda təftiş komissiyası (azı üç nəfərdən ibarət), kooperativ üzvlərinin sayı əllidən az olduqda isə müfəttiş seçir.

111.13. Kooperativin təftiş komissiyası (müfəttişi):

111.13.1. maliyyə-təsərrüfat ilinin nəticələrinə görə kooperativin maliyyə vəziyyətini yoxlayır;

111.13.2. kooperativ üzvlərinin ümumi yığıncağının, müşahidə şurasının sayı on faizdən artıq olan üzvlərin tələbi ilə, habelə öz təşəbbüsü ilə kooperativin maliyyə-təsərrüfat fəaliyyətini növbədənkənar yoxlayır.

111.14. Kooperativin təftiş komissiyası (müfəttişi) yoxlamanın nəticələrinə əsasən kooperativin idarəetmə orqanlarına rəy təqdim edir. Müşahidə şurası və ya idarə heyəti (sədr) yoxlamanın nəticələrinə nizamnamədə nəzərdə tutulmuş qaydada

baxır və müvafiq qərar qəbul edir. Qərarla razılaşmadıqda təftiş komissiyası (müfəttiş) kooperativ üzvlərinin ümumi yığıncağına müraciət edə bilər.

111.15. Nizamnamədə nəzərdə tutulmuş hallarda kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən təftiş komissiyası, yaxud onun ayrı-ayrı üzvləri və ya müfəttiş səlahiyyət müddəti bitməzdən əvvəl geri çağırıla bilər. (2)

Maddə 112. Kooperativdə üzvlüyə xitam verilməsi və payın keçməsi

112.1. Kooperativ üzvünün kooperativdən çıxmaq ixtiyarı vardır. Bu halda ona payının dəyəri ödənilməli və ya payına uyğun əmlak verilməli, habelə kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişlər verilməlidir. Kooperativin çıxan üzvünə payın dəyərinin ödənilməsi və ya başqa əmlakın verilməsi, əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, maliyyə ili qurtardıqdan və kooperativin mühasibat balansı təsdiq edildikdən sonra həyata keçirilir.

112.2. Kooperativin üzvü kooperativin nizamnaməsi ilə ona həvalə olunmuş vəzifələri icra etmədikdə və ya lazımınca icra etmədikdə, habelə kooperativin nizamnaməsi ilə nəzərdə tutulan başqa hallarda ümumi yığıncağın qərarı ilə kooperativdən çıxarıla bilər. Kooperativdən çıxarılmış kooperativ üzvünün bu Məcəllənin 112.1-ci maddəsinə uyğun olaraq, payını və kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişləri almaq hüququ vardır.

112.3. Əgər kooperativin nizamnaməsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativin üzvü öz payını və ya onun bir hissəsini kooperativin digər üzvünə verə bilər. Payın (onun bir hissəsinin) kooperativ üzvü olmayan fiziki şəxsə verilməsinə yalnız kooperativin razılığı ilə yol verilir. Belə halda kooperativin digər üzvləri həmin payı (onun bir hissəsini) almaqda üstünlük hüququna malikdirlər. Əgər kooperativin üzvləri kooperativin nizamnaməsində nəzərdə tutulan müddət ərzində öz üstünlük hüququndan istifadə etməzlərsə, pay üçüncü şəxsə özgəninkiləşdirilə bilər.

112.4. Kooperativin üzvü öldükdə onun vərəsələri, əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativ üzvlüyünə qəbul edilə bilərlər. Əks halda kooperativin ölmüş üzvünün payının dəyəri kooperativ tərəfindən onun vərəsələrinə ödənilir.

112.5. Kooperativ üzvünün şəxsi borclarına görə tutmanın kooperativ üzvünün payına yönəldilməsinə yalnız həmin borcları ödəmək üçün onun başqa əmlakı kifayət etmədikdə kooperativin nizamnaməsi ilə nəzərdə tutulan qaydada yol verilir. Kooperativ üzvünün borclarına görə tutma kooperativin bölünməz fondlarına yönəldilə bilməz.

Maddə 113. Kooperativin yenidən təşkili və ləğvi

113.1. Kooperativ onun üzvlərinin ümumi yığıncağının qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər.

113.2. Kooperativin yenidən təşkilinin və ləğvinin başqa əsasları bu Məcəllə ilə müəyyənləşdirilir.

§ 3. Qeyri-kommersiya təşkilatları

Maddə 114. İctimai birliklər

114.1. İctimai birliyin təsisçilərinin (iştirakçılarının) ictimai birliyə verdikləri əmlak birliyin mülkiyyətidir. İctimai birlik bü əmlakdan onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

114.2. İctimai birliklərin iştirakçıları həmin birliklərin mülkiyyətinə verdikləri əmlaka, o cümlədən üzvlük haqlarına hüquqlarını saxlamırlar. Onlar ictimai birliklərin öhdəlikləri üçün, ictimai birliklər isə öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımırlar.

114.3. İctimai birlik ləğv edildikdə onun əmlakı ictimai birliyin nizamnaməsində göstərilmiş məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

114.4. İctimai birliklərin ayrı-ayrı növlərinin xüsusiyyətləri və hüquqi vəziyyəti bu Məcəllə ilə və qanunvericiliklə müəyyənləşdirilir.

Maddə 115. Fondlar

115.1. Fond üzvlüyü olmayan, fiziki və (və ya) hüquqi şəxslərin ~~könüllü~~ əmlak haqları əsasında təsis etdikləri, sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər güdən təşkilatdır.

115.1-1. Fond yaradılarkən onun nizamnamə kapitalı on min manatdan az olmamalıdır.

115.2. Fondun təsisçilərinin (təsisçisinin) verdiyi əmlak fondun mülkiyyətidir. Fond həmin əmlakdan onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

115.3. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc etməyə borcludur.

115.4. Təsisçilər yaratdıqları fondun öhdəlikləri üçün, fond isə öz təsisçilərinin öhdəlikləri üçün məsuliyyət daşımır.

115.5. Fondun idarə edilməsi və onun orqanlarının formalaşdırılması qaydası fondun təsisçilər tərəfindən təsdiq edilən nizamnaməsi ilə müəyyənləşdirilir.

115.6. Fondun nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilmiş məlumatlardan savayı, fondun «fond» sözü də daxil edilmiş adı, fondun məqsədləri haqqında məlumatlar; fondun orqanları haqqında, o cümlədən fondun fəaliyyətinə nəzarət edən himayəçilik şurası haqqında, fondun vəzifəli şəxslərinin təyin edilməsi və azad edilməsi qaydası haqqında, fondun ləğvi zamanı onun əmlakı barəsində sərəncam verilməsi qaydası haqqında məlumatlar göstərilməlidir.

115.7. Fondların ayrı-ayrı növlərinin, o cümlədən xeyriyyə təşkilatlarının xüsusiyyətləri və hüquqi vəziyyəti bu Məcəllə ilə və qanunvericiliklə müəyyənləşdirilir. (38)

Maddə 116. Fondun nizamnaməsinin dəyişdirilməsi və onun ləğv edilməsi

116.1. Fondun nizamnaməsi fondun orqanları tərəfindən bir şərtlə dəyişdirilə bilər ki, nizamnamədə onun bu qaydada dəyişdirilməsi imkanı nəzərdə tutulmuş olsun. Əgər nizamnamənin dəyişməz şəkildə saxlanılması fondun təsis edilməsi zamanı qabaqcadan nəzərə alınması mümkün olmayan nəticələrə səbəb olarsa, nizamnamədə isə nizamnamənin dəyişdirilməsi imkanı nəzərdə tutulmazsa və nizamnamə vəkil edilmiş şəxslər tərəfindən dəyişdirilməzsə, dəyişikliklər edilməsi hüququ fondun orqanlarının və

ya fondun nizamnaməsi ilə onun fəaliyyətinə nəzarət etməyə vəkil edilmiş orqanın ərizəsinə əsasən məhkəməyə mənsubdur.

116.2. Fondun ləğvi haqqında qərarı maraqlı şəxslərin ərizəsinə əsasən yalnız məhkəmə qəbul edə bilər. Fond aşağıdakı hallarda ləğv edilə bilər:

116.2.1. fondun əmlakı onun məqsədlərinin həyata keçirilməsinə kifayət etmədikdə və lazımi əmlakın əldə edilməsi ehtimalı real olmadıqda;

116.2.2. fondun məqsədlərinə çatmaq mümkün olmadıqda, bu məqsədlər isə lazımi şəkildə dəyişdirilə bilmədikdə;

116.2.3. öz fəaliyyətində fond nizamnamədə nəzərdə tutulan məqsədlərdən yayındıqda;

116.2.4. qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

116.3. Fond ləğv edildikdə onun əmlakı fondun nizamnaməsində göstərilən məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

Maddə 117. Hüquqi şəxslərin ittifaqları

117.1. Kommersiya təşkilatları özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, *habelə ümumi mənafelərin (əmlak mənafeləri daxil olmaqla) təmsil və müdafiə edilməsi (o cümlədən dövlət və digər orqanlarda, beynəlxalq təşkilatlarda)* məqsədi ilə ittifaqlar yarada bilərlər. Əgər iştirakçıların qərarı ilə ittifaqa sahibkarlıq fəaliyyətini həyata keçirmək həvalə edilirsə, belə ittifaq bu Məcəllə ilə nəzərdə tutulan qaydada təsərrüfat ortaqlığına və ya cəmiyyətə çevrilir və ya sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyəti yarada bilər və ya bu cür cəmiyyətdə iştirak edə bilər.

117.2. Qeyri-kommersiya təşkilatları özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədi ilə ittifaqlar yarada bilərlər.

117.3. İttifaqın iştirakçıları özlərinin müstəqilliyini və hüquqi şəxs hüquqlarını saxlayırlar.

117.4. İttifaqın təsisçilərinin (iştirakçılarının) ona verdikləri əmlak ittifaqın mülkiyyətidir. Bu əmlakdan ittifaq onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

117.5. İttifaq öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımır. İttifaqın iştirakçıları onun öhdəlikləri üçün nizamnamədə nəzərdə tutulan miqdarda və qaydada subsidiar məsuliyyət daşıyırlar.

117.6. İttifaqın adında onun iştirakçılarının fəaliyyətinin əsas predmeti, habelə «ittifaq» sözü göstərilməlidir.

117.7. İttifaq ləğv edildikdə onun əmlakı ittifaqın nizamnaməsində göstərilmiş məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

117.8. İttifaqların ayrı-ayrı növlərinin xüsusiyyətləri və hüquqi vəziyyəti bu Məcəllə ilə və qanunvericiliklə müəyyənləşdirilir. (2)

Maddə 118. İttifaqın nizamnaməsi

İttifaqın nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilmiş məlumatlardan savayı, ittifaq iştirakçılarının verdikləri haqların miqdarı, tərkibi və verilməsi qaydası, haqq verilməsi öhdəliyini pozmağa görə onların məsuliyyəti haqqında, ittifaqın idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya ittifaq iştirakçılarının şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında, ittifaqın ləğv edildiyi halda onun əmlakı barəsində sərəncam verilməsi qaydası haqqında məlumatlar göstərilməlidir.

Maddə 119. İttifaq iştirakçılarının hüquq və vəzifələri

119.1. Əgər ittifaqın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, ittifaq iştirakçılarının onun xidmətlərindən əvəzsiz istifadə etmək ixtiyarı vardır.

119.2. İttifaqın iştirakçısı maliyyə ili qurtardıqda ittifaqdan çıxa bilər. Bu halda o, əgər ittifaqın nizamnaməsində ayrı müddət nəzərdə tutulmayıbsa, çıxdığı gündən bir il ərzində ittifaqın öhdəlikləri üçün öz haqqına mütənasib subsidiar məsuliyyət daşıyır. İttifaqın iştirakçısı ittifaqın nizamnaməsində müəyyənləşdirilmiş hallarda və qaydada digər iştirakçıların qərarı ilə ittifaqdan çıxarıla bilər. İttifaqın çıxarılmış iştirakçısının məsuliyyəti barəsində ittifaqdan çıxmaya aid qaydalar tətbiq edilir.

119.3. İştirakçıların razılığı ilə ittifaqa yeni iştirakçı daxil ola bilər. İttifaqa yeni iştirakçının daxil olması ittifaqın o daxil olanadək əmələ gəlmiş öhdəlikləri üçün onun subsidiar məsuliyyəti ilə şərtləndirilə bilər.

~~§ 4. Hüquqi şəxslərin inventar siyahısı, illik balansı və auditi~~

~~*Maddə 120. Hüquqi şəxslərin inventar siyahısı*~~

~~120.1. Öz təsərrüfat fəaliyyətinin əvvəlində hüquqi şəxs, əvvəla, əmlakının tərkibinə daxil olan obyektlərin, o cümlədən torpaq sahələrinin, daşınar obyektlərin, tələblərin və nağd pul məbləğinin, ikincisi, borclarının dəqiq siyahılarını tərtib etməyə, bu zaman ayrı-ayrı əmlak obyektlərinin və öhdəliklərinin dəyərini göstərməyə (inventar siyahısı) borcludur. Sonrakı dövrdə inventar siyahısı hər maliyyə ilinin sonu üçün tərtib edilir. İnventar siyahısı təsərrüfat ili qurtardıqda işlərin lazımi gedişinə uyğun müddətdə tərtib edilir.~~

~~120.2. Əsas kapital obyektləri, habelə xammal, yardımçı və iş materialları, əgər onlar vaxtaşırı dəyişdirilirsə, onların ümumi dəyəri isə firma üçün ikinci dərəcəli əhəmiyyət daşıyırsa, eyni həcmlərdə və eyni dəyərlə qəbul edilməlidir, bu şərtlə ki, miqdar, dəyər və tərkib baxımından onların mövcudluğu yalnız cüzi dəyişikliklərə məruz qalsın. Bu əmlak obyektlərinin maddi inventarlaşdırılması üç ildən bir aparılır. Ehtiyat əmlakın eyni növlü obyektləri, habelə eyni növlü və ya təqribən bərabər qiymətli digər daşınar əmlak obyektləri bir qrupda birləşdirilir və hesablanmış orta dəyərlə qəbul edilir.~~

~~120.3. Əmlak obyektlərinin növlər, miqdar və dəyər baxımından mövcudluğunun inventar siyahısı təkcə ayrı-ayrı əmlak obyektlərinin müfəssəl qeydiyyatı ilə deyil, həm də qəbul olunmuş riyazi-statistik metodlardan istifadə etməklə seçmə sınaqlar yolu ilə də müəyyənləşdirilə bilər. Bu zaman tətbiq olunan prosedur lazımi mühasibat uçotu prinsiplərinə uyğun gəlməlidir. Bu qaydada tərtib edilmiş inventar siyahısının~~

~~informasiya dəyəri maddi inventarlaşdırma vasitəsi ilə tərtib edilmiş inventar siyahısının informasiya dəyərinə uyğun gəlməlidir.~~

~~120.4. Təsərrüfat ilinin sonu üçün inventar siyahısı tərtib edilərkən, əgər əmlak obyektlərinin növlər, miqdar və dəyər baxımından mövcudluğunu müəyyənləşdirməyin mümkünlüyü lazımi mühasibat uçotu prinsiplərinə uyğun gələn başqa üsulla təmin edilirsə, əmlak obyektlərinin həmin an üçün maddi inventarlaşdırılması tələb olunmur.~~

~~120.5. Təsərrüfat ilinin sonu üçün ümumi inventar siyahısında əmlak obyektlərini göstərmək məcburi deyildir, bu şərtlə ki:~~

~~120.5.1. hüquqi şəxs onların növlər, miqdar və dəyər baxımından mövcudluğunu təsərrüfat ili başa çatanadək sonuncu üç ayın və ya təsərrüfat ili başa çatdıqdan sonra ilk iki ayın günlərindən biri üçün tərtib edilmiş xüsusi inventar siyahısında göstərsin;~~

~~120.5.2. yuxarıda göstərilən lazımi mühasibat uçotu prinsiplərinə uyğun gələn artan yekun və ya interpolyasiya metodları ilə xüsusi inventar siyahıyaalması sayəsində təsərrüfat ilinin sonunda mövcud olan əmlak obyektlərinin həmin an üçün lazımınca qiymətləndirilməsinin mümkünlüyü təmin edilsin.~~

~~Maddə 121. Hüquqi şəxsin ilkin və illik balansı~~

~~121.1. Öz fəaliyyətinin əvvəlində və sonralar təsərrüfat ilinin sonunda hüquqi şəxs onun kapitalı ilə öhdəlikləri arasında nisbəti göstərən balans (ilkin balans, balans) tərtib etməlidir. Hər təsərrüfat ilinin sonunda təsərrüfat ili üçün gəlirlərin və xərclərin müqayisəsi (mənfəətlə zərərin hesabı) tərtib edilir. Balans və mənfəətlə zərərin hesabı illik (yekun) balansı təşkil edir. İllik balans lazımi mühasibat uçotu prinsiplərinə müvafiq surətdə işlərin lazımi gedişinə uyğun müddətdə tərtib edilir. İllik balans aydın və dəqiq olmalıdır.~~

~~121.2. İllik balans hüquqi şəxsin qanuni təmsilçiləri tərəfindən Azərbaycan dilində və ölkənin valyutasında tərtib edilir və imzalanır.~~

~~121.3. İllik balansda bütün əmlak obyektləri, borclar, ardıcıl hesabat dövrləri arasında məsrəflər ilə mədaxilin uçotuna hədd qoyan maddələr, habelə xərclər və gəlirlər göstərilməlidir. Aktivlərin maddələrini passivlərin maddələrinə, xərcləri gəlirlərə hesablamaq olmaz.~~

~~121.4. Balansda əsas və dövriyyə kapitalı, öz kapitalı, öhdəliklər, habelə ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddələr ayrıca göstərilməli və onların bölgüsü aparılmalıdır. Əsas kapital üzrə yalnız təsərrüfatın aparılması üçün daimi nəzərdə tutulan obyektlər göstərilməlidir. Firmanın təsis edilməsinə və öz kapitalının cəlb edilməsinə çəkilmiş xərcləri balansa aktivlərin maddələri kimi daxil etmək olmaz. Eyni qayda əsas kapitalın əvəzsiz əldə edilmiş qeyri-maddi əmlak obyektləri üçün də qüvvədədir.~~

~~121.5. Ehtiyatlar hüquqi şəxsə qarşı tələblərin irəli sürülüb-sürülməyəcəyinin və hansı miqdarda sürüləcəyinin məlum olmadığı hallarda öhdəliklər üçün yaradılır. Ehtiyatlar yarımçıq qalmış əqdlər üzrə gözlənilən zərərin ödənilməsi üçün yaradılır. Ehtiyatlar yalnız onların yaradılması zərurəti aradan qalxdıqda ləğv edilir.~~

~~121.6. Ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddələrdə yekun gününədək çəkilmiş xərclər göstərilir. Bunlar həmin gündən sonrakı müəyyən dövrə aid xərclərdir. Ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddələrin passivlərində yekun gününədək olan mədaxil göstərilir. Bunlar həmin gündən sonrakı müəyyən dövrə aid gəlirlərdir.~~

~~121.7. İllik balansda göstərilmiş əmlak obyektləri və öhdəliklər qiymətləndirilərkən aşağıdakı prinsiplər də nəzərə alınmalıdır:~~

~~121.7.1. təsərrüfat ilinin birinci gününə aid dəyər qiymətləri əvvəlki təsərrüfat ilinin yekun balansının dəyər qiymətləri ilə üst-üstə düşməlidir;~~

~~121.7.2. əmlak obyektləri və öhdəliklər yekun günü üçün ayrılıqda qiymətləndirilir;~~

~~121.7.3. dəyər qiymətləndirilməsi ehtiyatla aparılmalı, xüsusən yekun gününədək məlum olmuş və ya əmələ gəlmiş bütün gözlənilən risklər və zərər nəzərə alınmalıdır; bu qayda həmin risklərin və zərərin yalnız yekun günü ilə illik balansın tərtib edildiyi gün arasındakı dövrdə məlum olduğu halda da qüvvədədir;~~

~~121.7.4. mənfəət yalnız o halda nəzərə alınır ki, yekun gününədək o, həqiqətən, reallaşmış olsun;~~

~~121.7.5. təsərrüfat ilinin xərcləri və gəlirləri illik balansda verilmiş və ya alınmış ödənişlər amili nəzərə alınmadan göstərilir;~~

~~121.7.6. əvvəlki təsərrüfat ili üçün illik balansın tərtibi zamanı istifadə olunmuş dəyər qiymətləndirilməsi metodları tətbiq edilməlidir.~~

~~121.8. Yuxarıda göstərilən prinsiplərdən kənara çıxmağa yalnız əsaslandırılmış, müstəsna hallarda icazə verilir; bu cür kənaraçıxmalar qoşmada izah edilməli və əsaslandırılmalıdır.~~

~~121.9. Balansın aktivlərində və passivlərində maddələrin dəyər qiymətləndirilməsi üçün aşağıdakı prinsiplər də tətbiq edilir:~~

~~121.9.1. əmlak obyektləri bu Məcəllənin 121.9.2 və 121.9.3-cü maddələrinə görə yol verilən amortizasiya ayırmaları çıxılmaqla, əldə etməyə və ya hazırlamaya çəkilmiş xərclər üzrə maksimum qiymətləndirilir;~~

~~121.9.2. əsas kapitalın istifadə müddəti məhdud olan əmlak obyektləri üzrə əldə etmə və ya hazırlama xərcləri əvvəlki təsərrüfat ili üçün planlı amortizasiya ayırmaları miqdarında azaldılır. Ayrıca təsərrüfat ili üçün tətbiq edilən planlı amortizasiya normaları müəyyənləşdirilərkən əldə etmə və ya hazırlama xərcləri əmlak obyektindən istifadə ediləcəyinin ehtimal olunduğu təsərrüfat illəri arasında bölünməlidir. Əsas kapitalın bütün əmlak obyektləri üzrə, hətta onların istifadəsi üçün müddət məhdudiyyəti olsa da, plandankənar amortizasiya ayırmaları həyata keçirilərək, əmlak obyektləri ağlabatan kommersiya qiyməti əsas götürülməklə yekun günü üçün onlara verilə bilən daha aşağı dəyər üzrə qiymətləndirilə bilər. Plandankənar amortizasiya ayırması əmlak obyektinin dəyərinin ehtimal edilən sürəkli azalması halında həyata keçirilir;~~

~~121.9.3. dövriyyə kapitalının əmlak obyektləri üzrə amortizasiya ayırmaları ona görə aparılır ki, onlar yekun günü üçün birja və ya bazar qiymətindən irəli gələn daha aşağı dəyər üzrə qiymətləndirilsin. Əgər birja və ya bazar qiymətini müəyyənləşdirmək mümkün deyilsə və əgər əldə etmə və ya hazırlama xərcləri yekun günü üçün əmlak obyektlərindən ötrü qəbul edilə bilən dəyərdən yüksəkdirsə, amortizasiya ayırmaları həmin dəyərədək həyata keçirilir. Bundan başqa, əgər ayırmalar zəruridirsə, onlar ağlabatan kommersiya qiyməti üzrə aparılmalıdır ki, gələcəkdə dəyərin azalıb-artması ilə əlaqədar əmlak obyektlərinin dəyər qiymətinin dəyişməsinin qarşısı alınsın;~~

~~121.9.4. əsas və dövriyyə kapitalında olan qısamüddətli və ya uzunmüddətli tələblər üzrə amortizasiya ayırmaları o halda aparılır ki, bu tələblərin əsasları və ya miqdarı barəsində borclunun etirazı vardır və ya borclunun əmlak vəziyyəti ilə əlaqədar olaraq onların ödənilməsi təmin edilmir, hüquqi şəxsin isə yetərli təminatları yoxdur. Belə tələblər tam miqdarda və ya ən azı ağlabatan kommersiya qiyməti əsas götürülməklə ödənilə bilən məbləğədək silinir;~~

~~121.9.5. Bu Məcəllənin 121.9.2, 121.9.3 və 121.9.4-cü maddələrinə uyğun aşağı dəyər qiymətini amortizasiya üçün əsasların olmadığı halda da saxlamaq mümkündür;~~

~~121.9.6. amortizasiya ayırmaları bir də onun üçün həyata keçirilə bilər ki, əsas və dövriyyə kapitalının əmlak obyektləri yalnız vergi hüququna müvafiq surətdə yol verilə bilən amortizasiya üçün hesabdan silməyə əsaslanan daha aşağı dəyər üzrə qiymətləndirilsin;~~

~~121.9.7. hüquqi şəxsin nizamnaməsinə görə şəriklərin göstərdikləri kapital və ehtiyatlar nominal məbləğ üzrə qiymətləndirilir;~~

~~121.9.8. öhdəliklər geri ödənişlərin məbləğləri üzrə qiymətləndirilməlidir. Əgər öhdəliklər üzrə geri ödənişlərin məbləği xərclərin məbləğindən çoxdursa, yaranan fərq aktivlərin ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddəsi kimi qiymətləndirilə bilər və öhdəliyin qüvvədə olduğu dövr ərzində eyni ölçülü illik paylar şəklində silinir.~~

~~121.10. Əldə etmə xərcləri əmlak obyektini əldə etmək və onu istismara hazır vəziyyətə gətirmək üçün çəkilən xərclərdir, bu şərtlə ki, onlar ayrıca əmlak obyektinə aid edilə bilsin. Əldə etmə xərclərinə onlarla bağlı olan yanakı xərclər və əldə etməyə çəkilən əlavə xərclər də aiddir. Əldə etmə qiymətinin azalması əldə etmə xərclərindən çıxılır.~~

~~121.11. Hazırlama xərcləri əmlak obyektinin hazırlanması, genişləndirilməsi və ya onun ilk vəziyyətindən kənara çıxan dərəcədə xeyli yaxşılaşdırılması üçün malların işlədilməsi və xidmətlərin alınması nəticəsində əmələ gələn xərclərdir. Bu xərclərə xammala və materiallara çəkilən xərclər, istehsal xərcləri və istehsalın xüsusi xərcləri aiddir. Hazırlama xərcləri hesablanarkən onlara, hazırlamaya aid edilə bilmək şərti ilə, zəruri olan ümumi maddi məsrəflərin, zəruri olan ümumi istehsal xərclərinin və əsas kapitala amortizasiya ayırmalarının ağlabatan hissələri də aid edilə bilər. Ümumi idarəetmə ilə bağlı olan pay xərcləri, habelə müəssisənin sosial təsisatlarına, könüllü sosial sığorta və müəssisənin pensiya təminatı üzrə ödənişlərə çəkilən xərclər nəzərə alına bilər. Əvvəlki iki cümləyə uyğun xərclər yalnız o halda nəzərə alına bilər ki, onlar hazırlama dövrünə təsadüf etsin. Satış xərclərini hazırlama xərclərinə daxil etmək olmaz.~~

121.12. Borc kapitalı üçün faizləri hazırlama xərclərinə daxil etmək olmaz. Əmlak obyektinin hazırlanmasını maliyyələşdirən borc kapitalı faizləri hazırlama dövrünə təsadüf etdiyi halda nəzərə alına bilər; belə halda onlar əmlak obyektinin hazırlanmasına çəkilən xərclər sayılır.

121.13. Firma verilərkən hüquqi şəxsin firmanı satın almaq üçün icra etdiyi qarşılıqlı öhdəliyin verilən firmanın borcları çıxılmaqla ayrı-ayrı əmlak obyektlərinin verildiyi məqamdakı dəyərindən çox olan məbləği firmanın dəyəri kimi götürülə bilər. Hər sonrakı təsərrüfat ilində silinmə yolu ilə məbləğin dörddə bir hissəsi ləğv edilir. Firmanın dəyərinin silinməsi ondan istifadənin ehtimal olunduğu təsərrüfat illəri arasında planauyğun şəkildə bölüşdürülə bilər.

121.14. Lazımi mühasibat uçotu prinsiplərinə uyğun olaraq, eyni növlü əmlak obyektlərinin dəyər qiymətləndirilməsi barəsində belə bir ehtimalı ehtiyatda saxlamaq olar ki, birincilərin əldə etdikləri və ya hazırladıqları əmlak obyektləri və sonuncuların əldə etdikləri və ya hazırladıqları əmlak obyektləri birincilər tərəfindən və ya digər müəyyən ardıcıllıqla istifadə edilmiş və ya özgəninkiləşdirilmişdir.

Maddə 122. Balansın tərtibi

122.1. Balans hesab formasında tərtib edilir. Yekun günündək on iki ay ərzində balans məbləği və dövriyyədən mədaxili müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi son məbləğdən yüksək olmayan hüquqi şəxslər aşağıda hərflərlə və Roma rəqəmləri ilə işarələnmiş bəndlərdəki aktivlərdə və passivlərdə verilən maddələri sonrakı bölgünü aparmadan yalnız ümumi məbləğdə göstərə bilərlər; tələb edilən ardıcıllıq gözlənilməlidir.

122.2. Balansın aktivlərinə aşağıdakılar daxil edilir:

A. Əsas kapital:

A.I. Qeyri-maddi əmlak obyektləri:

A.I.1. Konsessiyalar, əqli əmək nəticələrinin müdafiəsi hüquqları və oxşar hüquqlar və sərvətlər, habelə bu cür hüquqlar və sərvətlər üçün xüsusi icazələr (lisenziyalar);

A.I.2. Firmanın dəyəri;

A.I.3. Qeyri-maddi əmlak obyektləri üzrə icra edilmiş avans ödənişləri.

A.II. Əşya şəklində mayalar:

A.II.1. Torpaq sahələri və onlara bərabər hüquqlar və binalar, o cümlədən özgə torpaq sahələrindəki binalar;

A.II.2. Texniki avadanlıq və maşınlar;

A.II.3. Digər avadanlıq, firmanın ləvazimatı;

A.II.4. Əşya şəklində mayalar və tikilməkdə olan avadanlıq üzrə icra edilmiş avans ödənişləri.

A.III. Maliyyə qoyuluşları:

A.III.1. İqtisadi cəhətdən bağlı firmalarda pay iştirakları;

A.III.2. Qiymətli kağızlar;

A.III.3. İqtisadi cəhətdən bağlı firmalara qoyuluşlar;

A.III.4. Digər qoyuluşlar.

B. Dövriyyə kapitalı:

B.I. Ehtiyatlar:

B.I.1. Xammal, yardımçı və iş materialları;

B.I.2. Yarımçıq məhsul, yarımçıq xidmətlər;

B.I.3. Hazır məhsul və mallar;

B.I.4. İcra edilmiş avans ödənişləri.

B.II. Tələblər və digər əmlak obyektləri:

B.II.1. Göndərmə və xidmətlər üzrə tələblər;

B.II.2. İqtisadi cəhətdən bağlı firmalara tələblər;

B.II.3. Digər əmlak obyektləri.

B.III. Qiymətli kağızlar.

B.IV. Çeklər, kassa nəqdiyyəsi və kredit idarələrindəki nağdsız vəsait.

C. Ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddələr.

Ç. Yekun (balans məbləği).

122.3. Balansın passivlərinə aşağıdakılar daxil edilir:

A. Öz kapitalı:

A.I. Nizamnamə kapitalı (tam və kommandit ortaqlıqlarında və kooperativlərdə — onların üzvlərinin kapital hesablarındakı məbləğ);

A.II. Kapital ehtiyatı;

A.III. Mənfəətdən ehtiyata ayırmalar:

A.III.1. Qanun üzrə ehtiyat;

A.III.2. Nizamnamə üzrə ehtiyat;

A.III.3. Mənfəətdən ehtiyata digər ayırmalar;

A.III.4. Əvvəlki illərdən keçirilmiş mənfəət və ya keçirilmiş zərər;

A.III.5. İllik artıqlıq və ya illik əskiklik.

B. Ehtiyata ayırmalar:

B.1. Vergilərin ödənilməsi üçün ehtiyata ayırmalar;

B.2. Qeyri-müəyyən öhdəliklərin ödənilməsi üçün ehtiyata ayırmalar.

C. Öhdəliklər:

C.1. Borclar;

C.2. Kredit idarələri qarşısında öhdəliklər;

C.3. Sifarişlər üzrə alınmış avans ödənişləri;

C.4. Göndərmə və xidmətlər üzrə öhdəliklər;

C.5. Köçürmə veksellərinin ödənişə qəbul edilməsi və öz veksellərinin çıxarılması üzrə öhdəliklər;

C.6. İqtisadi cəhətdən bağlı firmalar qarşısında öhdəliklər;

C.7. Vergilər və sosial ayırmalar üzrə öhdəliklər;

C.8. Digər öhdəliklər.

Ç. Ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddələr.

D. Yekun (balans məbləği).

122.4. Əgər hüquqi şəxsin göstərilən maddələrdən birinə aid edilə bilən əmlak obyektləri və ya öhdəlikləri yoxdursa, balansda həmin maddəni göstərməmək olar. Əgər əmlak obyekti və ya öhdəlik balansın bir neçə maddəsinə uyğun gəlirsə, onların başqa maddələrə də mənsub olması göstərildikləri maddədə qeyd edilir. Əvvəlki təsərrüfat ilinin sonuna aid müvafiq məbləğ balansda hər maddə üzrə ayrıca qrafada göstərilir.

122.5. Hüquqi şəxsin təsərrüfat fəaliyyətinin hərəkətə gətirilməsinə və genişləndirilməsinə çəkilən xərcləri, əgər onlardan balansda istifadə etmək mümkün deyilsə, aktivlərə balans subsidiyası kimi daxil etmək olar. «Təsərrüfat fəaliyyətinin hərəkətə gətirilməsi və genişləndirilməsi xərcləri» adlanan həmin maddə balansda əsas kapitalın qarşısında göstərilir və qoşmada izah edilir. Əgər belə maddələr balansda aktivlər üzrə göstərilirsə, mənfəət yalnız o halda bölüşdürülə bilər ki, bölgüdən sonra qalan və istənilən vaxt nağdlaşdırıla bilən mənfəətdən ehtiyata ayırmalar, keçirilmiş

~~mənfəət əlavə edilməklə və keçirilmiş zərər çıxılmaqla qiymətləndirmə məbləğindən az olmasın.~~

~~122.6. Başqa firmalara qoyulan və həmin firmalarla yaranmış uzunmüddətli əlaqələr sayəsində hüquqi şəxsin öz fəaliyyətinə xidmət üçün nəzərdə tutulan paylar həmin firmalarda iştirak sayılır. Bu zaman həmin iştirakın qiymətli kağızlarla təsdiq edilib-edilmədiyi vacib deyildir. Şübhə olduqda səhmdar cəmiyyətlərinə qoyulan, nominal məbləğləri bütövlükdə həmin cəmiyyətin nominal kapitalının beşdə bir hissəsini təşkil edən paylar iştirak sayılır.~~

~~122.7. Hüquqi şəxsin üçüncü şəxslərə və ya iqtisadi cəhətdən bağlı firmalara uzun müddətə, lakin verildiyi andan ən azı iki il müddətinə verdiyi ssudalar qoyuluşlar sayılır. Qoyuluş kimi sənəddən sənədə keçirilmə üçün yalnız ssudanın verildiyi ilkin şərtləşdirilmiş müddət əsas götürülür.~~

~~122.8. Hüquqi şəxsin öhdəlikləri üzrə şəriklərin kreditorlar qarşısında məsuliyyətinə nizamnaməyə əsasən məhdudiyyət qoyan kapital göstərilmiş kapital sayılır. Göstərilmiş kapital üzrə verilməmiş mayalar aktivlərdə əsas kapital qarşısında ayrıca göstərilir və müvafiq surətdə adlandırılır, o cümlədən verilmiş mayalar qeyd edilir. Zərər nəticəsində öz kapitalı tükəndikdə və passivlərin aktivlərdən artıqlığı əmələ gəldikdə, həmin məbləğ balansın axırında aktivlərdə «öz kapitalı ilə ödənilməyən əskiklik» adı altında ayrıca göstərilir.~~

~~122.9. Kapital ehtiyatları kimi aşağıdakılar göstərilir:~~

~~122.9.1. hüquqi şəxsin səhmləri buraxılarkən, yeni buraxılan səhmlər də daxil olmaqla, nominal məbləğdən artıq əldə edilən məbləğ;~~

~~122.9.2. hüquqi şəxsin səhmlərinin əldə edilməsi üçün konversiya və opsion borc istiqrazları buraxılarkən əldə edilən məbləğ;~~

~~122.9.3. öz səhmlərinə görə preferensiyalar üçün şəriklərin verdikləri əlavə ödənişlərin məbləği;~~

~~122.9.4. şəriklərin əldə etdikləri mayalara uyğun olaraq cəmiyyətin kapitalına qaytarılmaq hüququ olmadan verdikləri nominal məbləğdən yuxarı digər ödənişlərin məbləği.~~

~~122.10. Qanuni göstərişlərə, nizamnaməyə və ya şəriklərin müvafiq qərarına uyğun olaraq, illik artıqlıqdan tutulası vergiləri çıxmaqla ondan ehtiyata ayrılan məbləğlər mənfəətdən ehtiyata ayırmalar sayılır.~~

~~Maddə 123. Mənfəətin və zərərin hesabı~~

~~123.1. Mənfəətin və zərərin hesabı pilləli formada tərtib edilir. Bu zaman aşağıdakı maddələr göstərilən ardıcıllıqla ayrıca qeyd edilir:~~

~~123.1.1. dövriyyədən mədaxil;~~

~~123.1.2. hazır məhsulun və yarımçıq məhsulun mövcudluğunun artımı və ya azalması;~~

~~123.1.3. öz istehsalının kapitala çevrilmiş məhsulu;~~

~~123.1.4. ümumi balans;~~

~~123.1.5. xammala, yardımçı və iş materiallarına, mallar və xidmətlər əldə edilməsinə çəkilən xərclər;~~

~~123.1.6. əmək haqqı və sosial sığorta xərcləri;~~

~~123.1.7. əsas kapitalın qeyri-maddi əmlak obyektləri üzrə amortizasiya ayırmaları və təsərrüfat fəaliyyətinin hərəkətə gətirilməsinə çəkilən, aktivlər üzrə keçən xərclər;~~

~~123.1.8. digər istehsal məsrəfləri;~~

~~123.1.9. müəssisənin təsərrüfat fəaliyyətinin nəticələri;~~

~~123.1.10. iqtisadi cəhətdən bağlı firmalar da daxil olmaqla, pay iştirakları üzrə gəlirlər;~~

~~123.1.11. əsas kapitalın qiymətli kağızları və qoyuluşlar üzrə gəlirlər;~~

~~123.1.12. digər faizlər və oxşar gəlirlər;~~

~~123.1.13. maliyyə qoyuluşları və dövriyyə kapitalının qiymətli kağızları üzrə amortizasiya ayırmaları;~~

~~123.1.14. faizlər və oxşar xərclər;~~

~~123.1.15. adi təsərrüfat fəaliyyətinin nəticələri;~~

~~123.1.16. fövqəladə gəlirlər;~~

~~123.1.17. fövqəladə xərclər;~~

~~123.1.18. gəlirlərdən vergilər;~~

~~123.1.19. digər vergilər;~~

~~123.1.20. illik artıqlıq və ya illik əskiklik.~~

~~123.2. Əgər hüquqi şəxsin mənfəət və zərər hesabının maddələrindən birinə aid olan xərcləri və ya gəlirləri əmələ gəlməmişdirsə, bu maddəni göstərməmək olar. Əgər hüquqi şəxsin xərcləri və gəlirləri əvvəlki il üçün mənfəət və zərər hesabında eyni növlü xərclərin və gəlirlərin göstərildiyi maddədə göstərilmirsə, onda bu, həmin maddələrə aid məbləğ göstərilməklə mənfəət və zərər hesabında qeyd edilir və əgər söhbət hüquqi şəxsin təsərrüfat fəaliyyətinin nəticəsi üçün mühüm məbləğlərdən gedirsə, qoşmada izah olunur.~~

~~123.3. Kapital ehtiyatlarının və ya mənfəətdən ehtiyata ayırmaların artması və ya azalması mənfəət və ya zərər hesabında yalnız «illik artıqlıq» və ya «illik əskiklik» maddəsindən sonra göstərilir.~~

123.4. Mənfəət və zərər hesabının ayrı-ayrı maddələri üzrə göstərişlər.

123.4.1. dövriyyədən mədaxil – mədaxilin azalması (məsələn, bonus, güzəştlər) və dövriyyədən gəlir çıxılmaqla, hüquqi şəxsin adi təsərrüfat fəaliyyəti üçün səciyyəvi olan məmulatın və malların satılmasından və kirayəyə və ya icarəyə verilməsindən, habelə hüquqi şəxsin adi təsərrüfat fəaliyyəti üçün səciyyəvi olan xidmətlərin göstərilməsindən götürülən mədaxildir.

123.4.2. mövcudluqda dəyişmələr – ehtiyatların həm miqdarının, həm də dəyərinin dəyişməsidir; lakin yalnız hüquqi şəxsin adi amortizasiya ayırmalarından yüksək deyildirsə, amortizasiya ayırmalarıdır.

123.4.3. plandankənar amortizasiya ayırmaları, habelə amortizasiya ayırmaları müvafiq olaraq ayrılıqda göstərilir və ya qoşmada qeyd edilir. Zərərin keçməsi ilə əlaqədar olan və mənfəətin ayrılmasına dair müqaviləyə və ya mənfəətin bir hissəsinin ayrılmasına dair müqaviləyə əsasən alınmış gəlirlər və xərclər və ya köçürülmüş mənfəət müvafiq adlar altında ayrılıqda göstərilir.

123.4.4. «fövqəladə gəlirlər» və «fövqəladə xərclər» maddələrində hüquqi şəxsin adi təsərrüfat fəaliyyətindən kənarda əmələ gələn gəlirlər və xərclər göstərilir. Əgər göstərilmiş məbləğlər gəlirliyin xarakteristikası üçün böyük əhəmiyyət daşıyırsa, qoşmada həmin maddələrin məbləğinə və növünə aid izahat verilir. Yuxarıdakı müddəalar digər təsərrüfat ilinə aid olan gəlirlər və xərclər üçün də etibarlıdır.

123.4.5. hüquqi şəxsin vergi ödəyicisi kimi ödədiyi və ya ödəməli olduğu məbləğlər vergilər kimi göstərilir.

Maddə 124. Hüquqi şəxsin illik balansına qoşma

124.1. Hüquqi şəxsin illik balansına əlavə olaraq qoşma tərtib edilir və bu qoşmada balansa dair izahatlar verilir. İllik balansın tərtibi zamanı istifadə edilmiş balanslaşdırma və qiymətləndirmə metodları hüquqi şəxsin əmlak vəziyyəti və gəlirliyi barəsində mümkün qədər dəqiq təsəvvür almaq üçün zəruri olan dərəcədə dolğun şərh edilir. Əvvəlki yekun balanslarında istifadə edilmiş balanslaşdırma və qiymətləndirmə metodlarından kənaraçıxmalar göstərilir və əsaslandırılır, habelə hüquqi şəxsin əmlak vəziyyətinə, maliyyə vəziyyətinə və gəlirliyinə onların təsiri səciyyələndirilir. Qoşmada borc kapitalı üzrə faizlərin alınıb-alınmadığı göstərilir. Plandankənar amortizasiya ayırmaları izah edilir və əsaslandırılır.

124.2. Veksellərin indossamenti və başqasına verilməsi üzrə, zaminlik üzrə, veksellərə və çeklərə, qarantiya müqavilələrinə dair zaminlik üzrə öhdəliklər, habelə özgə öhdəlikləri üzrə qarantiyalar verilməsi üçün məsuliyyət bağlılığı balansın passivlərində göstərilmədikdə qoşmada qeyd edilir; onlar bir məbləğ şəklində göstərilə bilər. Yuxarıdakı öhdəliklər və məsuliyyət bağlılığı onlara dair eyni dəyərli geri tələblər olduqda da göstərilir. Daha sonra balansda təmsil olunmayan digər maliyyə öhdəliklərinin ümumi miqdarı göstərilir; onlara sürəkli öhdəlik münasibətləri də aiddir, özü də müqavilənin ləğvinin növbəti müddətinədək hüquqi şəxsin xərclərinin dəyər qiyməti verilir.

124.3. Sonra qoşmada idarəetmə üçün cavabdeh olan bütün şəxslərin saxlanmasının ümumi məbləği (maaşlar, mənfəətdə iştirak, xərclərin əvəzinin ödənilməsi, sığorta

ödənişləri, komisyon muzdları və hər cür əlavə haqlar), habelə müşahidə orqanları üzvlərinin əməyinin ödənilməsi göstərilməlidir. Bu ümumi məbləğlərə həmçinin saxlanmaya çəkilən, lakin ödənilməyən və başqa növ tələblərə çevrilən və ya başqa tələblərin artırılması üçün istifadə olunan ödənişlər daxil edilir. Təsərrüfat ili ərzində saxlanmaya sərf edilən ödənişlərdən başqa, təsərrüfat ili ərzində həyata keçirilsə də, hələlik heç bir illik balansda göstərilməmiş digər ödənişlər göstərilir. Əgər hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh şəxslər hüquqi şəxsin özü üçün fəaliyyətlərinə görə və ya qanuni təmsilçilər kimi və ya hüquqi şəxslə iqtisadi cəhətdən bağlı olan hüquqi şəxslərdən birinin qulluqçuları kimi fəaliyyətlərinə görə ödənişlər alırlarsa, bu məbləğlər ayrılıqda göstərilir. Daha sonra hüquqi şəxsin işlərinin idarə edilməsinə bundan əvvəl cavabdeh olmuş şəxslərə ödənişlərin ümumi məbləğləri (peşiman haqları (kompensasiyalar), pensiyalar, ailə başçısını itirməyə görə pensiyalar və oxşar xidmətlər) göstərilir. Əgər həmin şəxslər və ya onların ölümündən sonra qalan qohumları iqtisadi cəhətdən bağlı olan hüquqi şəxsdən də peşiman haqları (kompensasiyalar) və ya pensiyalar alırlarsa, bunlar ayrılıqda göstərilir.

124.4. Bundan başqa, qoşmada, əgər hüquqi şəxs bu barədə xəbərdar edilmişdirsə, hüquqi şəxsdə iştirak payının mövcudluğu göstərilir; bu zaman payın kimə mənsub olduğu və hüquqi şəxsin göstərilən kapitalının dörddə bir hissəsindən çox olub-olmadığı və ya bir neçə şəxsin pay iştirakı olub-olmadığı göstərilir. Bundan başqa, ölkədə yerləşən iqtisadi cəhətdən bağlı hüquqi şəxslərlə hüquqi və işgüzar əlaqələr, habelə bu hüquqi şəxslərdə aparılan və hüquqi şəxsin vəziyyətinə mühüm təsir göstərə bilən ticarət əməliyyatları göstərilir.

124.5. Qoşma vicdanlı və icraçı hesabat prinsiplərinə uyğun gəlməlidir. Əgər ağlabatan kommersiya hesabına görə müfəssəl məlumatın göstərilməsi hüquqi şəxsə və ya iqtisadi cəhətdən bağlı hüquqi şəxsə mühüm zərər vura bilərsə, bu məlumat həmin zərərin vurula biləcəyinin ehtimal olunduğu dərəcədə göstərilməyə bilər. Əgər məlumatlar təsərrüfat fəaliyyəti sirrinin qorunması haqqında göstərişlərə əsasən açıqlanmırsa, qoşmada onların göstərilməli olduğu bənddə qeyd edilir ki, bu bəndin məlumatlarına müdafiə haqqında qeyd-şərt tətbiq edilmişdir.

124.6. Qoşmada hüquqi şəxsin işlərinin idarə olunmasına cavabdeh olan bütün şəxslərin və müşahidə orqanlarının bütün üzvlərinin, habelə təsərrüfat ilində və ya daha sonra çıxmış bütün şəxslərin soyadları və azı bir tam adı göstərilir. Hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh olan şəxslərin daxil olduğu orqanının sədri və müşahidə orqanının sədri özləri kimi göstərilir.

Maddə 125. İşlərin vəziyyəti haqqında hesabat

Həcmləri bu Məcəllənin 122.1-ci maddəsində göstərilənlərdən yüksək olan hüquqi şəxslər işlərin vəziyyəti haqqında hesabat tərtib etməlidirlər. Hesabatda ən azı illik hesabatın tərtib edildiyi ana qədər hüquqi şəxsin işlərinin gedişi və əmlak vəziyyəti əks etdirilməli, həm də elə əks etdirilməlidir ki, faktik vəziyyətə uyğun mənzərə əldə olunsun. İşlərin vəziyyəti haqqında hesabatda təsərrüfat ilinin sonunadək həyata keçirilmiş xüsusi əhəmiyyətli əməliyyatlar üzərində dayanılmalı, habelə hüquqi şəxsin cari ildə və imkan daxilində növbəti təsərrüfat ilində ehtimal edilən inkişafı göstərilməlidir.

Maddə 126. Audit

~~126.1. Bu Məcəllə ilə tələb edilən hallarda və ümumiyyətlə, həcmləri 122.1-ci maddədə göstərilənlərdən yüksək olan hər bir hüquqi şəxsin, qoşma da daxil olmaqla, illik balansı auditor tərəfindən yoxlanılmalıdır. Auditor yoxlamanın nəticələri haqqında yazılı hesabat tərtib etməlidir. Hesabatda mühasibat uçotunun, illik balansın və qoşmanın qanuni göstərişlərə uyğun gəlib-gəlmədiyi və hüquqi şəxsin qanuni təmsilçilərinin auditor tərəfindən tələb olunan izahatları və təsdiqləyici sənədləri təqdim edib-etmədikləri xüsusi qeyd olunmalıdır. Auditor hesabatı imzalayıb hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh olan şəxslərə təqdim etməlidir.~~

~~126.2. Əgər yoxlamanın yekun nəticəsinə görə heç bir irad yoxdursa, auditor bunu belə bir qeydlə təsdiq etməlidir: «Qulluq borcumla əlaqədar apardığım (apardığımız) yoxlama ilə müəyyənləşdirilmişdir ki, mühasibat uçotu və illik balans qanuni göstərişlərə və nizamnamənin müddəalarına uyğundur. Lazımi mühasibat uçotu baxımından illik balans hüquqi şəxsin əmlak, maliyyə vəziyyətinin və gəlirliyinin faktik münasibətlərə uyğun olan mənzərəsini yaradır». Əgər əlavə qeydlər edilməsi zəruridirsə, onda yoxlamanın məzmunu və təsdiqləyici qeydin mənası haqqında yanlış təəssürata yol verməmək üçün təsdiqləyici qeyd tamamlanır. Əgər iradlar vardırsa, auditor ya təsdiqləyici qeydi ixtisar edir, ya da ondan imtina edir.~~

~~126.3. Yoxlama aparılmadıqda illik balans qəbul edilmir. Əgər hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh olan şəxslər yoxlama haqqında hesabat onlara təqdim edildikdən sonra illik balansı və ya qoşmanı dəyişdirərlərsə, onda auditor illik balansı və qoşmanı, dəyişiklik bunu tələb edirsə, yoxlamalıdır. Auditor təsdiq haqqında öz qeydini və ya təsdiqləmədən imtina haqqında qeydini imzalayaraq olduğu yeri və tarixi göstərir. Təsdiqləmə haqqında qeyd və ya təsdiqləmədən imtina haqqında qeyd də yoxlama haqqında hesabata daxil edilir.~~

~~126.4. İllik balansın auditorunu hüquqi şəxsin üzvlərinin yığıncağı seçir. Auditor müvafiq surətdə yoxlamalı olduğu təsərrüfat ilinin sonunadək seçilir. Seçkidən dərhal sonra hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh olan şəxslər auditora yoxlama tapşırığı verməlidirlər.~~

~~126.5. Azərbaycan Respublikasında auditor fəaliyyəti ilə məşğul olmağa icazə almış müstəqil auditorlar və auditor təşkilatları auditor ola bilərlər. Birbaşa, dolayısı ilə və ya özgə əmlakının idarəçiləri kimi hüquqi şəxsdə payları olan və ya hüquqi şəxsin kitablarının tərtibi və ya yoxlanmalı olan illik balansının tutulması zamanı öz yoxlamasının çərçivəsindən kənara çıxan fəaliyyətdə iştirak etmiş şəxslər hüquqi şəxsin auditoru ola bilməzlər.~~

~~126.6. Auditor, onun assistentləri və təftiş firmasının yoxlamada iştirak edən təmsilçiləri auditi vicdanla və qərəzsiz aparmalı və sirri saxlamalıdırlar. Onlar iş zamanı özlərinə bəlli olan təsərrüfat fəaliyyəti sirrindən istifadə edə bilməzlər. Bilərəkdən və ya ehtiyatsızlıq üzündən öz vəzifələrini pozanlar bununla əlaqədar yaranan zərərin əvəzini hüquqi şəxsə ödəməyə borcludurlar.~~

~~*Maddə 127. Hüquqi şəxslərin sənədlərinin saxlanılması*~~

~~127.1. On il ərzində aşağıdakı sənədlər ayrılıqda saxlanılır:~~

~~127.1.1. təsərrüfat kitabları, inventar siyahıları, ilkin balanslar, yekun balansları, o cümlədən işlərin vəziyyəti haqqında hesabatlar; bu göstərilənlərə onların başa düşülməsi üçün zəruri olan bütün iş sərəncamları da aiddir;~~

127.1.2. daxil olmuş təsərrüfat yazışması və göndərilmiş təsərrüfat yazışmasının surətləri;

127.1.3. kitabdan kitaba keçirilmək üçün ilkin sənədlər (əsaslandırıcı mühasibat sənədləri).

127.2. Saxlanma müddəti müvafiq təsərrüfat kitabında sonuncu qeydiyyatın aparıldığı, inventar siyahısının tərtib edildiyi, ilkin və ya illik balansın qəbul edildiyi, təsərrüfat məktubunun alındığı və ya göndərildiyi və ya əsaslandırıcı sənədin yaradıldığı təqvim ilinin sonundan başlanır.

Maddə 128. Hüquqi şəxsin sənədlərinin təqdim edilməsi

128.1. Təsərrüfat kitablarının tərtibi, inventar siyahısının, habelə illik balansın tutulması ilə əlaqədar hüquqi şəxsin icra etməli olduğu bütün vəzifələri hüquqi şəxsin qanuni təmsilçiləri icra etməlidirlər. Əgər bunun üçün bir neçə şəxs cavabdehdirsə, onlardan hər biri birinci cümlədən irəli gələnləri icra etməyə borcludur.

128.2. Hüquqi mübahisələr olduqda məhkəmə ərizəyə əsasən və ya öz mülahizəsi ilə tərəflərdən birinin bu Məcəllənin 127.1.1, 127.1.2 və 127.1.3-cü maddələrində göstərilmiş sənədlərinin təqdim olunmasını tələb edə bilərlər. Hüquqi mübahisədə belə sənədlər təqdim edildikdə onların məzmununa, əgər bu, mübahisə predmetinə toxunursa, tərəfləri cəlb etməklə baxılır və zərurət olduqda çıxarışlar edilir. Kitabların qalan məzmunu məhkəmə qarşısında onların lazımınca tərtib edilib-edilmədiyinin yoxlanılması üçün zəruri olan dərəcədə açılır. Əmlak mübahisələri, o cümlədən vərəsəlik və əmlak bölgüsü haqqında işlər zamanı məhkəmə ticarət kitablarının tam məzmunu ilə tanış olmaq üçün onların təqdim olunması barədə sərəncam verə bilər.

§ 5. Hüquqi şəxslərin dövlət reyestri

Maddə 129. Hüquqi şəxslərin dövlət reyestrinin aparılması

129.1. Hüquqi şəxslərin dövlət reyestrini müvafiq icra hakimiyyəti orqanı mərkəzləşdirilmiş qaydada illər üzrə və Azərbaycan Respublikasının hər bir inzibati ərazi vahidi üzrə, *habelə digər meyarlar üzrə* aparır. Zərurət olduqda hüquqi şəxslərin dövlət reyestrinin filialları yaradıla bilər.

129.2. Hüquqi şəxslərin qeydə alınması məqsədi ilə bütün ərizələr hüquqi şəxslərin dövlət reyestrini aparan orqana verilir. (10)

Maddə 130. Qeydə alınmalı faktlar və saxlanmağa verilən sənədlər

130.1. Dövlət reyestrində hüquqi şəxslərin onların qeydiyyatı ilə əlaqədar yazıda aşağıdakı məlumatlar göstərilməlidir:

130.1.1. hüquqi şəxsin adı (firma);

130.1.2. hüquqi şəxsin yerləşdiyi yaşayış məntəqəsi;

130.1.3. hüquqi şəxsin *təşkilati-hüquqi forması*;

130.1.4. maliyyə ili;

130.1.5. hüquqi şəxsin hər bir təsisçisinin soyadı, adı, atasının adı, *vətəndaşlığı* və yaşayış yeri;

130.1.6. hüquqi şəxsin hər bir qanuni təmsilçisinin soyadı, adı, atasının adı, *vətəndaşlığı* və yaşayış yeri.

130.2. Kommandit ortaqlığında yuxarıda göstərilənlərdən əlavə, hər bir kommanditçinin mayasının miqdarı haqqında məlumat göstərilməlidir.

130.3. Məhdud məsuliyyətli cəmiyyətdə və ya səhmdar cəmiyyətində yuxarıda göstərilənlərdən əlavə, kapitalın miqdarı haqqında, hər bir təsisçinin mayasının miqdarı haqqında məlumatlar və müşahidə şurasının yaradıldığı halda onun hər bir üzvünün soyadı, adı, atasının adı, peşəsi və yaşayış yeri göstərilməlidir.

130.3-1. Dövlət reyestrində həmçinin «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş digər məlumatlar da əks etdirilməlidir.

130.4. Qeydə alınmış faktın hər bir sonrakı faktik dəyişikliyi hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmaq üçün təqdim edilməlidir. Dəyişiklik yalnız hüquqi şəxslərin dövlət reyestrində qeydə alındığı andan hüquqi qüvvəyə minir.

130.5. Müvafiq icra hakimiyyəti orqanı qeydiyyat üçün lazımi məlumatların təqdim edilməsi və ya hüquqi şəxslərin dövlət reyestrinə sənədlərin təqdim edilməsi vəzifələrini yerinə yetirməyən şəxslərdən bu vəzifələri yerinə yetirməyi tələb edə bilər. (10)

Maddə 131. Hüquqi şəxslərin qeydə alınması barədə ərizə

131.1. Dövlət reyestrində hüquqi şəxsin qeydə alınmasına dair ərizə imzalanmış yazılı orijinal və bir surət şəklində təqdim edilir. Müvafiq icra hakimiyyəti orqanı ərizəni aldığını surətdəki qeydlə təsdiq edir.

131.2. Hüquqi şəxslərin qeydiyyatı zamanı müvafiq icra hakimiyyəti orqanı hüquqi şəxsin konkret növünün qeydiyyatı üçün qoyulan şərtlərin yerinə yetirilib-yetirilmədiyini yoxlamağa borcludur.

131.3. Bütün təsisçilər hüquqi şəxsin qeydə alınması barədə ərizəni imzalamalıdırlar.

131.4. Hüquqi şəxsin qeydə alınması barədə ərizəni, habelə saxlanmaq üçün sənədləri hüquqi şəxsin qanuni təmsilçiləri təqdim edirlər. Ərizəni və saxlanmaq üçün sənədləri təqdim edərkən qanuni təmsilçi qeydiyyata verilən faktların və saxlanmağa verilən sənədlərin düzgünlüyünü təsdiqləyir. Ərizədə qanuni təmsilçinin imzası, habelə saxlanmaq üçün müvafiq icra hakimiyyəti orqanına verilən müəyyən imza xətləri notarius tərəfindən təsdiqlənməlidir.

Maddə 132. Hüquqi şəxslərin dövlət reyestrində yazılar və qeydiyyat yazısının dərci

132.1. Qeydə alınmış hüquqi şəxs hüquqi şəxslərin dövlət reyestrinə yazılır, qeydiyyata təqdim edilən sənədlər isə arxivə verilir.

132.2. Hüquqi şəxsi qeydə aldıqdan sonra müvafiq icra hakimiyyəti orqanı hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı ərizəçiyə göndərməlidir. Ərizəçi hüquqi şəxslərin

~~dövlət reyestrindən çıxarışı yoxlamalı və yanlışlıq tapdıqda bu barədə dərhal müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir.~~

~~132.3. Əgər çıxarış göndərildikdən sonra üç həftə ərzində ərizəçi yanlışlıq tapılması halı barəsində məlumat verməzsə, hüquqi şəxslərin dövlət reyestrindəki yazı Azərbaycan Respublikasının dövlət qəzetində dərc edilir.~~

~~132.4. Hüquqi şəxs qeydiyyat məqsədi ilə yanlış məlumat verərsə, hüquqi şəxsin təsisçiləri və şərikləri birgə borclular kimi:~~

~~132.4.1. çatışmaya bilən haqları verməli;~~

~~132.4.2. hüquqi şəxsin yaradılması üçün çəkilən xərclərdən başqa, aldıqları ödənişlərin əvəzini verməli;~~

~~132.4.3. əmələ gələn digər zərəri ödəməlidirlər.~~

~~Maddə 133. Hüquqi şəxsin dövlət reyestrindən çıxarılması~~

~~133.1. Hüquqi şəxs ləğv edildikdə və ləğvetmə tədbirləri həyata keçirildikdən sonra onun dövlət reyestrindən çıxarılması üçün «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edilməlidir.~~

~~133.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada hüquqi şəxsin dövlət reyestrindən çıxarılması haqqında qərar qəbul edir və bu barədə müraciət etmiş şəxslərə məlumat verir. Hüquqi şəxsin ləğv edilməsi barədə reyestrdə müvafiq qeydlər aparılır.~~ (10)

~~Maddə 134. Hüquqi şəxslərin dövlət reyestrinin aşkarlığı~~

~~İstənilən şəxsin ixtiyarı vardır ki, hüquqi şəxslərin dövlət reyestrini gözdən keçirsin və reyestrdən çıxarışı və qeydiyyat üçün təqdim olunmuş sənədlərin surətlərini tələb etsin. Hüquqi şəxsin və onu təmsil etmək səlahiyyəti olan şəxsin mövcudluğu qeydiyyat şəhadətnaməsi ilə təsdiq edilə bilər. Müvafiq icra hakimiyyəti orqanı maraqlanan şəxsin tələbi ilə hüquqi şəxsin qeydə alındığı və ya qeydə alınmadığı barədə şəhadətnamə verməlidir.~~ (12)

Üçüncü bölmə. Əmlak və Əşya hüququ (12)

5-ci fəsil. Ümumi müddəalar

§ 1. Əşya hüququnun əsas anlayışları

Maddə 135. Əşya hüququnun obyektləri

135.1. Bu Məcəlləyə uyğun olaraq yalnız fiziki obyektlər əşya sayılırlar. Pullar və qiymətli kağızlar da əşyadır.

135.2. Əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur.

135.3. Bitkilər və heyvanlar əşya deyildir. Onların hüquqi vəziyyəti xüsusi qanunlarla müəyyənləşdirilir. Əgər qanunvericilikdə ayrı qayda müəyyənləşdirilməyibsə, əşyaların hüquqi vəziyyəti bitkilərə və heyvanlara da şamil edilir.

135.4. Əşyalar daşınmaz və daşınar ola bilər. Torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır.

135.5. Daşınmaz əşyalara aid edilə bilməyən bütün əşyalar daşınar əşyalar sayılır. *Başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləridir. Qeyri-maddi əmlak nemətləri (tələblər və hüquqlar) ilə bağlı münasibətlər onların hər birinə aid olan xüsusi qanunvericiliyin müddəalarına müvafiq olaraq tənzimlənir.*

135.6. Əşyalar bölünər və bölünməz ola bilər. Təyinatı dəyişdirilmədən bölünə bilməyən və ya qanunun göstərişinə görə bölünməli olmayan əşyalar bölünməz əşyalardır.

135.7. Başqa əşyalardan yalnız özlərinə xas əlamətlərə görə ayrılmış fərdi—müəyyən əşyalar əvəzedilməz əşyalar sayılır. Növ əlamətlərinə görə fərqlənən, dövriyyədə adətən say, ölçü və ya çəki ilə müəyyənləşdirilən daşınar əşyalar əvəzedilən əşyalar sayılır.

135.8. Təyinatı istehlak olunmaqdan və ya özgəninkiləşdirilməkdən ibarət olan daşınar əşyalar istehlak edilən əşyalardır.

135.9. Əgər müxtəlif növlü əşyalar ümumi təyinat üzrə istifadə edilməsini nəzərdə tutan vahid tam yaradırlarsa, bir əmlak (mürəkkəb əmlak) sayılırlar. Mürəkkəb əmlak barəsində bağlanmış əqdin qüvvəsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, onun bütün tərkib hissələrinə şamil edilir.

135.10. *Özbaşına tikinti ilə bağlı hallar istisna olmaqla,* adi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir. Əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir.

135.11. Ümumi anlamda və ya əsas əşya mülkiyyətçisinin aydın iradəsinə əsasən təsərrüfatın daimi aparılması, əsas əşyanın istifadəsi və ya saxlanması üçün nəzərdə tutulan və ona uyğunlaşdırılan daşınar əşyalar əşyanın ləvazimatıdır. Əgər əşya ləvazimatdırsa, onun bu keyfiyyəti əsas əşyadan müvəqqəti ayrıldığı halda da saxlanılır. Əgər ayrı razılaşma yoxdursa, əşyaya sahiblik onun ləvazimatına da şamil edilir.

135.12. Əşyanın verdiyi gəlir, artım və (və ya) üstünlük əşyanın bəhəridir. Ayrılanadək bəhər əşyanın tərkib hissəsidir. Əşyanın mülkiyyətçisi kimdirsə, əşyanın təbii bəhəri də onun mülkiyyətindədir. (12)

Maddə 136. Əşyaların mülki dövriyyəsi

136.1. Əşyalar dövriyyədən çıxarılmayıbsa və ya onların dövriyyəsi məhdudlaşdırılmayıbsa, universal hüquq varisliyi qaydasında (vərəsəlik, hüquqi şəxsin

yenidən təşkili) və ya başqa üsulla əşyalar sərbəst surətdə özgəninkiləşdirilə və ya bir şəxsdən başqasına keçə bilər.

136.2. Mülki dövriyyədə olmasına yol verilməyən əşyalar (mülki dövriyyədən çıxarılmış əşyalar) qanunvericilikdə birbaşa göstərilməlidir.

136.3. Yalnız dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və ya dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən əşyalar (mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar) qanunla müəyyənləşdirilmiş qaydada təyin edilir.

~~***Maddə 137. Qeyri-maddi əmlak nemətləri***~~

~~Başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləridir.~~ (12)

Maddə 138. Əşyaların və hüquqların yüklülüyü

138.1. Əşyanın yüklülüyü—qanun və ya əqd əsasında əşyaya mülkiyyət hüququnun hər hansı formada məhdudlaşdırılmasıdır.

138.2. Hüququn yüklülüyü—qanun və ya əqd əsasında mülki hüquqların və ya tələblərin hər hansı formada məhdudlaşdırılmasıdır.

§ 2. Əmlak hüquqlarının dövlət qeydiyyatı

Maddə 139. Daşınar və daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı

139.1. Mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Mülkiyyət hüququ, istifadə hüququ, ipoteka, servitutlar, habelə daşınmaz əmlaka digər hüquqlar bu Məcəllədə və qanunvericilikdə nəzərdə tutulan hallarda qeydə alınmalıdır.

139.2. *Daşınar* əmlaka hüquqlar yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda dövlət qeydiyyatına alınmalıdır.

139.3. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir. (12)

Maddə 140. Daşınmaz əmlakın dövlət reyestrinin məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyası

Reyestrin məzmununun qeyri-dəqiqliyi sübuta yetirilməyincə, həmin məzmunun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir. Əqd əsasında özgəninkiləşdirənin adına qeydiyyata alınmış hər hansı bir hüququ əldə edən şəxsin xeyrinə reyestrdəki qeyd, bu qeydə dair etirazın reyestrə daxil edildiyi və ya əldə edən şəxsin qeydin qeyri-dəqiq olmasını bildiyi hallar istisna olmaqla, həqiqi hesab edilir. (12)

Maddə 141. Daşınmaz əmlakın dövlət reyestrində düzəlişin aparılması

141.1.Əgər daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyildirsə, hüququ qeydə alınmamış və ya hüququ düzgün qeydə alınmamış şəxs, yaxud mövcud olmayan yüklənmə haqqında qeydin daxil edilməsi ilə hüququ pozulmuş şəxs daşınmaz əmlakın dövlət reyestrində qeyddə düzəlişin aparılması üçün belə düzəlişlə hüququna toxunulan şəxsdən razılıq verməsini tələb edə bilər.

141.2. Bu Məcəllənin 141.1-ci maddəsində nəzərdə tutulmuş hallarda daşınmaz əmlakın dövlət reyestrinin mötəbərliyinə qarşı etiraz edilə bilər.

141.3. Daşınmaz əmlakın dövlət reyestrinə etirazla bağlı qeydin daxil edilməsi məhkəmənin qərarı və ya reyestrdə düzəlişin aparılması ilə hüququ toxunulan şəxsin razılığı ilə həyata keçirilir. (12)

~~***Maddə 142. Daşınmaz əmlakın qeydiyyatı üçün rüsum***~~

~~142.1. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatı və bununla bağlı mərzəkmə işləri üçün qanunla müəyyənləşdirilmiş dövlət rüsumu tutulur.~~

~~142.2. Daşınmaz əmlakın dövlət reyestrinin tərtibi ilə bağlı hər cür zərər üçün dövlət məsuliyyət daşıyır. Daşınmaz əmlakın dövlət reyestrini tərtib edən müvafiq icra hakimiyyəti orqanı reyestrin düzgün aparılmamasında təqsirli olduqda dövlət həmin orqan barəsində reqressant olur.~~ (12)

~~***Maddə 143. Daşınmaz əmlakın dövlət reyestrinin tərtibinə nəzarət***~~

~~Daşınmaz əmlakın dövlət reyestrinin tərtibinə müntəzəm nəzarət edilməlidir. Daşınmaz əmlakın dövlət reyestrinin yanlış tərtibi və ya orada yanlış qeydlər edilməsi barədə şikayətlər məhkəməyə verilir.~~ (12)

Maddə 144. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin notariat qaydasında təsdiqlənməsi

144.1. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir. Təsdiqləmə zamanı notarius əşyaya dair sərəncam verən tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğunu yoxlamalıdır. O, təsdiqlədiyi müqavilənin yanlışlığı üçün məsuliyyət daşıyır.

144.2. Sərəncam hüququ sərəncam verən tərəfin daşınmaz əmlakın dövlət reyestrinə əsasən bu hüquqa malik olması və ya ixtiyarlı şəxsin ona həmin səlahiyyəti verməsi ilə təsdiqlənir. Bu səlahiyyət də notariat qaydasında təsdiqlənməlidir. Müqavilənin qanunauyğunluğu notariat qaydasında təsdiqləmə ilə təsbit olunur.

144.3. Notariat qaydasında təsdiqlədikdən *sonra notarius müqavilənin iki nüsxəsini müraciət etmiş şəxsə verir və ya onun istəyi ilə bu məcəllə ilə müəyyən edilmiş qaydada* daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat barəsində *hüquq əldə edənin notariat qaydasında təsdiq edilmiş ərizəsini müqavilə, hüquqların dövlət qeydiyyatı üçün qanunla nəzərdə tutulmuş digər əsasları əks etdirən sənədlər, torpaq sahəsinin planı və ölçüsü, torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakın (onların tərkib hissələrinin) texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə qəbz ilə* birlikdə müvafiq icra hakimiyyəti orqanına *göndərir.*

144.4. Əgər əldə edən qanuni qüvvəyə minmiş məhkəmə qərarına və ya ona bərabər olan sənədə, o cümlədən notariat qaydasında təsdiqləməyə istinad edirsə, notariat qaydasında təsdiqləmə tələb olunmur.

144.5. Əgər daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi üçün təsdiqləyici sənədlər təqdim edilməzsə, ərizə rədd edilmiş sayılır. Əgər söhbət yalnız sərəncam hüququnu təsdiq edən sənədə əlavədən gedirsə, onda ilkin qeydiyyat mülkiyyətçinin razılığı ilə aparılır. (4, 18)

~~***Maddə 145. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat barəsində ərizə***~~

~~145.1. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat barəsində ərizələr ləngiməyə yol verilmədən onların zaman ardıcıllığı ilə, ərizəçi və onun xahişi göstərilməklə ərizə jurnalına daxil edilir.~~

~~145.2. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat aparılması üçün əsas götürülən sənədlər onların təyinatına uyğun sistemləşdirilir və saxlanılır.~~ (12)

Maddə 146. Daşınmaz əmlaka hüququn əmələ gəlməsi

146.1. Daşınmaz əmlaka sahiblik və istifadə hüququ onun barəsində əqdin notariat qaydasında təsdiq edildiyi andan əmələ gəlir (məhkəmə qərarı və ya digər qanuni qüvvəyə malik olan və barəsində şikayət verilə bilməyən qərar əsasında yaranan hüquq istisna olmaqla).

146.2. Daşınmaz əmlak üzərində sərəncam vermək hüququ həmin əmlakın daşınmaz əmlakın dövlət reyestrində ərazilər üzrə qeydiyyatı tarixindən əmələ gəlir.

146.3. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamış daşınmaz əmlak barəsində müqavilələrin notariat qaydasında təsdiqlənməsinə yol verilmir və bu cür əmlak barəsində bağlanmış müqavilələr etibarsız sayılır.

Məcəllənin 146.2-ci maddəsi və bu maddənin birinci abzası ipoteka kreditindən istifadə etməklə əldə olunan yaşayış sahəsinin üzərində alıcının mülkiyyət hüququ, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınanadək həmin yaşayış sahəsinin alqı-satqısı və ipotekaya qoyulmasına dair qarışıq müqavilənin notariat qaydasında təsdiq edilməsi hallarına şamil edilmir.

146.4. Daşınmaz əmlaka dair müqavilənin notariat qaydasında təsdiqlənməsindən sonra notarius müqavilənin iki nüsxəsini müraciət etmiş şəxsə verir və ya onun istəyi ilə 2 gün müddətində müvafiq icra hakimiyyəti orqanına daşınmaz əmlakın dövlət reyestrində hüququn qeydiyyata alınması haqqında müraciət etmiş şəxsin notariat qaydasında təsdiq edilmiş ərizəsini göndərir. Ərizəyə müqavilənin bir nüsxəsi, hüquqların dövlət qeydiyyatı üçün qanunla nəzərdə tutulmuş digər əsasları əks etdirən sənədlər, torpaq sahəsinin planı və ölçüsü, torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakın (onların tərkib hissələrinin) texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə qəbz əlavə edilir. Həmin ərizənin surəti müqavilənin notariat qaydasında təsdiqlənməsi haqqında müraciət edən şəxsə verilir.

146.5. Daşınmaz əmlakı və ya ona dair hüquqları əldə edən şəxs məhkəmə qərarına və ya digər qanuni qüvvəyə malik olan və barəsində şikayət verilə bilməyən qərara istinad edirsə, bu halda ~~notarial~~ ərizəyə həmin qərarın notariat qaydasında təsdiqlənmiş surəti və daşınmaz əmlakın texniki göstəricilərini əks etdirən sənədlər qoşulur.

146.6. Daşınmaz əmlakın və ya ona dair hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatı üçün sənədlər natamam olduqda, mülkiyyətçinin razılığı ilə və ya məhkəmə qərarı əsasında dövlət reyestrində qabaqcadan qeydiyyat aparıla bilər.

146.7. Daşınmaz əmlakın dövlət reyestrində daşınmaz əmlakın və ya ona dair hüquqların qeydiyyatı ~~notarial~~ ərizənin daxil olduğu tarix üzrə aparılır.

146.8. Daşınmaz əmlaka dair müqavilələrin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasına görə daşınmaz əmlaka dair müqaviləni təsdiqləyən notarius və müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsi məhkəmə məsuliyyəti daşıyırlar. Daşınmaz əmlakın dövlət reyestrində daşınmaz əmlaka dair müqavilələrin qeydiyyatının aparılmaması və ya qeydiyyatın düzgün olmaması, qeydiyyatın natamam olması ilə bağlı iddialara görə dövlət reqressant qismində çıxış edir. (2, 18, 21)

Maddə 147. Qabaqcadan qeydiyyat

147.1. Torpaq sahəsinə olan hüququn və ya torpaq sahəsini yüklü edən hüququn əldə edilməsinə və ya ləğvinə, yaxud belə hüququn məzmununun və ya növbəliliyinin dəyişdirilməsinə dair tələbi təmin etmək üçün daşınmaz əmlakın dövlət reyestrində qabaqcadan qeydiyyat aparıla bilər. Gələcək və ya şərti tələblərin təmin edilməsi üçün də qabaqcadan qeydiyyatın aparılmasına yol verilir.

147.2. Qabaqcadan qeydiyyat aparıldıqdan sonra torpaq sahəsinə və ya ona olan hüquqa dair verilən sərəncam, onun göstərilən tələbin həyata keçirilməsinə təsir etdiyi və ya mane olduğu hissəsində etibarsızdır. Həmin qayda sərəncamın məcburi icra və ya həbsin qoyulması qaydasında verildiyi halda da tətbiq edilir.

147.3. Hüququn əldə edilməsinə yönəldilmiş tələbin üstünlüyü qabaqcadan qeydiyyat üçün tələb barəsində ərizənin reyestrə təqdim edilməsi vaxtı ilə müəyyən edilir. (12)

Maddə 148. Daşınmaz əmlakın dövlət reyestrinin açıqlığı

148.1. Daşınmaz əmlakın təsviri, dövlət qeydiyyatına alınmış hüquqlar və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış qanunla müəyyən edilmiş qaydada hüquq sahibinə, onun tərəfindən vəkil edilmiş şəxsə, hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə və qanunla nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar müvafiq dövlət orqanlarına və bələdiyyələrə verilir.

148.2. Daşınmaz əmlakın dövlət reyestrindəki qeydə əsaslanaraq mülkiyyət hüququ və ya daşınmaz əmlaka başqa hüquqlar əldə etmiş hər bir şəxsin bu hüquqları müdafiə edilməlidir. (18)

Maddə 149. Daşınmaz əmlaka hüquqların əsassız qeydə alınması

~~149.1. Daşınmaz əmlaka hüquqların hüquqi əsas olmadan və ya etibarsız əqd üzrə qeydə alınması əsassız qeydiyyat sayılır. Əgər daşınmaz əmlaka hüquqların qeydiyyatı əsassızdırsa, bunu bilən və ya bilməli olan üçüncü şəxs həmin qeydiyyata əsaslana bilməz. Belə qeydiyyat nəticəsində hüquqlarına toxunulmuş şəxs bilavasitə vicdansız üçüncü şəxsə qarşı iddia ilə müraciət edə bilər.~~

149.2. Əgər daşınmaz əmlaka hüquqların qeydiyyatı əsassızdırsa və ya əgər düzgün qeydiyyat əsassız çıxarılmışsa və ya dəyişdirilmişsə, bunun nəticəsində daşınmaz əmlaka olan hüquqlarına toxunulmuş istənilən şəxs qeydiyyatın çıxarılması və ya dəyişdirilməsi haqqında iddia qaldıra bilər. Bunun nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi üçün tələblər irəli sürülməsi istisna edilmir. Bu zaman vicdanlı üçüncü şəxslərin qeydiyyatla əlaqədar əldə etdikləri hüquqları saxlanılır. (12)

Maddə 150. Məhv olmuş daşınmaz əmlakın qeydiyyatının ləğvi

150.1. *Əgər daşınmaz əmlak tam məhv olarsa və bunun nəticəsində onun qeydiyyatı hər cür hüquqi mənasını itirərsə, maraqlı şəxs məhkəmə qaydasında qeydiyyatın ləğvini tələb edə bilər*. Daşınmaz əmlakın məhv olması daşınmaz əmlakın dövlət reyestrini tərtib edən müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsi tərəfindən təsdiqlənməlidir.

150.2. İstənilən maraqlı şəxs qeydiyyatın ləğvi barəsində bundan xəbər tutduğu vaxtdan on gün ərzində məhkəməyə şikayət edə bilər. (2)

~~***Maddə 151. Daşınmaz əmlakın dövlət reyestrində düzəliş***~~

~~151.1. Daşınmaz əmlakın dövlət reyestrini tərtib edən müvafiq icra hakimiyyəti orqanı maraqlı şəxslərin yazılı razılığı olmadan yalnız qanuni qüvvəyə minmiş məhkəmə qərarına əsasən reyestrdə dəyişiklik edə bilər.~~

~~151.2. Sadə səhvlər və texniki xətalar xidməti qaydada düzəldilir.~~ (12)

6-cı fəsil. Mülkiyyət hüququnun ümumi müddəaları

Maddə 152. Mülkiyyət hüququnun anlayışı və məzmunu

152.1. Mülkiyyət hüququ—subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur.

152.2. Sahiblik hüququ—əmlaka (əşyaya) faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

152.3. İstifadə hüququ—əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda gəlir, artım, bəhər, törəmə şəklində və başqa formalarda ola bilər.

152.4. Sərəncam hüququ—əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

152.5. Mülkiyyətçi qanunvericiliklə və ya başqa şəkildə, o cümlədən müqavilə məhdudiyyətləri ilə müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa

şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

152.6. Hüquqdan sui-istifadə mülkiyyətdən başqalarına ziyan vuran şəkildə istifadədir; bu zaman mülkiyyətçinin mənafe üstünlüyü dəqiq ifadə edilməmişdir və onun hərəkətlərinin zəruriliyi əsaslı deyildir.

152.7. İstifadə hüququna şəxsin öz əşyasından istifadə etməməsi imkanı da daxildir. Əgər əşyanın tətbiq edilməməsi və ya ona qulluq olunmaması ictimai mənafelərə qəsd edirsə, istifadə və ya qulluq və saxlama vəzifəsi müəyyənləşdirilə bilər. Bu halda mülkiyyətçinin üzərinə həmin vəzifələri özü icra etmək və ya müvafiq muzd müqabilində əşyanı başqa şəxslərin istifadəsinə vermək vəzifəsi qoyula bilər.

152.8. Mülkiyyətçi öz əmlakını başqa şəxsin etibarnaməli idarəçiliyinə (etibarnaməli idarəçi) verə bilər. Əmlakın etibarnaməli idarəçiliyə verilməsi mülkiyyət hüququnun etibarnaməli idarəçiyə keçməsinə səbəb olmur; o, əmlakı mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi üçüncü şəxsin mənafeyi naminə idarə etməlidir.

152.9. Əşyaya mülkiyyət hüququ həmin əşyanın mühüm tərkib hissələrinə də şamil edilir.

152.10. Əmlakın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, mülkiyyətçisinin üzərinə düşür.

152.11. Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, mülkiyyətçi ona mənsub əmlakın saxlanması yükünü daşıyır.

Maddə 153. Mülkiyyət hüququnun subyektləri

153.1. Bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər.

153.2. Qanunvericiliklə yalnız dövlət mülkiyyətində və ya bələdiyyələrin mülkiyyətində ola bilən əmlak növləri müəyyənləşdirilir.

153.3. Əmlakın fiziki və ya hüquqi şəxsin mülkiyyətində, Azərbaycan Respublikasının və ya bələdiyyələrin mülkiyyətində olmasından asılı olaraq əmlaka mülkiyyət hüququnun, əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam hüququnun əldə edilməsi və ona xitam verilməsi xüsusiyyətləri yalnız qanunla müəyyənləşdirilə bilər.

153.4. Bütün mülkiyyətçilərin hüquqları eyni bərabərdə müdafiə edilir.

Maddə 154. Fiziki və hüquqi şəxslərin mülkiyyət hüququ

154.1. Qanunvericiliyə uyğun olaraq fiziki və ya hüquqi şəxslərə mənsub ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna edilməklə, fiziki və hüquqi şəxslərin mülkiyyətində istənilən əmlak ola bilər.

154.2. Bu Məcəllənin 6.3-cü maddəsində nəzərdə tutulan məqsədlər üçün qanunvericilik yolu ilə məhdudiyyətlərin müəyyənləşdirildiyi hallar istisna olmaqla, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın miqdarı və dəyəri məhdudlaşdırılmır.

154.3. Kommersiya və qeyri-kommersiya hüquqi şəxsləri onların təsisçilərinin (iştirakçılarının, üzvlərinin) maya və ya haqq kimi onlara verdikləri əmlakın, habelə həmin hüquqi şəxslərin başqa əsaslar üzrə əldə etdikləri əmlakın mülkiyyətçiləridir.

Maddə 155. Dövlət mülkiyyəti hüququ

155.1. Azərbaycan Respublikasına mülkiyyət hüququ ilə mənsub olan əmlak dövlət mülkiyyətidir.

155.2. Fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyətidir.

155.3. Dövlət büdcəsinin vəsaiti Azərbaycan Respublikasının mülkiyyətidir.

155.4. Dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunda nəzərdə tutulmuş qaydada dövlət öz mülkiyyətində olan əmlakı fiziki və hüquqi şəxslərin mülkiyyətinə verə bilər.

Maddə 156. Bələdiyyələrin mülkiyyət hüququ

156.1. Bələdiyyələrə mülkiyyət hüququ ilə mənsub olan əmlak onların mülkiyyətidir.

156.2. Yerli büdcənin vəsaiti bələdiyyənin mülkiyyətidir.

Maddə 157. Mülkiyyətin müdafiəsi

157.1. Mülkiyyətçinin mülkiyyət hüququnun tanınmasını tələb etmək ixtiyarı vardır.

157.2. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər.

~~157.3. Əmlak onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əvəzli əldə edildikdə və əldə edən bunu bilmədikdə və bilə bilmədikdə (vicdanlı sahib) mülkiyyətçi bu əmlakı əldə edəndən ancaq o halda tələb edə bilər ki, əmlak mülkiyyətçinin özü tərəfindən və ya mülkiyyətçinin sahibliyə verdiyi şəxs tərəfindən itirilmiş və ya onların hər hansı birindən oğurlanmış olsun və ya özlərinin iradəsindən asılı olmayaraq başqa yolla onların sahibliyindən çıxmış olsun. Əmlak onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əvəzsiz əldə edildikdə mülkiyyətçi əmlakı bütün hallarda tələb edə bilər. Pul, habelə adsız qiymətli kağızlar vicdanlı əldə edəndən geri tələb oluna bilməz.~~

157.4. Əgər mülkiyyətə qəsd və ya başqa maneələr əşyanı götürmədən və ya ondan məhrum etmədən törədilirsə, mülkiyyətçi qəsd edəndən bu hərəkətlərə son qoymağı tələb edə bilər. Bu cür hərəkətlər davam etdirildikdə mülkiyyətçi həmin hərəkətlərə son qoyulmasını məhkəmə vasitəsi ilə tələb edə bilər.

157.5. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edərkən, bu şəxsin əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu halda (vicdansız sahib), əmlakın onda olduğu bütün vaxt ərzində onun götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini də tələb edə bilər; vicdanlı sahibdən isə onun əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya

bilməli olduğu vaxtdan və ya əmlakın qaytarılmasına dair mülkiyyətçinin iddiası üzrə *məhkəmə bildirişini* aldığı vaxtdan götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini tələb edə bilər. *Bundan başqa, vicdansız sahib əmlakın mülkiyyətçisinə əmlakın onda olması ilə bağlı bütün zərərin əvəzini ödəməlidir. Vicdanlı sahib isə əvəzi ödənilərkən yoxa çıxan və ya zərər çəkən əmlakın, o cümlədən əmlakdan gəlir götürdüyünə görə zərərin əvəzini ödəməyə borclu deyildir.*

157.6. İstər vicdanlı sahib, istərsə də vicdansız sahib isə öz növbəsində əmlakdan gəlirin mülkiyyətçiyə düşdüyü vaxtdan sonra əmlaka sərf etdiyi zəruri məsrəflərin əvəzinin ödənilməsini mülkiyyətçidən tələb edə bilər.

157.7. Vicdanlı sahib əmlaka zərər yetirmədən ondan ayrıla bilən öz yaxşılaşdırmalarını özündə saxlaya bilər. Yaxşılaşdırmaları bu cür ayırmaq mümkün olmadıqda vicdanlı sahib əmlakın dəyərindən artıq olmamaq şərti ilə, onu yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin əvəzinin ödənilməsini tələb edə bilər.

157.8. Mülkiyyətçi hüquqları mülkiyyətçi olmasa da, bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan əsasla əmlaka sahiblik edən şəxsə də mənsubdur.

157.9. Dövlət ehtiyacları ~~və ya ictimai ehtiyaclar~~ tələb etdikdə dövlət tərəfindən mülkiyyət yalnız qanunla icazə verilmiş hallarda *yolların və digər kommunikasiya xətlərinin çəkilməsi, sərhəd zolağının müəyyən edilməsi və ya müdafiə əhəmiyyətli obyektlərin tikilməsi məqsədilə müvafiq dövlət orqanı tərəfindən* və yalnız bazar dəyəri miqdarında qabaqcadan əvəzi ödənilməklə özgəninkiləşdirilə bilər. (5, 10, 12, 23, 36)

Maddə 158. Mülkiyyətçi olmayan şəxslərin hüquqları

158.1. Mülkiyyət hüququ ilə yanaşı aşağıdakılar da əmlak hüquqları sayılır:

158.1.1. girov hüququ;

158.1.2. əmlakdan istifadə hüququ;

158.1.3. servitutlar.

158.2. Əmlak hüquqları həmin əmlakın mülkiyyətçisi olmayan şəxslərə də mənsub ola bilər.

158.3. Əmlaka mülkiyyət hüququnun başqa şəxsə keçməsi həmin əmlaka olan digər əmlak hüquqlarının xitamına səbəb *olmur*, *bu şərtlə ki, əldə edən şəxs əmlakın yüklülüyünün olmasına münasibətdə vicdanlı olsun.*.

158.4. Mülkiyyətçi olmayan şəxsin əmlak hüquqları istənilən şəxs, o cümlədən mülkiyyətçi tərəfindən pozulmaqdan müdafiə edilir. (12)

7-ci fəsil. Sahiblik hüququ

Maddə 159. Əşyaya sahiblik

Sahiblik əşyaya faktik sahibliyə nail olmaqla əldə edilir.

Maddə 160. Vasitəsiz və vasitəli sahiblik

Əgər sahib əşyanı məhdud əşya və ya şəxsi sahiblik hüququnun həyata keçirilməsi üçün kiməsə vermişsə, onların hər ikisi sahibdirlər. Onlardan birincisi vasitəli, ikincisi isə vasitəsiz sahibdir.

Maddə 161. Özgə əşyasının sahibi və öz əşyasının sahibi

Əşyanın mülkiyyətçisi hüququ ilə əşyaya sahib olan öz əşyasının sahibidir, əşyanın hər hansı başqa sahibi özgə əşyasının sahibidir.

Maddə 162. Sahibliyin müvəqqəti kəsilməsi

Əşyaya faktik sahib olmağa mahiyyətcə müvəqqəti iqtidarsızlıq və ya imkansızlıq əşyaya sahibliyi ləğv etmir.

Maddə 163. Sahibliyin verilməsi

163.1. Sahiblik əşyanın özünün verilməsi ilə verilir. Əvvəlki sahibin iradəsi ilə əldə edən əşyaya faktik sahibliyi həyata keçirməyə qadir olduqda verilmə baş tutur.

163.2. Əgər üçüncü şəxs və ya özgəninkiləşdirən özü xüsusi hüquq münasibətləri əsasında əşyaya sahibliyi davam etdirirsə, əşyaya sahiblik əşya verilmədən də əldə edilə bilər. Sahibliyin bu cür verilməsi üçüncü şəxs üçün yalnız özgəninkiləşdirən ona bu barədə bildiriş verdikdə etibarlı olur. Üçüncü şəxs əşyanı özgəninkiləşdirənə verməkdən imtina etmək üçün istinad etdiyi əsaslarla əldə edənə verməkdən də imtina edə bilər.

163.3. Fraxtverənə və ya anbara verilmiş mallar üçün onları təmsil edən order sənədi verildikdə bu sənədin verilməsi malın özünün verilməsi sayılır. Əgər həm order sənədini vicdanlı əldə edən, həm də malı vicdanlı əldə edən varsa, sonuncuya üstünlük verilir.

Maddə 164. Sahibliyin müdafiəsi

164.1. Sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma qadağan edilmiş özbaşınalıq sayılır. Hər bir sahibin qadağan edilmiş özbaşınalıqdan müdafiə üçün güc işlətmək ixtiyarı vardır. Bu zaman o, şəraiti nəzərə almaqla, əsassız güc hərəkətlərindən çəkinməlidir.

164.2. Sahiblikdən məhrum olan onun üçün qanunsuz sahibdən sahibliyin qaytarılmasını tələb edə bilər. Sahiblikdən məhrumetmə faktik sahib və ya onun hüquq sələfi barəsində səhv addım olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə iddia istisna edilir.

Maddə 165. Sahibliyin pozulması

165.1. Sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahib pozucudan pozuntulara son qoymağı tələb edə bilər. Pozuntuların davam edəcəyindən ehtiyat olunduqda sahib onlara son qoyulması üçün iddia verə bilər. Pozucu və ya onun hüquq sələfi üçün sahib qanunsuz olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə bu cür iddia istisna edilir.

165.2. Qadağan edilmiş özbaşınalıq üzrə iddiaya yalnız o halda yol verilir ki, sahib qəsdin və təqsirkarın ona məlum olmasından dərhal sonra əşyanın qaytarılmasını və ya pozuntunun aradan qaldırılmasını tələb etsin. İddia müddəti, hətta qəsd və təqsirkar

sahibə sonralar da məlum olarsa, məhrumetmə və ya pozuntu anından başlayaraq bir il təşkil edir.

Maddə 166. Mülkiyyətin sahiblik əsasında ehtimal edilməsi

166.1. Daşınar əşyanın sahibi haqqında ehtimal edilir ki, o, əşyaya mülkiyyətçi hüququ ilə sahiblik edir. Hər hansı əvvəlki sahib haqqında ehtimal edilir ki, öz sahibliyi zamanı o, mülkiyyətçi olmuşdur.

166.2. Daşınar əşyanın mülkiyyətçisi olmaq istəməyən sahibi ehtimal edə bilər ki, bu əşya kimdən arxayın alınmışdırsa, həmin şəxsin mülkiyyətindədir. Sahiblik hüququ olmadığını bilən və ya bilməli olan sahib vicdansız sahibdir. Daşınar əşya üzərində məhdud əşya hüququna və ya şəxsi hüquqa iddia edən daşınar əşya sahibinin bu cür hüququnun olduğu ehtimal edilir. Lakin o həmin əşyanı aldığı şəxsin bu cür hüququ olduğunu ehtimal edə bilməz.

166.3. Yalnız o şəxsin torpaq sahəsinə mülkiyyət hüququnun və sahiblik haqqında iddia hüququnun olduğu ehtimal edilir ki, onun sahiblik hüququ torpaq sahəsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasından irəli gəlir. Lakin torpaq sahəsinin faktik sahibi sahiblikdən özbaşına məhrumedilmə və ya sahibliyin pozulması barədə iddia verə bilər.

~~***Maddə 167. Vicdansız sahibin əşyanı qaytarmaq vəzifəsi***~~

~~Əşyanın vicdansız sahibi onu mülkiyyətçisinə qaytarmalı və əşyanı saxlaması ilə bağlı bütün zərərin əvəzini ödəməli, habelə əldə etdiyi bəhərin əvəzini ödəməlidir.~~ (12)

~~***Maddə 168. Vicdanlı sahibin mülkiyyətçi qarşısında məsuliyyətinin olmaması***~~

~~Əşyanın vicdanlı sahibi öz ehtimal edilən hüququna uyğun olaraq əşyadan fayda götürdüyünə və ondan istifadə etdiyinə görə ixtiyarlı şəxsə zərərin əvəzini ödəməyə borclu deyildir. O, əvəzi ödənilərkən yoxa çıxan və ya zərər çəkən şeyin əvəzini ödəməyə borclu deyildir.~~ (12)

8-ci fəsil. Mülkiyyət hüququnun məhdudlaşdırılması

Maddə 169. Mülkiyyət hüququnun məhdudlaşdırılmasının ümumi müddəaları

169.1. Bu Məcəllədə müəyyənləşdirilmiş hallarda mülkiyyət hüququ məhdudlaşdırıla bilər.

169.2. Hər bir daşınmaz əmlak mülkiyyətçisi, əgər quyuların qazılması, drenaj, qaz və başqa boruların, habelə yerüstü və yeraltı elektrik xətlərinin çəkilməsi onun torpaq sahəsindən istifadə edilmədən qətiyyən mümkün deyildirsə və ya hədsiz yüksək məsrəflər hesabına mümkündürsə, bununla əlaqədar dəyən zərərin əvəzinin qabaqcadan tam ödənilməsi şərti ilə həmin tədbirlərin həyata keçirilməsinə icazə verməlidir.

169.3. Yüklü torpaq sahəsinin mülkiyyətçisi öz mənafelərinin ədalətlə nəzərə alınması hüququna malikdir. Yerüstü xətlərin çəkildiyi hallarda, əgər fövqəladə hallar əsas verirsə, o, tələb edə bilər ki, həmin xəttin keçdiyi ağlabatan həcmdə torpaq sahəsi tam əvəzi ödənilməklə ondan ayrılsın.

169.4. Əgər şərait dəyişərsə, mülkiyyətçi xəttin onun mənafeyinə uyğun çəkilməsini tələb edə bilər. Çəkilmənin dəyərini ixtiyarlı şəxs ödəməlidir, lakin xüsusi halların əsas verdiyi yerlərdə dəyərin ağlabatan hissəsi mülkiyyətçinin hesabına aid edilə bilər.

Maddə 170. Qonşuluq hüququ

170.1. İkitərəfli təsirlərin törəyə biləcəyi hər bir torpaq sahəsi və ya digər daşınmaz əmlak qonşunun sahəsi və ya əmlakı sayılır.

170.2. Qonşu torpaq sahələrinin və ya digər daşınmaz əmlakın mülkiyyətçiləri, qanunda nəzərdə tutulmuş hüquq və vəzifələrindən əlavə, bir-birinə qarşılıqlı hörmət bəsləməlidirlər. Öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə cürbəcür hədsiz təsirlərdən çəkinməlidir. Xüsusən işlənmiş qazların, tozun, ağır qoxuların, səs-küyün və ya titrəyişlərin bütün ziyanlı və torpaq sahələrinin mövqeyinə və xarakteristikasına görə qanunsuz təsirləri qadağandır.

170.3. Heç kəsə icazə verilmir ki, suyun təbii axımını qonşunun ziyanına dəyişdirsin. Aşağı torpaq sahəsi üçün zəruri olan su yuxarı torpaq sahəsi üçün zəruri olan həcmdə axıdıla bilər. Su axıdılarkən aşağıda yerləşən torpaq sahəsinin mülkiyyətçisi əvvəllər ona təbii yolla gəlmiş suyu kompensasiyasız götürməlidir. Əgər suyun buraxılması nəticəsində ona ziyan dəyirsə, tələb edə bilər ki, yuxarıdakı mülkiyyətçi öz hesabına aşağı torpaq sahəsindən nov çəksin.

170.4. Bir neçə torpaq sahəsindən axan tullantı və yeraltı suların istiqamətini dəyişdirərək və ya onları qarışdıraraq başqa torpaq sahələrində suyun miqdarını azaltmaq və ya keyfiyyətini pisləşdirmək yolverilməzdir.

Maddə 171. Qonşu təsirinə dözmək vəzifəsi

171.1. Torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisi, əgər öz sahəsindən istifadə etməkdə ona maneçilik yaranmırsa və ya hüququ əhəmiyyətsiz dərəcədə pozulursa, qonşu sahədən qazın, buxarın, qoxunun, hisin, tüstünün, səs-küyün, istiliyin, titrəyişlərin və ya digər oxşar amillərin öz sahəsinə təsirini qadağan edə bilməz.

171.2. Təsirin əhəmiyyətli olduğu, lakin digər torpaq sahəsindən və ya başqa daşınmaz əmlakdan adi istifadədən törəndiyi və istifadəçilərin həmin növü üçün normal təsərrüfat fəaliyyəti sayılan tədbirlərlə qarşısı alına bilmədiyi hallarda da eyni qayda qüvvədə olur.

171.3. Əgər mülkiyyətçi bu cür təsirə dözməyə borcludursa, o, təsiri əmələ gətirən torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisindən, təsirin həmin ərazi üçün təsdiq edilən adi istifadədən və iqtisadi cəhətdən yol verilən hədlərdən yüksək olduğu hallarda pul formasında müvafiq kompensasiya tələb edə bilər.

Maddə 172. Mülkiyyətçinin qazıntılar və tikinti işləri ilə vurduğu ziyan

172.1. Qazıntı və tikinti işləri apararkən mülkiyyətçiyə icazə verilmir ki, torpağı qonşu torpaq sahələrinə kürüməklə onlara ziyan vursun və ya onları təhlükəyə məruz qoysun və ya həmin sahələrdəki qurğuları zədələsin.

172.2. Torpaq sahəsinin mülkiyyətçisi özünün torpaq sahəsindən istifadə hüququna yolverilməz şəkildə qəsd edən belə qurğuların qonşu sahədə tikilməsinin və ya istismarının qadağan olunmasını tələb edə bilər.

172.3. Əgər torpaq sahəsinin mülkiyyətçisi tikinti zamanı qonşu sahənin sərhədlərini qərəzsiz pozarsa, həmin sahənin mülkiyyətçisi, pozuntu aşkar edilməzdən qabaq və ya aşkar edilən kimi pozucuya etiraz bildirildiyi hallardan başqa, həmin pozuntuya dözməlidir. Sərhədi pozmuş qonşu pul kompensasiyası ödəməli və bundan sonra onu hər il ödəməlidir.

172.4. Qonşuluq hüququnun göstərişlərini pozan binalara çıxıntılı binalar haqqında qaydalar tətbiq edilir.

Maddə 173. Çıxıntılı binalar

173.1. Başqa daşınmaz əmlaka keçən çıxıntıları olan binalar və digər qurğular yerləşdikləri daşınmaz əmlakın tərkib hissəsi kimi qalırlar, bu şərtlə ki, həmin əmlakın mülkiyyətçisi onlara əşya hüququna malik olsun. Qonşu ya üst tikiliyə qarşı etirazını bildirə bilər, ya da bununla barışaraq ağlabatan əvəz ödənilməsini tələb edə bilər.

173.2. Üst tikiliyə hüquq daşınmaz əmlakın dövlət reyestrində servitut kimi qeydə alına bilər.

173.3. Əgər üst tikili əsassızdırsa və hüququna toxunulmuş şəxs bunu bilsə də, vaxtında etiraz etməzsə, üst tikilini ucaldan şəxsə, şəraitin haqq qazandırdığı hallarda ağlabatan əvəz ödənilməklə, üst tikiliyə əşya hüququ və ya torpağa mülkiyyət hüququ verilə bilər.

173.4. Əgər qonşu sahədən binanın uçub torpaq sahəsinə tökülməsi təhlükəsi varsa, mülkiyyətçi qonşudan həmin təhlükənin qarşısının alınması üçün lazımi tədbirlər görməyi tələb edə bilər.

Maddə 174. Çıxıntılı bitkilər

174.1. Əgər çıxıntılı budaqlar və uzanan köklər qonşunun mülkiyyətinə ziyan vurarsa və onun şikayəti ilə ağlabatan müddətdə aradan qaldırılmazsa, o, həmin budaqları və kökləri kəsib özündə saxlaya bilər.

174.2. Ağac və ya kol meyvəsi qonşunun torpaq sahəsinə düşdükdə həmin torpaq sahəsinin meyvəsi sayılır.

174.3. Əgər mülkiyyətçi tikililər və üst tikililər olan torpaq sahələrində çıxıntılı budaqların olmasına yol verirsə, həmin budaqlarda yetişən meyvələrə onun hüququ çatır. Bu göstərişlər meşə torpaq sahələrinə şamil edilmir.

Maddə 175. Özgənin sahibliyində olan sahədən zəruri yol və keçid

175.1. Əgər torpaq sahəsi mülkiyyətçisinin öz sahəsindən ictimai yola, elektrik, neft, qaz və su təchizatı xətlərinə keçidi yoxdursa, o, tələb edə bilər ki, qonşular ona tam əvəzi ödənilməklə zəruri keçid ayırsınlar. Tələb ilk növbədə o qonşuya qarşı yönəldilir ki, mülkiyyət və keçid münasibətləri ilə əlaqədar keçid verilməsinin ondan tələb edilməsi daha yolveriləndir; daha sonra tələb keçidin daha az zərər vurduğu qonşulara yönəldilir. Zəruri keçid müəyyənləşdirilərkən qarşılıqlı mənafelər nəzərə alınmalıdır.

175.2. Sahələrindən zəruri yol və ya birləşdirici xətt keçəcək qonşulara müvafiq kompensasiya ödənilməlidir. Tərəflər arasında razılaşmaya əsasən kompensasiya birdəfəlik ödəniş şəklində verilə bilər.

175.3. Əgər torpaq sahəsi ilə artıq mövcud olmuş əlaqə xətləri mülkiyyətçinin özbaşına hərəkətləri nəticəsində ləğv edilərsə, zəruri yola və ya birləşdirici xəttə dözmək vəzifəsi əmələ gəlmir.

Maddə 176. Torpaq sahələrinin hasarlanması və mərzlənməsi

176.1. Hasarlama xərclərini hasarın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi çəkir. İki torpaq sahəsi arasında barı vasitəsi ilə və ya sərhəd kimi istifadə edilən başqa qurğu ilə mərz çəkildikdə ehtimal edilir ki, torpaq sahələrinin mülkiyyətçiləri həmin qurğudan istifadə etməkdə bərabər hüquqlara malikdirlər və onunla bağlı xərcləri öz mənafelərinə mütənasib surətdə ödəməlidirlər. Əgər hər iki qonşunun sərhəd kimi istifadə edilən qurğudan birlikdə yararlanmağa haqqı çatırsa, onlardan hər biri qurğudan elə istifadə edə bilər ki, birgə istifadə zamanı qonşuya maneçilik yaranmasın.

176.2. Torpaq sahəsinin mülkiyyətçisi qonşu sahənin mülkiyyətçisindən möhkəm ayırıcı mərz çəkilməsində və ya mövcud olmuş, lakin uçmuş və ya zədələnmiş mərzin bərpasında iştirak etməyi tələb edə bilər. Mərz çəkilməsi xərcləri, iki qonşunun razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onların arasında bərabər bölünür. Nə qədər ki qonşulardan biri mərz qurğusunun olmasında maraqlıdır, həmin mərz onun razılığı olmadan uçurula və ya dəyişdirilə bilməz.

176.3. Əgər dəqiq sərhədləri müəyyənləşdirmək mümkün deyildirsə, mərz çəkilməsi üçün qonşuların faktik sahibliyi həlledici əhəmiyyət daşıyır. Faktik sahibliyi müəyyənləşdirmək mümkün olmadıqda, mübahisəli ərazi sahələr arasında bərabər bölüşdürülür. Əgər belə bölgü ədalətsiz nəticələr doğurarsa, tərəflərdən birinin ərizəsi ilə sərhədi məhkəmə müəyyənləşdirir.

Maddə 177. İtmiş heyvanlar və əşyalar

Əgər təbii fəlakət və ya təsadüfi hadisələr nəticəsində əşyalar özgə torpaq sahəsinə düşərsə və ya vəhşi heyvanlar istisna olmaqla, heyvanlar özgə ərazisinə keçərsə, həmin torpaq sahəsinin mülkiyyətçisi ixtiyarlı şəxsin onların arxasınca gəlib onları götürməsinə icazə verməlidir. Bu zaman dəyən zərər üçün o, əvəz ödənilməsini tələb edə bilər və bununla əlaqədar həmin əşyaları saxlamaq hüququna malikdir.

9-cu fəsil. Mülkiyyət hüququnun əldə edilməsi və itirilməsi

§ 1. Daşınmaz əşyalara mülkiyyət hüququnun əldə edilməsi

Maddə 178. Daşınmaz əmlaka mülkiyyət hüququnun əldə edilməsi

178.1. Daşınmaz əmlaka mülkiyyət hüququ onun verilməsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əldə edənə keçir. *Əgər qanuna müvafiq olaraq daşınmaz əmlak üzərində mülkiyyət hüququnun dövlət reyestrində qeydə alınmadan başqa şəxsə keçməsi mümkündürsə, onda şəxs bu barədə dövlət reyestrinə məlumat verməlidir.*

178.2. Yeni yaranmış daşınmaz əmlaka mülkiyyət hüququ onun daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əmələ gəlir.

178.3. Əgər daşqın, torpağın səpələnməsi və ya yerdəyişməsi, çayın yatağının və ya səviyyəsinin dəyişməsi nəticəsində, yaxud başqa şəkildə yeni ərazi meydana gəlmişsə, o, bitişik torpaq sahəsində birləşdirilir.

178.4. Torpağın bir torpaq sahəsindən digərinə yerdəyişməsi sahələrin hüdudlarının dəyişməsinə səbəb olmur.

178.5. Əgər daşınmaz əmlakın dövlət reyestrində əsassız qeydə alınmış mülkiyyətçi qeydəalmanın əsassız olduğunu bilməyərək, torpaq sahəsinə 10 il ərzində fasiləsiz və etirazsız sahiblik etmişsə, *həmin şəxs bu torpaq sahəsinin mülkiyyətçisi sayılır*.

178.6. Əgər şəxs daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmamış daşınmaz əmlaka faktik mülkiyyətçi hüququ ilə 30 il ərzində fasiləsiz və etirazsız sahiblik etmişsə, o, mülkiyyətçi kimi qeydə alınmasını tələb edə bilər. Eyni şərtlərlə bu hüquq həmçinin o daşınmaz əmlakın sahibinə mənsubdur ki, onun mülkiyyətçisi daşınmaz əmlakın dövlət reyestrindən bəlli olmasın və ya 30 il əvvəl ölmüş və ya mülkiyyətin sahiblik müddətinə görə əldə edilməsi müddətinin əvvəlində xəbərsiz itkin düşmüş elan olunsun. Lakin qeydiyyat rəsmi elan olunmuş müddətdə etiraz verilmədikdən və ya rədd edildikdən sonra yalnız məhkəmənin qərarı ilə aparılmalıdır.

178.7. Sahibsiz daşınmaz əşyalar, habelə ictimai sular və becərilməyə yararsız torpaqlar, məsələn, qayalar, yüksək dağlar və onlardan çağlayan bulaqlar, habelə faydalı qazıntılar dövlətə mənsubdur.

178.8. Mənzil, bağ, qaraj və ya başqa kooperativin üzvü, pay yığımına hüququ olan digər şəxslər kooperativin verdiyi mənzil, bağ, qaraj və ya ayrı qurğu üçün pay haqqını tam verdikdə, həmin əmlaka mülkiyyət hüququ əldə edirlər. (12) (km7)

Maddə 179. Əldə etmə müddəti (km3)

~~*179.1. Daşınmaz əmlak mülkiyyət hüququ ilə heç kəsə mənsub olmadıqda və ya daşınmaz əmlakın mülkiyyətçisini müəyyən etmək mümkün olmadıqda, daşınmaz əmlakın mülkiyyətçisi olmayan, lakin on beş il ərzində ona öz əmlakı kimi vicdanla, açıq və fasiləsiz sahiblik edən fiziki və ya hüquqi şəxs bu əmlaka mülkiyyət hüququ əldə edir (əldə etmə müddəti).*~~

179.2. Daşınmaz əmlaka sahiblik müddətinə əsaslanan şəxs hüquq varisi olduğu şəxsin bu əmlaka sahiblik etdiyi bütün müddəti öz sahiblik müddətinə birləşdirə bilər.

179.3. Əmlaka öz əmlakı kimi sahiblik edən şəxs əldə etmə müddəti ilə əlaqədar daşınmaz əmlaka mülkiyyət hüququnu əldə edənə qədər öz sahibliyini əmlakın mülkiyyətçisi olmayan və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulmuş digər əsasa görə ona sahiblik hüquqları olmayan üçüncü şəxslərdən müdafiə etmək hüququna malikdir.

179.4. Əldə etmə müddəti ilə əlaqədar daşınmaz əmlakı əldə etmiş şəxsin həmin əmlaka mülkiyyət hüququ bu hüququn daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əmələ gəlir. (3, 10)

Maddə 180. Özbaşına tikinti və onun nəticələri

180.1. Tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak özbaşına tikinti sayılır.

180.2. Özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə etmir. Onun tikintiyə dair sərəncam vermək, onu satmaq, bağışlamaq, icarəyə vermək, digər əqdlər bağlamaq ixtiyarı yoxdur.

180.3. Özbaşına tikintiyə mülkiyyət hüququ məhkəmə tərəfindən o şəxs üçün tanına bilər ki, tikinti aparılmış torpaq sahəsi onun mülkiyyətində olsun. Əgər tikintinin saxlanması digər şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozursa və ya fiziki şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaradırsa, göstərilən şəxsin özbaşına tikintiyə mülkiyyət hüququ tanına bilməz.

180.4. Tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş bina və qurğular müvafiq icra hakimiyyəti orqanlarının və ya maraqlı tərəfin müraciəti üzrə qəbul edilmiş məhkəmənin qərarı əsasında sökülə bilər. (24)

§ 2. Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi

Maddə 181. Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi əsasları

181.1. Daşınar əşyaya mülkiyyət hüququnun əldə edənə verilməsi üçün mülkiyyətçi əşyaya sahibliyi həqiqi hüquq əsasında ona verməlidir.

181.2. Əşyanın verilməsi bunlardır: əşyanın əldə edənin birbaşa sahibliyinə verilməsi, əşyaya dolayı sahibliyin müqavilə üzrə verilməsi, bu zaman əvvəlki mülkiyyətçi birbaşa sahib kimi qala bilər; mülkiyyətçinin üçüncü şəxsdən sahibliyi tələb etmək hüququnu əldə edənə verməsi.

181.3. Şəxsin qanunvericiliyin tələblərinə əməl etməklə özü üçün hazırladığı və ya yaratdığı yeni əmlaka mülkiyyət hüququnu onun özü əldə edir. Əmlakdan istifadə nəticəsində götürülən bəhərə, məhsula və gəlirə mülkiyyət hüququ bu Məcəllənin 135.12-ci maddəsində nəzərdə tutulan əsaslarla əldə edilir.

181.4. Mülkiyyətçisi olan əmlaka mülkiyyət hüququ başqa şəxs tərəfindən alğı-satqı, dəyişdirmə, bağışlama müqaviləsi və ya bu əmlakın özgəninkiləşdirilməsinə dair digər əqd əsasında əldə edilə bilər. *Əgər şəxs beş il fasiləsiz daşınar əşyaya öz mülkiyyəti kimi sahiblik etmişdirsə, o həmin əşyaya mülkiyyət hüququ əldə edir (əldə etmə müddəti). Əgər əldə edən əşyaya vicdansız sahiblik edirdisə və ya sonradan əşyanın ona məxsus olmamasını bilmişdirsə, daşınar əşyanın əldə edilməsi yol verilməzdir.*

~~181.5. Fiziki şəxs öldükdə, ona mənsub olmuş əmlaka mülkiyyət hüququ vəsiyyətə və ya qanuna uyğun surətdə vərəsəlik üzrə başqa şəxslərə keçir.~~

181.6. Hüquqi şəxs yenidən təşkil edildikdə, ona mənsub olmuş əmlaka mülkiyyət hüququ yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisi olan hüquqi şəxsə (hüquqi şəxslərə) keçir.

181.7. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada şəxs mülkiyyətçisi olmayan əmlaka, mülkiyyətçisi məlum olmayan əmlaka və ya mülkiyyətçisinin imtina etdiyi və ya qanunda nəzərdə tutulmuş digər əsaslarla mülkiyyət hüququnu itirdiyi əmlaka mülkiyyət hüququ əldə edə bilər.

~~181.8. Mənzil, bağ, qaraj kooperativinin və ya başqa kooperativin üzvü, pay yığımına hüququ olan digər şəxslər kooperativin verdiyi mənzil, bağ, qaraj və ya ayrı qurğu üçün pay haqqını tam verdikdə həmin əmlaka mülkiyyət hüququ əldə edirlər.~~ (12)

Maddə 182. Vicdanlı əldə edən

182.1. Əşyanı özgəninkiləşdirənin onun mülkiyyətçisi olmadığı, lakin bu fakt barədə vicdanlı əldə edən olduğu hallarda da əldə edən əşyanın mülkiyyətçisi olur. Əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirmişsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır. Vicdanlılıq faktı əşya verilənə qədər mövcud olmalıdır.

182.2. Daşınar əşyanın mülkiyyətçisi bu əşyanı itirmişsə, əşya ondan oğurlanmışsa və ya iradəsinin ziddinə olaraq başqa şəkildə onun sahibliyindən çıxmışsa, yaxud əldə edən onu əvəzsiz almışsa, həmin əşyanı əldə edən vicdanlı ola bilməz. Bu məhdudiyyətlər auksionda özgəninkiləşdirilmiş pula, qiymətli kağızlara və əşyalara tətbiq olunmur.

Maddə 183. Mülkiyyətin qiymətli kağızlar vasitəsi ilə verilməsi

Mülkiyyətin əldə edənə keçməsi üçün əşyanın verilməsi əvəzinə qiymətli kağız verilməsi məcburidirsə, özgəninkiləşdirənin qiymətli kağızı əldə edənə verdiyi andan mülkiyyət əldə edənə keçmiş sayılır.

Maddə 184. Sahibsiz daşınar əşyaya mülkiyyətin əldə edilməsi

184.1. Əgər sahibsiz daşınar əşyanın mənimsənilməsi bu Məcəllə ilə qadağan edilməmişsə və ya onu mənimsəmək hüququna malik olmuş başqa şəxsin hüquqlarını pozmursa, şəxs həmin əşyanı sahibliyə qəbul etdikdə ona mülkiyyət hüququ əldə edir.

184.2. Əgər daşınar əşyanın mülkiyyətçisi yoxdursa və ya məlum deyildirsə və ya keçmiş mülkiyyətçisi mülkiyyətdən imtina edərək əşyaya sahibliyə xitam verirsə, daşınar əşya sahibsiz sayılır.

Maddə 185. Mülkiyyətçinin imtina etdiyi daşınar əşya

185.1. Mülkiyyət hüququndan imtina etmək məqsədi ilə mülkiyyətçinin atdığı və ya digər şəkildə əl çəkdiyi daşınar əşyanı (atılmış əmlakı) başqa şəxslər öz mülkiyyətinə yönəldə bilər.

185.2. Mülkiyyətində, sahibliyində və ya istifadəsində torpaq sahəsi, sututar və ya başqa obyekt olan şəxs, əgər orada dəyəri *əlli beş manatdan* aşkar aşağı olan atılmış əmlak və ya atılmış metal qırıntıları, zay məhsul, faydalı qazıntıların çıxarılması zamanı əmələ gələn təpəciklər, istehsal tullantıları və başqa tullantılar varsa, həmin əmlakdan istifadəyə başlamaqla və ya əmlakı mülkiyyətə yönəltdiyini göstərən digər hərəkətlər etməklə, onu öz mülkiyyətinə yönəltmək hüququna malikdir.

185.3. Atılmış başqa əmlak ona sahibliyə başlamış şəxsin mülkiyyətinə o zaman daxil olur ki, bu əmlak həmin şəxsin ərizəsi ilə məhkəmə tərəfindən sahibsiz hesab edilir. (32)

Maddə 186. Tapıntı

186.1. İtirilmiş əşyanı tapan şəxs tapıntı barədə onu itirmiş şəxsə, onun mülkiyyətçisinə, səlahiyyətli şəxsə və ya əgər mülkiyyətçi məlum deyilsə, polisə dərhal xəbər verməli və həmin əşyanı verməlidir.

186.2. Əşyanı tapan şəxsə mülkiyyətçinin məlum olduğu və ya mülkiyyətçinin əşyaya hüququnun artıq polisə bildirildiyi hallar istisna olmaqla, əşyanı tapan şəxs bu barədə xəbər verdiyi vaxtdan bir illik müddət keçdikdən sonra tapıntıya mülkiyyət hüququ əldə edir. Mülkiyyət hüququnun əldə edilməsi ilə bir vaxtda həmin əşyaya bütün başqa hüquqlara xitam verilir.

186.3. Səlahiyyətli şəxs tapılmış əşyanı qəbul edirsə, onu tapan şəxs tapılmış əşyanın dəyərinin beş faizinədək miqdarda bəxşiş tələb edə bilər. Bundan başqa, əşyanı tapan şəxs səlahiyyətli şəxsdən həmin əşyanın saxlanması xərclərinin əvəzini ödəməyi də tələb edə bilər. Əmlakı tapan tapıntı barədə məlumat verməmişsə və ya onu gizlətməyə cəhd göstərmişsə, bəxşiş almaq hüququ əmələ gəlmir.

186.4. Əşyanı tapan şəxs mülkiyyətdən imtina edirsə, səlahiyyətli orqan bir il keçdikdən sonra əşyanı auksionda sataraq fayda götürə bilər və ya söhbət azqiymətli əşyadan gedirsə, onu pulsuz özgəninkiləşdirə bilər və ya məhv edə bilər.

186.5. Əgər tapıntı heyvan və ya tez xarab olan əşyadırsa, yaxud saxlanması böyük xərc tələb edən əşyadırsa, bir illik müddət tətbiq olunmur və onların özgəninkiləşdirilməsi nəticəsində əldə edilmiş məbləğ mülkiyyətçiyə qaytarılır.

Maddə 187. Dəfinə

187.1. Dəfinə, yəni torpağa basdırılmış və ya başqa üsulla gizlədilmiş pul və ya digər əşya bunların mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmadıqda, dəfinənin gizlədildiyi əmlakın (torpaq sahəsinin, tikilinin və s.) mənsub olduğu şəxslə dəfinəni aşkar etmiş şəxsin mülkiyyətinə, həm də, əgər onların razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bərabər paylar şəklində daxil olur.

187.2. Dəfinə onun gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinin razılığı olmadan qazıntı aparan və ya sərvət axtaran şəxs tərəfindən aşkar edildikdə, həmin torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinə verilməlidir.

187.3. Aşkar edilən dəfinə tarix və ya mədəniyyət abidələrinə aid elmi dəyərli əmlak olduqda, dövlət mülkiyyətinə verilməlidir. Bu zaman dəfinənin gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisi və dəfinəni aşkar etmiş şəxs birlikdə dəfinənin dəyərinin əlli faizi miqdarında bəxşiş almaq hüququna malikdirlər. Bu şəxslərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bəxşiş onların arasında bərabər bölünür.

187.4. Belə dəfinə onun gizlədildiyi əmlakın mülkiyyətçisinin razılığı olmadan qazıntı aparan və ya sərvət axtaran şəxs tərəfindən aşkar edildikdə, bəxşiş bütünlüklə əmlakın mülkiyyətçisinə verilir.

187.5. Bu maddənin qaydaları dəfinə aşkar etmək üçün qazıntı və axtarış aparılması əmək və ya qulluq vəzifələrinə aid olan şəxslərə tətbiq edilmir.

Maddə 188. Emal

188.1. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, şəxsin özünə mənsub olmayan materialların emalı yolu ilə hazırladığı yeni daşınar əmlaka mülkiyyət hüququnu materialların mülkiyyətçisi əldə edir. Emalın dəyəri materialların dəyərindən əhəmiyyətli dərəcədə yüksək olduqda, yeni əmlaka mülkiyyət hüququnu vicdanla hərəkət edərək, materialları özü üçün emal etmiş şəxs əldə edir.

188.2. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, özünün materiallarından hazırlanmış əmlaka mülkiyyət hüququ əldə edən mülkiyyətçi emalın dəyərini emal edən şəxsə ödəməlidir~~, yeni əmlaka mülkiyyət hüququnu emal edən şəxs əldə etdikdə isə o, materialların dəyərini mülkiyyətçisinə ödəməlidir~~.

188.3. Materialları emal etmiş şəxsin vicdansız hərəkətləri nəticəsində onları itirən materialların mülkiyyətçisi yeni əmlakın öz mülkiyyətinə verilməsini və ona vurulan zərərin əvəzinin ödənilməsini tələb edə bilər. (12)

Maddə 189. Yığılması hamıya müyəssər olan əmlakın mülkiyyətə götürülməsi

Qanunvericiliyə, mülkiyyətçinin verdiyi ümumi icazəyə və ya yerli adətə uyğun olaraq meşələrdə, sututarlarda və ya başqa ərazidə giləmeyvə yığılmasına, balıq tutulmasına, heyvan ovuna və ya hamıya müyəssər olan digər əmlakın yığılmasına yol verildiyi hallarda müvafiq əmlaka mülkiyyət hüququnu onu yığan və ya ovlayan şəxs əldə edir.

Maddə 190. Torpaq sahəsinin tərkib hissəsinə mülkiyyətin əldə edilməsi

Daşınar əşyanın torpaq sahəsi ilə bağlılıq tərzi onu həmin sahənin tərkib hissəsinə çevirmişsə, bu Məcəllənin 135.10-cu maddəsinə uyğun olaraq torpaq sahəsinin mülkiyyətçisi eyni zamanda həmin əşyanın da mülkiyyətçisi olur.

Maddə 191. Birləşmə nəticəsində yaranan əşyaya birgə mülkiyyət

191.1. Daşınar əşyaların bir-birinə bağlılığı nəticəsində onlar yeni vahid əşyanın tərkib hissələrinə çevrildikdə və ya daşınar əşyalar birləşdikdə, onların əvvəlki sahibləri bu yeni əşyanın mülkiyyətçiləri olurlar. Paylar həmin əşyaların birləşməzdən əvvəlki dəyərinə uyğun müəyyənləşdirilir.

191.2. Əşyalardan biri bərqərar olmuş rəyə görə baş əşya sayılırsa, onun mülkiyyətçisi həmin əşyanın ləvazimatına da mülkiyyət əldə edir.

Maddə 191-1. Yeni mülkiyyətçiyə qarşı zərərin əvəzinin ödənilməsi tələbi

191-1.1. Bu Məcəllənin 188-ci, 190-cı və 191-ci maddələrinə müvafiq olaraq mülkiyyətini itirən və ya hüquqları başqa qaydada pozulan şəxs mülkiyyətçi olmuş şəxsdən zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Əvvəlki vəziyyətin bərpa olunması tələbi yol verilməzdir.

191-1.2. Əgər yeni mülkiyyətçi əşyanı əvəzli müqavilə əsasında üçüncü şəxsdən əldə edibsə, bu Məcəllənin 191-1.1-ci maddəsində nəzərdə tutulmuş tələb əmələ gəlmir. (12)

Maddə 192. Nəzarətsiz heyvanlar

192.1. Nəzarətsiz və ya otlamağa buraxılmış mal-qaranı və ya digər nəzarətsiz heyvanları tutan şəxs onları mülkiyyətçisinə qaytarmalıdır, heyvanların mülkiyyətçisi və ya onun

olduğu yer bilinmədikdə isə, onları tutduğu andan ən geci üç gün keçənədək aşkar etdiyi heyvanlar barədə polisə xəbər verməlidir; polis mülkiyyətçinin axtarılması üçün tədbirlər görməlidir.

192.2. Heyvanları tutan şəxs mülkiyyətçinin axtarıldığı müddətdə onları özündə saxlaya və istifadə edə bilər, yaxud saxlanmaq və istifadə üçün başqa şəxsə verə bilər. Nəzarətsiz heyvanları tutan şəxsin xahişi ilə polis onları saxlamaq üçün lazımi şəraiti olan şəxsi axtarır və heyvanları ona verir.

192.3. Nəzarətsiz heyvanları tutan şəxs, habelə saxlanmaq və istifadə üçün onların verildiyi şəxs heyvanları lazımi qaydada saxlamalıdır. Həmin şəxslər heyvanların tələf olmasında və ya azarlamasında təqsirli olduqda, onların dəyəri həddində məsuliyyət daşıyırlar.

192.4. Nəzarətsiz ev heyvanlarının tutulması barədə xəbər verildiyi gündən altı ay müddətində onların mülkiyyətçisi aşkar edilməzsə və ya özü onlara hüququnu bildirməzsə, heyvanları saxlayan və onlardan istifadə edən şəxs onlara mülkiyyət hüququ əldə edir. Həmin şəxs saxladığı heyvanları mülkiyyətə götürməkdən imtina etdikdə, onlar dövlət mülkiyyətinə daxil olur.

192.5. Heyvanlar başqa şəxsin mülkiyyətinə keçdikdən sonra onların əvvəlki mülkiyyətçisi gəldikdə, əgər həmin heyvanların ona bağlılığını saxladığını sübut edən hallar olarsa, yeni mülkiyyətçi ilə razılaşma əsasında müəyyənləşdirilən şərtlərlə, razılaşma əldə edilmədikdə isə məhkəmə yolu ilə heyvanların qaytarılmasını tələb edə bilər.

192.6. Nəzarətsiz heyvanlar mülkiyyətçisinə qaytarıldıqda, onları saxlamış şəxs heyvanlardan istifadə nəticəsində götürdüyü mənfəəti çıxmaq şərti ilə, onların saxlanması ilə bağlı çəkdiyi zəruri xərclərin əvəzinin heyvanların mülkiyyətçisi tərəfindən ödənilməsi hüququna malikdir. Nəzarətsiz heyvanları tutmuş şəxs bu Məcəllənin 186.3-cü maddəsinə uyğun olaraq bəxşiş hüququna malikdir.

§ 3. Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi

Maddə 193. Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi anlayışı

193.1. Güzəşt edilməsi və ya girov qoyulması mümkün olan tələbi və ya hüququ onun sahibi başqa şəxsin mülkiyyətinə verə bilər. Tələblər və hüquqlar yeni şəxsə köhnə sahibində olduğu vəziyyətdə keçir.

193.2. Əvvəlki sahib tələblərə və hüquqlara aid öz sərəncamında olan bütün sənədləri və həmin tələblərdən və hüquqlardan istifadə üçün zəruri olan bütün məlumatı yeni sahibə verməlidir.

193.3. Əvvəlki sahib tələb əsasında bu hüququn və tələbin güzəşti barədə lazımınca təsdiqlənmiş sənədi də əldə edənə verməlidir. Bu sənədin təsdiqlənməsi üçün zəruri xərclər yeni sahibin üzərinə qoyulur.

Maddə 194. Tələbin güzəşti

194.1. Tələb sahibi (kreditor) borclunun razılığı olmadan tələbi üçüncü şəxsə güzəşt edə bilər (tələbin güzəşti), bu şərtlə ki, həmin güzəşt öhdəliyin mahiyyətinə, onun borclu ilə

razılaşmasına və ya qanunvericiliyə zidd olmasın. Güzəştin yolverilməzliyi barədə borclu ilə razılaşma yalnız borclunun üzrlü mənafeyi olduqda mümkündür.

194.2. Tələbin güzəşti tələbin sahibi ilə üçüncü şəxs arasında bağlanan müqavilə ilə həyata keçirilir. Belə hallarda ilk sahibin yerini üçüncü şəxs tutur.

194.3. Kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblərin, o cümlədən alimentlər haqqında və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblərin güzəşt edilməsinə yol verilmir.

194.4. Sadə yazılı və ya notarial formada bağlanmış əqdə əsaslanan tələbin güzəşti müvafiq yazılı formada həyata keçirilməlidir.

194.5. Orderli qiymətli kağız üzrə tələbin güzəşti həmin qiymətli kağız üzrə indossament yolu ilə həyata keçirilir. (12)

Maddə 195. Tələbin güzəşti zamanı borclunun vəzifələri

Tələbin güzəşti barədə borcluya məlumat verilənə qədər o, tələbin ilk sahibi qarşısında öhdəliklərini icra edə bilər.

Maddə 196. Kreditorun başqa şəxsə güzəşt edilən tələblərinin həcmi

Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, ilkin kreditorun tələbi yeni kreditora hüququn keçdiyi məqamda mövcud olmuş həcmdə və şərtlərlə keçir. Xüsusilə, öhdəliyin icrasını təmin edən hüquqlar, habelə tələblə bağlı olan digər hüquqlar, o cümlədən ödənilməmiş faizlərə hüquq yeni kreditora keçir. Tələb güzəşt edildikdə, yeni kreditora girov və ipoteka hüququ, habelə ona verilmiş zaminlik üzrə hüquqlar keçir. Yeni kreditor məcburi icra və müflisolma halı üçün tələblə bağlı üstünlük hüququnu həyata keçirə bilər. (12)

Maddə 197. Tələb sahiblərinin növbəliyi

Əgər tələb sahibi eyni tələbin güzəşti barədə bir neçə şəxslə şərtləşərsə, tələb onun sahibinin daha əvvəl münasibətlər yaratdığı şəxsə keçir. Bunu müəyyənləşdirmək mümkün olmadıqda, tələb, haqqında borcluya daha əvvəl məlumat verilmiş şəxsə keçir. *Eyni qayda gələcəkdə yaranan tələblərə də şamil edilir.* (12)

Maddə 198. Yeni kreditorun tələblərinin sübutu

198.1. Borclu yeni kreditora öhdəliyi tələbin həmin şəxsə keçdiyinə dair sübutlar ona təqdim edilənədək icra etməyə bilər.

198.2. Tələbi başqa şəxsə güzəşt etmiş kreditor ona tələb hüququnu təsdiqləyən sənədləri təqdim etməyə və tələbin həyata keçirilməsi üçün əhəmiyyət daşıyan məlumatları bildirməyə borcludur. (12)

Maddə 199. Yeni kreditorun tələblərinə qarşı borclunun etirazları

199.1. Borclu öhdəlik üzrə tələblərin yeni kreditora güzəşt edildiyi barədə bildirişi aldığı məqamda ilkin kreditora qarşı malik olduğu etirazları yeni kreditorun tələbinə qarşı irəli sürə bilər.

199.2. Əgər borclu borc öhdəliyi barədə sənəd vermişsə, borc öhdəliyinintəqdim edilməsi üzrə tələbin güzəştli zamanı o, yeni kreditor qarşısında buna istinad edə bilməz ki, öhdəlik münasibətlərinə girməsi və onların təsdiqi yalnız görüntü yaratmaq üçün edilmişdir və ya ilkin kreditorla razılaşmaya görə güzəşt istisna edilmişdir, amma güzəşt zamanı yeni kreditorun işin təfsilatını bildiyi və ya bilməli olduğu hallar istisna təşkil edir. (12)

~~***Maddə 200. Yeni borclunun vəzifələri***~~

~~Yeni borclu tələb sahibi ilə ilk borclu arasındakı münasibətlərdən irəli gələn bütün qarşılıqlı tələbləri tələb sahibinə qarşı irəli sürə bilər. O, ilk borcluya mənsub olmuş tələbləri hesaba ala bilməz.~~ (12)

~~***Maddə 201. Borc keçirildikdə təminat vasitələrinə xitam verilməsi***~~

~~Borc keçirildikdə tələbin təminatı üçün nəzərdə tutulan zaminliyə və girova xitam verilir, bu şərtlə ki, zamin və ya girov qoyan bu münasibətin davam etdirilməsindən imtina etsin.~~

Maddə 202. Qanuna, məhkəmənin və ya digər səlahiyyətli dövlət orqanının qərarına əsasən tələbin güzəşti

Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi qaydaları qanuna, məhkəmənin və ya digər səlahiyyətli dövlət orqanının qərarına əsasən həyata keçirilən tələbin güzəştinə də müvafiq surətdə tətbiq olunur.

§ 4. Mülkiyyət hüququnun itirilməsi

Maddə 203. Mülkiyyət hüququnun itirilməsi növləri

203.1. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat yazısı ləğv edildikdə, habelə daşınmaz əmlak tamamilə məhv olduqda, daşınmaz əmlaka mülkiyyət hüququ itirilir.

203.2. Daşınar əşyanın mülkiyyətçisi mülkiyyət hüququndan imtina etdikdə, əşya məhv olduqda və ya sonralar hər hansı başqa şəxs bu əşyaya mülkiyyət hüququnu əldə etdikdə, sahibliyin itib-itməməsindən asılı olmayaraq, daşınar əşyaya mülkiyyət hüququ itirilir.

203.3. Qanunvericilikdə nəzərdə tutulmuş əsaslarla həyata keçirilən aşağıdakı tədbirlərdən başqa, əmlakın mülkiyyətçidən məcburi alınmasına yol verilmir:

203.3.1. öhdəliklər üzrə tutmanın əmlaka yönəldilməsi;

203.3.2. qanuna görə həmin şəxsə mənsub ola bilməyən əmlakın özgəninkiləşdirilməsi;

203.3.3. sahənin alınması ilə əlaqədar daşınmaz əmlakın özgəninkiləşdirilməsi;

203.3.4. təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satın alınması;

203.3.5. rekvizisiya;

203.3.6. müsadirə.

203.4. Dövlət mülkiyyətində olan əmlak özəlləşdirmə haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada fiziki və hüquqi şəxslərin mülkiyyətinə özgəninkiləşdirilir.

203.5. Fiziki və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın dövlətin və cəmiyyətin ehtiyacları üçün özgəninkiləşdirilməsi Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin IV hissəsinə əsasən həyata keçirilir.

Maddə 204. Mülkiyyət hüququndan imtina

204.1. Daşınmaz əmlaka mülkiyyət hüququndan və ya digər hüquqdan imtina edilməsi üçün ixtiyarlı şəxsin bu hüquqdan imtina etdiyi barədə ərizəsi və həmin ərizənin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması zəruridir. Daşınmaz əmlaka mülkiyyət hüququndan və ya digər hüquqdan imtina haqqında ərizə bu barədə daşınmaz əmlakın dövlət reyestrində qeyd yazıldıqdan sonra məcburi qüvvə alır.

204.2. Daşınar əmlaka mülkiyyət hüququndan və ya digər hüquqdan imtina üçün mülkiyyətçi bu barədə yazılı elan verməli və ya həmin əmlaka hər hansı hüququnu saxlamaq niyyəti olmadan əmlaka sahiblik etməkdən, ondan istifadə etməkdən və ona dair sərəncam verməkdən kənarlaşmasını aşkar göstərən başqa hərəkətləri yerinə yetirməlidir.

Maddə 205. Mülkiyyətçinin öhdəlikləri üzrə tutmanın əmlaka yönəldilməsi

205.1. Mülkiyyətçinin öhdəlikləri üzrə tutmanın əmlaka yönəldilməsi yolu ilə əmlakın alınması, müqavilədə tutmanın yönəldilməsinin ayrı qaydası nəzərdə tutulmayıbsa, məhkəmə qərarına əsasən həyata keçirilir.

205.2. Tutmanın yönəldildiyi əmlaka mülkiyyətçinin mülkiyyət hüququna, alınmış əmlakın keçdiyi şəxsin həmin əmlaka mülkiyyət hüququnun yarandığı andan xitam verilir.

Maddə 206. Şəxsin ona mənsub ola bilməyən əmlaka mülkiyyət hüququna xitam verilməsi

206.1. Əgər qanunun yol verdiyi əsaslara görə şəxsin mülkiyyətinə qanunla ona mənsub ola bilməyən əmlak düşmüşsə, həmin əmlakı mülkiyyətçi, qanunla ayrı müddət müəyyənləşdirilməyibsə, əmlaka mülkiyyət hüququnun əmələ gəldiyi andan bir il ərzində özgəninkiləşdirməlidir.

206.2. Mülkiyyətçi əmlakı bu Məcəllənin 206.1-ci maddəsində göstərilən müddətlərdə özgəninkiləşdirmədikdə, belə əmlak, onun xarakterini və təyinatını nəzərə almaqla, dövlət orqanının ərizəsi üzrə məhkəmənin çıxardığı qərara əsasən məcburi satılaraq satış pulu keçmiş mülkiyyətçiyə verilməli və ya dövlət mülkiyyətinə verilərək dəyəri keçmiş mülkiyyətçiyə ödənilməlidir. Bu zaman əmlakın özgəninkiləşdirilməsinə çəkilən xərclər çıxılır.

206.3. Əgər qanunun yol verdiyi əsaslara görə fiziki və ya hüquqi şəxsin mülkiyyətinə əldə edilməsinə xüsusi icazə tələb olunan və mülkiyyətçiyə belə icazənin verilməsindən imtina edilən əmlak düşərsə, bu əmlak həmin mülkiyyətçiyə mənsub ola bilməyən əmlak üçün müəyyənləşdirilmiş qaydada özgəninkiləşdirilməlidir.

Maddə 207. Torpaq sahəsinin alınması ilə əlaqədar orada olan daşınmaz əmlakın özgəninkiləşdirilməsi

207.1. Torpaq sahəsində olan binalara, qurğulara və ya digər daşınmaz əmlaka mülkiyyət hüququna xitam verilmədən həmin sahənin dövlət ehtiyacları ~~və ya ictimai ehtiyaclar~~ üçün alınmasının mümkün olmadığı hallarda dövlət bu əmlakı satınalma yolu ilə ala bilər.

~~207.2. Əgər daşınmaz əmlakın alınması tələbi ilə məhkəməyə müraciət edən dövlət orqanı sübut etsə ki, torpaq sahəsindən onun alındığı məqsədlər üçün istifadə olunması həmin daşınmaz əmlaka mülkiyyət hüququna xitam verilmədən qeyri-mümkündür, bu tələb ödənilməlidir.~~ (12, 23)

Maddə 208. Təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satın alınması

208.1. Qanuna uyğun olaraq xüsusilə qiymətli və dövlət tərəfindən qorunan sərvətlər sırasına daxil edilmiş mədəni sərvətlərin mülkiyyətçisi həmin sərvətləri təsərrüfatsızcasına saxlayırsa, bu isə onların öz əhəmiyyətini itirəcəyi qorxusunu törədirsə, belə sərvətlər məhkəmənin qərarına əsasən dövlət tərəfindən satınalma yolu ilə mülkiyyətçidən alına bilər.

208.2. Mədəni sərvətlər satın alınarkən onların dəyəri mülkiyyətçiyə tərəflərin razılaşması ilə, mübahisə olduqda isə məhkəmə tərəfindən müəyyənləşdirilmiş miqdarda ödənilir.

Maddə 209. Rekvizisiya

209.1. Təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanlarının qərarı ilə mülkiyyətçidən əmlak qanunla müəyyənləşdirilmiş qaydada və şərtlərlə, dəyəri mülkiyyətçiyə ödənilməklə cəmiyyətin mənafeləri üçün alına bilər (rekvizisiya).

209.2. Əmlakı rekvizisiya edilmiş şəxs rekvizisiya üçün əsas götürülmüş halların təsiri qurtardıqda, əmlakından qalanın qaytarılmasını məhkəmə yolu ilə tələb edə bilər.

Maddə 210. Mülkiyyət hüququna qanun üzrə xitam verilməsinin nəticələri

Mülkiyyət hüququna xitam verən Azərbaycan Respublikası qanunu qəbul edildikdə, bu qanunun qəbulu nəticəsində mülkiyyətçiyə dəyən zərərin əvəzi, o cümlədən əmlakın dəyəri dövlət tərəfindən ödənilir. Zərərin əvəzinin ödənilməsinə dair mübahisələri məhkəmə həll edir.

Maddə 211. Mülkiyyət hüququna xitam verildikdə əmlakın qiymətləndirilməsi

Mülkiyyət hüququna xitam verildikdə əmlak onun bazar qiymətinə əsasən qiymətləndirilir.

Maddə 212. Müsadirə

Qanunda nəzərdə tutulmuş hallarda mülkiyyətçidən əmlak, törədilmiş cinayətə görə sanksiya kimi məhkəmənin hökmü ilə əvəzsiz alına bilər (müsadirə).

10-cu fəsil. Mülkiyyət hüququnun xüsusi növləri

§ 1. Ümumi mülkiyyət

Maddə 213. Ümumi mülkiyyət anlayışı və onun əmələ gəlməsi əsasları

213.1. İki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında mənsubdur.

213.2. Əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər.

213.3. Əşyaya ümumi mülkiyyət, qanunvericilikdə həmin əşyaya birgə mülkiyyət yaranmasının nəzərdə tutulduğu hallar istisna olmaqla, paylı mülkiyyətdir.

213.4. Ümumi mülkiyyət təyinatı dəyişdirilmədən bölünə bilməyən əşyanın (bölünməz əşya) və ya bu Məcəlləyə görə bölünməli olmayan əşyanın iki və ya bir neçə şəxsin mülkiyyətinə daxil olması zamanı yaranır. Bölünən əşyaya ümumi mülkiyyət bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulmuş hallarda yaranır.

213.5. Birgə mülkiyyət iştirakçılarının razılaşması ilə, razılaşma əldə edilmədikdə isə məhkəmənin qərarına əsasən ümumi əşyaya bu şəxslərin paylı mülkiyyəti müəyyənləşdirilə bilər.

213.6. Ümumi mülkiyyətin hər bir mülkiyyətçisi ümumi mülkiyyətdə olan əşya barəsində üçüncü şəxslərə qarşı tələblər irəli sürə bilər. Ümumi mülkiyyətin hər bir mülkiyyətçisi əmlakı yalnız bütün mülkiyyətçilərin xeyrinə tələb edə bilər.

213.7. Ümumi mülkiyyətdə olan əşya digər mülkiyyətçilərlə razılaşma əsasında mülkiyyətçilərdən birinin xeyrinə və mənafeyi üçün girov qoyula bilər və ya başqa şəkildə yüklü edilə bilər.

213.8. Ümumi mülkiyyətdə olan əşyaya qulluq edilməsi və onun saxlanması xərcləri, bu Məcəllədə və ya müqavilədə ayrı qayda müəyyənləşdirilməyibsə, mülkiyyətçilərin üzərinə bərabər şəkildə qoyulur.

Maddə 214. Paylı ümumi mülkiyyət hüququnda payların müəyyənləşdirilməsi

214.1. Əgər paylı mülkiyyət mülkiyyətçilərinin payları bu Məcəlləyə əsasən təyin edilə bilmirsə və bütün mülkiyyətçilərin razılaşması ilə müəyyənləşdirilməyibsə, paylar bərabər sayılır.

214.2. Paylı mülkiyyətin bütün mülkiyyətçilərinin razılaşması ilə, ümumi mülkiyyətin yaradılmasına və artırılmasına onlardan hər birinin qoyduğu mayadan asılı olaraq, onların paylarının müəyyənləşdirilməsi və dəyişdirilməsi qaydası təyin edilə bilər.

214.3. Paylı mülkiyyətin mülkiyyətçisi ümumi mülkiyyətdən istifadənin müəyyənləşdirilmiş qaydasına əməl etməklə öz hesabına bu əmlakı yaxşılaşdıran əlavələr etmişsə və həmin əlavələr əmlakdan ayrıla bilməzsə, ümumi mülkiyyət hüququnda öz payının müvafiq surətdə artırılması hüququna malikdir.

214.4. Paylı mülkiyyət mülkiyyətçilərinin razılaşması ilə ayrı qayda nəzərdə tutulmayıbsa, ümumi mülkiyyəti yaxşılaşdıran və ayrıla bilən əlavələr, onları etmiş mülkiyyətçinin mülkiyyətinə daxil olur.

Maddə 215. Paylı mülkiyyətdə olan əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam verilməsi

215.1. Paylı mülkiyyətdə olan əşyaya sahiblik və ondan istifadə onun bütün mülkiyyətçilərinin razılaşması əsasında, razılaşma əldə edilmədikdə isə məhkəmənin müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

215.2. Paylı mülkiyyətin mülkiyyətçisi ümumi əşyanın öz payına uyğun hissəsinin onun sahibliyinə və istifadəsinə verilməsi hüququna malikdir, bu mümkün olmadıqda isə onun payına düşən əşyaya sahiblik və ondan istifadə edən digər mülkiyyətçilərdən müvafiq əvəz ödəməyi tələb edə bilər.

215.3. Paylı ümumi mülkiyyətin mülkiyyətçiləri ümumi mülkiyyətdə olan əşyaya sahiblik və ondan istifadə qaydası haqqında razılığa gələ bilərlər. Lakin onlar mülkiyyətçilərdən hər birinə mənsub olan aşağıdakı səlahiyyətləri ləğv edə və ya məhdudlaşdıra bilməzlər:

215.3.1. əşyanın dəyərini və işlənməyə yararlığını saxlamaq üçün ondan istifadə üzrə hərəkətlərin yerinə yetirilməsini tələb etmək, belə hərəkətlər yerinə yetirilmədikdə isə onların yerinə yetirilməsi barədə məhkəmənin qərar çıxarmasını tələb etmək səlahiyyəti;

215.3.2. əşyaya dəymək qorxusu olan və ya dəyə biləcək zərərin qarşısını almaq üçün dərhal görülməli olan tədbirləri bütün şərikli sahiblər hesabına müstəqil həyata keçirmək səlahiyyəti.

215.4. Hər bir mülkiyyətçi qalan mülkiyyətçilərin hüquqları ilə bir araya sığan dərəcədə əşyaya sahiblik, ondan istifadə və ona dair sərəncam vermək ixtiyarına malikdir. Əşyanı özgəninkiləşdirmək və ya yüklü etmək, habelə onun təyinatını dəyişmək üçün bütün iştirakçıların razılığı tələb olunur, bu şərtlə ki, onlar yekdilliklə ayrı qayda barədə razılaşmasınlar. Əgər ümumi mülkiyyətdəki paylar üzrə ipotekalar və ya torpaq sahələrinə yüklülüklər varsa, daha iştirakçılar əşyanın özünü həmin hüquqlarla yüklü edə bilməzlər.

215.5. Paylı mülkiyyətdə olan əşyaya dair sərəncam verilməsi əşyanın bütün mülkiyyətçilərinin razılaşması əsasında həyata keçirilir.

215.6. Paylı mülkiyyətin mülkiyyətçisi öz payını sata, bağışlaya, vəsiyyət edə, girov qoya bilər və ya ona dair başqa sərəncam verə bilər; onu əvəzi ödənilməklə özgəninkiləşdirdikdə bu Məcəllədə nəzərdə tutulmuş qaydalara əməl etməlidir.

Maddə 216. Paylı mülkiyyətdə olan əşyanın istifadəsindən bəhər, məhsul və gəlir

Mülkiyyətçilər arasında razılaşma ilə ayrı qayda nəzərdə tutulmayıbsa, paylı mülkiyyətdə olan əşyanın istifadəsindən götürülən bəhər, məhsul və gəlir ümumi əmlakın tərkibinə daxil olur və paylı mülkiyyətin mülkiyyətçilərinin paylarına uyğun surətdə onlar arasında bölüşdürülür.

Maddə 217. Paylı mülkiyyətdə olan əmlakın saxlanması xərcləri

217.1. Paylı mülkiyyətin hər bir mülkiyyətçisi vergilərin, rüsumların ödənilməsində və ümumi əmlak üzrə digər ödənişlərin verilməsində, habelə həmin əmlakın saxlanması və qorunması xərclərinin çəkilməsində öz payına uyğun surətdə iştirak etməlidir.

217.2. Mülkiyyətçilərdən birinin zərurət olmadan və qalan mülkiyyətçilərin razılığını almadan çəkdiyi xərclərin əvəzi qalan mülkiyyətçilər tərəfindən ödənilməməlidir. Bu zaman yaranan mübahisələr məhkəmə qaydasında həll olunur.

217.3. Mülkiyyətçilərin əksəriyyətinin razılığı ilə əşyanın dəyərini və işlənməyə yararlığını qorumaq üçün saxlama, təmir (bərpa) və təzələmə işləri aparıla bilər.

217.4. Əşyanın dəyərini artırmaq və ya sərfəliyini və işlənməyə yararlığını yüksəltmək məqsədi ilə aparılan təzələmə və yenidənqurma işləri üçün eyni zamanda əşyadakı payların çox hissəsini təmsil edən mülkiyyətçilərin əksəriyyətinin razılığı zəruridir. Əşyanın əvvəlki təyinatı üzrə işlədilməsini və ya istifadəsini iştirakçılardan biri üçün əhəmiyyətli dərəcədə və həmişəlik çətinləşdirən və ya sərfəsiz edən dəyişikliklər onun razılığı olmadan aparıla bilməz. Əgər dəyişiklik iştirakçıların birindən onun imkanları xaricində olan, o cümlədən payının əmlak dəyəri ilə tənasübsüzlüyünə görə imkanları xaricində olan xərclər tələb edirsə, dəyişiklik onun razılığı olmadan yalnız o halda həyata keçirilə bilər ki, qalan iştirakçıların hamısı onun payına düşən məsrəfləri, bunlar onun üçün mümkün olan məbləğdən çoxdursa, öz öhdələrinə götürsünlər.

217.5. Əşyanın yalnız xarici görünüşünün yaxşılaşdırılması və ya ondan istifadənin əlverişliyinin artırılması üçün nəzərdə tutulan tikinti işlərini və ya başqa işləri ancaq bütün mülkiyyətçilərin razılığı ilə görməyə icazə verilir. Əgər eyni zamanda əşyadakı payların çox hissəsini təmsil edən mülkiyyətçilərin əksəriyyətinin razılığı ilə bu cür işlərin görülməsi haqqında sərəncam verilirsə, həmin işlər bununla razılaşmamış iştirakçının istəyindən asılı olmayaraq da görülə bilər, bu şərtlə ki, həmin işlərlə əlaqədar onun istifadə və sərəncam hüququ həmişəlik məhdudlaşdırılmasın və qalan iştirakçılar yalnız müvəqqəti məhdudiyyət üçün ona əvəz ödəsinlər və xərclərin onun payına düşən hissəsini öz üzərlərinə götürsünlər.

Maddə 218. Satın almaqda üstünlük hüququ

218.1. Ümumi paylı mülkiyyət hüququndakı pay üçüncü şəxsə satılarkən paylı mülkiyyətin qalan mülkiyyətçiləri satılan payı, açıq hərracdan satış halı istisna olmaqla, satıldığı qiymətə və digər bərabər şərtlər əsasında almaqda üstünlük hüququna malikdirlər. Ümumi mülkiyyət hüququndakı payın satışı üçün açıq hərraca paylı mülkiyyətin bütün mülkiyyətçiləri razılıq vermədikdə belə hərrac bu Məcəllənin 224.2-ci maddəsində nəzərdə tutulan hallarda keçirilə bilər.

218.2. Payın satıcısı öz payını üçüncü şəxsə satmaq niyyəti barəsində payın qiymətini və digər satış şərtlərini göstərməklə paylı mülkiyyətin qalan mülkiyyətçilərinə yazılı bildiriş verməlidir. Əgər paylı mülkiyyətin qalan mülkiyyətçiləri daşınmaz əmlaka mülkiyyət hüququndakı satılan payı satın almaqdan imtina edərlərsə və ya bildirişin verildiyi gündən 45 gün ərzində onu əldə etməzlərsə, daşınar əmlaka mülkiyyət hüququndakı payı isə 15 gün ərzində əldə etməzlərsə, satıcı öz payını istədiyi şəxsə sata bilər.

218.3. Pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda paylı mülkiyyətin hər hansı digər iştirakçısının üç ay ərzində hüququ vardır ki, satıcının hüquq və vəzifələrinin ona keçirilməsini məhkəmə qaydasında tələb etsin.

218.4. Payı satın almaqda üstünlük hüququnun güzəşt edilməsinə yol verilmir.

218.5. Bu maddənin qaydaları pay dəyişmə müqaviləsinə əsasən özgəninkiləşdirildikdə də tətbiq edilir.

Maddə 219. Ümumi paylı mülkiyyət hüququndakı payın müqavilə üzrə əldə edənə keçməsi anı

219.1. Ümumi mülkiyyət hüququndakı pay, əgər tərəflərin razılaşmasında ayrı vaxt nəzərdə tutulmayıbsa, müqavilənin bağlandığı andan müqavilə üzrə əldə edənə keçir.

219.2. Doğurduğu hüquqlar dövlət qeydiyyatına alınmalı olan müqavilə üzrə ümumi mülkiyyət hüququndakı payın keçməsi anı həmin hüquqların dövlət qeydiyyatına alındığı vaxtdan müəyyənləşdirilir.

Maddə 220. Paylı mülkiyyətdə olan əşyanın bölünməsi və ondan payın ayrılması

220.1. Paylı mülkiyyətdə olan əşya mülkiyyətçiləri arasındakı razılaşmaya əsasən onlar arasında bölünə bilər.

220.2. Paylı mülkiyyətin mülkiyyətçisi öz payının ayrılmasını tələb edə bilər.

220.3. Paylı mülkiyyətin mülkiyyətçiləri ümumi əşyanın bölünməsi və ya ondan payın ayrılması üsulu və şərtləri haqqında razılığa gələ bilmədikdə paylı mülkiyyətin mülkiyyətçisi öz payının naturada ayrılmasını məhkəmə qaydasında tələb edə bilər. Əgər payın naturada ayrılmasına yol vermirsə və ya bu, ümumi mülkiyyətdə olan əşyaya tənasübsüz zərər vurmadan mümkün deyildirsə, ayrılan mülkiyyətçi öz payının dəyərinin paylı mülkiyyətin digər mülkiyyətçiləri tərəfindən ona ödənilməsi hüququna malikdir.

220.4. Bu maddəyə əsasən paylı mülkiyyətin mülkiyyətçisinə naturada ayrılan əşyanın onun mülkiyyət hüququndakı payına tənasübsüzlüyü müvafiq pul məbləğinin ödənilməsi və ya başqa kompensasiya ilə aradan qaldırılır. Paylı mülkiyyətin mülkiyyətçisinə naturada pay ayrılması əvəzinə qalan mülkiyyətçilər tərəfindən kompensasiya ödənilməsinə onun öz razılığı ilə yol verilir. Mülkiyyətçinin payı cüzi olduqda, real surətdə ayrıla bilmədikdə və ümumi əmlakdan istifadə edilməsində onun mühüm mənafeyi olmadıqda, məhkəmə həmin mülkiyyətçinin razılığı olmadan da paylı mülkiyyətin qalan iştirakçılarının öhdəsinə ona kompensasiya ödənilməsi vəzifəsini qoya bilər.

220.5. Mülkiyyətçi bu maddəyə uyğun kompensasiya aldığı andan ümumi əmlakdakı paya hüququnu itirir.

220.6. Bu Məcəllənin 220.3-220.5-ci maddələrində müəyyənləşdirilmiş qaydalara əsasən ümumi əmlakın bölünməsi və ya ondan pay ayrılması açıq-aşkar məqsədəuyğun olmadıqda, məhkəmə əmlakın açıq hərracdan satılması və satış pulunun ümumi mülkiyyətin mülkiyyətçiləri arasında onların paylarına mütənasib surətdə bölüşdürülməsi haqqında qərar qəbul edə bilər.

Maddə 221. Ümumi paylı mülkiyyət hüquqlarına xitam verilməsi

Ümumi paylı mülkiyyət hüquqlarına fiziki bölgü, öz istəyi ilə satış və ya hərracdan satış və satış pulunun bölünməsi və ya bütün əşyanın bir və ya bir neçə iştirakçının adına qeydə alınması və qalan iştirakçılara əvəz verilməsi ilə xitam verilir. Əgər iştirakçılar

hüquqa xitam verilməsi növünə dair razılığa gəlməsələr, əşya məhkəmənin qərarı ilə fiziki bölünür, bu, əşyanın dəyəri əhəmiyyətli dərəcədə azalmadan mümkün olmadıqda isə açıq hərracdan və ya iştirakçılar üçün hərracdan satılır. Fiziki bölgü bərabər olmayan payların əvəzinin pulla ödənilməsi ilə birləşdirilə bilər.

Maddə 222. Birgə mülkiyyətdə olan əşyaya sahiblik, ondan istifadə və ona dair sərəncam verilməsi

222.1. Birgə mülkiyyətin əmələ gəlməsi üçün əsas olmuş ümumiliyin iştirakçıları birgə mülkiyyətin mülkiyyətçiləridir. Əgər birgə mülkiyyətin mülkiyyətçiləri arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onlar ümumi əmlaka birgə sahiblik edir və ondan birgə istifadə edirlər.

222.2. Birgə mülkiyyətdə olan əşyaya dair sərəncamçılıq bütün mülkiyyətçilərin razılığı ilə həyata keçirilir və əmlaka dair sərəncam verilməsi haqqında əqdi mülkiyyətçilərdən hansının bağlamasından asılı olmayaraq bu razılıq ehtimal edilir.

222.3. Birgə mülkiyyətin hər bir mülkiyyətçisi, əgər bütün mülkiyyətçilərin razılaşmasından ayrı qayda irəli gəlmirsə, ümumi əşyaya dair sərəncam verilməsi haqqında əqdlər bağlaya bilər. Birgə mülkiyyətin mülkiyyətçilərindən birinin ümumi əmlaka dair sərəncam verilməsi ilə əlaqədar bağladığı əqd həmin mülkiyyətçinin lazımi səlahiyyətlərinin olmaması mülahizələrinə əsasən qalan iştirakçıların tələbi ilə yalnız o halda etibarsız sayıla bilər ki, əqdin başqa tərəfinin bunu bildiyi və ya bilməli olduğu sübuta yetirilsin.

222.4. Birgə mülkiyyətin digər mülkiyyətçiləri razılıq verməbdikdə borclu ayrıca birgə mülkiyyətçiyə olan tələbini əvəzləşdirə bilməz.

Maddə 223. Birgə mülkiyyət hüququna xitam verilməsi, birgə mülkiyyətdə olan əşyanın bölünməsi və ondan pay ayrılması

223.1. Birgə mülkiyyət hüququna əşyanın özgəninkiləşdirilməsi və ya birgə mülkiyyətin əmələ gəlməsinə əsas vermiş ümumiliyin mövcudluğuna son qoyulması ilə xitam verilir.

223.2. Birgə mülkiyyətin mülkiyyətçiləri tərəfindən ümumi əşyanın bölünməsi və ya onlardan birinin payının ayrılması mülkiyyətçilərdən hər birinin payı qabaqcadan müəyyənləşdirildikdən sonra həyata keçirilə bilər.

223.3. Ümumi əşya bölünərkən və ondan pay ayrılarkən mülkiyyətçilərin payları, əgər onların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, bərabər sayılır.

223.4. Ümumi əşyanın bölünməsi və ondan pay ayrılması əsasları və qaydası bu Məcəllənin 220-ci maddəsinin müddəalarına əsasən müəyyənləşdirilir.

Maddə 224. Ümumi mülkiyyətdəki paya tutmanın yönəldilməsi

224.1. Paylı və ya birgə mülkiyyət mülkiyyətçisinin başqa əmlakı kifayət etmədikdə onun kreditoru borclunun ümumi əşyadakı payına tutmanın yönəldilməsi üçün həmin payın ayrılmasını tələb edə bilər.

224.2. Əgər payın naturada ayrılması mümkün deyildirsə və ya paylı və ya birgə mülkiyyətin qalan iştirakçıları buna etiraz edirlərsə, kreditorun ixtiyarı var ki, borclunun

öz payını bazar qiyməti ilə ümumi mülkiyyətin qalan iştirakçılarına satmasını və satışdan əldə edilmiş vəsaitin borcun ödənilməsinə yönəldilməsini tələb etsin. Ümumi mülkiyyətin qalan mülkiyyətçiləri borclunun payını almaqdan imtina etdikdə kreditorun ixtiyarı var ki, tutmanın borclunun ümumi mülkiyyət hüququndakı payına onun açıq hərracdan satılması yolu ilə yönəldilməsini məhkəmə qaydasında tələb etsin.

Maddə 225. Ərlə arvadın ümumi mülkiyyəti

225.1. Ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir.

225.2. Nikaha girənədək ər-arvaddan hər birinə mənsub olmuş əmlak, habelə onlardan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında aldığı əmlak onun mülkiyyətidir.

225.3. Daş-qaş və digər zinət şeyləri istisna olmaqla, fərdi istifadədə olan əmlak (paltar, ayaqqabı və i.a.) nikah dövründə ərlə arvadın ümumi vəsaiti hesabına əldə edilmiş olsa da, ondan istifadə etmiş arvadın (ərin) mülkiyyəti sayılır.

225.4. Ər-arvaddan hər birinin əmlakı o halda onların birgə mülkiyyəti sayıla bilər ki, nikah dövründə ərlə arvadın ümumi əmlakı və ya ərin (arvadın) şəxsi əmlakı hesabına həmin əmlakın dəyərini əhəmiyyətli dərəcədə artıran vəsait qoyulduğu (əsaslı təmir, yenidənqurma, yeni avadanlıqla təchizetmə və i.a.) müəyyənləşdirilsin. Əgər nikah kontraktında və ya ərlə arvadın razılaşmasında ayrı qayda nəzərdə tutulubsa, bu qayda tətbiq edilmir.

225.5. Ərin (arvadın) öhdəlikləri üzrə tutma onun mülkiyyətində olan əmlaka, habelə onun ərlə arvadın ümumi əmlakındakı payına bu şərtlə yönəldilə bilər ki, nikah kontraktında ayrı qayda nəzərdə tutulmuş olmasın.

225.6. Daşınmaz əmlaka birgə hüququ olan ərin (arvadın) razılığı olmadan daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış hüquq barədə bağlanmış müqavilə etibarsız hesab edilir. Bu, həmçinin əldə edənin belə hüququn yalnız müqavilə tərəfinə məxsus olması barədə vicdanlı olduğu hallara da aiddir. Əgər müqavilə üzrə tərəf müqavilənin etibarsızlığını bilirdisə və ya bilməli idisə, əldə edən həmin tərəfdən etibarsızlıqdan irəli gələn zərərin əvəzinin ödənilməsini tələb edə bilər. (12)

§ 2. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ

Maddə 226. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ anlayışı

226.1. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ ümumi paylı daşınmaz mülkiyyətə olan hüquqdur, yəni binanın müəyyən hissələrindən müstəsna istifadə etmək və onların içərisində bəzək-tamamlama işləri aparmaq üçün mülkiyyətçinin xüsusi hüquq əldə etməsidir. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi öz otaqlarını idarə etməkdə, onlardan istifadə etməkdə və bəzək-tamamlama işləri aparmaqda sərbəstdir, lakin o digər belə mülkiyyətçinin eyni hüquqları həyata keçirməsini çətinləşdirməməli və ümumi tikinti elementlərini, qurğuları zədələməməli və ya onların funksiyasını və ya zahiri görkəmini pisləşdirməməlidir. O öz otaqlarını bütün binanın qüsursuz vəziyyətdə saxlanması və ya onun yaxşı zahiri görkəminin qorunması üçün tələb edilən tərzdə saxlamalıdır.

226.2. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi ona mənsub yaşayış otağına sahiblik, ondan istifadə və ona dair sərəncam hüquqlarını otağın təyinatına uyğun həyata keçirir.

226.3. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi müqavilə əsasında onu icarəyə verə bilər.

226.4. Yaşayış binalarında sənaye istehsalatlarının yerləşdirilməsinə yol verilmir.

Maddə 227. Yaşayış binasının tərkib hissəsi mülkiyyətçilərinin ümumi mülkiyyəti

227.1. Yaşayış binasının mənzildən kənarda və ya mənzil daxilində yerləşən, birdən çox mənzilə xidmət edən ümumi otaqları, dayaq konstruksiyaları, mexaniki, elektrik, sanitariya-texniki və digər avadanlığı, *habelə yerləşdiyi torpaq sahəsi* ümumi paylı mülkiyyət hüququ ilə yaşayış binasının tərkib hissəsi mülkiyyətçilərinə mənsubdur.

227.2. Yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin ixtiyarı yoxdur ki, yaşayış binasının ümumi əmlakına mülkiyyət hüququndakı payını özgəninkiləşdirsin, habelə həmin payın yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququndan ayrılıqda verilməsinə səbəb olan digər hərəkətləri yerinə yetirsin. (12)

Maddə 228. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ

228.1. Yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin ailə üzvləri və digər şəxslər yaşayış binasından istifadə (km1) hüququna bu şərtlə malikdirlər ki, həmin hüquq daşınmaz əmlakın dövlət reyestrində qeydə alınsın.

228.2. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququnun əmələ gəlməsi, həyata keçirilməsi şərtləri və xitamı mülkiyyətçi ilə bağlanan, notariat qaydasında təsdiqlənən yazılı razılaşma ilə müəyyənləşdirilir. Yaşayış binasının tərkib hissəsindən istifadə (km1) hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verməsi yolu ilə xitam verilə bilər.

228.3. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ alqı-satqının, girovun və icarənin müstəqil predmeti ola bilməz. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ olan şəxs, mülkiyyətçi də daxil olmaqla istənilən şəxsdən həmin yaşayış binasına olan hüququnun pozulmasını aradan qaldırmağı tələb edə bilər.

228.4. Yaşayış evinə və ya mənzilə mülkiyyət hüququnun keçməsi yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi üçün əsas deyildir, amma yaşayış otağından istifadə hüququ olan şəxsin mülkiyyət hüququndan imtina barəsində həmin hüquq keçənədək notariat qaydasında təsdiqlənmiş öhdəlik verdiyi hal istisna təşkil edir.

228.5. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisinin onunla birgə yaşayan ailə üzvləri (əri, arvadı, valideynləri, uşaqları) yaşayış sahəsindən onunla bərabər istifadə etmək hüququna malikdirlər. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisinin ailə üzvləri öz yetkinlik yaşına çatmayan uşaqlarını həmin yaşayış binasına köçürmək ixtiyarına malikdirlər. Digər ailə üzvlərinin (ərin, arvadın) köçürülməsinə yalnız mülkiyyətçinin razılığı ilə yol verilir. Həmin şəxslərin yaşayış binasının tərkib hissəsindən istifadə hüququ mülkiyyətçi ilə ailə münasibətlərinə xitam verildiyi halda da

saxlanılır. Yaşayış binasının tərkib hissəsindən mülkiyyətçinin ailə üzvlərinin istifadə etmək hüququ bu Məcəllənin qüvvəyə mindiyi gündən yaranır. (14)

Maddə 229. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı

229.1. Yaşayış binasının tərkib hissələrinin fərdi mülkiyyətçilərinin toplusu yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin hüquqi şəxs olmayan yığıncağını təşkil edir.

229.2. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının ləğvini tələb etmək yolverilməzdir.

Maddə 230. Yaşayış binasının tərkib hissələrinin vahidləri

Yaşayış binasının ayrı-ayrı tərkib hissələri və ya onların bölümləri xüsusi hüquqların obyekti ola bilər; bu hissələr və bölümlər mənzil kimi və ya işgüzar və ya digər məqsədlər üçün otaq vahidləri kimi qapalı olmalı və onların öz girişi olmalıdır, lakin tərkiblərində ayrı-ayrı yardımçı otaqlar ola bilər. Bu cür vahidlər aşağıda «yaşayış binasının tərkib hissələrinin vahidləri» adlandırılır.

Maddə 231. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin ümumi paylı mülkiyyətdə hüquqları

231.1. Əgər daşınmaz əmlakın dövlət reyestrində yaşayış binasının tərkib hissəsinin müəyyən mülkiyyətçisinin xeyrinə heç bir xüsusi hüquq qeydə alınmayıbsa, aşağıdakı predmetlər və hüquqlar yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin ümumi paylı mülkiyyətindədir:

231.1.1. torpaq və bina tikilməsinə əsas verəcək tikintiyə vərəsəlik hüququ;

231.1.2. yaşayış binasının və onun tərkib hissələrinin digər mülkiyyətçilərinin otaqlarının konstruksiyası, konstruktiv strukturu və möhkəmliyi üçün əhəmiyyət daşıyan və binanın zahiri simasını və görkəmini müəyyənləşdirən tikinti elementləri;

231.1.3. digər bu cür mülkiyyətçilərin öz otaqlarından istifadəsinə xidmət üçün nəzərdə tutulan qurğular.

231.2. Binanın digər tikinti konstruksiyaları yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin sonrakı razılaşması ilə əsaslandırma aktında birgə konstruksiyalar elan edilə bilər. Belə edilmədikdə ehtimal olunur ki, onlar xüsusi hüquqlara aid edilmişdir.

Maddə 232. Yaşayış binasının tərkib hissəsini əldə etməkdə üstünlük hüququnun məhdudlaşdırılması

Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi yaşayış binasının tərkib hissəsinin digər mülkiyyətçisindən onun payını əldə etmiş və ya sonrakı razılaşma yolu ilə bu cür üstünlük hüququnu başqasına vermiş və qabaqcadan onu daşınmaz əmlakın dövlət reyestrində qeydə aldırmış üçüncü şəxs barəsində əldə etmədə üstünlük hüququna malik deyildir. Eynilə bu şəkildə müəyyənləşdirilə bilər ki, yaşayış binasının tərkib hissəsinin özgəninkiləşdirilməsi, onun istifadə hüququ və ya mənzil hüququ ilə yüklü edilməsi, habelə kirayəyə verilməsi yalnız o halda hüquqi qüvvəyə malikdir ki, yaşayış binasının tərkib hissəsinin qalan mülkiyyətçiləri müvafiq qərar qəbul edərək, onlara məlumat

verildiyi andan 14 gün ərzində buna etiraz etməsinlər. Əgər etiraz tutarlı əsas olmadan verilmişdirsə, etibarlı deyildir. Belə etiraza baxarkən məhkəmə etirazın əleyhdarının xahişi ilə onun iddiasının təmin edilməsi barədə sərəncam verir.

Maddə 233. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququnun qeydə alınması

233.1. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatla təsbit edilir. Qeydiyyat aşağıdakılar əsasında tələb edilə bilər:

233.1.1. mülkiyyətçilərin yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququndakı paylarının rəsmiləşdirilməsinə dair müqavilə;

233.1.2. daşınmaz əmlak mülkiyyətçisinin və ya müstəqil və sürəkli tikinti hüququ sahibinin belə mülkiyyətin paylarının yaradılması və onların yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququna rəsmiləşdirilməsi barədə ərizəsi.

233.2. Əqdin etibarlı olması üçün onun notariat qaydasında təsdiqlənməsi və ya əgər vəsiyyətnamə və ya miras bölgüsü haqqında müqavilə varsa, müvafiq forma zəruridir.

233.3. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququnun əsaslandırılması aktında ərazi bölgüsündən başqa, yaşayış binasının hər bir tərkib hissəsinin payı daşınmaz əmlakın və ya tikinti hüququnun yüzdə bir və ya mində bir misli ilə göstərilməlidir. Payların dəyərinin dəyişdirilməsi üçün yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının razılığı və icazəsi tələb olunur; lakin əgər mülkiyyətçinin payı yanlış müəyyənləşdirilmişsə və ya binada və ya onun həndəvərində tikinti dəyişiklikləri nəticəsində yanlış olmuşdursa, mülkiyyətçilərdən hər birinin düzəliş hüququ vardır.

Maddə 234. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququna xitam verilməsi

Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququna daşınmaz əmlakın və ya tikinti hüququnun məhvi ilə və daşınmaz əmlakın dövlət reyestrində qeydlə xitam verilir. Əgər bina onun dəyərinin yarısından çox ölçüdə dağılmışdırsa və mülkiyyətçi özü üçün, demək olar, dözülməz yüklülüklər olmadan binanın bərpasına qadir deyildirsə, yaşayış binasının tərkib hissəsinin istənilən mülkiyyətçisindən mülkiyyət hüququna xitam verilməsi tələb edilə bilər, lakin yaşayış binasının tərkib hissələrinin mülkiyyətçiləri ümumi mülkiyyətə sahibliyi davam etdirmək niyyətindədirlərsə, qalan mülkiyyətçilərə peşiman haqqı ödəmək yolu ilə hüquqa xitam verilməsinin qarşısını ala bilərlər.

Maddə 235. Birgə idarəetmə xərcləri

235.1. Yaşayış binasının tərkib hissələrinin mülkiyyətçiləri birgə mülkiyyətin yüklülüklərinin ödənilməsində və birgə idarəetmə xərclərində öz dəyər paylarına mütənasib surətdə iştirak etməlidirlər. Mülkiyyətçilərin haqları hesabına ödənilməli olan yüklülüklərə və xərclərə o cümlədən aşağıdakılar aiddir:

235.1.1. torpaq sahəsinin və yaşayış binasının birgə hissələrinin, habelə birgə konstruksiyalarının və qurğularının saxlanmasına, cari təmirinə və yeniləşdirilməsinə çəkilən xərclər;

235.1.2. idarəçiyə haqq ödənilməsi də daxil olmaqla, idarəetmə fəaliyyətinə çəkilən xərclər;

235.1.3. bütövlükdə yaşayış binasının tərkib hissələrinin mülkiyyətçilərindən tutulan ödənişlər və vergilər.

235.2. Əgər birgə istifadə edilən müəyyən tikinti konstruksiyaları, qurğular mülkiyyətin ayrı-ayrı tərkib hissələrinə xidmət etmirsə və ya əhəmiyyətsiz dərəcədə xidmət edirsə, bunu xərclərin bölgüsündə nəzərə almaq lazımdır.

235.3. Yaşayış binasının tərkib hissəsinin hər hansı mülkiyyətçisi xərclər üçün haqları üç il ərzində ödəmədikdə yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı:

235.3.1. yaşayış binasının tərkib hissələrinə mülkiyyətdə onun payı üçün ipotekanı qeydə aldırmaq hüququna malikdir. İpotekanın qeydə alınmasını idarəçi və ya əgər o, təyin edilməyibsə, əksəriyyətin qərarı ilə və ya məhkəmə tərəfindən vəkil edilmiş yaşayış binasının tərkib hissələrinin mülkiyyətçilərindən hər hansı biri və ödənilməmiş haqların girov kimi verildiyi kreditor tələb edə bilər;

235.3.2. yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin otaqlarında olan və onların avadanlıqla təchiz edilməsi və istifadəsi üçün nəzərdə tutulan daşınar əşyaları girov qoymaq hüququna malikdir.

Maddə 236. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının səlahiyyətləri

236.1. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı öz idarəetmə fəaliyyətindən, o cümlədən haqq ödənilməsi tələbindən irəli gələn əmlakı və haqlardan əmələ gələn nağd vəsaiti, məsələn, yeniləşdirmə fondunu öz adından əldə edir. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı öz adından iddia qaldıra və icranı tələb edə bilər, əşyanın olduğu yer üzrə cavabdeh ola bilər.

236.2. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının bu Məcəllədə göstərilən səlahiyyətlərindən savayı, aşağıdakı səlahiyyətləri də vardır:

236.2.1. yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı tərəfindən idarəçinin səlahiyyətinə aid edilməmiş bütün idarəetmə məsələlərini həll etmək;

236.2.2. idarəçini təyin etmək və onun fəaliyyətinə nəzarət etmək;

236.2.3. idarəetmə məsələlərinin həllini, o cümlədən idarəçiyə məsləhət verilməsini, onun idarəetmə fəaliyyətinin yoxlanılmasını, bu barədə yığıncağa hesabat verilməsini və ərizələr təqdim edilməsini tapşıra biləcəyi komissiyanı və ya nümayəndəni seçmək;

236.2.4. hər il xərclər smetasına, mülkiyyətçilər arasında xərclərin hesablanmasına və bölgüsünə icazə vermək;

236.2.5. səliqə-sahmanın qorunması və yeniləşdirmə işlərinin aparılması üçün yeniləşdirmə fondunun yaradılması haqqında qərar qəbul etmək;

236.2.6. binanı yanğından və digər təhlükələrdən, habelə məsuliyyəti sığorta etdirmək.

236.3. Əgər idarəçi təyin edilirsə və ayrı qərar qəbul olunmursa, yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağını idarəçi çağırır və aparır. Əgər idarəçi təyin

olunmursa, yaxud o, təyinatdan imtina edirsə, yığıncağı yaşayış binasının ümumi dəyərinin azı 10 fazini təmsil edən hər hansı mülkiyyətçi (və ya mülkiyyətçilərin hər hansı çoxluğu) çağıra bilər. Yığıncaqda sadə çoxluqla ona sədrlik edən seçilir. Qərarlar barəsində protokol tərtib edilir. Protokolu idarəçi və ya yaşayış binasının tərkib hissəsinin sədrlik edən mülkiyyətçisi saxlamalıdır.

236.4. Yaşayış binasının tərkib hissəsi bir neçə şəxsə birlikdə mənsubdursa, onların yalnız bir səsi vardır. Bu səsi onlar özlərinin təmsilçisi vasitəsi ilə verirlər. Səsvermə hüququnun həyata keçirilməsi barədə yaşayış binasının tərkib hissələri vahidinin mülkiyyətçisi və uzufruktuarı da razılığa gəlməlidirlər; əks halda uzufruktuar, sadəcə, faydalı olan və ya bəzəklər və ya rahatlıqlar yaradılmasına yönəldilən tikinti tədbirlərindən başqa, bütün idarəetmə məsələlərində səsvermə hüququ olan şəxs sayılır.

236.5. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının qərarlar çıxarmağa o halda ixtiyarı vardır ki, eyni zamanda payların yarısına sahib olan mülkiyyətçilərin yarısı, lakin onların azı ikisi yığıncaqda iştirak etsin və ya təmsil olunsun. Yetərsay olmadıqda yığıncaq ikinci dəfə çağırılır, həm də o, birinci yığıncaqdan azı on gün keçəndən sonra keçirilməlidir. İkinci yığıncağın qərarlar çıxarmağa o halda ixtiyarı vardır ki, yaşayış binasının tərkib hissələrinin bütün mülkiyyətçilərinin üçdə bir hissəsi, lakin onların azı ikisi yığıncaqda iştirak etsin və ya təmsil olunsun.

236.6. Əgər yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı idarəçini təyin edə bilməzsə, yaşayış binasının tərkib hissəsinin hər hansı mülkiyyətçisi idarəçinin məhkəmə tərəfindən təyin olunmasını tələb edə bilər. Bunda əsaslı marağı olan şəxs, məsələn, girov saxlayan və sığortaçı da həmin hüquqa malikdir.

236.7. Yığıncağın qərarı ilə idarəçi onun əvəz ödənilmək barədə irəli sürə biləcəyi iddiaları saxlanılmaqla istənilən vaxt geri çağırıla bilər. Əgər mülkiyyətçilərin yığıncağı mühüm səbəblərə etinasızlıq göstərərək idarəçinin geri çağırılmasını rədd edərsə, yaşayış binasının tərkib hissəsinin istənilən mülkiyyətçisi bir ay ərzində onun məhkəmə qaydasında geri çağırılmasını tələb edə bilər. Məhkəmənin təyin etdiyi idarəçi təyin edildiyi müddət qurtaranadək məhkəmənin razılığı olmadan geri çağırıla bilməz.

Maddə 237. Yaşayış binasının tərkib hissələrinə birgə mülkiyyətin idarəçisi

237.1. İdarəçi qanunun göstərişlərinə və mülkiyyətçilər yığıncağının qərarlarına uyğun olaraq birgə mülkiyyətin idarə edilməsi üzrə bütün hərəkətləri yerinə yetirir, mümkün zərərin qarşısının alınması və ya aradan qaldırılması üçün özü tədbirlər görür. O, birgə xərcləri və yaşayış binasının tərkib hissələrinin ayrı-ayrı mülkiyyətçilərinin yüklülüklərini bölüşdürür, onlara hesab təqdim edir, haqlar alır, nağd pul vəsaitini idarə edir və ondan təyinatı üzrə istifadə edir. O, xüsusi hüquqların həyata keçirilməsi, torpaq sahəsinin və yaşayış binasının birgə hissələrindən, habelə birgə qurğulardan istifadə zamanı qanunun göstərişlərinin və evdə yaşayış qaydalarının gözlənilməsinə nəzarət edir.

237.2. İdarəçi birgə mülkiyyətin idarə edilməsi sahəsində onun qanuni vəzifələri dairəsinə daxil olan bütün işlərdə yaşayış binasının tərkib hissələrinin həm bütün mülkiyyətçilərini, həm də ayrı-ayrı mülkiyyətçilərini kənarda təmsil edir. Özünün və ya qarşı tərəfin başladığı məhkəmə proseslərini aparmaq üçün ona iddianın təmin edilməsi barədə sərəncamdan başqa, mülkiyyətçilər yığıncağının qabaqcadan verdiyi səlahiyyət də lazımdır. Bütövlükdə yaşayış binasının tərkib hissələrinin mülkiyyətçilərinə ünvanlanmış ərizələr, tələblər, məhkəmə qərarları və sərəncamlar idarəçiyə onun yaşayış yeri üzrə və ya əşyanın olduğu yer üzrə çatdırıla bilər və həmin andan qüvvəyə minir.

§ 3. Torpağa mülkiyyət hüququnun xüsusiyyətləri

Maddə 238. Torpaq mülkiyyət hüququnun obyekti kimi

238.1. Daşınmaz əmlak kimi torpaq mülkiyyət hüququnun obyektidir. Torpaq sahəsinin ərazi sərhədləri daşınmaz əmlakın dövlət reyestrinin ixtiyarlı şəxsinin mülkiyyətçiyə verdiyi sənədlər əsasında təyin edilir.

238.2. Əgər qanunla ayrı qayda müəyyənləşdirilməyibsə, torpaq sahəsinə mülkiyyət hüququ həmin sahənin sərhədləri daxilində yerləşən səth (torpaq) qatına və qapalı sututarlara, meşələrə və bitkilərə də şamil edilir.

238.3. Torpaq sahəsinin mülkiyyətçisi, əgər qanunla ayrı qayda nəzərdə tutulmayıbsa və digər şəxslərin hüquqlarını pozmursa, həmin sahənin üstündə və altında olan hər şeydən istifadə edə bilər. Əgər qanunla ayrı qayda nəzərdə tutulmayıbsa, yerin təki və faydalı qazıntılar Azərbaycan Respublikasının mülkiyyətidir.

238.4. Başqa məqsədlər üçün istifadəsinə yol verilməyən və ya məhdudiyyət qoyulan kənd təsərrüfatı təyinatlı və digər təyinatlı torpaq sahələri qanunla müəyyənləşdirilir.

Maddə 239. Torpaq sahəsinə buraxılma

239.1. Fiziki şəxslər dövlət və bələdiyyə mülkiyyətində olan, hamının buraxılması üçün açıq torpaq sahələrində heç bir icazə almadan sərbəst ola bilər və həmin sahələrdə olan təbiət obyektlərindən qanunvericiliyin, habelə müvafiq torpaq sahəsi mülkiyyətçisinin yol verdiyi hədlərdə istifadə edə bilər.

239.2. Fiziki və ya hüquqi şəxsin mülkiyyətində olan torpaq sahəsinə onun mülkiyyətçisinin icazəsi olmadan girməyə, qanunla nəzərdə tutulan hallar istisna olmaqla, icazə verilmir.

Maddə 240. Torpaq sahəsində tikinti

240.1. Torpaq sahəsinin mülkiyyətçisi şəhərsalma və tikinti normalarını və qaydalarını, habelə torpaq sahəsinin təyinatı ilə bağlı tələbləri gözləmək şərti ilə sahədə binalar və qurğular ucalda bilər, onları yenidən qura və ya uçura bilər, öz sahəsində başqa şəxslərin tikinti aparmasına icazə verə bilər.

240.2. *Torpaq* sahəsinin mülkiyyətçisi özünə mənsub sahədə ucaldılmış və ya yaradılmış binaya, qurğuya və digər daşınmaz əmlaka mülkiyyət hüququ əldə edir.

240.3. Mülkiyyətçinin özünə mənsub torpaq sahəsində özbaşına tikinti aparmasının nəticələri bu Məcəllənin 180-ci maddəsi ilə müəyyənləşdirilir. (12)

Maddə 241. Torpaq sahəsindən istifadə hüququnun əldə edilməsi əsasları

241.1. Torpaq sahəsinin mülkiyyətçisi onu başqa şəxslərin istifadəsinə, o cümlədən icarəsinə verə bilər.

241.2. Dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsindən istifadə hüququ fiziki və hüquqi şəxslərə torpaq sahələrini bu cür istifadəyə verməyə vəkil edilmiş dövlət

orqanının və ya yerli özünüidarə orqanının qərarına əsasən, qanunla müəyyənləşdirilmiş qaydada verilir.

241.3. Bu Məcəllənin 243-cü maddəsində nəzərdə tutulan hallarda torpaq sahəsindən istifadə hüququnu binanın, qurğunun və digər daşınmaz əmlakın mülkiyyətçisi də əldə edə bilər.

241.4. Hüquqi şəxs yenidən təşkil edilərkən ona mənsub torpaq sahəsindən istifadə hüququ onun hüquq varisinə keçir.

Maddə 242. Torpaq sahəsinə sahiblik və ondan istifadə

~~242.1. Torpaq sahəsinin mülkiyyətçisi olmayan şəxs ona mənsub olan sahəyə sahiblik və ondan istifadə hüquqlarını qanunda və ya mülkiyyətçi ilə müqavilədə müəyyənləşdirilmiş şərtlər və hədlər daxilində həyata keçirir.~~

242.2. İstifadəsinə torpaq sahəsi verilmiş şəxs bu sahəni yalnız onun mülkiyyətçisinin razılığı ilə icarəyə və ya əvəzsiz istifadəyə verə bilər. (12)

Maddə 243. Daşınmaz əmlak mülkiyyətçisinin torpaq sahəsindən istifadə hüququ

243.1. Başqa şəxsə mənsub torpaq sahəsində olan daşınmaz əmlakın mülkiyyətçisi həmin əmlakın yerləşdiyi torpaq sahəsi hissəsindən istifadə hüququna malikdir.

243.2. Özgə torpaq sahəsində yerləşən daşınmaz əmlaka mülkiyyət hüququ başqa şəxsə keçərkən, o, torpaq sahəsinin müvafiq hissəsindən istifadə hüququnu daşınmaz əmlakın əvvəlki mülkiyyətçisi ilə eyni şərtlərlə və eyni həcmdə əldə edir. Torpaq sahəsinə mülkiyyət hüququnun başqa şəxsə keçməsi həmin torpaq sahəsində yerləşən daşınmaz əmlakın mülkiyyətçisinin sahədən istifadə hüququnun xitamı və ya dəyişdirilməsi üçün əsas deyildir.

243.3. Özgə torpaq sahəsində yerləşən daşınmaz əmlakın mülkiyyətçisi həmin əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam hüququna, *habelə* müvafiq binaları və qurğuları uçurmaq hüququna malikdir. (12)

Maddə 244. Torpaq sahəsindən istifadə hüququna xitam verilməsinin nəticələri

Əgər torpaq sahəsinin mülkiyyətçisi ilə torpaq istifadəçisi arasındakı müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, torpaq sahəsindən istifadə hüququna xitam verildikdə torpaq istifadəçisinin həmin torpaq sahəsində tikdiyi binalara, qurğulara və başqa daşınmaz əmlaka mülkiyyət hüququ torpaq sahəsinin mülkiyyətçisinə keçir.

Maddə 245. Torpaq sahəsində olan binalar və ya qurğular özgəninkiləşdirilərkən torpaq sahəsinə hüququn keçməsi

Torpaq sahəsinin mülkiyyətçisinə mənsub olan və həmin sahədə yerləşən binaya və ya qurğuya mülkiyyət hüququ keçərkən tərəflərin razılaşması ilə müəyyənləşdirilən torpaq sahəsinə hüquqlar binanı (qurğunu) əldə edənə keçir. *Torpaq* sahəsinin bina (qurğu) yerləşən və ondan istifadə üçün zəruri olan hissəsinə mülkiyyət hüququ əldə edənə keçir. (12)

Maddə 246. Torpaq sahəsinin dövlət ehtiyacları üçün alınması

~~246.1. Torpaq sahəsi mülkiyyətçidən satınalma yolu ilə dövlət və ya *ictimai ehtiyaclar* üçün alına bilər. Torpaq sahəsinin kimin ehtiyacları üçün alındığından asılı olaraq satınalmanı Azərbaycan Respublikasının və ya bələdiyyənin vəkil edilmiş orqanı həyata keçirir.~~

246.1. Bu Məcəllənin 157.9-cu maddəsinə uyğun olaraq torpaq sahəsinin dövlət *ehtiyacları* üçün alınması haqqında qərarı müvafiq icra hakimiyyəti orqanı qəbul edir.

246.2. Torpaq sahəsinin dövlət *ehtiyacları* üçün alınması haqqında müvafiq icra hakimiyyəti orqanının qərarı daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır.

246.3. Torpaq sahəsinin alınması haqqında qərar qəbul etmiş icra hakimiyyəti orqanı bu barədə torpaq sahəsinin mülkiyyətçisinə yazılı bildiriş göndərməlidir.

246.4. Dövlət ehtiyacları üçün alınan torpaq sahəsinin mülkiyyətçisi bu Məcəllənin 246.3-cü maddəsində göstərilən bildirişin göndərildiyi gündən sonra 90 təqvim günündən tez və 180 təqvim günündən gec olmayaraq bu Məcəllənin 247-ci maddəsinin tələblərinə əməl olunması şərti ilə alınan torpaq sahəsini azad etməlidir. Mülkiyyətçinin müraciəti ilə müvafiq icra hakimiyyəti orqanı bu maddədə göstərilən müddətləri dəyişə bilər.

246.5. Bu Məcəllənin 246-249-cu maddələrinin müddəaları dövlət ehtiyacları üçün alınan torpaq sahələri ilə yanaşı həmin torpaq sahələrində yerləşən və ya yerləşməyən və eyni məqsədlərlə alınan binalara (evlərə, tikililərə, qurğulara) da şamil edilir. (7, 23, 26)

Maddə 247. Dövlət ehtiyacları üçün satın alınan torpaq sahəsinin satınalma qiyməti

247.1. Dövlət ehtiyacları üçün alınan torpaq sahələrinin satınalma qiyməti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada hesablanaraq bu Məcəllənin 246.3-cü maddəsində göstərilən bildirişin göndərildiyi gündən sonra 80 təqvim günündən tez və 120 təqvim günündən gec olmayaraq mülkiyyətçiyə ödənilir.

247.2. Satınalma qiyməti müəyyənləşdirilərkən həmin qiymətə torpaq sahəsinin və orada olan daşınmaz əmlakın bazar dəyəri, habelə torpaq sahəsinin alınması nəticəsində mülkiyyətçiyə dəyən bütün zərər, o cümlədən əldən çıxmış fayda da daxil olmaqla, onun üçüncü şəxslər qarşısında daşıdığı öhdəliklərə vaxtından əvvəl xitam verilməsi ilə əlaqədar düşdüyü zərər daxil edilir.

247.3. Mülkiyyətçi ilə razılaşmaya əsasən ona dövlət *ehtiyacları* üçün alınan sahənin əvəzinə dəyəri satınalma qiymətinə daxil edilməklə başqa torpaq sahəsi verilə bilər. (7, 23, 26)

Maddə 248. Torpaq sahəsinin dövlət ehtiyacları üçün alınması haqqında qərardan iddianın verilməsi

248.1. Dövlət ehtiyacları üçün alınan torpaq sahəsinin mülkiyyətçisi müvafiq icra hakimiyyəti orqanının bu Məcəllənin 246.1-ci maddəsində göstərilən qərarı ilə və ya satınalma qiyməti ilə razı olmadıqda bu barədə məhkəməyə müraciət edə bilər. Dövlət ehtiyacları üçün alınan torpaq sahəsinin mülkiyyətçisi tərəfindən müvafiq icra hakimiyyəti orqanının bu Məcəllənin 246.1-ci maddəsində göstərilən qərarından məhkəməyə şikayət verildikdə, bu Məcəllənin 246.4-cü maddəsində nəzərdə tutulan müddətlərin axımı dayandırılır.

248.2. Torpaq sahəsinin dövlət *ehtiyacları* üçün alınması haqqında *qərardan iddia* bu Məcəllənin *246.3-cü* maddəsində göstərilmiş bildirişin sahənin mülkiyyətçisinə göndərildiyi gündən*, satınalma qiymətindən iddia isə bu Məcəllənin 247.1-ci maddəsində göstərilən ödəmənin həyata keçirildiyi gündən* bir il ərzində verilə bilər. (7, 11, 23, 26)

Maddə 249. Dövlət ehtiyacları üçün alınmalı torpaq sahəsi mülkiyyətçisinin hüquqları

249.1. Dövlət ehtiyacları üçün alınan torpaq sahəsinin mülkiyyətçisi sahənin alınması haqqında bu Məcəllənin 246.1-ci maddəsinə müvafiq qərar qəbul edildiyi andan bu Məcəllənin 246.4-cü maddəsinə əsasən sahəni azad edənə qədər sahəyə sahibliyi və ondan təyinatına uyğun istifadəni həyata keçirə bilər.

249.2. Torpaq sahəsinin satınalma qiymətinin müəyyənləşdirildiyi dövrdə sahədə yeni binaların və qurğuların tikintisi, köhnələrinin genişləndirilməsi və yenidən qurulması ilə bağlı məsrəflərin və zərərin mülkiyyətçiyə aid edilməsi riski onun üzərinə düşür. (7, 23, 26)

11-ci fəsil. Əşya istifadə hüquqları

§ 1. Tikintiyə vərəsəlik hüququ

Maddə 250. Tikintiyə vərəsəlik hüququ anlayışı

250.1. Torpaq sahəsi elə yüklü ola bilər ki, onun üstündə və ya altındakı binaya malik olmaq hüququ—özgəninkiləşdirilən və vərəsəlik üzrə keçən hüquq xeyrinə yükləmə aparılan şəxsə mənsub olar. Tikintiyə vərəsəlik hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır.

250.2. Tikintiyə vərəsəlik hüququ tikinti üçün zəruri olmayan, lakin binadan daha yaxşı istifadə etməyə imkan verən torpaq sahəsi hissəsinə şamil edilə bilər.

250.3. Tikintiyə vərəsəlik hüququnun müddəti tərəflərin razılaşması ilə müəyyənləşdirilir, lakin doxsan doqquz ildən çox ola bilməz.

Maddə 251. Tikintiyə vərəsəlik hüququ haqqında müqavilə

251.1. Tikintiyə vərəsəlik hüququ haqqında müqavilə notariat qaydasında təsdiqləndikdə etibarlıdır.

251.2. Tikintiyə hüququn məzmunu və həcmi haqqında, məsələn, binaların mövqeyi, forması, genişləndirilməsi və təyinatı haqqında, habelə tikinti aparılmamış və həmin hüququn həyata keçirilməsi üçün istifadə edilə bilən sahələrdən istifadə haqqında müqavilə müddəaları tikintiyə vərəsəlik hüququnu əldə edən hər bir şəxs üçün məcburidir. Eyni qayda tikintiyə vərəsəlik hüququ subyektinin müəyyən şərtlər yarandıqda bu hüququ daşınmaz əmlakın mülkiyyətçisinə vermək öhdəliyi üçün də etibarlıdır.

Maddə 252. Tikintiyə vərəsəlik hüququ haqqında müqaviləyə xitam verilməsi

252.1. Əgər tikintiyə vərəsəlik hüququ haqqında müqavilənin qüvvəsinə xitam verilirsə, mövcud binalar torpaq sahəsinin mülkiyyətçisinə keçir (mülkiyyətçiyə qayıtma) və onun torpaq sahəsinin tərkib hissələrinə çevrilir.

252.2. Tikintiyə vərəsəlik hüququ onun verildiyi müddət qurtardıqda və ya tərəflər qarşılıqlı razılaşmaya gəldikdə ləğv edilir.

252.3. Əgər tikintiyə vərəsəlik hüququnu əldə etmiş şəxs öz əşya hüququnu kobudcasına aşırsa və ya müqavilə öhdəliklərini pozursa, torpaq sahəsinin mülkiyyətçisi tikintiyə vərəsəlik hüququnun ondan irəli gələn bütün hüquq və yüklülüklərlə birlikdə ona keçməsini tələb edərək həmin hüquqa vaxtından əvvəl xitam verilməsinə nail ola bilər.

252.4. Torpaq sahəsinin mülkiyyətçisi müqaviləyə xitam verildikdən sonra ona keçən binalar üçün tikintiyə vərəsəlik hüququ olmuş şəxsə ağlabatan kompensasiya ödəməlidir. Hüquq vaxtından əvvəl qayıtdıqda kompensasiya tikintiyə vərəsəlik hüququ subyektinin təqsirli davranışı kompensasiyanın azaldılması üçün əsas kimi nəzərə alınmaqla hesablanır. Tikintiyə vərəsəlik hüququ yalnız o halda torpaq sahəsinin mülkiyyətçisinə keçir və ya ona xitam verilir ki, kompensasiya ödənilmiş olsun və ya girov qoyulsun. Bu kompensasiya tikintiyə vərəsəlik hüququnun girov kimi verildiyi kreditorlar üçün qarantiya sayılır, onların razılığı olmadan tikintiyə vərəsəlik hüququnun əvvəlki subyektinə kompensasiya ödəmək olmaz.

252.5. Əgər kompensasiya ödənilmirsə və ya girov qoyulmursa, tikintiyə vərəsəlik hüququnun əvvəlki subyekti və ya tikintiyə vərəsəlik hüququnun girov kimi verildiyi kreditor tələb edə bilər ki, tikintiyə vərəsəlik hüququnun ləğv edilməsi əvəzinə kompensasiya barədə tələbin təmin edilməsi üçün eyni dərəcəli ipoteka qeydə alınsın. Qeydiyyat tikintiyə vərəsəlik hüququna xitam verilməsindən ən geci üç ay keçənədək aparılmalıdır.

252.6. Kompensasiyanın miqdarı və müəyyənləşdirilməsi proseduru haqqında, habelə kompensasiya vermək vəzifəsinin ləğvi və torpaq sahəsinin əvvəlki vəziyyətinin bərpası haqqında tikintiyə vərəsəlik hüququnun əsaslandırılması üçün zəruri olan formada razılaşmalar qəbul edilə və daşınmaz əmlakın dövlət reyestrində qabaqcadan qeydə alına bilər.

252.7. Binanın məhvi tikintiyə vərəsəlik hüququna xitam verilməsinə səbəb olmur, tikintiyə vərəsəlik hüququ olan şəxs ondan imtina edə bilər ki, bunun da nəticəsində ona xitam verilir.

Maddə 253. Tikintiyə vərəsəlik hüququ üçün haqq

253.1. Daşınmaz əmlakın mülkiyyətçisi tikintiyə vərəsəlik hüququ üçün haqq almaq hüququna malikdir.

253.2. Tikintiyə vərəsəlik hüququna birtərəfli qaydada mülkiyyətçi yalnız iki il ərzində ödənişlərin verilməməsi ilə əlaqədar xitam verə bilər.

253.3. Tikintiyə vərəsəlik hüququ üçün haqq ödənilməsinin təmin edilməsi məqsədi ilə torpaq sahəsi mülkiyyətçisinin tikintiyə vərəsəlik hüququnun həmin subyekti barəsində ixtiyarı var ki, daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış tikintiyə vərəsəlik hüququ üçün girov hüququnu ən çoxu üç illik haqq həcmində qeydə aldırsın. Əgər qarşılıqlı öhdəlik bərabər illik haqlar şəklində müəyyənləşdirilməyibsə, bərabər bölgü zamanı üç ilə düşən məbləğin girovu üçün qanuni hüquq tələb edilə bilər.

253.4. Girov hüququ tikintiyə vərəsəlik hüququnun mövcud olduğu dövrdə istənilən vaxt qeydə alına bilər və hərracdan açıq satış vasitəsi ilə onun ləğvinə yol verilmir.

Maddə 254. Tikintiyə vərəsəlik hüququ olan şəxsin torpaq sahəsini satın almaqda üstünlük hüququ

Tikintiyə vərəsəlik hüququ olan şəxs torpaq sahəsini satın almaqda üstünlük hüququna malikdir. Torpaq sahəsinin mülkiyyətçisi tikintiyə vərəsəlik hüququnu satın almaqda üstünlük hüququna malikdir.

§ 2. Özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququ

I. Servitut

Maddə 255. Servitut anlayışı

255.1. Servitut daşınmaz əşyanın digər daşınmaz əşya mülkiyyətçisinin xeyrinə elə yüklü edilməsidir ki, bu zaman ona (digər daşınmaz əşyanın mülkiyyətçisinə) ayrı-ayrı hallarda əşyadan istifadə etməyə icazə verilir və ya daşınmaz əşyanın mülkiyyətçisinə müəyyən hərəkətləri yerinə yetirməyə və ya mülkiyyət hüququndan irəli gələn digər hüquqları həyata keçirməyə icazə verilmir.

255.2. Daşınmaz əşyanın servitutla yüklülüyü həmin əşyanın mülkiyyətçisini sahiblik, istifadə, sərəncam hüquqlarından məhrum etmir.

255.3. Servitut alğı-satqının, girovun və icarənin müstəqil predmeti ola bilməz.

255.4. Servitut torpaq sahəsindən piyada və avtomobillə keçidin, elektrik, rabitə xətlərinin və boru kəmərlərinin çəkilişinin və istismarının, su təchizatının və meliorasiyanın, habelə daşınmaz əmlak mülkiyyətçisinin servitut qoyulmadan təmin edilə bilinməyən digər ehtiyaclarının təmin edilməsi üçün təyin oluna bilər.

255.5. Mülkiyyətçi özünə mənsub digər daşınmaz əşya hesabına öz daşınmaz əşyasına servitut vermək hüququna malikdir.

255.6. Servitut yalnız o zaman baş tuta bilər ki, bu, servitutu almış şəxsə öz daşınmaz əşyasından istifadə etməkdə lazımi güzəştlər və imkanlar yaratsın.

255.7. Servitutla yüklü edilmiş daşınmaz əşyaya hüquqlar başqa şəxsə keçdikdə servitut saxlanılır.

255.8. Daşınmaz əşya müəyyən şəxsin xeyrinə servitutla yüklü edilə bilər. Bu cür yüklülük şəxsi servitut adlanaraq ondan ibarət olur ki, mülkiyyətçidən başqa, həmin şəxs binadan və ya onun bir hissəsindən özü və ya ailəsi üçün mənzil kimi istifadə edə bilir. Şəxsi servitut başqa şəxslərə verilmir.

Maddə 256. Servitutun qeydə alınması

256.1. Servitutun verilməsi üçün daşınmaz əmlakın dövlət reyestrində onun qeydə alınması zəruridir. Servitutun əldə edilməsi və qeydə alınması üçün torpağa mülkiyyət haqqında müddəalar qüvvədədir.

256.2. Servitut verilməsinə dair müqavilə notariat qaydasında təsdiqləndikdə etibarlıdır.

Maddə 257. Servitut tərəflərinin vəzifələri

257.1. Servitut almış şəxs (ixtiyarlı şəxs) servitutun saxlanması və həyata keçirilməsi üçün tələb olunan hər şeyi edə bilər, lakin o öz hüququndan imkan daxilində elə istifadə etməlidir ki, bu, yüklü olan mülkiyyətçinin mənafelərinə zidd olmasın və ona lüzumsuz narahatlıq yaratmasın.

257.2. Servitutla yüklü olan mülkiyyətçi servitutun həyata keçirilməsinin qarşısını alan və ya onu çətinləşdirən heç bir hərəkət etməməlidir.

Maddə 258. Servitutun məzmunu

258.1. Servitutun məzmununa servitutun qüvvədə olma müddəti və şərtləri daxildir. Servitutla yüklü olan daşınmaz əmlakın planı servitutun yeri göstərilməklə müqaviləyə qoşulur.

258.2. Servitutun məzmunu daşınmaz əmlakın dövlət reyestrindəki qeydiyyat yazısında qeyd olunmalıdır.

258.3. Qeydiyyat yazısında servitutla yüklü olan daşınmaz əşyanın planı servitutun yeri ilə birlikdə göstərilməlidir.

Maddə 259. İxtiyarlı şəxsin və yüklü olan mülkiyyətçinin hüquqlarının müdafiəsi

259.1. Əgər servitutun həyata keçirilməsi zamanı ixtiyarlı şəxs hüquqlarının həyata keçirilməsində maneələrlə qarşılaşarsa, bunların aradan qaldırılması üçün o, vicdanlı sahib ilə eyni hüquqlara malikdir.

259.2. Əgər servitutun həyata keçirilməsi zamanı ixtiyarlı şəxsin və onun daşınmaz əşyasının tələbatı dəyişərsə, yüklü olan mülkiyyətçini əlavə yüklü etmək imkanına yol verilmir.

259.3. Əgər servitutun həyata keçirilməsi üçün qurğu varsa, ixtiyarlı şəxs onun saxlanması xərclərini çəkməlidir. Qurğu həm də yüklü olan mülkiyyətçinin mənafelərinə xidmət üçün nəzərdə tutulduqda onların hər ikisi qurğunun saxlanması xərclərini öz mənafelərinə mütənasib surətdə çəkirlər.

259.4. Yüklü olan mülkiyyətçi ixtiyarlı şəxsin tələbatını nəzərə alaraq servitutun bir yerdən başqa yerə keçirilməsini bu şərtlə tələb edə bilər ki, özünün yerdəyişmədə maraqlı olduğunu sübuta yetirsin və yerdəyişmə xərclərini öz öhdəsinə götürsün.

Maddə 260. İxtiyarlı şəxsin daşınmaz əşyasının bölünməsinin nəticələri

260.1. Əgər ixtiyarlı şəxsin servitut qoyulmuş daşınmaz əşyası bölünərsə, hər bir bölünmüş hissə üçün ayrılıqda servitut müəyyənləşdirilməlidir. Lakin bu qaydaya yalnız yüklü olan mülkiyyətçinin vəziyyətini pisləşdirməmək şərti ilə yol verilə bilər.

260.2. Əgər yüklü olan daşınmaz əşyanın bölünməsi nəticəsində servitut hissələrdən yalnız birinə şamil edilirsə, onda servitutun şamil edilmədiyi hissəyə bölgüdən sonra servitut təsir göstərmir.

260.3. Servitutda edilən bütün dəyişikliklər daşınmaz əmlakın dövlət reyestrində qeyd edilir.

260.4. Daşınmaz əmlakın dövlət reyestrinin əməkdaşları ixtiyarlı şəxsə həmin servitutun ləğv edilməsi xahişi barəsində məlumat verməli və əgər o buna bir ay ərzində etiraz etməzsə, ləğvetməni həyata keçirməlidirlər.

Maddə 261. Servitut üçün haqq

261.1. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, servitutla yüklü olan daşınmaz əşyanın mülkiyyətçisi xeyrinə servitut qoyulmuş ixtiyarlı şəxslərdən sahədən istifadə üçün haqq tələb edə bilər.

261.2. Haqqın miqdarı tərəflərin razılaşması ilə, razılaşmaya gəlmək mümkün olmadıqda isə məhkəmənin qərarı ilə müəyyənləşdirilir.

Maddə 262. Servituta xitam verilməsi

262.1. Yüklü olan və ya ixtiyarı verilmiş daşınmaz əşya tamamilə məhv olarkən hər cür servituta xitam verilir.

262.2. Yüklü olan mülkiyyətçinin tələbi ilə servituta onun qoyulduğu əsaslar aradan qalxdığına görə xitam verilə bilər.

262.3. Fiziki və ya hüquqi şəxsə mənsub daşınmaz əşya servitutla yüklü olma nəticəsində öz təyinatına uyğun istifadə edilə bilmədikdə mülkiyyətçi servituta xitam verilməsini məhkəmə yolu ilə tələb edə bilər.

262.4. Servituta xitam verilməsi daşınmaz əmlakın dövlət reyestrində qeyd edilməlidir.

262.5. Əgər ixtiyarı verilmiş daşınmaz əşyanın mülkiyyətçisi yüklü olan daşınmaz əşyanın mülkiyyətçisi olursa, o, servituta xitam verə bilər. Xitam verilənədək servitut əşya hüququ kimi saxlanılır.

262.6. Əgər ixtiyarı verilmiş daşınmaz əşya üçün servituta hər cür maraq itmişdirsə, yüklü olan daşınmaz əşyanın mülkiyyətçisi ona xitam verilməsini tələb edə bilər. Əgər ixtiyarı verilmiş daşınmaz əşyanın mülkiyyətçisinin hələ də marağı varsa, lakin bu marağı yüklülüyə nisbətən cüzidirsə, onda kompensasiya müqabilində servitut qismən və ya tamamilə əvəz edilə bilər.

II. Uzufrukt

Maddə 263. Uzufrukt anlayışı

263.1. Uzufrukt əşyanın və ya hüquqların elə yüklülüyüdür ki, bu zaman xeyrinə yüklülük müəyyənləşdirilən şəxs (uzufruktuar) onlardan istifadə etmək və fayda götürmək hüququna malikdir, lakin mülkiyyətçidən fərqli olaraq bu əşyanı və hüquqları girov qoymaq, özgəninkiləşdirmək və ya vərəsəlik üzrə vermək hüququna malik deyildir. Uzufrukt ayrı-ayrı faydaların istisna edilməsi ilə məhdudlaşdırıla bilər.

263.2. Uzufrukt pullu və pulsuz ola bilər.

263.3. Uzufrukt müvəqqəti və ya uzufruktuarın bütün ömrü boyu mövcud ola bilər.

Maddə 264. Uzufruktun verilməsi şərtləri

Uzufruktun verilməsi üçün daşınar əşyalar və ya hüquqlar ilə bağlı halda onların uzufruktuara keçməsi, daşınmaz əşyalarla bağlı halda isə onların daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması zəruridir. Uzufrukt verilərkən mülkiyyət hüququ haqqında müddəalar qüvvədə olur. Uzufruktun verilməsi bunu nəzərdə tutur ki, onun tərkib hissələri müəyyənləşdirilə biləndir.

Maddə 265. Uzufruktuarın hüquq və vəzifələri

265.1. Uzufruktdan əvvəl mülkiyyətçi və uzufruktuar uzufrukt üzrə verilən obyektlərin vəziyyətini təsvir edə bilərlər.

265.2. Mülkiyyətçinin razılığı olmadan uzufruktuar istifadə məqsədini dəyişdirə bilməz.

265.3. Uzufruktuarın ixtiyarı var ki, əşyadan onun adi təsərrüfat tətbiqi nəticəsində əldə edilməmiş bəhəri və faydanı da əldə etsin. Bu halda o, belə tətbiq nəticəsində əşyaya dəymiş ziyanın əvəzini mülkiyyətçiyə ödəməyə borcludur.

265.4. Əgər uzufruktuar etməyə borclu olmadığı xərclər çəkmişsə və ya yeniliklər tətbiq etmişsə, qaytarma zamanı tapşırıqsız idarəçi kimi onlar üçün kompensasiya tələb edə bilər. Əgər onun yaratdığı qurğular üçün mülkiyyətçi kompensasiya vermək niyyətində deyildirsə, o həmin qurğuları geri götürə bilər, lakin əşyanın əvvəlki vəziyyətini bərpa etməyə borcludur.

265.5. Uzufruktuar əşyaya sahiblik, ondan istifadə və əşyadan fayda götürmək hüququna malikdir. O, əşyanın idarə olunmasını təmin edir. Öz hüququnu həyata keçirərkən o, vicdanlı təsərrüfatçılıq qaydalarına uyğun hərəkət etməlidir. Uzufruktuar əşyanın normal aşınması üçün məsuliyyət daşımır. O, cari xərcləri ödəməyə, əşyanı təmir etməyə, habelə ona normal təsərrüfat qulluğunun qayğısına qalmağa borcludur.

265.6. Mülkiyyətçinin əşyanın dəyişdirilməsi və ya dəyərinin azaldılması nəticəsində kompensasiya iddiaları, habelə uzufruktuarın xərclər üçün kompensasiya və ya qurğuların geri götürülməsi iddiaları əşyanın qaytarılmasından bir il sonra müddətin keçməsinə görə qüvvədən düşür.

265.7. Bəhərlər uzufruktuarın ixtiyarlı olduğu dövrdə təsərrüfatın lazımınca aparılması çərçivəsində yetişdirilmişsə, uzufruktuara mənsubdur.

265.8. Uzufrukt obyektləri üzrə haqq və digər vaxtaşırı xidmətlər, hətta onların icra müddəti istifadə hüququna xitam verildikdən sonra çatdıqda belə, uzufruktuarın hüququnun başlandığı gündən hüququna xitam verildiyi anadək ona mənsubdur.

265.9. Əgər uzufrukt yalnız müəyyən şəxsə verilməyibsə, uzufruktuar onu həyata keçirilmək üçün başqa şəxsə verə bilər. Bu şəxs barəsində mülkiyyətçi öz hüquqlarını bilavasitə həyata keçirir.

265.10. Uzufruktuar uzufruktun mövcud olduğu bütün dövr üçün əşyanı müvafiq surətdə sığorta etdirməyə borcludur. Uzufruktun qüvvədə olduğu müddətdə uzufruktuar artıq sığortalanmış əşya üzrə sığorta haqqı ödəməlidir.

265.11. Əgər əşya və ya onun bir hissəsi məhv olarsa, zədələnərsə və ya onun saxlanması üçün gözlənilməz xərclər lazım gələrsə, uzufruktuar bunu ləngimədən mülkiyyətçiyə bildirməlidir. O, mənfi nəticələri aradan qaldırmaq üçün mülkiyyətçinin həyata keçirdiyi

tədbirlərə və hərəkətlərə dözməlidir. Mülkiyyətçi müvafiq tədbirləri görməyə borclu deyildir. Əgər bu tədbirləri uzufruktuar özü həyata keçirirsə, uzufrukt qurtardıqda o həmin tədbirlər və hərəkətlər nəticəsində əşyaya əlavə etdiyi predmetləri ayıra bilər və ya bunun üçün mülkiyyətçidən müvafiq kompensasiya tələb edə bilər.

265.12. Əgər uzufruktuar normal təsərrüfat fəaliyyəti daxilində ayrı-ayrı predmetləri özgəninkiləşdirərsə, özgəninkiləşdirilən predmetlərin yerini onun əldə etdiyi predmetlər tutmalıdır.

265.13. Uzufruktuar əşyanın məhv olması və dəyərinin azalması üçün, əgər zərərin onun təqsiri üzündən baş vermədiyini sübuta yetirməzsə, məsuliyyət daşıyır. O, istifadəyə daxil olmamış və işlədilmiş predmetlərin əvəzini verməlidir. O, əşyadan düzgün istifadə ilə əlaqədar predmetlərin dəyərinin azalmasının əvəzini ödəməyə borclu deyildir.

265.14. Daşınmaz əşyanın uzufruktuarı göz qoymalıdır ki, daşınmaz əşyadan həddən artıq istifadə edilməsin. Bu həddən artıq əldə edilmiş bəhərlər mülkiyyətçiyə mənsubdur.

265.15. Uzufruktuara torpaq sahəsinin təsərrüfat təyinatında mülkiyyətçi üçün mühüm zərərə səbəb ola biləcək hər hansı dəyişikliklər etməyə icazə verilmir. O, torpaq sahəsini əhəmiyyətli dərəcədə dəyişdirə bilməz.

265.16. Əgər ayrı qayda müəyyənləşdirilməyibsə, uzufruktuar işlətdiyi əşyalara mülkiyyət hüququ əldə edir, lakin istifadə hüququ qüvvəyə minənədək onların mövcud olmuş dəyərinin əvəzini ödəməyə borcludur.

Maddə 266. Uzufruktla yüklü edilmiş əşyanın mülkiyyətçisinin hüquq və vəzifələri

266.1. Mülkiyyətçi əşyadan hər bir qanunsuz istifadəyə və ya təyinatından kənar istifadəyə etiraz edə bilər. Əgər uzufruktuar etiraza məhəl qoymursa, mülkiyyətçi vurulmuş ziyanın əvəzinin ödənilməsini və ya uzufrukta xitam verilməsini məhkəmə qaydasında tələb edə bilər.

266.2. Mülkiyyətçi əşyasının və ya hüquqlarının təhlükədə olduğunu sübuta yetirərsə, uzufruktuardan girov tələb edə bilər. Əgər uzufruktun predmeti istehlak edilən əşyalardan və ya qiymətli kağızlardan ibarətdirsə, o, qarantiyanı sübut gətirmədən və əşya verilənədək tələb edə bilər. Qiymətli kağızlarla bağlı halda onların depozitə qoyulması yetərli qarantiyadır. Qarantiya alınması üçün iddia istifadə hüququnu saxlamaqla predmeti mülkiyyətçiyə bağışlamış şəxs barəsində irəli sürülə bilməz.

266.3. Əgər uzufruktuar onun üçün təyin edilmiş ağlabatan müddət ərzində girov verməzsə və ya mülkiyyətçinin etirazına baxmayaraq əşyadan qanunsuz istifadəyə son qoymazsa, məhkəmə qərar qəbul edənədək onu əşyaya sahiblikdən məhrum etməlidir.

266.4. Mülkiyyətçi və uzufruktuar istənilən vaxt əşyanın onların hesabına qiymətləndirilməsini tələb edə bilərlər.

266.5. Uzufruktuar özü əşyanı saz saxlamalı və əşyanın adi qaydada saz saxlanmasına aid yaxşılaşdırmaları və yeniləşdirmələri müstəqil həyata keçirməlidir. Əgər əşyanın qorunması üçün daha mürəkkəb işlərin və ya tədbirlərin görülməsi zəruridirsə, uzufruktuar bu barədə mülkiyyətçiyə məlumat verməli və lazım gəldikdə bunların mülkiyyətçinin qüvvəsi ilə həyata keçirilməsinə icazə verməlidir. Əgər mülkiyyətçi bunu etməzsə, uzufruktuar həmin işləri və tədbirləri mülkiyyətçinin hesabına özü görə bilər.

266.6. Adi saxlama və təsərrüfat istifadəsi xərclərini, bununla bağlı müvafiq borclar üzrə faizləri, habelə vergiləri və rüsumları uzufruktuar ixtiyarlı olduğu müddətə uyğun ödəyir. Əgər vergilər və ayırmalar mülkiyyətçidən tutulursa, uzufruktuar onların əvəzini eyni həcmdə ödəməlidir. Bütün başqa xərcləri mülkiyyətçi çəkir.

Maddə 267. Mənzilə uzufruktun xüsusiyyətləri

267.1. Mənzilə uzufrukt binada və ya onun bir hissəsində mənzilə malik olmaq ixtiyarından ibarətdir. O, üçüncü şəxslərə verilə bilməz və vərəsəlik üzrə keçmir. Ona istifadə hüququ haqqında müddəalar şamil edilir.

267.2. Mənzilə uzufrukt adətən uzufruktuarın şəxsi tələbatı ilə müəyyənləşdirilir. Lakin o, əgər mülkiyyətçi birbaşa şərt qoymayıbsa, öz ailəsinin üzvlərini və ya binada onunla birgə yaşayanları öz mənzilinə götürə bilər. Əgər mənzil hüququ binanın bir hissəsi ilə məhdudlaşıbsa, uzufruktuar birgə istifadə üçün nəzərdə tutulan predmetlərdən istifadə edə bilər.

267.3. Əgər uzufruktuarın müstəsna mənzil hüququ varsa, o, mənzilin adi saxlanması xərclərini çəkir. Əgər onun birgə istifadəyə hüququ varsa, mənzilin saxlanması xərclərini mülkiyyətçi çəkir.

Maddə 268. Uzufrukta xitam verilməsi

268.1. Uzufrukta əşya tamamilə məhv olduqda, uzufruktun müddəti bitdikdə, uzufruktuar uzufruktdan imtina etdikdə, habelə uzufruktuarın ölümü ilə əlaqədar olaraq, hüquqi şəxslər üçün isə onların buraxılması ilə əlaqədar olaraq xitam verilir.

268.2. Uzufrukt qurtardıqda uzufruktuar əşyanı mülkiyyətçiyə qaytarmağa borcludur.

268.3. Əgər uzufrukt mülkiyyətlə birlikdə bir şəxsin əlinə düşərsə, uzufrukta xitam verilir.

268.4. Mülkiyyətçi məhv olmuş əşyanı bərpa etməyə borclu deyildir. Əgər o, əşyanı bərpa edərsə, əşyaya uzufrukt da bərpa olunur. Əgər məhv olmuş əşyanın əvəzi verilirsə, uzufrukt əvəz kimi verilmiş əşyaya keçir.

12-ci fəsil. Əşya təminat hüququ. Girov və ipoteka hüququ

§ 1. Ümumi müddəalar

Maddə 269. Girov və ipoteka hüququ anlayışı

269.1. Girov və ipoteka hüququ girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur və eyni zamanda borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur.

269.2. Girov və ipoteka hüququ əşya hüquqlarının məhdudlaşdırılmasından ibarətdir.

269.3. Girov daşınar əşyalara (ipoteka obyekti olan daşınar əşyalardan başqa) əşya hüquqlarının məhdudlaşdırılmasıdır. *Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda hüquqların da girov qoyulması mümkündür.*

269.4. İpoteka daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara əşya hüquqlarının məhdudlaşdırılmasıdır.

269.5. Girov və ipoteka girov qoyanın (borclunun) girov saxlayan (kreditor) qarşısında əsas öhdəliyinin icrasının təmin edilməsi üçün əlavə (aksessor) *əşya hüququdur*.

269.6. Əşyaya girov və ipoteka hüququ əşyaya mülkiyyət hüququna aid olan hər şeyə şamil edilir.

269.7. Girovla və ipoteka ilə təmin edilmiş öhdəlik üzrə kreditorun (girov saxlayanın və ipoteka saxlayanın) hüququ var ki, borclunun həmin öhdəliyi icra etmədiyi halda girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın dəyərindən həmin əşyanın mənsub olduğu şəxsin (girov qoyanın və ipoteka qoyanın) digər kreditorlarına nisbətən üstün qaydada təminat alsın.

269.8. Bu Məcəllənin 266.6-cı maddəsində müəyyənləşdirilmiş prinsipə əsasən girov saxlayanın (ipoteka saxlayanın) hüququ var ki, girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın itirilməsi və ya zədələnməsi üçün, onun kimin xeyrinə sığortalanmasından asılı olmayaraq, sığorta ödənişindən təminat alsın, bu şərtlə ki, itki və ya zədələnmə girov saxlayanın (ipoteka saxlayanın) cavabdeh olduğu səbəblərdən baş verməsin.

269.9. Girov və ipoteka hüququ başqasına verilə bilən bütün əşyalar və hüquqlar üçün verilir.

269.10. Girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşya məhv olduqda və ya zədələndikdə, yaxud girov saxlayanın (ipoteka saxlayanın) yanında girov qoyulmuş hüquqa xitam verildikdə və ya bu hüquq pozulduqda, əvəz almaq tələbinin irəli sürülməsi hüququ irəli gəlir.

269.11. Girov və ipoteka hüququ həm mövcud, həm də gələcək tələb üçün verilə bilər. Tələb adlı, orderli və ya adsız ola bilər. O həm girov qoyana (ipoteka qoyana) və ya mülkiyyətçinin özünə qarşı, həm də başqa şəxsə qarşı tələb ola bilər. Girov və ya ipoteka hüququnun verildiyi tələb yetərli dərəcədə aydın olmalıdır. (12)

Maddə 270. Girovun və ipotekanın əmələ gəlməsi əsasları

270.1. Girov və ipoteka müqavilə üzrə əmələ gəlir.

270.2. Bu Məcəllənin müqaviləyə əsasən əmələ gələn girov və ipoteka haqqında qaydaları müvafiq surətdə digər əsaslara görə əmələ gələn girova və ipotekaya da tətbiq edilir.

Maddə 271. Girov qoyan (ipoteka qoyan)

271.1. Əşyanı girov qoyan (ipoteka qoyan) yalnız onun mülkiyyətçisi ola bilər. *Mülkiyyətçi olmayan şəxsdən ipoteka (girov) hüququnun əldə edilməsinin hüquqi nəticələri bu Məcəllənin 140-cı və 182-ci maddələrinin müddəalarına uyğun olaraq müəyyən edilir.*

271.2. Girov qoyan (ipoteka qoyan) həm borclu, həm də üçüncü şəxs ola bilər.

271.3. Hüququ girov qoyan həmin hüququn mənsub olduğu şəxs ola bilər. (12)

Maddə 272. Girov saxlayan (ipoteka saxlayan)

Girov saxlayan (ipoteka saxlayan) borclunun onun qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üçün girov qoyanın əşyası barəsində müqavilədə göstərilmiş əsaslar üzrə girov və ya ipoteka hüququ olan şəxsdir.

Maddə 273. Girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın mənimsənilməsinin yolverilməzliyi

Girov saxlayana və ya ipoteka saxlayana girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanı mənimsəmək hüququ verən hər cür razılaşma etibarsızdır.

Maddə 274. Girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın mülkiyyətçisinin dəyişməsinin nəticələri

Girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın mülkiyyətçisinin dəyişməsi girov və ya ipoteka hüququnu dəyişdirmir.

~~***Maddə 275. Girov və ya ipoteka hüququna xitam verilməsi***~~

~~Girov və ya ipoteka hüququna onların təmin etdiyi tələb ləğv olunduqda xitam verilir.~~ (12)

§ 2. Girov

Maddə 276. Girov predmeti

276.1. İpoteka predmeti olan əşyalar, habelə mülki dövriyyədən çıxarılmış əşyalar və kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblər, o cümlədən alimentlər, həyata və ya sağlamlığa vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər və digər şəxsə güzəşt olunması qanunla qadağan edilmiş sair hüquqlar istisna olmaqla, istənilən əşyalar və tələblər girov predmeti ola bilər.

276.2. Bölünməz əşyalar hissə-hissə girov qoyula bilməz.

276.3. Əşyanın mülkiyyətçisinin razılığı olmadan icarə hüququnun girov qoyulmasına yol verilmir.

276.4. Azərbaycan Respublikasının dövlətə məxsus aktivləri, onun beynəlxalq ehtiyatları və gələcəkdə yarana biləcək aktivləri dövlət borcu və ya dövlət tərəfindən zəmanət verilmiş borc üzrə öhdəliklərinin yerinə yetirilməsinin təminatı məqsədilə girov qoyula bilməz. (31)

Maddə 277. Ümumi mülkiyyətdə olan əşyanın girov qoyulması

277.1. Ümumi birgə mülkiyyətdə olan əşya yalnız bütün mülkiyyətçilərin yazılı razılığı olduqda girov qoyula bilər.

277.2. Ümumi paylı mülkiyyətin mülkiyyətçilərindən hər hansı biri ümumi əşyaya hüquqdakı payını digər mülkiyyətçilərin razılığı olmadan girov qoya bilər. Girov

saxlayanın tələbi ilə həmin paya tutma yönəldildikdə və o satıldıqda bu Məcəllənin satın almaqda üstünlük hüququ haqqında qaydaları tətbiq edilir.

Maddə 278. Girov hüququnun şamil edildiyi əşya

Girov saxlayanın girov predmeti olan əşyaya hüququ (girov hüququ), əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, onun ləvazimatına da şamil edilir. Girov qoyulmuş əmlakdan istifadə nəticəsində əldə edilmiş bəhərə, məhsula və gəlirə girov hüququ müqavilədə nəzərdə tutulduğu hallarda şamil edilir.

Maddə 279. Girovla təmin edilən tələb

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov saxlayanın tələbini girov faktik təminat məqamında malik olduğu həcmdə təmin edir. Bu tələbə həmçinin faizlər, dəbbə pulu, icranın gecikdirilməsi ilə vurulmuş zərərin əvəzinin ödənilməsi, habelə girov qoyulmuş əşyanın saxlanması və salamatlığı üçün girov saxlayanın zəruri xərcləri və tutma xərcləri daxildir.

Maddə 280. Girov müqaviləsi

280.1. Girov müqaviləsi yazılı formada bağlanmalıdır.

280.2. Girov müqaviləsində tərəflərin adı və yaşayış yeri (olduqları yer), girovun predmeti, girovla təmin edilən öhdəliyin mahiyyəti, ölçüsü və icra müddəti göstərilməlidir.

280.3. Bu Məcəllədə nəzərdə tutulan hallarda girov müqaviləsi notariat qaydasında təsdiqlənməli, girov hüququ isə dövlət qeydiyyatına alınmalıdır.

280.4. Bu maddənin qaydalarına riayət edilməməsi girov müqaviləsinin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsiz sayılır.

Maddə 281. Girov hüququnun əmələ gəlməsi

281.1. Girov hüququ girov müqaviləsinin bağlandığı andan, girov hüququnun dövlət qeydiyyatına alınmalı olduğu hallarda isə onun qeydə alındığı andan əmələ gəlir.

281.2. Əgər müqaviləyə görə girov predmeti girov saxlayanda olmalıdırsa, girov hüququ girov predmetinin ona verildiyi an, girov predmeti müqavilə bağlanana qədər verildikdə isə onun bağlandığı an əmələ gəlir.

Maddə 282. Sonrakı girov

282.1. Girovda olan əmlak digər girovun predmeti (sonrakı girov) ola bilər.

282.2. Sonrakı girova onun əvvəlki girov müqavilələri ilə qadağan edilmədiyi halda yol verilir.

282.3. Sonrakı girov zamanı sonrakı girov saxlayanın tələbləri əvvəlki girov saxlayanın tələbləri ödənildikdən sonra girov predmetinin dəyərindən ödənilir.

Maddə 283. Girov qoyulmuş əmlakın saxlanması və salamatlığı

283.1. Girov qoyulmuş əşyanın kimdə olmasından asılı olaraq girov qoyan və ya girov saxlayan, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa:

283.1.1. girov qoyulmuş əşyanı itirilmə və zədələnmə risklərindən onun tam dəyərində, əşyanın tam dəyəri girovla təmin edilən tələbin ölçüsündən artıqdırsa, tələbin ölçüsündən az olmayan məbləğdə sığorta etdirməlidir;

283.1.2. girov qoyulmuş əşyanın salamatlığının təmin edilməsi, o cümlədən üçüncü şəxslərin qəsdlərindən və tələblərindən müdafiəsi üçün tədbirlər görməlidir;

283.1.3. girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsi yarandıqda digər tərəfi dərhal xəbərdar etməlidir.

283.2. Girov saxlayan və girov qoyan digər tərəfdə olan girov qoyulmuş əşyanın mövcudluğunu, miqdarını, vəziyyətini və saxlanma şəraitini sənədlər üzrə və faktik surətdə yoxlaya bilərlər.

283.3. Girov saxlayan öz vəzifələrini kobudcasına pozaraq girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsini doğurduqda girov qoyan girova vaxtından əvvəl xitam verilməsini tələb edə bilər.

Maddə 284. Girov predmetindən istifadə və ona dair sərəncam verilməsi

284.1. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyan girov predmetindən onun təyinatına uyğun istifadə edə bilər, o cümlədən ondan bəhər və gəlir götürə bilər.

284.2. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyan yalnız girov saxlayanın razılığı ilə girov predmetini özgəninkiləşdirə bilər, başqa şəxsin icarəsinə və ya əvəzsiz istifadəsinə verə bilər və ya ona dair digər sərəncamlar verə bilər. Girov qoyanın girov qoyulmuş əmlakı vəsiyyət etmək hüququnu məhdudlaşdıran razılaşma əhəmiyyətsizdir.

284.3. Girov saxlayan ona verilmiş girov predmetindən yalnız müqavilədə nəzərdə tutulan hallarda istifadə edə bilər. Girov qoyanın tələbi ilə o, istifadə haqqında hesabat verməlidir. Müqaviləyə əsasən girov saxlayanın üzərinə əsas öhdəliyin ödənilməsi məqsədi ilə və ya girov qoyanın mənafeləri üçün girov predmetindən bəhər və gəlir götürmək vəzifəsi qoyula bilər.

Maddə 285. Girov qoyulmuş əşyanın məhv olmasının, itirilməsinin və ya zədələnməsinin nəticələri

285.1. Əgər girov müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyulmuş əşyanın təsadüfən məhv olması, itirilməsi və ya təsadüfən zədələnməsi riski girov qoyanın üzərinə düşür.

285.2. Girov saxlayan ona verilmiş girov predmetinin tamamilə və ya qismən məhv olması, itirilməsi və ya zədələnməsi üçün, ~~əgər bu Məcəllənin 455-ci maddəsinə uyğun olaraq~~ məsuliyyətdən azad edilə biləcəyini sübuta yetirməsə, məsuliyyət daşıyır.

285.3. Girov saxlayan girov predmetinin ona verildiyi zaman hansı məbləğdə qiymətləndirildiyindən asılı olmayaraq girov predmetinin itirilməsinə görə onun həqiqi dəyəri məbləğində, zədələnməsinə görə isə dəyərinin azaldığı məbləğdə məsuliyyət daşıyır.

285.4. Əgər zədələnmə nəticəsində girov predmeti öz birbaşa təyinatı üzrə istifadə edilə bilməyəcək dərəcədə dəyişmişsə, girov qoyan ondan imtina edə bilər və onun itirilməsi üçün əvəz tələb edə bilər. Müqavilədə girov saxlayanın girov qoyana girov predmetinin itirilməsi və ya zədələnməsi nəticəsində dəyən digər zərərin əvəzini də ödəmək vəzifəsi nəzərdə tutula bilər. Girovla təmin edilmiş öhdəlik üzrə borclu olan girov qoyan girov predmetinin itirilməsi və ya zədələnməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi barədə girov qoyana verdiyi tələbi girovla təmin edilmiş öhdəliyin ödənilməsinə aid edə bilər. (23)

Maddə 286. Girov predmetinin dəyişdirilməsi

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov predmetinin dəyişdirilməsinə girov saxlayanın razılığı ilə yol verilir.

Maddə 287. Girov predmetinin bərpa və əvəz edilməsi

Girov predmeti məhv olduqda və ya zədələndikdə və ya ona mülkiyyət hüququna xitam verildikdə girov qoyan, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov predmetini ağlabatan müddətdə bərpa etməli və ya eyni dəyərli başqa əmlakla əvəz etməlidir.

Maddə 288. Girov saxlayanın girov predmetinə hüquqlarını müdafiə etməsi

288.1. Girov qoyulmuş əşyanı saxlayan və ya saxlamalı olan girov saxlayan onu özgəsinin qanunsuz sahibliyindən, o cümlədən girov qoyanın sahibliyindən tələb edə bilər.

288.2. Müqavilə şərtlərinə görə girov saxlayana ona verilmiş girov predmetindən istifadə hüququ verildikdə o digər şəxslərdən, o, cümlədən girov qoyandan onun hüququnun hər cür pozuntularını aradan qaldırmağı, bu pozuntular sahiblikdən məhrumetmə ilə birləşdirilmədikdə belə, tələb edə bilər.

Maddə 289. Girov qoyulmuş əşyaya mülkiyyət hüququ keçərkən girovun saxlanması

289.1. Girov qoyulmuş əşyaya mülkiyyət hüququ həmin əşyanın əvəzli və ya əvəzsiz özgəninkiləşdirilməsi nəticəsində və ya universal hüquq varisliyi qaydasında girov qoyandan başqa şəxsə keçdikdə girov hüququ qüvvədə qalır. Girov qoyanın hüquq varisi girov qoyanın yerini tutur və əgər girov saxlayanla razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyanın bütün vəzifələrini daşıyır.

289.2. Girov qoyanın girov predmeti olan əşyası hüquq varisliyi qaydasında bir neçə şəxsə keçdikdə hüquq varislərindən (əmlakı əldə edənlərdən) hər biri girovla təmin edilmiş öhdəliyin icra edilməməsinin girovdan irəli gələn nəticələrini həmin əmlakın ona keçmiş hissəsinə mütənasib surətdə daşıyır. Lakin girov predmeti bölünməz olduqda və ya başqa əsaslara görə hüquq varislərinin ümumi mülkiyyətində qaldıqda onlar birgə girov qoyanlar olurlar.

Maddə 290. Girov qoyulmuş əmlakın məcburi alınmasının nəticələri

290.1. Girov qoyanın girov predmeti olan əşyaya mülkiyyət hüququna qanunla müəyyənləşdirilmiş əsaslar üzrə və qaydada, dövlət *ehtiyacları* üçün satınalma, rekvizisiya və ya milliləşdirmə nəticəsində xitam verildikdə və girov qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə girov hüququ əvəz kimi verilmiş əşyaya şamil edilir və ya müvafiq surətdə, girov saxlayan girov qoyana çatası əvəzin məbləğindən öz tələbinin üstün ödənilməsi hüququnu əldə edir.

290.2. Girov predmeti olan əşya tutmanın ona yönəldilməsi və ya cinayət törətmək üstündə sanksiya şəklində girov qoyandan qanunla müəyyənləşdirilmiş qaydada alındıqda girov saxlayan həmin əşyanın dəyərindən öz tələbinin üstün ödənilməsi hüququnu əldə edir.

290.3. Girov predmeti olan əşyanın mülkiyyətçisinin əslində digər şəxs olması əsasında həmin əşya girov qoyandan alındıqda bu əmlak barəsində girova xitam verilir.

290.4. Bu maddədə nəzərdə tutulan hallarda girov saxlayan girovla təmin edilmiş öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər. (12, 23)

Maddə 291. Girov müqaviləsi üzrə hüquqların güzəşt edilməsi

291.1. Girov saxlayan kreditorun hüquqlarının tələbin güzəşti yolu ilə verilməsi qaydalarını gözləməklə, girov müqaviləsi üzrə öz hüquqlarını başqa şəxsə verə bilər.

~~291.2. Girov saxlayanın girov müqaviləsi üzrə öz hüquqlarını başqa şəxsə güzəşt etməsi bu şərtlə etibarlıdır ki, girovla təmin edilmiş əsas öhdəlik üzrə borcluya qarşı tələb hüquqları da həmin şəxsə güzəşt edilsin.~~ (12)

Maddə 292. Girovla təmin edilmiş öhdəlik üzrə borcun keçirilməsi

Girovla təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə, əgər girov qoyan yeni borclunun əvəzinə cavabdeh olacağı barədə kreditora razılıq verməyibsə, girova xitam verilir.

Maddə 293. Girovla təmin edilmiş öhdəliyin vaxtından əvvəl icrası və girov qoyulmuş əmlaka tutmanın yönəldilməsi

293.1. Aşağıdakı hallarda girov saxlayan girovla təmin edilmiş öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər:

293.1.1. girov predmeti onu saxlayan girov qoyanın sahibliyindən girov müqaviləsinin şərtlərinə uyğun olmayaraq çıxdıqda;

293.1.2. girov qoyan girov predmetinin əvəz edilməsi qaydalarını pozduqda;

293.1.3. əgər girov qoyan bu Məcəllənin 287-ci maddəsində nəzərdə tutulan hüquqdan istifadə etməyibsə, girov predmeti girov saxlayanın cavabdeh olmadığı səbəblərdən itirildikdə.

293.2. Aşağıdakı hallarda girov saxlayan girovla təmin edilmiş öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər, tələbi yerinə yetirilmədikdə isə tutmanı girov predmetinə yönəldə bilər:

293.2.1. girov qoyan sonrakı girov qaydasını pozduqda;

293.2.2. girov qoyan bu Məcəllənin 283.1 və 283.2-ci maddələrində nəzərdə tutulan vəzifələri yerinə yetirmədikdə;

293.2.3. girov qoyan girov qoyulmuş əşyadan istifadə və ona dair sərəncam verilməsi qaydalarını pozduqda.

Maddə 294. Girova xitam verilməsi

294.1. Girova aşağıdakı hallarda xitam verilir:

294.1.1. girovla təmin edilmiş öhdəliyə xitam verildikdə;

294.1.2. bu Məcəllənin 283.3-cü maddəsində nəzərdə tutulan əsaslar olduqda girov qoyanın tələbi ilə;

294.1.3. əgər girov qoyan bu Məcəllənin 288.2-ci maddəsində nəzərdə tutulan hüquqdan istifadə etməyibsə, girov qoyulmuş əşya məhv olduqda və ya girov qoyulmuş hüquqa xitam verildikdə;

294.1.4. girov qoyulmuş əmlak açıq hərracdan satıldıqda.

294.2. Girovla təmin edilmiş öhdəliyin icrası nəticəsində və ya girov qoyanın tələbi ilə girova xitam verildikdə girov qoyulmuş əşyanı saxlamış girov saxlayan onu dərhal girov qoyana qaytarmağa borcludur.

Maddə 295. Girov qoyulmuş əşyaya tutmanın yönəldilməsi əsasları

Girov saxlayanın (kreditorun) tələblərinin ödənilməsi üçün tutma girov qoyulmuş əşyaya borclu girovla təmin edilmiş öhdəliyi onun cavabdeh olduğu səbəblərdən icra etmədikdə və ya lazımınca icra etmədikdə yönəldilə bilər.

Maddə 296. Girov qoyulmuş əşyaya tutmanın yönəldilməsi qaydası

296.1. Girov saxlayanın tələbinin məhkəməyə müraciət edilmədən, girov qoyulmuş əşya hesabına ödənilməsinə girov saxlayanla girov qoyanın notariat qaydasında təsdiqlənmiş razılaşması əsasında yol verilir. Belə razılaşma ilə hüquqları pozulmuş şəxsin iddiası üzrə məhkəmə həmin razılaşmanı etibarsız saya bilər. Bu cür razılaşma olmadıqda girov saxlayanın (kreditorun) tələbinin girov qoyulmuş əşyanın dəyərindən ödənilməsi məhkəmənin qərarı ilə həyata keçirilir.

296.2. Girov predmetinə tutma məhkəmənin qərarı ilə yalnız aşağıdakı hallarda yönəldilə bilər:

296.2.1. girov müqaviləsinin bağlanması üçün başqa şəxsin razılığı və icazəsi tələb olunduqda;

296.2.2. girov predmeti cəmiyyət üçün mühüm tarixi, bədii və ya mədəni dəyərli əşya olduqda.

Maddə 297. Girov qoyulmuş əşyanın realizə edilməsi (satılması)

Girov qoyulmuş əşya ixtisaslaşdırılmış təşkilatlar tərəfindən yalnız açıq hərracdan satış yolu ilə realizə edilir (satılır).

Maddə 298. Girov qoyulmuş əşyanın satışından götürülmüş məbləğin bölüşdürülməsi

298.1. Girov qoyulmuş əşyanın satılması nəticəsində götürülmüş məbləğdən, tutmanın həmin əşyaya yönəldilməsinə və onun satılmasına çəkilmiş xərclərin ödənilməsi üçün zəruri məbləğlər tutulduqdan sonra, girov saxlayanın tələbləri ödənilir, qalan məbləğ girov qoyana verilir.

298.2. Əgər girov qoyulmuş əşyanın satışından götürülən məbləğ girov saxlayanın tələbini ödəmək üçün yetərli deyildirsə, o, çatışmayan məbləği, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, borclunun başqa əşyasından almaq hüququna malikdir. Bu halda girov saxlayanın girova əsaslanan üstünlük hüququ yoxdur.

Maddə 299. Girov qoyulmuş əşyaya tutmanın yönəldilməsinə və onun satışına xitam verilməsi

299.1. Borclu və üçüncü şəxs olan girov qoyan girovla təmin edilmiş öhdəliyi və ya öhdəliyin icrası gecikdirilmiş hissəsini icra edərək girov predmetinə tutmanın yönəldilməsinə və onun satışına istənilən vaxt xitam verə bilər. Bu hüququ məhdudlaşdıran razılaşma əhəmiyyətsizdir.

299.2. Girov qoyulmuş əşyaya tutmanın yönəldilməsinə və ya onun satışına xitam verilməsini tələb edən şəxs həmin əşyaya tutmanın yönəldilməsi və onun satışı ilə bağlı çəkilmiş xərclərin əvəzini girov saxlayana ödəməyə borcludur.

Maddə 300. Girovun növləri

300.0. Girov aşağıdakı növlərdə ola bilər:

300.0.1. saxlanc;

300.0.2. əşyanın lombardda girovu;

300.0.3. hüquqların girovu;

300.0.4. pul vəsaitinin girovu;

300.0.5. sabit girov;

300.0.6. dövriyyədəki malların girovu.

Maddə 301. Saxlanc

Saxlanc elə girovdur ki, onun predmeti girov saxlayanın sahibliyinə verilir.

Maddə 302. Əşyanın lombardda girovu

302.1. Şəxsi istehlak üçün nəzərdə tutulan daşınar əşyanın fiziki şəxslərdən qısamüddətli kreditlərin təmin edilməsi məqsədi ilə girov götürülməsini sahibkarlıq fəaliyyəti qaydasında buna xüsusi icazəsi (lisenziyası) olan ixtisaslaşdırılmış təşkilatlar— lombardlar həyata keçirə bilərlər.

302.2. Əşyanın lombardda girovu haqqında müqavilə lombardın girov bileti verməsi yolu ilə rəsmiləşdirilir.

302.3. Saxlanca qoyulan əşyalar lombarda verilir.

302.4. Lombard girov götürdüyü əşyanı onun girova qəbul olunduğu anda eyni növlü və keyfiyyətli əşyanın bazar qiymətinə uyğun müəyyənləşdirilən qiymətinin tam məbləğində girov qoyanın xeyrinə sığorta etdirməlidir.

302.5. Lombardın girov qoyulmuş əşyadan istifadə etmək və ona dair sərəncam vermək ixtiyarı yoxdur.

302.6. Lombard girov qoyulmuş əşyanın itirilməsi və zədələnməsi üçün məsuliyyət daşıyır.

302.7. Əşyanın lombardda girovu ilə təmin edilmiş kredit məbləği müəyyənləşdirilmiş müddətdə qaytarılmadıqda lombard həmin əşyanı açıq hərracdan realizə edə (sata) bilər. Bundan sonra lombardın girov qoyana (borcluya) qarşı tələbləri, hətta girov qoyulmuş əşyanın satışından götürülən məbləğ onların tam ödənilməsi üçün yetərli olmadıqda belə, ləğv edilir.

302.8. Lombardlar tərəfindən fiziki şəxslərin onlara mənsub əşyanın girovu müqabilində kreditləşdirilməsi qaydaları qanunvericiliklə müəyyənləşdirilir.

302.8-1. Lombard cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir.

302.9. Əşyanın lombardda girovu haqqında müqavilənin girov qoyanın hüquqlarını bu Məcəllənin ona verdiyi hüquqlara nisbətən məhdudlaşdıran şərtləri əhəmiyyətsizdir. (35)

Maddə 303. Hüququn girovu

303.1. Hüquq girov qoyularkən girov predmeti özgəninkiləşdirilə bilən hüquq, o cümlədən torpaq sahəsinin, binanın, qurğunun, yaşayış evinin (mənzilin) icarəsi hüququ, mülkiyyətdəki paya hüquq, borc tələbidir.

303.2. Müddətli hüquq yalnız onun qüvvədə olma müddəti bitənədək girov predmeti ola bilər.

303.3. Girov qoyulmuş hüququn borclusuna girov haqqında dərhal bildiriş verilməlidir.

303.4. Dövlət qeydiyyatına alınmalı olan hüququn girovu onun qeydiyyatını həyata keçirən dövlət orqanında qeydə alındığı andan etibarlıdır.

303.5. Qiymətli kağızla təsdiqlənmiş hüquq girov qoyularkən o, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov saxlayana və ya bankın və ya notariusun depozitinə verilir.

Maddə 304. Pul vəsaitinin girovu

Girov predmeti olan pul vəsaiti bankın və ya notariusun depozit hesabında saxlanılır. Bu məbləğin üstünə hesablanan faizlər, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyana mənsubdur.

Maddə 305. Sabit girov

Sabit girov elə girovdur ki, onun predmeti girov saxlayanın qıfılı altında və ya girovu ifadə edən nişanlar vurulmaqla, girov qoyanda saxlanılır.

Maddə 306. Dövriyyədəki malların girovu

306.1. Dövriyyədəki malların girovu zamanı girov qoyulan mallar girov qoyanda saxlanılır və girov qoyana girov qoyulmuş əmlakın (əmtəə ehtiyatları, xammal, materiallar, yarımfabrikatlar, hazır məhsul və i.a.) tərkibini və natural formasını dəyişdirmək hüququ verilir, bu şərtlə ki, onların ümumi dəyəri girov müqaviləsində göstərilən dəyərindən aşağı düşməsin. Girov qoyulmuş dövriyyədəki malların dəyərinin azalmasına, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girovla təmin edilmiş öhdəliyin icra edilmiş hissəsinə mütənasib surətdə yol verilir.

306.2. Girov qoyanın özgəninkiləşdirdiyi dövriyyədəki mallar əldə edənin mülkiyyətinə keçdiyi andan girov predmeti olmur, girov qoyanın əldə etdiyi, girov müqaviləsində göstərilən mallar isə girov qoyanın onlara mülkiyyət hüququnun əmələ gəldiyi andan girov predmeti olur.

306.3. Əgər müqavilədə girov qoyanın fəaliyyətinə nəzarətin ayrı şərtləri nəzərdə tutulmayıbsa, dövriyyədəki malları girov qoyan girovların qeydiyyatı kitabını tərtib etməyə borcludur. Həmin kitaba malların girov qoyulması şərtləri haqqında və girov qoyulmuş malların tərkibinin və ya natural formasının dəyişməsinə səbəb olan bütün əməliyyatlar, o cümlədən onların emalı haqqında sonuncu əməliyyat günü üçün qeydlər daxil edilir.

306.4. Girov qoyan dövriyyədəki malların girovu şərtlərini pozduqda girov saxlayan girov qoyulmuş mallara öz nişanlarını vurmaq yolu ilə onlarla bağlı əməliyyatları pozuntu aradan qaldırılanadək dayandıra bilər.

§ 3. İpoteka

Maddə 307. İpoteka müqaviləsi

307.1. İpoteka müqaviləsində tərəflərin adı və yaşayış yeri (olduqları yer), ipotekanın predmeti, ipoteka ilə təmin edilən öhdəliyin mahiyyəti, ölçüsü və icra müddəti göstərilməlidir.

307.2. İpotekanın predmeti müqavilədə onun adı, olduğu yer göstərilməklə və eyniləşdirilməsi üçün yetərli olan təsviri verilməklə müəyyənləşdirilir.

307.3. İpoteka müqaviləsində ipotekanın predmeti olan əşyanın hansı hüquqa əsasən ipoteka verənə mənsub olduğu və ipoteka verənin bu hüququnu qeydə almış dövlət orqanı göstərilməlidir.

307.4. İpoteka müqaviləsində ipoteka ilə təmin edilmiş öhdəlik, onun məbləği, əmələ gəlməsi əsasları və icra müddəti göstərilməlidir. Bu öhdəliyin hansısa müqaviləyə əsaslandığı hallarda həmin müqavilənin tərəfləri, bağlandığı tarix və yer göstərilməlidir. Əgər ipoteka ilə təmin edilmiş öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində onun müəyyənləşdirilməsinin qaydası və digər zəruri şərtləri göstərilməlidir.

307.5. Əgər ipoteka ilə təmin edilən öhdəlik hissə-hissə icra olunmalıdırsa, ipoteka müqaviləsində müvafiq ödənişlərin müddətləri və ya dövriliyi, onların məbləğləri və ya bu məbləğləri müəyyənləşdirməyə imkan verən şərtlər göstərilməlidir.

307.6. İpoteka müqaviləsi ipoteka verən və ipoteka saxlayan tərəfindən, habelə ipoteka verən borclu deyildirsə, borclu tərəfindən imzalanmış bir sənədin tərtibi yolu ilə yazılı formada bağlanmalıdır.

307.7. İpoteka müqaviləsi notariat qaydasında təsdiqlənməlidir.

Maddə 308. İpotekanın növləri

308.1. Ümumi ipoteka elə ipotekadır ki, onun predmeti bir neçə əşyadır və ümumi tələbin ödənilməsi üçün əşyaların hər birindən istifadə edilir. Kreditorun tələbi onun arzusu ilə istənilən əşya hesabına ödənilə bilər.

308.2. Mülkiyyətçinin ipotekası o deməkdir ki, təmin edilməsi üçün ipotekanın mövcud olduğu tələb əmələ gəlmir, ona xitam verilir və ya həmin tələb əşyanın mülkiyyətçisinə keçdikdə ipoteka da ona keçir. *Bu halda digər hüquqların növbəliliyi dəyişmir.*(12)

Maddə 309. İpotekanın dövlət qeydiyyatı

309.1. Daşınmaz əmlakın ipotekası haqqında müqavilə daşınmaz əmlakın dövlət reyestrində, daşınar əmlakın ipotekası haqqında müqavilə isə dövlət qeydiyyatına alınmalı olan daşınar əmlakın rəsmi reyestrində qeydə alınmalıdır.

309.2. İpotekanın dövlət qeydiyyatı qanunda nəzərdə tutulmuş qaydada aparılır.

309.3. İpoteka və tələb yeni kreditora köhnə kreditorda olduğu kimi keçir. Daşınmaz əmlakın dövlət reyestrində kreditorun maraqlarına cavab verən məlumatların qeydiyyatı düzgün hesab edilir. Bu halda borclu tələbin mövcud olmamasına istinad edə bilməz. Əgər yeni kreditor reyestrdəki yazıların düzgün olmadığını bilirdisə, bu qayda tətbiq edilmir. (12, 23)

Maddə 310. Əşyanın ipoteka ilə dəfələrlə yüklü edilməsi

Eyni bir əşya ipoteka ilə bir neçə dəfə yüklü edilə bilər. Yüklü edilmənin növbəliyi ipotekanın *dövlət qeydiyyatı anı ilə* müəyyənləşdirilir. (23)

Maddə 311. Mülkiyyətçinin kreditoru təmin etmək hüququ

311.1. Əşyanın mülkiyyətçisi tələbin icra müddəti çatdıqda kreditoru təmin edə bilər. Bunu şəxsi borclu da edə bilər.

311.2. Əgər mülkiyyətçi şəxsi borclu deyildirsə, tələb ona mülkiyyətçinin kreditoru təmin etdiyi vaxt keçir.

311.3. Kreditoru təmin edərkən mülkiyyətçi daşınmaz əmlakın dövlət reyestrinə və ya daşınar əmlakın digər rəsmi reyestrinə müvafiq qeydlərin yazılması üçün zəruri olan sənədləri və ipotekaya xitam verilməsini tələb edə bilər.

Maddə 312. İpoteka ilə yüklü edilmiş əşyanı saxlamaq vəzifəsi

312.1. İpoteka verən əşyanın real dəyərini qorumağa borcludur. Əgər şəraitin pisləşməsi nəticəsində ipoteka üçün təhlükə yaranırsa, ipoteka saxlayan bu təhlükəni aradan qaldırmaq üçün ipoteka verənə müvafiq müddət təyin edə bilər.

312.2. Əgər əşya sığortalanmışsa, şərait pisləşdikdən sonra sığorta təşkilatı sığortalıya sığorta məbləğini yalnız zərərin baş verməsi faktının ipoteka saxlayana bildirildiyi vaxt ödəyə bilər. Əgər ipoteka saxlayan məbləğdən əşyanın bərpası üçün istifadə olunmayacağından ehtiyat edirsə, məbləğin ödənilməsinə mane ola bilər.

312.3. Əgər ipoteka verənin öz vəzifələrini icra edə bilmədiyi aşkar olarsa, ipoteka saxlayan əşyanın ona verilməsini tələb edə bilər. Bu tələb üzrə qərarı məhkəmə qəbul edir.

312.4. İpoteka verənin ipoteka saxlayan qarşısında öz üzərinə əşyanı özgəninkiləşdirməmək, əşyadan istifadə etməmək və ya onu digər şəkildə yüklü etməmək öhdəliyini götürməsini nəzərdə tutan razılaşma etibarsızdır. Bu cür əqdlərin üçüncü şəxslər üçün etibarlığı ipoteka saxlayanların razılığından asılı ola bilməz.

Maddə 313. İpotekanın və onun əsasında duran tələbin üçüncü şəxsə keçməsi

İpoteka və onun əsasında duran tələb başqa şəxsə yalnız eyni vaxtda və birlikdə verilə bilər. Tələb yeni ipoteka saxlayana verildikdə ipoteka da ona keçir. Tələbin verilməsi yalnız bu şərtlə etibarlı sayılır ki, ipoteka qoyulması haqqında notariat qaydasında təsdiqlənmiş sənəd yeni ipoteka saxlayana verilsin və daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınsın.

Maddə 314. İpoteka və tələb yeni ipoteka saxlayana keçərkən daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində edilmiş qeydin düzgünlüyü prezumpsiyası

İpoteka və tələb yeni ipoteka saxlayana köhnə ipoteka saxlayan üçün olduğu qaydada keçir. Daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınmış məlumatlar ipoteka saxlayanın mənafeləri əsas götürülməklə düzgün hesab edilir. Bu halda ipoteka verən tələbin mövcud olmadığına istinad edə bilməz. Əgər yeni ipoteka saxlayan reyestrdəki yanlış qeydlərdən xəbərdar olmuşdursa, bu qayda tətbiq edilmir.

Maddə 315. Üçüncü şəxslərin hüquqları

315.1. İpotekanın reallaşdırılması nəticəsində vəziyyəti pisləşmiş hər hansı üçüncü şəxsin tələbi icra etmək və bu yolla ipotekanı özünə keçirmək ixtiyarı vardır. İpoteka saxlayan

təmin edilərkən o, müvafiq surətdə təsdiqlənmiş sənədləri və özünün ipoteka saxlayan kimi qeydə alınmasını tələb edə bilər.

315.2. Əgər şəxsi borclu ipoteka saxlayanı təmin edirsə, ipoteka ona keçir. Bu zaman o, mülkiyyətçidən əvəz verməyi tələb edə bilər.

Maddə 316. İpoteka saxlayanın tələbdən və ya ipotekadan imtinası

Əgər ipoteka saxlayan tələbdən və ya ipotekadan imtina edirsə, kreditor mülkiyyətçiyə çevrilir. İmtina bu şərtlə hüquqi qüvvəyə malik olur ki, daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınsın.

Maddə 317. İpoteka ilə yüklü olan əşyanı satmaq tələbi

317.1. *Borclu* təminat vasitəsi ipoteka olan *əsas öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə*, ipoteka saxlayan daşınmaz əşyanın satılmasını tələb edə bilər.

317.2. *Satış bu Məcəllənin 414—416-cı maddələrinə uyğun olaraq həyata keçirilir.* (12, 23)

Maddə 318. İpoteka verilməsi xərcləri

318.1. Əgər müqavilədə ayrı şərt qoyulmayıbsa, ipoteka verilməsi xərclərini borclu çəkir.

318.2. Əgər əşya ipoteka ilə yüklü edilmişsə və əgər ipoteka verildikdən sonra mülkiyyətçi ipotekada dəyişikliklər və ya əlavələr etmişsə və bu zaman onları da tələbin təminatı kimi verməyə borclu deyilsə, həmin dəyişiklikləri və əlavələri geri götürərək əşyanın əvvəlki vəziyyətini bərpa edə bilər. Daşınmaz əşyanın dəyərinin azalması üçün məsuliyyət mülkiyyətçinin üzərinə düşür.

Maddə 319. Borclunun öhdəlikləri yerinə yetirməyi gecikdirməsinin nəticələri

319.1. Əgər borclu icrasını təmin etmək üçün əşyanın ipotekaya verildiyi öhdəliklərin yerinə yetirilməsini gecikdirmişsə, ipoteka saxlayan ipoteka ilə yüklü edilmiş obyekti açıq hərracdan satmaq hüququna malikdir. *Borclunun ipoteka ilə təmin olunmuş öhdəliklərini yerinə yetirmədiyi və ya yerinə yetirilməsini gecikdirdiyi hallarda daşınmaz əmlaka mülkiyyət hüququnun bilavasitə kreditora keçməsi barədə razılaşma etibarsızdır.*

319.2. İpoteka ilə təmin edilən tələb icra edilmədikdə, ipoteka saxlayan və borclu ipoteka tələbi təmin edilən anda satışın açıq hərracdan fərqli olan başqa formaları barədə razılığa gələ bilərlər. Razılıqda həmçinin nəzərdə tutula bilər ki, ipoteka predmeti borclunun borclarının tam hesablanması şərtilə bazar qiymətinə satılsın və (və ya) satış zamanı ipoteka predmeti olmuş mənzili (yaşayış sahəsini) əldə edən şəxs qarşısında gələcəkdə borcluya və onun ailə üzvlərinə həmin mənzilin (yaşayış sahəsinin) kirayəçisi olmaq hüququ verən şərt qoyulsun.

319.3. İpoteka ilə yüklü edilmiş obyektin alıcısı satınalma qiymətini ödəməyə borcludur. İpoteka ilə yüklü edilmiş obyektin tutmaya yönəldilməsi xərcləri satınalma qiymətindən tutulur.

319.4. Açıq hərracdan satışa çıxarılan ipoteka predmetinin ilkin satış qiymətini ipoteka saxlayan və borclu, həmçinin ipoteka verən (borclu ipoteka verən olmadıqda) qarşılıqlı

razılıq əsasında müəyyən edirlər. Bu sahədə razılıq əldə edilmədikdə, onlar qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətləndirmə fəaliyyəti ilə məşğul olan şəxsə müraciət edə bilərlər.

319.5. Əgər birinci hərracın keçirilməsi zamanı əşyanın ilkin satış qiymətinin yetmiş faizinə çatan təklif olmazsa, hərrac yenidən keçirilməlidir.Təkrar hərrac, təkrarən keçirilməsinə istinad edilərək, birinci hərracın formasında elan edilməli və həmin qaydada keçirilməlidir. Təkrar hərrac zamanı ipoteka predmetinin ən aşağı satış qiyməti heç olmasa hərracın keçirilməsi xərclərinin və hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini açıq hərracdan satan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olmalıdır. Bu baş verməzsə, hərrac keçirilmir. Hərrac üzrə xərclər mülkiyyətçinin üzərinə qoyulur.

319.6. Bu Məcəllənin 319.1—319.5-ci maddələrinə müvafiq olaraq ipoteka predmetinin satışından götürülmüş məbləğ ipoteka saxlayanın tələblərini ödəməyə kifayət etmirsə, borclu çatışmayan məbləği ipoteka saxlayana ödəməlidir. Əgər satışdan götürülən və ya əldə edilən məbləğ ipoteka saxlayanın tələblərindən artıqdırsa, artıq məbləğ borcluya qaytarılmalıdır. (12)

Maddə 320. İpoteka saxlayanların tələblərinin ödənilməsi növbəliyi

Əgər bir neçə ipoteka saxlayan vardırsa, ipoteka ilə yüklü edilmiş obyektin satışından götürülmüş xalis gəlirdən ipoteka saxlayanların tələbləri onların hüquqlarının qeydiyyat növbəliyinə uyğun ödənilir. Əgər növbəlik və ya ixtiyarlı şəxslərdən hər birinə mənsub məbləğ mübahisəlidirsə, onların növbəliyi və ya ipoteka saxlayanlardan hər birinə çatası məbləğ müəyyənləşdirilənə qədər ödəniş həyata keçirilmir. Qalıq satılmış əşyanın mülkiyyətçisinə ödənilir.

Maddə 321. İpoteka borcu

321.1. Torpaq sahəsi elə yüklü edilə bilər ki, xeyrinə yüklülük müəyyənləşdirilən şəxsə torpaq sahəsi üzrə müəyyən pul məbləği (ipoteka borcu) ödənilməli olar. Yüklülük elə şəkildə də müəyyənləşdirilə bilər ki, pul məbləği üzrə faizlər ödənilməli olar, habelə daşınmaz əmlak üzrə digər əlavə öhdəliklər icra edilməli olar. İpoteka borcuna müvafiq surətdə ipoteka haqqında göstərişlər tətbiq edilir, bu şərtlə ki, onlardan ipoteka borcunun arxasında tələblərin ehtimal olunduğu irəli gəlməsin.

321.2. Tərəflərin razılaşması ilə ipoteka ipoteka borcuna, o isə ipotekaya keçirilə bilər.

Maddə 322. Renta borcu

İpoteka borcu elə verilə bilər ki, müntəzəm təkrarlanan müddətlərdə daşınmaz əmlak üzrə müəyyən pul məbləği (renta borcu) ödənilməli olar. Renta borcu verilərkən onun satın alınmasını mümkün edən məbləğ də müəyyənləşdirilməlidir. Satınalma məbləği daşınmaz əmlakın dövlət reyestrində göstərilməlidir.

Maddə 323. Əşya yüklülüyü

Daşınmaz əşya elə yüklü edilə bilər ki, xeyrinə yüklülük müəyyənləşdirilən şəxsə torpaq sahəsi üzrə müəyyən vaxtaşırı öhdəliklər icra edilməli olar.

Maddə 323-1. Mülkiyyətçinin ipotekaya dair etirazları

Daşınmaz əmlakın mülkiyyətçisi eyni zamanda ipoteka ilə təmin edilmiş tələbin şəxsi borclusu olmasa da, o, ipoteka saxlayana yalnız şəxsi borcluya məxsus olan qarşılıqlı tələb irəli sürə bilər; xüsusi olaraq, bu pul öhdəliklərinin əvəzləşdirilməsi və tələbdən şikayətin verilməsi ilə bağlı qarşılıqlı tələblərdir. Bu, həmçinin, mülkiyyətçinin ipoteka saxlayanın şəxsi borclusu olduğu hala da aiddir. (12)

Dördüncü bölmə. Əqdlər

13-cü fəsil. Əqdlər haqqında ümumi müddəalar

Maddə 324. Əqd anlayışı və onun növləri

324.1. Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir.

324.2. Əqdlər birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər.

324.3. Bu Məcəlləyə və ya tərəflərin razılaşmasına uyğun olaraq bağlanması üçün bir tərəfin iradə ifadəsinin zəruri və yetərli olduğu əqd birtərəfli əqddir.

324.4. Müqavilənin bağlanması üçün iki tərəfin razılaşdırılmış iradə ifadəsi (ikitərəfli əqd) və ya üç və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi (çoxtərəfli əqd) zəruridir.

324.5. İradə ifadəsinin təfsiri zamanı onun həqiqi məzmunu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir.

324.6. Əgər nə zahiri ifadəyə görə, nə də başqa hallara görə iradənin məzmunu dəqiq müəyyənləşdirilə bilmirsə, əqd mövcud deyildir.

Maddə 325. Birtərəfli iradə ifadəsinin etibarlığı

325.1. Başqa tərəfin qəbul etməsi tələb olunan iradə ifadəsi başqa tərəfə çatdığı andan etibarlı olur.

~~325.2. Əgər başqa tərəf qabaqcadan və ya dərhal öz imtinasını bildirərsə, iradə ifadəsi etibarlı sayılmır.~~

325.3. Əqdi bağlamış şəxsin ölümü və ya fəaliyyət qabiliyyətini itirməsi iradə ifadəsindən sonra baş verərsə, iradə ifadəsinin etibarlığına təsir göstərməyə bilər. (12)

Maddə 326. Birtərəfli əqd üzrə vəzifələr

Birtərəfli əqd onu bağlamış şəxs üçün vəzifələr yaradır. Əqd başqa şəxslər üçün yalnız bu Məcəllədə və ya həmin şəxslərlə razılaşmada müəyyənləşdirilmiş hallarda vəzifələr yarada bilər.

Maddə 327. Birtərəfli əqdlərin hüquqi tənzimlənməsi

Birtərəfli əqdlərə öhdəliklər və ya müqavilələr haqqında ümumi müddəalar müvafiq surətdə o halda tətbiq edilir ki, bu, bu Məcəlləyə, əqdin birtərəfli xarakterinə və mahiyyətinə zidd gəlməsin.

Maddə 328. Şərtlə bağlanmış əqdlər

328.1. Əgər tərəflər hüquq və vəzifələrin əmələ gəlməsini baş verib-verməyəcəyi məlum olmayan hallardan asılı etmişlərsə, əqd şərtlə bağlanmış sayılır.

328.2. Bu Məcəllənin müəyyənləşdirdiyi tələblərə zidd olan, yaxud icrası mümkün olmayan şərt etibarsızdır. Belə şərtdən asılı olan əqd tamamilə etibarsızdır.

328.3. Tərəflərin iradəsindən asılı olan şərt, yəni baş verməsi və ya baş verməməsi yalnız tərəflərin əqddəki arzusundan asılı olan şərt etibarsızdır. Belə şərtlə bağlanmış əqd etibarsızdır.

328.4. Pozitiv şərt o deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verəcəyi şərti ilə bağlanmışdır. Əgər həmin müddət bitmiş və hadisə baş verməmişsə, şərt qüvvədən düşmüş sayılır. Əgər müddət müəyyənləşdirilməyibsə, şərt istənilən vaxt yerinə yetirilə bilər. Hadisənin baş verməsinin mümkünsüzlüyü aydın olduqda şərt qüvvədən düşmüş sayıla bilər.

328.5. Neqativ şərt o deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verməyəcəyi şərti ilə bağlanmışdır. Əgər həmin müddət bitənədək hadisə baş verməzsə və ya həmin hadisənin baş verməsinin mümkünsüzlüyü müddət bitənədək aydın olarsa, şərt yerinə yetirilmiş sayılır. Əgər müddət müəyyənləşdirilməyibsə, şərt yalnız hadisənin baş verməyəcəyinin aydın olduğu vaxt yerinə yetirilmiş sayılır.

328.6. Əqddə nəzərdə tutulan hüquq və vəzifələrin əmələ gəlməsi gələcəkdə gözlənilən və ya naməlum hadisədən və ya artıq baş versə də, hələlik tərəflərə bəlli olmayan hadisədən asılı olduqda əqd təxirəsalıcı şərtlə bağlanmış sayılır.

328.7. O əqd ləğvedici şərtlə bağlanmış sayılır ki, həmin şərtin baş verməsi əqdin xitamına səbəb olur və əqd bağlananadək mövcud olmuş vəziyyəti bərpa edir.

328.8. Müəyyən şərtlə əqd bağlamış şəxsin ixtiyarı yoxdur ki, şərt baş verənədək öhdəliklərinin icrasına maneçilik törədə bilən hər hansı hərəkəti yerinə yetirsin. Əgər şərt müəyyən müddətdə baş verərsə və şəxs həmin hərəkəti icra etmiş olarsa, bu hərəkət nəticəsində əmələ gəlmiş ziyanın əvəzini digər tərəfə ödəməlidir.

328.9. Şərtin baş verməsi onun üçün sərfəli olmayan tərəf şərtin baş verməsinə vicdansızcasına maneçilik törədərsə, şərt baş vermiş sayılır.

328.10. Şərtin baş verməsi onun üçün sərfəli olan tərəf şərtin baş verməsinə vicdansızcasına kömək göstərdikdə şərt baş verməmiş sayılır.

Maddə 329. Əqdlərin formaları

329.1. Əgər qanunla başqa hal müəyyən edilməmişdirsə, qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanılmış əqd etibarsızdır.

329.2. Əqdlər şifahi və ya yazılı (sadə və ya notarial) formada bağlanır.

329.3. Şifahi bağlana bilən əqd o halda bağlanmış sayılır ki, şəxsin əqdi bağlamaq iradəsi onun rəftarından məlum olur.

329.4. Susmaq bu Məcəllədə və ya tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda əqdi bağlamaq iradəsinin ifadəsi sayılır. (12)

~~***Maddə 330. Şifahi əqd***~~

~~330.1. Bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə yazılı (sadə və ya notarial) forması müəyyənləşdirilməmiş əqd şifahi bağlana bilər.~~

~~330.2. Əgər tərəflərin razılaşmasında ayrı qayda müəyyənləşdirilməyibsə, bağlanarkən icra edilən bütün əqdlər şifahi bağlana bilər, amma notarial forması müəyyənləşdirilmiş əqdlər və sadə yazılı formasına riayət edilməməsi etibarsızlığına səbəb olan əqdlər istisna təşkil edir.~~

~~330.3. Yazılı formada bağlanmış müqavilənin icrası üçün əqdlər, əgər bu, bu Məcəlləyə və müqaviləyə zidd deyildirsə, tərəflərin razılaşması ilə şifahi bağlana bilər.~~ (12)

Maddə 331. Yazılı əqd

331.1. Yazılı əqd onun məzmununu ifadə edən və əqdi bağlayan şəxs və ya şəxslər və ya onların lazımınca vəkil etdikləri şəxslər tərəfindən imzalanmış sənədin tərtibi yolu ilə bağlanmalıdır.

331.2. Tərəflərin razılaşmasında əqdin formasının uyğun gəlməli olduğu əlavə tələblər (müəyyən formalı blankda tərtibetmə, möhürlə təsdiqləmə və i.a.) müəyyənləşdirilə bilər və bu tələblərə riayət edilməməsinin nəticələri nəzərdə tutula bilər. ~~Belə nəticələr nəzərdə tutulmadıqda əqdin sadə yazılı formasına riayət edilməməsinin nəticələri (maddə 333.1.) tətbiq edilir.~~

331.3. Əqdlərin bağlanması zamanı mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən, *elektron* ~~rəqəmli~~ imzadan və ya şəxsi imzanın başqa analoqundan istifadə edilməsinə tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda və qaydada yol verilir. *Elektron imzadan istifadə etmə qaydaları qanunvericiliklə müəyyən edilir.*

331.4. Əgər fiziki şəxs bədən qüsuruna, xəstəliyinə və ya savadsızlığına görə əqdi özü imzalaya bilmirsə, əqdi onun xahişi ilə başqa fiziki şəxs imzalaya bilər. Başqa fiziki şəxsin imzası əqdi bağlayanın özünün imza edə bilməməsinin səbəbləri göstərilməklə, notarius tərəfindən və ya bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxs tərəfindən təsdiqlənməlidir.

331.5. Əqdlərin elektron formada bağlanması ilə bağlı məsələlər elektron ticarət haqqında və elektron sənəd dövriyyəsinə dair Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. (9, 11, 15, 23)

~~***Maddə 332. Sadə yazılı formada bağlanan əqdlər***~~

~~332.1. Sadə yazılı formalı əqdin etibarlı olması üçün əqddə iştirak edən şəxslərin imzaları kifayətdir. Notariat qaydasında təsdiqlənməsi tələb edilən əqdlər istisna olmaqla, aşağıdakı əqdlər sadə yazılı formada bağlanmalıdır:~~

~~332.1.1. hüquqi şəxslərin öz aralarında və fiziki şəxslərlə əqdləri;~~

~~332.1.2. fiziki şəxslərin öz aralarında müəyyənləşdirilmiş *şərti maliyyə vahidi* miqdarından azı 50 dəfə çox olan məbləğə, bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda isə əqdin məbləğindən asılı olmayaraq, bağladıqları əqdlər.~~

~~332.2. Bu Məcəlləyə uyğun olaraq şifahi bağlana bilən əqdlər üçün sadə yazılı formaya riayət edilməsi tələb olunmur.~~ (12)

~~Maddə 333. Əqdin sadə yazılı formasına riayət edilməməsinin nəticələri~~

~~333.1. Əqdin sadə yazılı formasına riayət edilməməsi mübahisə halında əqdi və onun şərtlərini təsdiq etmək üçün tərəfləri şahid ifadələrinə istinad etmək hüququndan məhrum edir, lakin yazılı və digər sübutlar təqdim etmək hüququndan məhrum etmir.~~

~~333.2. Bu Məcəllədə və ya tərəflərin razılaşmasında birbaşa göstərilmiş hallarda əqdin sadə yazılı formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur.~~

~~333.3. Xarici iqtisadi əqdin sadə yazılı formasına riayət edilməməsi əqdin etibarsızlığına səbəb olur.~~ (12)

Maddə 334. Əqdin notariat qaydasında təsdiqlənməsi

334.1. Əqdin notariat qaydasında təsdiqlənməsi bu Məcəllənin 331-ci maddəsinin tələblərinə uyğun gələn sənəddə notariusun və ya bu cür notarial hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxsin təsdiqləyici qeyd etməsi yolu ilə həyata keçirilir.

334.2. Əqdin notarial təsdiqlənməsi qaydası notariat haqqında qanunla müəyyənləşdirilir.

~~334.3. Əqdlərin notariat qaydasında təsdiqlənməsi aşağıdakı hallarda məcburidir:~~

~~334.3.1. bu Məcəllədə göstərilmiş hallarda;~~

~~334.3.2. bu Məcəllə ilə həmin növlü əqdlər üçün bu forma nəzərdə tutulmuş olmasa da, tərəflərdən hər hansı birinin tələbi ilə.~~ (12)

~~Maddə 335. Əqdin notarial formasına riayət edilməməsinin nəticələri~~

~~335.1. Əqdin notarial formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur. Bu cür əqd əhəmiyyətsiz sayılır.~~

~~335.2. Əgər tərəflərdən biri notariat qaydasında təsdiqlənməsi tələb olunan əqdi tamamilə və ya qismən icra etmişsə, digər tərəf isə əqdin notariat qaydasında təsdiqlənməsindən boyun qaçırırsa, əqdi icra etmiş tərəfin tələbi ilə məhkəmənin əqdi etibarlı saymaq ixtiyarı vardır. Bu halda əqdin sonradan notariat qaydasında təsdiqlənməsi tələb edilmir.~~

~~335.3. Əqdin notariat qaydasında təsdiqlənməsindən əsassız boyun qaçıran tərəf əqdin bağlanmasının ləngidilməsi nəticəsində dəyən zərərin əvəzini digər tərəfə ödəməlidir.~~ (12)

Maddə 336. Əqdlərdən əmələ gələn hüquqların qeydə alınması tələbinə riayət edilməməsinin nəticələri

336.1. Əgər tərəflərdən biri əqddən əmələ gələn hüququn dövlət qeydiyyatına alınmasından boyun qaçırırsa, onda qeydiyyat digər tərəfin ərizəsi ilə məhkəmənin qərarı əsasında həyata keçirilir.

336.2. Zərərin əvəzinin ödənilməsi ilə bağlı digər hüquqlar toxunulmaz qalır. (12)

14-cü fəsil. Əqdlərin etibarsızlığı

Maddə 337. Əqdlərin etibarsızlığı anlayışı və onun nəticələri. Mübahisə edilən və əhəmiyyətsiz əqdlər

337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. *Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.*

337.2. Əqd barəsində mübahisə edildikdə, əqd bağlandığı andan etibarsızdır. Müqavilənin mübahisə edilməsi müqavilənin digər tərəfinə iradə ifadəsinin bildirilməsi yolu ilə həyata keçirilir. Digər tərəfə münasibətdə həyata keçirilmiş birtərəfli əqd həmin şəxsə qarşı mübahisə edilir.

337.3. Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir. ~~Əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiq edilməsi tələbini hər bir maraqlı şəxs irəli sürə bilər. Məhkəmənin bu cür nəticələri öz təşəbbüsü ilə tətbiq etmək ixtiyarı vardır.~~

337.4. Etibarsız əqd onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, hüquqi nəticələrə səbəb olmur. Bu cür əqd bağlandığı andan etibarsızdır.

337.5. Əqd etibarsız olduqda, əgər bu Məcəllədə onun etibarsızlığının ayrı nəticələri nəzərdə tutulmayıbsa, tərəflərdən hər biri əqd üzrə aldıqlarının hamısını digər tərəfə qaytarmağa, alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə (o cümlədən alınanlar əmlakdan istifadədə, görülmüş işdə və ya göstərilmiş xidmətdə ifadə olunduqda) onun dəyərini pulla ödəməlidir. (12)

~~*Maddə 338. Bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydaları və qadağanları pozan əqdin etibarsızlığı*~~

~~Bu Məcəllənin tələblərinə uyğun gəlməyən və ya bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydaları və qadağanları pozan əqd, əgər bu Məcəllədə bu cür əqdin əhəmiyyətsiz olduğu müəyyənləşdirilməyibsə və ya pozuntunun digər nəticələri nəzərdə tutulmayıbsa, etibarsızdır.~~ (12)

Maddə 339. Hakimiyyətdən sui-istifadə nəticəsində, aldatma, zorakılıq, hədə təsiri altında, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi və ya şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqdin etibarsızlığı

339.1. Hakimiyyətdən sui-istifadə, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanmış əqd, habelə şəxsin ağır vəziyyətə düşməsi və digər tərəfin bundan istifadə etməsi nəticəsində həmin şəxsin özü üçün son dərəcə əlverişsiz şərtlərlə bağlamağa məcbur olduğu əqd (ağır şərtli əqd) *zərərçəkən tərəfindən mübahisələndirilə bilər.*

339.2. Şəxs əqd bağlanması məqsədi ilə aldadıldıqda, həmin *əqdi mübahisələndirə bilər*. *Belə mübahisələndirmə* əqdin aldatma olmadan bağlana bilməyəcəyinin aşkar olduğu hallarda *həyata keçirilir*. Əgər tərəflərdən biri aşkar edilsəydi, digər tərəfin əqd bağlamayacağı hallar barəsində susmuşsa, aldadılmış tərəf *əqdi mübahisələndirə bilər*. Barəsində susulan hallar barəsində məlumat vermək vəzifəsi yalnız o zaman ola bilər ki, digər tərəf vicdanla bunu gözləsin.

339.3. Aldatma yolu ilə bağlanmış əqdin *mübahisələndirilməsi* üçün tərəfin yanlış məlumat verərkən fayda götürmək məqsədini, yaxud digər tərəfə zərər vurmaq məqsədini güdmüş olduğunun əhəmiyyəti yoxdur. Üçüncü şəxs tərəfindən aldadılma halında, əgər bu əqddən fayda götürən şəxs aldatmadan xəbərdar idisə və ya xəbərdar olmalı idisə, *əqd mübahisələndirilə bilər*. Əgər hər iki tərəf aldatma yolu ilə hərəkət etmişsə, onlardan heç birinin ixtiyarı yoxdur ki, aldadıldığına istinad edərək *əqdi mübahisələndirsin* və ya zərərin əvəzinin ödənilməsini tələb etsin.

339.4. Əqdi bağlayan şəxsi əqdi bağlamağa məcburetmə (zorakılıq və ya hədələmə) ona hüquq verir ki, zorakılığın üçüncü şəxs tərəfindən törədildiyi halda da *əqdi mübahisələndirsin*. Xaraktercə şəxsə təsir göstərə bilən və ona şəxsən özünü və ya əmlakını real təhlükə gözlədiyini təlqin edə bilən məcburetmə əqdin etibarsızlığına səbəb olur. Məcburetmənin xarakteri qiymətləndirilərkən şəxsin yaşı və cinsi, həyat şəraiti nəzərə alınır. Məcburetmə tərəflərdən birinin arvadına (ərinə), digər ailə üzvlərinə və ya yaxın qohumlarına qarşı yönəldildikdə də əqdin *mübahisələndirilməsinə* əsas verir. Məcburetmənin məqsədi ilə vasitələrinin bir-birinə uyğun gəlmədiyi hallardan başqa, nə qanuna zidd məqsədlərlə, nə də qanuna zidd vasitələr tətbiq edilməklə həyata keçirilməyən hərəkətlər məcburetmə sayılmır.

339.5. Əgər 339.1, 339.2 və 339.4-cü maddələrdə göstərilən əsaslardan biri üzrə əqd etibarsız sayılmışdırsa, *bu Məcəllənin 337.5-ci maddəsinin qaydaları tətbiq edilir*. Bundan başqa, digər tərəf hakimiyyətdən sui-istifadə nəticəsində zərərçəkənə vurduğu real zərərin əvəzini ödəyir. (12)

Maddə 340. Uydurma və yalan əqdlərin etibarsızlığı

340.1. Uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir. Uydurma əqd əhəmiyyətsizdir.

340.2. Yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd *əhəmiyyətsizdir*. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir. (12)

Maddə 341. Qeyri-ciddi əqdin etibarsızlığı

341.1. Qeyri-ciddiliyin seziləcəyi ümidi ilə qeyri-ciddi (zarafatla) edilmiş iradə ifadəsi etibarsızdır.

341.2. Qeyri-ciddi əqd nəticəsində digər tərəfə zərər dəydikdə, əgər digər tərəf əqdin qeyri-ciddiliyindən xəbərdar olmamışdırsa və xəbərdar ola bilməzdisə, zərərin əvəzi ödənilməlidir.

Maddə 342. Fəaliyyət qabiliyyəti olmayan fiziki şəxsin bağladığı əqdin etibarsızlığı

342.1. Psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqd etibarsızdır. Belə əqdin tərəflərindən hər biri aldıqlarının hamısını digər tərəfə eyni ilə qaytarmalı, alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə onun dəyərini pulla ödəməlidir. Bundan başqa, əgər fəaliyyət qabiliyyətli tərəf digər tərəfin fəaliyyət qabiliyyəti olmadığını bilirdisə və ya bilməli idisə, ona dəymiş real zərərin əvəzini də ödəməlidir.

342.2. Psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqd onun xeyrinə olduqda qəyyumunun *razılığı ilə* etibarlı sayıla bilər. (12)

Maddə 343. Fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin bağladığı əqdin etibarsızlığı

343.1. Spirtli içkilərdən, *narkotik vasitələrdən və ya psixotrop maddələrdən* sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxsin öz himayəçisindən razılıq almadan əmlaka dair sərəncam verilməsi barədə bağladığı əqd himayəçinin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər. (22)

343.2. Bu maddənin qaydaları fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin müstəqil bağlamağa hüququ çatan xırda məişət əqdlərinə şamil edilmir.

Maddə 344. On dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın bağladığı əqdin etibarsızlığı

344.1. *Bu Məcəllənin 29-cu maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, on* dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın (azyaşlının) bağladığı əqd etibarsızdır.

~~344.2. Azyaşlının bağladığı əqd onun xeyrinədirsə, valideynlərinin, övladlığa götürənlərin və ya qəyyumun tələbi ilə məhkəmə tərəfindən azyaşlının mənafeyi üçün etibarlı sayıla bilər.~~

~~344.3. Bu maddənin qaydaları azyaşlıların müstəqil bağlamağa hüquqları çatan xırda məişət əqdlərinə və digər əqdlərə şamil edilmir.~~ (12)

Maddə 345. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın bağladığı əqdin etibarsızlığı

345.1. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın bu Məcəllənin tələblərinə görə valideynlərindən, övladlığa götürənlərdən və ya himayəçidən razılıq almasının tələb edildiyi hallarda onlardan razılıq almadan bağladığı əqd *etibarsızdır*.

345.2. Bu maddənin qaydaları bu Məcəllənin qaydalarına müvafiq surətdə tam fəaliyyət qabiliyyətli olmuş yetkinlik yaşına çatmayanların əqdlərinə şamil edilmir. (12)

Maddə 346. Öz hərəkətlərinin mənasını başa düşməyən və ya onlara rəhbərlik edə bilməyən fiziki şəxsin bağladığı əqdin etibarsızlığı

346.1. Fəaliyyət qabiliyyətli olsa da, əqd bağlandığı zaman öz hərəkətlərinin mənasını başa düşmədiyi və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə fiziki şəxsin bağladığı əqd onun özünün və ya əqd bağlanması nəticəsində hüquqları və ya qanunla qorunan mənafeləri pozulmuş digər şəxslərin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər.

346.2. Sonradan fəaliyyət qabiliyyətli sayılmış fiziki şəxsin bağladığı əqd, əgər əqdin bağlandığı zaman fiziki şəxsin öz hərəkətlərinin mənasını başa düşmədiyi və ya onlara rəhbərlik edə bilmədiyi sübuta yetirilərsə, onun qəyyumunun iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər.

346.3. Şüurun itməsi və ya müvəqqəti psixi pozuntu zamanı edilmiş iradə ifadəsi etibarsız sayıla bilər.

346.4. Ruhi xəstə şəxsin iradə ifadəsi real şəraitin düzgün qavranışına uyğun gəlmədikdə və şəxs məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayıldıqda iradə ifadəsi etibarsızdır.

Maddə 347. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdin etibarsızlığı

347.1. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd, belə yanılmanın təsiri altında hərəkət etmiş şəxs tərəfindən mübahisələndirilə bilər.

347.2. Vacib əhəmiyyətli yanılma aşağıdakı hallardır:

347.2.1. şəxs razılıq verdiyi əqdi deyil, başqa əqdi bağlamaq istəmişdir;

347.2.2. şəxs bağlamağı arzuladığı əqdin məzmunu barəsində səhv etmişdir;

347.2.3. tərəflərin vicdanlılıq prinsipini rəhbər tutmaqla əqdin əsası kimi nəzərdən keçirdikləri hallar mövcud deyildir.

347.3. Əqdin motivləri barəsində yanılma, onun razılaşma predmeti olduğu hallar istisna edilməklə, vacib əhəmiyyətə malik deyildir.

347.4. Kontragentin şəxsiyyəti barəsində yanılma yalnız o zaman vacib sayılır ki, əqdin bağlanması üçün kontragentin şəxsiyyəti və ya şəxsi keyfiyyətlərinin nəzərə alınması başlıca əsas olmuşdur.

347.5. Predmetin əsas xüsusiyyətləri barəsində yanılma yalnız o zaman vacib sayılır ki, predmetin dəyərinin müəyyənləşdirilməsi üçün əhəmiyyət kəsb edir.

347.6. Yazılı əqdlər bağlanarkən buraxılmış xırda səhvlər düzəlişə hüquq verir, lakin mübahisə etməyə hüquq vermir.

347.7. *Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdi mübahisələndirmiş* tərəf yanılmanın digər tərəfin təqsiri üzündən əmələ gəldiyini sübuta yetirərsə, özünə dəymiş real zərərin əvəzini ödəməyi digər tərəfdən tələb edə bilər. Bu, sübuta yetirilməsə, *vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdi mübahisələndirmiş* tərəf digər tərəfin tələbi ilə ona dəymiş real zərərin əvəzini ödəməyə, hətta yanılmanın yanılan tərəfdən asılı olmayan səbəblərdən əmələ gəldiyi hallarda da borcludur. (12)

~~***Maddə 348. Məcburi formanı pozmaqla bağlanmış əqdin etibarsızlığı***~~

~~Bu Məcəllə ilə və ya müqavilə ilə müəyyənləşdirilmiş məcburi formanı pozmaqla bağlanmış əqd, habelə bağlanması üçün icazə alınması zəruridirsə, icazə alınmadan bağlanmış əqd etibarsızdır.~~ (12)

Maddə 349. Hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan əqdin etibarsızlığı

Hüquqi şəxsin öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq bağladığı əqd ~~və ya müvafiq fəaliyyətlə məşğuliyyət üçün xüsusi icazəsi (lisenziyası) olmayan hüquqi şəxsin bağladığı əqd~~, əgər əqddə iştirak edən digər tərəfin onun qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu sübuta yetirilərsə, həmin hüquqi *şəxs və ya onun təsisçisi tərəfindən mübahisələndirilə bilər*. (12)

Maddə 350. Əqd bağlamaq səlahiyyətlərinin məhdudlaşdırılmasının nəticələri

Əgər şəxsin əqd bağlamaq səlahiyyətləri müqavilə ilə və ya hüquqi şəxsin orqanının səlahiyyətləri onun nizamnaməsi ilə etibarnamədə, bu Məcəllədə müəyyənləşdirilənə və ya əqdin bağlandığı şəraitə görə aşkar sayıla bilənə nisbətən məhdudlaşdırılarsa və əqd bağlanarkən həmin şəxs və ya orqan bu məhdudiyyətlərdən kənara çıxarsa, əqd yalnız onda iştirak edən digər tərəfin göstərilən məhdudiyyətləri bildiyinin və ya bilməli olduğunun sübuta yetirildiyi hallarda, mənafeləri üçün məhdudiyyətlər qoyulmuş *şəxs tərəfindən mübahisələndirilə bilər*. (12)

Maddə 351. Əqdlərin etibarsızlığı zamanı təsdiqetmənin əhəmiyyəti

351.1. Əhəmiyyətsiz əqd onun bağlandığı andan etibarsızdır.

351.2. Əgər əhəmiyyətsiz əqdi bağlamış şəxs onu təsdiq edərsə, onun hərəkətləri əqdin yenidən bağlanması kimi qiymətləndirilir.

351.3. Əgər əqdi onun barəsində mübahisə etmək hüququna malik şəxs təsdiq edirsə, bununla o, mübahisə etmək hüququnu itirir.

351.4. Əgər əhəmiyyətsiz ikitərəfli əqdi hər iki tərəf təsdiq edirsə, şübhələrin olduğu halda onlar, əgər əqd lap əvvəldən etibarlı olsaydı, onlara çatası hər şeyi bir-birinə verməyə borcludurlar.

351.5. Təsdiqetmə yalnız o zaman etibarlı olur ki, müqavilə və ya əqd əxlaq tələblərinə zidd olmasın və üçüncü şəxslərin mənafelərini pozmasın.

Maddə 352. Əqdin bir hissəsinin etibarsızlığının nəticələri

Əqdin bir hissəsinin etibarsızlığı onun qalan hissələrinin etibarsızlığına o halda səbəb olmur ki, əqd onun etibarsız hissəsi daxil edilmədən də bağlana bilərdi.

Maddə 353. Əqdin konversiyası

Tərəflər əqdin etibarsızlığını bildikdən sonra etibarlı olmasını arzuladıqda, əgər etibarsız əqd başqa əqd üçün nəzərdə tutulan tələblərə uyğun gəlirsə, başqa əqdin qaydaları tətbiq edilir.

Maddə 354. Etibarsız əqdlər üzrə müddətlər

354.1. Əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia onun icrasına başlanıldığı gündən *bir il* ərzində irəli sürülə bilər.

354.2. Bu Məcəllənin 347.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, maraqlı şəxs əqdin bağlanmasına təsir etmiş zorakılığa və ya hədəyə son qoyulduğu gündən və ya əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində əqdi mübahisə edə bilər. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd mübahisəyə əsasın məlum olduğu andan bir ay ərzində mübahisə edilə bilər. (12)

15-ci fəsil. Əqdlərdə razılıq

Maddə 355. Əqdlərdə razılıq anlayışı

355.1. Əgər əqdin etibarlığı üçüncü şəxsin razılığından asılıdırsa, onda həm razılıq, həm də razılıqdan imtina istər bir tərəfin, istərsə də digər tərəfin qarşısında ifadə edilə bilər.

355.2. Razılıq üçün müəyyənləşdirilmiş əqd formasına riayət edilməsi tələb olunmur.

Maddə 356. İcazə (qabaqcadan verilmiş razılıq)

Əqdin bağlanmasına verilmiş icazə (qabaqcadan verilmiş icazə), əgər tərəflər ayrı qayda haqqında razılığa gəlməyiblərsə, əqd bağlananadək ləğv edilə bilər. İcazənin (qabaqcadan verilmiş razılığın) ləğv edilməsi barədə hər iki tərəfə məlumat verilməlidir.

Maddə 357. Bəyənmə (sonradan verilən razılıq)

Əqd bağlanmasının bəyənilməsi (sonradan verilən razılıq), əgər bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, əqdin bağlandığı andan geriyə təsir qüvvəsinə malikdir.

Maddə 358. Səlahiyyətsiz şəxsin əşyaya və ya hüquqa dair sərəncam verməsi

358.1. Səlahiyyətsiz şəxsin əşyaya və ya hüquqa dair sərəncam verməsi, əgər səlahiyyətli şəxsin icazəsi (qabaqcadan verilmiş razılığı) ilə həyata keçirilirsə, etibarlıdır.

358.2. Əşyaya və ya hüquqa dair sərəncam verilməsi, əgər səlahiyyətli şəxs bunu bəyənirsə, etibarlı olur.

16-cı fəsil. Əqdlərdə təmsilçilik

Maddə 359. Əqdlərdə təmsilçilik anlayışı

359.1. Əqd təmsilçi vasitəsi ilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilər.

359.2. Özgə mənafeyi üçün olsa da, öz adından fəaliyyət göstərən şəxslər (kommersiya vasitəçiləri, müflisləşmə zamanı müsabiqə idarəçiləri, vərəsəlik zamanı vəsiyyət icraçıları və i.a.), habelə gələcəkdə mümkün ola biləcək əqdlər barəsində danışıqlara başlamağa vəkil edilmiş şəxslər təmsilçi deyildirlər.

359.3. Təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. O, həmçinin kommersiya təmsilçiliyi halı *və qiymətli kağızlar bazarında brokerlik halı* istisna olmaqla, eyni zamanda, təmsilçisi olduğu şəxs barəsində bu cür əqdlər bağlaya bilməz.

359.4. Xarakterinə görə yalnız şəxsən bağlana bilən əqdlərin, eləcə də bu Məcəllədə göstərilən digər əqdlərin təmsilçi vasitəsi ilə bağlanmasına yol verilmir. (3)

Maddə 360. Səlahiyyət verilməyən şəxsin əqd bağlaması

360.1. Əgər başqa şəxsin (təmsil edilənin) adından əqdi bağlayan şəxsin (təmsilçinin), başqa şəxsin (təmsil edilənin) adından hərəkət etmək səlahiyyəti olmazsa və ya bu səlahiyyət aşılarsa, əqdin digər tərəfinin təmsilçidən həmin əqdin icrasını və ya əqdin bağlanması nəticəsində ona dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır, bu şərtlə ki, başqa şəxs (təmsil edilən) əqdi sonradan bəyənməsin.

360.2. Təmsil edilən tərəfindən əqdin sonradan bəyənilməsi onun üçün əqdin bağlandığı andan əqd üzrə mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və onlara xitam verir. (12, 19)

Maddə 361. Kommersiya təmsilçiliyi

361.1. Sahibkarlıq fəaliyyəti sahəsində müqavilələr bağlanarkən sahibkarları daimi və müstəqil surətdə təmsil edən şəxs kommersiya təmsilçisi sayılır.

361.2. Əqddə müxtəlif tərəflərin eyni vaxtda kommersiya təmsilçiliyinə həmin tərəflərin razılığı ilə və bu Məcəllədə nəzərdə tutulan digər hallarda yol verilir. Kommersiya təmsilçisi şərtləşdirilmiş muzdu və tapşırığın icrası zamanı çəkdiyi xərclərin əvəzini müqavilə tərəflərinin bərabər paylarla ödəməsini tələb edə bilər, bu şərtlə ki, onlar arasında razılaşmada ayrı qayda nəzərdə tutulmasın.

361.3. Kommersiya təmsilçiliyi yazılı formada bağlanmış və təmsilçinin səlahiyyətlərinin göstərildiyi müqavilə əsasında, belə göstərişlər olmadıqda isə həmçinin etibarnamə əsasında həyata keçirilir. Kommersiya təmsilçisi ticarət əqdləri barəsində ona bəlli olmuş məlumatların sirrini ona verilmiş tapşırığı icra etdikdən sonra da saxlamağa borcludur.

Maddə 362. Etibarnamə

362.1. Bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi ~~yazılı~~ vəkalət etibarnamə sayılır. Təmsil edilən təmsilçinin əqd bağlaması üçün ~~yazılı~~ vəkaləti bilavasitə müvafiq üçüncü şəxsə təqdim edə bilər.

362.2. Notarial forma tələb edən əqdlərin bağlanması üçün etibarnamə notariat qaydasında təsdiqlənməlidir.

362.3. Aşağıdakılar notariat qaydasında təsdiqlənən etibarnamələrə bərabər tutulur:

362.3.1. hospitallarda, sanatoriyalarda və digər hərbi-müalicə müəssisələrində müalicədə olan hərbi qulluqçuların və başqa şəxslərin həmin müəssisənin rəisi, onun tibbi hissə üzrə müavini, böyük və ya növbətçi həkim tərəfindən təsdiqlənmiş etibarnamələri;

362.3.2. hərbi qulluqçuların etibarnamələri, hərbi hissələrin, birləşmələrin, idarələrin və hərbi təlim məktəblərinin yerləşdiyi, lakin notariat kontorlarının və notariat əməliyyatları aparan digər orqanların olmadığı məntəqələrdə isə həmçinin fəhlə və qulluqçuların, onların ailə üzvlərinin və hərbi qulluqçuların ailə üzvlərinin bu hissənin, birləşmənin, idarənin və ya məktəbin komandiri (rəisi) tərəfindən təsdiqlənmiş etibarnamələri;

362.3.3. azadlıqdan məhrumetmə yerlərində olan şəxslərin müvafiq azadlıqdan məhrumetmə yerinin rəisi tərəfindən təsdiqlənmiş etibarnamələri;

362.3.4. əhalinin sosial müdafiəsi müəssisələrində olan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxslərin həmin müəssisənin müdiriyyəti və ya müvafiq əhalinin sosial müdafiəsi orqanının rəhbəri (onun müavini) tərəfindən təsdiqlənmiş etibarnamələri.

362.4. Əmək haqqının və əmək münasibətləri ilə bağlı digər haqların, müəlliflərin və ixtiraçıların haqlarının, pensiyaların, müavinətlərin və təqaüdlərin, fiziki şəxslərin banklardakı əmanətlərinin və poçt göndərmələrinin, o cümlədən pul və bağlamaların alınması üçün etibarnamə etibar edənin işlədiyi və ya təhsil aldığı təşkilat, onun yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı və müalicə olunduğu stasionar müalicə müəssisəsinin müdiriyyəti tərəfindən də təsdiqlənə bilər.

362.5. Hüquqi şəxs adından etibarnamə onun rəhbərinin və ya nizamnaməsi ilə buna vəkil edilmiş digər şəxsin imzası ilə, həmin təşkilatın möhürü vurulmaqla verilir.

362.6. Teleqrafla, habelə sənədin rabitə işçisi tərəfindən yola salındığı digər rabitə növləri ilə göndərilən etibarnamə rabitə orqanları tərəfindən təsdiqlənir.

362.7. Üçüncü şəxslər onların barəsində hərəkətlərin edilməsi üçün verilmiş, etibar edənin rəsmi rabitə orqanlarının vasitəçiliyi olmadan faksimile və digər rabitə vasitəsi ilə müvəkkilə göndərdiyi etibarnaməni həqiqi saya bilərlər. (12)

Maddə 363. Etibarnamənin müddəti

363.1. *Etibarnamə istənilən müddətə verilə bilər.* Əgər etibarnamədə müddət göstərilməyibsə, o, bağlandığı gündən bir il ərzində qüvvəsini saxlayır. Bağlandığı tarix göstərilməyən etibarnamə əhəmiyyətsizdir.

363.2. Xaricdə hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan və qüvvədə olma müddəti göstərilməyən etibarnamə notarius tərəfindən təsdiqləndikdə, etibarnaməni vermiş şəxs tərəfindən ləğv edilənədək qüvvəsini saxlayır. (12)

Maddə 364. Etibar edilmişi etibaretmə

364.1. Etibarnamə verilmiş şəxs vəkil edildiyi hərəkətləri şəxsən özü etməlidir. O, etibarnamə ilə buna vəkil edildikdə və ya etibarnaməni verənin mənafelərinin qorunması üçün şəraitin buna məcbur etdiyi halda həmin hərəkətlərin icrasını başqa şəxsə etibar edə bilər.

364.2. Səlahiyyətləri başqa şəxsə verən bunu etibarnaməni verənə bildirməli və səlahiyyətləri verdiyi şəxs barəsində ona lazımi məlumat verməlidir. Bu vəzifənin icra

edilməməsi səlahiyyəti verənin üzərinə səlahiyyətləri verdiyi şəxsin hərəkətləri üçün öz hərəkətləri üçün olduğu kimi məsuliyyət qoyur.

~~364.3. Etibar edilmişi başqasına etibaretmə qaydasında verilən etibarnamə, bu Məcəllənin 362.4-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, notariat qaydasında təsdiqlənməlidir.~~

364.4. Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamənin qüvvədə olma müddəti onun verilməsi üçün əsas götürülmüş etibarnamənin qüvvədə olma müddətindən artıq ola bilməz. (12)

Maddə 365. Etibarnaməyə xitam verilməsi

365.1. Etibarnamənin qüvvəsinə aşağıdakılar nəticəsində xitam verilir:

365.1.1. etibarnamənin müddətinin bitməsi;

365.1.2. etibarnamədə nəzərdə tutulan hərəkətlərin həyata keçirilməsi;

365.1.3. etibarnaməni vermiş şəxs tərəfindən onun ləğv edilməsi;

365.1.4. etibarnamə verilmiş şəxsin imtinası;

365.1.5. adından etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi;

365.1.6. adına etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi;

365.1.7. etibarnaməni vermiş fiziki şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması;

365.1.8. etibarnamə verilmiş fiziki şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması.

365.2. Etibarnamə vermiş şəxs istənilən vaxt etibarnaməni və ya başqasına etibaretməni ləğv edə bilər, etibarnamə verilmiş şəxs isə istənilən vaxt ondan imtina edə bilər. Bu hüquqlardan imtinaya dair razılaşma əhəmiyyətsizdir.

Maddə 366. Etibarnaməyə xitam verilməsinin nəticələri

366.1. Etibarnamə vermiş və sonradan onu ləğv etmiş şəxs bu barədə etibarnamə verilmiş şəxsi, habelə etibarnaməni qarşılarında təmsil edilmək üçün verdiyi ona məlum üçüncü şəxsləri xəbərdar etməyə borcludur. Bu Məcəllənin 365.1.5 və 365.1.7-ci maddələrində nəzərdə tutulan əsaslara görə etibarnaməyə xitam verildiyi hallarda etibarnaməni vermiş şəxsin hüquq varisləri üzərinə də eyni ilə bu cür vəzifə qoyulur.

366.2. Etibarnamə verilmiş şəxsin etibarnaməyə xitam verildiyini bildiyi və ya bilməli olduğu vaxtadək yerinə yetirdiyi hərəkətlər nəticəsində əmələ gələn hüquq və vəzifələr etibarnaməni vermiş şəxs və onun hüquq varisləri üçün üçüncü şəxslər barəsində qüvvəsini saxlayır. Əgər üçüncü şəxs etibarnamənin qüvvəsinə xitam verildiyini bilirdisə və ya bilməli idisə, bu qayda tətbiq edilmir.

366.3. Etibarnaməyə xitam verildikdə, onun verildiyi şəxs və ya hüquq varisləri dərhal etibarnaməni qaytarmağa borcludurlar.

366.4. Etibarnaməyə xitam verildikdə, etibar edilmişi başqasına etibaretmə qüvvədən düşür.

Beşinci bölmə. Müddətlər

17-ci fəsil. Müddətlərin hesablanması

Maddə 367. Müddət anlayışı

367.1. Müddət mülki hüquq və vəzifələrin əmələ gəlməsinin, dəyişdirilməsinin və xitamının bağlı olduğu vaxtdır.

367.2. Əqdlə müəyyənləşdirilən və ya məhkəmə tərəfindən təyin edilən müddət təqvim tarixi ilə və ya illər, aylar, həftələr, günlər və ya saatlar ilə hesablanan vaxtın bitməsi ilə müəyyənləşdirilir.

367.3. Müddət həmçinin hökmən baş verməli olan hadisənin göstərilməsi ilə müəyyənləşdirilə bilər.

Maddə 368. Müddətin başlandığını bildirən vaxt

Vaxt dövrü ilə müəyyənləşdirilmiş müddətin axımı təqvim tarixindən və ya müddətin başlanması üçün müəyyənləşdirilmiş hadisənin baş verməsindən sonrakı gün başlanır.

Maddə 369. Müddətin qurtardığını bildirən vaxt

369.1. İllərlə hesablanan müddət müddətin sonuncu ilinin müvafiq ayında və günündə qurtarır. Yarım illə müəyyənləşdirilmiş müddətə aylarla hesablanan müddətlər üçün qaydalar tətbiq edilir. Həm də yarım il altı aya bərabər sayılır, yarım il isə ilin əvvəlindən hesablanmağa başlanır.

369.2. Rüblərlə hesablanan müddətə aylarla hesablanan müddətlər üçün qaydalar tətbiq edilir. Həm də rüb üç aya bərabər sayılır, rüblər isə ilin əvvəlindən hesablanmağa başlanır.

369.3. Aylarla hesablanan müddət müddətin sonuncu ayının müvafiq günündə qurtarır. Aylarla hesablanan müddətin qurtarması müvafiq günü olmayan aya düşdükdə müddət həmin ayın sonuncu günü qurtarır.

369.4. Yarım ayla müəyyənləşdirilmiş müddət günlərlə hesablanan müddət kimi qiymətləndirilir və on beş günə bərabər sayılır.

369.5. Həftə ilə hesablanan müddət yeddi günə bərabərdir və müddətin sonuncu həftəsinin müvafiq günündə qurtarır.

369.6. Günlərlə hesablanan müddət müddətin sonuncu gününün başa çatması ilə bir vaxtda qurtarır.

369.7. Əgər müddət bir və ya bir neçə tam aydan və ayın yarısından ibarətdirsə, on beş gün axırda hesablanmalıdır.

369.8. Müddət uzadıldıqda yeni müddət bitmiş müddətin sonundan hesablanır.

369.9. Əgər vaxt aylarla və ya illərlə, özü də elə tərzdə müəyyənləşdirilsə ki, onların birgə qurtarmasına zərurət yoxdur, onda ay otuz günlə, il isə üç yüz altmış beş günlə hesablanır.

369.10. Ayın birinci günü ayın başlanğıcı, on beşinci günü ayın ortası, sonuncu günü isə ayın axırı sayılır.

Maddə 370. Qeyri-iş ~~(istirahət və ya bayram)~~ günlərində müddətlərin hesablanması

370.1. Əgər hərəkət müəyyən gündə yerinə yetirilməlidirsə və həmin gün qeyri-iş ~~(istirahət və ya bayram)~~ günüdürsə, hərəkət növbəti iş günündə yerinə yetirilməlidir.

370.2. Əgər müddətin sonuncu günü qeyri-iş gününə düşürsə, ondan sonrakı iş günü müddətin qurtardığı gün sayılır. (37)

Maddə 371. Müddətin sonuncu günündə hərəkətlərin yerinə yetirilməsi qaydası

371.1. Əgər müddət hər hansı hərəkətin yerinə yetirilməsi üçün təyin edilmişdirsə, həmin hərəkət müddətin sonuncu günündə saat iyirmi dördədək yerinə yetirilə bilər. Lakin əgər həmin hərəkət təşkilatda yerinə yetirilməlidirsə, onda müddət müəyyənləşdirilmiş qaydalara görə həmin təşkilatda müvafiq əməliyyatların dayandırıldığı saatda qurtarır.

371.2. Müddətin sonuncu günündə saat iyirmi dördədək rabitə təşkilatına təhvil verilmiş yazılı ərizələr və bildirişlər vaxtında verilmiş sayılır.

18-ci fəsil. İddia müddəti

Maddə 372. İddia müddəti anlayışı

372.1. Başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir.

372.2. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır.

Maddə 373. İddia müddətləri (km2)

373.1. Ümumi iddia müddəti on il təşkil edir.

373.2. Müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti isə altı ildir.

373.3. Vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti üç ildir.

373.4. Tələblərin ayrı-ayrı növləri üçün bu Məcəllə ilə ümumi müddətə nisbətən qısaldılmış və ya uzadılmış xüsusi iddia müddətləri təyin edilə bilər.

373.5. Bu Məcəllənin bu fəslində müəyyənləşdirilmiş qaydalar, əgər qanunla ayrı hal müəyyənləşdirilməyibsə, xüsusi iddia müddətlərinə də şamil edilir.

Maddə 374. İddia müddətlərinin müəyyənləşdirilməsi

374.1. Əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, iddia müddətləri və onların hesablanması qaydası bu Məcəllə ilə müəyyənləşdirilir.

374.2. İddia müddətləri axımının dayandırılması və kəsilməsi əsasları bu Məcəllə ilə müəyyənləşdirilir. (12)

Maddə 375. İddia müddətinin tətbiqi

375.1. Hüququn müdafiəsi haqqında tələb iddia müddətinin keçməsindən asılı olmayaraq məhkəmə tərəfindən baxılmağa qəbul edilir.

375.2. Məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır.

Maddə 376. İddia müddətinin əlavə tələblərə tətbiqi

Əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər (girov, dəbbə pulu, saxlama, zaminlik, beh) üzrə də iddia müddəti keçir.

Maddə 377. İddia müddətinin başlanması

377.1. İddia müddətinin axımı şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlanır. Bu qaydadan istisnalar bu Məcəllə ilə müəyyənləşdirilir.

377.2. İcra müddəti müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı icra müddəti bitdikdə başlanır.

377.3. İcra müddəti müəyyənləşdirilməmiş və ya tələbetmə məqamı ilə müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı kreditorun öhdəliyi icra etmək tələbini irəli sürmək hüququnun əmələ gəldiyi andan başlanır, borcluya həmin tələbin icrası üçün güzəştli müddət verildikdə isə iddia müddəti göstərilən müddət bitdikdən sonra hesablanmağa başlanır.

377.4. Reqres öhdəliklər üzrə iddia müddətinin axımı əsas öhdəliyin icrası anından başlanır.

Maddə 378. Öhdəlikdə şəxslər dəyişilərkən iddia müddəti

Öhdəlikdə şəxslərin dəyişilməsi iddia müddətinin və onun hesablanması qaydasının dəyişilməsinə səbəb olmur.

Maddə 379. İddia müddəti axımının dayandırılması

379.1. İddia müddətinin axımı aşağıdakı hallarda dayandırılır:

379.1.1. iddianın irəli sürülməsinə fövqəladə və həmin şəraitdə qarşısı alına bilməyən hal (qarşısıalınmaz qüvvə) mane olduqda;

379.1.2. iddiaçı və ya cavabdeh hərbi vəziyyətə keçirilmiş silahlı qüvvələrin tərkibində olduqda;

379.1.3. müvafiq icra hakimiyyəti orqanı öhdəliklərin icrası üçün möhlət (moratorium) müəyyənləşdirdikdə;

379.1.4. fəaliyyət qabiliyyəti olmayan şəxsin qanuni təmsilçisi olmadıqda;

379.1.5. müvafiq münasibəti tənzimləyən qanunun və ya digər normativ hüquqi aktın qüvvəsi dayandırıldıqda.

379.2. Fiziki şəxslərin həyatına və ya sağlamlığına dəymiş zərərin əvəzinin ödənilməsi haqqında iddialar üzrə iddia müddətinin axımı həmçinin fiziki şəxsin müvafiq orqana pensiya və müavinət təyin edilməsi haqqında müraciəti ilə əlaqədar olaraq pensiya və ya müavinət təyin edilənədək və ya təyin etməkdən imtina olunanadək dayandırılır.

379.3. İddia müddətinin axımı bir şərtlə dayandırılır ki, bu maddədə göstərilmiş hallar iddia müddətinin son altı ayında, həmin müddət altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddəti ərzində əmələ gəlsin və ya mövcud olmaqda davam etsin.

379.4. Müddətin dayandırılmasına əsas vermiş halın sona çatdığı gündən müddətin axımı davam edir. Müddətin qalan hissəsi altı aya qədər uzadılır, iddia müddəti altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddətinə qədər uzadılır.

379.5. Nikahın mövcud olduğu dövrdə ərlə arvad arasındakı tələblər üzrə iddia müddətinin axımı dayandırılır. Uşaqlar yetkinlik yaşına çatanadək uşaqlarla valideynlər arasındakı tələblər üzrə, habelə bütün qəyyumluq dövründə qəyyumlarla (himayəçilərlə) qəyyumluqda (himayədə) olanlar arasındakı tələblər üzrə də eyni qayda tətbiq edilir.

379.6. Əgər tələbi qanuni təmsilçisi olmayan məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan şəxs irəli sürürsə, iddia müddəti həmin şəxs tam fəaliyyət qabiliyyətli olanadək və ya onun üçün təmsilçi təyin edilənədək dayandırılmış sayılır.

Maddə 380. İddia müddəti axımının kəsilməsi

380.1. Müəyyənləşdirilmiş qaydada iddia irəli sürüldükdə, habelə borclu şəxs borcu etiraf etməsini göstərən hərəkətlər etdikdə iddia müddətinin axımı kəsilir.

380.2. Fasilədən sonra iddia müddəti yenidən başlanır. Fasiləyə qədər keçmiş vaxt yeni müddətə daxil edilmir.

Maddə 381. İddianın baxılmamış saxlandığı halda iddia müddətinin axımı

381.1. Əgər iddia məhkəmə tərəfindən baxılmamış saxlanmışdırsa, iddia irəli sürülənədək başlanmış iddia müddətinin axımı ümumi qaydada davam edir.

381.2. Əgər cinayət işində irəli sürülmüş iddia məhkəmə tərəfindən baxılmamış saxlanmışdırsa, iddia irəli sürülənədək başlanmış iddia müddətinin axımı iddianı baxılmamış saxlayan hökm qanuni qüvvəyə minənədək dayandırılır. Müddətin

dayandırıldığı vaxt iddia müddətinə daxil edilmir. Bu zaman müddətin qalan hissəsi altı aydan az olduqda altı aya qədər uzadılır.

Maddə 382. İddia müddətinin bərpası

İddiaçının şəxsiyyəti ilə bağlı hallara görə (ağır xəstəlik, köməksiz vəziyyət, savadsızlıq və i.a.) iddia müddətinin ötürülməsi səbəbini məhkəmənin üzrlü saydığı müstəsna hallarda fiziki şəxsin pozulmuş hüququ müdafiə edilməlidir. İddia müddətinin ötürülməsi səbəbləri iddia müddətinin son altı ayında, həmin müddət altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddəti ərzində baş verdikdə üzrlü sayıla bilər.

Maddə 383. İddia müddəti bitdikdən sonra vəzifənin icrası

Borclu və ya digər mükəlləfiyyətli şəxs vəzifəsini iddia müddəti bitdikdən sonra icra etmişsə, icra zamanı icra müddətinin bitdiyini bilməmiş olsa da, icra etdiyini geri tələb edə bilməz.

Maddə 384. İddia müddətinin şamil edilmədiyi tələblər

384.0. İddia müddəti aşağıdakılara şamil edilmir:

384.0.1. şəxsi qeyri-əmlak hüquqlarının və digər qeyri-maddi nemətlərin müdafiəsi haqqında tələblər;

384.0.2. əmanətlərin verilməsi haqqında əmanətçilərin banka tələbləri;

384.0.3. fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər. Lakin bu cür zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəldiyi andan üç il *bitdikdən sonra* irəli sürülmüş tələblər ən çoxu iddia irəli sürülməzdən əvvəlki üç il üçün ödənilir;

384.0.4. mülkiyyətçinin və ya digər sahibin onun hüququnun hər cür pozuntularının aradan qaldırılması haqqında tələbləri, özü də bu pozuntular sahiblikdən məhrumetmə ilə birləşdirilmiş olmasa belə;

384.0.5. dövlət və ya bələdiyyə orqanının və ya onların vəzifəli şəxslərinin əmlaka sahiblik, ondan istifadə və ya ona dair sərəncam üzrə mülkiyyətçinin hüquqlarını pozmuş aktının etibarsız sayılması haqqında mülkiyyətçinin tələbləri;

384.0.6. bu Məcəllə ilə müəyyənləşdirilmiş hallarda digər tələblər. (12)

Altıncı bölmə. Öhdəlik hüququnun ümumi hissəsi

19-cu fəsil. Öhdəliklər haqqında ümumi müddəalar

Maddə 385. Öhdəlik anlayışı

385.1. Öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

385.2. Öz məzmunundan və xarakterindən asılı olaraq, öhdəlik tərəflərdən hər birinin üzərinə *istər müqavilə münasibətləri zamanı, istərsə də belə münasibətlərdən sonra* digər tərəfin hüquqlarına və əmlakına xüsusi qayğı göstərmək vəzifəsini qoya bilər. (12)

Maddə 386. Öhdəliklərin əmələ gəlməsi əsasları

386.1. Öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır.

386.2. Bu Məcəllənin 385-ci maddəsində nəzərdə tutulmuş öhdəliklər müqavilənin hazırlanması əsasında da əmələ gələ bilər.

386.3. Danışıqların iştirakçısı digər iştirakçının təqsirli hərəkəti nəticəsində bağlanmayan müqavilənin bağlanması üçün çəkdiyi xərclərin əvəzini ödəməyi digər iştirakçıdan tələb edə bilər.

386.4. Elektron formada bağlanan əqdlərdən irəli gələn öhdəliklərin məzmunu və icrası ilə bağlı məsələlər elektron ticarət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulanlar istisna olmaqla, bu Məcəllə ilə tənzimlənir. (15)

Maddə 387. Öhdəliyin tərəfləri

387.1. Öhdəlikdə onun tərəflərindən hər biri — kreditor və ya borclu kimi bir şəxs və ya eyni zamanda, bir neçə şəxs iştirak edə bilər. Öhdəlikdə borclunun tərəfində iştirak edən şəxslərdən birinə qarşı kreditorun tələblərinin etibarsızlığı, eləcə də bu cür şəxsə qarşı tələb üzrə iddia müddətinin keçməsi özlüyündə kreditorun belə şəxslərin qalanlarına qarşı tələblərinə toxunmur.

387.2. Əgər müqavilə üzrə tərəflərdən hər biri digər tərəfin xeyrinə vəzifə daşıyırsa, o, digər tərəfin xeyrinə etməli olduqları barəsində həmin tərəfin borclusu və eyni zamanda, ondan tələb etməyə hüququ çatanlar barəsində onun kreditoru sayılır.

387.3. Öhdəlik tərəf kimi onda iştirak etməyən şəxslər (üçüncü şəxslər) üçün vəzifələr yaratmır. Tərəflərin razılaşmasında nəzərdə tutulmuş hallarda öhdəlik üçüncü şəxslər üçün öhdəliyin bir və ya hər iki tərəfi barəsində hüquqlar yarada bilər.

387.4. Tərəflərdən biri dövlət qulluqçusunun işlədiyi dövlət orqanı olan əqdlərdə həmin dövlət qulluqçusu digər tərəf ola bilməz. (27)

Maddə 388. Məlumat vermək öhdəliyi

Öhdəlikdən bu və ya başqa məlumatı almaq hüququ irəli gələ bilər. Məlumat verilməsi onun öhdəliyin məzmununu müəyyənləşdirmək üçün əhəmiyyətli olduğu və kontragentin belə məlumatı öz hüquqlarına xələl gətirmədən verə biləcəyi halda da təmin edilməlidir. Məlumatı alan onun verilməsi xərclərinin əvəzini mükəlləfiyyətli şəxsə ödəməlidir.

20-ci fəsil. Müqavilə hüququ

§ 1. Müqavilə anlayışı və şərtləri

Maddə 389. Müqavilə anlayışı

389.1. Mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

389.2. Müqavilələrə iki və çoxtərəfli əqdlərə dair qaydalar tətbiq edilir.

389.3. Bu fəslin qaydalarında və müqavilələrin ayrı-ayrı növlərinə dair bu Məcəllənin qaydalarında ayrı hal nəzərdə tutulmayıbsa, müqavilədən əmələ gələn öhdəliklərə öhdəliklər haqqında ümumi müddəalar tətbiq edilir.

389.4. İkidən çox tərəfin bağladığı müqavilələrə müqavilə haqqında ümumi müddəalar belə bir şərtlə tətbiq edilir ki, bu, həmin müqavilələrin çoxtərəfli xarakterinə zidd olmasın.

Maddə 390. Müqavilə azadlığı

390.1. Fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar bu Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər.

390.2. Müqavilə onun bağlandığı vaxt qüvvədə olan qanunla və digər hüquqi aktlar ilə müəyyənləşdirilmiş, tərəflər üçün məcburi qaydalara (imperativ normalara) uyğun gəlməlidir. Əgər müqavilə bağlandıqdan sonra onu bağlayarkən qüvvədə olmuş qaydalardan fərqlənən, tərəflər üçün məcburi başqa qaydalar müəyyənləşdirən qanun qəbul edilmişsə, bağlanmış müqavilənin şərtləri qüvvəsini saxlayır, amma qanunda onun qüvvəsinin əvvəllər bağlanmış müqavilələrdən əmələ gələn münasibətlərə şamil olunmasının müəyyənləşdirildiyi hallar istisna təşkil edir.

390.3. Müqavilə bağlamaq vəzifəsinin bu Məcəllədə və ya könüllü götürülmüş öhdəlikdə nəzərdə tutulduğu hallar istisna olmaqla, müqavilə bağlamağa məcbur etməyə yol verilmir.

390.4. Tərəflər bu Məcəllədə nəzərdə tutulmuş müxtəlif müqavilələrin ünsürlərini əhatə edən müqavilə (qarışıq müqavilə) bağlaya bilərlər. Tərəflərin razılaşmasından və ya qarışıq müqavilənin mahiyyətindən ayrı hal irəli gəlmirsə, qarışıq müqavilə üzrə tərəflərin münasibətlərinə qarışıq müqavilədə ünsürləri olan müqavilələrə dair qaydalar müvafiq hissələrdə tətbiq edilir.

390.5. Müqavilə şərtləri tərəflərin istəyi ilə müəyyənləşdirilir, amma müvafiq şərtin məzmununun bu Məcəllədə göstərildiyi hallar istisna təşkil edir.

390.6. Müqavilə şərti tərəflərin razılaşması ilə ayrı qaydanın müəyyənləşdirilmədiyi halda tətbiq edilən normada (dispozitiv norma) nəzərdə tutulubsa, tərəflər razılaşma əsasında bu normanın tətbiqini istisna edə bilər və ya onun nəzərdə tutduğundan fərqli şərt müəyyənləşdirə bilərlər. Bu cür razılaşma olmadıqda müqavilə şərti dispozitiv norma ilə müəyyənləşdirilir.

390.7. Əgər müqavilə şərti onun iştirakçıları tərəfindən və ya dispozitiv norma ilə müəyyənləşdirilməyibsə, müvafiq şərtlər tərəflərin münasibətlərinə tətbiq edilə bilən işgüzar adətlərlə müəyyənləşdirilir.

Maddə 391. Gələcək əmlak barəsində bağlanmış müqavilənin etibarsızlığı

Tərəflərdən birinin özünün bütün gələcək əmlakını və ya onun bir hissəsini digər tərəfə verməyi, yaxud onu uzufruktla yüklü etməyi öhdəsinə götürdüyü müqavilə etibarsızdır, amma müqavilənin gələcək əmlakın ayrı-ayrı predmetləri barəsində bağlandığı hallar istisna təşkil edir.

Maddə 392. Miras əmlak barəsində bağlanmış müqavilənin etibarsızlığı

392.1. Sağ olan şəxsin miras əmlakı barəsində başqa şəxslərin bağladığı müqavilə etibarsızdır. Eyni qayda sağ olan şəxsin miras əmlakından məcburi paylar və (və ya) onun vəsiyyət tapşırığı barəsində bağlanmış müqavilələrə də tətbiq edilir.

392.2. 392.1-ci maddənin qaydası qanun üzrə gələcək vərəsələrin qanun üzrə vərəsəlik zamanı onlardan birinin payı haqqında və məcburi pay haqqında bağladıqları müqavilələrə tətbiq edilmir.

Maddə 393. Əmlakın verilməsi barədə müqavilə

Tərəflərdən birinin hazırda olan əmlakı bütünlüklə və ya onun bir hissəsini digər tərəfə verməyi, yaxud onu uzufruktla yüklü etməyi öhdəsinə götürdüyü müqavilə notariat qaydasında təsdiqlənməlidir, amma müqavilənin hazırda olan əmlakın ayrı-ayrı predmetləri barəsində bağlandığı hallar istisna təşkil edir.

Maddə 394. Daşınmaz əşyanın özgəninkiləşdirilməsi barədə müqavilənin bağlanması qaydası

Bir tərəfin daşınmaz əşyaya mülkiyyəti digər tərəfə vermək və ya əldə etmək barədə öhdəlik götürdüyü müqavilə notariat qaydasında təsdiqlənməlidir.

Maddə 395. Əşyanın yüklü edilməsi barədə müqavilənin hüdudları

Əgər şəxs öz əşyasını özgəninkiləşdirmək və ya yüklü etmək barəsində öhdəlik götürürsə, bu öhdəlik müqavilədə ayrı qayda nəzərdə tutulmadıqda, əşyanın ləvazimatına da şamil edilir.

Maddə 396. Müqavilə öhdəlikləri barədə qaydaların qeyri-müqavilə öhdəliklərinə tətbiqi

Öhdəliyin xarakterindən ayrı hal irəli gəlmirsə, müqavilə öhdəlikləri barədə qaydalar digər qeyri-müqavilə öhdəliklərinə də tətbiq edilir.

Maddə 397. Əvəzli və əvəzsiz müqavilələr

397.1. Müqaviləyə görə tərəf öz vəzifələrinin icrası müqabilində haqq və ya digər qarşılıqlı əvəz almalıdırsa, həmin müqavilə əvəzli sayılır.

397.2. Müqaviləyə görə bir tərəf digər tərəfdən haqq və ya digər qarşılıqlı əvəz almadan ona nə isə verməyi öhdəsinə götürürsə, həmin müqavilə əvəzsiz sayılır.

397.3. Bu Məcəllədən, müqavilənin məzmunundan və ya mahiyyətindən ayrı hal irəli gəlmirsə, müqavilənin əvəzli olduğu ehtimal edilir.

Maddə 398. Qiymət

398.1. Müqavilənin icrası tərəflərin razılaşması ilə müəyyənləşdirilmiş qiymət üzrə ödənilir. Qanunda nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən və ya tənzimlənən qiymətlər (tariflər, normalar, dərəcələr və s.) tətbiq edilir.

398.2. Müqavilə bağlandıqdan sonra qiymətin dəyişdirilməsinə müqavilədə və ya bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada yol verilir.

398.3. Əvəzli müqavilədə qiymət nəzərdə tutulmayıbsa və müqavilə şərtlərinə əsasən müəyyənləşdirilə bilməzsə, müqavilənin icrası üçün pul müqayisəyə gələ bilən hallarda oxşar mallar, işlər və ya xidmətlər üçün adətən alınan qiymət üzrə ödənilməlidir.

Maddə 399. Müqavilənin qüvvəsi

399.1. Müqavilə bağlandığı andan qüvvəyə minir və tərəflər üçün məcburi olur.

399.2. Tərəflər müəyyənləşdirə bilərlər ki, bağladıqları müqavilənin şərtləri onların müqavilə bağlanana qədər yaranmış münasibətlərinə də tətbiq edilir.

399.3. Müqavilədə nəzərdə tutula bilər ki, müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur. Belə şərtin olmadığı müqavilə öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə sayılır.

399.4. Müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəfləri müqavilənin həmin müddət qurtarana qədər yol verilmiş pozulmasına görə məsuliyyətdən azad etmir.

Maddə 400. Ümumi müqavilə

400.1. Əgər müqavilə tərəflərindən biri bazarda üstün mövqe tutursa, o, fəaliyyətin bu sahəsində kontragentlə müqavilə bağlamaqdan əsassız imtina etməməli, habelə kontragentə qeyri-bərabər şərtlərini təklif etməməlidir.

400.2. Sahibkarlıq məqsədi olmadan və ya özünün zəruri ehtiyaclarının ödənilməsi üçün əmlak və ya xidmət əldə edən və ya onlardan istifadə edən şəxslə, əgər digər tərəf özünün sahibkarlıq fəaliyyəti həddində hərəkət edirsə, müqavilə bağlamaqdan əsassız imtina edilə bilməz. (12)

~~***Maddə 401. Qoşulma müqaviləsi***~~

~~401.1. Qoşulma müqaviləsi elə müqavilədir ki, onun şərtlərini tərəflərdən biri formulyarlarda və ya başqa standart formalarda müəyyənləşdirir və bu şərtləri digər tərəf yalnız təklif olunmuş müqaviləyə bütövlükdə qoşulmaq yolu ilə qəbul edə bilir.~~

~~401.2. Əgər qoşulma müqaviləsi bu Məcəlləyə zidd olmasa da, ona qoşulmuş tərəfi bu növ müqavilələr üzrə adətən verilən hüquqlardan məhrum edirsə, öhdəlikləri pozmağa görə digər tərəfin məsuliyyətini istisna edir və ya məhdudlaşdırırsa, yaxud qoşulmuş tərəf üçün aşkar ağır olan başqa şərtlər nəzərdə tutursa, özü də müqavilə şərtlərinin müəyyənləşdirilməsində həmin tərəfin iştirak etmək imkanı olsa idi, o, özünün ağlabatan mənafeyi əsasında bu şərtləri qəbul edə bilməzdisə, müqaviləyə qoşulmuş tərəf müqavilənin ləğvini və ya dəyişdirilməsini tələb edə bilər.~~

~~401.3. 401.2-ci maddədə nəzərdə tutulmuş hallar olduqda, öz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar müqaviləyə qoşulmuş tərəfin müqaviləni ləğv etmək və ya dəyişdirmək haqqında irəli sürdüyü tələb, əgər həmin tərəf müqavilənin hansı şərtlərlə bağlandığını bilirdisə və ya bilməli idisə, yerinə yetirilməməlidir.~~ (3)

Maddə 402. İlkin müqavilə

402.1. İlkin müqaviləyə görə tərəflər həmin müqavilədə nəzərdə tutulmuş şərtlərlə əmlakın verilməsi, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi barədə gələcəkdə müqavilə (əsas müqavilə) bağlamağı öhdələrinə götürürlər.

402.2. İlkin müqavilə əsas müqavilə üçün nəzərdə tutulmuş formada~~, əsas müqavilənin forması müəyyənləşdirilmədikdə isə yazılı formada~~ bağlanır. İlkin müqavilənin formasına dair qaydalara əməl edilməməsi onun əhəmiyyətsizliyinə səbəb olur.

402.3. İlkin müqavilədə əsas müqavilənin predmetini, habelə digər mühüm şərtlərini müəyyənləşdirməyə imkan verən şərtlər göstərilməlidir.

402.4. İlkin müqavilədə tərəflərin əsas müqaviləni hansı müddətdə bağlamağı öhdələrinə götürdükləri göstərilir. Əgər ilkin müqavilədə bu müddət müəyyənləşdirilməyibsə, əsas müqavilə ilkin müqavilənin bağlandığı andan bir il müddətində bağlanmalıdır.

402.5. Əgər əsas müqavilə tərəflərin onu bağlamalı olduğu müddət qurtarana qədər bağlanmazsa və ya tərəflərdən biri digər tərəfə həmin müqaviləni bağlamaq barədə təklif göndərməzsə, ilkin müqavilədə nəzərdə tutulmuş öhdəliklərə xitam verilir.

402.6. Niyyət razılaşmasında (niyyət protokolunda və s.) tərəflərin ona ilkin müqavilə qüvvəsi vermək iradəsi birbaşa ifadə olunmayıbsa, o, mülki hüquq nəticələri doğurmur. (12)

Maddə 403. Üçüncü şəxsin xeyrinə müqavilə

403.1. Üçüncü şəxsin xeyrinə müqavilə elə müqavilədir ki, onun tərəfləri borclunun icranı müqavilədə göstərilmiş və ya göstərilməmiş, öhdəliyin öz xeyrinə icrasını borcludan tələb etmək hüququ olan üçüncü şəxsə həyata keçirməli olduğunu müəyyənləşdirirlər.

403.2. Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, yaxud öhdəliyin mahiyyətindən hər hansı ayrı hal irəli gəlmirsə, üçüncü şəxsin xeyrinə bağlanmış müqavilənin icrasını həm kreditor, həm də üçüncü şəxs tələb edə bilər.

403.3. Xüsusi qeyd-şərt olmadıqda, işin hallarına, o cümlədən onun məqsədinə əsasən aşağıdakılar müəyyənləşdirilməlidir:

403.3.1. üçüncü şəxs hüquq əldə etməlidir, yoxsa əldə etməməlidir;

403.3.2. bu hüquq dərhal, yoxsa müəyyən ilkin şərtlər olduqda əmələ gəlir;

403.3.3. üçüncü şəxsin razılığı olmadan onun hüququna xitam verməyə və ya hüququnu dəyişməyə müqavilənin tərəflərinin ixtiyarı var, yoxsa yox.

403.4. Müqavilədə üçüncü şəxsin xeyrinə qeyd-şərt qoymuş tərəf, kontragentin razılığından asılı olmayaraq, müqavilədə göstərilən üçüncü şəxsi dəyişmək hüququnu saxlayır.

403.5. Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, üçüncü şəxsin müqavilə üzrə öz hüququndan istifadə etmək niyyətini borcluya bildirdiyi andan tərəflər bağladıqları müqaviləni üçüncü şəxsin razılığı olmadan ləğv edə və ya dəyişdirə bilməzlər.

403.6. Borclu kreditora qarşı irəli sürə biləcəyi etirazları müqavilədə üçüncü şəxsin tələbinə qarşı irəli sürə bilər.

403.7. Üçüncü şəxs müqavilə üzrə ona verilmiş hüquqdan imtina etdikdə, kreditor həmin hüquqdan, əgər bu Məcəlləyə və müqaviləyə zidd deyilsə, istifadə edə bilər.

Maddə 404. Müqavilənin təfsiri

404.1. Müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır.

404.2. Bu zaman bütün müvafiq hallar, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətləri nəzərə alınır.

404.3. Əgər müqavilənin ayrı-ayrı ifadələri müxtəlif cür təfsir edilə bilərsə, müqaviləni bağlamış tərəflərin yaşayış yerində adətən qəbul olunmuş mənaya üstünlük verilir. Tərəflərin yaşayış yerləri müxtəlif olduqda, akseptantın yaşayış yeri həlledici sayılır.

404.4. Müqavilədə bir-birini istisna edən və ya çoxmənalı ifadələr olduqda, müqavilənin məzmununa digərlərindən daha çox uyğun gələn mənaya üstünlük verilməlidir.

404.5. Qarışıq müqavilələr təfsir edilərkən, icranın mahiyyətinə daha yaxın olan və ona uyğun gələn müqavilələr haqqında normalar tətbiq edilir.

Maddə 404-1. Dövlət satınalmaları müqaviləsi

Dövlət satınalmaları müqaviləsinə dair münasibətlər Azərbaycan Respublikasının dövlət satınalmaları haqqında qanunvericiliyinə uyğun tənzimlənir. (1)

§ 2. Müqavilənin bağlanması

Maddə 405. Müqavilənin mühüm şərtləri barəsində razılaşma

405.1. Tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə, müqavilə bağlanmış sayılır. Müqavilənin predmetinə dair şərtlər, bu Məcəllədə həmin növ müqavilələr üçün mühüm və ya zəruri adlandırılmış şərtlər, habelə tərəflərdən birinin müraciəti ilə barəsində razılaşma əldə edilməli olan bütün şərtlər mühüm sayılır.

405.2. Müqavilə tərəflərdən birinin oferta (müqavilə bağlamaq təklifi) göndərməsi və digər tərəfin onu aksept etməsi (təklifin qəbulu) vasitəsi ilə bağlanır.

Maddə 406. Müqavilənin forması

406.1. Müqavilə əqdlərin bağlanması üçün nəzərdə tutulan hər hansı formada bağlana bilər, bu şərtlə ki, bu Məcəllədə həmin növ müqavilə üçün müəyyən forma təyin edilməsin. ~~Müqavilənin etibarlığı üçün bu Məcəllədə müəyyən forma təyin edildikdə və ya müqavilə üçün bu formanı tərəflər nəzərdə tutduqda, müqavilə yalnız həmin formaya dair tələbin icrasından sonra qüvvəyə minir.~~

406.2. Əgər tərəflər müqaviləni müəyyən formada bağlamaq barəsində şərtləşiblərsə, həmin müqavilə növü üçün bu Məcəllə ilə belə forma tələb edilməsə də, müqavilə şərtləşdirilmiş formaya salındıqdan sonra bağlanmış sayılır.

406.3. Yazılı formada müqavilə tərəflərin imzaladığı bir sənədin tərtibi yolu ilə, habelə poçt, teleqraf, teletayp, telefon, elektron rabitəsi və ya sənədin müqavilə üzrə tərəfdən gəldiyini dürüst müəyyənləşdirməyə imkan verən digər rabitə vasitəsi ilə sənədlər mübadiləsi yolu ilə bağlana bilər. (12)

Maddə 407. Müqavilənin bağlanması anı

407.1. Müqavilə oferta göndərmiş şəxsin onun akseptini aldığı anda bağlanmış sayılır.

407.2. Sadə yazılı müqavilə müvafiq qaydada imzalandığı, notarial qaydada təsdiq edilməli müqavilə isə müvafiq qaydada təsdiq edildiyi andan bağlanmış sayılır.

~~407.3. Müqavilə üzrə hüquqlar dövlət qeydiyyatına alınmalı olduqda, müqavilə bu hüquqların qeydə alındığı andan bağlanmış sayılır.~~ (12)

Maddə 408. Oferta

408.1. Müqavilə bağlanması haqqında təklif (oferta) o zaman verilmiş sayılır ki, bir və ya bir neçə şəxsə ünvanlanmış bu təklifdə onu vermiş şəxsin (oferentin) razılıq (aksept) olduqda, öz təklifinin icrasına hazır olduğu ifadə edilsin. Ofertada müqavilənin mühüm şərtləri əks olunmalıdır.

408.2.Şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklifdə *(o cümlədən, reklamda)* bilavasitə ayrı qayda göstərilməyibsə, bu təklif ofertaya dəvət sayılır.

408.3. Oferta ünvan sahibinin onu aldığı andan onu göndərmiş şəxsi bağlı edir. Ofertanın geri götürülməsinə dair bildiriş ofertadan əvvəl və ya onun özü ilə eyni vaxtda daxil olduqda, oferta verilməmiş sayılır.

~~408.4. Ünvanında olan şəxsə verilmiş oferta dərhal qəbul və ya rədd edilməlidir.~~

~~408.5. Ünvanında olmayan şəxsə verilmiş oferta yalnız oferta vermiş şəxsin adətən cavab gözləyə biləcəyi müddətədək qəbul edilə bilər.~~

408.6. Ünvan sahibinin aldığı oferta, əgər ofertanın özündə ayrı qayda şərtləşdirilməyibsə, yaxud təklifin mahiyyətindən və ya verildiyi şəraitdən ayrı qayda irəli gəlmirsə, onun aksepti üçün müəyyənləşdirilmiş müddət ərzində geri götürülə bilməz.

~~408.7.Şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış reklam və digər təkliflər ofertaya dəvət sayılır, bu şərtlə ki, təklifdə ayrı qayda birbaşa göstərilməsin.~~

408.7. Əgər müqavilənin bütün mühüm şərtlərini əks etdirən təklifdən onu irəli sürmüş şəxsin təklifdə göstərilmiş şərtlər ilə müqaviləni cavab verən istənilən şəxslə bağlamaq iradəsi aydın görünürsə, belə təklif ümumi oferta sayılır. (3, 11)

Maddə 409. Aksept

409.1. Ofertanın ünvanlandığı şəxsin ofertanı qəbul etməsi haqqında cavabı aksept sayılır. Aksept tam və qeyd-şərtsiz olmalıdır.

409.2. Əgər oferent aksept üçün müddət müəyyənləşdiribsə, aksept yalnız həmin müddətdə həyata keçirilə bilər.

409.3. Əgər bu Məcəllədən, işgüzar adətdən və ya tərəflərin əvvəlki işgüzar münasibətlərindən ayrı qayda irəli gəlmirsə, susmaq aksept sayılmır.

409.4. Əgər bu Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa və ya ofertada ayrı qayda göstərilməyibsə, oferta almış şəxsin onun aksepti üçün müəyyənləşdirilmiş müddətdə ofertada göstərilən müqavilə şərtlərini yerinə yetirmək (malları yola salmaq, xidmətlər göstərmək, işlər görmək, müvafiq məbləği ödəmək və s.) üçün hərəkətlər etməsi aksept sayılır.

409.5. Aksept oferentə gec çatdıqda və akseptdən onun vaxtında göndərildiyi məlum olduqda, aksept yalnız o halda gecikmiş sayıla bilər ki, oferent bu barədə digər tərəfə dərhal məlumat vermiş olsun. Əgər oferta göndərmiş tərəf digər tərəfin gec alınmış akseptini qəbul etdiyi barədə ona dərhal məlumat verərsə, müqavilə bağlanmış sayılır.

409.6. Akseptin geri götürülməsi haqqında bildiriş oferta göndərmiş şəxsə akseptdən əvvəl və ya onunla bir vaxtda çatdıqda, aksept alınmamış sayılır.

409.7. Əgər ofertada aksept üçün müddət müəyyənləşdirilibsə, ofertanı göndərmiş şəxs aksepti ofertada göstərilən müddət ərzində aldıqda müqavilə bağlanmış sayılır.

409.8. Əgər yazılı ofertada aksept üçün müddət müəyyənləşdirilməyibsə, müqavilə bu şərtlə bağlanmış sayılır ki, oferta göndərmiş şəxs aksepti bu Məcəllədə müəyyənləşdirilmiş müddət qurtarana qədər, belə müddət müəyyənləşdirilmədikdə isə bunun üçün zəruri olan müddət ərzində almış olsun.

409.9. Əgər oferta aksept üçün müddət göstərilmədən, şifahi edilmişsə, digər tərəf ofertanın akseptini dərhal bildirdikdə müqavilə bağlanmış sayılır.

409.10. Bu Məcəllənin 409.8-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, ünvanında olan şəxsə verilmiş oferta dərhal qəbul və ya rədd edilməlidir.

409.11. Bu Məcəllənin 409.8-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, ünvanında olmayan şəxsə verilmiş oferta, yalnız oferta vermiş şəxsin adətən cavab gözləyə biləcəyi müddətədək qəbul edilə bilər. (12)

Maddə 410. Yeni oferta

410.1. Oferta üçün gecikmiş aksept yeni oferta sayılır.

410.2. Əgər cavabda müqaviləni ofertada nəzərdə tutulduğundan fərqlənən başqa şərtlərlə bağlamağa razılıq ifadə olunmuşsa, belə cavab ofertadan imtina və eyni zamanda yeni təklif sayılır.

Maddə 411. Müqavilənin bağlandığı yer

411.1. Əgər müqavilədə onun bağlandığı yer göstərilməyibsə, müqavilə ofertanı göndərmiş fiziki şəxsin yaşayış yerində və ya hüquqi şəxsin olduğu yerdə bağlanmış sayılır.

411.2. İstehlakçı ilə öz müəssisəsinin hüdudları daxilində küçədə, evin qabağında və buna bənzər yerlərdə ticarət edən şəxs arasında bağlanan müqavilə yalnız o halda etibarlıdır ki, istehlakçı bir həftə müddətində müqavilədən yazılı surətdə imtina etməsin, amma müqavilənin bağlandığı zaman icra olunduğu hallar istisna təşkil edir.

~~*Maddə 412. Tərəfin müqavilə bağlamaqdan boyun qaçırması*~~

~~412.1. Əgər müqaviləni bağlaması bu Məcəlləyə görə məcburi olan tərəf onu bağlamaqdan boyun qaçırırsa, digər tərəf müqaviləni bağlamağa məcbur etmək tələbi ilə məhkəməyə müraciət edə bilər.~~

~~412.2. Müqaviləni bağlamaqdan əsassız boyun qaçıran tərəf bununla digər tərəfə vurulan zərərin əvəzini ödəməlidir.~~ (12)

~~*Maddə 413. Borcun etirafı*~~

~~413.1. Öhdəlik münasibətlərinin mövcudluğunu etiraf edən (mövcud borcun etirafı) müqavilənin etibarlığı üçün yazılı etiraf tələb olunur. Əgər mövcudluğu etiraf edilmiş öhdəlik münasibətlərinin yaranması üçün ayrı forma nəzərdə tutulubsa, etiraf üçün də belə forma tələb edilir.~~

~~413.2. Əgər borc hesablaşmaya (ödənişə) əsasən və ya razılaşma yolu ilə etiraf olunmuşsa, formaya əməl edilməsi məcburi deyildir.~~ (12)

Maddə 414. Müqavilənin hərracda bağlanması

414.1. Əgər müqavilənin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, o, hərrac keçirilməsi yolu ilə bağlana bilər. Müqavilə hərracı udan şəxslə bağlanır.

414.2. Hərracın təşkilatçısı kimi əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi və ya ixtisaslaşdırılmış təşkilat çıxış edə bilər. İxtisaslaşdırılmış təşkilat əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi ilə müqavilə əsasında hərəkət edir və onların adından və ya öz adından çıxış edir.

414.3. Bu Məcəllədə göstərilən hallarda əmlakın və ya əmlak hüququnun satışı barədə müqavilələr yalnız hərrac keçirilməsi yolu ilə bağlana bilər.

414.4. Hərrac auksion və ya müsabiqə formasında keçirilir. Ən yüksək qiymət təklif etmiş şəxs auksionda hərracı udmuş sayılır, hərracın təşkilatçısının qabaqcadan təyin

etdiyi müsabiqə komissiyasının rəyinə əsasən ən yaxşı şərtlər təklif etmiş şəxs isə müsabiqə üzrə hərracı udmuş sayılır.

414.5. *Qanunvericilikdə* ayrı qayda nəzərdə tutulmayıbsa, hərracın formasını satılan əmlakın mülkiyyətçisi və ya satılan əmlak hüququnun sahibi müəyyənləşdirir. (6)

Maddə 415. Hərracın təşkili və keçirilmə qaydası

415.1. Auksionlar və müsabiqələr açıq və qapalı ola bilər. Açıq auksionda və açıq müsabiqədə istənilən şəxs iştirak edə bilər. Qapalı auksionda və qapalı müsabiqədə yalnız bu məqsəd üçün dəvət olunan şəxslər iştirak edirlər.

415.2. *Qanunvericilikdə* ayrı qayda nəzərdə tutulmayıbsa, təşkilatçı hərracın keçirilməsini onun keçirilməsinə ən geci otuz gün qalmış bildirməlidir. Bildirişdə hərracın vaxtı, yeri və forması, onun predmeti və keçirilmə qaydası, o cümlədən hərracda iştirakın rəsmiləşdirilməsi, hərracı udan şəxsin müəyyənləşdirilməsi, habelə başlanğıc qiyməti *haqqında və qanunvericiliklə müəyyənləşdirilmiş digər məlumatlar* olmalıdır. Əgər hərracın predmeti müqavilə bağlamaq hüququdursa, qarşıdakı hərrac barəsində bildirişdə bunun üçün verilən müddət göstərilməlidir.

415.3. Əgər bu Məcəllədə və ya hərracın keçirilməsi barədə bildirişdə ayrı qayda nəzərdə tutulmayıbsa, bildirişi göndərən açıq hərrac təşkilatçısı auksionu keçirməkdən istədiyi vaxt, lakin onun keçirilməsi gününə ən geci üç gün qalmış, müsabiqəni keçirməkdən isə onun keçirilməsinə ən geci otuz gün qalmış imtina edə bilər. Açıq hərracın təşkilatçısı onu keçirməkdən həmin müddətləri pozmaqla imtina etdikdə, iştirakçılara dəyən real zərərin əvəzini ödəməlidir. Qapalı auksionun və ya qapalı müsabiqənin təşkilatçısı hərracdan imtinanın bildiriş göndərildikdən sonra məhz hansı müddətdə edildiyindən asılı olmayaraq, dəvət etdiyi iştirakçılara dəyən real zərərin əvəzini ödəməlidir.

415.4. Hərracın iştirakçıları hərracın keçirilməsinə dair bildirişdə göstərilən məbləğdə, müddətdə və qaydada beh verirlər. Hərrac keçirilmədikdə beh geri qaytarılmalıdır. Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin də behi qaytarılır. Hərracı udmuş şəxslə müqavilə bağlandıqda, onun verdiyi behin məbləği bağlanmış müqavilə üzrə öhdəliklərin icrası hesabına daxil edilir.

415.5. Hərracı udmuş şəxs və hərracın təşkilatçısı auksionun və ya müsabiqənin keçirildiyi gün hərracın nəticələri haqqında protokol imzalayırlar; bu protokol müqavilə qüvvəsinə malikdir. Hərracı udmuş şəxs protokolu imzalamaqdan boyun qaçırarsa, verdiyi behi itirir. Protokolu imzalamaqdan boyun qaçıran hərrac təşkilatçısı hərracı udan şəxsə behi ikiqat məbləğdə qaytarmalı, habelə hərracda iştirak etmək nəticəsində dəyən zərərin əvəzini ödəməlidir.

415.6. Əgər hərracın predmeti yalnız müqavilə bağlamaq hüququ olmuşsa, belə müqaviləni tərəflər hərrac qurtardıqdan və protokol rəsmiləşdirildikdən sonra iyirmi gündən və ya bildirişdə göstərilən başqa müddətdən gec olmayaraq imzalamalıdırlar.

415.7. Onlardan biri müqavilə bağlamaqdan boyun qaçırdıqda, digər tərəf müqaviləni bağlamağa məcbur etmək, habelə onu bağlamaqdan boyun qaçırılması nəticəsində vurulan zərərin əvəzini ödəmək tələbi ilə məhkəməyə müraciət edə bilər. (6)

Maddə 416. Hərrac keçirilməsi qaydalarının pozulması nəticələri

416.1. Bu Məcəllədə müəyyənləşdirilmiş qaydaları pozmaqla keçirilən hərrac maraqlı şəxsin iddiası üzrə məhkəmə tərəfindən etibarsız sayıla bilər.

416.2. Hərracın etibarsız sayılması hərracı udmuş şəxslə bağlanan müqavilənin etibarsızlığına səbəb olur.

§ 3. Müqavilənin standart şərtləri

Maddə 417. Müqavilənin standart şərtləri anlayışı

417.1. Müqavilənin standart şərtləri əvvəlcədən ifadə edilmiş, dəfələrlə istifadə üçün nəzərdə tutulan elə şərtlərdir ki, bunları bir tərəf (təklif edən) digər tərəfə təqdim edir və əvvəlcədən müəyyənləşdirilmiş normalardan fərqlənən və bu normaları tamamlayan qaydalar onların vasitəsi ilə müəyyənləşdirilir.

417.2. Əgər tərəflər müqavilənin şərtlərini müfəssəl müəyyənləşdirmişlərsə, bunlar müqavilənin standart şərtləri sayılmır.

417.3. Tərəflərin bilavasitə razılaşdırdıqları şərtlərə standart şərtlərə nisbətən üstünlük verilir.

Maddə 418. Müqavilənin standart şərtlərinin müqavilənin tərkib hissəsinə çevrilməsi

418.1. Müqavilənin standart şərtləri onu təklif etmiş tərəflə digər tərəf arasında bağlanmış müqavilənin tərkib hissəsinə yalnız o halda çevrilir ki, təklif etmiş tərəf müqavilənin bağlandığı yerdə əyani qeyd yazsın və bu şərtlərə istinad etsin, digər tərəf isə həmin şərtlərlə tanış olmaq və razıdırsa, bu şərtləri qəbul etmək imkanına malik olsun.

418.2. Əgər müqavilənin digər tərəfi sahibkardırsa, müqavilənin standart şərtləri bu şərtlə müqavilənin tərkib hissəsi olur ki, işgüzar münasibətlərdə zəruri olan ehtiyat göstərdiyi halda o bunu nəzərdə tutmalı olsun.

Maddə 419. Müqavilələrin standart şərtlərinin qeyri-adi müddəaları

419.1. Müqavilələrin standart şərtlərinin formaca qeyri-adi olduğuna görə digər tərəfin nəzərdə tuta bilmədiyi müddəaları müqavilənin tərkib hissəsinə çevrilmir.

419.2. Müqavilənin standart şərtləri təfsir edilərkən rast gəlinən bütün qeyri-müəyyənliklər, onları özündə əks etdirən şərtlərin müqaviləyə daxil edilməsini təklif etmiş tərəfin ziyanına (əleyhinə) təfsir edilir. (12)

Maddə 420. Müqavilənin standart şərtlərinin etibarsızlığı

420.1. Təklif etmiş tərəfin sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslər barəsində tətbiq etdiyi müqavilənin standart şərtlərində aşağıdakılar etibarsız sayılır:

420.1.1. təklif etmiş tərəfin təklifi qəbul etmək, yaxud ondan imtina etmək və ya bu və ya digər işi icra etmək üçün tənasübsüz surətdə uzun və ya aşkar qısa müddət (təklifin qəbul və icra edilməsi müddətləri) müəyyənləşdirdiyini ifadə edən müddəalar;

420.1.2. təklif etmiş tərəfin öz öhdəliklərinin icrası üçün əvvəlcədən müəyyənləşdirilmiş normalardan fərqlənən, tənasübsüz surətdə uzun və ya kifayət qədər aydın olmayan müddətlər (öhdəliklərin pozulması zamanı müddətlər) müəyyənləşdirdiyini ifadə edən müddəalar;

420.1.3. təklif etmiş tərəfə əsassız olaraq və müqavilədə göstərilmiş əsaslar olmadan öz öhdəliyinin icrasından imtina etmək hüququ (müqavilədən imtina şərti) verən müddəalar;

420.1.4. təklif etmiş tərəfə vəd olunmuş işi dəyişdirmək və ya ondan imtina etmək hüququ verən müddəalar, bir şərtlə ki, bu barədə razılaşma müqavilənin digər tərəfi üçün qeyri-məqbul olsun (dəyişiklik edilməsi şərti);

420.1.5. təklif etmiş tərəfə müqavilənin digər tərəfindən çəkilmiş xərclər üçün tənasübsüz surətdə yüksək əvəz (çəkilmiş xərclərin tənasübsüz surətdə yüksək əvəzi) tələb etmək hüququ verən müddəalar.

420.2. Müqavilənin standart şərti müqaviləyə daxil edilmiş olsa da, etimad və vicdanlılıq prinsiplərinə zidd olaraq müqavilənin digər tərəfi üçün zərərlidirsə, etibarsızdır. Bu zaman həmin şərtlərin müqaviləyə daxil edildiyi şərait, tərəflərin qarşılıqlı maraqları və sair nəzərə alınmalıdır.

420.3. Təklif etmiş tərəfin sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslər barəsində tətbiq etdiyi müqavilənin standart şərtlərində aşağıdakılar da etibarsız sayılır:

420.3.1. qiymətlərin əsassız qısa müddətdə yüksəldilməsini (qiymətlərin qısamüddətli yüksəldilməsi) nəzərdə tutan müddəalar;

420.3.2. müqavilə tərəfinin ona bu Məcəllə ilə verilmiş öhdəliklərin icrasından imtina etmək hüququnu və ya müqavilənin digər tərəfi öz öhdəliklərini yerinə yetirənə qədər müqavilənin icrasından imtina etmək hüququnu (icradan imtina hüququ) məhdudlaşdıran və ya istisna edən müddəalar;

420.3.3. müqavilənin tərəfini şübhəsiz və ya məhkəmə qərarı ilə müəyyənləşdirilmiş tələblərin əvəzləşdirilməsi hüququndan məhrum edən müddəalar (qarşılıqlı tələblərin əvəzləşdirilməsinin qadağan edilməsi);

420.3.4. təklif etmiş tərəfi müqavilənin digər tərəfini xəbərdar etməyə və ya öhdəliyin icrası üçün ona müddət verməyə dair (öhdəliyin icrası barədə xəbərdaretmə; müddət təyinetmə) qanunla nəzərdə tutulan vəzifədən azad edən müddəalar;

420.3.5. zərərin miqdarından çox olan məbləğin tələb edilməsinə dair razılaşma (zərərin əvəzinin ödənilməsinə dair yüksəldilmiş tələb);

420.3.6. təklif etmiş tərəfin və ya onun təmsilçisinin kobud ehtiyatsızlığı üzündən tələbin pozulması nəticəsində vurulan zərər üçün məsuliyyəti (ehtiyatsızlıq üçün məsuliyyəti) istisna edən və ya məhdudlaşdıran müddəalar;

420.3.7. təklif etmiş tərəfin əsas öhdəliyi pozduğu halda müqavilənin digər tərəfinin müqavilədən imtina etmək hüququnu məhdudlaşdıran və ya onu bu hüquqdan məhrum edən və ya müqavilənin digər tərəfini icra etməmə nəticəsində

vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan məhrum edən və ya 420.3.6-cı maddəyə zidd olaraq onun bu hüququnu məhdudlaşdıran (əsas öhdəliyinin icrası tələbinin pozulması) müddəalar;

420.3.8. təklif etmiş tərəfin öhdəliyi hissə-hissə icra etdiyi halda müqavilənin digər tərəfini bütövlükdə müqavilənin icra edilməməsi üçün zərərin əvəzinin ödənilməsini tələb etmək və ya əgər o, hissə-hissə icrada daha maraqlı deyildirsə (öhdəlik hissə-hissə icra edildikdə marağın itməsi), müqavilədən imtina etmək hüququndan məhrum edən müddəalar;

420.3.9. təklif etmiş tərəfin yeni mallar göndərilərkən və işlər görülərkən əşyanın qüsurları üçün məsuliyyətini nəzərdə tutan qaydalardan fərqli olaraq məhdudlaşdıran müddəalar.

§ 4. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi

Maddə 421. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi əsasları

421.1. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, tərəflərin razılaşması ilə mümkündür.

421.2. Tərəflərdən birinin tələbi ilə müqavilə ~~məhkəmənin qərarına əsasən~~ yalnız digər tərəf müqaviləni əhəmiyyətli dərəcədə pozduqda və ya bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan digər hallarda dəyişdirilə və ya ləğv edilə bilər. Tərəflərdən birinin müqaviləni pozması o zaman əhəmiyyətli pozuntu sayılır ki, bunun digər tərəfə vurduğu zərər nəticəsində o, müqavilə bağlanarkən ümid etməyə haqqı çatanlardan xeyli dərəcədə məhrum olur.

421.3. Müqavilənin tamamilə və ya hissə-hissə icrasından birtərəfli imtina edildikdə və belə imtinaya bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə yol verildikdə müqavilə müvafiq surətdə ləğv edilmiş və ya dəyişdirilmiş sayılır. (12)

Maddə 422. Şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar müqavilənin dəyişdirilməsi və ləğv edilməsi

422.1. Tərəflərin müqavilə bağlayarkən əsas götürdükləri şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa və ya onun mahiyyətindən ayrı qayda irəli gəlmirsə, onun dəyişdirilməsinə və ya ləğv edilməsinə əsas verir. Şəraitin dəyişməsi o halda əhəmiyyətli sayılır ki, əgər tərəflər bu dəyişməni ağlabatan şəkildə əvvəlcədən görə bilsəydilər, müqaviləni əhəmiyyətli dərəcədə fərqlənən şərtlərlə bağlayar və ya ümumiyyətlə, bağlamazdılar. *Tərəflərin müqavilənin əsasında durmuş təsəvvürlərinin yanlış çıxması, şəraitin dəyişməsinə bərabər tutulur.*

422.2. Əgər tərəflər müqavilənin əhəmiyyətli dərəcədə dəyişmiş şəraitə uyğunlaşdırılması və ya ləğv edilməsi barədə razılığa gəlməsələr, eyni zamanda aşağıdakı şərtlər olduqda müqavilə maraqlı tərəfin tələbi ilə məhkəmə tərəfindən ləğv edilə bilər, 422.4-cü maddədə nəzərdə tutulan əsaslar olduqda isə dəyişdirilə bilər:

422.2.1. müqavilənin bağlandığı məqamda tərəflər şəraitin bu dərəcədə dəyişməyəcəyini əsas götürmüşlər;

422.2.2. şəraitin dəyişməsini doğuran elə səbəblərdir ki, əmələ gəldikdən sonra bu səbəbləri maraqlı tərəf müqavilənin xarakterinə və dövriyyənin şərtlərinə görə ondan tələb edilən qayğı və ehtiyatla aradan qaldıra bilməz;

422.2.3. müqavilənin şərtləri dəyişdirilmədən onun icra edilməsi tərəflərin müqaviləyə uyğun əmlak mənafeləri nisbətini o dərəcədə pozar və maraqlı tərəfə o qədər zərər vurardı ki, o, müqavilə bağlanarkən ümid etməyə haqqı çatanlardan xeyli dərəcədə məhrum olardı;

422.2.4. işgüzar adətlərdən və ya müqavilənin mahiyyətindən şəraitin dəyişməsi riskini maraqlı tərəfin daşıdığı irəli gəlmir.

422.3. Əhəmiyyətli dərəcədə dəyişmiş şəraitə görə müqavilə ləğv edilərkən tərəflərdən hər hansı birinin tələbi ilə məhkəmə müqavilənin icrası ilə əlaqədar çəkilmiş xərclərin tərəflər arasında ədalətli bölüşdürülməsi zərurətini əsas götürərək, müqavilənin ləğv edilməsi nəticələrini müəyyənləşdirir.

422.4. Şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar müqavilənin dəyişdirilməsinə müqavilənin ləğvinin ictimai mənafelərə zidd olduğu və ya tərəflərə müqavilənin məhkəmə tərəfindən dəyişdirilmiş şərtlərlə icrası üçün zəruri məsrəflərdən xeyli çox olan zərər vuracağı müstəsna hallarda məhkəmənin qərarı ilə yol verilir. (12)

Maddə 423. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi qaydası

423.1. Müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında razılaşma, əgər bu Məcəllədən, müqavilədən və ya işgüzar adətlərdən ayrı qayda irəli gəlmirsə, müqavilə ilə eyni formada bağlanır.

423.2. Müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi tələbini tərəf məhkəməyə yalnız müqaviləni dəyişdirmək və ya ləğv etmək təklifindən digər tərəfin imtinasını aldıqda və ya təklifdə göstərilmiş müddətdə, müddət göstərilmədikdə isə otuz gün müddətində ondan cavab almadıqda irəli sürə bilər.

Maddə 424. Müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin nəticələri

424.1. Müqavilə dəyişdirilərkən tərəflərin öhdəlikləri dəyişdirilmiş şəkildə saxlanılır.

424.2. Müqavilə ləğv edilərkən tərəflərin öhdəliklərinə xitam verilir.

424.3. Müqavilə dəyişdirilərkən və ya ləğv edilərkən, əgər tərəflərin razılaşmasından və müqavilənin dəyişdirilməsi xarakterindən ayrı qayda irəli gəlmirsə, müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında tərəflərin razılaşmasının bağlandığı andan, müqavilə məhkəmə qaydasında dəyişdirildikdə və ya ləğv edildikdə isə müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında məhkəmə qərarının qanuni qüvvəyə mindiyi andan öhdəliklər dəyişdirilmiş və ya xətm edilmiş sayılır.

424.4. Əgər bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, tərəflər müqavilənin dəyişdirildiyi və ya ləğv edildiyi anadək öhdəlik üzrə icra etdiklərinin qaytarılmasını tələb edə bilməzlər.

424.5. Əgər müqavilənin dəyişdirilməsinə və ya ləğvinə onu tərəflərdən birinin əhəmiyyətli dərəcədə pozması əsas vermişdirsə, digər tərəf müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

21-ci fəsil. Öhdəliklərin icrası

Maddə 425. Öhdəliklərin icrası zamanı vicdanlılıq

425.1. Öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflərdən hər biri vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və bu Məcəllənin tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən irəli sürülən digər tələblərə müvafiq surətdə hərəkət etməlidir.

425.2. Öhdəlikləri icra edərkən tərəflər müqavilənin yerinə yetirilməsinə zəmin yaratmaq üçün birgə hərəkət etməli və müqavilənin məqsədinə çatmağa maneçilik törədə biləcək və ya öhdəliklərin icrasını təhlükəyə məruz qoya biləcək hər cür hərəkətlərdən çəkinməlidirlər.

Maddə 426. Öhdəliklərin icrası yeri

426.1. Öhdəliklərin icrası yeri, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, tərəflərin iradəsi ilə müəyyənləşdirilir.

426.2. Əgər öhdəliyin icrası yeri müəyyənləşdirilməyibsə, icra aşağıda göstərilən yerlərdə həyata keçirilməlidir:

426.2.1. torpaq sahəsinin, binanın, qurğunun və ya digər daşınmaz əmlakın verilməsi öhdəliyi üzrə—əmlakın olduğu yerdə;

426.2.2. öhdəlik müəyyən əşyanın verilməsindən ibarətdirsə — müqavilənin bağlandığı an həmin əşyanın olduğu yerdə;

426.2.3. bütün digər öhdəliklər üzrə—borclunun yaşayış yerində, borclu hüquqi şəxsdirsə—öhdəlik münasibətinin əmələ gəldiyi vaxt onun olduğu yerdə.

426.3. Öhdəlik borclunun istehsal müəssisəsində əmələ gəldikdə, əgər müəssisə onun yaşayış yerində deyildirsə, borclunun müəssisəsinin olduğu yerdə icra edilir.

426.4. Yalnız borclunun göndərmə xərclərini öz öhdəsinə götürdüyünə əsaslanmaqla təyinat yerinin öhdəliyin icrası yeri olduğu qənaətinə gəlmək olmaz.

Maddə 427. Öhdəliyin icrası müddəti

427.1. Əgər öhdəliyin icrası müddəti təyin edilibsə, kreditor müddət çatanadək onun icrasını tələb edə bilməz, lakin borclu onu vaxtından əvvəl icra edə bilər.

427.2. Əgər öhdəliyin icrası müddəti təyin edilməyibsə və ya şəraitə görə onu təyin etmək mümkün deyildirsə, kreditor öhdəliyin dərhal icrasını tələb edə bilər, borclu isə onu ağlabatan müddətdə icra etməyə borcludur.

427.3. Əgər öhdəlik onun icrası gününü və ya icra edilməli olduğu vaxt dövrünü nəzərdə tutursa və ya müəyyənləşdirməyə imkan verirsə, öhdəlik həmin gün və ya bu cür dövr ərzində istənilən an icra edilməlidir.

427.4. Ağlabatan müddətdə icra edilməmiş öhdəliyi, eləcə də icra müddəti tələbetmə anı ilə müəyyənləşdirilmiş öhdəliyi borclu kreditorun icra tələbini irəli sürdüyü gündən yeddi gün müddətində icra etməyə borcludur, bu şərtlə ki, bu Məcəllədən, öhdəliyin şərtlərindən, işgüzar adətlərdən və ya öhdəliyin mahiyyətindən icranı başqa müddətdə həyata keçirmək vəzifəsi irəli gəlməsin.

427.5. Əgər öhdəliyin icrası müddəti hər hansı şərtin baş verməsindən asılıdırsa, öhdəlik həmin şərtin baş verdiyi gündən icra edilməlidir.

Maddə 428. Öhdəliyin vaxtından əvvəl icrası

428.1. Əgər kreditor icranı almaqdan üzrlü səbəbə görə imtina etməzsə, borclu öhdəliyi vaxtından əvvəl icra edə bilər.

428.2. Öhdəliyin tərəflərinin sahibkarlıq fəaliyyəti ilə məşğul olması ilə bağlı öhdəliyin vaxtından əvvəl icrasına yalnız öhdəliyin vaxtından əvvəl icrasının mümkünlüyü bu Məcəllədə və ya öhdəlik şərtlərində nəzərdə tutulduqda və ya işgüzar dövriyyə adətlərindən və ya öhdəliyin mahiyyətindən irəli gəldikdə yol verilir.

428.3. Əgər icra vaxtı müəyyənləşdirilibsə, şübhələr yarandıqda, ehtimal edilir ki, kreditor həmin müddətə qədər tələbin icrasını tələb edə bilməz, borclu isə öhdəliyi vaxtından əvvəl icra edə bilər.

428.4. Öhdəliyin icrası üçün borclunun xeyrinə hər hansı müddət təyin edildikdə, əgər borclu ödəniş qabiliyyətini itirərsə və ya şərtləşdirilmiş təminatı azaldarsa, yaxud ümumiyyətlə, belə təminat verə bilməzsə, kreditor dərhal icranı tələb edə bilər.

~~***Maddə 429. Öhdəliklərin icrası müddətlərinin müəyyənləşdirilməsi***~~

~~429.1. Qanunlarda, məhkəmə qərarlarında və əqdlərdə göstərilən öhdəliklərin icrası müddətlərinin və tarixlərinin müəyyənləşdirilməsi üçün aşağıdakı qaydalar qüvvədə olur:~~

~~429.1.1. əgər müddətin başlanmasını hadisə və ya günün anı, o cümlədən müqavilənin bağlanması müəyyənləşdirirsə, hadisənin baş verdiyi və ya anın çatdığı gün müddətin hesablanması üçün nəzərə alınmır;~~

~~429.1.2. əgər müddətin başlanmasını günün başlanğıcı müəyyənləşdirirsə, müddətin hesablanması zamanı həmin gün hesaba alınır (yaş hesablanarkən doğum günü üçün eyni qayda qüvvədə olur);~~

~~429.1.3. əgər müddət günlərlə hesablanırsa, o, sonuncu günün axırında bitir;~~

~~429.1.4. əgər müddət həftələrlə, aylarla və ya bir neçə ayı əhatə edən dövrlə – illə, yarım illə, rüblə hesablanırsa, o, sonuncu həftənin və ya sonuncu ayın axırında bitir.~~

~~429.2. Əgər aylarla hesablanan müddətin sonuncu ayında onun bitməsini müəyyənləşdirən gün yoxdursa, müddət həmin ayın sonuncu gününün axırında bitir.~~

~~429.3. Yarım illik müddət dedikdə altı aylıq müddət, rüblük müddət dedikdə üç aylıq müddət, yarım aylıq müddət dedikdə on beş günlük müddət başa düşülür.~~

~~429.4. Əgər müddəti uzatmaq lazımdırsa, yeni müddət əvvəlki müddətin qurtardığı andan hesablanır.~~

~~429.5. Aylarla və ya illərlə hesablanan müddətin fasiləsiz müəyyənləşdirildiyi hallarda ay otuz günə, il isə üç yüz altmış beş günə bərabər olur.~~

~~429.6. Ayın başlanğıcı dedikdə onun birinci günü, ayın ortası dedikdə on beşinci günü və ayın axırı dedikdə sonuncu günü başa düşülür.~~

~~429.7. Əgər öhdəliyi müəyyən gündə və ya müddət ərzində icra etmək zəruridirsə, müəyyən gün və ya müddətin sonuncu günü şənbə və ya bazar gününə və ya öhdəliyin icrası yerində hamılıqla qəbul olunmuş bayram gününə düşürsə, onların əvəzinə növbəti iş günü hesaba alınır.~~ (12)

Maddə 430. Öhdəliyin icrasından imtina

430.1. Əgər bu Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa, öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir.

430.2. Öhdəliyin tərəflərinin sahibkarlıq fəaliyyəti ilə məşğul olması ilə bağlı öhdəliyin icrasından birtərəfli imtinaya və ya belə öhdəliyin şərtlərinin birtərəfli dəyişdirilməsinə, əgər bu Məcəllədən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, müqavilədə nəzərdə tutulan hallarda da yol verilir.

~~430.3. İkitərəfli müqaviləyə görə üzərinə öhdəlik qoyulmuş şəxs, öhdəliyini qabaqcadan icra etməyə borclu olduğu hallardan başqa, öhdəliyin icrasından digər tərəf cavab hərəkətini həyata keçirənədək imtina edə bilər~~.

430.4. Elektron ticarətdə öhdəliyin icrasından imtinaya elektron ticarət haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yol verilir. (12, 15)

Maddə 431. Öhdəliyin üçüncü şəxs tərəfindən icrası

431.1. Borclu öhdəliyin icrasının onun özündən asılı olduğu hallarda, habelə bunun bu Məcəllədən, müqavilədən və ya öhdəliyin təbiətindən irəli gəldiyi hallarda öhdəliyi şəxsən icra etməlidir. Bütün digər hallarda öhdəliyi borclunun əvəzinə üçüncü şəxs də icra edə bilər. Buna borclunun razılığı tələb edilmir.

431.2. Kreditor üçüncü şəxsin təklif etdiyi icranı, əgər borclu bunun əleyhinədirsə, qəbul etməyə bilər.

431.3. Əgər kreditor borcluya mənsub əşyaya məcburi icra yönəldərsə, onda məcburi icra nəticəsində bu əşyaya hüquqlarının itirilməsi təhlükəsi yaranan hər hansı şəxs kreditoru təmin edə bilər. Üçüncü şəxs kreditoru təmin etdikdə, tələb hüququ həmin şəxsə keçir. Tələb kreditorun zərərinə olaraq keçməməlidir.

Maddə 432. Öhdəliyin hissə-hissə icrası

432.1. Əgər kreditor razıdırsa, borclu öhdəliyi hissə-hissə icra edə bilər (öhdəliyin hissə-hissə icrası).

432.2. Əgər bu Məcəllədə, öhdəliyin şərtlərində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, kreditor öhdəliyin hissə-hissə icrasını qəbul etməyə bilər.

432.3. Əgər borclu kreditora bir neçə eyni növlü öhdəlik icra etməlidirsə və onun icra etdikləri bütün öhdəliklərin ödənilməsi üçün yetərli deyildirsə, icra zamanı borclunun özünün müəyyənləşdirdiyi öhdəlik ödənilir. Əgər borclu ödənilən öhdəliyi müəyyənləşdirməzsə, onda ödənilmə müddəti çatmış öhdəliklərdən müvafiq olaraq kreditorda daha az təminatı olan öhdəlik əvvəlcə ödənilir, bərabər təminatlı öhdəliklərdən borclu üçün daha ağır olanı, eyni dərəcədə ağır olan öhdəliklərdən daha köhnə öhdəlik, eyni müddətli öhdəliklərin isə hamısı ödənilir.

432.4. Əgər borclu əsas öhdəliyin icrasından başqa, faizləri və xərcləri də ödəməlidirsə, bütün borcun ödənilməsi üçün yetərli olmayan öhdəliyin icrası əvvəlcə xərclərin hesabına, sonra faizlərin hesabına və nəhayət, əsas öhdəliyin hesabına daxil edilir. Borclunun müəyyənləşdirdiyi başqa qayda etibarsızdır.

Maddə 433. Tələbin ixtiyarlı şəxsə icra edilməsi

433.1. Borclu öz öhdəliyini kreditora və ya qanunla və ya məhkəmənin qərarı ilə icranı qəbul etməyə ixtiyarı çatan şəxsə ödəməlidir.

433.2. Əgər öhdəliyin icrasını ixtiyarsız şəxs qəbul edərsə, öhdəlik kreditorun buna razılıq verməsi və ya bu icradan fayda götürməsi şərti ilə icra olunmuş sayılır.

433.3. Öhdəliyin icrası zamanı borclu icranı kreditorun özünün və ya ixtiyarlı şəxsin qəbul etməsinə dair sübutların təqdim olunmasını tələb edə bilər və bu cür tələb irəli sürülməməsi nəticələrinin riskini daşıyır.

Maddə 434. Alternativ öhdəlik

434.1. Bir neçə öhdəlikdən biri (alternativ öhdəlik) icra edilməli olduqda seçmək hüququ, əgər müqavilədən, bu Məcəllədən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, borcluya mənsubdur. Seçmək hüququ kreditora mənsubdursa, borclu ona ağlabatan müddət təyin edərək öhdəliyi seçməsini tələb edə bilər. Kreditor öhdəliyi vaxtında seçməzsə, həmin müddət keçdikdən sonra seçmək hüququ borcluya keçir.

434.2. Əgər borclunun icra edilməli iki hərəkətin birindən imtina etməyə ixtiyarı çatırsa, digər hərəkəti icra etmək öhdəliyi qüvvədə qalır.

434.3. Alternativ öhdəliyin seçilməsi bunun digər tərəfə bəyan edilməsi və ya icranın həyata keçirilməsi vasitəsi ilə yerinə yetirilir. Seçilmiş öhdəlik əzəldən icra edilməli öhdəlik sayılır.

434.4. Bu Məcəllənin 434.1, 434.2 və 434.3-cü maddələrinin qaydaları seçim predmetinin icra edilməli ikidən çox öhdəlikdən ibarət olduğu hallarda da tətbiq edilir.

Maddə 435. Kreditorun başqa icranı qəbul etmək hüququ

Kreditor müqavilədə nəzərdə tutulandan ayrı icranı qəbul etmək hüququna malikdir, lakin qəbul etməyə borclu deyildir. Bu qayda icranın dəyərinin daha çox olduğu halda da qüvvədə qalır.

Maddə 436. Öhdəliyin icrasının keyfiyyəti

Əgər icranın keyfiyyəti müqavilədə müfəssəl müəyyənləşdirilməyibsə, borclu ən azı orta keyfiyyətli iş görməli və orta keyfiyyətli əşya verməlidir.

Maddə 437. Müqavilənin predmeti fərdi-müəyyən əşya olduqda öhdəliyin icrası

437.1. Əgər müqavilənin predmeti fərdi-müəyyən əşyadırsa, kreditor başqa əşyanı, onun dəyəri daha yüksək olsa da, qəbul etməyə borclu deyildir.

437.2. Əgər borclu fərdi-müəyyən əşyanı verməyə borcludursa, o, orta tipli və keyfiyyətli eyni əşyanı verməlidir. Əgər borclu həmin əşyanın verilməsi üçün zəruri olan özündən asılı hər şeyi etmişdirsə, borc öhdəliyi bu əşya ilə məhdudlaşır.

Maddə 438. Müqavilənin predmeti növlü əşya olduqda öhdəliyin icrası

Əgər müqavilənin predmeti əvəz edilə bilən əşyadırsa (növlü əşya), borclu öhdəliyi həmişə icra etməyə borcludur.

Maddə 439. Pul öhdəliklərinin icrası

439.1. Pul öhdəliyi manatla ifadə edilməlidir. Əgər tərəflərdən biri xarici fiziki və ya hüquqi şəxsdirsə, tərəflər pul öhdəliyini, əgər bu, qanunla qadağan edilməyibsə, xarici valyutada da müəyyənləşdirə bilərlər.

439.2. Əgər xarici valyutada olan pul öhdəliyi Azərbaycan Respublikasında ödənilməlidirsə, ödənişin xarici valyutada aparılmalı olduğunun şərtləşdirildiyi hallardan başqa, o, manatla ödənilir. Yenidən hesablama ödəniş anında ödəniş yerinin məzənnə qiyməti üzrə aparılır.

439.3. Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası *Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot* dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır.

439.4. Öhdəlikdən kənar ödənilmiş pul əsassız varlanma qaydalarına uyğun olaraq geri tələb edilə bilər.

439.5. Əgər pul öhdəliyinin icra yeri barəsində şübhə varsa, öhdəlik kreditorun olduğu yer üzrə (fiziki şəxsin yaşayış yeri və ya hüquqi şəxsin olduğu yer üzrə) icra edilməlidir.

439.6. Əgər ödənişin aparılmalı olduğu yerdə və ya ölkədə kreditorun pul köçürülməsi üçün nəzərdə tutulan bank hesabı varsa, borclu öz pul öhdəliyini, kreditorun etiraz etdiyi hallardan başqa, həmin hesaba köçürmə yolu ilə yerinə yetirə bilər.

439.7. Əgər ödəniş müddəti çatanadək pul vahidinin dəyəri (məzənnə) artmış və ya azalmışsa və ya valyuta dəyişmişsə, borclu ödənişi, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, öhdəliyin əmələ gəldiyi vaxta uyğun məzənnə üzrə

yerinə yetirməlidir. Valyuta dəyişdikdə mübadilə münasibətlərinin əsasını valyutanın dəyişdiyi gün həmin pul vahidləri arasında mövcud olmuş məzənnə təşkil etməlidir. (17, 39)

Maddə 440. Pul öhdəliklərinin ödənilməsi növbəliyi

440.1. Əgər kreditorun xeyrinə olaraq borcluya müxtəlif öhdəliklərdən irəli gələn bir neçə oxşar icra həvalə edilmişdirsə və icra edilənlər bütün borcların ödənilməsi üçün yetərli deyildirsə, borclunun icra zamanı seçdiyi öhdəlik ödənilir, borclu seçmədikdə isə ödəniş müddəti birinci çatan borc ödənilir.

440.2. Əgər tələblərin icra müddətləri eyni vaxtda çatarsa, icrası borclu üçün daha ağır olan tələb birinci növbədə ödənilməlidir.

440.3. Əgər tələblər eyni dərəcədə ağırdırsa, daha az təmin edilmiş tələb birinci növbədə icra olunmalıdır.

~~440.4. Borclunun ödəniş müddəti çatmış bütün borcunun ödənilməsi üçün yetərli olmayan ödənişləri hesabına birinci növbədə məhkəmə xərcləri, sonra əsas icra (borc) və nəhayət, faizlər ödənilir.~~ (km5)

Maddə 441. Öhdəliklərin qarşılıqlı icrası

441.1. Tərəflərdən birinin öhdəliyi icra etməsi müqaviləyə uyğun olaraq digər tərəfin öz öhdəliklərini icra etməsi ilə şərtləndirildikdə qarşılıqlı icra sayılır.

441.2. Mükəlləfiyyətli tərəf müqavilədə şərtləşdirilmiş öhdəliyin icrasını həyata keçirmədikdə və ya həmin icranın müəyyənləşdirilmiş müddətdə həyata keçirilməyəcəyini aşkar edən hallar olduqda qarşılıqlı icra öhdəsinə düşən tərəf öz öhdəliyinin icrasını dayandıra bilər və ya öhdəliyin icrasından imtina edib zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

441.3. Əgər müqavilədə şərtləşdirilmiş öhdəliyin icrası tam həcmdə həyata keçirilməzsə, qarşılıqlı icra öhdəsinə düşən tərəf öz öhdəliyinin icrasını dayandıra bilər və ya həyata keçirilməmiş icraya müvafiq hissədə icradan imtina edə bilər.

441.4. Əgər digər tərəf müqavilədə şərtləşdirilmiş öhdəliyinin icrasını həyata keçirmədiyinə baxmayaraq öhdəliyin qarşılıqlı icrası həyata keçirilərsə, digər tərəf öz öhdəliyini icra etməlidir.

441.5. Bu Məcəllənin 441.2-441.4-cü maddələrində nəzərdə tutulan qaydalar müqavilədə ayrı qayda nəzərdə tutulmadıqda tətbiq edilir.

22-ci fəsil. Öhdəliklərin icra edilməməsi

Maddə 442. Öhdəliyin icra edilməməsi anlayışı

Öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür.

Maddə 443. Öhdəliyin icra edilməməsi ilə vurulan zərərin əvəzinin ödənilməsi

443.1. Öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Borclunun üzərinə öhdəliyi pozmağa görə məsuliyyət qoyulmadıqda bu qayda qüvvədə olmur.

443.2. Zərər bu Məcəllənin 21-ci maddəsində nəzərdə tutulan qaydalara uyğun müəyyənləşdirilir.

443.3. Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, zərər müəyyənləşdirilərkən öhdəliyin icra edilməli olduğu yerdə kreditorun tələbini borclunun könüllü ödədiyi gün mövcud olmuş qiymətlər, tələb könüllü ödənilmədikdə isə məhkəmənin qərar çıxardığı gün mövcud olmuş qiymətlər nəzərə alınır.

443.4. Əldən çıxmış fayda müəyyənləşdirilərkən kreditorun onu əldə etmək üçün gördüyü tədbirlər və bu məqsədlə apardığı hazırlıq işləri nəzərə alınır.

443.5. Borclu icranı gecikdirdikdə kreditor ona öhdəliyin icrası üçün zəruri vaxt təyin edə bilər. Əgər borclu öhdəliyi bu müddətdə də icra etməzsə, kreditor öhdəliyin icrası əvəzinə zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

443.6. Əgər əlavə müddətin təyin edilməsinin hər hansı nəticə verməyəcəyi aydındırsa və ya zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan dərhal istifadəyə hər iki tərəfin mənafeləri əsas götürülməklə haqq qazandıran xüsusi hallar mövcuddursa, əlavə müddət təyin edilməsi zərurəti yoxdur.

443.7. Əgər öhdəlikdə ayrı qayda nəzərdə tutulmayıbsa və ondan ayrı qayda irəli gəlmirsə, borclunun üzərinə yalnız qəsdən və ya ehtiyatsızlıqdan edilmiş hərəkətlər nəticəsində dəymiş zərərin əvəzini ödəmək vəzifəsi qoyulur.

443.8. Borclunun öhdəliyi qəsdən edilmiş hərəkətlər nəticəsində icra etməməsi zamanı onun zərərin əvəzini ödəməkdən azad edilməsi barədə tərəflərin qabaqcadan razılaşması yolverilməzdir.

443.9. Borclu öz qanuni təmsilçisinin və öhdəliklərinin icrası üçün xidmətlərindən istifadə etdiyi digər şəxslərin hərəkətləri üçün özünün təqsirli hərəkətləri üçün olan həcmdə məsuliyyət daşımalıdır.

443.10. Borclu icra predmetini başqa şəxsdən almalı olduqda və onu ala bilmədikdə də, əgər müqavilədən ayrı qayda irəli gəlmirsə, icra etməmək üçün məsuliyyət daşıyır.

~~***Maddə 444. Müqavilənin dəyişmiş şəraitə uyğunlaşdırılması***~~

~~444.1. Əgər müqavilənin bağlanması üçün əsas olmuş şərait müqavilə bağlandıqdan sonra açıq-aşkar dəyişmişsə və tərəflər həmin dəyişiklikləri nəzərdə tutsaydılar, müqaviləni bağlamazdılarsa və ya başqa məzmunlu müqavilə bağlayardılarsa, müqavilənin dəyişmiş şəraitə uyğunlaşdırılması tələb edilə bilər. Əks təqdirdə ayrı-ayrı hallar nəzərə alınmaqla müqavilənin tərəfindən dəyişdirilməmiş müqaviləyə ciddi riayət etmək tələb oluna bilməz.~~

~~444.2. Müqavilənin əsasında durmuş təsəvvürlərin yanlış çıxması şəraitin dəyişməsinə bərabər tutulur.~~

~~444.3. Tərəflər ilk növbədə müqavilənin dəyişmiş şəraitə uyğunlaşdırılması üçün səy göstərməlidirlər. Əgər müqavilənin dəyişmiş şəraitə uyğunlaşdırılması mümkün deyildirsə və ya digər tərəf buna razı deyildirsə, mənafeləri pozulmuş tərəf müqavilədən imtina edə bilər.~~ (12)

Maddə 445. Borclunun icranı gecikdirməsi

445.1. İcranı gecikdirmiş borclu gecikdirmə nəticəsində vurduğu zərər üçün və gecikdirmə zamanı təsadüfən baş vermiş icra mümkünsüzlüyünün nəticələri üçün kreditor qarşısında məsuliyyət daşıyır.

445.2. Aşağıdakı hallar borclunun icranı gecikdirməsi sayılır:

445.2.1. öhdəliyin onun icrası üçün müəyyənləşdirilmiş müddətdə icra edilməməsi;

445.2.2. icra müddəti çatanadək kreditorun etdiyi xəbərdarlıqdan sonra da öhdəliyin icra edilməməsi.

445.3. Əgər borclu icra müddəti çatdıqdan sonra kreditorun xatırlatmasına baxmayaraq öhdəliyi icra etməzsə, o, icranı xatırlatma üzrə gecikdirmiş sayılır. Öhdəliyin icrası barədə iddia irəli sürülməsi, habelə icraya dair yazılı tələbin çatdırılması xatırlatmaya bərabər tutulur.

445.4. İcra üçün təqvim günü təyin edildikdə, əgər borclu təyin edilmiş vaxtadək öhdəliyi icra etməzsə, icranı xatırlatmasız gecikdirmiş sayılır. İcraya qədər öhdəlik ləğv edildikdə, əgər icra müddəti təyin edilmişsə və onu ləğvetmə anından təqvim üzrə hesablamaq mümkündürsə, eyni qayda qüvvədə olur.

445.5. Əgər öhdəlik borclunun təqsiri olmadan baş vermiş halların nəticəsində icra edilməzsə, bu, gecikdirmə sayılmır.

445.6. ~~Gecikdirmə zamanı borclu hər bir ehtiyatsızlıq üçün məsuliyyət daşıyır.~~ *Borclu*, zərərin öhdəliyin vaxtında icrası zamanı da əmələ gələ biləcəyini sübuta yetirməzsə, təsadüfi hallar üçün də məsuliyyət daşıyır.

445.7. Borclu pul məbləğinin ödənilməsini gecikdirdikdə, əgər kreditor digər əsaslardan çıxış edərək daha böyük məbləğ tələb edə bilmirsə, gecikdirilmiş vaxt üçün illik beş faiz ödəməyə borcludur. Faizdən faiz ödənilməsi yolverilməzdir.

445.8. Kreditor borclunun icranı gecikdirməsi nəticəsində icraya marağını itirdikdə, icranı qəbul etməkdən imtina edə və zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Nə qədər ki öhdəlik kreditorun gecikdirməsi nəticəsində icra edilə bilmir, borclu icranı gecikdirmiş sayılmır. ~~Kreditor gecikdirmə nəticəsində dəymiş zərərin əvəzini ödəməyi tələb edə bilər.~~

445.9. Borclu icranı gecikdirdikdə, kreditor ona öhdəliyin icrası üçün əlavə vaxt verə bilər. Əgər borclu həmin əlavə vaxt ərzində öhdəliyi icra edərsə, o, icranı gecikdirmiş sayılmır. (12)

Maddə 446. Kreditorun icranı gecikdirməsi

446.1. Kreditor vaxtı çatmış və ona təklif olunmuş icranı qəbul etmirsə və ya borclunun öz öhdəliyini icra edə bilmək üçün ondan gözlədiyi hərəkətləri yerinə yetirmirsə, icranı gecikdirmiş sayılır.

446.2. Kreditorun icranı gecikdirməsi borcluya gecikdirmə nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsi hüququ verir, bir şərtlə ki, kreditor gecikdirmənin nə onun, nə də icranı qəbul etməyin həvalə olunduğu şəxslərin cavabdeh olmadıqları hallara görə baş verdiyini sübuta yetirməsin.

446.3. Pul öhdəliyi üzrə borclu kreditorun icranı gecikdirdiyi müddət üçün faizlər ödəməli deyildir.

446.4. Kreditorun icranı gecikdirməsi zamanı borclu öhdəliyin icra edilməməsi üçün yalnız bu şərtlə məsuliyyət daşıyır ki, icra borclunun qərəzi və ya kobud ehtiyatsızlığı nəticəsində qeyri-mümkün olsun.

446.5. Gecikdirmə zamanı kreditor onun təqsirindən asılı olmayaraq:

446.5.1. müqavilə predmetinin saxlanması ilə əlaqədar çəkilmiş artıq xərclərin əvəzini borcluya ödəməlidir;

446.5.2. əşyanın təsadüfən korlanması və ya məhv olması riski onun üzərinə düşür;

446.5.3. pul öhdəliyi üçün faizlər almaq hüququna daha malik deyildir.

446.6. Əgər təklif edilmiş icra vaxtınadək borclu kreditorun hərəkəti üçün təyin edilmiş müddət ərzində öhdəliyi icra etməyə qadir deyildirsə, kreditor icranı gecikdirmiş sayılmır.

446.7. Borclu öhdəliyi yalnız kreditor tərəfindən qarşılıqlı öhdəliyin icrasından sonra icra etməli olduğu halda kreditor icranı o zaman gecikdirmiş sayılır ki, təklif olunmuş icradan imtina etmədən qarşılıqlı öhdəliyin tələb olunan icrasını təklif etmir.

446.8. Əgər öhdəliyin icrası müddəti müəyyənləşdirilməyibsə və ya borclu təyin edilmiş vaxtadək öhdəliyi icra etmək hüququna malik deyildirsə, kreditor təklif olunmuş icranı qəbul etməyə müvəqqəti imkanı olmadığına görə icranı gecikdirmiş sayılmır, lakin borclunun buna qədər ağlabatan müddətdə ona icranı təklif etdiyi hallar istisna təşkil edir.

446.9. Əgər öhdəliyin predmeti fərdi-müəyyən əşyadırsa və kreditorun icranı gecikdirməsinin səbəbi təklif edilmiş eyni növlü əşyadan imtinadırsa, borclunun icra vəzifəsi təklif edilmiş əşya ilə məhdudlaşır, onun məhv olması və ya təsadüfən zədələnməsi riski isə kreditora keçir.

Maddə 447. İkitərəfli müqavilələrdə öhdəliklərin icra edilməməsi

447.1. Əgər ikitərəfli müqavilənin bir tərəfi müqavilədən irəli gələn öhdəlikləri icra etmirsə, müqavilənin digər tərəfi öhdəliklərin icrası üçün təyin etdiyi əlavə müddət nəticəsiz qurtardıqdan sonra müqavilədən imtina edə bilər. Əgər öhdəliyin pozulması xarakteri əsas götürülməklə əlavə müddət tətbiq edilmirsə, xəbərdarlıq edilməsi əlavə müddət təyin olunmasına bərabər tutulur. Əgər öhdəliyin yalnız bir hissəsi icra

edilməmişsə, kreditor müqavilədən yalnız öhdəliyin qalan hissəsinin icrasına marağını itirdiyi halda imtina edə bilər.

447.2. Aşağıdakı hallarda əlavə müddət təyin edilməsi və ya xəbərdarlıq edilməsi zərurəti yoxdur:

447.2.1. bunun heç bir nəticə verməyəcəyi aydın olduqda;

447.2.2. öhdəlik müqavilədə təyin edilmiş müddətdə icra edilmədikdə və müqaviləyə görə kreditor münasibətlərin davam etdirilməsini öhdəliyin vaxtında icrası ilə bağladıqda;

447.2.3. xüsusi əsaslara görə və qarşılıqlı mənafelər nəzərə alınmaqla müqavilənin dərhal ləğv edilməsinə haqq qazandırıldıqda.

447.3. Aşağıdakı hallarda müqavilədən imtina yolverilməzdir:

447.3.1. öhdəliyin pozuntusu cüzi olduqda;

447.3.2. öhdəliyin pozulması üçün tamamilə və ya əsasən kreditorun özü məsuliyyət daşıdıqda;

447.3.3. öhdəliyin qarşısında borclu tərəfindən artıq irəli sürülmüş və ya müqavilədən imtina edildikdən dərhal sonra irəli sürüləcək qarşılıqlı tələb olduqda.

447.4. Müqavilədən imtina üçün əsasların baş verəcəyi aşkar olduqda kreditor müqavilədən icra müddəti qurtaranadək imtina edə bilər.

447.5. Borclu müqavilədən imtina üçün kreditora ağlabatan müddət təyin edə bilər.

447.6. Əgər ikitərəfli müqaviləyə görə borclu onun üzərinə qoyulmuş öhdəliklərdən imtina edə bilərsə, ona bu hüququ verən hal isə kreditorun təqsiri üzündən yaranmışsa, o, cavab icrası almaq hüququnu saxlayır. Əgər cavab icrası üçün əsas kreditorun icranı almağı ləngitdiyi vaxt əmələ gələrsə, bu qayda tətbiq edilmir.

447.7. Müqavilədən çıxarkən kreditor müqavilənin icra edilməməsi nəticəsində ona dəymiş zərərin əvəzini ödəməyi tələb edə bilər. Əgər müqavilədən çıxmaq üçün əsas borclunun təqsiri üzündən yaranmamışsa, bu qayda tətbiq edilmir.

23-cü fəsil. Öhdəliklərin icra edilməməsi üçün məsuliyyət

Maddə 448. Öhdəliklərin icra edilməməsi üçün borclunun məsuliyyəti

448.1. Əgər bu Məcəllə ilə və müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir.

448.2. Borclu öz öhdəliklərinin hər bir təqsirli pozuntusu (hərəkət və ya hərəkətsizlik) üçün məsuliyyət daşıyır. Borclunu təqsirə görə, yəni qərəzə və ya kobud ehtiyatsızlığa görə məsuliyyətdən qabaqcadan azad etmək olmaz.

448.3. Borclu öz qanuni təmsilçilərinin və öhdəliyinin tamamilə və ya hissə-hissə icrası üçün xidmətlərindən istifadə etdiyi şəxslərin hərəkəti və ya hərəkətsizliyi üçün öz hərəkəti və ya hərəkətsizliyi üçün olan dərəcədə məsuliyyət daşımalıdır.

448.4. Borclu öhdəliyin pozulmasına görə bu şərtlə məsuliyyət daşımır ki, pozuntunun onun cavabdeh olmadığı haldan irəli gəldiyini və müqavilə bağlanarkən onun həmin halı nəzərə ala biləcəyini, yaxud bu halı və ya onun nəticələrini istisna edə və ya aradan qaldıra biləcəyini gözləməyin mümkün olmadığını sübuta yetirsin. Borclu maneədən xəbərdardırsa və ya xəbərdar olmalıdırsa, həmin maneə və icra qabiliyyətinə onun təsiri barədə kreditora dərhal məlumat verməlidir. Əgər kreditor məlumatı dərhal almazsa, borclu məlumatın vaxtında alınmaması ilə əlaqədar kreditorun düşdüyü zərər üçün məsuliyyət daşıyır.

Maddə 449. Pul öhdəliyinin icra edilməməsi üçün məsuliyyət

449.1. Özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir. Faizlərin miqdarı pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün *bank* uçot dərəcəsi ilə müəyyənləşdirilir. Borc məhkəmə qaydasında tutulduqda məhkəmə kreditorun tələbini qərarın çıxarıldığı gün üçün *bank* uçot dərəcəsini əsas götürməklə ödəyə bilər. (km6)

449.2. *Bank* uçot dərəcəsini Azərbaycan Respublikasının *Mərkəzi Bankı* müəyyənləşdirir.

449.3. Əgər kreditorun pul vəsaitindən qanunsuz istifadə nəticəsində ona dəyən zərər bu Məcəllənin 449.1-ci maddəsinə əsasən ona çatası faizlərin məbləğindən çoxdursa, kreditor borcludan həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər. (km6)

449.4. Özgə vəsaitindən istifadə üçün faizlər, əgər müqavilədə faizlərin hesablanması üçün daha qısa müddət müəyyənləşdirilməyibsə, həmin vəsait məbləğinin kreditora ödənildiyi günə qədər tutulur. (km6) (17, 39)

Maddə 450. Öhdəliyin naturada icrası

450.1. Öhdəliyin lazımınca icra edilmədiyi halda dəbbə pulunun və zərərin əvəzinin ödənilməsi borclunu, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, öhdəliyin naturada icrasından azad etmir.

450.2. Öhdəliyin icra edilmədiyi halda zərərin əvəzinin ödənilməsi və onun icra edilməməsi üçün dəbbə pulunun ödənilməsi borclunu, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, öhdəliyin naturada icrasından azad *edir*.

450.3. Kreditorun gecikdirilmə nəticəsində marağını itirdiyi icranı qəbul etməkdən imtina etməsi, habelə peşiman haqqı kimi müəyyənləşdirilmiş dəbbə pulunun ödənilməsi borclunu öhdəliyin naturada icrasından azad *edir*. (3, 11)

Maddə 451. Öhdəliyin borclunun hesabına icrası

Borclu əmlakı hazırlamaq və kreditorun mülkiyyətinə vermək və ya əmlakı kreditorun istifadəsinə vermək və ya onun üçün müəyyən işi görmək və ya ona müəyyən xidməti

göstərmək öhdəliyini icra etmədikdə kreditor, əgər bu Məcəllədən, müqavilədən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, ağlabatan qiymətə və ağlabatan müddətdə öhdəliyin icrasını üçüncü şəxslərə tapşıra bilər və ya onu öz qüvvələri ilə icra edə bilər və çəkdiyi zəruri xərclərin və digər zərərin əvəzini ödəməyi borcludan tələb edə bilər.

Maddə 452. Fərdi-müəyyən əşyanı vermək öhdəliyinin icra edilməməsinin nəticələri

452.1. Fərdi-müəyyən əşyanı kreditorun mülkiyyətinə və ya əvəzli istifadəsinə vermək öhdəliyi icra edilmədikdə kreditor həmin əmlakın borclunun əlindən alınmasını və öhdəlikdə nəzərdə tutulan şərtlərlə ona verilməsini tələb edə bilər. Bu hüquq əmlakın üçüncü şəxsə mülkiyyət hüququ ilə verildiyi halda aradan qalxır. Əgər əmlak hələ verilməmişsə, öhdəlik hansı kreditorun xeyrinə daha əvvəl əmələ gəlmişsə, üstünlük o kreditorundur, bunu müəyyənləşdirmək mümkün olmadıqda isə daha əvvəl iddia irəli sürənindir.

452.2. Kreditor öhdəliyin predmeti olan əmlakın ona verilməsini tələb etmək əvəzinə zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Maddə 453. Subsidiar məsuliyyət

453.1. Kreditor bu Məcəlləyə və ya öhdəliyin şərtlərinə görə əsas borclu olan digər şəxsin məsuliyyətinə əlavə məsuliyyət (subsidiar məsuliyyət) daşıyan şəxsə qarşı tələblərini irəli sürənədək əsas borcluya qarşı tələb irəli sürməlidir.

453.2. Əgər əsas borclu kreditorun tələbini ödəməkdən imtina etmişsə və ya kreditor irəli sürdüyü tələb üçün ondan ağlabatan müddətdə cavab almamışsa, bu tələb subsidiar məsuliyyət daşıyan şəxsə qarşı irəli sürülə bilər.

453.3. Əgər kreditorun əsas borcluya tələbi əsas borclunun qarşılıqlı tələbinin əvəzləşdirilməsi yolu ilə ödənilə bilərsə, kreditor bu tələbin ödənilməsini subsidiar məsuliyyət daşıyan şəxsdən tələb edə bilməz.

453.4. Subsidiar məsuliyyət daşıyan şəxs kreditorun ona qarşı irəli sürdüyü tələbi ödəyənədək bu barədə əsas borclunu xəbərdar etməlidir, həmin şəxsə qarşı iddia irəli sürüldükdə isə əsas borclunu işdə iştiraka cəlb etməlidir. Əks halda əsas borclu subsidiar məsuliyyət daşıyan şəxsin reqres tələbinə qarşı kreditorun tələblərinə qarşı olan etirazlarını irəli sürmək hüququna malikdir.

Maddə 454. Öhdəliklər üzrə məsuliyyətin ölçüsünün məhdudlaşdırılması

454.1. Öhdəliklərin ayrı-ayrı növləri üzrə və müəyyən fəaliyyət növü ilə bağlı öhdəliklər üzrə qanunla zərərin əvəzinin tam ödənilməsi hüququ məhdudlaşdırıla bilər (məhdud məsuliyyət).

454.2. Qoşulma müqaviləsi üzrə və ya kreditorun istehlakçı kimi çıxış edən fiziki şəxs olduğu digər müqavilə üzrə borclunun məsuliyyət ölçüsünün məhdudlaşdırılması haqqında razılaşma, əgər həmin öhdəlik növü və ya həmin pozuntu üçün məsuliyyət ölçüsü bu Məcəllə ilə müəyyənləşdirilmişsə və əgər razılaşma öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyətə səbəb olan hallar baş verənə qədər bağlanmışsa, əhəmiyyətsizdir.

~~***Maddə 455. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin öhdəliyin pozulması üçün məsuliyyətinin xüsusi əsasları***~~

~~*Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, sahibkarlıq fəaliyyəti ilə məşğul olarkən, öhdəliyi icra etməmiş və ya lazımınca icra etməmiş şəxs lazımınca icranın qarşısıalınmaz qüvvənin, yəni həmin şəraitdə fövqəladə və qarşısı alına bilməyən halların nəticəsində qeyri-mümkün olduğunu sübuta yetirməsə, məsuluyyət daşıyır. Borclunun kontragentləri tərəfindən vəzifələrin pozulması, bazarda lazımi malların olmaması və ya borcluda zəruri pul vəsaitinin olmaması bu cür hallara aid deyildir.*~~ (3, 11)

Maddə 456. Borclunun öz işçilərinin hərəkətləri üçün məsuliyyəti

Borclunun öhdəliyini icra etmək üçün onun işçilərinin yerinə yetirdikləri hərəkətlər borclunun hərəkətləri sayılır. Əgər həmin hərəkətlər öhdəliyin icra edilməməsinə və lazımınca icra edilməməsinə səbəb olmuşsa, borclu bu hərəkətlər üçün məsuliyyət daşıyır.

~~***Maddə 457. Üçüncü şəxslərin hərəkətləri üçün borclunun məsuliyyəti***~~

~~Borclu icranın həvalə edildiyi üçüncü şəxslər tərəfindən öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşıyır, bu şərtlə ki, bu Məcəllədə birbaşa icraçı olan üçüncü şəxsin məsuliyyət daşıması müəyyənləşdirilməsin.~~ (12)

Maddə 458. Öhdəliyin hər iki tərəfin təqsiri üzündən pozulmasının nəticələri

458.1. Əgər öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi hər iki tərəfin təqsiri üzündən baş vermişsə, məhkəmə borclunun məsuliyyətinin ölçüsünü müvafiq surətdə azaldır. Kreditor icra etməmək və ya lazımınca icra etməmək nəticəsində dəyən zərərin miqdarının artmasına qəsdən və ya ehtiyatsızlıq üzündən kömək göstərdikdə və ya zərəri azaltmaq üçün ağlabatan tədbirlər görmədikdə də, məhkəmə borclunun məsuliyyətinin ölçüsünü azalda bilər.

458.2. Bu Məcəllənin 458.1-ci maddəsinin qaydaları bu Məcəlləyə və ya müqaviləyə görə borclunun öz təqsirindən asılı olmayaraq, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşıdığı hallarda da müvafiq surətdə tətbiq edilir.

Maddə 459. İlkin vəziyyəti bərpa etmək vəzifəsi

459.1. Zərərin əvəzini ödəməyə borclu olan şəxs əvəz ödəməyə borclu edən hal baş verməsəydi, mövcud olacaq vəziyyəti bərpa etməlidir.

459.2. Əgər bədən xəsarəti və ya sağlamlığa zərər vurulması nəticəsində zərərçəkən əmək qabiliyyətini itirmişsə və ya bu qabiliyyəti azalmışsa, yaxud onun tələbatı artırsa, zərərçəkənə zərərin əvəzi aylıq dolanacaq xərcinin verilməsi ilə ödənilməlidir.

459.3. Zərərçəkən müalicə xərclərini qabaqcadan tələb edə bilər. Yeni peşəyə yiyələnmək zərurəti yarandıqda da eyni qayda qüvvədə olur.

459.4. Əgər vacib əsaslar olduğu aşkardırsa, zərərçəkən dolanacaq xərclərinin əvəzinə kompensasiya verilməsini tələb edə bilər.

459.5. Əgər ilkin vəziyyətin bərpası yolu ilə zərərin əvəzinin ödənilməsi mümkün deyildirsə və ya bunun üçün tənasübsüz surətdə böyük xərclər zəruridirsə, kreditora pul əvəzi verilə bilər.

459.6. Qabaqcadan razılaşmaya əsaslanaraq, öhdəliyin pozulması nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan imtina etmək yolverilməzdir.

459.7. Zərərin həcmi müəyyənləşdirilərkən öhdəliyin lazımınca icrası barəsində kreditorun mənafeləri də nəzərə alınmalıdır. Zərərin həcminin müəyyənləşdirilməsi üçün müqavilənin icrası yeri və vaxtı da nəzərə alınmalıdır.

24-cü fəsil. Öhdəliklərin icrasının təmin edilməsi

§ 1. Öhdəliklərin icrasının təmin edilməsi haqqında ümumi müddəalar

Maddə 460. Öhdəliklərin icrasının təmin edilməsi üsulları

460.1. Öhdəliklərin icrası girov, dəbbə pulu, borclunun əmlakının saxlanması, zaminlik, qarantiya, beh ilə və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan digər üsullarla təmin edilə bilər.

460.2. Öhdəliyin icrasının təmin edilməsi barədə razılaşmanın etibarsızlığı əsas öhdəliyin etibarsızlığına səbəb olmur.

460.3. Əgər bu Məcəllə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, əsas öhdəliyin etibarsızlığı onu təmin edən öhdəliyin etibarsızlığına səbəb olur.

Maddə 461. Öhdəliyin icrası təminatının əvəz edilməsi

461.1. Öhdəliklərin icrası üçün təminat vermiş şəxs kreditorun razılığı ilə ~~və ya məhkəmənin qərarına əsasən~~ onu başqa təminatla əvəz edə bilər.

~~461.2. Əgər öhdəliyin icrası üçün təminat kreditorun təqsiri olmadan yetərli deyildirsə, o tamamlanmalı və ya əvəzinə başqa təminat verilməlidir.~~ (12)

§ 2. Dəbbə pulu

Maddə 462. Dəbbə pulu anlayışı

462.1. Dəbbə pulu (cərimə, penya) müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləğidir. Əgər öhdəliyin məzmununu hərəkətdən çəkinmək təşkil edirsə, dəbbə pulu hərəkətin edildiyi andan tutulmalıdır. Dəbbə pulunun ödənilməsi tələbi üzrə kreditor ona zərər vurulduğunu sübuta yetirməyə borclu deyildir.

462.2. Əgər borclu öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşımırsa, kreditor dəbbə pulunun ödənilməsini tələb edə bilməz.

462.3. Müqavilənin tərəfləri dəbbə pulunun miqdarını sərbəst müəyyənləşdirə bilərlər və bu, mümkün zərərdən çox ola bilər.

462.4. Əgər öhdəliyin icrası barədə vəd bu Məcəlləyə görə etibarsız sayılırsa, həmin öhdəliyin icra edilməməsi üçün dəbbə pulu haqqında qəbul edilmiş razılaşma da, hətta həmin vədin etibarsızlığı tərəflərə məlum olsa belə, etibarsızdır.

462.5. Əgər borclu öz öhdəliyini icra etdiyinə görə dəbbə pulu tutulması barədə mübahisə edirsə, o, icranı sübuta yetirməlidir, bu şərtlə ki, öhdəlik hərəkətdən çəkinməkdən ibarət olmasın.

Maddə 463. Dəbbə pulu haqqında razılaşmanın forması

463.1. Dəbbə pulu haqqında razılaşma əsas öhdəliyin formasından asılı olmayaraq yazılı formada bağlanmalıdır.

463.2. Yazılı formaya riayət edilməməsi dəbbə pulu haqqında razılaşmanın etibarsızlığına səbəb olur.

Maddə 464. Qanun üzrə dəbbə pulunun ödənilməsi

464.1. Kreditor qanunla müəyyənləşdirilmiş dəbbə pulunun ödənilməsini, tərəflərin razılaşmasında onun ödənilməsi vəzifəsinin nəzərdə tutulub-tutulmadığından asılı olmayaraq, tələb edə bilər.

464.2. Əgər qanunla qadağan edilməyibsə, tərəflər qanun üzrə dəbbə pulunun miqdarını artıra bilərlər.

Maddə 465. Öhdəliyin icra edilməməsi üçün cərimə ödənilməsi

465.1. Əgər borclu öhdəliyin icra edilməməsi üçün cərimə ödəyəcəyini vəd edirsə, kreditor müqavilənin icrası əvəzinə dəbbə pulu ödənilməsini tələb edə bilər. Əgər kreditor borcluya cərimə ödənilməsini tələb etdiyini elan edərsə, öhdəliyin icra edilməsi barədə tələb istisna olunur. Əgər kreditorun icra etməmək nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi hüququ varsa, o, tutulmalı olan cəriməni zərərin minimum məbləği kimi tələb edə bilər. Bununla kreditorun digər zərərin tutulması hüququ istisna edilmir.

465.2. Əgər borclu öhdəliyin lazımınca icra edilməməsi, o cümlədən müəyyənləşdirilmiş müddətdə icra edilməməsi üçün cərimə ödəyəcəyini vəd etmişdirsə, kreditor cərimənin ödənilməsini və öhdəliyin icrasını tələb edə bilər. Əgər kreditorun lazımınca icra etməmək nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi hüququ varsa, kreditor onun ödənilməsini tələb edə bilər. Əgər kreditor icranı qəbul etmişsə, cərimənin tutulmasını yalnız icranı qəbul edərkən bu hüququ özündə saxlamış olduğu halda tələb edə bilər.

465.3. Əgər borclu pul cəriməsinin ödənilməsi əvəzinə başqa hərəkəti icra edəcəyini vəd edirsə, bu Məcəllənin 465.1 və 465.2-ci maddələrinin tələbləri tətbiq edilir.

Maddə 466. Zərər və dəbbə pulu

466.1. Əgər öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün dəbbə pulu müəyyənləşdirilmişsə, zərərin dəbbə pulu çatmamış hissəsinin əvəzi ödənilir.

466.2. Qanunda və ya müqavilədə aşağıdakı hallar nəzərdə tutula bilər:

466.2.1. zərərin deyil, yalnız dəbbə pulunun tutulmasına yol verilə bilər;

466.2.2. dəbbə pulundan artıq zərər tam məbləğdə tutula bilər;

466.2.3. kreditorun seçiminə uyğun, ya dəbbə pulu, ya da zərər tutula bilər.

466.3. Öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məhdud məsuliyyətin müəyyənləşdirildiyi hallarda dəbbə pulu çatmayan və ya dəbbə pulundan yuxarı hissədə və ya onun əvəzinə ödənilməli olan zərər həmin məhdudiyyətlə müəyyənləşdirilmiş həddə qədər tutula bilər.

Maddə 467. Məhkəmə tərəfindən dəbbə pulunun azaldılması

Məhkəmə işin hallarını nəzərə alaraq tənasübsüz surətdə yüksək dəbbə pulunu azalda bilər. Tənasüb müəyyənləşdirilərkən kreditorun həm əmlak mənafeləri, həm də bütün əsaslı mənafeləri nəzərə alınır. Dəbbə pulu ödənildikdən sonra onun miqdarının azaldılması istisna edilir.

§ 3. Saxlama

Maddə 468. Saxlama anlayışı və onun əsasları

468.1. Borcluya və ya borclunun göstərdiyi şəxsə verilməli əmlak kreditorda olduqda, əgər borclu həmin əmlakı ödəmək və ya kreditora bununla bağlı xərclərin və digər zərərin əvəzini ödəmək öhdəliyini vaxtında icra etməzsə, kreditorun həmin əmlakı müvafiq öhdəlik icra edilənədək saxlamaq ixtiyarı vardır.

468.2. Əmlakın və ya ona çəkilən xərclərin və digər zərərin əvəzinin ödənilməsi ilə bağlı olmasa da, tərəfləri sahibkarlar kimi fəaliyyət göstərən öhdəlikdən əmələ gələn tələblər də əmlakın saxlanması ilə təmin edilə bilər.

468.3. Kreditor onda olan əmlakı həmin əmlak kreditorun sahibliyinə daxil olduqdan sonra əmlaka hüquqları üçüncü şəxsin əldə etməsinə baxmayaraq saxlaya bilər.

468.4. Bu maddənin qaydaları, əgər müqavilədə ayrı şərt nəzərdə tutulmayıbsa, tətbiq edilir.

Maddə 469. Tələblərin saxlanan əmlak hesabına ödənilməsi

Əmlakı saxlayan kreditorun tələbləri girovla təmin edilmiş tələblərin ödənilməsi üçün nəzərdə tutulan həcmdə və qaydada əmlakın dəyərindən ödənilir.

§ 4. Zaminlik

Maddə 470. Zaminlik müqaviləsi

470.1. Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür.

470.2. Zaminlik müqaviləsi gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi üçün də bağlana bilər.

Maddə 471. Zaminlik müqaviləsinin forması

Zaminlik müqaviləsi yazılı formada bağlanmalıdır. Yazılı formaya riayət edilməməsi zaminlik müqaviləsinin etibarsızlığına səbəb olur.

Maddə 472. Zaminin məsuliyyəti

472.1. Borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər bu Məcəllədə və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

472.2. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, zamin kreditor qarşısında borclu ilə eyni həcmdə məsuliyyət daşıyır.

472.3. Birgə zamin olmuş şəxslər, əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

Maddə 473. Zaminin xidmətləri üçün muzd

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, zaminin borcluya göstərdiyi xidmətlər üçün muzd almaq hüququ vardır.

Maddə 474. Kreditorun tələblərinə qarşı zaminin etiraz hüququ

474.1. Əgər zaminlik müqaviləsindən ayrı qayda irəli gəlmirsə, zamin kreditorun tələbinə qarşı borclunun irəli sürə biləcəyi etirazları irəli sürə bilər. Zamin bu cür etirazlar irəli sürmək hüququnu hətta borclunun onlardan imtina etdiyi və ya öz borcunu etiraf etdiyi halda da itirmir.

474.2. Zamin kreditorun tələbini ödəyənədək bu barədə borclunu xəbərdar etməyə, zaminə qarşı iddia irəli sürüldükdə isə borclunu işdə iştiraka cəlb etməyə borcludur.

474.3. Zamin bu Məcəllənin 474.2-ci maddəsində göstərilən vəzifələri yerinə yetirmədikdə borclu zaminin reqres tələbinə qarşı kreditora qarşı olan etirazlarını irəli sürə bilər.

Maddə 475. Öhdəliyi icra etmiş zaminin hüquqları

475.1. Öhdəliyi icra etmiş zaminə kreditorun həmin öhdəlik üzrə hüquqları və kreditora girov saxlayan kimi mənsub olmuş hüquqlar zaminin kreditorun tələbini ödədiyi həcmdə keçir. Zamin həmçinin borcludan kreditora ödənilmiş məbləğdən faizlər ödəməyi və borclunun əvəzinə məsuliyyətlə bağlı çəkdiyi digər zərərin əvəzini ödəməyi tələb edə bilər.

475.2. Zamin öhdəliyi icra etdikdən sonra kreditor borcluya qarşı tələbi təsdiqləyən sənədləri zaminə təqdim etməyə və həmin tələbi təmin edən hüquqları verməyə borcludur.

475.3. Bu maddədə müəyyənləşdirilmiş qaydalar bu Məcəllədə və ya zaminin borclu ilə müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda və onlar arasında münasibətlərdən ayrı qayda irəli gəlmədikdə tətbiq edilir.

Maddə 476. Borclunun öhdəliyi icra etməsi barədə zaminə məlumat verilməsi

Zaminliklə təmin edilən öhdəliyi icra etmiş borclu bu barədə dərhal zaminə məlumat verməlidir. ~~Əks halda öz növbəsində öhdəliyi icra etmiş zamin kreditordan əsassız aldıqlarını tuta bilər və ya borcluya qarşı reqres tələb irəli sürə bilər.~~ (12)

Maddə 477. Zaminliyə xitam verilməsi

477.0. Zaminliyə aşağıdakı hallarda xitam verilir:

477.0.1. zaminliyin təmin etdiyi öhdəliyə xitam verildikdə, habelə zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda;

477.0.2. əgər zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq verməmişsə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə;

477.0.3. kreditor borclunun və ya zaminin təklif etdiyi lazımi icranı qəbul etməkdən imtina etdikdə;

477.0.4. zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda. Belə müddət təyin edilmədikdə zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir.

§ 5. Qarantiya

Maddə 478. Qarantiya anlayışı

Qarantiyaya əsasən qarant (bank, digər kredit idarəsi və ya sığorta təşkilatı) digər şəxsin (prinsipalın) xahişi ilə prinsipalın kreditoruna (benefisiara) qarantiya öhdəliyinin şərtlərinə uyğun olaraq benefisiar pul məbləğinin ödənilməsi barədə yazılı tələb təqdim etdikdə həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir.

Maddə 479. Prinsipalın öhdəliyinin qarantiya ilə təmin edilməsi

479.1. Qarantiya prinsipalın benefisiar qarşısında öhdəliyini (əsas öhdəliyi) lazımınca icra etməsini təmin edir.

479.2. Qarantiya verilməsinə görə prinsipal qaranta şərtləşdirilmiş muzd ödəyir.

Maddə 480. Qarantiyanın əsas öhdəlikdən asılı olmaması

Qarantın benefisiar qarşısında qarantiya ilə nəzərdə tutulan öhdəliyi müstəqil öhdəlikdir və icrasının təminatı üçün verildiyi əsas öhdəlikdən, hətta qarantiyada bu öhdəliyə istinad edilsə belə, asılı deyildir.

Maddə 481. Qarantiyanın geri götürülməzliyi

Əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, o, qarant tərəfindən geri götürülə bilməz.

Maddə 482. Qarantiya üzrə hüquqların başqasına verilə bilməməsi

Əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, qarantiya üzrə benefisiara mənsub olan, qaranta qarşı tələb irəli sürmək hüququ başqa şəxsə verilə bilməz.

Maddə 483. Qarantiyanın qüvvəyə minməsi

Əgər qarantiyada ayrı müddət nəzərdə tutulmayıbsa, qarantiya verildiyi gündən qüvvəyə minir.

Maddə 484. Qarantiya üzrə tələbin təqdim edilməsi

484.1. Benefisiarın qarantiya üzrə pul məbləği ödənilməsinə dair tələbi qarantiyada göstərilmiş sənədlər qoşulmaqla, qaranta yazılı formada təqdim edilməlidir. Tələbdə və ya ona qoşmada benefisiar prinsipalın təminatı üçün qarantiya verilmiş əsas öhdəliyi pozmasının nədən ibarət olduğunu göstərməlidir.

484.2. Benefisiarın tələbi qaranta qarantiyada müəyyənləşdirilmiş verilmə müddəti qurtaranadək təqdim edilməlidir.

Maddə 485. Benefisiarın tələbinə baxarkən qarantın vəzifələri

485.1. Benefisiarın tələbini aldıqda qarant bu barədə ləngimədən prinsipala məlumat verməli və tələbin surətini ona aid bütün sənədlərlə birlikdə prinsipala təqdim etməlidir.

485.2. Qarant qoşulmuş sənədlərlə birlikdə benefisiarın tələbinə qarantiyada göstərilmiş müddətdə, müddət göstərilmədikdə isə ağlabatan müddətdə baxmalı, həmin tələbin və ona qoşulmuş sənədlərin qarantiya şərtlərinə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirməyə ciddi diqqət göstərməlidir.

Maddə 486. Benefisiarın tələbini ödəməkdən qarantın imtina etməsi

486.1. Əgər benefisiarın tələbi və ya ona qoşulmuş sənədlər qarantiya şərtlərinə uyğun deyildirsə və ya qarantiyada təyin edilmiş müddət qurtardıqdan sonra qaranta təqdim edilmişdirsə, qarant bu tələbi ödəməkdən imtina edir. Qarant benefisiarın tələbini ödəməkdən imtina etdiyi barədə benefisiara dərhal məlumat verməlidir.

486.2. Əgər benefisiarın tələbini ödəyənə qədər qaranta məlum olsa ki, qarantiya ilə təmin edilmiş əsas öhdəlik tamamilə və ya müvafiq hissədə artıq icra edilmişdir, digər əsaslara görə xətm edilmişdir və ya etibarsızdır, bu barədə o dərhal benefisiara və prinsipala məlumat verməlidir. Bu cür məlumat verildikdən sonra qarant benefisiardan təkrarən aldığı tələbi ödəməlidir.

Maddə 487. Qarantın öhdəliyinin hədləri

487.1. Qarantın benefisiar qarşısında qarantiyada nəzərdə tutulan öhdəliyi qarantiya verilmiş məbləğin ödənilməsi ilə məhdudlaşır.

487.2. Qarantın qarantiya üzrə öhdəliyi yerinə yetirməməsi və ya lazımınca yerinə yetirməməsi üçün benefisiar qarşısında məsuliyyəti, əgər qarantiyada ayrı hal nəzərdə tutulmayıbsa, qarantiya verilmiş məbləğlə məhdudlaşmır.

Maddə 488. Qarantiyaya xitam verilməsi

488.1. Qarantın benefisiar qarşısında qarantiya üzrə öhdəliyinə aşağıdakılarda xitam verilir:

488.1.1. qarantiya verilmiş məbləğ benefisiara ödənildikdə;

488.1.2. qarantiyada müəyyənləşdirilmiş müddət qurtardıqda;

488.1.3. benefisiar qarantiya üzrə hüquqlarından imtina etdikdə və onu qaranta qaytardıqda;

488.1.4. benefisiar qarantı onun öhdəliyindən azad etməsi barədə yazılı ərizə vermək yolu ilə qarantiya üzrə hüquqlarından imtina etdikdə.

488.2. Bu Məcəllənin 488.1.1, 488.1.2 və 488.1.4-cü maddələrində nəzərdə tutulan əsaslar üzrə qarantın öhdəliyinə xitam verilməsi qarantiyanın ona qaytarıb-qaytarılmadığından asılı deyildir.

488.3. Qarantiyaya xitam verildiyindən xəbər tutan qarant bu barədə ləngimədən prinsipala məlumat verməlidir.

Maddə 489. Qarantın prinsipala qarşı reqres tələbləri

489.1. Qarantın qarantiya üzrə benefisiara ödənilmiş məbləğlərin əvəzinin ödənilməsini prinsipaldan reqres qaydasında tələb etmək hüququ qarantla prinsipalın icrası üçün qarantiya verilmiş razılaşması ilə müəyyənləşdirilir.

489.2. Əgər qarantın prinsipalla razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, qarant prinsipaldan qarantiya şərtlərinə uyğun olmadan və ya qarantın benefisiar qarşısında öhdəliyinin pozulmasına görə benefisiara ödənilmiş məbləğlərin əvəzini tələb edə bilməz.

~~***Maddə 490. Borclunun qarantiyası***~~

~~490.1. Borclunun qarantiyası elə öhdəlikdir ki, ona əsasən borclu hər hansı şərtsiz hərəkəti və ya müqavilə predmetinin hüdudlarından kənara çıxan hərəkəti icra etməyi öhdəsinə götürür.~~

~~490.2. Borclunun qarantiyası bu Məcəllədə nəzərdə tutulan qaydalara zidd olmadıqda və ya borclunu həddindən artıq yüklü etmədikdə etibarlı sayılır.~~

~~490.3. Borclunun qarantiyası yazılı surətdə rəsmiləşdirilməlidir.~~ (12)

§ 6. Beh

Maddə 491. Beh anlayışı

491.1. Beh müqavilənin bağlanmasını təsdiq etmək və icrasını təmin etmək məqsədi ilə razılığa gələn tərəflərdən birinin müqavilə üzrə digər tərəfə verəcəyi ödənişlər hesabına verdiyi pul məbləğidir.

491.2. Behin məbləğindən asılı olmayaraq beh haqqında razılaşma yazılı formada bağlanmalıdır.

491.3. Müqavilə üzrə tərəfin verəcəyi ödənişlər hesabına ödənilmiş məbləğin beh olub-olmadığına şübhə yarandıqda, o cümlədən bu Məcəllənin 491.2-ci maddəsində müəyyənləşdirilmiş qaydaya riayət edilməməsi nəticəsində şübhə yarandıqda həmin məbləğ, əgər əksi sübuta yetirilməsə, avans kimi ödənilmiş sayılır.

Maddə 492. Behlə təmin edilmiş öhdəliyə xitam verilməsinin və onun icra edilməməsinin nəticələri

492.1. Öhdəliyin icrasına başlanana qədər ona tərəflərin razılaşması üzrə və ya icranın mümkün olmaması nəticəsində xitam verildikdə beh qaytarılmalıdır.

492.2. Əgər müqavilənin icra edilməməsi üçün beh vermiş tərəf məsuliyyət daşıyırsa, beh digər tərəfdə qalır. Əgər müqavilənin icra edilməməsi üçün beh almış tərəf məsuliyyət daşıyırsa, o, digər tərəfə behin iki mislini ödəməlidir. Bundan əlavə, müqavilənin icra edilməməsi üçün məsuliyyət daşıyan tərəf, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, beh məbləği hesaba alınmaqla, zərərin əvəzini digər tərəfə ödəməyə borcludur.

25-ci fəsil. Öhdəlikdə kreditorların və ya borcluların çoxluğu

Maddə 493. Birgə kreditorlar və birgə səlahiyyətlər

493.1. Əgər bir neçə şəxs onlardan hər birinin tam icranı tələb edə biləcəyi şəkildə icranı tələb etməyə səlahiyyətlidirlərsə, borcluya isə yalnız birdəfəlik icra həvalə edilirsə, onlar birgə kreditorlardır.

493.2. Birgə səlahiyyətlər müqaviləyə, qanuna və ya öhdəlik predmetinin bölünməzliyinə əsasən əmələ gəlir.

Maddə 494. Öhdəliyin istənilən kreditora icra edilməsi

Əgər kreditorlardan biri bu Məcəllənin 493.1-ci maddəsində nəzərdə tutulan tələblə borcluya qarşı etiraz irəli sürməmişsə, borclu öhdəliyi öz arzusu ilə istənilən kreditora icra edə bilər.

Maddə 495. Öhdəliyin kreditorlardan birinə icra edilməsi

Öhdəliyin birgə kreditorlardan birinə tamamilə icra edilməsi borclunu digər kreditorlar qarşısında öhdəliklərdən azad edir.

Maddə 496. Birgə kreditorlardan birinin imtinasının nəticələri

Əgər birgə kreditorlardan biri borclu barəsində tələbdən imtina edirsə, borclu həmin kreditora çatası hissəni ödəməkdən azad edilir.

Maddə 497. Digər kreditorla bağlı faktlardan istifadənin yolverilməzliyi

Borclu kreditorlardan biri barəsində digər kreditorla bağlı faktlardan istifadə edə bilməz.

Maddə 498. Birgə kreditorun vərəsələrinin hüquqları

Əgər birgə kreditorun bir neçə vərəsəsi vardırsa, onlardan hər birinə borca hüququn yalnız onun vərəsəlik payına uyğun hissəsi keçir.

Maddə 499. Birgə kreditorun digər birgə kreditorlar qarşısında vəzifələri

499.1. Borcludan icranı tam almış kreditor qalan birgə kreditorlara çatası payı ödəməyə borcludur.

499.2. Əgər birgə kreditorlar arasında ayrı qayda müəyyənləşdirilməyibsə, onların öz qarşılıqlı münasibətlərində bərabər payları vardır.

Maddə 500. Birgə borclular və birgə öhdəliklər

500.1. Əgər öhdəliyin icrası bir neçə şəxsə onlardan hər birini öhdəliyin tam icrasında iştirak etməyə borclu edən şəkildə həvalə edilirsə, kreditor isə yalnız birdəfəlik icranı tələb etmək hüququna malikdirsə, onlar birgə borclulardır.

500.2. Birgə öhdəlik müqaviləyə, qanuna və ya öhdəlik predmetinin bölünməzliyinə əsasən əmələ gəlir.

Maddə 501. Kreditorun icranı istənilən borcludan tələb etmək hüququ

Kreditor öz arzusu ilə istənilən borcludan həm tam, həm də hissə-hissə icranı tələb edə bilər. Öhdəlik tam icra edilənədək qalan borcluların öhdəlikləri qüvvədə qalır.

Maddə 502. Birgə borclunun kreditor barəsində qarşılıqlı tələbi

Birgə borclunun kreditora qarşı müqavilənin mahiyyətindən irəli gələn və ya yalnız özünün hüququ çatan, yaxud birgə borcluların hamısı üçün ümumi olan bütün qarşılıqlı tələbləri irəli sürmək ixtiyarı vardır.

Maddə 503. Borclulardan birinin öhdəliyi tam icra etməsinin nəticələri

Borclulardan birinin öhdəliyin tam icra etməsi qalan borcluları icradan azad edir. Borclunun kreditor qarşısında həyata keçirdiyi əvəzləşdirmə barəsində də eyni qayda qüvvədə olur.

Maddə 504. Digər birgə borclu ilə bağlı faktlardan istifadənin yolverilməzliyi

Əgər öhdəlik münasibətlərinin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, birgə borclulardan biri ilə bağlı faktlardan yalnız həmin şəxs barəsində istifadə edilə bilər.

Maddə 505. Birgə borclulardan biri barəsində iddia

Birgə borclulardan biri barəsində iddia verilməsi kreditoru qalan borclular barəsində də iddia vermək hüququndan məhrum etmir.

Maddə 506. İcranın qəbulunun ləngidilməsinin nəticələri

506.1. Kreditorun birgə borclulardan birindən icranın qəbulunu ləngitməsinin nəticələri qalan birgə borclular barəsində də qüvvədədir.

506.2. Birgə borclulardan birinin icra müddətlərinə riayət etməməsinin nəticələrindən qalan birgə borclular barəsində istifadə oluna bilməz.

Maddə 507. Birgə borcluların vərəsələrinin hüquqları

Əgər birgə borclulardan birinin bir neçə vərəsəsi vardırsa, onlardan hər biri tələbi öz miras payına mütənasib surətdə icra etməyə borcludur. Əgər tələb bölünməzdirsə, bu qayda tətbiq edilmir.

Maddə 508. Kreditorun tələbinin birgə borclulardan birinin borcu ilə birləşdirməsi

Əgər kreditorun tələbi birgə borclulardan birinin borcu ilə birləşdirilirsə, qalan borclular barəsində öhdəliyə həmin borclunun payına düşən miqdarda xitam verilir.

Maddə 509. Borclulardan biri öhdəliyi tam icra etdikdə reqres qaydasında tələb hüququ

509.1. Birgə öhdəliyi icra etmiş borclu, əgər müqavilədə və ya bu Məcəllədə ayrı qayda müəyyənləşdirilməyibsə, qalan borclular barəsində onların paylarına mütənasib surətdə, lakin öz payı çıxılmaqla reqres qaydasında tələb hüququna malikdir.

509.2. Əgər borcluların məsuliyyətinin həcmini müəyyənləşdirmək mümkün deyildirsə, onlar bir-biri qarşısında eyni dərəcədə məsuliyyət daşıyırlar.

509.3. Kreditor qarşısında birgə öhdəliyi icra edən birgə borcluya kreditorun digər borclulara qarşı tələbi, habelə bu Məcəllənin 196-cı maddəsində nəzərdə tutulmuş qaydada kreditorun digər borclulara münasibətdə hüququ keçir. (12)

Maddə 510. Birgə borclunun ödəniş qabiliyyəti olmamasının nəticələri

Əgər borclulardan birinin ödəniş qabiliyyəti olmazsa, ona düşən pay ödəniş qabiliyyətli bütün digər borclular arasında mütənasib surətdə bölüşdürülür.

Maddə 511. Birgə borclunun kompensasiyası

Əgər birgə borclu birgə öhdəlikdən fayda götürmüşsə, belə fayda götürməmiş birgə borclu öz öhdəliyinin icrası üçün ondan təminat tələb edə bilər.

Maddə 512. Müddətin keçməsinin nəticələri

Birgə borclulardan biri barəsində müddətin axımının dayandırılmasının və ya xitamının digər borclular barəsində qüvvəsi yoxdur.

26-cı fəsil. Öhdəliklərin verilməsi (12)

~~§ 1. Tələblərin güzəşti~~

~~Maddə 513. Tələblərin güzəştinin əsasları və qaydası~~

513.1. Kreditor öhdəlik əsasında ona mənsub olan tələbi əqd üzrə başqa şəxsə verə bilər və ya bu tələb bu Məcəllənin tələbləri əsasında başqa şəxsə keçə bilər. Tələblərin güzəşt edilməsi haqqında qaydalar reqres tələblərə tətbiq edilmir.

513.2. Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, kreditorun tələblərinin güzəşti üçün borclunun razılığı tələb olunmur.

513.3. Əgər öhdəlik yalnız onun məzmununun dəyişdirildiyi halda başqa şəxsin xeyrinə icra edilə bilərsə və ya borclu ilə razılaşmaya görə güzəşt istisna edilmişdirsə, tələb güzəşt edilə bilməz.

513.4. Əgər tələblərin güzəşt edilməsi barədə borcluya yazılı bildiriş verilməmişdirsə, bunun onun üçün doğurduğu əlverişsiz nəticələrin riski yeni kreditorun üzərinə düşür. Bu halda öhdəliyin ilkin kreditora icra edilməsi münasib kreditora icraetmə sayılır.

513.5. Əgər bu Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa, tələblərin güzəşt edilməsi haqqında qaydalar müvafiq surətdə digər hüquqların verilməsinə də tətbiq edilir.

Maddə 514. Başqa şəxslərə güzəşt edilə bilməyən tələblər

Kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblərin, o cümlədən alimentlər haqqında və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblərin güzəşt edilməsinə yol verilir.

Maddə 515. Kreditorun başqa şəxsə güzəşt edilən tələblərinin həcmi

Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, ilkin kreditorun tələbi yeni kreditora hüququn keçdiyi məqamda mövcud olmuş həcmdə və şərtlərlə keçir. Xüsusilə öhdəliyin icrasını təmin edən hüquqlar, habelə tələblə bağlı olan digər hüquqlar, o cümlədən ödənilməmiş faizlərə hüquq yeni kreditora keçir. Tələb güzəşt edildikdə yeni kreditora girov və ipoteka hüququ, habelə ona verilmiş zaminlik üzrə hüquqlar keçir. Yeni kreditor məcburi icra və ya müflisolma halı üçün tələblə bağlı üstünlük hüququnu həyata keçirə bilər.

Maddə 516. Yeni kreditorun tələblərinin sübutu

516.1. Borclu yeni kreditora öhdəliyi tələbin həmin şəxsə keçdiyinə dair sübutlar ona təqdim edilənədək icra etməyə bilər.

516.2. Tələbi başqa şəxsə güzəşt etmiş kreditor ona tələb hüququnu təsdiqləyən sənədləri təqdim etməyə və tələbin həyata keçirilməsi üçün əhəmiyyət daşıyan məlumatları bildirməyə borcludur.

Maddə 517. Yeni kreditorun tələblərinə qarşı borclunun etirazları

517.1. Borclu öhdəlik üzrə tələblərin yeni kreditora güzəşt edildiyi barədə bildirişi aldığı məqamda ilkin kreditora qarşı malik olduğu etirazları yeni kreditorun tələbinə qarşı irəli sürə bilər.

517.2. Əgər borclu borc öhdəliyi vermişsə, borc öhdəliyinin təqdim edilməsi üzrə tələbin güzəşti zamanı o, yeni kreditor qarşısında buna istinad edə bilməz ki, öhdəlik münasibətlərinə girilməsi və ya onların təsdiqi yalnız görünüş üçün edilmişdir və ya ilkin

~~kreditorla razılaşmaya görə güzəşt istisna edilmişdir, amma güzəşt zamanı yeni kreditorun işin təfsilatını bildiyi və ya bilməli olduğu hallar istisna təşkil edir.~~

~~Maddə 518. Kreditorun tələblərinin qanun əsasında başqa şəxsə güzəşt edilməsi~~

~~518.0. Aşağıdakı hallarda kreditorun öhdəlik üzrə tələbləri qanun əsasında başqa şəxsə güzəşt edilir və qanunda göstərilmiş hallar baş verir:~~

~~518.0.1. kreditorun tələblərində universal hüquq varisliyi nəticəsində;~~

~~518.0.2. kreditorun tələblərinin başqa şəxsə keçirilməsinin mümkünlüyü qanunda nəzərdə tutulduqda bu cür keçirilmə barəsində məhkəmənin qərarı ilə;~~

~~518.0.3. borclunun öhdəliyinin onun zamini və ya həmin öhdəlik üzrə borclu olmayan girov qoyan tərəfindən icra edilməsi nəticəsində;~~

~~518.0.4. sığorta hadisəsinin baş verməsi üçün məsul borcluya qarşı kreditorun tələblərinin sığortaçıya subroqasiyası zamanı;~~

~~518.0.5. qanunda nəzərdə tutulan digər hallarda.~~

~~Maddə 519. Tələbin güzəşti şərtləri~~

~~519.1. Kreditorun tələbi başqa şəxsə güzəşt etməsinə bu şərtlə yol verilir ki, belə güzəşt bu Məcəlləyə və ya müqaviləyə zidd olmasın.~~

~~519.2. Kreditorun şəxsiyyətinin borclu üçün vacib əhəmiyyət daşıdığı öhdəlik üzrə tələbin borclunun razılığı olmadan güzəşt edilməsinə yol verilmir.~~

~~Maddə 520. Tələbin güzəşti forması~~

~~520.1. Sadə yazılı və ya notarial formada bağlanmış əqdə əsaslanan tələbin güzəşti müvafiq yazılı formada həyata keçirilməlidir.~~

~~520.2. Doğurduğu hüquqlar dövlət qeydiyyatına alınmalı olan əqd üzrə tələbin güzəşti həmin hüquqların qeydiyyatı üçün müəyyənləşdirilmiş qaydada qeydə alınmalıdır.~~

~~520.3. Orderli qiymətli kağız üzrə tələbin güzəşti həmin qiymətli kağız üzrə indossament yolu ilə həyata keçirilir.~~

~~Maddə 521. Tələbi güzəşt etmiş kreditorun məsuliyyəti~~

~~Tələbi güzəşt etmiş ilkin kreditor yeni kreditor qarşısında ona verilmiş tələbin etibarsızlığı üçün məsuliyyət daşıyır, lakin həmin tələbin borclu tərəfindən icra edilməməsinə cavabdeh deyildir, amma ilkin kreditorun borclu üçün yeni kreditor qarşısında zaminlik götürdüyü hal istisna təşkil edir.~~ (12)

~~§ 2. Öhdəliklərin verilməsi~~ (12)

Maddə 522. Öhdəliklərin verilməsi əsasları və qaydası

522.1. Kreditor ilə müqaviləyə əsasən öhdəlik üçüncü şəxsə verilə bilər; bunun nəticəsində o, əvvəlki borclunu əvəz edir.

522.2. Əgər borclu ilə öhdəliyin üçüncü şəxsə veriləcəyi barədə razılaşma əldə edilərsə, bu yalnız kreditorun icazəsi ilə etibarlı olur.

522.3. İcazə yalnız borclunun və ya üçüncü şəxsin kreditoru öhdəliyin verilməsindən xəbərdar etdiyi halda verilir. İcazə verilənədək tərəflər müqaviləni dəyişdirə və ya ləğv edə bilərlər. İcazə verməkdən imtina edilərsə, öhdəlik verilmiş sayılmır.

522.4. Borclu və ya üçüncü şəxs kreditordan icazəni müəyyənləşdirilmiş müddətdə elan etməyi tələb edirlərsə, icazə həmin müddət qurtaranadək elan edilir; bu edilməsə, hesab edilir ki, icazə verməkdən imtina olunmuşdur.

522.5. *Kreditor icazə verməyənədək, öhdəliyi üzərinə götürmüş şəxs şübhə olduğu halda borcluya münasibətdə kreditoru vaxtında təmin etmək öhdəliyi daşıyır.* Kreditorun icazə verməkdən imtina etdiyi halda da eyni qayda qüvvədə olur. (12)

Maddə 523. Torpaq sahəsini özgəninkiləşdirənin öhdəliklərinin verilməsi

523.1. Əgər torpaq sahəsini əldə edən şəxs özgəninkiləşdirənlə müqaviləyə əsasən özgəninkiləşdirənin torpaq sahəsinə ipoteka barəsində öhdəliyini öz üzərinə götürürsə, kreditor öhdəliyin verilməsinə icazəni yalnız özgəninkiləşdirənin ona bu barədə bildiriş göndərdiyi halda verə bilər.

523.2. Əgər bildirişin alınmasından altı ay keçmişdirsə, icazə kreditorun həmin müddət ərzində özgəninkiləşdirənə imtina etmədiyi halda verilmiş sayılır. Özgəninkiləşdirən yalnız o halda bildiriş göndərə bilər ki, mülkiyyətçi əldə edəni daşınmaz əmlakın dövlət reyestrində qeydə aldırmış olsun.

523.3. Bildiriş yazılı şəkildə tərtib edilir və öhdəliyi qəbul edənin əvvəlki borclunu əvəz etdiyini göstərir, bu şərtlə ki, kreditor altı ay ərzində bundan imtina etməsin. Əldə edənin tələbi ilə özgəninkiləşdirən öhdəliklərin verilməsi barədə kreditora bildiriş göndərməlidir. İcazə verildikdən və ya ondan imtina edildikdən dərhal sonra özgəninkiləşdirən əldə edənə bu barədə bildiriş göndərir.

Maddə 524. Öhdəliyi qəbul etmiş şəxsin etirazları

Öhdəliyi qəbul etmiş şəxs kreditorla əvvəlki borclunun hüquq münasibətlərindən irəli gələn etirazları kreditora qarşı irəli sürə bilər. O, əvvəlki borcluya mənsub tələbi hesaba ala bilməz. Öhdəliyi qəbul etmiş şəxs öhdəlik qəbul edənlə əvvəlki borclu arasında olan, öhdəliyin verilməsinin əsasında duran hüquq münasibətindən irəli gələn etirazları kreditora qarşı irəli sürə bilməz.

Maddə 525. Zaminlik öhdəliyinin, girov və ipoteka hüququnun verilmə nəticəsində ləğvi

Tələb üçün verilmiş zaminlik və girov hüququ öhdəliyin verilməsi nəticəsində ləğv edilir. Əgər tələb üçün ipoteka mövcuddursa, kreditorun ipotekadan etiraz etdiyi zaman baş verən eyni nəticələr baş verir. Əgər zamin və ya öhdəliyin verildiyi məqamda yüklü əşyanın mənsub olduğu şəxs razılıq verərlərsə, bu göstərişlər tətbiq edilmir. Müflisolma halı üçün tələblə bağlı üstünlük hüququ müflisolma zamanı öhdəliyi qəbul edənin əmlakı barəsində həyata keçirilə bilməz.

Maddə 526. Öhdəliyi qəbul etmiş şəxsin məsuliyyəti

Əgər kimsə müqaviləyə əsasən başqa şəxsin əmlakını qəbul edirsə, həmin şəxsin kreditorları əvvəlki borclunun məsuliyyətinin davam etməsinə baxmayaraq, müqavilənin bağlandığı andan özlərinin həmin vaxtadək mövcud olmuş pretenziyalarını əmlakı qəbul edənə qarşı irəli sürə bilərlər. Əmlakı qəbul edənin məsuliyyəti alınmış əmlakın tərkibi və müqavilə üzrə ona mənsub olan tələblər ilə məhdudlaşır. Əmlakı qəbul edənin məsuliyyəti onunla əvvəlki borclu arasındakı razılaşmaya əsasən istisna edilə və ya məhdudlaşdırıla bilməz.

27-ci fəsil. Öhdəliklərə xitam verilməsi

Maddə 527. Öhdəliklərə xitam verilməsi əsasları

527.1. Öhdəliyə icra, depozitə qoyma, qarşılıqlı əvəzləşdirmə, borcu bağışlama, müddətin keçməsi nəticəsində və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan digər əsaslar üzrə tamamilə və ya qismən xitam verilir.

527.2. Öhdəliyə tərəflərdən birinin tələbi ilə xitam verilməsinə yalnız bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan hallarda yol verilir.

§ 1. Öhdəliklərə icra nəticəsində xitam verilməsi

Maddə 528. Öhdəliyə kreditorun xeyrinə icra nəticəsində xitam verilməsi

Öhdəliyə onun kreditorun xeyrinə lazımınca icrası (icra) nəticəsində xitam verilir.

Maddə 529. Öhdəliyin icrasının qəbulu

529.1. Borclunun tələbi ilə kreditor icranı tamamilə və ya hissə-hissə qəbul etdiyini təsdiqləyən sənəd verməlidir.

529.2. Öhdəliyin icrası kimi təklif olunmuş hərəkəti qəbul edən kreditor, əgər onu öhdəliyin icrası kimi təsdiq etmək niyyətində deyildirsə, sübut etməlidir ki, o, icra edilməli öhdəlik deyil, başqasıdır və ya natamamdır və ya lazımi öhdəlik deyildir.

529.3. Əgər borclu kreditora öhdəliyin təsdiqi üçün borc sənədi vermişdirsə, kreditor icranı qəbul edərkən həmin sənədi qaytarmalı, qaytarmaq mümkün olmadıqda isə bunu icranı təsdiq etmək üçün verdiyi sənəddə göstərməlidir. İcranın tamamilə və ya hissə-hissə qəbulunu təsdiqləyən sənəd qaytarılan borc sənədinin üstündə qeydlə əvəz edilə bilər. Borc sənədinin borcluda olması, nə qədər ki ayrı hal sübuta yetirilməyib, öhdəliyə xitam verildiyini təsdiqləyir.

529.4. Borcun alınması barədə tərtib edilmiş, faizlərə dair məlumatlar göstərilməmiş sənəd nəzərdə tutur ki, həm faizlər ödənilmişdir, həm də pul öhdəliyinə tamamilə xitam verilir.

529.5. Borc vaxtaşırı, hissə-hissə ödənilərkən onun sonuncu hissəsinin ödənilməsi barədə sənəd, nə qədər ki ayrı hal müəyyənləşdirilməyib, ondan əvvəlki hissənin də ödənildiyini ehtimal etməyə əsas verir.

529.6. Əgər kreditor borc sənədini qaytara bilmirsə, borclu öhdəliyə xitam verildiyi barədə rəsmən təsdiqlənmiş arayış verilməsini tələb edə bilər.

529.7. İcra haqqında kreditorun və ya buna vəkil edilmiş şəxsin tərtib etdiyi sənəddə borcun həcmi və növü, borclunun və ya borcu ödəyən şəxsin adı, icranın vaxtı və yeri haqqında məlumatlar göstərilməlidir.

529.8. Tərəflərin razılaşması ilə öhdəliyə icra əvəzinə peşiman haqqı verilməsi (pul ödənilməsi, əmlak verilməsi və i.a.) ilə xitam verilə bilər. Peşiman haqqının miqdarını, habelə onun verilməsi müddətlərini və qaydasını tərəflər müəyyənləşdirirlər.

Maddə 530. İcra haqqında sənədin verilməsi xərclərinin ödənilməsi

530.1. İcra haqqında sənədin verilməsi xərcləri, əgər borclu ilə kreditor arasında razılaşmadan ayrı hal irəli gəlmirsə, borclunun öhdəsinə qoyulur.

530.2. Əgər kreditor yaşayış yerini dəyişdirərsə və ya vəfat edərsə və başqa yaşayış yerində onun vərəsələri qalarsa, icra haqqında sənədin verilməsi ilə bağlı artmış xərclər kreditorun və ya onun vərəsələrinin öhdəsinə qoyulur.

Maddə 531. Öhdəliyə novasiya nəticəsində xitam verilməsi

531.1. Öhdəliyə tərəflər arasında mövcud olmuş ilkin öhdəliyin eyni şəxslər arasında digər predmet və ya icra üsulu (novasiya) nəzərdə tutan başqa öhdəliklə əvəz edilməsi haqqında tərəflərin razılaşması ilə xitam verilir.

531.2. Həyata və ya sağlamlığa vurulmuş zərərin əvəzinin və alimentlərin ödənilməsi üzrə öhdəliklər barəsində novasiyaya yol verilmir.

531.3. Əgər ayrı qayda nəzərdə tutulmayıbsa, novasiya ilkin öhdəliklə bağlı olan əlavə öhdəliklərə xitam verir.

§ 2. Öhdəliyə depozitə qoyma nəticəsində xitam verilməsi

Maddə 532. Öhdəliyə depozitə qoyma nəticəsində xitam verilməsi anlayışı

532.1. Əgər kreditor icranın qəbulunu yubandırırsa və ya onun olduğu yer məlum deyildirsə, borclu icra predmetini saxlanmaq üçün məhkəməyə və ya notariata verə bilər, pulları və ya qiymətli kağızları isə notariusun depozit hesabına qoya bilər. Depozitə qoyma barəsində borclu ləngimədən kreditora bildiriş göndərməlidir.

~~532.2. Depozitə qoyma nəticəsində borclu kreditor qarşısında öhdəlikdən azad edilir.~~

532.3. Əgər depozitə qoyulmuş əşyanın qaytarılması istisnadırsa, borclu öz öhdəliyindən azad edilir, çünki bu halda depozitə qoyma öhdəliyin kreditora icra edilməsinə bərabər tutulur.

532.4. Əgər borclu öhdəliyi yalnız kreditor öz öhdəliyini icra etdikdən sonra icra etməlidirsə, kreditorun depozitə qoyulmuş əşyanı almaq hüququnu qarşılıqlı öhdəliyin icrasından asılı edə bilər. (12)

Maddə 533. Depozitə qoyulmuş əmlakın kreditora verilməsi

533.1. Məhkəmə və ya notarius depozitə qoyulmuş əmlakı kreditora verməlidir. Məhkəmə və ya notarius mühafizi seçir, sənədlər isə onda qalır.

533.2. Depozitə qoyma öhdəliyin icra edildiyi yerdəki məhkəmədə və ya notariatda həyata keçirilməlidir. Əgər borclu depozitə qoymanı başqa yerdə həyata keçirərsə, kreditorun bununla əlaqədar düşə biləcəyi zərərin əvəzini ödəməlidir.

533.3. Əgər depozitə qoyulmuş əşya məhkəməyə və ya notariata poçtla göndərilmişsə, depozitin qüvvədə olma müddəti əşyanın göndərilmək üçün poçta verildiyi tarixə keçirilir.

Maddə 534. Depozitə qoyulmaq üçün yararlı predmet

534.1. Predmet saxlanmaq üçün yararlı olmalıdır. Tez xarab olan predmetlər saxlanmağa qəbul edilmir.

534.2. Əgər öhdəlik predmeti olan daşınar əşya tez xarab olduğuna və ya saxlanması tənasübsüz surətdə yüksək xərclərlə bağlı olduğuna görə depozitə qoyulmaq üçün yararlı deyildirsə, borclu onu öhdəliyin icra yerində hərracdan sata bilər, satış pulunu isə depozitə qoya bilər.

Maddə 535. Saxlanma yeri

Saxlanma icra yerində həyata keçirilməlidir.

Maddə 536. Kreditordan predmeti qəbul etməyin tələb olunması

Məhkəmə və ya notarius predmetin saxlanmağa qəbul edildiyi barədə kreditora məlumat verir və predmeti qəbul etməyi ondan tələb edir.

Maddə 537. Saxlama ilə bağlı xərclərin ödənilməsi

Saxlama ilə bağlı bütün xərclər kreditorun üzərinə düşür.

Maddə 538. Borclunun saxlanmağa verdiyi predmeti tələb etməsi

538.1. Borclu saxlanmağa verdiyi predmetin kreditor tərəfindən qəbul edilənə qədər qaytarılmasını tələb edə bilər, bu şərtlə ki, lap əvvəldən o, qaytarmadan imtina etməmiş olsun. Borclu predmetin qaytarılmasını tələb edirsə, saxlama baş tutmamış sayılır.

538.2. Kreditor predmetdən imtina edirsə və ya bu Məcəllənin 539-cu maddəsində müəyyənləşdirilən müddət qurtarmışsa, borclu təhvil verdiyi predmeti geri götürə bilər.

538.3. Borclu predmeti geri götürürsə, saxlama xərcləri onun üzərinə düşür.

Maddə 539. İcra predmetinin saxlanma müddəti

Məhkəmə və ya notarius icra predmetini üç ilədək müddətə saxlayır. Əgər həmin müddət ərzində kreditor predmeti qəbul etməzsə, bu barədə borcluya məlumat verilməklə, ondan təhvil verdiyi predmeti geri götürməsi tələb olunur. Borclu predmeti geri götürülmə üçün zəruri olan müddət ərzində almazsa, o, dövlət əmlakı sayılır.

§ 3. Öhdəliyə qarşılıqlı tələblərin əvəzləşdirilməsi ilə xitam verilməsi (əvəzləşdirmə)

Maddə 540. Öhdəliklərin əvəzləşdirilməsinin mümkünlüyü

540.1. Əgər iki şəxs arasında mövcud olan qarşılıqlı tələblərin icra müddəti çatmışsa, həmin tələblərə onların əvəzləşdirilməsi yolu ilə xitam verilə bilər.

540.2. Tələblərin əvəzləşdirilməsi tələblərdən birinin icra müddətinin hələ çatmadığı, lakin bu tələbə hüququ olan tərəfin əvəzləşdirməyə tərəfdar olduğu halda da mümkündür. Tələblərin əvəzləşdirilməsi bu barədə digər tərəfə məlumat verməklə həyata keçirilir. Məlumat hər hansı şərtlə və ya müddətin müəyyənləşdirilməsi ilə bağlı olduqda etibarsızdır.

Maddə 541. Tələbin güzəşti zamanı əvəzləşdirmə

541.1. Tələb güzəşt edilərkən borclu ilk kreditora qarşı özünün qarşılıqlı tələbini yeni kreditorun tələbi ilə əvəzləşdirə bilər.

541.2. Əvəzləşdirmə bu şərtlə aparıla bilər ki, tələb onun güzəşt edilməsi barədə borclunun bildiriş aldığı anda mövcud olmuş əsasa görə əmələ gəlsin və tələbin müddəti o alınana qədər çatsın və ya həmin müddət göstərilməsin və ya tələbetmə anı ilə müəyyənləşdirilsin.

Maddə 542. Əvəzləşdirmə tələbinin müddəti

Əgər tələbin əvəzləşdirilməsinin hələ mümkün olduğu vaxtadək tələb üzrə müddət keçməyibsə, tələbin müddəti öhdəliklərin əvəzləşdirilməsini istisna etmir.

Maddə 543. Əvəzləşdirilən tələblər

Əgər əvəzləşdirilən tələblər bir-birini tam ödəmirsə, yalnız digər tələbin həcmindən az olan həcm əvəzləşdirilir.

Maddə 544. İcra yerləri müxtəlif olduqda öhdəliklərin əvəzləşdirilməsi

Öhdəliklərin icrası üçün müxtəlif yerlər nəzərdə tutulduqda da onların əvəzləşdirilməsinə yol verilir.

Maddə 545. Tələblərin əvəzləşdirilməsinin yolverilməzliyi

545.0. Aşağıdakı hallarda öhdəliklərin əvəzləşdirilməsinə yol verilmir:

545.0.1. tələblərin əvəzləşdirilməsi razılaşma yolu ilə əvvəlcədən istisna edilmişsə;

545.0.2. öhdəliyin predmetinə tutmanı yönəltmək olmazsa və ya öhdəliyin predmeti yaşayış vasitəsidirsə;

545.0.3. öhdəlik sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsini nəzərdə tutursa;

545.0.4. digər tərəfin ərizəsi ilə tələbə iddia müddəti tətbiq edilməli olduqda və bu müddət keçdikdə;

545.0.5. alimentlərin tutulması ilə bağlı olduqda;

545.0.6. bu, Azərbaycan Respublikasının və ya bələdiyyənin tələbidirsə; digər tərəfin qarşılıqlı əvəzləşdirmə tələbi hansı orqanın vəsaitindən ödənilməlidirsə, öhdəliyin də həmin orqanın xeyrinə icra edilməli olduğu hallar istisna təşkil edir.

545.0.7. bu Məcəllədə nəzərdə tutulmuş digər hallarda.

§ 4. Borcun bağışlanması ilə öhdəliyin xitamı

Maddə 546. Borcun bağışlanması anlayışı

Kreditorun borclunu onun üzərinə düşən vəzifədən azad etməsi (borcun bağışlanması) ilə öhdəliyə xitam verilir, bu şərtlə ki, həmin hərəkət kreditorun əmlakı barəsində başqa şəxslərin hüquqlarını pozmasın.

Maddə 547. Borcun bağışlanmasının digər birgə borclular üçün nəticələri

Birgə borclulardan birinə borcun bağışlanması digər birgə borcluları da azad edir, amma kreditorun onlara qarşı tələbini özündə saxlaması halı istisna təşkil edir. Bu halda kreditor azad edilmiş borclunun payını çıxmaqla, qalan birgə borclular barəsində yalnız bir tələbdən istifadə edə bilər.

Maddə 548. Borcun əsas borcluya bağışlanmasının nəticələri

548.1. Borcun əsas borcluya bağışlanması zaminləri də azad edir.

548.2. Zaminin borcu ödəməkdən azad edilməsi əsas borclunu öhdəliyin icrasından azad etmir.

548.3. Zaminlərdən birinin borcu ödəməkdən azad edilməsi digər borcluları da azad edir.

Maddə 549. İkitərəfli müqavilə üzrə tələblərdən imtinanın nəticələri

İkitərəfli müqavilənin tərəflərindən birinin öz tələbindən imtina etməsi öhdəliyin xitamına səbəb olmur. Həmin tərəf digər tərəfin də öz tələbindən imtina etməsinə qədər müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etməlidir.

§ 5. Müddətin keçməsinə görə öhdəliyin xitamı

Maddə 550. Tələblər üçün müddət

Tələbə, yəni digər şəxsdən hərəkətin edilməsini və ya edilməməsini tələb etmək hüququna müddətin keçməsinə görə xitam verilə bilər.

Maddə 551. Öhdəliklərin xitamı üçün müddətlər

551.1. Əgər bu Məcəllə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bütün tələblər on il (adi müddət) keçdikdən sonra qüvvəsini itirir.

551.2. Aşağıdakı tələblər beş il keçdikdən sonra qüvvəsini itirir:

551.2.1. kirayə haqqı, icarə haqqı, kapital üçün faizlər və digər vaxtaşırı ödənişlər haqqında tələblər;

551.2.2. ərzaq məhsulları, qida və içki satışı və ya gələnlərə yaşayış yeri verilməsi üzrə tələblər;

551.2.3. zavod tikintisi, mallar satışı, daşımalar üzrə tələblər, sərbəst peşə adamlarının (məsələn, həkimlərin, vəkillərin və ya məsləhətçilərin) tələbləri, habelə işçilərin əmək münasibətləri üzrə tələbləri;

551.2.4. məhkəmə qərarına əsasən əmələ gələn tələb otuz il keçdikdən sonra qüvvəsini itirir. Bu qayda tələbin daha qısa müddətlə bağlı olduğu halda da tətbiq edilir.

Maddə 552. Öhdəliklərin xitamı üçün müddətin axımının başlanması

552.1. Müddətin axımı tələbin icra müddətinin çatması ilə başlanır. Müddət hesablanarkən müddətin başlandığı gün nəzərə alınmır. Öhdəliyin məzmunu hərəkətsizlikdirsə, müddət bu öhdəliyin yerinə yetirilmədiyi andan başlanır.

552.2. Aşağıdakı hallarda müddətin axımı başlanmır və müddət dayandırılır:

552.2.1. öhdəliyin icrasına möhlət verildikdə və ya öhdəlik götürən başqa halla əlaqədar onun icrasından müvəqqəti imtina etmək hüququna malik olduqda;

552.2.2. müddətin son altı ayı ərzində məhkəmə baxışının dayandırılması nəticəsində ixtiyarlı şəxs öz hüququnun məhkəmə müdafiəsini həyata keçirmək imkanından məhrum olana qədər. Bu cür imkansızlıq qarşısıalınmaz qüvvə nəticəsində baş verdikdə də eyni qayda qüvvədə olur;

552.2.3. söhbət ərlə arvadın tələblərindən gedirsə, nikah pozulana qədər. Eyni qayda uşaqlar yetkinlik yaşına çatanadək valideynlərin və uşaqların tələbləri üçün və qəyyumluq və himayəçilik üzrə münasibətlər dövründə qəyyumun və qəyyumluqda olanın tələbləri üçün də qüvvədədir;

552.2.4. söhbət təmsilçisi olmayan məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan şəxsdən gedirsə, bu şəxsin fəaliyyət qabiliyyətini itirdiyi andan altı ay keçənədək.

552.3. Müddətin axımı kəsilirsə, kəsilmə anınadək keçən vaxt nəzərə alınmır; yeni müddət yalnız kəsilmə qurtardıqdan sonra başlanır.

Maddə 553. Öhdəliklərin xitamı üçün müddətin kəsilməsi

553.1. Aşağıdakı hallarda müddətin axımı kəsilir:

553.1.1. mükəlləfiyyətli şəxs tələbi ixtiyarlı şəxsə hissə-hissə ödənişlərlə, faizlər ödəməklə, təminat verməklə və ya digər üsulla icra edirsə;

553.1.2. ixtiyarlı şəxs məhkəməyə iddia verirsə.

553.2. Müddətin kəsilməsi iddia üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarı qəbul edilənədək davam edir.

Maddə 554. Öhdəliklərin xitamı üçün müddətin keçməsinin nəticələri

554.1. Müddət keçdikdən sonra mükəlləfiyyətli şəxsin öhdəliyin icrasından imtina etmək hüququ vardır.

554.2. Öhdəlik müddətin keçdiyini bilmədən icra olunduqda belə, müddətin keçməsinə görə qüvvəsini itirmiş tələbin ödənilməsi üçün icra olunmuşları geri istəmək olmaz.

554.3. Əsas tələblə birlikdə ondan asılı olan əlavə öhdəliklərin icrasına dair tələb də müddətin keçməsinə görə qüvvəsini itirir.

554.4. Müddətin keçməsi tərəflərin razılaşması ilə istisna edilə və ya çətinləşdirilə bilməz. Tərəflər müddətin keçməsinin sadələşdirilməsi, o cümlədən onun qısaldılması barədə razılaşa bilərlər.

§ 6. Öhdəliyin xitamının digər əsasları

Maddə 555. Borclu və kreditor eyni şəxs olduqda öhdəliyin xitamı

Borclu və kreditor eyni şəxs olduqda öhdəliyə xitam verilir.

Maddə 556. İcra mümkün olmadığına görə öhdəliyin xitamı

556.1. İcra mümkün olmadıqda, yəni icra edilməmə tərəflərin heç birinin cavabdeh olmadığı haldan irəli gəldikdə, öhdəliyə xitam verilir. Bu halda kreditor borcludan öhdəliyin icrasını tələb edə bilməz.

556.2. Borclunun öhdəliyi yerinə yetirməsi kreditorun təqsirli hərəkətləri nəticəsində mümkün olmadıqda, kreditor öhdəlik üzrə özünün icra etdiklərini qaytarmağı tələb edə bilməz.

Maddə 557. Dövlət və ya bələdiyyə orqanının aktına əsasən öhdəliyin xitamı

557.1. Dövlət və ya bələdiyyə orqanının qəbul etdiyi akt nəticəsində öhdəliyin icrası tamamilə və ya qismən qeyri-mümkün olduqda, *öhdəliyin icrası müddəti uzadıldıqda* öhdəliyə tamamilə və ya müvafiq hissədə xitam verilir. *Bu halda dövlət və ya bələdiyyə vurulmuş ziyanla əlaqədar verilə bilən iddialar üzrə reqressant qismində çıxış edir və bunun* nəticəsində zərər çəkmiş tərəflər bu Məcəllənin 19 və 22-ci maddələrinə uyğun olaraq zərərin əvəzinin ödənilməsini tələb edə bilərlər.

557.2. Öhdəliyin xitamı üçün əsas olmuş dövlət və ya bələdiyyə orqanının aktı müəyyənləşdirilmiş qaydada etibarsız sayıldıqda, əgər tərəflərin razılaşmasından və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə və öhdəliyin icrasına kreditorun marağı itməyibsə, öhdəlik bərpa edilir. (2)

Maddə 558. Borclunun ölümü nəticəsində öhdəliyin xitamı

558.1. Əgər borclunun şəxsi iştirakı olmadan icra mümkün deyilsə, onun ölümü öhdəliyin xitamına səbəb olur.

558.2. İcra şəxsən kreditor üçün nəzərdə tutulmuşdusa, onun ölümü öhdəliyin xitamına səbəb olur.

Maddə 559. Hüquqi şəxsin ləğvi nəticəsində öhdəliyin xitamı

Hüquqi şəxsin (borclunun və ya kreditorun) ləğvinin qeydə alındığı andan onun öhdəliklərinə xitam verilir.

28-ci fəsil. Mülki hüquqların həyata keçirilməsi

Maddə 560. Hüquqdan sui-istifadənin qadağan edilməsi

560.1. Mülki hüquqlar hüquqa uyğun həyata keçirilməlidir. Hüquqdan yalnız başqalarına ziyan vurmaq məqsədi ilə istifadə edilməsi yolverilməzdir.

560.2. Hüquqdan sui-istifadəyə yol verilmir, bu əsas üzərində həyata keçirilən razılaşmalar və hərəkətlər isə etibarsızdır.

560.3. Hüquqdan sui-istifadə xüsusən aşağıdakılardır:

560.3.1. qeyri-qanuni və ya müqavilənin ziddinə əldə edilmiş hüquqların həyata keçirilməsi;

560.3.2. şəxsin öz vəzifələrini kobudcasına pozmasına baxmayaraq hüquqlarını həyata keçirməsi;

560.3.3. müdafiə edilməli olan şəxsi mənafeyin əsaslarını təşkil etməyən hüququn həyata keçirilməsi;

560.3.4. digər tərəfin güvəndiyi və güvənmiş olduğu əvvəlki rəftara zidd hüququn həyata keçirilməsi;

560.3.5. bir və ya daha çox kommersiya hüquqi şəxslərinin bazarda və ya istehsal sektorunda özünün əlverişli vəziyyətindən sui-istifadə etməsi, əgər bu, mal dövriyyəsi və ya istehsal xidmətləri üçün bazar şəraitinin xeyli pozulması ilə nəticələnə bilərsə, məsələn:

560.3.5.1. alğı-satqının tənasübsüz qiymətlərinə və ya əqdin digər şərtlərinə birbaşa və ya dolayısı ilə məcburetmə;

560.3.5.2. istehlakçıların zərərinə istehsalın, satışın və ya texniki inkişafın məhdudlaşdırılması;

560.3.5.3. müqavilə üzrə tərəfdaşlar üçün bərabər dəyərli xidmətlərdən ötrü rəqabətdə onların mənafelərinə toxunulmasına səbəb olan müxtəlif şərtlər tətbiq edilməsi;

560.3.5.4. müqavilənin bağlanmasının elə bir müəyyən şərtlə bağlılığı ki, həmin şərtə görə müqavilə üzrə tərəfdaşlar nə obyektiv surətdə, nə də ticarət adətlərinə görə müqavilənin predmeti ilə əlaqədar olmayan əlavə xidmətləri yerinə yetirməli olurlar;

560.3.6. kommersiya hüquqi şəxslərinin razılaşmaları, öz aralarında razılaşdırdıqları hərəkət metodları, əgər bunlar mal dövriyyəsi və ya istehsal xidmətləri üçün bazar şəraitinin xeyli pozulması ilə nəticələnə bilərsə və rəqabətin qarşısının alınması, məhdudlaşdırılması və ya təhrif edilməsi məqsədi daşıyarsa və ya buna kömək edərsə, o cümlədən:

560.3.6.1. qiymətlərin və ya əqdlərin digər şərtlərinin birbaşa və ya dolayısı ilə təyin edilməsi;

560.3.6.2. istehsala nəzarətin, satışın, texniki inkişafın və ya investisiyaların məhdudlaşdırılması;

560.3.6.3. bazarların və ya təchizat mənbələrinin bölünməsi;

560.3.6.4. bu Məcəllənin 560.3.5.3-cü və 560.3.5.4-cü maddələrində göstərilən praktika.

Maddə 561. Dövlət hakimiyyətinin inhisarı

Mülki hüquqların həyata keçirilməsinin təmin edilməsi, güc və ya məcburetmə tətbiq olunması dövlətin inhisarındadır. Bu məqsədlə dövlət mülki prosessual qanunla və məhkəmə qərarlarının icrasına dair qanunvericiliklə tənzimlənən metodlar tətbiq edir.

Maddə 562. Ləngitmə hüququ

562.1. Əgər bu Məcəlləyə və ya müqaviləyə görə borclunun kreditor barəsində hüququ və ya bununla əlaqədar ödəniş müddəti çatmış tələbi varsa, borclu onun barəsində öhdəlik icra edilənədək öz öhdəliyinin icrasından imtina edə bilər (ləngitmə hüququ).

562.2. Əgər qarşılıqlı müqavilə bağlandıqdan sonra digər tərəfin vəziyyəti xeyli pisləşərsə və bunun nəticəsində qarşılıqlı öhdəliyin icrası hüququ təhlükə altında olarsa, qarşılıqlı müqaviləyə görə öhdəliyi birinci icra etməli olan şəxs digər tərəf öhdəliyini yerinə yetirənə və ya öz öhdəliyi üçün təminat verənə qədər öhdəliyin icrasından imtina edə bilər.

562.3. Əgər ləngitmə predmeti qanunsuz əldə edilmişsə, ləngitmə hüququ istisna edilir.

562.4. Əgər qarşılıqlı icra olunan öhdəliklər qarşılıqlı müqavilənin predmeti deyilsə, kreditor qarantiyalar vermək yolu ilə ləngitmə hüququnun həyata keçirilməsinin qarşısını ala bilər.

562.5. Kreditorun iddiası üzrə ləngitmə hüququ yalnız o zaman həyata keçirilə bilər ki, borcluya öhdəliyi ancaq kreditorun öz öhdəliyini icra etdiyi vaxt icra etmək (eyni vaxtda icra) vəzifəsi tapşırıla bilsin. Vəzifənin bu cür tapşırılması əsasında kreditor, əgər borclu icranın qəbulunu gecikdirərsə, öz öhdəliyini icra etmədən məcburi icra tələb edə bilər.

Maddə 563. Zəruri müdafiə

563.1. Zəruri müdafiə vəziyyətində edilən hərəkət hüquqa uyğundur, yəni hüquqa zidd deyildir və bu zaman vurulan ziyanın əvəzi ödənilməməlidir.

563.2. Zəruri müdafiə elə şəkildə özünümüdafiədir ki, o, özünə və ya digər şəxslərə qarşı hüquqa zidd real həmlənin dəf edilməsi üçün zəruridir.

563.3. Əgər hər hansı şəxs zəruri müdafiə həddini təqsirli şəkildə aşmışsa və ya zəruri müdafiə vəziyyətini qəsdən törətmişsə və ya hüquqa zidd hərəkətin qarşısını almaq üçün zəruri olan ilkin şəraitin mövcudluğu barədə təqsirli şəkildə yanılmışsa, vurulmuş ziyanın əvəzini ödəməlidir.

Maddə 564. Son zərurət

564.1. Müdafiə zamanı son zərurət vəziyyətində edilən hərəkət hüquqa uyğundur, yəni hüquqa zidd deyildir və bu zaman vurulan ziyanın əvəzi ödənilməməlidir *bu şərtlə ki, ziyan son zərurət vəziyyətinin baş verməsinə səbəb olmuş təhlükəni yaradan şəxsə və ya əşyaya vurulsun*.

564.2. Son zərurət elə vəziyyətdir ki, həmin vəziyyətdə başqa vasitələrlə qarşısı alına bilməyən real təhlükənin qarşısını almaq üçün qarşısı alınmış təhlükəyə nisbətən daha az ziyan vurulur.

564.3. Son zərurət vəziyyətində ziyanın vurulduğu faktik halları nəzərə almaqla, onun əvəzinin ödənilməsi ziyanı vurmuş şəxs kimin mənafeyi üçün hərəkət etmişsə, həmin üçüncü şəxsin üzərinə qoyula bilər.

564.4. Əgər son zərurət vəziyyətində vurulmuş ziyan qarşısı alınmış ziyandan çoxdursa, həmin ziyanı vurmuş şəxs onun əvəzini ödəməlidir. (12)

Maddə 565. Özünəyardım

565.1. Səlahiyyətli dövlət orqanlarının köməyi vaxtında yetişmədikdə və təcili müdaxilə edilmədən hüququn həyata keçirilməsinin qeyri-mümkün olacağı və ya xeyli çətinləşəcəyi təhlükəsi olduqda özünəyardım məqsədi ilə əşyanı alan, məhv edən və ya zədələyən, yaxud gizlənə biləcək mükəlləfiyyətli şəxsi tutan və ya özünün yerinə yetirməli olduğu hərəkətlər barəsində mükəlləfiyyətli şəxsin müqavimətinin qarşısını alan şəxsin hərəkətləri hüquqa zidd sayılmır.

565.2. Özünəyardım təhlükənin qarşısını almaq və ya onu dəf etmək üçün zəruri olan hədləri aşa bilməz.

565.3. Kiminsə əlindən əşya alındıqda bu barədə dərhal bəyanat verilməlidir.

565.4. Mükəlləfiyyətli şəxs tutulduqda, o, dərhal müvafiq dövlət orqanlarına təhvil verilməlidir.

565.5. Özünəyardım tədbirləri həyata keçirildikdən bilavasitə sonra təsdiq olunmaq üçün səlahiyyətli dövlət orqanına bəyan edilmədikdə və ya həmin orqan belə bəyanatı yolverilməz və ya əsassız bəyanat kimi rədd etdikdə, özünəyardım tədbirləri lap əvvəlindən qeyri-hüquqi sayılır. Özünəyardım tədbirləri hüquqa zidd halın qarşısını almaq üçün zəruri olan ilkin şəraitin mövcudluğu barədə yanlış mülahizə ilə həyata keçirildikdə, hərəkəti etmiş şəxs, yanılmanın ehtiyatsızlıqdan irəli gəlmədiyi halda belə, ziyanın əvəzini digər tərəfə ödəməlidir.

Maddə 566. Öhdəliyin icrası barədə məlumat verilməsi

566.1. Öhdəliyin icrasının gedişi barədə kreditorun borcludan məlumat almaq hüququ vardır.

566.2. Öhdəliyin icrası barədə məlumatı aşağıdakılar verməlidirlər:

566.2.1. bu Məcəllə və ya müqavilə üzrə bu vəzifənin tapşırıldığı şəxs;

566.2.2. borclunun işlərini tamamilə və ya qismən həyata keçirən şəxs;

566.2.3. gəlir və xərclərlə bağlı idarəetmə barədə hesabat verməli olan şəxs.

566.3. Əgər məlumat verməli olan şəxs məlumatı yalnız böyük xərc çəkməklə verə bilərsə, xərci kreditor çəkir.

566.4. Verilmiş məlumatın lazımi vicdanlılıqla tərtib olunmadığını ehtimal etməyə əsas olduqda, kreditorun tələbi ilə borclu və ya vəkil edilmiş şəxs məlumatın vicdanla tərtib olunduğuna yazılı surətdə inandırmalıdır. Məhkəmə mübahisəsi əmələ gəldikdə, bu cür yazılı inandırmanın sübutetmə qüvvəsi vardır.

Xüsusi hissə

Yeddinci bölmə. Müqavilələrdən əmələ gələn öhdəliklər

29-cu fəsil. Alğı-satqı

§ 1. Alğı-satqı haqqında ümumi müddəalar

Maddə 567. Alğı-satqı müqaviləsi

Alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.

Maddə 568. Satıcının əşyanı vermək vəzifəsi

568.1. Satıcı alğı-satqı müqaviləsində nəzərdə tutulan əşyanı alıcıya verməyə borcludur.

568.2. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, satıcı əşyanı alıcıya verməklə bir vaxtda onun ləvazimatını, habelə əşyaya aid olan, qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulan sənədləri də (texniki pasportu, keyfiyyət sertifikatını, istismar təlimatını və i.a.) verməyə borcludur.

Maddə 569. Əşyanı vermək vəzifəsinin icrası müddəti

569.1. Satıcının əşyanı alıcıya vermək vəzifəsinin icrası müddəti alğı-satqı müqaviləsi ilə, müqavilə həmin müddəti müəyyənləşdirməyə imkan vermədikdə isə bu Məcəllənin 427-ci maddəsində nəzərdə tutulan qaydalara uyğun müəyyənləşdirilir.

569.2. Əgər alğı-satqı müqaviləsinin icrası müddətinin pozulduğu halda alıcının ona marağının itməsi müqavilədən aydın şəkildə irəli gəlirsə, belə müqavilə qəti müəyyənləşdirilmiş müddətədək icra edilmək şərti ilə bağlanmış sayılır. Satıcı müqavilədə müəyyənləşdirilmiş müddət çatanadək və ya müddət keçdikdən sonra həmin müqaviləni yalnız alıcının razılığı ilə icra edə bilər.

Maddə 570. Satıcının əşyanı vermək vəzifəsinin icrası məqamı

570.1. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, satıcının əşyanı alıcıya vermək vəzifəsi aşağıdakı məqamda icra edilmiş sayılır:

570.1.1. müqavilədə satıcının əşyanı çatdırmaq vəzifəsi nəzərdə tutulubsa, əşyanın alıcıya və ya onun göstərdiyi şəxsə təhvil verildiyi məqamda;

570.1.2. əşya alıcıya və ya onun göstərdiyi şəxsə əşyanın olduğu yerdə verilməlidirsə, onun alıcının ixtiyarına verildiyi məqamda. Əşya müqavilədə nəzərdə tutulan müddətdə lazımi yerdə verilməyə hazır olduqda və müqavilənin şərtlərinə müvafiq surətdə alıcı bundan xəbərdar olduqda əşya alıcının ixtiyarına verilmiş sayılır. Əgər əşya nişanlanma yolu ilə və ya başqa şəkildə müqavilənin məqsədləri üçün eyniləşdirilməyibsə, verilməyə hazır sayılmır.

570.2. Alğı-satqı müqaviləsindən satıcının əşyanı çatdırmaq və ya olduğu yerdə alıcıya vermək vəzifəsinin irəli gəlmədiyi hallarda satıcının əşyanı alıcıya vermək vəzifəsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, əşyanın alıcıya çatdırılmaq üçün daşıyıcıya və ya rabitə təşkilatına təhvil verildiyi məqamda icra edilmiş sayılır.

Maddə 571. Əşyanın təsadüfən məhv olması və təsadüfən zədələnməsi riskinin alıcıya keçməsi

571.1. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski müqaviləyə uyğun olaraq satıcının əşyanı alıcıya vermək vəzifəsini icra etmiş sayıldığı andan alıcıya keçir.

571.2. Yolda olduğu vaxt satılmış əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski, alğı-satqı müqaviləsində və ya işgüzar dövriyyə adətlərində ayrı qayda nəzərdə tutulmayıbsa, alğı-satqı müqaviləsinin bağlandığı andan alıcıya keçir.

571.3. Əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riskinin malın birinci daşıyıcıya təhvil verildiyi andan alıcıya keçməsi barədə müqavilə şərti alıcının tələbi ilə məhkəmə tərəfindən o halda etibarsız sayıla bilər ki, müqavilənin bağlandığı anda satıcı əşyanın itirildiyini və ya zədələndiyini bilirdi və ya bilməli idi, lakin bu barədə alıcıya məlumat verməmişdir.

Maddə 572. Satıcının üçüncü şəxslərin hüquqlarından azad əşya vermək vəzifəsi

572.1. Alıcının üçüncü şəxslərin hüquqları ilə yüklü olan əşyanı qəbul etməyə razılıq verdiyi hal istisna olmaqla, satıcı alıcıya üçüncü şəxslərin hüquqlarından azad əşya verməyə borcludur. Satıcının bu vəzifəni icra etməməsi alıcıya əşyanın qiymətinin azaldılmasını və ya alğı-satqı müqaviləsinin ləğvini tələb etmək hüququ verir, bu şərtlə ki, alıcının həmin əşyaya üçüncü şəxslərin hüquqları olduğunu bildiyi ~~və ya bilməli olduğu~~ sübuta yetirilməsin.

572.2. Bu Məcəllənin 572.1-ci maddəsində nəzərdə tutulan qaydalar əşyanın verildiyi məqamda üçüncü şəxslərin əşyaya iddialarının olduğu və satıcının bu iddiaları bildiyi halda da, əgər sonralar həmin iddialar müəyyənləşdirilmiş qaydada hüquqa uyğun sayılmışsa, müvafiq surətdə tətbiq edilir. (12)

Maddə 573. Alıcıdan əşyanın geri alındığı halda satıcının məsuliyyəti

573.1. Alğı-satqı müqaviləsi icra edilənədək əmələ gəlmiş əsaslar üzrə üçüncü şəxslər əşyanı alıcıdan geri aldıqda, satıcı, alıcının həmin əsasların mövcudluğunu bildiyini ~~və ya bilməli olduğunu~~ sübuta yetirməsə, alıcıya dəymiş zərərin əvəzini ödəməyə borcludur.

573.2. Alıcının əldə etdiyi malı ondan üçüncü şəxslərin tələb etdiyi halda satıcının məsuliyyətdən azad edilməsi və ya bu məsuliyyətin məhdudlaşdırılması haqqında tərəflərin razılaşması əhəmiyyətsizdir. (12)

Maddə 574. Əşyanın geri alınması barədə iddia irəli sürüldükdə alıcının və satıcının vəzifələri

574.1. Əgər üçüncü şəxs alğı-satqı müqaviləsi icra edilənədək əmələ gəlmiş əsas üzrə alıcıya qarşı əşyanın geri alınması barədə iddia irəli sürərsə, alıcı satıcını işdə iştiraka cəlb etməyə, satıcı isə alıcının tərəfində bu işə daxil olmağa borcludur.

574.2. Alıcının satıcını işdə iştiraka cəlb etməməsi satıcını alıcı qarşısında məsuliyyətdən azad edir, bu şərtlə ki, satıcı işdə iştirak etməklə satılmış əşyanın alıcıdan geri alınmasına yol verməyə biləcəyini sübuta yetirsin.

574.3. Alıcının işdə iştiraka cəlb etdiyi, lakin işdə iştirak etməmiş satıcı alıcının işi yanlış apardığını sübuta yetirmək hüququndan məhrum olur.

Maddə 575. Əşyanı vermək vəzifəsinin icra edilməməsinin nəticələri

575.1. Əgər satıcı satılmış əşyanı alıcıya verməkdən imtina edirsə, alıcı alğı-satqı müqaviləsinin icrasından imtina edə bilər.

575.2. Satıcı fərdi-müəyyən əşyanı verməkdən imtina etdikdə alıcı satıcıya qarşı bu Məcəllənin 452-ci maddəsində nəzərdə tutulan tələbləri irəli sürə bilər.

Maddə 576. Əşyaya aid ləvazimatı və sənədləri vermək vəzifəsinin icra edilməməsinin nəticələri

Əgər satıcı verməli olduğu əşyaya aid ləvazimatı və ya sənədləri alıcıya vermirsə və ya verməkdən imtina edirsə, alıcı bunların verilməsi üçün ona ağlabatan müddət təyin edə bilər. Satıcı əşyaya aid ləvazimatı və ya sənədləri göstərilmiş müddətdə vermədikdə, alıcı, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, əşyadan imtina edə bilər.

Maddə 577. Satılan əşyaların miqdarı

577.1. Alıcıya verilməli əşyaların miqdarı alğı-satqı müqaviləsində müvafiq ölçmə vahidləri ilə və ya pulla ifadə olunur. Əşyaların miqdarı haqqında şərt müqavilədə onun müəyyənləşdirilməsi qaydasının təyin edilməsi yolu ilə razılaşdırıla bilər.

577.2. Əgər alğı-satqı müqaviləsi verilməli əşyaların miqdarını müəyyənləşdirməyə imkan vermirsə, müqavilə bağlanmış sayılmır.

Maddə 578. Əşyaların miqdarı haqqında şərtin pozulmasının nəticələri

578.1. Satıcı alğı-satqı müqaviləsini pozaraq alıcıya müqavilədə müəyyənləşdirildiyindən az miqdarda əşya verdikdə, alıcı, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, çatışmayan miqdarda əşya verilməsini tələb edə bilər və ya verilmiş əşyadan və onu ödəməkdən imtina edə bilər, əşya ödənilmiş olduqda isə ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər.

578.2. Əgər satıcı alıcıya alğı-satqı müqaviləsində nəzərdə tutulan miqdardan çox əşya verərsə, alıcı bu Məcəllənin 595.1-ci maddəsində nəzərdə tutulan qaydada satıcıya bu barədə bildiriş verməlidir. Satıcı alıcının bildirişini aldıqdan sonra ağlabatan müddətdə əşyaların müvafiq hissəsinə dair sərəncam verməzsə, alıcı, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, bütün əşyaları qəbul edə bilər.

578.3. Alıcı alğı-satqı müqaviləsində göstərilən miqdardan çox əşyanı qəbul etdikdə, əlavə qəbul edilmiş əşyalar, əgər tərəflərin razılaşması ilə ayrı qiymət müəyyənləşdirilməyibsə, müqaviləyə uyğun qəbul edilmiş mal üçün müəyyənləşdirilmiş qiymətlə ödənilir.

Maddə 579. Əşyaların çeşidi

579.1. Əgər alğı-satqı müqaviləsinə görə növlər, modellər, ölçülər, rənglər və ya digər əlamətlər üzrə müəyyən nisbətdə (çeşiddə) əşyalar verilməlidirsə, satıcı alıcıya tərəflərin razılaşdırdıqları çeşiddə əşyalar verməyə borcludur.

579.2. Əgər alğı-satqı müqaviləsində çeşid və onun müəyyənləşdirilməsi qaydası göstərilməyibsə, lakin öhdəliyin mahiyyətindən alıcıya əşyaların çeşiddə verilməli olduğu irəli gəlirsə, satıcı müqavilənin bağlandığı məqamda alıcının ona məlum olmuş tələbatını əsas götürməklə alıcıya əşyaları çeşiddə verə bilər və ya müqavilənin icrasından imtina edə bilər.

Maddə 580. Əşyaların çeşidi haqqında şərtin pozulmasının nəticələri

580.1. Satıcı alğı-satqı müqaviləsində nəzərdə tutulan əşyaları müqaviləyə uyğun gəlməyən çeşiddə verdikdə alıcı onları qəbul etməkdən və ödəməkdən imtina edə bilər, ödəmiş olduqda isə ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər.

580.2. Əgər satıcı alıcıya alğı-satqı müqaviləsinə uyğun çeşiddə əşyalarla yanaşı çeşid haqqında şərti pozmaqla əşyalar verərsə, alıcının ixtiyarı var ki, öz seçimi ilə:

580.2.1. çeşid haqqında şərtə uyğun gələn əşyaları qəbul etsin, qalan əşyalardan isə imtina etsin;

580.2.2. verilmiş əşyaların hamısından imtina etsin;

580.2.3. çeşid haqqında şərtə uyğun gəlməyən əşyaların müqavilədə nəzərdə tutulan çeşiddə əşyalarla əvəz olunmasını tələb etsin;

580.2.4. verilmiş əşyaların hamısını qəbul etsin.

580.3. Alğı-satqı müqaviləsinin şərtinə uyğun gəlməyən çeşiddə əşyalardan imtina edərkən və ya çeşid haqqında şərtə uyğun gəlməyən malların əvəz olunması tələbini irəli

sürərkən alıcı həmin malları ödəməkdən imtina edə də bilər, onları ödəmiş olduqda isə ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər.

580.4. Alğı-satqı müqaviləsinin çeşid haqqında şərtinə uyğun gəlməyən əşyalar o halda qəbul edilmiş sayılır ki, alıcı onları qəbul etdikdən sonra ağlabatan müddətdə satıcıya öz imtinasını bildirməsin.

580.5. Əgər alıcı çeşidi alğı-satqı müqaviləsinə uyğun gəlməyən əşyalardan imtina etməzsə, onları satıcı ilə razılaşdırılmış qiymətlə ödəməlidir. Satıcı qiymətin razılaşdırılması üçün ağlabatan müddətdə zəruri tədbirlər görmədikdə, alıcı əşyaları müqavilənin bağlandığı an müqayisəyə gələn şəraitdə oxşar əşyalar üçün adətən alınan qiymətlə ödəyir.

580.6. Bu maddənin qaydaları alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda tətbiq edilir.

Maddə 581. Əşyaların keyfiyyəti

581.1. Satıcı alıcıya keyfiyyəti alğı-satqı müqaviləsinə uyğun gələn əşya verməyə borcludur.

581.2. Alğı-satqı müqaviləsində əşyanın keyfiyyəti haqqında şərtlər olmadıqda, satıcı alıcıya bu cür malın adətən istifadə edildiyi məqsədlərə yarayan əşya verməyə borcludur. Əgər müqavilə bağlanarkən alıcı əşyanı əldə etməsinin konkret məqsədləri barəsində satıcıya məlumat vermişdirsə, satıcı alıcıya həmin məqsədlər üçün istifadəyə yarayan əşya verməyə borcludur.

581.3. Əşyanı nümunəyə və (və ya) təsvirə əsasən satarkən, satıcı alıcıya nümunəyə və (və ya) təsvirə uyğun gələn əşya verməyə borcludur.

581.4. Satılan əşyanın keyfiyyəti barəsində məcburi tələblər olduqda, sahibkarlıq fəaliyyəti ilə məşğul olan satıcı alıcıya həmin məcburi tələblərə uyğun gələn əşya verməyə borcludur. Tərəflər arasında razılaşmaya əsasən satıcı keyfiyyət üçün müəyyənləşdirilmiş məcburi tələblərə nisbətən daha yüksək tələblərə uyğun gələn əşya verə bilər.

Maddə 582. Malın keyfiyyəti üçün qarantiya

582.1. Satıcının alıcıya verməli olduğu əşya alıcıya verildiyi məqamda bu Məcəllənin 581-ci maddəsində nəzərdə tutulan tələblərə uyğun gəlməlidir, bu şərtlə ki, alğı-satqı müqaviləsində əşyanın həmin tələblərə uyğunluğunu müəyyənləşdirməyin ayrı məqamı nəzərdə tutulmasın. Verilən əşya bu cür əşyaların adətən istifadə edildiyi məqsədlər üçün ağlabatan müddət ərzində yararlı olmalıdır.

582.2. Alğı-satqı müqaviləsində satıcının əşyanın keyfiyyəti üçün qarantiya verməsinin nəzərdə tutulduğu halda satıcı alıcıya bu Məcəllənin 581-ci maddəsində nəzərdə tutulan tələblərə müqavilə ilə müəyyənləşdirilmiş vaxt (qarantiya müddəti) ərzində uyğun gəlməli əşya verməlidir.

582.3. Əşyanın keyfiyyəti üçün qarantiya, əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, onun tərkib hissələrinə (komplektləşdirici məmulata) də şamil edilir.

Maddə 583. Qarantiya müddətinin hesablanması

583.1. Qarantiya müddətinin axımı, əgər alğı-satqı müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, əşyanın alıcıya verildiyi məqamdan başlanır.

583.2. Əgər alıcı müqavilə ilə qarantiya müddəti müəyyənləşdirilmiş əşyadan istifadə etmək imkanından satıcıdan asılı səbəblərə görə məhrum olarsa, qarantiya müddətinin axımı satıcı müvafiq səbəbləri aradan qaldırdıqdan sonra başlanır. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, qarantiya müddəti əşyada aşkar edilmiş qüsurlara görə ondan istifadənin mümkün olmadığı müddət qədər artırılır, bu şərtlə ki, əşyanın qüsurları haqqında satıcıya bu Məcəllənin 595.1-ci maddəsində müəyyənləşdirilmiş qaydada bildiriş verilsin.

583.3. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, komplektləşdirici məmulat üçün qarantiya müddəti əsas məmulat üçün qarantiya müddətinə bərabər sayılır və əsas məmulat üçün qarantiya müddəti ilə eyni vaxtda başlanır.

583.4. Satıcının qarantiya müddəti ərzində qüsurları aşkar edilmiş əşyanın (komplektləşdirici məmulatın) əvəzinə verdiyi əşya (komplektləşdirici məmulat) üçün, əgər alğı-satqı müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, əvəz edilmiş əşya (komplektləşdirici məmulat) ilə eyni qarantiya müddəti müəyyənləşdirilir.

Maddə 584. Əşyanın yararlıq müddəti

584.1. Qanunvericilik, dövlət standartlarının məcburi tələbləri və ya digər məcburi qaydalar ilə əşyanın təyinatı üzrə istifadəyə yararlığına həd qoyan müddət (yararlıq müddəti) müəyyənləşdirilə bilər.

584.2. Satıcı yararlıq müddəti müəyyənləşdirilmiş əşyanı alıcıya elə hesabla verməlidir ki, yararlıq müddəti bitənədək əşyadan təyinatı üzrə istifadə edilə bilsin.

Maddə 585. Əşyanın yararlıq müddətinin hesablanması

Əşyanın yararlıq müddəti onun hazırlandığı gündən hesablanan, istifadəyə yararlığını göstərən vaxt dövrü ilə və ya əşyanın istifadəyə yararlığının bitdiyi tarixlə müəyyənləşdirilir.

Maddə 586. Əşyanın keyfiyyətinin yoxlanması

586.1. Qanunvericilikdə, dövlət standartlarının məcburi tələblərində və ya alğı-satqı müqaviləsində əşyanın keyfiyyətinin yoxlanması nəzərdə tutula bilər.

586.2. Əgər bu Məcəllənin 586.1-ci maddəsinə uyğun olaraq əşyanın keyfiyyətinin yoxlanması qaydası müəyyənləşdirilməyibsə, əşyanın keyfiyyəti işgüzar dövriyyə adətlərinə və ya alğı-satqı müqaviləsi üzrə verilməli əşyanın yoxlanmasının adətən tətbiq edilən digər şərtlərinə müvafiq surətdə yoxlanılır.

586.3. Əgər qanunvericilikdə, dövlət standartlarının məcburi tələblərində və ya alğı-satqı müqaviləsində satıcının alıcıya verilən əşyanın keyfiyyətini yoxlamaq vəzifəsi (sınama, analiz, müayinə və i.a.) nəzərdə tutulmuşdursa, satıcı əşyanın keyfiyyətinin yoxlanıldığına dair alıcıya sübutlar təqdim etməlidir.

586.4. İstər satıcı, istərsə də alıcı tərəfindən əşyanın keyfiyyətinin yoxlanmasının qaydası, habelə digər şərtləri eyni olmalıdır.

Maddə 587. Lazımi keyfiyyətli olmayan əşyanın verilməsinin nəticələri

587.1. Əgər satıcı əşyanın qüsurları barəsində qabaqcadan məlumat verməmişsə, lazımi keyfiyyətli olmayan əşyanın verildiyi alıcının ixtiyarı var ki, *satıcının təqsiri olub-olmamasından asılı olmayaraq,* satıcıdan öz seçimi ilə aşağıdakıları tələb etsin:

587.1.1. alış qiymətinin mütənasib azaldılması;

587.1.2. əşyanın qüsurlarının ağlabatan müddətdə əvəzsiz aradan qaldırılması;

587.1.3. əşyanın qüsurlarının aradan qaldırılması üçün özünün çəkdiyi xərclərin əvəzinin ödənilməsi.

587.2. Əşyanın keyfiyyətinə aid tələblər əhəmiyyətli dərəcədə pozulduqda (aradan qaldırıla bilməyən qüsurlar, tənasübsüz xərclər və ya vaxt sərf etmədən aradan qaldırıla bilməyən qüsurlar aşkar edildikdə və ya dəfələrlə aşkar edilən və ya aradan qaldırıldıqdan sonra yenidən üzə çıxan və digər bu cür qüsurlar olduqda) alıcının ixtiyarı var ki, öz seçimi ilə:

587.2.1. alğı-satqı müqaviləsinin icrasından imtina etsin və əşya üçün ödədiyi pul məbləğinin qaytarılmasını tələb etsin;

587.2.2. lazımi keyfiyyətli olmayan əşyanın müqaviləyə uyğun əşya ilə əvəz olunmasını tələb etsin.

587.3. Bu Məcəllənin 587.1 və 587.2-ci maddələrində göstərilmiş qüsurların aradan qaldırılması və ya əşyanın əvəz edilməsi tələbini alıcı, əgər əşyanın xarakterindən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, irəli sürə bilər.

587.4. Komplektə daxil olan əşya hissələri lazımi keyfiyyətli olmadıqda alıcı əşyanın həmin hissəsi barədə bu Məcəllənin 587.1 və 587.2-ci maddələrində nəzərdə tutulan hüquqları həyata keçirə bilər.

587.5. Əgər alıcı əşyanın qüsurları ilə əlaqədar alqı-satqı müqaviləsinin ləğvini və ya alınmış əşyanın müqaviləyə uyğun əşya ilə əvəz edilməsini tələb edərsə, o, qüsurlu əşyanı satıcıya onun hesabına qaytarmağa borcludur. Bu zaman tərəflərin müqavilə üzrə əldə etdiklərinin geri qaytarılması, bu Məcəllənin 157-ci maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir. (12)

Maddə 588. Satıcının cavabdeh olduğu qüsurlar

588.1. Əgər alıcı əşyanın qüsurlarının alıcıya verilməzdən əvvəl və ya həmin məqamadək yaranan səbəblərdən əmələ gəldiyini sübuta yetirərsə, əşyanın qüsurları üçün satıcı cavabdehdir.

588.2. Satıcı keyfiyyət qarantiyası verdiyi əşyanın qüsurları üçün o halda cavabdehdir ki, əşyanın qüsurlarının əşya alıcıya verildikdən sonra alıcı tərəfindən ondan istifadə və ya onun saxlanması qaydalarının pozulması və ya üçüncü şəxslərin hərəkətləri nəticəsində və ya qarşısıalınmaz qüvvənin təsiri ilə əmələ gəldiyini sübuta yetirməsin.

Maddə 589. Verilmiş əşyanın qüsurlarının aşkar edilməsi müddətləri

589.1. Əgər alğı-satqı müqaviləsi ilə ayrı qayda müəyyənləşdirilməyibsə, alıcı əşyanın qüsurları ilə bağlı tələbləri bu şərtlə irəli sürə bilər ki, həmin qüsurlar bu maddədə müəyyənləşdirilmiş müddətdə aşkar edilsin.

589.2. *Əgər əşya üçün qarantiya və ya yararlılıq müddəti müəyyənləşdirilməyibsə, alıcı əşyanın qüsurları ilə bağlı tələbləri həmin əşyanın alıcıya verildiyi gündən iki il ərzində və ya alqı-satqı müqaviləsi ilə nəzərdə tutulmuş daha uzun müddətdə irəli sürə bilər.* Daşınmalı və ya poçtla göndərilməli əşyanın qüsurlarının aşkar edilməsi müddəti əşyanın təyinat yerinə çatdırıldığı gündən hesablanır.

589.3. Əgər əşya üçün qarantiya müddəti müəyyənləşdirilibsə, alıcı əşyanın qüsurları ilə bağlı tələbləri həmin qüsurları qarantiya müddəti ərzində aşkara çıxardığı halda irəli sürə bilər.

589.4. Alğı-satqı müqaviləsində komplektləşdirici məmulat üçün əsas məmulata nisbətən daha qısa qarantiya müddəti müəyyənləşdirildikdə alıcı komplektləşdirici məmulatın qüsurları ilə bağlı tələbləri həmin qüsurları əsas məmulatın qarantiya müddəti ərzində aşkara çıxardığı halda irəli sürə bilər.

589.5. Müqavilədə komplektləşdirici məmulat üçün əsas məmulata nisbətən daha uzun qarantiya müddəti müəyyənləşdirildikdə alıcı əşyanın qüsurları ilə bağlı tələbləri əsas məmulatın qarantiya müddətinin bitib-bitmədiyindən asılı olmayaraq komplektləşdirici məmulatın qüsurlarını onun qarantiya müddəti ərzində aşkara çıxardığı halda irəli sürə bilər.

589.6. Yararlıq müddəti müəyyənləşdirilmiş əşyanın qüsurları ilə bağlı tələbləri alıcı həmin qüsurları əşyanın yararlıq müddəti ərzində aşkara çıxardığı halda irəli sürə bilər.

589.7. Müqavilədə nəzərdə tutulan qarantiya müddəti iki ildən az olduqda və alıcı əşyanın qüsurlarını qarantiya müddəti bitəndən sonra, lakin əşyanın ona verildiyi gündən iki il ərzində aşkar etdikdə, satıcı bu şərtlə məsuliyyət daşıyır ki, alıcı əşyanın qüsurlarının əşya alıcıya verilənədək əmələ gəldiyini və ya həmin məqamadək yaranmış səbəblərdən əmələ gəldiyini sübuta yetirsin. (12)

Maddə 590. Əşyanın komplektliyi

590.1. Satıcı alıcıya alğı-satqı müqaviləsinin komplektlik haqqında şərtlərinə uyğun gələn əşya verməyə borcludur.

590.2. Alğı-satqı müqaviləsində əşyanın komplektliyi müəyyənləşdirilmədikdə, satıcı alıcıya komplektliyi işgüzar dövriyyə adətləri ilə və ya adətən irəli sürülən digər tələblərlə müəyyənləşdirilən əşya verməyə borcludur.

Maddə 591. Malların komplekti

591.1. Əgər alğı-satqı müqaviləsində satıcının alıcıya əşyaların müəyyən toplusunu komplekt şəklində vermək vəzifəsi nəzərdə tutulubsa, öhdəlik komplektə daxil olan bütün əşyaların verildiyi andan icra edilmiş sayılır.

591.2. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, satıcı komplektə daxil olan bütün əşyaları alıcıya eyni vaxtda verməyə borcludur.

Maddə 592. Komplektsiz əşya verilməsinin nəticələri

592.1. Komplektsiz əşya verildiyi halda alıcı satıcıdan öz seçimi ilə aşağıdakıları tələb edə bilər:

592.1.1. alış qiymətinin mütənasib surətdə azaldılması;

592.1.2. əşyanın komplektinin ağlabatan müddətdə tamamlanması.

592.2. Əgər satıcı əşyanın komplektinin tamamlanması barədə alıcının tələbini ağlabatan müddətdə yerinə yetirməzsə, alıcının ixtiyarı var ki, öz seçimi ilə:

592.2.1. komplektsiz əşyanın komplektli əşya ilə əvəz olunmasını tələb etsin;

592.2.2. alğı-satqı müqaviləsinin icrasından imtina etsin və ödədiyi pul məbləğinin qaytarılmasını tələb etsin.

592.3. Bu Məcəllənin 592.1 və 592.2-ci maddələrində nəzərdə tutulan nəticələr satıcının alıcıya əşya komplekti vermək vəzifəsini pozduğu halda da, əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, tətbiq edilir.

Maddə 593. Alğı-satqı müqaviləsinin predmeti olan əşyaların tarası və qabı

593.1. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, satıcı alıcıya əşyanı tarada və (və ya) qabda verməlidir, amma xarakterinə görə taralaşdırılması və (və ya) qablaşdırılması tələb olunmayan əşya istisna təşkil edir.

593.2. Əgər alğı-satqı müqaviləsində taraya və qaba aid tələblər müəyyənləşdirilməyibsə, əşya belə mal üçün adi üsulla, belə üsul olmadıqda isə bu cür əşyaların adi şəraitdə salamatlığını təmin edən üsulla taralaşdırılmalı və (və ya) qablaşdırılmalıdır.

593.3. Əgər qanunla müəyyənləşdirilmiş qaydada taraya və (və ya) qaba aid məcburi tələblər nəzərdə tutulmuşdursa, sahibkarlıq fəaliyyəti ilə məşğul olan satıcı alıcıya əşyanı həmin məcburi tələblərə uyğun gələn tarada və (və ya) qabda verməlidir.

Maddə 594. Əşyanın tarasız və (və ya) qabsız verilməsinin və ya qeyri-münasib tarada və (və ya) qabda verilməsinin nəticələri

594.1. Taralaşdırılmalı və (və ya) qablaşdırılmalı əşya alıcıya tarasız və (və ya) qabsız verildikdə və ya qeyri-münasib tarada və (və ya) qabda verildikdə alıcının ixtiyarı var ki, əgər müqavilədən, öhdəliyin mahiyyətindən və ya əşyanın xarakterindən ayrı qayda irəli gəlmirsə, əşyanı taralaşdırmağı və (və ya) qablaşdırmağı və ya qeyri-münasib taranı və (və ya) qabı dəyişdirməyi tələb etsin.

594.2. Bu Məcəllənin 594.1-ci maddəsində nəzərdə tutulan hallarda alıcı satıcıya qarşı bu bənddə göstərilən tələblərin əvəzinə lazımi keyfiyyətli olmayan əşyanın verilməsindən irəli gələn tələbləri verə bilər.

Maddə 595. Alğı-satqı müqaviləsinin lazımınca icra edilməməsi haqqında satıcıya bildiriş verilməsi

595.1. Alıcı alğı-satqı müqaviləsinin miqdar, çeşid, keyfiyyət, komplektlik, tara və (və ya) qab haqqında şərtlərinin pozulmasına dair satıcıya müqavilədə nəzərdə tutulan müddətdə, belə müddət müəyyənləşdirilmədikdə isə, müqavilənin müvafiq şərtinin pozuntusu əşyanın xarakterinə və təyinatına görə aşkar edilməli olduqdan sonra ağlabatan müddətdə bildiriş verilməlidir.

595.2. Bu Məcəllənin 595.1-ci maddəsində nəzərdə tutulan qaydanın yerinə yetirilmədiyi halda satıcı alıcının ona çatışmayan miqdarda əşya verilməsinə, alğı-satqı müqaviləsinin keyfiyyət və ya çeşid haqqında şərtlərinə uyğun gəlməyən əşyanın dəyişdirilməsinə, əşyanın qüsurlarının aradan qaldırılmasına, komplektinin tamamlanmasına və ya komplektsiz əşyanın komplektli əşya ilə əvəz edilməsinə, əşyanın taralaşdırılmasına və (və ya) qablaşdırılmasına və ya qeyri-münasib taranın və (və ya) qabın dəyişdirilməsinə dair tələblərini ödəməkdən o halda tamamilə və ya qismən imtina edə bilər ki, alıcının həmin qaydanı yerinə yetirməməsinin onun tələbini ödəməyin qeyri-mümkünlüyünə səbəb olduğunu və ya müqavilənin pozulması haqqında vaxtında bildiriş aldığı halda çəkəcəyi xərclərə nisbətən tənasübsüz xərclər çəkdiyinə səbəb olduğunu sübuta yetirsin.

595.3. Əgər satıcı alıcıya verilmiş əşyaların alğı-satqı müqaviləsinin şərtlərinə uyğun gəlmədiyini bilirdisə və ya bilməli idisə, bu Məcəllənin 595.1 və 595.2-ci maddələrində nəzərdə tutulan müddəalara istinad edə bilməz.

Maddə 596. Alıcının əşyanı qəbul etmək vəzifəsi

596.1. Alıcı ona verilən əşyanı qəbul etməyə borcludur, amma onun əşyanı dəyişdirməyi tələb etməyə və ya alğı-satqı müqaviləsinin icrasından imtina etməyə ixtiyarı çatdığı hallar istisna təşkil edir.

596.2. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, alıcı adətən irəli sürülən tələblərə görə müvafiq əşyanın verilməsini və alınmasını təmin etmək üçün öz tərəfindən zəruri olan hərəkətləri etməyə borcludur.

596.3. Alıcı alğı-satqı müqaviləsini pozaraq əşyanı qəbul etmədikdə və ya onun qəbulundan imtina etdikdə satıcı alıcıdan əşyanı qəbul etməyi tələb edə bilər və ya müqavilənin icrasından imtina edə bilər.

Maddə 597. Satılan əşyanın qiyməti

597.1. Alıcı əşyanı alğı-satqı müqaviləsində nəzərdə tutulan qiymətlə və ya əgər müqavilədə qiymət nəzərdə tutulmayıbsa və müqavilənin şərtləri əsas götürülməklə müəyyənləşdirilə bilmirsə, bu Məcəllənin 398.3-cü maddəsinə uyğun müəyyənləşdirilmiş qiymətlə ödəməyə, habelə müqaviləyə və ya adətən irəli sürülən tələblərə müvafiq surətdə ödəniş üçün zəruri olan hərəkətləri öz hesabına yerinə yetirməyə borcludur.

597.2. Qiymət əşyanın çəkisindən asılı olaraq müəyyənləşdirildikdə, əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, xalis çəkiyə görə təyin edilir.

597.3. Alğı-satqı müqaviləsində əşyanın qiymətini şərtləndirən göstəricilərdən (maya dəyəri, məsrəflər və i.a.) asılı olaraq onun qiymətinin dəyişdirilməli olduğu nəzərdə tutulduqda, lakin qiymətin dəyişdirilməsi üsulu müəyyənləşdirilmədikdə, qiymət müqavilənin bağlandığı an və əşyanın təhvil verildiyi an üçün həmin göstəricilərin nisbəti əsas götürülməklə müəyyənləşdirilir. Satıcı əşyanı vermək vəzifəsinin icrasını gecikdirdikdə qiymət müqavilənin bağlandığı an və əşyanın verilməsinin müqavilədə nəzərdə tutulan anı üçün, müqavilədə həmin an nəzərdə tutulmadıqda isə bu Məcəllənin 427-ci maddəsinə uyğun müəyyənləşdirilmiş an üçün həmin göstəricilərin nisbəti əsas götürülməklə müəyyənləşdirilir.

Maddə 598. Alınmış əşyanın ödənilməsi

598.1. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, alıcı əşyanı satıcıdan bilavasitə təhvil almazdan əvvəl və ya təhvil aldıqdan sonra ödəməlidir.

598.2. Əgər alğı-satqı müqaviləsində əşyanın hissə-hissə ödənilməsi nəzərdə tutulmayıbsa, alıcı verilmiş əşyanın qiymətini satıcıya tam ödəməyə borcludur.

598.3. Əgər alıcı alğı-satqı müqaviləsinə uyğun olaraq verilmiş əşyanı vaxtında ödəmirsə, satıcı əşyanı ödəməyi və bu Məcəllənin 449-cu maddəsinə uyğun faizləri ödəməyi tələb edə bilər.

598.4. Əgər alıcı alğı-satqı müqaviləsini pozmaqla əşyanı qəbul etməkdən və ödəməkdən imtina edirsə, satıcı öz seçimi ilə əşyanın ödənilməsini tələb edə bilər və ya müqavilənin icrasından imtina edə bilər.

598.5. Alğı-satqı müqaviləsinə uyğun olaraq satıcının alıcıya təkcə onun ödədiyi əşyaları deyil, digər əşyaları da verməyə borclu olduğu hallarda satıcının ixtiyarı var ki, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, əvvəl verilmiş əşyaların hamısı tam ödənilənədək həmin əşyaların verilməsini dayandırsın.

Maddə 599. Alınan əşyaların qabaqcadan ödənilməsi

599.1. Alğı-satqı müqaviləsində alıcının əşyanı satıcıdan almazdan əvvəl tam və ya qismən ödəmək (qabaqcadan ödəniş) vəzifəsinin nəzərdə tutulduğu hallarda alıcı ödənişi müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə bu Məcəllənin 427-ci maddəsinə uyğun müəyyənləşdirilmiş müddətdə həyata keçir.

599.2. Alıcı əşyanı qabaqcadan ödəmək vəzifəsini icra etmədikdə bu Məcəllənin 441-ci maddəsində nəzərdə tutulan qaydalar tətbiq edilir.

599.3. Qabaqcadan ödəniş məbləğini almış satıcı əşyanı müəyyənləşdirilmiş müddətdə vermək vəzifəsini icra etmirsə, alıcı ödədiyi əşyanın verilməsini və ya əşya üçün qabaqcadan ödədiyi məbləğin qaytarılmasını tələb edə bilər.

599.4. Satıcı qabaqcadan ödənilmiş əşyanı vermək vəzifəsini icra etmədikdə və alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda əşyanın müqaviləyə görə verilməli olduğu gündən alıcıya verildiyi və ya qabaqcadan ödədiyi məbləğin ona qaytarıldığı günədək qabaqcadan ödəniş məbləğindən bu Məcəllənin 449-cu maddəsinə uyğun faizlər ödənilməlidir. Müqavilədə satıcının alıcıdan qabaqcadan ödəniş məbləğini aldığı gündən həmin məbləğdən faizlər ödəmək vəzifəsi nəzərdə tutula bilər.

Maddə 600. Nisyə satılmış əşyanın ödənilməsi

600.1. Alğı-satqı müqaviləsində əşyanın alıcıya verildikdən müəyyən müddət sonra ödənilməsinin (əşyaların nisyə satışının) nəzərdə tutulduğu halda alıcı ödənişi müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə bu Məcəllənin 427-ci maddəsinə uyğun müəyyənləşdirilmiş müddətdə həyata keçirməlidir.

600.2. Əşyaların nisyə satışı satış günü qüvvədə olmuş qiymətlər üzrə həyata keçirilir. Nisyə satılmış əşyaların qiymətinin sonradan dəyişməsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, yenidən hesablaşmaya səbəb olmur.

600.3. Satıcı əşyanı vermək vəzifəsini icra etmədikdə bu Məcəllənin 441-ci maddəsində nəzərdə tutulan qaydalar tətbiq edilir.

600.4. Əşyanı təhvil almış alıcı onu alğı-satqı müqaviləsində nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə satıcı verilmiş əşyanın ödənilməsini və ya ödənilməmiş malın qaytarılmasını tələb edə bilər.

600.5. Alıcı verilmiş əşyanı müqavilədə nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə və bu Məcəllədə və ya alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda gecikdirilmiş məbləğdən malın müqaviləyə görə ödənilməli olduğu gündən ödənildiyi günədək bu Məcəllənin 449-cu maddəsinə uyğun faizlər ödənilməlidir. Müqavilədə alıcının satıcı tərəfindən əşyanın verildiyi gündən başlayaraq əşyanın qiymətinə uyğun məbləğdən faizlər ödəmək vəzifəsi nəzərdə tutula bilər.

~~600.6. Əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, əşyanın alıcıya verildiyi andan ödənildiyi anadək nisyə satılmış əşya alıcının malı ödəmək vəzifəsini icra etməsini təmin etmək üçün satıcının yanında girov qoyulmuş sayılır.~~ (12)

Maddə 601. Əşyanın hissə-hissə ödənilməsi

601.1. Əşyanın nisyə satılması haqqında müqavilədə onun hissə-hissə ödənilməsi nəzərdə tutula bilər. Hissə-hissə ödəmə şərti ilə əşyanın nisyə satılması haqqında müqavilə o halda bağlanmış sayılır ki, alğı-satqı müqaviləsinin digər mühüm şərtləri ilə yanaşı əşyanın qiyməti, ödənişlərin qaydası, müddətləri və məbləğləri nəzərdə tutulmuş olsun.

601.2. Hissə-hissə ödəmə şərti ilə malın nisyə satılması haqqında müqaviləyə bu Məcəllənin *600.2-600.5-ci* maddələrində nəzərdə tutulan qaydalar tətbiq edilir. (23)

Maddə 602. Alğı-satqı müqaviləsinin predmeti olan əşyanın sığortalanması

602.1. Alğı-satqı müqaviləsində satıcının və ya alıcının əşyanı sığorta etdirmək vəzifəsi nəzərdə tutula bilər.

602.2. Əşyanı sığorta etdirməyə borclu olan tərəf müqavilənin şərtlərinə uyğun sığortanı həyata keçirmədikdə digər tərəf əşyanı sığorta etdirə və borclu tərəfdən sığortaya çəkdiyi xərclərin əvəzini ödəməyi tələb edə bilər və ya müqavilənin icrasından imtina edə bilər.

~~***Maddə 603. Mülkiyyət hüququnun satıcıda saxlanması***~~

~~603.1. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, alıcı əşyanı ödədiyi andan onun mülkiyyətçisi olur.~~

~~603.2. Alğı-satqı müqaviləsində alıcıya verilmiş əşyaya mülkiyyət hüququnun mal ödənilənədək satıcıda qaldığı nəzərdə tutulduqda alıcı mülkiyyət hüququ ona keçənədək əşyanı, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa və ya əşyanın təyinatından və xassələrindən ayrı qayda irəli gəlmirsə, özgəninkiləşdirə bilməz və ya ona dair digər sərəncam verə bilməz.~~

~~603.3. Verilmiş əşya müqavilədə nəzərdə tutulan müddətdə ödənilmədikdə, satıcı, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, alıcıdan əşyanı ona qaytarmağı tələb edə bilər.~~ (12)

Maddə 604. Oxşar müqavilələr

Hazırlanmalı və ya istehsal edilməli malların göndərilməsinə dair müqavilələr, əgər sifarişçi həmin malların hazırlanması və ya istehsalı üçün zəruri materialların mühüm hissəsini göndərməyi öz öhdəsinə götürürsə, habelə əgər mal göndərən tərəfin vəzifələrinin daha böyük hissəsi işlərin görülməsindən və ya başqa xidmətlərin göstərilməsindən ibarət deyildirsə, alğı-satqı müqavilələrinə bərabər tutulur.

Maddə 605. Alğı-satqı haqqında müddəaların tətbiq edilmədiyi hallar

Əşyaların alğı-satqısı haqqında müddəalar auksion satışı çərçivəsində, icraat və ya digər məhkəmə tədbirləri əsasında əşyaların əldə edilməsinə, habelə qiymətli kağızların və ya ödəniş vasitələrinin və elektrik enerjisinin əldə edilməsinə tətbiq olunmur.

Maddə 606. Mülkiyyət hüququnun saxlanması haqqında qeyd-şərt

606.1. Əgər daşınar əşyanın satıcısı alıcı tərəfindən alış qiyməti ödənilənədək əşyaya mülkiyyət hüququnu özündə saxlamışdırsa (mülkiyyət hüququnun saxlanması haqqında qeyd-şərt), şübhə halında ehtimal edilir ki, mülkiyyətin verilməsi alış qiyməti tam ödənilənədək təxirəsalıcı şərtlə həyata keçirilir və əgər alıcı alış qiymətinin ödənilməsini gecikdirirsə, satıcının müqaviləni ləğv etmək və əşyanı geri götürmək hüququ vardır.

606.2. Satıcının satılmış əşyaya bu Məcəllənin 606.1-ci maddəsindən irəli gələn əşya hüquqlarına alıcının vəkil etdiyi şəxslər, habelə alıcının kreditorları da riayət etməlidirlər. Bu halda «vəkil edilmiş şəxs» dedikdə alıcının ödəniş qabiliyyətinin olmaması ilə əlaqədar onun əmlakını kreditorlarının mənafeləri üçün idarə etməyə təyin olunmuş idarəçi və ya hər hansı digər şəxs başa düşülür.

606.3. Bu Məcəllənin 606.2-ci maddəsi kreditorların üstün və ya bərabər hüquqlarını məhdudlaşdırmır. Onlar əşyaya girov hüququna və ya həbsin və ya icraatın nəticəsi olmayan digər təminat hüququna malikdirlər və ya müsadirə ilə əlaqədar olaraq avtomobillər, gəmilər və ya təyyarələr barəsində saxlama hüququnu və ya istifadə hüququnu həyata keçirə bilərlər.

606.4. Alqı-satqı müqaviləsində alıcıya verilmiş əşyaya mülkiyyət hüququnun mal ödənilənədək satıcıda qaldığı nəzərdə tutulduqda, alıcı mülkiyyət hüququ ona keçənədək əşyanı, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa və ya əşyanın təyinatından və xassələrindən ayrı qayda irəli gəlmirsə, özgəninkiləşdirə bilməz və ya ona dair digər sərəncam verə bilməz. (12)

Maddə 607. Alğının qadağan edilməsi

607.1. Əgər icraat çərçivəsində satış həyata keçirilirsə, satışı həyata keçirməyə və ya ona rəhbərlik etməyə ixtiyarı çatan şəxsə və onun cəlb etdiyi köməkçilərə, o cümlədən protokolu tərtib edən katibə satışa çıxarılmış obyekti nə şəxsən və ya başqa şəxs vasitəsi ilə özü üçün, nə də təmsil etdiyi digər şəxslər üçün almağa icazə verilmir. İcraat çərçivəsindən kənarda satış həyata keçirilərkən eyni qayda tətbiq edilir. Bu zaman satış tapşırığı zaminə obyektin satışını üçüncü şəxsin hesabına həyata keçirmək səlahiyyəti verən qanuni göstəriş əsasında verilir. Eyni qayda ödəniş qabiliyyətinin olmadığı halda icraat zamanı idarəçinin həyata keçirdiyi satışda da tətbiq edilir.

607.2. Bu Məcəllənin 607.1-ci maddəsinin tələbləri pozulmaqla həyata keçirilmiş alğı bu şərtlə etibarlıdır ki, satışın borclular, mülkiyyətçilər və ya kreditorlar kimi çıxış edən iştirakçıları onunla razılaşsınlar.

§ 2. Heyvanların, quşların və balıqların alğı-satqısı

Maddə 608. Alğı-satqı haqqında müddəaların tətbiqi

Əgər bu paraqrafın aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, heyvanların, quşların və balıqların alğı-satqısına əşyaların alğı-satqısı haqqında ümumi müddəalar tətbiq edilir.

Maddə 609. Heyvan, quş və balıq satıcısının məsuliyyətinin başlıca qüsurlarla məhdudlaşdırılması

609.1. Heyvan, quş və balıq satıcısı yalnız müqaviləyə aşağıda müəyyənləşdirilmiş uyğunsuzluqlar (başlıca qüsurlar) üçün və yalnız bu qüsurların konkret müddətlər (qarantiya müddətləri) ərzində aşkara çıxdığı halda məsuliyyət daşıyır.

609.2. Faydalı və damazlıq heyvanların satıldığı halda aşağıdakılar başlıca qüsurlar sayılır:

609.2.1. cıdır və yük heyvanlarında—manqo, şüurun azalması ilə baş beyinin sağalmaz xəstəliyi, qırtlağın və ya traxeyanın və ya ağ ciyərlərin və ya ürəyin sağalmaz xəstəliyi nəticəsində tənəffüsün çətinləşməsi, habelə gözün daxili orqanlarının iltihablı dəyişməsi — 14 günlük qarantiya müddəti ilə;

609.2.2. qaramalda—heyvanın vəziyyəti ümumən pisləşməklə vərəm xəstəliyi—14 günlük qarantiya müddəti ilə, habelə ağ ciyərlərin tam iltihabı — 28 günlük qarantiya müddəti ilə;

609.2.3. davarda — qoturluq—14 günlük qarantiya müddəti ilə, qızıl yel—3 günlük qarantiya müddəti ilə; taun — 10 günlük qarantiya müddəti ilə.

609.3. Yeyinti məhsulları əldə etmək məqsədi ilə heyvanların kəsilmək üçün satıldığı halda aşağıdakılar başlıca qüsurlar sayılır:

609.3.1. cıdır və yük heyvanlarında—manqo—14 günlük qarantiya müddəti ilə;

609.3.2. qaramalda—heyvanın çəkisinin yarıdan çoxunu insanın qidalanması üçün yararsız etmiş vərəm xəstəliyi—14 günlük qarantiya müddəti ilə;

609.3.3. qoyunlarda və keçilərdə—ümumi hidropos—14 günlük qarantiya müddəti ilə;

609.3.4. donuzlarda—heyvanın çəkisinin yarıdan çoxunu insanın qidalanması üçün yararsız etmiş vərəm xəstəliyi—14 günlük qarantiya müddəti ilə, habelə trixin—14 günlük qarantiya müddəti ilə.

609.4. Digər heyvanlar, quşlar və balıqlar satılarkən başlıca qüsurlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən, normativ hüquqi aktlar olmadıqda isə müqavilə ilə müəyyənləşdirilir.

609.5. Qarantiya müddəti riskin alıcıya keçdiyi günün sonundan başlanır.

Maddə 610. Məsuliyyətin genişləndirilməsi və məhdudlaşdırılması

Yazılı müqavilədə tərəflər bu Məcəllənin 609-cu maddəsində nəzərdə tutulan məsuliyyətin məhdudlaşdırılmasının xüsusi şərtləri barəsində razılığa gələ bilərlər. Həmin şərtlərə əsasən başlıca qüsurların olmamasına və ya müəyyən xassələrin olmasına təminat verilə bilər, qarantiya müddətləri uzadıla və ya qısaldıla bilər.

Maddə 611. Heyvan, quş və balıq satıcısının təqsirinin prezumpsiyası

Qarantiya müddəti ərzində hər hansı başlıca qüsur aşkar edildikdə ehtimal olunur ki, həmin qüsur riskin alıcıya keçdiyi ana qədər mövcud idi.

Maddə 612. Heyvan, quş və balıq alıcısının hüquqi müdafiəsi vasitələri

612.1. Heyvanlarda, quşlarda və balıqlarda başlıca qüsurların olması nəticəsində alıcı yalnız müqavilənin ləğvini tələb edə bilər, qiymətin azaldılmasını isə tələb edə bilməz.

612.1.1. Bu halda alıcı cavabdeh olmadığı hallarla əlaqədar heyvanı, quşu və ya balığı qaytara bilmədikdə, o cümlədən başqasına satması, onun tələf olması, xəstələnməsi və ya kəsilməsi nəticəsində qaytara bilmədikdə də müqavilənin ləğvini tələb edə bilər. Heyvanın, quşun və ya balığın kəsildiyi halda alıcı onu qaytarmaq əvəzinə dəyərini ödəyir.

612.1.2. Əgər müqavilə ləğv edilənədək alıcının cavabdeh olduğu hallar nəticəsində heyvanın, quşun və ya balığın vəziyyəti əhəmiyyətsiz dərəcədə pisləşmişdirsə, alıcı onun dəyərinin azalmasını kompensasiya etməlidir. Heyvandan, quşdan və ya balıqdan istifadə nəticəsində hər hansı faydanın əvəzini alıcı yalnız bu cür faydanı əldə etmiş olduğu halda ödəyir.

612.1.3. Müqavilənin ləğv edildiyi halda satıcı alıcıya heyvanın yemlənməsinə və bəslənməsinə, baytarlıq müayinələrinə və qulluğuna çəkilmiş xərclərin, habelə heyvanın məcburən öldürülməsinə və uzaqlaşdırılmasına çəkilmiş xərclərin əvəzini ödəməlidir.

612.2. Müəyyən cins əlamətləri olan heyvan, quş və ya balıq alıcısı müqavilənin ləğvi əvəzinə tələb edə bilər ki, müqaviləyə uyğun gəlməyən heyvanın, quşun və ya balığın əvəzinə ona müqaviləyə uyğun gələn heyvan verilsin.

612.3. Əgər satıcı heyvanın, quşun və ya balığın hər hansı başlıca qüsurlarının olmadığına və ya hər hansı konkret xassələrinin olduğuna xüsusi qarantiya verirsə və onlar bu qarantiyaya uyğun gəlmirsə, alıcı müqavilənin ləğvini və ya icra edilməmə nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Maddə 613. Heyvan, quş və balıq alıcısının hüquqlarını itirməsi

613.1. Alıcı hər hansı başlıca qüsur əsasında ona mənsub hüquqlardan o halda məhrum olur ki, qarantiya müddəti qurtardıqdan sonra üç gündən gec olmayaraq və ya əgər heyvan, quş və ya balıq həmin müddət bitənədək öldürülərsə və ya digər şəkildə tələf olarsa, heyvanın, quşun və ya balığın ölümündən sonra satıcıya bu qüsur barəsində məlumat vermir və ya ona bu barədə bildiriş göndərmir və ya qüsur əsasında ona qarşı iddia irəli sürmür. Əgər satıcı bu qüsur barəsində qəsdən susmuşdursa, hüquq itmir.

613.2. Satıcının müqavilənin ləğv edilməsi, dəyişdirmə üçün göndərilmə və ya zərərin əvəzinin ödənilməsi hüquqları qarantiya müddəti qurtardıqdan iki ay sonra müddətin keçməsinə görə qüvvədən düşür.

§ 3. Pərakəndə alğı-satqı

Maddə 614. Pərakəndə alğı-satqı müqaviləsi

614.1. Pərakəndə alğı-satqı müqaviləsinə görə malların pərakəndə satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən satıcı sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan şəxsi, ailə, ev və ya digər istifadə üçün nəzərdə tutulan malı alıcıya verməyi öhdəsinə götürür.

~~614.2. Pərakəndə alğı-satqı müqaviləsi ümumi müqavilədir.~~

614.3. Fiziki şəxs olan alıcının iştirakı ilə pərakəndə alğı-satqı müqaviləsi ilə əlaqədar bu Məcəllə ilə tənzimlənməyən münasibətlərə istehlakçıların hüquqlarının qorunması haqqında qanun və ona uyğun qəbul edilmiş digər normativ hüquqi aktlar tətbiq edilir. (12)

Maddə 615. Pərakəndə alğı-satqı müqaviləsinin forması

Əgər pərakəndə alğı-satqı müqaviləsində, o cümlədən alıcının qoşulduğu standart formaların şərtlərində ayrı qayda nəzərdə tutulmayıbsa, pərakəndə alğı-satqı müqaviləsi satıcının alıcıya kassa və ya əmtəə çekini və ya malın ödənildiyini təsdiq edən digər sənədi verdiyi andan lazımi formada bağlanmış sayılır.

Maddə 616. Malın ümumi ofertası

616.1. Malın qeyri-müəyyən şəxslər dairəsinə ünvanlanmış reklamda, kataloqlarda və malların təsvirlərində təklif edilməsi, əgər bu, pərakəndə alğı-satqı müqaviləsinin bütün mühüm şərtlərini əhatə edirsə, ümumi oferta (maddə 408.8) sayılır.

616.2. Satış yerində (piştaxtalarda, vitrinlərdə və i.a.) malların qoyulması, onların nümunələrinin nümayiş etdirilməsi və ya satılan mallara dair məlumatların (malların təsvirlərinin, kataloqlarının, fotoşəkillərinin və i.a.) təqdim edilməsi qiymətin və pərakəndə alğı-satqı müqaviləsinin digər mühüm şərtlərinin göstərilib-göstərilmədiyindən asılı olmayaraq ümumi oferta sayılır, amma satıcının müəyyən malların satış üçün nəzərdə tutulmadığını aşkar müəyyənləşdirdiyi hal istisna təşkil edir.

Maddə 617. Mal haqqında informasiya verilməsi

617.1. Satıcı satışa təklif edilən mal haqqında alıcıya qanunvericilikdə müəyyənləşdirilmiş və pərakəndə ticarətdə adətən irəli sürülən tələblərə uyğun olan zəruri və düzgün informasiya verməyə borcludur.

617.2. Pərakəndə alğı-satqı müqaviləsi bağlananadək alıcının malı gözdən keçirmək, öz yanında malın xassələrinin yoxlanılmasını və ya ondan istifadənin nümayiş olunmasını tələb etmək ixtiyarı vardır, bir şərtlə ki, bu, malın xarakterinə görə istisna edilməsin və pərakəndə ticarətdə qəbul edilmiş qaydalara zidd olmasın.

617.3. Alıcıya bu Məcəllənin 617.1 və 617.2-ci maddələrində göstərilmiş mala dair məlumatı satış yerində dərhal almaq imkanı verilmədikdə o, satıcıdan pərakəndə alğı-satqı müqaviləsinin bağlanmasından əsassız boyun qaçırılması nəticəsində dəyən zərərin əvəzini ödəməyi tələb edə bilər, müqavilə bağlanmış olduqda isə ağlabatan müddətdə müqavilənin icrasından imtina edə bilər, mal üçün ödədiyi məbləğin geri qaytarılmasını və digər zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

617.4. Alıcıya mal haqqında müvafiq informasiya almaq imkanı verməyən satıcı malın alıcıya verilməsindən sonra əmələ gəlmiş qüsurları üçün də məsuliyyət daşıyır, bu şərtlə ki, alıcı həmin qüsurların onda belə informasiyanın olmaması ilə əlaqədar əmələ gəldiyini sübuta yetirsin.

Maddə 618. Malın alıcı tərəfindən müəyyən müddətdə qəbul edilməsi şərti ilə satılması

618.1. Pərakəndə alğı-satqı müqaviləsi alıcının malı müqavilədə müəyyənləşdirilmiş müddətdə qəbul etməsi şərti ilə bağlana bilər. Bu müddət ərzində mal başqa alıcıya satıla bilməz.

618.2. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, alıcının gəlməməsi və ya malın müqavilədə müəyyənləşdirilmiş müddətdə qəbul edilməsi üçün zəruri olan digər hərəkətlərin yerinə yetirilməməsi satıcı tərəfindən alıcının müqavilənin icrasından imtina etməsi kimi qiymətləndirilə bilər.

618.3. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, malın müqavilədə müəyyənləşdirilmiş müddətdə alıcıya verilməsini təmin etmək üçün satıcının çəkdiyi əlavə xərclər malın qiymətinə daxil edilir.

Maddə 619. Malların nümunələr üzrə satılması

619.1. Pərakəndə alğı-satqı müqaviləsi alıcının satıcı tərəfindən təklif edilmiş mal nümunəsi (onun təsviri, malların kataloqu və i.a.) ilə tanış olması əsasında bağlana bilər.

619.2. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, malın nümunə üzrə pərakəndə alğı-satqısı müqaviləsi malın müqavilədə göstərilmiş yerə çatdırıldığı andan, müqavilədə malın verilməsi yeri müəyyənləşdirilmədikdə isə malın fiziki şəxsin yaşayış yeri üzrə və ya hüquqi şəxsin olduğu yer üzrə alıcıya çatdırıldığı andan icra edilmiş sayılır.

619.3. Mal verilənədək alıcı pərakəndə alğı-satqı müqaviləsinin icrasından bu şərtlə imtina edə bilər ki, satıcıya müqavilənin yerinə yetirilməsi üzrə hərəkətlərin icrası ilə əlaqədar çəkdiyi zəruri xərclərin əvəzini ödəsin.

Maddə 620. Malların avtomatlardan istifadə etməklə satılması

620.1. Malların avtomatlardan istifadə etməklə satıldığı hallarda avtomatların sahibi satıcının adı (firma adı), olduğu yer, habelə malı almaq üçün alıcının yerinə yetirməli olduğu hərəkətlər haqqında məlumatları avtomatda yerləşdirməklə və ya başqa üsulla təqdim etmək yolu ilə alıcılara malların satıcısı haqqında informasiya verməyə borcludur.

620.2. Avtomatlardan istifadə etməklə pərakəndə alğı-satqı müqaviləsi alıcının malı almaq üçün zəruri hərəkətləri yerinə yetirdiyi andan bağlanmış sayılır.

620.3. Əgər ödənilmiş mal alıcıya verilmirsə, satıcı alıcının tələbi ilə dərhal malı ona təqdim etməyə və ya ödədiyi məbləği qaytarmağa borcludur.

620.4. Avtomatdan pulların xırdalanması, ödəniş nişanlarının əldə edilməsi və ya valyuta mübadiləsi üçün istifadə edildiyi hallarda, əgər öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, pərakəndə alğı-satqı haqqında qaydalar tətbiq edilir.

Maddə 621. Malın alıcıya çatdırılmaq şərti ilə satılması

621.1. Pərakəndə alğı-satqı müqaviləsi malın alıcıya çatdırılması şərti ilə bağlandıqda satıcı müqavilədə müəyyənləşdirilmiş müddətdə malı alıcının göstərdiyi yerə çatdırmağa, alıcı malın çatdırılma yerini göstərmədikdə isə alıcı olan fiziki şəxsin yaşayış yerinə və ya hüquqi şəxsin olduğu yerə çatdırmağa borcludur.

621.2. Pərakəndə alğı-satqı müqaviləsi malın alıcıya, alıcı olmadıqda isə müqavilənin bağlandığını və ya malın çatdırılmasının rəsmiləşdirildiyini göstərən qəbzi və ya digər sənədi təqdim etmiş istənilən şəxsə təhvil verildiyi andan icra edilmiş sayılır, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlməsin.

621.3. Müqavilədə malın alıcıya təhvil verilmək üçün çatdırılma vaxtı müəyyənləşdirilmədikdə mal alıcının tələbi alındıqdan sonra ağlabatan müddətdə çatdırılmalıdır.

Maddə 622. Pərakəndə satılan malın qiyməti və ödənilməsi

622.1. Əgər öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, alıcı malı pərakəndə alğı-satqı müqaviləsinin bağlandığı an satıcının elan etdiyi qiymətlə ödəməyə borcludur.

622.2. Pərakəndə alğı-satqı müqaviləsində malın qabaqcadan ödənilməsinin nəzərdə tutulduğu halda alıcının müqavilədə müəyyənləşdirilmiş müddətdə malı ödəməməsi, əgər tərəflərin razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, alıcının müqavilənin icrasından imtina etməsi sayılır.

622.3. Malların pərakəndə nisyə alğı-satqısı müqavilələrinə, o cümlədən alıcı tərəfindən malların hissə-hissə ödənilməsi şərti ilə bağlanmış müqavilələrə bu Məcəllənin 600.5-ci maddəsində nəzərdə tutulan qaydalar tətbiq edilməməlidir.

622.4. Alıcı malın hissə-hissə ödənilməsi üçün müqavilədə müəyyənləşdirilmiş müddət ərzində istədiyi vaxt malı ödəyə bilər.

Maddə 623. Malın dəyişdirilməsi

623.1. Əgər satıcı tərəfindən daha uzun müddət elan edilməyibsə, alıcı qeyri-ərzaq malının ona verildiyi andan on dörd gün ərzində aldığı malı alış yerində və satıcının elan etdiyi digər yerlərdə başqa ölçülü, formalı, qabaritli, fasonlu, rəngli və ya quruluşlu oxşar mala dəyişdirə bilər. Bu zaman qiymətdə fərq olduqda satıcı ilə lazımi hesablaşma aparılır. Satıcıda dəyişdirilmək üçün zəruri mal olmadıqda alıcı əldə etdiyi malı satıcıya qaytara bilər və mal üçün ödədiyi pul məbləğini geri ala bilər.

623.2. Alıcının malın dəyişdirilməsi və ya qaytarılması haqqında tələbi bu şərtlə ödənilməlidir ki, mal işlədilmiş olmasın, istehlak xassələri qorunub saxlansın və həmin satıcıdan alındığına dair sübutlar olsun.

623.3. Bu maddədə göstərilmiş əsaslar üzrə dəyişdirilməli və ya qaytarılmalı olmayan malların siyahısı xüsusi hüquqi aktlar ilə müəyyənləşdirilmiş qaydada təyin edilir.

Maddə 624. Alıcıya lazımi keyfiyyətli olmayan mal satıldıqda onun hüquqları

624.1. Alıcıya lazımi keyfiyyətli olmayan mal satıldıqda, əgər malın qüsurları satıcı tərəfindən qabaqcadan bildirilməyibsə, alıcı öz seçimi ilə tələb edə bilər ki:

624.1.1. keyfiyyətsiz mal lazımi keyfiyyətli malla əvəz edilsin;

624.1.2. alış qiyməti mütənasib surətdə azaldılsın;

624.1.3. malın qüsurları təxirə salınmadan əvəzsiz qaydada aradan qaldırılsın;

624.1.4. malın qüsurlarının aradan qaldırılmasına çəkilmiş xərclərin əvəzi ödənilsin.

~~624.2. Alıcı texniki cəhətdən mürəkkəb və ya baha malın keyfiyyətinə aid tələblərin əhəmiyyətli dərəcədə pozulduğu halda onun dəyişdirilməsini tələb edə bilər.~~

624.3. Malın xassələri onun aşkar edilmiş qüsurlarını aradan qaldırmağa imkan vermədikdə (ərzaq malları, məişət kimyası malları və i.a.) alıcı öz seçimi ilə həmin malın lazımi keyfiyyətli malla dəyişdirilməsini və ya alış qiymətinin mütənasib surətdə azaldılmasını tələb edə bilər.

624.4. Bu Məcəllənin 624.1 və 624.3-cü maddələrində göstərilmiş tələbləri irəli sürmək əvəzinə alıcı pərakəndə alğı-satqı müqaviləsinin icrasından imtina edə bilər və mal üçün ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər. ~~Bu zaman alıcı aldığı lazımi keyfiyyətli olmayan malı satıcının tələbi ilə və onun hesabına qaytarmalıdır.~~

~~624.5. Mal üçün ödənilmiş pul məbləğini alıcıya qaytararkən satıcı maldan tam və ya qismən istifadə, onun əmtəə görünüşünü itirməsi və ya digər bu cür hallar nəticəsində malın dəyərinin azalması məbləğini tuta bilməz.~~ (12)

Maddə 625. Mal dəyişdirilərkən, alış qiyməti azalarkən və lazımi keyfiyyətli olmayan mal qaytarılarkən qiymət fərqinin ödənilməsi

625.1. Pis keyfiyyətli mal pərakəndə alğı-satqı müqaviləsinə uyğun gələn lazımi keyfiyyətli malla əvəz edilərkən satıcı malın müqavilədə müəyyənləşdirilmiş qiyməti ilə onun dəyişdirildiyi və ya dəyişdirilməsinə dair məhkəmə qərarının çıxarıldığı an mövcud olmuş qiyməti arasındakı fərqin ödənilməsini tələb edə bilməz.

625.2. Pis keyfiyyətli mal oxşar, lakin ölçüsünə, fasonuna, növünə və ya digər əlamətlərinə görə başqa olan lazımi keyfiyyətli malla əvəz edilərkən dəyişdirilən malın dəyişdirilmə anındakı qiyməti ilə lazımi keyfiyyətli olmayan malın əvəzinə verilən malın qiyməti arasındakı fərq ödənilməlidir. Əgər satıcı alıcının tələbini yerinə yetirmirsə, dəyişdirilən malın qiyməti və onun əvəzinə verilən malın qiyməti məhkəmə tərəfindən malın dəyişdirilməsinə dair qərarın çıxarıldığı gün üçün müəyyənləşdirilir.

625.3. Malın alış qiymətinin mütənasib surətdə azaldılması tələbinin irəli sürüldüyü halda malın həmin tələbin irəli sürüldüyü an üçün qiyməti, alıcının tələbi könüllü surətdə yerinə yetirilmədikdə isə məhkəmə tərəfindən qiymətin mütənasib surətdə azaldılmasına dair qərarın çıxarıldığı gün üçün qiyməti hesaba alınır.

625.4. Lazımi keyfiyyətli olmayan malı satıcıya qaytararkən alıcı malın pərakəndə alğı-satqı müqaviləsində müəyyənləşdirilmiş qiyməti ilə onun tələbinin könüllü surətdə yerinə yetirildiyi an üçün, tələb könüllü surətdə yerinə yetirilmədikdə isə məhkəmə qərarının çıxarıldığı gün üçün müvafiq malın qiyməti arasındakı fərqin ödənilməsini tələb edə bilər.

~~***Maddə 626. Satıcının məsuliyyəti və öhdəliyin naturada icrası***~~

~~Satıcı pərakəndə alğı-satqı müqaviləsi üzrə öhdəliyi yerinə yetirmədiyi halda zərərin əvəzinin və dəbbə pulunun ödənilməsi satıcını öhdəliyin naturada icrasından azad etmir.~~ (12)

§ 4. Malların göndərilməsi

Maddə 627. Göndərmə müqaviləsi

627.1. Göndərmə müqaviləsinə görə mal göndərən—sahibkarlıq fəaliyyətini həyata keçirən satıcı istehsal etdiyi və ya satın aldığı malları sahibkarlıq fəaliyyətində və ya şəxsi, ailə, ev və digər bu cür istifadə ilə bağlı olmayan başqa məqsədlər üçün istifadə edilməkdən ötrü şərtləşdirilmiş müddətdə və ya müddətlərdə alıcıya verməyi öhdəsinə götürür.

~~627.2. Göndərmə müqaviləsi yazılı formada bağlanır.~~ (12)

~~***Maddə 628. Göndərmə müqaviləsi bağlanarkən ixtilafların nizama salınması***~~

~~628.1. Göndərmə müqaviləsi bağlanarkən müqavilənin ayrı-ayrı şərtləri barəsində tərəflər arasında ixtilaflar yarandıqda müqavilənin bağlanmasını təklif etmiş və digər tərəfdən həmin şərtlərin razılaşdırılmasına dair təklif almış tərəf, əgər tərəflər ayrı müddət barəsində razılığa gəlməyiblərsə, həmin təklifi aldığı gündən otuz gün ərzində müqavilənin müvafiq şərtlərinin razılaşdırılması üçün tədbirlər görməli və ya müqaviləni bağlamaqdan imtina etdiyi barədə digər tərəfə yazılı bildiriş göndərməlidir.~~

~~628.2. Göndərmə müqaviləsinin müvafiq şərtlərinə dair təklif almış, lakin bu Məcəllənin 628.1-ci maddəsində nəzərdə tutulan müddətdə onun şərtlərini razılaşdırmaq üçün tədbirlər görməmiş və müqaviləni bağlamaqdan imtina etdiyi barədə digər tərəfə bildiriş göndərməmiş tərəf müqavilənin şərtlərinin razılaşdırılmasından boyun qaçırılması nəticəsində dəyən zərərin əvəzini ödəməlidir.~~ (12)

Maddə 629. Malların göndərilməsi dövrləri

629.1. Tərəflər göndərmə müqaviləsinin qüvvədə olduğu müddət ərzində malların ayrı-ayrı partiyalar ilə göndərilməsini nəzərdə tutduqda və bu partiyaların göndərilməsi müddətləri (göndərmə dövrləri) müqavilədə müəyyənləşdirilmədikdə, mallar, əgər qanunvericilikdən, öhdəliyin mahiyyətindən və ya işgüzar dövriyyə adətlərindən ayrı qayda irəli gəlmirsə, bərabər partiyalar ilə aybaay göndərilməlidir.

629.2. Göndərmə müqaviləsində göndərmə dövrləri ilə yanaşı malların göndərilməsi cədvəli də (on günlük, günlük, saatlıq və i.a.) müəyyənləşdirilə bilər.

629.3. Mallar alıcının razılığı ilə vaxtından qabaq göndərilə bilər. Vaxtından qabaq göndərilmiş və alıcı tərəfindən qəbul edilmiş mallar növbəti dövrdə göndərilməli olan malların miqdarına daxil edilir.

Maddə 630. Malların göndərilməsi qaydası

630.1. Mal göndərən göndərmə müqaviləsinin tərəfi olan alıcıya və ya müqavilədə alıcı kimi göstərilmiş şəxsə malları yollama (vermə) üsulu ilə göndərir.

630.2. Göndərmə müqaviləsində alıcının mal göndərənə malları mal alanlara yollamaq (vermək) haqqında göstərişlər (yollama sərəncamı) vermək hüququnun nəzərdə tutulduğu halda mal göndərən malları yollama sərəncamında göstərilmiş mal alanlara yollayır (verir).

630.3. Yollama sərəncamının məzmunu və alıcı tərəfindən onun mal göndərənə verilməsi müddəti müqavilə ilə müəyyənləşdirilir. Əgər müqavilədə yollama sərəncamının verilməsi müddəti nəzərdə tutulmayıbsa, o, mal göndərənə göndərmə dövrünün çatmasına ən geci otuz gün qalmış verilməlidir.

630.4. Alıcının yollama sərəncamını müəyyənləşdirilmiş müddətdə verməməsi mal göndərənə ya göndərmə müqaviləsinin icrasından imtina etmək, ya da alıcıdan malları ödəməyi tələb etmək hüququ verir. Bundan başqa, mal göndərən yollama sərəncamının verilməməsi ilə əlaqədar dəyən zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Maddə 631. Malların çatdırılması

631.1. Mal göndərən malları göndərmə müqaviləsində nəzərdə tutulan nəqliyyatla və müqavilədə müəyyənləşdirilmiş şərtlərlə çatdırır.

631.2. Müqavilədə malların hansı nəqliyyat növü ilə və ya hansı şərtlərlə çatdırıldığının müəyyənləşdirilmədiyi hallarda nəqliyyat növünü seçmək və ya malların çatdırılması şərtlərini müəyyənləşdirmək hüququ, əgər qanunvericilikdən, öhdəliyin mahiyyətindən və ya işgüzar dövriyyə adətlərindən ayrı qayda irəli gəlmirsə, mal göndərənə mənsubdur.

631.3. Göndərmə müqaviləsində alıcının (mal alanın) malları mal göndərənin olduğu yerdə alması (malların seçilməsi) nəzərdə tutula bilər. Əgər müqavilədə malların seçilməsi müddəti nəzərdə tutulmayıbsa, alıcı (mal alan) malları onların hazır olduğu barədə mal göndərəndən bildiriş aldıqdan sonra ağlabatan müddətdə seçməlidir.

Maddə 632. Malların tam göndərilməməsinin tamamlanması

632.1. Ayrıca göndərmə dövründə malları tam göndərməmiş mal göndərən malların göndərilməmiş miqdarını, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, göndərmə müqaviləsinin qüvvədə olduğu müddət ərzində növbəti dövrdə (dövrlərdə) göndərməlidir.

632.2. Mal göndərən malları göndərmə müqaviləsində və ya alıcının yollama sərəncamında göstərilmiş bir neçə mal alana yolladığı halda bir mal alana müqavilədə və ya yollama sərəncamında nəzərdə tutulan miqdardan artıq göndərilmiş mallar, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, digər mal alanlara tam göndərilməmənin tamamlanması hesabına daxil edilmir.

632.3. Əgər göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, alıcı göndərilməsi gecikdirilmiş malların qəbulundan mal göndərənə bildiriş verməklə imtina edə bilər. Alıcı mal göndərənin bildirişi aldığı vaxtadək göndərdiyi malları qəbul etməyə və ödəməyə borcludur.

Maddə 633. Tam göndərilməmə tamamlanarkən malların çeşidi

633.1. Tam göndərilməməsi tamamlanmalı olan malların çeşidi tərəflərin razılaşması ilə müəyyənləşdirilir. Belə razılaşma olmadıqda mal göndərən malların göndərilməmiş miqdarını buna yol verildiyi dövr üçün müəyyənləşdirilmiş çeşiddə tamamlamağa borcludur.

633.2. Bir addan olan malların göndərmə müqaviləsində nəzərdə tutulduğundan artıq miqdarda göndərilməsi eyni çeşidə daxil olan digər adlı malların tam göndərilməməsinin tamamlanması hesabına daxil edilmir. Bu cür göndərmənin alıcının qabaqcadan yazılı razılığı ilə həyata keçirildiyi hal istisna olmaqla, tam göndərilməmə tamamlanmalıdır.

Maddə 634. Alıcı tərəfindən malların qəbul edilməsi

634.1. Alıcı (mal alan) göndərmə müqaviləsinə uyğun göndərilmiş malların qəbulunu təmin edən bütün zəruri hərəkətləri yerinə yetirməyə borcludur.

634.2. Malların qüsurlarını gözdən keçirməklə müəyyən etmək mümkün olmayan hallar istisna olmaqla, alıcı bildiriş vermədikdə, mal qəbul olunmuş hesab edilir.

634.3. Göndərilmiş malları nəqliyyat təşkilatından aldıqda alıcı (mal alan) malların nəqliyyat və müşayiət sənədlərində göstərilmiş məlumatlara uyğunluğunu yoxlamalı, habelə nəqliyyat təşkilatından bu malları nəqliyyatın fəaliyyətini tənzimləyən qanunvericilikdə nəzərdə tutulan qaydaları gözləməklə qəbul etməlidir. (12)

Maddə 635. Alıcı tərəfindən qəbul edilməmiş malın məsuliyyətlə saxlanması

635.1. Göndərmə müqaviləsinə uyğun olaraq alıcı (mal alan) mal göndərənin verdiyi maldan imtina etdikdə bu malın salamatlığını təmin etməyə (məsuliyyətlə saxlamağa) və mal göndərənə ləngimədən bildiriş göndərməyə borcludur.

635.2. Mal göndərən alıcının (mal alanın) məsuliyyətlə saxlamağa qəbul etdiyi malı ağlabatan müddətdə aparmağa və ya ona dair sərəncam verməyə borcludur. Əgər mal göndərən mala dair bu müddətdə sərəncam verməzsə, alıcı malı sata bilər və ya mal göndərənə qaytara bilər.

635.3. Malın məsuliyyətlə saxlanmağa qəbul edilməsi, satılması və ya satıcıya qaytarılması ilə əlaqədar alıcının çəkdiyi zəruri xərclərin əvəzini mal göndərən ödəməlidir. Bu zaman malın satışından götürülən vəsait alıcıya çatan məbləğ çıxılmaqla mal göndərənə verilir.

635.4. Müqavilədə müəyyənləşdirilmiş əsaslar olmadan alıcı mal göndərəndən malı qəbul etmədikdə və ya onun qəbulundan imtina etdikdə mal göndərən alıcıdan malı ödəməyi tələb edə bilər.

Maddə 636. Malların seçilməsi

636.1. Göndərmə müqaviləsində alıcı (mal alan) tərəfindən malların mal göndərənin olduğu yerdə seçilməsi nəzərdə tutulduqda, əgər öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, alıcı malları onların verildiyi yerdə gözdən keçirməyə borcludur.

636.2. Alıcının (mal alanın) göndərmə müqaviləsi ilə müəyyənləşdirilmiş müddətdə, belə müddət olmadıqda isə malların hazır olduğu barədə mal göndərənin bildirişini aldıqdan sonra ağlabatan müddətdə malları seçməməsi mal göndərənə müqavilənin icrasından imtina etmək və ya alıcıdan malları ödəməyi tələb etmək hüququ verir.

Maddə 637. Göndərilən mallar üçün hesablaşmalar

637.1. Alıcı göndərilən malları göndərmə müqaviləsində nəzərdə tutulan hesablaşma qaydasını və formasını gözləməklə ödəyir. Əgər tərəflərin razılaşmasında hesablaşma qaydası və forması müəyyənləşdirilməyibsə, hesablaşmalar ödəniş tapşırıqları ilə həyata keçirilir.

637.2. Göndərmə müqaviləsində malların mal alan (ödəyici) tərəfindən ödənilməsi nəzərdə tutulduqda və o, ödənişdən əsassız imtina etdikdə və ya malları müqavilədə müəyyənləşdirilmiş müddətdə ödəmədikdə mal göndərən alıcıdan göndərilmiş malları ödəməyi tələb edə bilər.

637.3. Göndərmə müqaviləsində malların komplektə daxil olan ayrı-ayrı hissələrlə göndərilməsi nəzərdə tutulduqda, alıcı malları, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, komplektə daxil olan sonuncu hissə yollandıqdan (seçildikdən) sonra ödəyir.

Maddə 638. Göndərmə zamanı tara və qab

638.1. Əgər göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, alıcı (mal alan) malın göndərildiyi çoxdəfəlik taranı və paketləmə vasitələrini müqavilə ilə müəyyənləşdirilmiş qaydada və müddətlərdə qaytarmağa borcludur.

638.2. Malın digər tarası, habelə qabı mal göndərənə yalnız müqavilədə nəzərdə tutulmuş hallarda qaytarılmalıdır.

Maddə 639. Lazımi keyfiyyətli olmayan malların göndərilməsinin nəticələri

639.1. Lazımi keyfiyyətli olmayan malların göndərildiyi alıcı (mal alan) mal göndərənə qarşı bu Məcəllənin 587-ci maddəsində nəzərdə tutulan tələbləri irəli sürə bilər.

639.2. Göndərilmiş malların pərakəndə satışını həyata keçirən alıcı (mal alan) istehlakçının qaytardığı lazımi keyfiyyətli olmayan malın ağlabatan müddətdə dəyişdirilməsini tələb edə bilər, bu şərtlə ki, göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmasın.

Maddə 640. Komplektsiz malların göndərilməsinin nəticələri

640.1. Göndərmə müqaviləsinin şərtləri, komplektlik barəsində adətən irəli sürülən tələblər pozulmaqla malların göndərildiyi alıcı (mal alan) mal göndərənə qarşı bu Məcəllənin 592-ci maddəsində nəzərdə tutulan tələbləri irəli sürə bilər.

640.2. Malların pərakəndə satışını həyata keçirən alıcı (mal alan) istehlakçının qaytardığı komplektsiz malların ağlabatan müddətdə komplektli mallarla əvəz olunmasını tələb edə bilər, bu şərtlə ki, göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmasın.

Maddə 641. Mallar tam göndərilmədikdə, malların qüsurlarının aradan qaldırılmasına və ya komplektinin tamamlanmasına dair tələblər yerinə yetirilmədikdə alıcının hüquqları

641.1. Əgər mal göndərən göndərmə müqaviləsində nəzərdə tutulan miqdarda malları göndərməzsə və ya pis keyfiyyətli malların dəyişdirilməsinə və ya malların komplektinin tamamlanmasına dair alıcının tələblərini müəyyənləşdirilmiş müddətdə yerinə yetirməzsə, alıcının ixtiyarı var ki, göndərilməmiş malları başqa şəxslərdən əldə edərək buna çəkdiyi bütün zəruri və ağlabatan xərcləri mal göndərənə aid etsin.

641.2. Mal göndərən tərəfindən malların tam göndərilmədiyi və ya malların qüsurlarının aradan qaldırılmasına və ya malların komplektinin tamamlanmasına dair alıcının tələblərinin yerinə yetirilmədiyi hallarda alıcının malları başqa şəxslərdən əldə etməyə çəkdiyi xərclər bu Məcəllənin 645.1-ci maddəsində nəzərdə tutulan qaydalara uyğun hesablanır.

641.3. Malların qüsurları aradan qaldırılanadək və komplekti tamamlananadək və ya mallar dəyişdirilənədək alıcı (mal alan) lazımi keyfiyyətli olmayan və komplektsiz malları ödəməkdən imtina edə bilər, malları ödəmiş olduqda isə ödədiyi məbləğlərin qaytarılmasını tələb edə bilər.

Maddə 642. Malların tam göndərilməməsi və ya göndərilməsinin gecikdirilməsi üçün dəbbə pulu

Malların tam göndərilməməsi və ya göndərilməsinin gecikdirilməsi üçün qanunla və ya göndərmə müqaviləsi ilə müəyyənləşdirilmiş dəbbə pulu mal göndərəndən onun tam göndərilməmiş malların miqdarını göndərmənin sonrakı dövrlərində tamamlamaq vəzifəsinin hüdudları daxilində öhdəliyini faktik icra edənədək tutulur, bu şərtlə ki, qanunla və ya müqavilə ilə dəbbə pulunun ödənilməsinin ayrı qaydası nəzərdə tutulmasın.

Maddə 643. Bir neçə göndərmə müqaviləsi üzrə eyni növlü öhdəliklərin icrası

643.1. Mal göndərən eyni vaxtda bir neçə göndərmə müqaviləsi üzrə alıcıya eyni adlı mallar göndərdikdə və göndərilmiş malların miqdarı mal göndərənin bütün müqavilələr üzrə öhdəliklərinin icrası üçün yetərli olmadıqda göndərilmiş mallar mal göndərənin göndərmə zamanı və ya göndərmədən sonra dərhal göstərdiyi müqavilənin icrası hesabına daxil edilməlidir.

643.2. Əgər alıcı bir neçə göndərmə müqaviləsi üzrə aldığı eyni adlı malları mal göndərənə ödəmişsə və ödəniş məbləği alıcının bütün müqavilələr üzrə öhdəliklərinin icrası üçün yetərli deyilsə, ödənilmiş məbləğ alıcının malları ödəyərkən göstərdiyi müqavilənin icrası hesabına daxil edilməlidir.

643.3. Əgər mal göndərən və ya alıcı bu Məcəllənin 643.1 və 643.2-ci maddələrinə uyğun onlara verilmiş hüquqlardan istifadə etməzlərsə, öhdəliyin icrası icra müddəti daha tez çatan müqavilə üzrə öhdəliklərin icrası hesabına daxil edilir. Əgər bir neçə müqavilə üzrə öhdəliklərin icrası müddəti eyni vaxtda çatarsa, həyata keçirilmiş icra bütün müqavilələr üzrə öhdəliklərin icrası hesabına mütənasib surətdə daxil edilir.

~~***Maddə 644. Göndərmə müqaviləsinin birtərəfli dəyişdirilməsi və ya onun icrasından birtərəfli imtina***~~

~~644.1. Göndərmə müqaviləsinin birtərəfli dəyişdirilməsinə və ya onun icrasından birtərəfli imtinaya (tamamilə və ya qismən) tərəflərdən birinin müqaviləni əhəmiyyətli dərəcədə pozduğu halda yol verilir.~~

~~644.2. Göndərmə müqaviləsinin mal göndərən tərəfindən pozulması aşağıdakı hallarda əhəmiyyətli dərəcədə pozuntu sayılır:~~

~~644.2.1. alıcı üçün məqbul müddətdə aradan qaldırılması mümkün olmayan qüsurlarla lazımi keyfiyyətli olmayan mallar göndərildikdə;~~

~~644.2.2. malların göndərilməsi müddətləri dəfələrlə pozulduqda.~~

~~644.3. Göndərmə müqaviləsinin alıcı tərəfindən pozulması aşağıdakı hallarda əhəmiyyətli dərəcədə pozuntu sayılır:~~

~~644.3.1. malların ödənilməsi müddətləri dəfələrlə pozulduqda;~~

~~644.3.2. mallar dəfələrlə seçilmədikdə.~~

~~644.4. Tərəflərin razılaşmasında göndərmə müqaviləsinin birtərəfli dəyişdirilməsinin və ya onun icrasından birtərəfli imtinanın ayrı əsasları da nəzərdə tutula bilər.~~

~~644.5. Göndərmə müqaviləsi tərəflərdən birinin digər tərəfdən bu barədə bildiriş aldığı andan dəyişdirilmiş və ya ləğv edilmiş sayılır, bu şərtlə ki, bildirişdə müqavilənin dəyişdirilməsinin və ya ləğvinin ayrı müddəti nəzərdə tutulmasın və ya tərəflərin razılaşması ilə ayrı müddət müəyyənləşdirilməsin.~~ (12)

Maddə 645. Müqavilə ləğv edilərkən zərərin hesablanması

645.1. Əgər satıcının öhdəliyi pozması nəticəsində müqavilə ləğv edildikdən sonra ağlabatan müddətdə alıcı müqavilədə nəzərdə tutulan malın əvəzinə başqa şəxsdən daha yüksək, lakin ağlabatan qiymətlə mal alarsa, müqavilədə müəyyənləşdirilmiş qiymətlə onun əvəzinə icra edilmiş əqd üzrə qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi tələbini satıcıya qarşı irəli sürə bilər.

645.2. Əgər alıcının öhdəliyi pozması nəticəsində müqavilə ləğv edildikdən sonra ağlabatan müddətdə satıcı malı müqavilədə nəzərdə tutulandan daha aşağı, lakin ağlabatan qiymətlə başqa şəxsə satarsa, müqavilədə müəyyənləşdirilmiş qiymətlə onun

əvəzinə icra edilmiş əqd üzrə qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi tələbini alıcıya qarşı irəli sürə bilər.

645.3. Əgər bu Məcəllənin 645.1 və 645.2-ci maddələrində nəzərdə tutulan əsaslar üzrə müqavilə ləğv edildikdən sonra onun əvəzinə başqa əqd bağlanmamışsa və həmin malın cari qiyməti varsa, tərəf müqavilədə müəyyənləşdirilmiş qiymətlə müqavilənin ləğv edildiyi məqamdakı cari qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi tələbini irəli sürə bilər.

645.4. Malın verilməli olduğu yerdə oxşar mal üçün müqayisəyə gələn şəraitdə adətən alınmış qiymət cari qiymət sayılır. Əgər həmin yerdə cari qiymət yoxdursa, başqa yerdə tətbiq edilən, ağlabatan əvəz ola bilən cari qiymət, malın nəql edilməsi xərclərindəki fərq nəzərə alınmaqla, tətbiq edilə bilər.

645.5. Bu Məcəllənin 645.1.-645.4-cü maddələrində nəzərdə tutulan tələblərin yerinə yetirilməsi öhdəliyi icra etməmiş və ya lazımınca icra etməmiş tərəfi digər tərəfə vurulmuş başqa zərərin əvəzini ödəməkdən azad etmir.

§ 5. Daşınmaz əşyaların alğı-satqısı

Maddə 646. Daşınmaz əşyaların alğı-satqısı müqaviləsi

646.1. Daşınmaz əşyaların alğı-satqısı müqaviləsinə görə satıcı torpaq sahəsini, evi, binanı, qurğunu, mənzili və ya digər daşınmaz əşyanı alıcının mülkiyyətinə verməyi öhdəsinə götürür.

646.2. Əgər bu Məcəllənin bu paraqrafının aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, daşınmaz əşyaların alğı-satqısına əşyaların alğı-satqısı haqqında ümumi müddəalar müvafiq surətdə tətbiq edilir.

Maddə 647. Daşınmaz əşyaların alqı-satqısı müqaviləsinin rəsmiləşdirilməsi xərcləri

Alqı-satqı müqaviləsinin notariat qaydasında təsdiqlənməsi və daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması xərclərini alıcı çəkir. (12)

Maddə 648. Daşınmaz əşyaların alğı-satqısı zamanı tərəflərin vəzifəsi

648.1. Daşınmaz əşyaların alğı-satqısı halında tərəflərdən hər biri mülkiyyət hüququnun keçirilməsi faktının daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması üçün öz tərəfindən zəruri olanları həyata keçirərək özünün vermə və ya qəbul etmə vəzifəsini icra edir.

648.2. Satılmış əşya ilə bağlı risklər, xərclər və faydalar şübhə halında alıcıya yalnız daşınmaz əmlakın dövlət reyestrinə daxil edildiyi andan keçir. Əgər tərəflərdən biri qeydiyyatın gecikdirilməsində təqsirlidirsə, o, bununla əlaqədar əmələ gəlmiş zərərin əvəzini digər tərəfə ödəməlidir.

Maddə 649. Satılmış daşınmaz əşyanın uyğun olmaması

Satılmış daşınmaz əşyanın uyğunsuzluğu müqaviləyə uyğun olmamasından savayı həmin əşyaya aid artıq mövcud olmayan hüquqların daşınmaz əmlakın dövlət reyestrində göstərildiyi halda da baş verir.

Maddə 650. Daşınmaz əşyaların alğı-satqısı haqqında müddəaların rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyaların alğı-satqısına tətbiqi

Rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyalara daşınmaz əşyaların alğı-satqısı haqqında göstərişlər müvafiq surətdə tətbiq edilir.

§ 6. Tələblərin və digər hüquqların alğı-satqısı

Maddə 651. Əşyaların alğı-satqısı haqqında müddəaların, tələblərin və digər hüquqların alğı-satqısına tətbiqi

Tələblərin və digər hüquqların alğı-satqısına əşyaların alğı-satqısı haqqında göstərişlər müvafiq surətdə tətbiq edilir. Rəsmi reyestrlərdə qeydə alınmış daşınmaz əşyalara və obyektlərə hüquqların satıldığı hallarda bu Məcəllənin 646—650-ci maddələri müvafiq surətdə tətbiq edilir.

Maddə 652. Hüququn keçirilməsi (tələbin güzəşti)

Hüququn satıldığı halda göndərmə və qəbul hüququn keçirilməsindən (tələbin güzəştindən) ibarət olur. Satıcıda olan hüququn əsaslandırılması və alıcıya keçirilməsi xərclərini satıcı çəkir.

Maddə 653. Əşyaya sahiblik hüquqlarının satılması

Əşyaya sahiblik səlahiyyəti verən hüququn satıldığı halda satıcı alıcıya qüsurlardan, habelə üçüncü şəxslərin hüquqlarından və iddialarından azad əşya göndərməyə borcludur.

Maddə 654. Hüquqların və tələblərin alğı-satqısı zamanı satıcının məsuliyyəti

654.1. Hər hansı tələbin və hər hansı digər hüququn satıcısı həmin tələbin və ya hüququn həqiqətən mövcud olmasına cavabdehdir. Qiymətli kağızın satıcısı belə bir məsuliyyət də daşıyır ki, həmin qiymətli kağızın etibarsızlığına səbəb ola biləcək hansısa icraata başlanılmayacaqdır.

654.2. Əgər hər hansı tələbin satıcısı borclunun ödəniş qabiliyyəti üçün məsuliyyəti öz öhdəsinə götürürsə, hesab edilir ki, həmin məsuliyyət bu tələbin güzəşt edildiyi an üçün ödəniş qabiliyyətinə aiddir.

§ 7. Faktorinq

Maddə 655. Faktorinq müqaviləsi

655.1. Faktorinq pul tələbinin güzəşt edilməsi müqabilində maliyyələşdirmədir. Faktorinq müqaviləsinə görə bir tərəf (faktor) üçüncü şəxs (borclu) barəsində müştərinin (kreditorun) üçüncü şəxsə mal verməsindən, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbinin hesabına digər tərəfə (müştəriyə) pul vəsaiti verir və ya verməyi öhdəsinə götürür, müştəri isə bu pul tələbini faktora güzəşt edir və ya güzəşt etməyi öhdəsinə götürür.

655.2. Pul tələblərinin güzəşti barəsində borcluya bildiriş verilməlidir.

655.3. Müştəri faktor qarşısında öhdəliyinin icrasını təmin etmək məqsədi ilə də borcluya olan pul tələbini faktora güzəşt edə bilər.

655.4. Faktorun faktorinq müqaviləsi üzrə öhdəliklərinə müştəri üçün mühasibat uçotunun aparılması, habelə müştəriyə güzəşt predmeti olan pul tələbləri ilə bağlı digər maliyyə xidmətlərinin göstərilməsi də daxil ola bilər.

655.5. Faktorinq müqaviləsi yazılı formada bağlanır.

655.6. Faktorinq müqavilələrini faktor kimi banklar və digər kredit təşkilatları, habelə bu cür fəaliyyəti həyata keçirməyə icazəsi olan başqa kommersiya təşkilatları bağlaya bilərlər.

Maddə 656. Tələblərin alğı-satqısı haqqında müddəaların faktorinq müqaviləsinə tətbiqi

Əgər bu Məcəllənin bu paraqrafının aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, faktorinq müqaviləsinə tələblərin alğı-satqısı və verilməsi haqqında müddəalar tətbiq edilir.

Maddə 657. Faktorinq müqaviləsinin iştirakçıları arasında münasibətlərin xüsusiyyətləri

~~657.1. Faktorinq müqaviləsinin mövcud və ya gələcək tələblərin güzəştini nəzərdə tutan hər hansı müddəası onun iştirakçıları arasında münasibətlərdə yalnız o halda etibarlıdır ki, həmin tələblər müqavilənin bağlandığı an mövcud olsun.~~

657.2. Faktorinq müqaviləsinin gələcək tələblərin güzəştinə əsas verən hər hansı müddəası tələblərin verilmə üzrə hansısa əlavə hərəkətlər edilmədən əmələ gəldiyi məqamda faktora keçməsini bildirir.

657.3. Faktorinq müqaviləsində müştərinin hüquqlarının faktora hansı dərəcədə keçməsi də tənzimlənə bilər.

657.4. Əgər borclu müştəridən və ya müştərinin vəkaləti ilə faktordan güzəşt barəsində yazılı bildiriş almışdırsa, ödənişi faktora həyata keçirməlidir. Bildiriş yalnız o halda etibarlıdır ki, güzəşt edilmiş tələbləri və borclunun ödənişi həyata keçirdiyi və ya hesabına həyata keçirdiyi faktoru kifayət qədər dəqiq göstərsin və bildirişin verildiyi an və ya daha əvvəl bağlanmış müqavilədən irəli gələn tələblərə aid olsun.

657.5. Əgər borclu başqa şəxsin ödənişi həyata keçirməkdə üstünlük hüququndan xəbərdardırsa, bu Məcəllənin 657.4-cü maddəsinə uyğun ödənişi həyata keçirmək vəzifəsi aradan qalxır.

657.6. Borclunu faktora ödəniş nəticəsində borcdan azad edən digər əsaslardan asılı olmayaraq, borcdan azad edilmə o halda ödənişin nəticəsi olur ki, həmin ödəniş bu Məcəllənin 657.4-cü maddəsinə uyğun həyata keçirilir.

657.7. Əgər faktor borcludan müqavilə əsasında əmələ gəlmiş tələb üzrə məbləğ ödəməyi tələb edirsə, borclu həmin müqavilədən irəli gələn və müştərinin ondan ödəniş tələb etdiyi halda irəli sürə biləcəyi bütün etirazları faktora bildirə bilər. Borclu güzəşt haqqında yazılı bildirişin verildiyi məqamda müştəriyə qarşı olan tələblərinin ödənilməsinə dair hər hansı hüququ da qarşılıqlı əvəzləşdirmə çərçivəsində faktora qarşı etiraz kimi irəli sürə bilər.

657.8. Mal göndərənin alğı-satqı müqaviləsi üzrə öhdəlikləri icra etməməsi, lazımınca icra etməməsi və ya icranı gecikdirməsi özlüyündə borcluya faktora ödədiyi məbləğin qaytarılmasını tələb etmək hüququ vermir. Əgər borclu hər hansı tələb üzrə faktora ödədiyi məbləğin qaytarılmasını tələb etmək hüququna malikdirsə, faktordan həmin məbləğin qaytarılmasını yalnız o halda tələb edə bilər ki, faktor bu tələb üzrə mal göndərənə ödəmə öhdəliyini icra etməsin və ya borclunun ödənişinin aid edildiyi mallar barəsində müqavilənin müştəri tərəfindən yerinə yetirilmədiyini, lazımınca yerinə yetirilmədiyini və ya yerinə yetirilməsinin gecikdirildiyini bildiyi məqamda icra etsin.

657.9. Əgər müştəri faktorinq müqaviləsi əsasında hər hansı tələbi faktora güzəşt edirsə, onda əvvələn, faktor tərəfindən tələbin hər hansı növbəti güzəştinə və ya hər hansı sonrakı tələb alana bu Məcəllənin 657.4—657.8-ci maddələri elə tərzdə tətbiq edilir ki, sonrakı tələb alan sanki faktordur, ikincisi isə, növbəti güzəşt haqqında borcluya ünvanlanmış bildiriş həm də faktora ünvanlanmış bildiriş olur.

657.10. Bu Məcəllənin bu paraqrafının müddəaları faktorinq müqaviləsi ilə qadağan olunmuş sonrakı güzəştə tətbiq edilmir. (12)

§ 8. Sınama üçün alğı-satqı

Maddə 658. Sınama üçün alğı-satqı müqaviləsi

658.1. Sınama və ya yoxlama üçün alğı-satqı müqaviləsi alıcının həmin predmeti almağa razılıq verdiyi vaxtadək təxirəsalıcı şərtlə bağlanan alğı-satqı müqaviləsidir.

658.2. Sınama üçün alğı-satqı müqaviləsinə görə satıcı alıcıya predmeti gözdən keçirməyə icazə verməlidir.

~~658.3. Şübhə halında həmin predmeti almağa razılıq vermək alıcının ixtiyarındadır.~~

658.4. Alıcı sınama və ya yoxlama üçün aldığı predmet barəsində razılığını yalnız müəyyənləşdirilmiş müddət ərzində, bu müddət müəyyənləşdirilmədikdə isə yalnız satıcının alıcı üçün müəyyənləşdirdiyi ağlabatan müddət bitənədək bildirə bilər. Əgər əşya sınama və ya gözdən keçirmə üçün artıq alıcıya verilmişdirsə, onun susması razılıq kimi qiymətləndirilir. (12)

30-cu fəsil. Satın almaqda üstünlük hüququ və digər üstünlük hüquqları

Maddə 659. Satın almaqda üstünlük hüququ və digər üstünlük hüquqları haqqında ümumi müddəalar

659.1. Satın almaqda üstünlük hüququ və hər hansı əşyaya və ya hər hansı hüquqa digər üstünlük hüquqları qanuna görə və ya müqavilə əsasında əmələ gələ bilər. Əgər belə hüquqlar müqaviləyə əsaslanırsa, yalnız müqavilə iştirakçılarını mükəlləfiyyətli edir və həmin əşyanı və ya həmin hüququ arxayın əldə etmiş üçüncü şəxslərə qarşı qoyula bilməz.

659.2. Satın almaqda üstünlük hüququ və müqaviləyə əsaslanan digər üstünlük hüquqları yalnız nəzərdə tutduqları əqdin etibarlığı üçün tələb edilən formada qeydə alınmış olduqda etibarlıdır.

659.3. Satın almaqda üstünlük hüququnun və digər üstünlük hüquqlarının aşağıdakı hallarda qüvvəsi yoxdur:

659.3.1. onlar başqasına verilməsi normativ hüquqi aktlarda nəzərdə tutulmuş xüsusi prosedurlarla tənzimlənən obyektlərə və ya hüquqlara aid olduqda;

659.3.2. icraat çərçivəsində, o cümlədən məcburi auksion satışı çərçivəsində satış halında.

659.4. Əgər satın almaqda üstünlük hüququ və müqaviləyə əsaslanan digər üstünlük hüquqları qıt olan ən zəruri əşyalara və hüquqlara aiddirsə, maraqlı şəxslər onların etibarlığı barəsində mübahisə edə bilərlər.

659.5. Əgər satın almaqda hər hansı üstünlük hüququnun və digər üstünlük hüququnun qüvvəsi yoxdursa, belə hüququn verilməsi üçün ödənilmiş haqqın əvəzi, o cümlədən onun ödənildiyi gündən qanunla müəyyənləşdirilmiş faizlər ödənilməlidir.

Maddə 660. Satın almaqda üstünlük hüququ

660.1. Hər hansı obyekti üstün satın almağa ixtiyar verilmiş şəxs bu hüququnu satın almaqda üstünlük hüququ üzrə mükəlləfiyyətli olan şəxs həmin obyektin alğı-satqısı barədə hər hansı üçüncü şəxslə müqavilə bağladıqdan sonra həyata keçirə bilər.

660.2. Mükəlləfiyyətli şəxs üçüncü şəxslə bağladığı müqavilənin məzmununu üstün satın almağa ixtiyar verilmiş şəxsə ləngimədən bildirməlidir. Mükəlləfiyyətli şəxsin məlumatı üçüncü şəxsin məlumatı ilə əvəz edilə bilər. Satın almaqda üstünlük hüququ məlumat alındıqdan sonra iki ay ərzində həyata keçirilə bilər.

660.3. Satın almaqda üstünlük hüququnun həyata keçirilməsi üçün mükəlləfiyyətli şəxsə bu barədə ərizə verilir. Ərizədən ötrü alğı-satqı müqavilələri üçün müəyyənləşdirilmiş forma tələb edilmir.

660.4. İxtiyarlı şəxs satın almaqda üstünlük hüququnu həyata keçirmək üçün mükəlləfiyyətli şəxslə alğı-satqı müqaviləsi bağlayır. Müqavilənin şərtləri mükəlləfiyyətli şəxslə üçüncü şəxs arasında razılaşdırılır. Əgər alış qiyməti cari qiymətdən yüksəkdirsə, ixtiyarlı şəxs onun cari qiymət səviyyəsinədək azaldılmasını tələb edə bilər. İxtiyarlı şəxs həmin hüququ həyata keçirdikdə mükəlləfiyyətli şəxs alğı-satqı müqaviləsini ləğv edə bilər. Müqavilə iştirakçılarının hüquqi müdafiə vasitələri alğı-satqı müqaviləsi ilə müəyyənləşdirilir. Əgər ixtiyarlı şəxs satın almaqda üstünlük hüququnu həyata keçirənədək əşyaya mülkiyyət hüququnu üçüncü şəxs arxayın əldə etmişdirsə, mükəlləfiyyətli şəxs barəsində ixtiyarlı şəxsin hüquqi müdafiə vasitələri onun icra etməmə nəticəsində zərərin əvəzinin ödənilməsi tələbi ilə məhdudlaşdırılır.

660.5. Mükəlləfiyyətli şəxsin üçüncü şəxslə razılaşması alğını satın almaqda üstünlük hüququnun həyata keçirilməməsindən asılı etdikdə və ya satın almaqda üstünlük hüququnun həyata keçirildiyi halda mükəlləfiyyətli şəxsin imtina hüququnu qüvvədə saxladıqda həmin razılaşmanın üstün satın almağa ixtiyar verilmiş şəxs üçün qüvvəsi yoxdur.

660.6. Əgər üçüncü şəxs üstün satın almağa ixtiyar verilmiş şəxsin icra etməyə qadir olmadığı hər hansı əlavə öhdəliyin icrasını müqaviləyə əsasən üzərinə götürürsə, ixtiyar verilmiş şəxs öhdəliyin icrası əvəzinə onun dəyərini ödəməlidir. Əgər öhdəliyi pulla

qiymətləndirmək mümkün deyildirsə, satın almaqda üstünlük hüququnun həyata keçirilməsi istisna edilir. Lakin əgər üçüncü şəxslə müqavilə həmin öhdəliksiz də bağlana bilərsə, hər hansı əlavə öhdəlik haqqında şərt nəzərə alınmır.

660.7. Əgər üçüncü şəxs satın almaqda üstünlük hüququnun şamil edildiyi hər hansı obyekti digər obyektlərlə birlikdə ümumi qiymətə alırsa, üstün satın almağa ixtiyar verilmiş şəxs həmin ümumi qiymətin ağlabatan hissəsini ödəməlidir. Mükəlləfiyyətli şəxs tələb edə bilər ki, satın almaqda üstünlük hüququ bütün bölünməz əşyalara şamil edilsin.

660.8. Ayrı şərt qoyulmayıbsa, satın almaqda üstünlük hüququ ixtiyarlı şəxsin vərəsələrinə verilmir və keçmir. Hüquq konkret müddətlə məhdudlaşdırıldıqda, o, şübhə halında vərəsəlik üzrə verilir.

Maddə 661. Digər üstünlük hüquqları

Tətbiq edilə bildiyi halda bu Məcəllənin 659 və 660-cı maddələrinin müddəaları müvafiq olaraq digər üstünlük hüquqları, o cümlədən satılmış əşyanın yenidən alınması (satın alınması) hüququ və kirayəyə və ya icarəyə götürməkdə üstünlük hüquqları üçün etibarlıdır.

31-ci fəsil. Dəyişdirmə

Maddə 662. Dəyişdirmə müqaviləsi

662.1. Dəyişdirmə müqaviləsinə görə tərəflərdən hər biri başqa tərəfin mülkiyyətinə bir əşyanın müqabilində digər əşyanı verməyi öhdəsinə götürür.

662.2. Dəyişdirmə müqaviləsinə alğı-satqı haqqında göstərişlər müvafiq surətdə tətbiq edilir.

662.3. Dəyişdirmə müqaviləsi üzrə münasibətlərin hər bir iştirakçısı digər tərəfə verəcəyini vəd etdiyi əşyanın satıcısı və aldığı əşyanın alıcısı sayılır.

Maddə 663. Dəyişdirmə müqaviləsi üzrə qiymətlər və xərclər

663.1. Əgər dəyişdirmə müqaviləsindən ayrı qayda irəli gəlmirsə, dəyişdirilməli mallar bərabər qiymətli sayılır, onların verilməsi və qəbul edilməsi xərclərini isə hər bir halda müvafiq vəzifələri daşıyan tərəf çəkir.

~~663.2. Dəyişdirmə müqaviləsinə uyğun olaraq dəyişdirilən malların qeyri-bərabər qiymətli sayıldığı halda, aldığı malın qiymətindən aşağı qiymətli mal verməli olan tərəf qiymət fərqini, əgər müqavilədə ödənişin ayrı qaydası nəzərdə tutulmayıbsa, bilavasitə malı vermək vəzifəsini icra edənədək və ya icra etdikdən sonra ödəməlidir.~~ (12)

Maddə 664. Dəyişdirmə müqaviləsi üzrə malı vermək öhdəliyinin qarşılıqlı icrası

Dəyişdirmə müqaviləsinə uyğun olaraq dəyişdirilən malların verilməsi müddətləri üst-üstə düşmədikdə digər tərəf malı verdikdən sonra malı verməli olan tərəfin malı vermək öhdəliyinin icrasına öhdəliklərin qarşılıqlı icrası haqqında qaydalar tətbiq edilir.

Maddə 665. Dəyişdirilən mallara mülkiyyət hüququnun keçməsi

Əgər dəyişdirmə müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, dəyişdirilən mallara mülkiyyət hüququ dəyişdirmə müqaviləsi üzrə alıcı kimi çıxış edən tərəflərə hər iki tərəf müvafiq malları vermək öhdəliklərini icra etdikdən sonra eyni vaxtda keçir.

32-ci fəsil. Bağışlama

Maddə 666. Bağışlama müqaviləsi

666.1. Bağışlama müqaviləsi sağ ikən bağlanan elə müqavilədir ki, onun əsasında hədiyyə verən öz əmlakının bir hissəsini bağışlamaqla hədiyyə alanı zənginləşdirir, həm də bu cür bağışlama hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilmir. Bağışlama müqaviləsi hədiyyə alanın hədiyyəni qəbul etməsi ilə bağlanmış sayılır. Əgər bağışlama öhdəliklə şərtləndirilməyibsə, hədiyyənin qəbul edildiyi ehtimal olunur.

666.2. Bağışlama predmeti əşyalar, hədiyyə verənə və ya üçüncü şəxsə qarşı əmlak hüquqları (tələblər), habelə hədiyyə alanın hədiyyə verən və ya üçüncü şəxs qarşısında əmlak vəzifəsindən azad edilməsi ola bilər.

666.3. Mənəvi və ya əxlaqi borcun icrası bağışlama sayılmır.

Maddə 667. Bağışlamaq və hədiyyə qəbul etmək qabiliyyəti

667.1. Fəaliyyət qabiliyyətli şəxs öz əmlakına dair bağışlama yolu ilə o halda sərəncam verə bilər ki, həmin əmlak ər-arvadın ümumi mülkiyyəti və ya vərəsəlik hüququ ilə məhdudlaşmış olmasın.

667.2. Fəaliyyət qabiliyyəti olmayan şəxsin əmlakından bağışlama yalnız qanuni nümayəndələrin məsuliyyətinin saxlanması şərti ilə, habelə qəyyumluq və himayəçilik hüququnun göstərişlərinə uyğun olaraq həyata keçirilə bilər.

667.3. Əgər fəaliyyət qabiliyyəti olmayan şəxs öz hərəkətlərinin xarakterini və nəticələrini qiymətləndirməyə qadirdirsə, o da hədiyyəni qəbul edə və hüquqa uyğun surətdə əldə edə bilər. Lakin əgər qanuni nümayəndə hədiyyənin qəbul olunmasını qadağan etmişsə və ya qaytarılmasına dair sərəncam vermişsə, hədiyyə əldə edilmir və ya ləğv edilir.

Maddə 668. Bağışlama forması. Bağışlama vədi

668.1. Bağışlama aşağıdakı hallarda etibarlıdır:

668.1.1. daşınmaz əşyaların və ya həmin əşyalara hüquqların bağışlanması zamanı bağışlama müqaviləsi notariat qaydasında təsdiqləndikdə ~~və daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqda~~;

668.1.2. rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyaların bağışlanması zamanı bağışlama müqaviləsi notariat qaydasında təsdiqləndikdə ~~və müvafiq rəsmi reyestrdə qeydə alındıqda~~;

668.1.3. daşınar əşyaların bağışlanması zamanı hədiyyə verən əşyanı hədiyyə alana verdikdə;

668.1.4. tələblərin və digər hüquqların bağışlanması zamanı onlar bu Məcəllənin tələblərinə uyğun yazılı surətdə keçirildikdə;

668.1.5. gələcəkdə bağışlama vəd edildikdə bu vəd notariat qaydasında təsdiqləndikdə.

~~668.2. Bu Məcəllənin 668.1-ci maddəsinin tələblərinə uyğun gəlməyən bağışlama vədi sonradan həmin tələblərə uyğun icra edildikdə etibarlı olur.~~ (12)

Maddə 669. Hədiyyənin qəbul edilənədək geri götürülməsi

Nəyi isə bağışlamaq niyyəti ilə başqa şəxsə verən şəxs hədiyyə alan hədiyyəni qəbul edənədək istədiyi vaxt onu geri götürə bilər.

Maddə 670. Bağışlama müqaviləsi üzrə şərtlər və öhdəliklər

670.1. Bağışlama şərtlərin və ya öhdəliklərin yerinə yetirilməsindən asılı edilə bilər.

670.2. Hədiyyə verənin ölməsi halı üçün bağışlama vərəsəlik hüququnun göstərişlərinə uyğun icra edilir.

670.3. Bağışlama müqaviləsinə uyğun olaraq hədiyyə verən və onun vərəsələri hədiyyə alanın götürdüyü öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi barədə iddia verə bilərlər. Əgər öhdəliyin icrası ilə ictimai mənafelərə riayət edilirsə, hədiyyə verənin ölümündən sonra icranı müvafiq icra hakimiyyəti orqanı tələb edə bilər.

670.4. Əgər bağışlama müqaviləsi bağlandıqdan sonra hədiyyə alan hədiyyənin dəyərinin öhdəliyin icrası xərclərini ödəmədiyini və zərərin əvəzinin ona ödənilməyəcəyini aşkar edərsə, öhdəliyin icrasından imtina edə bilər.

Maddə 671. Hədiyyənin restitusiyası

Hədiyyə verən hədiyyə alanın ondan qabaq ölməsi halı üçün bağışlanmış əşyanın restitusiyası hüququnu özündə saxlaya bilər. Torpaq sahələri və ya onlara əşya hüquqları bağışlanarkən bu cür restitusiya hüququ daşınmaz əmlakın dövlət reyestrində qabaqcadan qeydə alına bilər.

Maddə 672. Hədiyyə verənin məsuliyyəti

672.1. Hədiyyə verən hədiyyə alana hədiyyə ilə əlaqədar dəyən zərər üçün onun qarşısında yalnız o halda məsuliyyət daşıyır ki, zərər qəsdən və ya kobud ehtiyatsızlıq üzündən vurulmuş olsun.

672.2. Qalan hallarda hədiyyə verən yalnız hədiyyə alana vəd etdikləri üçün məsuliyyət daşıyır.

Maddə 673. Bağışlamaqdan imtina

673.1. Hədiyyə verən aşağıdakı hallarda bağışlamaqdan imtina edə bilər:

673.1.1. hədiyyə alan hədiyyə verənin və ya onun yaxın qohumunun barəsində ağır cinayət törətdikdə;

673.1.2. hədiyyə alan ailə hüquq münasibətlərinə uyğun olaraq onun üzərinə qoyulmuş vəzifələri hədiyyə verənin və ya onun yaxın qohumlarının biri barəsində kobudcasına pozduqda;

673.1.3. o, bağışlama ilə bağlı öhdəlikləri əsassız olaraq icra etmədikdə.

673.2. Hədiyyə verən bağışlamaq barəsində verdiyi vədi aşağıdakı hallarda ləğv edə və onun icrasından imtina edə bilər:

673.2.1. bu Məcəllənin 673.1-ci maddəsində nəzərdə tutulan hallarda;

673.2.2. vəd verildikdən sonra hədiyyə verənin əmlak münasibətləri bağışlamanı onun üçün son dərəcə ağır yükə çevirə biləcəyi dərəcədə dəyişdikdə;

673.2.3. vəd verildikdən sonra hədiyyə verənin ailə hüquq münasibətləri üzrə əvvəllər olmamış, yaxud çox cüzi həcmdə olmuş öhdəlikləri yarandıqda.

673.3. İmtina yalnız onun əsasının hədiyyə verənə məlum olduğu gündən bir il ərzində imtina haqqında bildirişin hədiyyə alana çatdığı halda qüvvədədir. Hədiyyə verənin həmin ilin sonunadək öldüyü halda imtina hüququ qalan müddət üçün onun vərəsələrinə keçir. Əgər hədiyyə alan hədiyyə veranı qəsdən öldürmüşsə və ya bağışlamanı ləğv etməkdə ona mane olmuşsa, hədiyyə verənin vərəsələri bağışlamaqdan imtina edə bilərlər.

673.4. Bağışlamaqdan imtina edildikdə hədiyyə alan, əgər bağışlanmış predmet onun mülkiyyətindədirsə, hədiyyəni qaytarmağa borcludur.

Maddə 674. Bağışlamanın ləğvi və hədiyyə verənin öhdəliklərinin xitamı

674.1. Aşağıdakı hallarda bağışlama imtina hüququnun həyata keçirilməsinə zərurət olmadan ləğv edilir:

674.1.1. bağışlanması vəd edilmiş əşya itirildikdə və ya məhv olduqda;

674.1.2. hədiyyə verənin əmlakı üçün müsabiqə icraatı başlandıqda.

674.2. Hədiyyə verən vaxtaşırı xidmətlər göstərməyi öhdəsinə götürdükdə, əgər ayrı şərt qoyulmayıbsa, bu öhdəliyə onun ölümü ilə xitam verilir.

33-cü fəsil. Əmlak kirayəsi

Maddə 675. Əmlak kirayəsi müqaviləsi

Əmlak kirayəsi müqaviləsinə görə kirayəyə verən əşyanı kirayəçinin istifadəsinə verməyi, kirayəçi isə bunun üçün kirayəyə verənə kirayə haqqı ödəməyi öhdəsinə götürür.

Maddə 676. Kirayəyə verənin məsuliyyəti

676.0. Bütün kirayə müddəti ərzində kirayəyə verən aşağıdakılar üçün məsuliyyət daşıyır:

676.0.1. kirayəyə verilən əşya kirayəçinin istifadəsi üçün yararlı vəziyyətdə olmalıdır;

676.0.2. kirayəyə verilmiş əşya əmlak kirayəsi müqaviləsi ilə qarantiya verilmiş xassələrə malik olmalıdır;

676.0.3. üçüncü şəxslərin hər hansı hüquqları və ya iddiaları kirayəyə verilmiş əşyanın müqavilədə nəzərdə tutulan istifadəsinə mane olmamalı və ya bu istifadəni istisna etməməlidir;

676.0.4. yaşayış otağı və ya adamların olması üçün nəzərdə tutulan digər otaq həmişə elə vəziyyətdə olmalıdır ki, ondan istifadə istifadəçilərin həyatına və sağlamlığına vicdanlı kirayəyə verən üçün aşkar təhlükələr törənməsi ilə bağlı olmasın.

Maddə 677. Əşya müqaviləyə uyğun gəlmədikdə kirayəçinin hüquqi müdafiə vasitələri

677.1. Əmlak kirayəsi müqaviləsinin predmeti olan əşyanın bu Məcəllənin 676-cı maddəsinin tələblərinə uyğun gəlməməsi kirayəçiyə aşağıdakı hüquqi müdafiə vasitələrini tətbiq etmək hüququ verir:

677.1.1. əgər müqaviləyə uyğunsuzluğu nəticəsində əşya məhv olarsa və ya onun müqavilə üzrə müəyyənləşdirilmiş istifadəyə yararlığı azalarsa, əşyanın yararlığının itdiyi müddət üçün kirayəçi kirayə haqqını ödəməkdən azad edilir, onun yararlığının azaldığı müddət üçün isə yalnız kirayə haqqının bir hissəsini ödəməyə borclu olur. Yararlığın əhəmiyyətsiz dərəcədə azalması hesaba alınmır. Yaşayış otağının kirayəsi müqaviləsində kirayəçinin ziyanına olaraq bundan kənaraçıxmaların qüvvəsi yoxdur;

677.1.2. əgər müqaviləyə hər hansı uyğunsuzluq onun bağlandığı məqamda məlum olarsa və ya belə uyğunsuzluq kirayəyə verənin cavabdeh olduğu hansısa hal nəticəsində sonradan əmələ gələrsə və ya kirayəyə verən həmin uyğunsuzluğun aradan qaldırılmasını gecikdirərsə, kirayəçi bu Məcəllənin 677.1.1-ci maddəsinə əlavə olaraq öhdəliyin icra edilməməsi nəticəsində dəyən zərərin əvəzini ödəməyi tələb edə bilər;

677.1.3. bundan savayı, kirayəyə verənin gecikdirməsi halında kirayəçi qüsuru özü aradan qaldıra bilər və çəkdiyi zəruri xərclərin əvəzini ödəməyi tələb edə bilər;

677.1.4. əgər kirayəçi kirayəyə götürdüyü əşyanı tamamilə və ya qismən müqavilə üzrə istifadəyə müəyyənləşdirilmiş müddətdə almırsa və ya əşya ondan götürülürsə və ya əhəmiyyətli dərəcədə pisləşirsə, kirayəyə verən isə gecikdirməyə yol verirsə, kirayəçi xəbərdarlıq müddətini gözləmədən müqaviləni ləğv edə bilər. İstifadəyə əhəmiyyətsiz maneə və ya istifadədən məhrumetmə nəticəsində müqavilənin ləğvinə yalnız o halda yol verilir ki, kirayəçinin xüsusi mənafeləri buna haqq qazandırsın. Əgər kirayəyə verən əşyanı vaxtında istifadəyə verdiyinə və ya qüsuru müəyyənləşdirilmiş müddət bitənədək aradan qaldırdığına əsaslanaraq müqavilənin ləğvinə yol verilə bilməsi barədə mübahisə edirsə, o bunları sübut etməlidir. Yaşayış otağının kirayəsi üzrə hüquq münasibətlərində müqaviləni ləğv etmək hüququnu istisna edən və ya məhdudlaşdıran razılaşmanın qüvvəsi yoxdur.

677.2. Əgər kirayəyə götürülən əşyanın müqaviləyə uyğunsuzluğu kirayəçiyə müqavilə bağlanarkən məlum olmuşsa, o bu Məcəllənin 677.1-ci maddəsində müəyyənləşdirilmiş hüquqlardan istifadə edə bilməz. Əgər kirayəçi qüsuru bilə-bilə müqavilənin şərtlərinə uyğun gəlməyən əşyanı qəbul edirsə, bu hüquqlardan yalnız o halda istifadə edə bilər ki, əşyanı qəbul edərkən onları həyata keçirmək hüququnu özündə saxlamış olsun. Bu (677.2) maddənin müddəaları bu Məcəllənin 677.1.4-cü maddəsinə uyğun olaraq, müqavilənin pozuntularına tətbiq edilmir.

677.3. Kirayəçi kirayə müddəti ərzində aşkar etdiyi müqaviləyə hər hansı uyğunsuzluqlar barəsində və ya əşyanı və ya onun istifadəçilərini gözlənilməz təhlükədən qorumaq üçün tədbirlər görülməsi zərurəti barəsində kirayəyə verənə dərhal bildiriş verməlidir. Bu, əşya barəsində üçüncü şəxslərin hüquqlarının bəyan edildiyi hallarda da qüvvədədir. Əgər kirayəçi bildiriş vermirsə, bunun nəticəsində əmələ gələn zərərin əvəzini ödəməyə borcludur; kirayəyə verən kirayəçinin bildiriş verməməsi üzündən hər hansı qüsuru aradan qaldıra bilmədikdə, kirayəçinin bu Məcəllənin 677.1-ci maddəsində müəyyənləşdirilmiş hüquqları həyata keçirmək hüququ yoxdur.

677.4. Kirayəyə verəni kirayəyə verilmiş əşyanın qüsurları üçün məsuliyyətdən azad edən və ya bu məsuliyyəti məhdudlaşdıran razılaşmanın qüvvəsi yoxdur, bu şərtlə ki, kirayəyə verən həmin qüsurlar barəsində qəsdən susmuş olsun.

Maddə 678. Kirayəyə verilmiş əşyaya təsirlər

678.1. Otaqların kirayəçisi obyektiv baxıldıqda kirayəyə götürülmüş otaqlara təsirlə ya bağlı olmayan, ya da əhəmiyyətsiz dərəcədə bağlı olan tədbirlərin kirayəyə verən tərəfindən həyata keçirilməsinə yol verməlidir.

678.2. Obyektiv baxıldıqda kirayəyə götürülmüş əşyaya hər hansı əhəmiyyətli təsirlə bağlı olan tədbirlərə kirayəçi bu şərtlə yol verməlidir ki:

678.2.1. təsir əvvələn, kirayəyə verilmiş otaqların və ya binanın salamatlığı üçün zəruri olan, ikincisi isə, kirayəyə verilmiş otaqların və ya binanın digər hissələrinin yaxşılaşdırılmasına, yaxud isitməyə sərf olunan enerjiyə qənaət edilməsinə yönəldilən, kirayəçi və ya onun ailəsi üçün yolverilməz rahatsızlıqlar yaratmayan tədbirlərin nəticəsi olsun (yolverilənlik qiymətləndirilərkən görülən işlərin törətdiyi rahatsızlıqların xarakteri və müddəti, kirayəçinin əvvəlki məsrəfləri, kirayə haqqının gözlənilə bilən artımı, habelə kirayəyə verənin və digər kirayəçilərin əsaslı mənafeləri nəzərə alınır. Əgər kirayəyə verilmiş otaqlar və ya binanın digər hissələri yalnız hamılıqla qəbul olunmuş sayılan vəziyyətə gətirilərsə, kirayə haqqının gözlənilə bilən artımı nəzərə alınmır);

678.2.2. kirayəyə verən tədbirlərin həyata keçirilməsinə üç ay qalmış kirayəçiyə bu tədbirlərin xarakteri, həcmi, başlanğıcı və ehtimal edilən müddəti barəsində, habelə kirayə haqqının mümkün artımı barəsində yazılı bildiriş versin;

678.2.3. kirayəyə verən həmin tədbirlərin həyata keçirilməsi nəticəsində kirayəçinin çəkməli olacağı xərclərin əvəzini ödəsin; kirayəçinin xahişi ilə kirayəyə verən ona avans verməlidir.

678.3. Bu Məcəllənin 678.2-ci maddəsinə uyğun hallarda kirayəçi bildirişin daxil olduğu tarixdən iki ay ərzində müqaviləni növbəti ayın sonu üçün ləğv etmək hüququna

malikdir. Əgər kirayəçi müqavilənin ləğv olunduğunu bəyan edərsə, tədbirlərin görülməsi kirayə müddətinin sonunadək təxirə salınır.

678.4. Yaşayış otağının kirayəsi müqaviləsində kirayəçinin ziyanına olan kənaraçıxmalar barəsində razılaşmanın qüvvəsi yoxdur.

Maddə 679. Əmlak kirayəsi müqaviləsi üzrə yüklülüklərin, dövlət vergilərinin və yerli vergilərin ödənilməsi

Kirayəyə verilmiş əşya ilə bağlı yüklülükləri, dövlət vergilərini və yerli vergiləri, ayrı razılaşma olmadıqda, kirayəyə verən ödəməlidir.

Maddə 680. Kirayəçinin zəruri məsrəfləri

680.1. Kirayəyə verən kirayəyə verilmiş əşyanın saxlanması və ya bərpası üçün kirayəçinin çəkdiyi zəruri xərclərin əvəzini ona ödəməyə borcludur. Əvəzi ödənilən xərclərə aşağıdakılar aid deyildir:

680.1.1. binaların, qurğuların və ya nəqliyyat vasitələrinin kirayəsi halında—istismar, qulluq və təmizləmə xərcləri;

680.1.2. heyvanın kirayəyə verildiyi halda—qulluq və bəsləmə xərcləri.

680.2. Kirayəyə verənin digər xərclərinin, o cümlədən kirayəyə verilmiş əşyanın yaxşılaşdırılması xərclərinin əvəzini ödəmək vəzifəsi bu Məcəllənin özgə işlərini tapşırıqsız aparmaq haqqında müddəaları ilə müəyyənləşdirilir.

Maddə 681. Kirayəçinin qurğuları

Kirayəçinin əşyaya əlavə etdiyi qurğunu götürmək hüququ vardır. Yaşayış otağı kirayəçisinin qurğunu götürmək hüququnu istisna edən razılaşmanın qüvvəsi yoxdur.

Maddə 682. Kirayəyə götürülmüş əşyanın dəyişməsi və ya pisləşməsi

Kirayəçi kirayəyə götürdüyü əşyanın müqavilə üzrə istifadəsi nəticəsində dəyişməsi və ya pisləşməsi üçün məsuliyyət daşımır.

Maddə 683. Kirayəyə götürülmüş əşyanın üçüncü şəxslərə verilməsi

683.1. Kirayəyə verənin icazəsi olmadan kirayəçinin kirayəyə götürdüyü əşyanı kirayəyə verənin ailəsinin tərkibinə daxil olmayan üçüncü şəxsin istifadəsinə vermək, o cümlədən əşyanı ikinci əldən kirayəyə vermək hüququ yoxdur. Əgər kirayəyə verən icazə verməkdən imtina edirsə, kirayəçi qanunla müəyyənləşdirilmiş müddəti gözləməklə hüquq münasibətlərini ləğv edə bilər, bu şərtlə ki, obyektiv baxıldıqda üçüncü şəxs icazədən imtina üçün mühüm əsaslar verməsin.

683.2. Əgər kirayə müqaviləsi bağlandıqdan sonra yaşayış otağı kirayəçisinin həmin otağın bir hissəsini istifadə üçün hər hansı üçüncü şəxsə verməyə əsaslı marağı vardırsa, bunun üçün kirayəyə verəndən icazə almaq hüququna malikdir, bu şərtlə ki, obyektiv baxıldıqda üçüncü şəxs icazədən imtina üçün mühüm əsaslar verməsin, yaşayış otağı həddindən artıq yüklənməsin və ya kirayəyə verənin bu cür ikinci əldən kirayəyə adətən yol verdiyi ehtimal edilsin. Əgər kirayəyə verən bu cür ikinci əldən kirayəyə yalnız

kirayə haqqının ağlabatan dərəcədə artırılması şərti ilə yol verirsə, icazə verməsini kirayəçinin belə artımla razılaşması ilə şərtləndirə bilər. Kirayəçinin ziyanına olaraq bundan kənaraçıxmalar barəsində razılaşmanın qüvvəsi yoxdur.

683.3. İstifadə hər hansı üçüncü şəxsə verilərkən kirayəçi, hətta kirayəyə verən ikinci əldən kirayəyə razılıq versə belə, həmin üçüncü şəxsin istifadə zamanı əmələ gələn təqsiri üçün məsuliyyət daşıyır.

Maddə 684. Əmlak kirayəsi üçün ödəniş müddəti

684.1. Əmlak kirayəsi haqqı, əgər kirayə müddəti bir aydan qısadırsa, həmin müddətin sonunda ödənilməlidir. Əgər kirayə müddəti bir aydan çoxdursa, əmlak kirayəsi haqqı zərurət olduqda müvafiq surətdə hər ayın sonunda hissə-hissə ödənilməlidir. Əgər əmlak kirayəsi haqqı zaman hissələri üzrə hesablanmışdırsa, ayrı-ayrı zaman hissələrinin sonunda ödənilir.

684.2. Kirayəçi ona mənsub istifadə hüququnu hər hansı fərdi səbəblərə görə həyata keçirə bilmədiyinə görə əmlak kirayəsi haqqını ödəməkdən azad edilmir. Lakin kirayəyə verən kirayəyə verilmiş əşyadan istifadə zamanı qənaət edilmiş məsrəflərin hesabı, habelə əşyadan başqa şəkildə istifadə etsəydi, əldə edə biləcəyi faydaların hesabı ilə razılaşmalıdır.

Maddə 685. Kirayəyə verənin hüquqi müdafiə vasitələri

685.1. Əgər kirayəçi və ya onun kirayəyə götürdüyü əşyanı istifadəyə verdiyi hər hansı digər şəxs kirayəyə verənin xəbərdarlığına baxmayaraq müqaviləyə uyğun olmayan və kirayəyə verənin hüquqlarını əhəmiyyətli dərəcədə pozan istifadəni davam etdirirsə, o cümlədən əşyanı üçüncü şəxsin qeyri-hüquqi istifadəsində saxlayırsa və ya təhlükəyə məruz qoyursa, bununla da özünün vicdanlı kirayəçi vəzifələrini pozursa, kirayəyə verən kirayə müqaviləsini xəbərdarlıq müddətini gözləmədən ləğv edə bilər. Kirayəçi müqavilənin ləğvinə dair bildiriş vermək əvəzinə neqator iddiası da irəli sürə bilər.

685.2. Kirayəyə verən xəbərdarlıq müddətini gözləmədən kirayə müqaviləsini aşağıdakı hallarda ləğv edə bilər:

685.2.1. kirayəçi iki ardıcıl müddət üçün kirayə haqqının və ya onun xeyli hissəsinin ödənilməsini gecikdirdikdə;

685.2.2 ikidən çox müddət üçün iki aylıq əmlak kirayəsi haqqının məbləğinə çatan məbləğdə əmlak kirayəsi haqqının ödənilməsini gecikdirdikdə.

685.3. Bu Məcəllənin 685.2-ci maddəsinə uyğun olaraq müqavilə ləğv edilənədək kirayəyə verən təmin edilərsə, müqavilənin ləğvi istisna edilir. Əgər kirayəçi qarşılıqlı əvəzləşdirmə çərçivəsində öz borcundan azad edilərsə və müqavilənin ləğvi bəyan edildikdən dərhal sonra borcunun ləğvini elan edərsə, müqavilənin ləğvi etibarsız olur.

685.4. Kirayəyə verilmiş yaşayış otağına bu Məcəllənin 685.2-ci maddəsindən əlavə, aşağıdakı göstərişlər tətbiq edilir:

685.4.1. bu Məcəllənin 685.2.1-ci maddəsində nəzərdə tutulan halda əmlak kirayəsi haqqının ödənilməmiş hissəsi yalnız bir aylıq əmlak kirayəsi haqqının

məbləğindən yüksək olduqda əhəmiyyətli sayılır (lakin yaşayış otağı yalnız müvəqqəti istifadə üçün kirayəyə verilirsə, bu, tətbiq edilmir);

685.4.2. əgər əmlak kirayəsi haqqının vaxtında ödənilməməsi nəticəsində otaqdan çıxarma hüququ haqqında və kirayəyə verənin bu Məcəlləyə uyğun icra edilməli digər hüquqları haqqında iş icraata qəbul edildikdən sonra bir ay qurtaranadək kirayəyə verən təmin edilərsə və ya onu təmin etmək vəzifəsini hər hansı dövlət orqanı öz öhdəsinə götürərsə, müqavilənin ləğvinin qüvvəsi yoxdur;

685.4.3. kirayəyə verənin ziyanına olaraq bundan kənaraçıxmalar barəsində razılaşmanın qüvvəsi yoxdur.

Maddə 686. Kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin davam etdirilməsinə yol verilmədiyi hallar. Xəbərdarlıq müddəti gözlənilmədən müqavilənin ləğvi

Əgər tərəflərdən biri öhdəliklərini öz təqsiri üzündən o dərəcədə pozursa ki, otaqların kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərinin davam etdirilməsi digər tərəf üçün yolverilməz olur, onda hüquq münasibətləri xəbərdarlıq müddəti gözlənilmədən ləğv edilə bilər. Tərəflərin bu maddənin göstərişlərinə zidd olan razılaşmasının qüvvəsi yoxdur.

Maddə 687. Yaşayış otağının kirayəsi müqaviləsinin qanunda nəzərdə tutulan əsaslardan savayı, başqa əsaslarla dərhal ləğv edilməsinin qadağan olunması

Yaşayış otağını kirayəyə verənə müqavilənin ləğvi müddətini gözləmədən müqaviləni qanunda göstərilən əsaslardan savayı, başqa əsaslarla ləğv etmək hüququ verən razılaşmanın qüvvəsi yoxdur.

Maddə 688. Əmlak kirayəsi zamanı bron haqqı, beh, dəbbə pulu

688.1. Kirayədə marağı olan hər hansı şəxsin gələcəkdə kirayə müqaviləsi bağlanması məqsədi ilə ödədiyi haqq (bron və ya ehtiyatda saxlama haqqı):

688.1.1. əgər kirayəyə verənə, onun müavinlərinə və ya vasitəçilərinə ödənilmişdirsə, kirayə müqaviləsinin bağlandığı zaman əmlak kirayəsi haqqının hesabına daxil edilir. Əgər vasitəçi daşınmaz əmlakla əqdlər üzrə maklerdirsə, bron haqqı əvvəlcə maklerin dövlət tarifləri əsasında hesablanan muzdunun hesabına gedir və yalnız qalan hissə əmlak kirayəsi haqqının hesabına daxil edilir;

688.1.2. əgər iki aylıq kirayə haqqının məbləğindən yüksəkdirsə, kirayədə marağı olan şəxs tərəfindən istənilən vaxt geri tələb edilə bilər;

688.1.3. əgər kirayə müqaviləsi kirayədə marağı olan şəxsin təqsiri olmadan bağlanmazsa və ya kirayə müqaviləsinə zidd olaraq kirayəçinin əşyaya sahibliyə başlaması imkanı təmin edilməzsə, kirayədə marağı olan şəxs tərəfindən istənilən vaxt tamamilə geri tələb edilə bilər.

688.2. Əgər kirayəçi kirayəyə verənin öz öhdəliklərini icra etməsi üçün ona təminat verməlidirsə, bu cür təminat bir aylıq əmlak kirayəsi haqqının iki mislindən çox olmamalıdır. Əgər təminat pul məbləği ilə ifadə edilirsə, kirayəyə verən onu bankda öz kapitalından ayrılıqda, saxlama müddəti qanunla müəyyənləşdirilmiş əmanətlər üçün adi

olan faizlər ilə yerləşdirməlidir. Faizlər kirayəçiyə mənsubdur və öhdəliyin təminatının artmasına xidmət edir.

688.3. Yaşayış otaqlarının kirayəsi halında kirayəçinin ziyanına olaraq bu Məcəllənin 688.1 və 688.2-ci maddələrinin tələblərindən kənaraçıxmalar barəsində razılaşmanın qüvvəsi yoxdur.

688.4. Yaşayış otağını kirayəyə verənin kirayəçidən dəbbə pulu ödənilməsi barədə öhdəlik almasına əsas verən razılaşmanın qüvvəsi yoxdur.

Maddə 689. Kirayə müddəti

689.1. Kirayə müqaviləsi üzrə hüquq münasibətlərinə müqavilənin bağlandığı müddət bitdikdə xitam verilir.

689.2. Əgər kirayə müqaviləsində müddət müəyyənləşdirilməyibsə, kirayə hüquq münasibətlərinin istənilən iştirakçısı bu Məcəllənin 690-cı maddəsinin göstərişlərinə uyğun olaraq müqavilənin ləğvinə dair bildiriş verə bilər.

Maddə 690. Əmlak kirayəsi müqaviləsinin ləğvinə dair bildirişin forması və məzmunu

690.1. Əmlak kirayəsi müqaviləsinin ləğvinə dair bildiriş yazılı formada verilməlidir.

690.2. Əmlak kirayəsi müqaviləsinin ləğvinə dair bildirişdə müqavilənin ləğvi üçün əsaslar göstərilməlidir.

690.3. Yaşayış otağını kirayəyə verən bu Məcəllənin 696-cı maddəsinə uyğun etirazvermə imkanını, habelə etirazın verilməsi formasını və müddətini kirayəçiyə vaxtında göstərməlidir.

Maddə 691. Əmlak kirayəsi müqaviləsinin ləğv edilməsi müddətləri

691.1. Torpaq sahələrinin, otaqların və ya rəsmi reyestrdə qeydə alınmış gəmilərin kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərində müqavilənin ləğvinə aşağıdakı hallarda yol verilir:

691.1.1. əmlak kirayəsi haqqı günlər üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş növbəti günün sonu üçün qüvvəyə minməklə hər hansı gün verildikdə;

691.1.2. əmlak kirayəsi haqqı həftələr üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş növbəti bazar gününün sonu üçün qüvvəyə minməklə həftənin birinci iş günü verildikdə;

691.1.3. kirayə haqqı aylar və ya daha uzun zaman hissələri üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş növbəti aydan sonrakı ayın axırı üçün qüvvəyə minməklə təqvim ayının birinci iş günü verildikdə.

691.2. Yaşayış otaqlarının kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərində müqavilənin ləğvinə yalnız o halda yol verilir ki, müqavilənin ləğvinə dair bildiriş növbəti aydan sonrakı ayın axırı üçün qüvvəyə minməklə təqvim ayının birinci iş günü verilsin.

691.3. Müqavilənin ləğvinə dair xəbərdarlıq edilməsinin bu Məcəllənin 691.1.3 və 691.3-cü maddələrində göstərilmiş və kirayəçi tərəfindən gözlənilməli olan müddətləri kirayəlik əşya verildikdən üç, altı və doqquz il sonra kirayəçinin xeyrinə müvafiq surətdə üç ay uzadılır. Müqavilənin ləğvinə dair xəbərdarlıq müddətləri kirayəçi üçün dəyişilməz qalır. Müqavilənin ləğvinə dair xəbərdarlıq edilməsinin kirayəyə verən tərəfindən gözlənilməli olan müddətlərinin qısaldılmasına əsas verən razılaşmaların qüvvəsi yoxdur.

691.4. Daşınar əşyaların kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərində müqavilənin ləğvinə aşağıdakı hallarda yol verilir:

691.4.1. əmlak kirayəsi haqqı günlər üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş növbəti günün sonu üçün qüvvəyə minməklə istənilən gün verildikdə;

691.4.2. əmlak kirayəsi haqqı daha uzun zaman hissələri üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş kirayə hüquq münasibətlərinə xitam verilməli günə ən geci yeddi gün qalmış verildikdə.

Maddə 692. Yaşayış otağının kirayəsi müqaviləsinə xitam verilməsi şərtləri

692.1. Kirayəyə verən bu Məcəllənin 692.4-cü maddəsinin müddəalarını gözləmək şərti ilə yaşayış otağının kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərini yalnız o halda ləğv edə bilər ki, bu hüquq münasibətlərinə xitam verilməsində onun əsaslı marağı olsun.

692.2. Kirayəyə verənin kirayə hüquq münasibətlərinə xitam vermək arzusu aşağıdakı hallarda əsaslı sayılır:

692.2.1. kirayəçi müqavilə öhdəliklərinin pozulmasında təqsirli olduqda;

692.2.2. kirayəyə verənin otaqlara özü və ya ailə üzvləri üçün mənzil kimi ehtiyacı olduqda;

692.2.3. kirayə hüquq münasibətlərinin davam etməsi nəticəsində kirayəyə verən torpaq sahəsindən iqtisadi cəhətdən sərfəli istifadə edə bilmədikdə və buna görə xeyli zərərə düşə bildikdə. Bu halda yaşayış otağının başqa şəxslərə kirayəyə verilməsi zamanı əmlak kirayəsi üçün daha yüksək haqq almaq imkanı hesaba alınmır. Kirayəyə verən həmçinin buna istinad edə bilməz ki, kirayəlik otaqlar kirayəçiyə verildikdən sonra nəzərdə tutulmuş və ya həyata keçirilmiş mənzil mülkiyyətinin təsis edilməsi ilə əlaqədar, o, həmin otaqları satmaq istəyir;

692.2.4. kirayəyə verən binanın yardımçı qeyri-yaşayış otaqlarını kirayəyə vermək məqsədi ilə yeni avadanlıqla təchiz edərək yol verilən şəkildə yaşayış otaqlarına çevirmək niyyətində olduqda və müqavilənin ləğvini yalnız bu otaqlar üçün məhdudlaşdırdıqda. Bu halda kirayəçi kirayə haqqının ağlabatan dərəcədə azaldılmasını tələb edə bilər. Əgər həmin otaqların yeni avadanlıqla təchiz edilməsi işlərinin başlanması uzadılırsa, kirayəçi yardımçı otaqlar barəsində kirayə hüquq münasibətlərinin müvafiq müddətə uzadılmasını tələb edə bilər.

692.3. Kirayəyə verənin əsaslı mənafeləri kimi yalnız müqavilənin ləğvinə dair bildirişdə göstərilmiş əsaslar qəbul edilir, bu şərtlə ki, onlar sonradan əmələ gəlməsin.

692.4. Kirayəyə verən özünün yaşadığı və ən çoxu iki mənzildən ibarət olan yaşayış binasında mənzilin kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərini bu

Məcəllənin 692.1-ci maddəsində nəzərdə tutulan şərtlər olmadıqda da ləğv edə bilər. Bu halda müqavilənin ləğvinə dair xəbərdarlıq müddəti üç ay uzadılır. Bu, kirayəyə verənin özünün yaşadığı mənzil çərçivəsində yaşayış otağının kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə müvafiq surətdə tətbiq edilir.

692.5. Torpaq sahəsinin kirayəsi haqqında qeyri-müəyyən müddətə bağlanmış müqavilə altı aylıq ləğvetmə müddəti gözlənilməklə təqvim ilinin sonu üçün ləğv edilə bilər.

692.6. Əgər kirayə müqaviləsi 30 ildən çox müddətə bağlanmışsa, 30 ildən sonra kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin hər bir iştirakçısı qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə onun ləğvinə dair bildiriş verə bilər. Əgər müqavilə kirayəyə verənin və ya kirayəçinin bütün ömrü üçün bağlanmışdırsa, ləğvetməyə yol verilmir.

692.7. Kirayəçinin müdafiəsi üzrə digər hüquqlar dəyişilməz qalır.

692.8. Bu Məcəllənin 692-ci maddəsində nəzərdə tutulan qaydalardan kirayəçinin ziyanına olan kənaraçıxmalar barəsində razılaşmanın qüvvəsi yoxdur.

692.9. Bu Məcəllənin 692-ci maddəsinin göstərişləri aşağıdakıların kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə tətbiq edilmir:

692.9.1. yalnız müvəqqəti istifadə üçün kirayəyə verilmiş yaşayış otağı;

692.9.2. kirayəyə verənin özünün yaşadığı və müxəlləfatla tam və ya əsasən təchiz etməli olduğu mənzilin hissəsi olan yaşayış otağı, bu şərtlə ki, yaşayış otağı uzunmüddətli istifadə üçün hansısa ailəyə verilmiş olmasın;

692.9.3. tələbə və ya gənclər yataqxanasının bir hissəsi olan yaşayış otağı;

692.9.4. əgər müqavilə bağlanarkən kirayəyə verən yaşayış otağının təyinatını kirayəçiyə göstərmişsə, kurort yerlərində və istirahət zonalarında yerləşən kurort evlərində və istirahət evlərində olan yaşayış otağı;

692.9.5. hüquqi şəxsin mənzilə kəskin ehtiyacı olan şəxslərə və ya təhsil alan şəxslərə vermək üçün yerinə yetirdiyi vəzifələr çərçivəsində kirayələdiyi yaşayış otağı.

Maddə 693. Yaşayış otaqlarının kirayəsi haqqında qüvvədə olma müddəti müəyyənləşdirilmiş müqavilələrin qüvvəsinin davam etməsi

693.1. Yaşayış otağının kirayəsi haqqında qüvvədə olma müddəti müəyyənləşdirilmiş müqavilə üzrə hüquq münasibətlərində kirayəçi bu münasibətlərin davam etdirilməsini aşağıdakı hallarda tələb edə bilər:

693.1.1. əgər müqavilənin ləğv olunduğu halda münasibətlərin davam etdirilməsini bu Məcəlləyə əsasən tələb etmək mümkündürsə. Əgər kirayə müqaviləsi bağlanarkən kirayəçi kirayəyə verənin yaşayış otağını müəyyənləşdirilmiş müddətdə geri qaytarmasına əsas verən halları bilirdisə, onda kirayəçinin xeyrinə yalnız müqavilə bağlandıqdan sonra baş vermiş hallar nəzərə alınır;

693.1.2. əgər yaşayış otağının kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərinin müddəti bir ildən çoxdursa və hüquq münasibətlərinə xitam verilməsinə ən geci iki ay qalmış kirayəçi yazılı bildiriş əsasında kirayəyə verəndən bu münasibətlərin qeyri-müəyyən müddətə davam etdirilməsini tələb edirsə və münasibətlərə xitam verilməsində kirayəyə verənin əsaslı marağı yoxdursa. Kirayə hüquq münasibətlərinə xitam verilməsi haqqında kirayəyə verənin tələbinə bu Məcəllənin 692-ci maddəsi müvafiq surətdə tətbiq edilir.

693.2. Yaşayış otağının kirayəsi haqqında qüvvədə olma müddəti müəyyənləşdirilmiş müqavilə üzrə hüquq münasibətləri aşağıdakı hallarda qeyri-müəyyən müddətə uzadılır:

693.2.1. əgər kirayə müddəti bitdikdən sonra kirayəçi otaqdan istifadəni davam etdirirsə və iki həftə ərzində kirayəyə verən və ya kirayəçi əks niyyətdə olduğu barədə müvafiq olaraq digər tərəfə bildiriş vermirsə. Kirayəçi üçün müddət istifadənin davam etdiyi andan, kirayəyə verən üçün bu davametmənin ona məlum olduğu andan başlanır;

693.2.2. əgər ləğvetmə bu Məcəllənin 692-ci maddəsinin göstərişlərinə uyğun həyata keçirilmirsə.

693.3. Yaşayış otağının kirayəsi haqqında təxirəsalıcı şərtlə bağlanmış müqavilə üzrə hüquq münasibətlərində hesab edilir ki, həmin şərt baş verdikdə hüquq münasibətləri qeyri-müəyyən müddətə uzadılır. Əgər həmin şərt baş verdikdə kirayəyə verən müqavilənin ləğvinə dair bildiriş verərsə və bu Məcəllənin 693.1-ci maddəsinə uyğun olaraq kirayəçi hüquq münasibətlərinin davam etdirilməsini tələb edərsə, onun xeyrinə yalnız kirayə müqaviləsi bağlandıqdan sonra baş vermiş hallar nəzərə alınmalıdır.

693.4. Bu Məcəllənin 693.3-cü maddəsində nəzərdə tutulan tələblərdən kirayəçinin ziyanına olan kənaraçıxmalar barəsində razılaşmanın yalnız yaşayış otağı müvəqqəti istifadə üçün kirayəyə verildikdə qüvvəsi vardır.

Maddə 694. Xidməti mənzillərin kirayəsi müqavilələrinin ləğvi

694.1. Yaşayış otağı xidməti münasibətlərin mövcudluğu nəzərə alınmaqla kirayəyə verildikdə kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin istənilən iştirakçısı xidməti münasibətlərə xitam verilənədək və ya xitam verildikdən bir ay sonra müqavilənin ləğvinə dair bildiriş verə bilər. Bu halda ləğvetmə onun bildirildiyi aydan sonrakı ayın axırında qüvvəyə minir. Əgər ləğvetməyə dair bildiriş həmin müddətdə verilməzsə, ümumi qaydalar tətbiq edilir.

694.2. Ümumi qaydalar tətbiq edilərkən xidməti mənzilə hüququ olan şəxsin tələbləri də nəzərə alınmalıdır.

Maddə 695. Kirayəçinin ölümünün nəticələri

695.1. Kirayəçinin öldüyü halda kirayə müqaviləsi üzrə hüquq münasibətləri, əgər başqa kirayəçilər varsa, onlarla davam etdirilir. Başqa kirayəçilər olmadıqda kirayə müqaviləsi üzrə hüquq münasibətləri vərəsələrlə davam etdirilir. Növbəti kirayəçinin və ya vərəsənin qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin ləğvinə dair bildiriş vermək hüququ vardır.

695.2. Kirayəçinin öz arvadı (əri) və ya ailə üzvləri ilə yaşadığı yaşayış otağının kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə kirayəçinin öldüyü halda onun arvadı (əri) və ya ailə üzvləri girirlər. Əgər bu sonuncular kirayəçinin ölümü onlara məlum olduqdan sonra bir ay ərzində kirayəyə verənə kirayə hüquq münasibətlərini davam etdirmək niyyətində olmadıqlarını bəyan edərlərsə, hesab edilir ki, onlar həmin hüquq münasibətlərinə girməmişlər. Ailənin bir neçə üzvü olduqda onların hər biri öz əvəzinə bildiriş verə bilər. Ailənin bir neçə üzvü bu cür hüquq münasibətlərinə girdikdə onlar kirayə hüquq münasibətlərindən irəli gələn hüquqları yalnız birlikdə həyata keçirə bilərlər. Bu hüquq münasibətlərindən irəli gələn öhdəliklər üzrə onlar birgə borclular kimi məsuliyyət daşıyırlar.

695.3. Kirayəçinin arvadı (əri) və ya ailə üzvləri kirayə hüquq münasibətlərinə daxil olduqdan sonra kirayəçinin ölümündən əvvəl əmələ gəlmiş öhdəliklər üzrə vərəsə ilə yanaşı birgə borclular kimi məsuliyyət daşıyırlar. Arvad (ər) və ya ailə üzvləri ilə münasibətlərdə vərəsə məsuliyyəti tək daşıyır.

695.4. Əgər kirayə hüquq münasibətlərinə girən vərəsə, arvad (ər) və ya ailə üzvü kirayə müqaviləsinin ləğvi üçün vacib əsaslar verirlərsə, kirayəyə verən qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə kirayə müqaviləsinin ləğvinə dair bildiriş verə bilər.

695.5. Bu Məcəllənin 695-ci maddəsinin tələblərinə zidd olan razılaşmaların qüvvəsi yoxdur.

Maddə 696. Yaşayış otağı kirayəçisinin şikayət vermək hüququ

696.1. Əgər yaşayış otağının kirayəsi haqqında müqaviləyə uyğun olaraq hüquq münasibətlərinə xitam verilməsi kirayəçi və onun ailəsi üçün ağır nəticələrə gətirib çıxara bilərsə və buna hətta kirayəyə verənin əsaslı mənafelərini nəzərə almaqla haqq qazandırmaq mümkün olmazsa, kirayəçi müqavilənin ləğv edilməsi barədə şikayət verə bilər və kirayəyə verəndən həmin müqavilə üzrə hüquq münasibətlərini davam etdirməyi tələb edə bilər. Ağır nəticələr əvvəlki otağın əvəzinə münasib yaşayış otağının məqbul şərtlərlə verilməsinin mümkün olmadığı halda da baş verir. Kirayəyə verənin əsaslı mənafeləri nəzərə alınarkən yalnız ləğvetməyə dair bildirişdə göstərilmiş əsaslar qəbul edilir, bu şərtlə ki, onlar sonradan yaranmış olmasın.

696.2. Bu Məcəllənin 696.1-ci maddəsində nəzərdə tutulan halda kirayəçi tələb edə bilər ki, hüquq münasibətləri bütün şərtlər nəzərə alınmaqla ağlabatan sayıla biləcək qədər davam etdirilsin. Əgər qüvvədə olan müqavilə şərtlərinə müvafiq surətdə hüquq münasibətlərinin davam etdirilməsi kirayəyə verən üçün mümkün deyildirsə, kirayəçi yalnız onların ağlabatan şəkildə dəyişdirilmiş şərtlərlə davam etdirilməsini tələb edə bilər.

696.3. Əgər razılıq əldə edilmirsə, kirayə hüquq münasibətlərinin davam etdirilməsi və kirayə müddəti haqqında, habelə kirayənin davam etdirilməsi şərtləri haqqında qərar məhkəmə qaydasında qəbul edilir. Əgər kirayə hüquq münasibətlərinə xitam verilməsinin kirayəçi və ya onun ailəsi üçün ağır nəticələrə gətirib çıxarmasına əsas verən şərtlərin nə vaxt aradan qalxacağını ehtimal etmək mümkün deyildirsə, kirayə hüquq münasibətlərinin qeyri-müəyyən müddətə davam etdiriləcəyi müəyyənləşdirilə bilər. Əgər razılığa və ya məhkəmə qərarına əsasən kirayə hüquq münasibətlərinin müəyyən müddətə davam etdiriləcəyi müəyyənləşdirilmişsə, kirayəçi münasibətlərin həmin müddətdən əlavə davam etdirilməsini yalnız o halda tələb edə bilər ki, buna şəraitin

əhəmiyyətli dərəcədə dəyişməsi əsas versin və ya həmin münasibətlərin davam etdirilməsi müddətinin müəyyənləşdirilməsi üçün əsas götürüləcək və baş verməsi gözlənilən hallar baş verməsin.

696.4. Aşağıdakı hallarda kirayəçi kirayə hüquq münasibətlərinin davam etdirilməsini tələb edə bilməz:

696.4.1. əgər o, hüquq münasibətlərinin ləğvinə dair bildiriş vermişdirsə;

696.4.2. əgər kirayəyə verənə müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləmədən hüquq münasibətlərini ləğv etmək hüququ verən hər hansı əsas varsa.

696.5. Kirayəçinin ləğvetmədən şikayət vermək və kirayə hüquq münasibətlərini davam etdirmək niyyəti barəsində bildirişi yazılı formada tərtib edilməlidir. Kirayəyə verənin xahişi ilə kirayəçi etirazın əsaslarını ona dərhal bildirməlidir.

696.6. Əgər kirayə hüquq münasibətlərinin başa çatmasına ən geci bir ay qalmış və ya şikayət vermək hüququ barəsində kirayəyə verənin izahını aldıqdan bir ay sonra kirayəçi ona öz etirazını bildirməzsə, kirayəyə verən kirayə hüquq münasibətlərinin davam etdirilməsindən imtina edə bilər.

696.7. Bu Məcəllənin 696-cı maddəsinin tələblərinə zidd olan razılaşmaların qüvvəsi yoxdur.

Maddə 697. Kirayə hüquq münasibətlərinə xitam verilməsinin nəticələri

697.1. Kirayəçi kirayəyə götürdüyü əşyanı kirayə hüquq münasibətlərinə xitam verildikdən sonra qaytarmağa borcludur. Torpaq sahəsinin kirayəçisi kirayəyə götürdüyü torpaq sahəsini kirayəyə verənə qarşı pretenziyaları əsasında saxlamaq hüququna malik deyildir. Kirayəçi əşyanı hər hansı üçüncü şəxsin istifadəsinə verdikdə kirayəyə verən kirayə hüquq münasibətlərinə xitam verildikdən sonra üçüncü şəxsdən həmin əşyanı qaytarmağı tələb edə bilər.

697.2. Əgər kirayə hüquq münasibətlərinə xitam verildikdən sonra kirayəçi kirayəyə götürdüyü əşyanı qaytarmırsa, kirayəyə verən kompensasiya olaraq əşyanın saxlandığı müddət üçün müəyyənləşdirilmiş kirayə haqqının verilməsini tələb edə bilər; otaqların kirayəsi üzrə hüquq münasibətlərində bunun əvəzinə kompensasiya kimi o, həmin ərazidə bu cür otaqların kirayəsi üçün adətən tutulan məbləğdə kirayə haqqı verilməsini tələb edə bilər. Digər zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ da istisna edilmir. Lakin yaşayış otaqlarını kirayəyə verən digər zərərin əvəzinin ödənilməsini yalnız o halda tələb edə bilər ki, əşya kirayəçinin cavabdeh olduğu halların nəticəsində qaytarılmasın; zərərin əvəzi yalnız həmin şəraitdə haqq-ədalətin tələb etdiyi dərəcədə ödənilir. Əgər kirayəçi ləğvetməyə dair bildiriş verərsə, bu müddəa tətbiq edilmir.

697.3. Kirayə hüquq münasibətlərinə xitam verildikdən sonra kirayəyə verən hər hansı müddət üçün qabaqcadan verilmiş kirayə haqqını qaytarmalıdır.

697.4. Kirayəyə verənin kirayəyə verilmiş əşyanın dəyişməsi və ya pisləşməsi nəticəsində zərərin əvəzinin ödənilməsi barədə iddiaları, habelə kirayəçinin xərclərin əvəzinin ödənilməsi və ya hər hansı qurğunun götürülməsinə icazə verilməsi barədə iddiaları altı aydan sonra müddətin keçməsinə görə qüvvədən düşür. Kirayəyə verənin zərərin əvəzinin ödənilməsi barədə iddialarının müddəti onun əşyanı geri aldığı andan

başlanır. Kirayəçinin iddialarının müddəti kirayə hüquq münasibətlərinə xitam verildiyi andan başlanır. Kirayəyə verən əşyanın qaytarılması hüququnu müddətin keçməsinə görə itirdikdə onun zərərin əvəzinin ödənilməsi barədə iddiaları da qüvvədən düşür.

Maddə 698. Kirayəyə verənin girov hüququ

698.1. Hər hansı torpaq sahəsini və ya hər hansı otaqları kirayəyə verən kirayə hüquq münasibətlərindən irəli gələn tələbləri üzrə kirayəçinin həmin torpaq sahəsində və ya həmin otaqlarda olan əşyalarının girov qoyulması hüququna malikdir. Girov hüququ cari və növbəti ildən də uzun müddət üçün zərərin əvəzinin ödənilməsi və kirayə haqqının verilməsi haqqında gələcək tələblər üzrə həyata keçirilə bilməz. Bu hüquq girov qoyula bilməyən əşyalara şamil edilmir.

698.2. Torpaq sahəsindən və ya otaqlardan əşyaların aparılması kirayəyə verənin girov hüququnu ləğv edir, amma əşyaların kirayəyə verənə xəbər verilmədən və ya onun şikayəti üzrə aparıldığı hallar istisna təşkil edir. Əgər əşyalar kirayəçinin müəssisəsinin hüquqa uyğun işi çərçivəsində və ya adi yaşayış şəraiti çərçivəsində aparılmışdırsa və ya qalan əşyalar kirayəyə verənin təmin edilməsi üçün aşkar yetərlidirsə, kirayəyə verən əşyaların aparılması barədə şikayət verə bilməz.

698.3. Kirayəyə verən onun girov hüququnun şamil edildiyi əşyaların aparılmasına məhkəməyə müraciət etmədən də mane ola bilər və əgər kirayəçi torpaq sahəsini və ya otağı boşaldırsa, həmin əşyalara sahibliyə başlaya bilər. Əşyalar kirayəyə verənə xəbər verilmədən və ya onun şikayəti üzrə aparıldıqda kirayəyə verən onların torpaq sahəsinə qaytarılması məqsədi ilə verilməsini və əgər kirayəçi torpaq sahəsini və ya otağı boşaltmışsa, onlara sahiblik hüququnun verilməsini tələb edə bilər. Əgər kirayəyə verən öz hüququnu daha əvvəl məhkəmə qaydasında həyata keçirməmişsə, girov hüququ əşyaların aparılması barədə kirayəyə verənə xəbər verildikdən bir ay sonra ləğv edilir.

698.4. Kirayəçi kirayəyə verənin girov hüququnun həyata keçirilməsinin qarşısını təminat vermək yolu ilə ala bilər; hər hansı ayrıca əşyanı onun dəyəri miqdarında təminat verərək girov hüququndan azad edə bilər.

698.5. Əgər kirayəyə verənin girov hüququnun şamil edildiyi hər hansı əşya başqa kreditor üçün girov götürülürsə, həbs qoyulmasından bir il əvvəldən çox müddət üçün kirayə haqqı ilə bağlı girov hüququ həmin kreditora qarşı irəli sürülə bilməz.

Maddə 699. Kirayəyə verilmiş əşyaların özgəninkiləşdirilməsi

699.1. Kirayəyə verilən əşya kirayəçiyə verildikdən sonra ona mülkiyyət hüququ kirayəyə verəndən hər hansı üçüncü şəxsə (əldə edənə) keçdikdə əldə edən mülkiyyəti əldə etdiyi andan kirayəyə verəni əvəz edərək kirayə hüquq münasibətlərindən irəli gələn bütün hüquq və vəzifələrə malik olur. Əldə edən öz öhdəliklərini yerinə yetirmədikdə kirayəyə verən əldə edən tərəfindən əvəzi ödənilməli zərər üçün zamin kimi məsuliyyət daşıyır. Bu cür məsuliyyət mülkiyyət hüququnun keçməsinin kirayəyə verənə məlum olmasından altı ay keçənədək mövcud olur.

699.2. Kirayəlik əşya kirayəçiyə verilənədək ona mülkiyyət hüququ kirayəyə verəndən hər hansı üçüncü şəxsə (əldə edənə) keçdikdə, əgər əldə edən kirayə müqaviləsindən irəli gələn öhdəliklərin icrasını öz üzərinə götürürsə, bu Məcəllənin 699.1-ci maddəsi müvafiq surətdə tətbiq edilir.

699.3. Əgər kirayəyə verilən əşya yaşayış otağıdırsa və kirayəçiyə verildikdən sonra kirayəyə verən tərəfindən onun ailəsinə mənsub olmayan hər hansı üçüncü şəxsə satılırsa, kirayəçi satın almaqda üstünlük hüququna malikdir.

699.4. Kirayəyə verilən əşya kirayəçiyə verildikdən sonra üçüncü şəxslərin hüquqları və ya iddiaları ilə yüklü edildikdə, əgər bunların həyata keçirilməsi nəticəsində kirayəçi müqaviləyə uyğun istifadədən məhrum olarsa, bu Məcəllənin 699.1-ci maddəsi müvafiq surətdə tətbiq edilir. Əgər üçüncü şəxslərin hüquqları və iddiaları müqaviləyə uyğun istifadəyə mane olursa, kirayəçi bu hüquqların və iddiaların həyata keçirilməsinin qadağan olunmasını tələb etmək hüququna malikdir.

34-cü fəsil. İcarə

§ 1. İcarə haqqında ümumi müddəalar

Maddə 700. İcarə müqaviləsi

700.1. İcarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Bu müqaviləyə görə kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verir. İcarəçi icarəyə verənə müəyyənləşdirilmiş icarə haqqı ödəməyə borcludur.

700.2. İcarə predmeti torpaq sahələri, binalar, daşınar əşyalar, hüquqlar və müəssisələr ola bilər.

700.3. Əgər bu Məcəllənin bu fəslinin müddəalarından ayrı qayda irəli gəlmirsə, torpaq icarəsi istisna olmaqla, icarəyə bu Məcəllənin əmlak kirayəsi haqqında müddəaları müvafiq surətdə tətbiq edilir.

Maddə 701. İcarəyə verilən əşyanın ləvazimatı

701.1. İcarəlik əşya (icarə obyekti), o cümlədən torpaq sahəsi və ya müəssisə öz ləvazimatı ilə birlikdə icarəyə verilir. Əgər müqavilənin iştirakçıları bu Məcəllənin 701.2-ci maddəsinə uyğun qiymətləndirmə dəyəri üzrə ləvazimatın verilməsi şərtini qoymurlarsa, icarəyə verən bütün ləvazimatı olduğu şəkildə saxlamalıdır. İcarəyə verən icarəçinin cavabdeh olmadığı hər hansı hallar nəticəsində sıradan çıxan ləvazimat obyektlərini əvəz etməyə borcludur. Lakin icarəçi ləvazimata aid əşyaların və heyvanların adi sıradan çıxmasının yerini doldurmağa təsərrüfatın lazımınca aparılmasına uyğun gələn dərəcədə borcludur.

701.2. Əgər icarəyə götürülən ləvazimatın dəyəri icarənin əvvəlində müqavilənin iştirakçıları və ya hər hansı üçüncü şəxs tərəfindən qiymətləndirilirsə və icarəçi icarəyə xitam verildikdən sonra bu ləvazimatı onun qiymətləndirmə dəyəri üzrə qaytarmaq öhdəliyini götürürsə, aşağıdakı qaydalar tətbiq edilir:

701.2.1. ləvazimatın təsadüfən məhv olması və təsadüfən pisləşməsi riski icarəçinin üzərinə düşür;

701.2.2. icarəçi ləvazimat obyektlərinə dair təsərrüfatın lazımınca aparılması çərçivəsində sərəncam verə bilər;

701.2.3. icarəçi ləvazimatı təsərrüfatın lazımınca aparılmasına uyğun gələn vəziyyətdə saxlamalı və uyğun gələn həcmdə daim əvəz etməlidir. Onun əldə etdiyi obyektlər ləvazimata birləşdirildikdən sonra icarəyə verənin mülkiyyəti olur;

701.2.4. icarəyə xitam verildikdən sonra icarəçi mövcud ləvazimatı icarəyə verənə qaytarmalıdır. İcarəyə verən icarəçinin əldə etdiyi və təsərrüfatın lazımınca aparılması qaydalarına görə icarəyə götürülmüş obyekt üçün lüzumsuz və ya həddindən artıq qiymətli olan ləvazimat obyektlərini qəbul etməkdən imtina edə bilər; imtina edilmiş obyektlərə mülkiyyət hüququ imtina anında icarəçiyə keçir;

701.2.5. əgər qəbul edilmiş ləvazimatla qaytarılmalı ləvazimatın ümumi qiymətləndirmə dəyərləri arasında fərq vardırsa, o, pulla kompensasiya edilir. Qiymətləndirmə dəyərləri üçün icarəyə xitam verildiyi məqamda qüvvədə olan qiymətlər əsas götürülməlidir.

Maddə 702. İcarəçinin girov hüququ

702.1. İcarə ilə alınmış ləvazimata aid olan və icarəyə verənə qarşı yönəlmiş tələbə əsasən torpaq sahəsinin icarəçisi onun sahibliyinə daxil olmuş ləvazimat obyektlərinə girov hüququna malikdir.

702.2. İcarəyə verən icarəçinin girov hüququnun həyata keçirilməsinin qarşısını təminat verməklə ala bilər. İcarəyə verən hər hansı ayrıca ləvazimat obyektini onun dəyəri miqdarında təminat verərək girov hüququndan azad edə bilər.

Maddə 703. İcarəyə verilmiş əşyanın ləvazimatına dair sərəncam hüququnda məhdudiyyətlər

Hər hansı torpaq sahəsinin və ya müəssisənin icarəçisinin öhdəsinə ləvazimat obyektlərinə dair sərəncam verməmək və ya icarəyə verənin razılığı ilə sərəncam vermək və ya onları icarəyə verənə satmaq vəzifəsi qoyan müqavilə müddəalarının yalnız o halda qüvvəsi vardır ki, icarəyə verən icarəyə xitam verildikdən sonra həmin ləvazimatı qiymətləndirmə dəyəri üzrə əldə etməyi öhdəsinə götürsün.

Maddə 704. İcarə müqaviləsinin ləğvi

704.1. Əgər hər hansı torpaq sahəsinin, hüququn və ya müəssisənin icarəsi müqaviləsi bağlanarkən icarə müddəti müəyyənləşdirilməyibsə, müqavilənin ləğvinə yalnız azı altı aylıq xəbərdarlıq müddətini gözləmək şərti ilə ilin sonunda yol verilir.

704.2. İcarəçinin bu Məcəllənin 691-ci maddəsinə uyğun olaraq müqaviləni ləğv etmək hüququ yoxdur.

Maddə 705. İcarəyə verilmiş əşyanın qaytarılmasının gecikdirilməsi

Əgər icarə üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəçi icarəyə götürdüyü obyekti qaytarmırsa, icarəyə verən obyektin saxlandığı müddət üçün kompensasiya kimi müəyyənləşdirilmiş illik icarə haqqından icarəçinin həmin il ərzində əldə etdiyi və ya əldə edə biləcəyi icarə faydaları hissəsinə uyğun olan hissənin verilməsini tələb edə bilər. Digər zərərin əvəzinin ödənilməsi barədə iddia da istisna edilmir.

§ 2. Torpaq icarəsi müqaviləsi

Maddə 706. Torpaq icarəsi müqaviləsinin məzmunu

706.1. Torpaq icarəsi müqaviləsinə əsasən icarəyə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan bütün kateqoriyalara aid torpaqlar verilə bilər.

706.2. Torpaqlar torpaq qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada mülkiyyətçilərin və ya onların vəkil etdiyi orqanların qərarı (razılığı) ilə bilavasitə və ya torpaq müsabiqələri və ya hərracları vasitəsi ilə icarəyə verilə bilər.

706.3. Torpaq icarəsi müqaviləsində icarəyə verilən torpaq sahəsinin ölçüsü, keyfiyyət kateqoriyası, təyinatı, icarənin müddəti, icarə haqqı, ödənilmə qaydaları, torpaqların istifadəsi, mühafizəsi və keyfiyyətinin yaxşılaşdırılması şərtləri, habelə torpaq qanunvericiliyi ilə və bu Məcəllə ilə müəyyənləşdirilmiş digər şərtlər nəzərdə tutula bilər.

706.4. Torpaq icarəsi haqqında müqavilələrə bu Məcəllənin 700.1, 701, 702 və 703-cü maddələri, habelə bu paraqrafın müddəaları tətbiq edilir.

Maddə 707. İcarəyə götürülmüş torpağın təsviri

707.1. İcarə müqaviləsi üzrə hüquq münasibətlərinə girməzdən əvvəl icarəyə verən və icarəçi icarəyə verilən torpağın təsvirini birlikdə tərtib etməlidirlər. Təsvirdə torpağın həcmi, habelə verildiyi an olduğu vəziyyət göstərilir. Təsvir hüquq münasibətlərinə xitam verildikdə də tərtib edilir. Təsvirə onun tərtib olunduğu günün tarixi qoyulmalı və müqavilənin hər iki iştirakçısı imza atmalıdır.

707.2. Müqavilə iştirakçılarından biri təsvirin tərtibində iştirakdan imtina etdikdə və ya tərtib zamanı mühüm ixtilaflar yarandıqda müqavilənin istənilən iştirakçısı tələb edə bilər ki, təsvir ekspert tərəfindən tərtib edilsin, amma torpağın icarəyə verildiyi vaxtdan doqquz aydan çox və ya icarə hüquq münasibətlərinə xitam verildiyi vaxtdan üç aydan çox keçdiyi hallar istisna təşkil edir. Belə hallarda tərəflərdən birinin iddiası üzrə ekspert məhkəmənin qərarı ilə məcburi qaydada təyin edilə bilər. Bununla əlaqədar əmələ gələn xərcləri müqavilənin hər iki iştirakçısı yarıbayarı çəkir.

Maddə 708. İcarəyə götürülmüş torpağın vəziyyəti və təsərrüfat təyinatına uyğun istifadəsi üçün məsuliyyət

708.1. İcarəyə verən icarəlik torpağı icarəçiyə müqavilə üzrə istifadəyə yararlı vəziyyətdə verməli və bütün icarə müddətində onu həmin vəziyyətdə saxlamalıdır, bir şərtlə ki, bu Məcəllənin 708.2-ci maddəsinə əsasən bu vəzifə icarəçinin öhdəsinə qoyulmasın.

708.2. İcarəçi icarəyə götürdüyü torpaqdan onun təsərrüfat təyinatına uyğun lazımi qaydada istifadə etməyə borcludur. O, icarəyə götürdüyü torpaqda olan əşyaların, o cümlədən yaşayış və təsərrüfat binalarının, yolların, arxların, drenaj sistemlərinin və hasarların adi təmirini öz hesabına aparmalıdır.

708.3. İcarəyə verilən torpağın qüsurları və üçüncü şəxslərin torpağa iddialarının və hüquqlarının olması üçün icarəyə verənin məsuliyyətinə, habelə icarəçinin həmin qüsurlar nəticəsində əmələ gələn hüquq və vəzifələrinə bu Məcəllənin 676 və 677-ci maddələrinin göstərişləri müvafiq surətdə tətbiq edilir.

Maddə 709. Yüklülüklər və vergilər

İcarə müqaviləsində ayrı şərtlər nəzərdə tutulmamışdırsa, icarəyə verilən torpağın yüklülüklərini və ondan tutulan vergiləri torpaq və vergi qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada torpaq mülkiyyətçisi ödəməlidir.

Maddə 710. Torpaq icarəsi haqqı

710.1. Torpaq icarəsi haqqı tərəflərin razılığı ilə müəyyənləşdirilir.

710.2. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi onların təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativlər əsasında müəyyənləşdirilir.

710.3. İcarə haqqının ödənilməsi formaları və qaydaları torpaq icarəsi müqaviləsi ilə müəyyənləşdirilir.

Maddə 711. İcarəyə götürülmüş torpağın qorunması və ya yaxşılaşdırılması tədbirləri

711.1. İcarəçi icarəyə götürdüyü torpaqda onun qorunması üçün zəruri tədbirlərin görülməsinə yol verməlidir.

711.2. İcarəçi icarəyə götürdüyü torpağın yaxşılaşdırılması üçün tədbirlər görülməsinə yol verməlidir, bu şərtlə ki, həmin tədbirlər onun üçün hətta icarəyə verənin əsaslı mənafeləri ilə haqq qazandırıla bilməyən mənfi nəticələr törətməsin. İcarəyə verən bu tədbirlərin görülməsi üçün məsrəflərin və əldən çıxmış gəlirlərin əvəzini icarəçiyə həmin şəraitdə ağlabatan olan həcmdə ödəməyə borcludur. İcarəçinin xahişi ilə icarəyə verən ona avans verməlidir. Əgər belə tədbirlər nəticəsində icarəçi daha yüksək gəlir əldə edirsə və ya təsərrüfat lazımınca aparıldıqda əldə edə bilərsə, icarəyə verən tələb edə bilər ki, icarəçi icarə haqqının ağlabatan artımına razılıq versin, amma müəssisənin vəziyyətinə görə icarəçinin bu cür artıma yol verə bilmədiyi hallar istisna təşkil edir.

Maddə 712. İcarəyə götürülmüş torpaqdan üçüncü şəxslərin istifadə etməsi

712.1. İcarəyə verənin icazəsi olmadan icarəçinin hüququ yoxdur ki:

712.1.1. torpağı üçüncü şəxslərin istifadəsinə versin, o cümlədən ikinci əldən icarəyə versin;

712.1.2. birgə istifadə üçün torpağı tamamilə və ya qismən hər hansı kənd təsərrüfatı birliyinə versin.

712.2. Əgər icarəçi icarəyə götürdüyü torpağı hər hansı üçüncü şəxsə ikinci əldən icarəyə verirsə, həmin üçüncü şəxsin istifadə zamanı baş vermiş təqsiri üçün, hətta icarəyə verənin ikinci əldən icarəyə razılıq verdiyi halda da məsuliyyət daşıyır.

712.3. İcarəçi icarəyə götürdüyü torpağın təyinatını yalnız icarəyə verənin qabaqcadan icazəsini almaqla dəyişdirə bilər. İcarəyə götürülmüş torpaqdan istifadənin əvvəlki növünü dəyişdirmək üçün icarəyə verənin qabaqcadan razılığını almaq yalnız o halda tələb edilir ki, bu dəyişiklik icarə müddətindən sonra istifadə növünə təsir göstərsin. İcarəçinin binalar ucaltmasına yalnız icarəyə verənin qabaqcadan icazəsini almaqla yol

verilir. İcarəyə verən icazə verməkdən imtina etdikdə icarəçinin müraciəti ilə bu icazə məhkəmənin qərarı ilə əvəz edilə bilər, bu şərtlə ki, dəyişiklik müəssisənin rentabelliyinin qorunması və ya sürəkli yaxşılaşdırılması üçün yararlı olsun və icarəyə verənin əsaslı mənafeləri nəzərə alınmaqla onun üçün yolverilən olsun. Əgər icarə müqaviləsi ləğv edilərsə və ya icarə hüquq münasibətlərinə üç ildən də tez xitam verilərsə, bu müddəa tətbiq edilmir. İcazə məhkəmənin müəyyən şərtlərin və ya öhdəliklərin yerinə yetirilməsi ilə bağlı qərarı ilə əvəz edilə bilər, məsələn, məhkəmə təminat verilməsi barəsində sərəncam verə bilər, habelə təminatın növünü və həcmini müəyyənləşdirə bilər. Əgər təminatın verilməsi üçün əsas aradan qalxarsa, tərəfin müraciəti ilə məhkəmə təminatın qaytarılması barədə qərar qəbul edə bilər.

712.4. Əgər icarəçi bu Məcəllənin 701.2-ci maddəsinə uyğun qiymətləndirmə dəyəri üzrə qəbul etdiyi ləvazimatı icarəyə götürdüyü torpaqdan istifadə növünü dəyişdirməsi nəticəsində əhəmiyyətli dərəcədə azaldırsa, icarəyə verən hələ icarə dövründə pul kompensasiyası ödənilməsini tələb edə bilər, amma ləvazimat tərkibindən obyektlərin satışından götürülən vəsaitdən onun məbləği ilə ağlabatan nisbətdə olan yaxşılaşdırmanın həyata keçirilməsi üçün istifadə olunduğu hallar istisna təşkil edir.

Maddə 713. İcarəyə götürülmüş torpaqdan müqavilə şərtlərinə uyğun gəlməyən istifadə

Əgər icarəçinin icarəyə götürdüyü torpaqdan istifadəsi müqavilə şərtlərinə uyğun gəlmirsə və icarəyə verənin xəbərdarlığına baxmayaraq, o, bu cür istifadəni davam etdirirsə, icarəyə verən icarəçinin öz müqavilə vəzifələrini icra etməməsi barədə iddia verə bilər, bunun nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb edə bilər və (və ya) xəbərdarlıq müddətini gözləmədən müqaviləni ləğv edə bilər.

Maddə 714. Torpaq icarəçisinin məsrəfləri və qurğuları

714.1. İcarəyə verən bu Məcəllənin 680-ci maddəsinə uyğun olaraq icarəçiyə zəruri məsrəflərinin əvəzini ödəməyə borcludur.

714.2. Torpaq icarəsi üzrə hüquq münasibətlərinə xitam verildikdə icarəyə verən razılıq verdiyi və icarəyə götürülmüş torpağın dəyərini icarə müddətindən sonra artıran (dəyərin artımı) digər məsrəflərin əvəzini də icarəçiyə ödəməlidir. Əgər icarəyə verən məsrəflərə razılıq verməkdən imtina edirsə, icarəçinin vəsatəti ilə razılıq məhkəmənin qərarı ilə əvəz edilə bilər, bu şərtlə ki, həmin məsrəflər müəssisənin rentabelliyinin qorunması və ya sürəkli yaxşılaşdırılması üçün yararlı olsun və icarəyə verənin əsaslı mənafeləri nəzərə alınmaqla onun üçün yolverilən olsun. Əgər icarə müqaviləsi ləğv edilərsə və ya torpaq icarəsi üzrə hüquq münasibətlərinə üç ildən də tez xitam verilərsə, bu müddəa tətbiq edilmir. Razılıq məhkəmənin müəyyən öhdəliklərin icrası ilə bağlı qərarı ilə əvəz edilə bilər. Məhkəmə həmçinin dəyərin artımı haqqında qərar qəbul edə bilər və onun miqdarını təyin edə bilər. Məhkəmə müəyyənləşdirə bilər ki, icarəyə verən dəyərin artımını hissə-hissə ödəməlidir. Eyni zamanda məhkəmə bu cür ödənişlərin hissə-hissə həyata keçirilməsi şərtlərini müəyyənləşdirə bilər. Əgər icarə hüquq münasibətlərinə xitam verilərkən icarəyə verən dəyər artımını hətta hissə-hissə kompensasiya etməyə qadir deyildirsə, icarəçi yalnız bunu tələb edə bilər ki, dəyər artımı kompensasiya edilənədək icarə hüquq münasibətləri əvvəlki şərtlər əsasında davam etdirilsin. Razılıq əldə edilmədikdə, tərəfin tələbi ilə məhkəmə icarə hüquq münasibətlərinin davam etdirilməsi barədə qərar qəbul edir.

714.3. İcarəçinin torpağa əlavə etdiyi qurğunu götürmək hüququ vardır. İcarəyə verən qurğunun götürülməsinin qarşısını ağlabatan kompensasiya ödəmək yolu ilə ala bilər, bu

şərtlə ki, qurğunun götürülməsində icarəçinin əsaslı mənafeyi olmasın. İcarəçinin götürmə hüququnu istisna edən razılaşmanın yalnız ağlabatan kompensasiya nəzərdə tutulduğu halda qüvvəsi vardır.

Maddə 715. Torpaq icarəsi müqaviləsi üzrə iddia müddəti

715.1. İcarəyə verilmiş torpağın dəyişməsi və ya pisləşməsi nəticəsində kompensasiya barəsində icarəyə verənin iddiaları, habelə bu Məcəllənin 714-cü maddəsinə uyğun xərclərin əvəzinin ödənilməsi və ya qurğunun götürülməsi barədə icarəçinin iddiaları altı aydan sonra, müddətin keçməsinə görə qüvvədən düşür.

715.2. İcarəyə verənin kompensasiya barədə iddialarının müddəti torpağın geri qəbul edildiyi andan başlanır. İcarəçinin iddialarının müddəti icarə hüquq münasibətlərinə xitam verildiyi andan başlanır.

715.3. Qaytarma hüququ müddətin keçməsinə görə ləğv edildikdə icarəyə verən zərərin əvəzinin ödənilməsi barədə iddialarından da məhrum olur.

Maddə 716. İcarəyə verənin girov hüququ

Torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətlərindən irəli gələn tələbləri üzrə icarəyə verən icarəçinin icarəyə götürülmüş torpaqda qurulmuş əşyalarına, habelə icarəyə götürülmüş əşyanın bəhərinə girov hüququna malikdir. ~~Girov hüququ kompensasiya haqqında gələcək tələblər üçün həyata keçirilə bilməz.~~ Girov hüququ icarəçi və onun ailəsi üçün növbəti məhsula qədər dolanacaq vasitəsi kimi zəruri olan, habelə icarəyə götürülmüş əşyadan onun təsərrüfat təyinatına uyğun adi istifadə üçün zəruri olan əşyalara şamil edilmir. Bu zaman bu Məcəllənin 698-ci maddəsinin göstərişləri tətbiq edilməlidir. (12)

Maddə 717. Torpaq icarəsi haqqında müqavilənin razılaşdırılması

717.1. Əgər müqavilə öhdəliklərinin müəyyənləşdirilməsi üçün əsas götürülmüş şərtlər müqavilə bağlandıqdan sonra qarşılıqlı öhdəliklər arasında böyük tənasübsüzlük yaranmasına səbəb olan dərəcədə dəyişərsə, müqavilənin istənilən iştirakçısı, icarə müddətindən başqa, müqavilə şərtlərinin dəyişdirilməsini tələb edə bilər. İcarəyə götürülmüş əşyadan gəlir icarəçi tərəfindən təsərrüfatın aparılması nəticəsində artdıqda və ya azaldıqda, icarə haqqının dəyişdirilməsini, əgər ayrı şərt qoyulmayıbsa, tələb etmək olmaz.

717.2. Müqavilə şərtlərinin dəyişdirilməsini icarənin başlanmasından və ya müqavilə öhdəliklərinin son dəyişikliyinin qüvvəyə minməsindən iki il keçənədək tələb etmək olmaz. Əgər adətən sığorta müdafiəsi olmayan viranedici təbii fəlakətlər müqavilə öhdəliklərinin nisbətini kökündən dəyişdirərsə, bu müddəa tətbiq edilmir.

717.3. Müqavilə şərtlərinin dəyişdirilməsini ona dair bildiriş verildiyi icarə ilindən tez tələb etmək olmaz.

717.4. Əgər iştirakçılardan biri müqavilə şərtlərinin dəyişdirilməsinə razılıq vermirsə, digər iştirakçı bu razılığın məhkəmə qərarı ilə əvəz edilməsi barədə məhkəməyə iddia verə bilər.

717.5. Bu maddəyə uyğun olaraq müqavilə şərtlərinin dəyişdirilməsini tələb etmək hüququ istisna edilə bilməz. Müqavilə iştirakçılarından birinin bu maddəyə uyğun hüquqlarını həyata keçirməsi və ya həyata keçirməməsi halında onun üçün xüsusi mənfi nəticələr və ya üstünlüklər yaranmasını nəzərdə tutan razılaşmanın qüvvəsi yoxdur.

Maddə 718. İcarəyə götürülmüş torpağın özgəninkiləşdirilməsi və yüklü edilməsi

İcarəyə götürülmüş torpaq satıldıqda və ya üçüncü şəxslərin hüquqları və ya iddiaları ilə yüklü edildikdə bu Məcəllənin 699-cu maddəsi tətbiq edilir.

Maddə 719. Torpaq icarəsi müqaviləsinə xitam verilməsi və onun qüvvəsinin uzadılması. Müqavilənin ləğvi

719.1. Torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətlərinə müqavilənin bağlandığı müddət qurtardıqda xitam verilir.

719.2. Torpaq icarəsi müqaviləsi azı üç il müddətinə bağlandıqda bu müqavilə üzrə hüquq münasibətləri o halda qeyri-müəyyən müddətə uzadılır ki, iştirakçılardan biri bu barədə sorğu verdikdən sonra digər iştirakçı həmin münasibətlərin davam etdirilməsindən üç ay ərzində imtina etməsin. Sorğu və imtina yazılı formada tərtib edilməlidir. Əgər sorğuda ona riayət edilməməsinin nəticələri birbaşa göstərilməmişsə və sorğu icarənin üçüncü ili ərzində verilməmişsə, onun qüvvəsi yoxdur.

719.3. Əgər icarə müddəti müəyyənləşdirilməyibsə, müqavilənin istənilən iştirakçısı müqaviləni icarənin hər hansı ilinin üçüncü iş günündən gec olmamaqla ləğv edə bilər. Həm də ləğvetmə icarənin növbəti ilinin sonunda qüvvəyə minir. Şübhə halında icarə ili təqvim ili sayılır. Daha qısa müddətin müəyyənləşdirilməsi barədə razılaşma yazılı formada bağlanmalıdır. Qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə icarə müqaviləsinin vaxtından əvvəl ləğv edilə bildiyi hallarda ləğvetməyə yalnız icarə ilinin sonunda yol verilir; ləğvetməyə dair bildiriş icarəyə xitam veriləcək icarə yarımilliyinin üçüncü iş günündən gec olmayaraq verilməlidir.

719.4. İcarə müqaviləsi 30 ildən çox müddətə bağlandıqda müqavilənin istənilən iştirakçısı 30 ildən sonra müqavilənin ləğvinə dair bildirişi icarənin növbəti ilinin sonu üçün qüvvəyə minməklə icarənin hər hansı ilinin üçüncü iş günündən gec olmayaraq verə bilər. Əgər müqavilə icarəyə verənin və ya icarəçinin bütün ömrü üçün bağlanmışdırsa, ləğvetməyə yol verilmir.

719.5. İcarəçi iş qabiliyyətini itirdikdə, əgər icarəyə verən icarəyə götürülmüş əşyanın təsərrüfat təyinatına uyğun lazımi istifadəsini təmin etmək məqsədi ilə hər hansı üçüncü şəxsə ikinci əldən icarəyə verilməsi ilə razılaşmırsa, icarəçi xəbərdarlıq müddətlərini gözləməklə hüquq münasibətlərini ləğv edə bilər. Bu qaydaya zidd olan razılaşmanın qüvvəsi yoxdur.

719.6. İcarəçi öldükdə onun vərəsələri, habelə icarəyə verən müqavilənin ləğvinə dair bildirişi təqvim ili rübünün sonu üçün qüvvəyə minməklə altı ay əvvəldən vermək hüququna malikdirlər. Yalnız o halda vərəsələr müqavilənin icarəyə verən tərəfindən ləğv olunması barədə şikayət verə bilər və müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsini tələb edə bilərlər ki, onların və ya digər miras şəriklərinin və ya bunu tapşırdıqları hər hansı üçüncü şəxsin əşyadan onun təsərrüfat təyinatına uyğun lazımi istifadəni təmin etdikləri ehtimal olunsun. Əgər vərəsələr icarə müddətinin qurtarmasına azı üç ay qalmış şikayət verməzlərsə və icarəyə götürülmüş əşyadan onun təsərrüfat

təyinatına uyğun lazımi istifadə olunacağını ehtimal etməyə imkan verən hallar barəsində məlumat verməzlərsə, icarəyə verən müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsindən imtina edə bilər. Etiraz barəsində bildiriş və məlumat yazılı formada tərtib edilməlidir. Razılıq əldə edilməzsə, qərarı vəsatət əsasında məhkəmə qəbul edir.

719.7. Bu Məcəllənin 677.1.4, 685.1 və 686-cı maddələrində nəzərdə tutulmuş hallarda xəbərdarlıq müddətləri gözlənilmədən müqavilənin ləğv edilməsinə yol verilir. İcarəçi icarə haqqını və ya onun mühüm hissəsini ödəməyi üç aydan çox gecikdirdikdə də, icarəyə verən müqaviləni dərhal ləğv edə bilər. Əgər icarə haqqı bir ildən az müddət üçün tutulursa, müqavilənin ləğvinə yalnız icarəçinin iki ardıcıl müddət üçün icarə haqqını və ya onun mühüm hissəsini ödəmədiyi halda yol verilir. Əgər həmin müddət çatanadək icarəyə verən təmin edilərsə, müqavilənin ləğvi istisna olunur. Əgər icarəçi borcu qarşılıqlı əvəzləşdirmə çərçivəsində ödəyərək ondan azad olursa və ləğvetməyə dair bildirişdən dərhal sonra bu barədə məlumat verirsə, ləğvetmənin qüvvəsi yoxdur.

719.8. Ləğvetməyə dair bildiriş yazılı formada tərtib edilməlidir.

Maddə 720. Torpaq icarəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsi

720.1. İcarəçi icarəyə verəndən torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətlərinin davam etdirilməsini aşağıdakı hallarda tələb edə bilər:

720.1.1. müəssisənin icarəyə götürüldüyü halda bu müəssisə icarəçinin mövcudluğunun iqtisadi əsasını təşkil etdikdə;

720.1.2. torpaq sahəsinin icarəyə götürüldüyü halda icarəçi öz mövcudluğunun iqtisadi əsasını təşkil edən müəssisəsini həmin sahəsiz saxlaya bilmədikdə və müqavilə üzrə hüquq münasibətlərinə xitam verilməsi icarəçi və ya onun ailəsi üçün hətta icarəyə verənin əsaslı mənafeləri ilə haqq qazandırıla bilməyən mənfi nəticələr törədə bildikdə.

720.2. Bu Məcəllənin 720.1-ci maddəsində nəzərdə tutulan hallarda icarəçi tələb edə bilər ki, icarə müqaviləsi bütün halları nəzərə almaqla ağlabatan olan vaxtadək uzadılsın. Əgər icarəyə verən müqavilə üzrə hüquq münasibətlərinin əvvəlki şərtlərlə davam etdirilməsinə razılıq verə bilmirsə, icarəçi yalnız bunu tələb edə bilər ki, hüquq münasibətləri ağlabatan şəkildə dəyişdirilmiş şərtlərlə davam etdirilsin. Bu cür davametdirilmə dəfələrlə tələb oluna bilər.

720.3. İcarəçi torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətlərinin davam etdirilməsini aşağıdakı hallarda tələb edə bilməz:

720.3.1. o, müqavilənin ləğvinə dair bildiriş verdikdə;

720.3.2. icarəyə verənin dərhal ləğvetmə hüququ olduqda;

720.3.3. müəssisənin icarəsi, müəssisə yaradılmasına kömək göstərən əlavə torpaq sahələrinin icarəsi və ya icarəçinin becərdiyi bataqlıq torpaqlarının və xam yerlərin icarəsi haqqında müqavilə azı 18 il müddətinə, digər torpaq sahələrinin icarəsi haqqında müqavilə azı 12 il müddətinə bağlandıqda;

720.3.4. icarəyə verən müvəqqəti icarəyə verdiyi torpağı yenidən öz istifadəsinə almaq və ya ondan qanunla müəyyənləşdirilmiş və ya digər dövlət vəzifələrinin yerinə yetirilməsi üçün istifadə etmək niyyətində olduqda.

720.4. İcarəçinin torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətlərinin davam etdirilməsini tələb etdiyi bildirişi yazılı formada tərtib edilməlidir. İcarəyə verənin xahişi ilə icarəçi müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsi tələbi üçün əsasları dərhal ona bildirməlidir.

720.5. İcarəyə verən müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsindən o halda imtina edə bilər ki, onlara xitam verilməsinə azı bir il qalmış icarəçi hüquq münasibətlərinin davam etdirilməsini tələb etməsin və ya bu Məcəllənin 719.2-ci maddəsinə müvafiq surətdə icarəyə verənin sorğusuna cavab olaraq hüquq münasibətlərini davam etdirməkdən imtina etsin. Əgər ləğvetmə haqqında xəbərdarlıq müddəti 12 ay və ya daha az təyin edilmişdirsə, münasibətlərin davam etdirilməsi tələbinin ləğvetməyə dair bildiriş alındıqdan sonra bir ay ərzində irəli sürülməsi kifayətdir.

720.6. Əgər razılıq əldə edilməzsə, iddiaya əsasən məhkəmə müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsi, icarə müddəti və bu münasibətlərin davam etdirilməsi şərtləri haqqında qərar qəbul edir. Lakin məhkəmə cari hüquq münasibətlərinin başlanğıcından hesablanmaqla, bu Məcəllənin 720.3.3-cü maddəsində göstərilmiş müddətlərdən kənara çıxmayan anadək müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsi haqqında qərar qəbul edə bilər. Müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsi icarəyə götürülmüş torpağın bir hissəsi ilə də məhdudlaşdırıla bilər.

720.7. İcarəçi müqavilə üzrə hüquq münasibətlərinə xitam verilməsinə ən geci doqquz ay qalmış və (ləğvetmə haqqında xəbərdarlıq müddəti 12 ay və ya daha qısa müddət təşkil etdikdə) ləğvetməyə dair bildirişin məhkəməyə daxil olmasından iki ay sonra məhkəməyə ərizə verməlidir. Əgər mənfi nəticələrə yol verməmək üçün ağlabatan hesab edilərsə və əgər torpaq icarəsi müqaviləsinin qüvvədə olma müddəti hələ qurtarmamışsa, məhkəmə ərizənin daha gec daxil olmasına yol verə bilər.

720.8. Bu Məcəllənin 720-ci maddəsinə uyğun olaraq müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsini tələb etmək hüququ yalnız o halda istisna edilə bilər ki, icarə hüquq münasibətlərinə dair mübahisəyə son qoymaq məqsədi ilə bu tələbdən imtina barəsində məhkəməyə ərizə verilsin. Müqavilə iştirakçılarından birinin öz hüquqlarını həyata keçirməsi və ya həyata keçirməməsi nəticəsində onun üçün xüsusi mənfi nəticələr və ya üstünlüklər yaranmasını nəzərdə tutan razılaşmanın qüvvəsi yoxdur.

Maddə 721. Torpaq icarəsi müqaviləsinin vaxtından əvvəl ləğvi və təsviyəsi

721.1. Əgər torpaq icarəsi müqaviləsinin iştirakçıları torpaq icarəsi müqaviləsini vaxtından əvvəl ləğv etmək hüququna malikdirlərsə, bu hüquqa onlar müqavilə üzrə hüquq münasibətlərinin müddəti uzadıldıqdan və ya müqavilə dəyişdirildikdən sonra da malikdirlər.

721.2. Müqavilə iştirakçılarından birinin iddiası üzrə məhkəmə qüvvəsinə vaxtından əvvəl və ya qismən xitam verilmiş torpaq icarəsi müqaviləsinin təsviyəsi qaydasına dair qərar qəbul edə bilər. Əgər torpaq icarəsi müqaviləsinin qüvvəsi yalnız icarəyə

götürülmüş torpağın hər hansı hissəsi üçün uzadılırsa, məhkəmə həmin hissə üçün icarə haqqını müəyyənləşdirə bilər.

Maddə 722. İcarəyə götürülmüş torpağın qaytarılması

722.1. Müqavilə üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəçi icarəyə götürdüyü torpağı təyinatı üzrə lazımi istifadədən sonra qaytarılma məqamında uyğun gəlməli olduğu vəziyyətdə qaytarmağa borcludur. İcarəçinin icarəyə verənə qarşı tələbləri əsasında torpaq sahəsini saxlamaq hüququ yoxdur. Əgər icarəçi icarəyə götürdüyü torpağı hər hansı üçüncü şəxsin istifadəsinə vermişsə, torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəyə verən torpağın qaytarılmasını həmin üçüncü şəxsdən də tələb edə bilər.

722.2. Əgər torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətlərinə icarənin hər hansı ili ərzində xitam verilirsə, icarəyə verən hələ yaranmamış, lakin təsərrüfatın lazımınca aparılması qaydalarına görə icarə ilinin sonunadək əldə edilə bilən bəhərlərin dəyərini icarəçiyə ödəməlidir. Bu zaman məhsulla bağlı risk ağlabatan şəkildə nəzərə alınmalıdır. Əgər bəhərlərin dəyərini müəyyənləşdirmək mövsüm səbəblərinə görə mümkün deyildirsə, icarəyə verən icarəçinin bu bəhərlər üzrə xərclərinin əvəzini təsərrüfatın lazımınca aparılması qaydalarına uyğun gələn dərəcədə ödəməlidir. Bu qayda qırılmaq üçün nəzərdə tutulan, lakin hələ qırılmamış ağaclara da tətbiq edilir. Əgər icarəçi lazımi istifadə qaydalarının yol verdiyindən artıq ağac qırmışsa, artıq qırdığı ağacların dəyərini icarəyə verənə ödəməlidir. Digər zərərin əvəzinin ödənilməsinə dair pretenziya verilməsi istisna edilmir.

722.3. Hüquq münasibətlərinə xitam verildikdən sonra qalan kənd təsərrüfatı məhsullarından icarəçi növbəti məhsuladək təsərrüfatçılığın davam etdirilməsi üçün zəruri olan miqdarda məhsulu, hətta o, həmin hüquq münasibətlərinə girərkən belə məhsulu qəbul etmiş olmasa da, verməlidir. Əgər bununla əlaqədar olaraq icarəçi icarəlik torpaq verilərkən aldığı məhsula nisbətən daha çox miqdarda və ya daha yaxşı keyfiyyətli məhsulu verməlidirsə, icarəyə verəndən dəyəri ödəməyi tələb edə bilər.

722.4. Əgər müqavilə üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəçi icarəyə götürdüyü torpağı qaytarmırsa, icarəyə verən saxlama müddəti üçün icarə haqqı verilməsini kompensasiya kimi tələb edə bilər. Digər zərərin əvəzinin ödənilməsi barədə pretenziyalar verilməsi istisna edilmir.

35-ci fəsil. Françayzinq

Maddə 723. Françayzinq müqaviləsi

Françayzinq müqaviləsi elə bir uzunmüddətli öhdəlik münasibətidir ki, ona əsasən müstəqil müəssisələr zərurət olduqca spesifik öhdəliklərin icrası yolu ilə malın istehsalına, satışına və xidmətlərin göstərilməsinə kömək etməyi qarşılıqlı surətdə öhdələrinə götürürlər.

Maddə 724. Françayz verənin vəzifələri

724.1. Françayz verən françayz alana standart formalı qeyri-maddi əmlak hüquqlarını, əmtəə (ticarət) nişanlarını, mal nümunələrini, qablarını, məhsulun istehsalı, əldə edilməsi, satışı və fəaliyyətin təşkili konsepsiyasını, habelə satışa kömək üçün zəruri olan başqa informasiyanı özünün tətbiq etdiyi şəkildə verməyə borcludur.

724.2. Françayz verən birgə fəaliyyət sistemini üçüncü şəxslərin müdaxiləsindən qorumağa, onu aramsız təkmilləşdirməyə və françayz alanı işgüzar vərdişlərlə tanış etmək, informasiya vermək və ixtisasını artırmaq yolu ilə dəstəkləməyə borcludur.

Maddə 725. Françayz alanın vəzifələri

725.1. Françayz alan françayzinqin həyata keçirilməsi sisteminə qoyduğu zəhmət nəzərə alınmaqla hesablanan muzd ödəməli və vicdanlı sahibkar kimi fəaliyyət göstərməli, müqavilənin məqsədi ilə bilavasitə bağlı olan hallarda françayz verənin və ya onun göstərdiyi şəxslərin vasitəsi ilə xidmətlər qəbul etməli və mallar əldə etməlidir.

725.2. Əgər müqavilə bağlanarkən françayz alan daxilolma haqqı vermişdirsə və bu haqq françayz muzdunun hesabına daxil edilməmişdirsə, onda françayz verən müqavilənin qüvvəsinə xitam verilərkən bu haqqı ona qaytarmağa borcludur.

Maddə 726. Etibar edilmiş informasiyanı açıqlamamaq vəzifəsi

Françayzinq müqaviləsi bağlanarkən tərəflər bir-birini françayzinq ilə bağlı hallarla, xüsusən françayzinq sistemi ilə açıq-aşkar və tam tanış etməli və bir-birinə vicdanlı surətdə informasiya verməlidirlər. Onlar etibar edilmiş informasiyanı müqavilənin bağlanmadığı halda da açıqlamamağa borcludurlar.

Maddə 727. Françayzinq müqaviləsinin forması

Françayzinq müqaviləsi yazılı formada bağlanmalıdır. Müqavilənin mətnində tərəflər ikitərəfli öhdəlikləri, müqavilənin müddətini, ləğv edilməsi və ya müddətinin uzadılması şərtlərini və müqavilənin digər mühüm elementlərini dəqiq göstərməkdən əlavə, françayzinq sistemini tam təsvir etməlidirlər.

Maddə 728. Françayzinq müqaviləsinin müddəti

728.1. Françayzinq müqaviləsinin müddətini tərəflər həmin malın və xidmətlərin satışı ilə bağlı tələbatı nəzərə almaqla müəyyənləşdirirlər.

728.2. Əgər müqavilənin müddəti on ildən çoxdursa, istənilən tərəfin ləğvetmə üçün zəruri olan bir illik müddəti gözləməklə müqaviləni ləğv etmək ixtiyarı vardır. Əgər tərəflərdən heç biri müqaviləni ləğv etmək üçün bu hüquqdan istifadə etmirsə, müqavilə iki il müddətinə uzadılır. Müqavilə müddətin bitməsi nəticəsində və ya tərəflərin təşəbbüsü ilə ləğv edildikdə tərəflər qarşılıqlı etimad prinsipini gözləməklə müqavilənin müddətini işgüzar qarşılıqlı münasibətlərin faktik qurtardığı vaxtadək eyni və ya dəyişdirilmiş şərtlərlə uzatmağa çalışmalıdırlar.

Maddə 729. Loyal rəqabət

729.1. Tərəflər müqavilə münasibətləri qurtardıqdan sonra da öz aralarında loyal rəqabət aparmağa borcludurlar. Bununla əlaqədar olaraq françayz alanın müəyyən ərazinin hüdudları daxilində rəqabət aparması üzərində ən çoxu bir il müddətinə qadağan qoyula bilər.

729.2. Əgər rəqabət aparmağın qadağan edilməsi françayz alanın peşə fəaliyyəti üçün təhlükə yarada bilərsə, müqavilə müddətinin bitməsinə baxmayaraq ona müvafiq maliyyə kompensasiyası verilməlidir.

Maddə 730. Françayz verənin məsuliyyəti

Françayz verən françayzinq sistemi ilə nəzərdə tutulan hüquqlar və informasiya üçün məsuliyyət daşıyır. Əgər françayz verən müqavilə öhdəliklərini təqsirli surətdə pozarsa, françayz alan əvəz ödənilməsini azalda bilər. Azaltmanın miqdarı müstəqil ekspertin rəyi əsasında qəti surətdə müəyyənləşdirilməlidir. Bununla bağlı xərclər tərəflərin öhdəsinə qoyulur.

Maddə 731. Françayzinq hüquq münasibətlərinə tətbiq edilən müddəalar

731.1. Əgər françayzinq müqaviləsinin predmetini əqli mülkiyyətdən istifadə hüquqlarının verilməsi təşkil edirsə, ona müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında, habelə patent hüququ haqqında qanunvericiliyin müddəaları tətbiq edilir.

731.2. Əgər françayz alan françayz verənin və ya françayz verənlə bağlı hər hansı müəssisənin mallarını yaymaqla daimi məşğul olursa, bu Məcəllənin ticarət nümayəndəliyi və konsessiya müqaviləsi haqqında müddəaları tətbiq edilir.

731.3. Əgər françayzinq müqaviləsinin iştirakçıları başqa öhdəliklər (o cümlədən alğı-satqı, əmlak kirayəsi, podrat və xidmətlər göstərilməsi) götürürlərsə, iştirakçıların hüquq münasibətlərinə bu Məcəllənin həmin müqavilə növləri haqqında müddəaları tətbiq edilir.

36-cı fəsil. Əvəzsiz istifadə

Maddə 732. Əvəzsiz istifadə müqaviləsi

Əvəzsiz istifadə müqaviləsinə görə hər hansı əşyanı kirayəyə verən onu kirayəçinin istifadəsinə verməyi öhdəsinə götürür, kirayəçi isə həmin əşyanı kirayəyə verənə qaytarmağı öhdəsinə götürür, özü də bu öhdəlikləri iştirakçılar əvəzsiz icra etməlidirlər.

Maddə 733. Əvəzsiz istifadəyə verilən əşyanı kirayəyə verənin məsuliyyəti

733.1. Əvəzsiz istifadəyə verilən əşyanı kirayəyə verən kirayəçi qarşısında yalnız qəsdən və ya kobud ehtiyatsızlıq üzündən törədilmiş əməllər və ya qüsurlar üçün məsuliyyət daşıyır.

733.2. Əgər kirayəyə verən üçüncü şəxslərin hər hansı hüquqlarının və ya iddialarının olduğunu və ya əvəzsiz istifadəyə verilmiş əşyanın hər hansı qüsurunu qəsdən gizlədirsə, bunun nəticəsində əmələ gələn zərərin əvəzini kirayəçiyə ödəməyə borcludur.

Maddə 734. Əvəzsiz istifadəyə götürülmüş əşyanın saxlanması

734.1. Kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanın adi saxlanması və ona qulluq üçün zəruri olan xərcləri çəkməlidir. Kirayəyə verənin digər xərclərin əvəzini ödəmək vəzifəsi özgə işlərini tapşırıqsız aparmaq haqqında və əsassız varlanma haqqında göstərişlərə uyğun müəyyənləşdirilir.

734.2. Kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanın müqavilə üzrə istifadəsi çərçivəsində dəyişməsi və ya pisləşməsi üçün məsuliyyət daşımır.

Maddə 735. Əvəzsiz istifadəyə götürülmüş əşyadan müqavilə şərtlərinə uyğun istifadə

Kirayəçinin əvəzsiz istifadəyə götürdüyü əşyadan müqavilədə göstəriləndən savayı, başqa təyinatla istifadə etməsinə icazə verilmir. Kirayəyə verənin icazəsi olmadan onun həmin əşyanı üçüncü şəxslərin istifadəsinə vermək hüququ yoxdur.

Maddə 736. Əvəzsiz istifadəyə götürülmüş əşyanı qaytarmaq vəzifəsi

736.1. Kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanı müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra qaytarmağa borcludur.

736.2. Əgər əvəzsiz istifadə müddəti müəyyənləşdirilməyibsə, kirayəçi əşyanı əvəzsiz istifadə məqsədlərinə uyğun istifadə etdikdən sonra qaytarmalıdır. Əgər kirayəçinin əşyadan istifadə edə bilməsi üçün yetərli olan müddət bitərsə, kirayəyə verən əşyanın daha əvvəl qaytarılmasını tələb edə bilər.

736.3. Əgər kirayə müddəti müəyyənləşdirilməyibsə, yaxud əvəzsiz istifadə məqsədlərinə əsasən onu müəyyənləşdirmək mümkün deyildirsə, kirayəyə verən əvəzsiz istifadəyə götürülmüş əşyanın qaytarılmasını istənilən vaxt tələb edə bilər.

736.4. Əgər kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanı üçüncü şəxslərin istifadəsinə verirsə, şübhə halında kirayəyə verən əşyanın qaytarılmasını üçüncü şəxslərdən də istənilən vaxt tələb edə bilər.

Maddə 737. Əvəzsiz istifadə müqaviləsi üzrə hüquq münasibətlərinə vaxtından əvvəl xitam verilməsi

Kirayəyə verən əvəzsiz istifadə müqaviləsini, əvvələn, əvəzsiz istifadəyə verdiyi əşyaya gözlənilməz hallar nəticəsində ehtiyac duyduqda, ikincisi, kirayəçi əşyadan müqavilənin şərtlərini pozmaqla istifadə etdikdə, o cümlədən əşyanı üçüncü şəxslərin istifadəsinə verdikdə və ya kirayəçinin kifayət qədər vicdanlı olmaması üzündən əşya mühüm təhlükəyə məruz qaldıqda və üçüncüsü, kirayəçinin öldüyü halda vaxtından əvvəl ləğv edə bilər.

Maddə 738. Əvəzsiz istifadə müqaviləsi üzrə müddətlər

Kirayəyə verənin əvəzsiz istifadəyə verilmiş əşyanın dəyişməsi və ya pisləşməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi hüquqları, habelə kirayəçinin çəkdiyi zəruri xərclərin əvəzinin ödənilməsi hüquqları altı aydan sonra, müddətin keçməsinə görə qüvvədən düşür.

37-ci fəsil. Borc

Maddə 739. Borc müqaviləsi

739.1. Borc müqaviləsinə görə iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür.

739.2. Borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır. Müstəqil peşə fəaliyyəti şəklində pul borc verməklə məşğul olan şəxslər

əlavə olaraq peşəkarlıq qaydasında kreditlər verilməsi haqqında müddəaları gözləməlidirlər.

Maddə 740. Borc müqaviləsinin forması

Borc müqaviləsi şifahi bağlanır. Tərəflərin razılaşması ilə yazılı formadan da istifadə edilə bilər.

Maddə 741. Borc üzrə faizlər

Əgər müqavilənin iştirakçıları borcun faizlər ilə verilməsini şərtləşdirirlərsə, faizlər müvafiq surətdə bir ilin sonunda ödənilməli, borc bir il başa çatanadək qaytarılmalıdırsa, borcun qaytarılması ilə bir vaxtda ödənilməlidir.

Maddə 742. Borc müqaviləsinə xitam verilməsi və borcun qaytarılması

742.1. Əgər borcun qaytarılması üçün müddət qoyulmayıbsa, o, borc verən və ya borc alan tərəfindən borc müqaviləsi ləğv edilərkən qaytarılmalıdır.

742.2. *Yüz on manatdan* çox məbləğdə borclar üçün borc müqaviləsinin ləğv edilməsi haqqında xəbərdarlıq müddəti üç ay, daha az məbləğdə borclar üçün bir ay təşkil edir. Əgər borc üzrə faizlər şərtləşdirilməyibsə, borc alanın ləğvetməyə dair bildiriş vermədən də borcu qaytarmaq hüququ vardır. (32)

Maddə 743. Borcun dərhal qaytarılmasını tələb etmək hüququ

Əgər borc alanın əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşərsə, bu isə borcun qaytarılması tələbi üçün təhlükə yaradarsa, borc verən borcun dərhal qaytarılmasını tələb edə bilər. Bu hüquq həmçinin borc alanın əmlak vəziyyəti müqavilə bağlanmazdan əvvəl pisləşdikdə, borc verənə isə bu yalnız borc müqaviləsi bağlandıqdan sonra məlum olduqda da qüvvədədir.

Maddə 744. Borc alanın müqaviləni ləğv etməyə xüsusi hüququ

744.1. Borc alan müəyyən müddət üçün sabit faizlərin şərtləşdirildiyi borc müqaviləsini aşağıdakı hallarda tamamilə və ya qismən ləğv edə bilər:

744.1.1. faizlərlə bağlılığa borcun qaytarılması üçün müəyyənləşdirilmiş müddət çatanadək xitam verildikdə və faiz dərəcəsi haqqında heç bir yeni razılaşma qəbul edilmədikdə—ləğvetmə haqqında bir aylıq xəbərdarlıq müddətini gözləməklə, ən tezi faizlərlə bağlılığa xitam verilən günün sonunda qüvvəyə minməklə;

744.1.2. faiz dərəcəsinin il də daxil olmaqla müəyyən zaman hissələri üçün razılaşdırılması şərtləşdirildikdə—ləğvetmə haqqında bir aylıq xəbərdarlıq müddətini gözləməklə, müvafiq olaraq yalnız faizlərlə bağlılığa xitam verilən günün sonunda qüvvəyə minməklə;

744.1.3. borc fiziki şəxsə verildikdə—ləğvetmə haqqında üç aylıq xəbərdarlıq müddətini gözləməklə, lakin borc alındıqdan sonra doqquzuncu ayın axırından tez olmayaraq qüvvəyə minməklə; əgər borc torpağa sahibliklə bağlı hüquqla təmin edilmişdirsə və ya tamamilə və ya başlıca olaraq sənətkarlıq şəklində və ya

peşəkarlıq qaydasında müstəqil fəaliyyətin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdursa;

744.1.4. hər bir halda borc alındıqdan on il sonra ləğvetmə haqqında altı aylıq xəbərdarlıq müddətini gözləməklə. Əgər borc alındıqdan sonra onun qaytarılması müddəti və ya faiz dərəcəsi yenidən şərtləşdirilirsə, həmin razılaşmanın bağlanma anı ödəniş müddətini əvəz edir.

744.2. Borclu faiz dərəcəsi dəyişən borc müqaviləsini ləğvetmə haqqında üç aylıq xəbərdarlıq müddətini gözləməklə istənilən vaxt ləğv edə bilər.

744.3. Əgər borclu ləğvetmə haqqında xəbərdarlıq müddətinin qurtardığı günün sonunadək borc verənə borcu ödəməzsə, borc alan tərəfindən ləğvetmə natamam sayılır.

744.4. Borc alanın bu maddəyə uyğun ləğvetmə hüquqları müqavilə ilə məhdudlaşdırıla və ya mürəkkəbləşdirilə bilməz. Bu müddəa Azərbaycan Respublikası, onun dövlət orqanları və ya bələdiyyələr üçün borc müqavilələrinə tətbiq edilmir.

Maddə 745. Borc verənin ləğvetmə hüququ

Əgər müqavilə üzrə digər iştirakçının əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşərsə və bunun nəticəsində borcun qaytarılması təhlükəyə məruz qala bilərsə, borc verən borc verəcəyini öhdəsinə götürdüyü bildirişi borc verəcəyini vəd etdiyi əşyanı və ya məbləği verənədək və ya ödəyənədək ləğv edə bilər.

Maddə 746. Borc vermək vədi

Borc vermək vəd edildikdə vəd edən borc verməkdən o halda imtina edə bilər ki, digər tərəfin əmlak vəziyyəti borcun qaytarılması üçün təhlükə törədəcək dərəcədə pisləşmiş olsun. Borc vermək vədi yazılı surətdə tərtib edilməlidir.

38-cu fəsil. Lizinq

Maddə 747. Lizinq müqaviləsi

747.1. Lizinq müqaviləsinə görə lizinq verən müəyyən əşyanı müqavilə ilə *şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla)* lizinq alanın istifadəsinə verməyə borcludur. Lizinq alan müəyyənləşdirilmiş dövriliklə muzd ödəməyə borcludur.

747.2. Lizinq verən müqavilədə nəzərdə tutulan əmlakı hazırlamağa və ya əldə etməyə borcludur.

747.3. Lizinq müqaviləsinə görə lizinq alana müqavilə müddəti qurtardıqdan sonra lizinq predmetini əldə etmək və ya kirayələmək vəzifəsi həvalə edilə bilər və ya belə hüquq verilə bilər, bu şərtlə ki, müqavilə öz predmetinin tam amortizasiyası ilə bitməsin. Qəti dəyər hesablanarkən amortizasiya faktı bütün hallarda nəzərə alınmalıdır. Əgər müqavilədə müvafiq müddəa yoxdursa, lizinq alanın lizinq predmetini əldə etməyə ixtiyarı çatır. (2)

Maddə 747-1. Lizinq müqaviləsinin subyektləri

747-1.1. Lizinq müqaviləsinin subyektləri lizinq verən, lizinq alan və satıcıdır (mal verəndir).

747-1.2. Lizinq verən lizinq müqaviləsinə əsasən cəlb edilmiş və ya özünə məxsus maliyyə vəsaiti hesabına əldə etdiyi və mülkiyyətində olan əşyanı lizinq obyekti kimi lizinq alana müəyyən haqla, müəyyən müddətə və şərtlərlə (mülkiyyət hüququnun lizinq alana keçməsi və ya keçməməsi şərti də daxil olmaqla) müvəqqəti sahibliyə və ya istifadəyə verən hüquqi və ya fiziki şəxsdir.

747-1.3. Lizinq alan lizinq müqaviləsinə uyğun olaraq lizinq obyektini müəyyən haqla, müəyyən müddətə və şərtlərlə müvəqqəti sahibliyə və istifadəyə qəbul edən hüquqi və ya fiziki şəxsdir.

747-1.4. Satıcı (mal verən) alqı-satqı müqaviləsinə əsasən lizinq obyektini lizinq verənə satan hüquqi və ya fiziki şəxsdir.

747-1.5. Bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydada və hallarda Azərbaycan Respublikasının istənilən rezidenti və qeyri-rezidenti lizinq müqaviləsinin subyekti ola bilər. (2)

Maddə 747-2. Lizinqin obyekti

Lizinqin obyekti Azərbaycan Respublikasının qanunlarına əsasən sərbəst mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar istisna olmaqla, qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid olan daşınar və ya daşınmaz əşyalardır. (2)

Maddə 747-3. Lizinqin formaları

747-3.1. Lizinqin bu Məcəllə ilə tənzimlənən əsas formalarına daxili və beynəlxalq lizinq aiddir.

747-3.2. Daxili lizinq həyata keçirildikdə lizinq verən və lizinq alan Azərbaycan Respublikasının rezidentləridir.

747-3.3. Beynəlxalq lizinq həyata keçirildikdə lizinq verən, yaxud lizinq alan (və ya onların hər ikisi) Azərbaycan Respublikasının qeyri-rezidentləridir. (2)

Maddə 747-4. Sublizinq

747-4.1. Sublizinq- sublizinq müqaviləsi ilə rəsmiləşdirilir.

747-4.2. Sublizinq zamanı, əvvəllər lizinq verəndən lizinq müqaviləsi üzrə alınmış lizinq müqaviləsinin obyektini lizinq müqaviləsi üzrə lizinq alan üçüncü şəxslərə (sublizinq müqaviləsi üzrə lizinq alana) haqq ödənilməklə və sublizinq müqaviləsinin şərtlərinə uyğun müddətə sahibliyə və istifadəyə verir.

747-4.3. Əşya sublizinqə verildikdə satıcıya qarşı tələb hüququ sublizinq müqaviləsi üzrə lizinq alana keçir.

747-4.4. Lizinq obyektinin sublizinqə verilməsi zamanı hökmən lizinq verənin yazılı razılığı olmalıdır. (2)

Maddə 747-5. Lizinq əməliyyatlarının hüquqi forması

747-5.1. Lizinq əməliyyatlarının hüquqi forması ya lizinq verənlə lizinq alan arasında bağlanmış lizinq müqaviləsi və lizinq verənlə satıcı arasında bağlanılmış alqı-satqı müqaviləsidir, ya da həmin şəxslər arasında bu Məcəllənin 746-5.2-ci maddəsinə və lizinqlə bağlı digər maddələrinə müvafiq surətdə bağlanılmış üçtərəfli müqavilədir.

747-5.2. Lizinqlə əlaqədar bağlanılan alqı-satqı müqaviləsində, bu Məcəllə ilə nəzərdə tutulmuş şərtlərlə yanaşı, aşağıdakılar da göstərilməlidir:

747-5.2.1. Lizinq obyekti lizinq verən tərəfindən xüsusi olaraq lizinqə verilmək üçün əldə edilir;

747-5.2.2. Lizinq müqaviləsində ayrı hal nəzərdə tutulmayıbsa, lizinq alanın lizinq obyektinin satıcısı ilə lizinq verən arasında bağlanılan alqı-satqı müqaviləsindən irəli gələn alıcı hüquqlarına malikdir. (2)

Maddə 748. Lizinq müqaviləsinin forması

748.1. Lizinq müqaviləsi yazılı formada bağlanılır.

748.2. Lizinq müqaviləsində aşağıdakılar göstərilməlidir:

748.2.1. Lizinq müqaviləsinin adında lizinqin forması;

748.2.2. Lizinq obyektinin dəqiq təsviri;

748.2.3. Lizinq obyekti üzrə verilən hüquqların həcmi;

748.2.4. Lizinq obyektinin verilmə yeri və qaydası;

748.2.5. Lizinq müqaviləsinin müddəti;

748.2.6. Lizinq obyektinin balans uçotunun qaydası;

748.2.7. Lizinq obyektinin saxlanması və təmiri qaydası;

748.2.8. Lizinq müqaviləsi əsasında lizinqverənin göstərəcəyi əlavə xidmətlərin siyahısı;

748.2.9. Lizinq ödənişinin ümumi məbləği və lizinqverənin mükafatının məbləği;

748.2.10. Hesablaşma qaydasını əks etdirən lizinq ödənişlərinin qrafiki. Lizinq müqaviləsi vaxtından əvvəl icra edildikdə lizinq ödənişlərinin hesablanması qaydası;

748.2.11. Əgər müqavilə ilə ayrı hal nəzərdə tutulmayıbsa, tərəflərin lizinq obyektini lizinq müqaviləsi ilə bağlı risklərdən sığorta etməsi vəzifələri.

748.3. Lizinq müqaviləsində tərəflərin öhdəliklərinin mübahisəsiz və aşkar pozuntular sayılan və lizinq müqaviləsinin ləğvinə səbəb olan hallar müəyyənləşdirilməli, tərəflər

arasında hesablaşma və lizinq obyektinin geri götürülməsi proseduru hökmən qeyd olunmalıdır.

748.4. Lizinq müqaviləsində lizinq alanın lizinq müqaviləsinin şərtlərini saxlamaq və ya dəyişməklə lizinq müqaviləsinin müddətini uzatmaq hüququ nəzərdə tutula bilər. (2)

Maddə 748-1. Lizinq müqaviləsi iştirakçılarının hüquq və vəzifələri

748-1.1. Lizinq verən lizinq obyekti olan əmlakı lizinq alana lizinq müqaviləsinin şərtlərinə və həmin əmlakın təyinatına uyğun halda (vəziyyətdə) təqdim etməlidir.

748-1.2. Lizinq alan əmlakı qəbul edərkən hər hansı bir çatışmazlıq aşkar edərsə, qəbul protokolunda bu barədə qeyd etməli və çatışmazlıqları aradan qaldırmaq məqsədilə bu əmlakı satan hüquqi və ya fiziki şəxslər qarşısında tələb irəli sürmək üçün lizinq verənə məlumat verməlidir.

748-1.3. Lizinq alan bilavasitə lizinq obyektinin satıcısı qarşısında bu obyektin keyfiyyət və komplektliyi, göndərilmə müddətləri barədə və satıcı ilə lizinq verənin arasında alqı-satqı müqaviləsi ilə nəzərdə tutulan digər tələbləri irəli sürə bilər.

748-1.4. Lizinq verən müvəqqəti sahibliyə və istifadəyə verilən lizinq obyektinin lizinq müqaviləsi bağlanarkən şərtləşdirilmiş və ya lizinq alana əvvəlcədən məlum olan, yaxud lizinq alanın lizinq obyektini nəzərdə keçirərkən və ya lizinq müqaviləsinin bağlanması zamanı onun sazlığını yoxlayarkən aşkar oluna bilən çatışmazlıqlar üçün məsuliyyət daşımır.

748-1.5. Lizinq müqaviləsi qanuni qüvvəyə mindikdə lizinq alanın (müvafiq olaraq lizinq verənin lizinq verəndən (müvafiq olaraq lizinq alandan) lizinq müqaviləsi üzrə öhdəliklərinin yerinə yetirilməsini tələb etmək və onların yerinə yetirilmədiyi təqdirdə lizinq obyektinin qəbuluna hazırlıq zamanı vurulmuş zərərin, əgər bu hazırlıq üçün bilavasitə xərc çəkilibsə, lizinq verən (müvafiq olaraq lizinq alan) tərəfindən ödənilməsini məhkəmə yolu ilə tələb etmək hüququ vardır.

748-1.6. Lizinq obyektinə təminatlı xidmət, əgər bu, alqı-satqı müqaviləsində nəzərdə tutulubsa, satıcı tərəfindən həyata keçirilir.

748-1.7. Lizinq alan, lizinq müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq obyektinə texniki xidməti, onun orta və cari təmirini öz hesabına həyata keçirir. Lizinq obyekti olan əmlakın əsaslı təmiri, əgər lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq verən tərəfindən aparılır.

748-1.8. Lizinq müqaviləsinə xitam verildikdən sonra lizinq alan lizinq obyektini normal köhnəlmə (amortizasiya) və ya lizinq müqaviləsi ilə şərtlənən köhnəlmə nəzərə alınmaqla, lizinq verənə ondan aldığı vəziyyətdə (halda) qaytarmalıdır.

748-1.9. Lizinq alan lizinq obyektini qaytarmayıbsa və ya vaxtında qaytarmayıbsa, lizinq verənin gecikmə vaxtı üçün ödəniş tələb etmək hüququ vardır.

748-1.10. Əgər lizinq alan lizinq verənin yazılı razılığı ilə lizinq obyektini öz vəsaiti hesabına yaxşılaşdırıbsa və bu, lizinq obyektinə zərər vurmadan ayrıla bilmirsə, lizinq müqaviləsinə xitam verildikdən sonra lizinq alan, lizinq müqaviləsi ilə ayrı qayda

nəzərdə tutulmayıbsa, bu yaxşılaşdırılmaların dəyərinin ona ödənilməsini tələb etmək hüququna malikdir.

748-1.11. Əgər lizinq alan lizinq verənin yazılı razılığı olmadan lizinq obyektini öz vəsaiti hesabına yaxşılaşdırıbsa və bu lizinq obyektinə zərər vurmadan ayrıla bilmirsə, lizinq müqaviləsinə xitam verildikdən sonra lizinq alan bu yaxşılaşdırmaların dəyərinin ona ödənilməsini tələb etmək hüququna malik deyildir.

748-1.12. Lizinq verənin aşağıdakı hallarda pul məbləğlərini və lizinq obyektini mübahisəsiz geri almaq və bununla da lizinq müqaviləsini vaxtından əvvəl ləğv etmək hüququ vardır:

748-1.12.1. Lizinq alanın lizinq obyektindən istifadə şəraiti lizinq müqaviləsinin şərtlərinə və ya lizinq obyektinin təyinatına uyğun deyilsə;

748-1.12.2. Lizinq alan lizinq verənin icazəsi olmadan sublizinq həyata keçirirsə;

748-1.12.3. Lizinq alan lizinq obyektini işlək halda saxlamırsa və bu da onun istehlak keyfiyyətlərini pisləşdirirsə;

748-1.12.4. Lizinq alan lizinq obyektindən istifadə üçün haqqı müqavilə ilə nəzərdə tutulan ödəniş müddətləri üzrə ardıcıl olaraq iki dəfədən artıq ödəmirsə.

748-1.13. Lizinq müqaviləsi iştirakçılarının digər hüquq və vəzifələri Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir. (2)

Maddə 748-2. Lizinq zamanı mülkiyyət münasibətləri

748-2.1. Lizinq alana müvəqqəti sahibliyə və ya istifadəyə verilmiş lizinq obyekti lizinq verənin mülkiyyətidir.

748-2.2. Lizinq müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq obyektinə sahiblik və ondan istifadə hüququ lizinq alana tam həcmdə keçir.

748-2.3. Lizinq verən bu Məcəllənin 748-1.11-ci maddəsində və lizinq müqaviləsində nəzərdə tutulmuş hallarda lizinq obyektini lizinq alanın sahibliyindən və istifadəsindən geri almaq hüququna malikdir.

748-2.4. Lizinq alanın həyata keçirdiyi lizinq obyektinin ayrılan yaxşılaşdırılmaları, əgər lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, onun mülkiyyətidir.

748-2.5. Maliyyə lizinqi zamanı lizinq obyektinə mülkiyyət hüququ, əgər maliyyə lizinqi müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bütün lizinq ödənişlərinin verilməsi şərti ilə müqavilə müddəti başa çatmazdan əvvəl lizinq alana keçir. (2)

Maddə 748-3. Lizinq obyektinin uçotu

Maliyyə lizinqi əsasında lizinq alana verilmiş lizinq obyekti tərəflərin qarşılıqlı razılığı əsasında lizinq verənin və ya lizinq alanın balansında uçota alınmalıdır. (2)

Maddə 748-4. Lizinq obyektinin üçüncü şəxslərə güzəşti və girov qoyulması

748-4.1. Lizinq verən lizinq müqaviləsi üzrə öz hüquqlarını üçüncü şəxsə tam və ya qismən güzəşt edə bilər.

748-4.2. Lizinq verən pul vəsaitinin cəlb edilməsi məqsədi ilə girov kimi lizinq müqaviləsinin şərtləri üzrə alınacaq lizinqin obyektini istifadə edə bilər. (2)

Maddə 748-5. Lizinq müqaviləsinin obyekti olan əmlakın qeydiyyatı

Lizinq müqaviləsinin obyekti olan əmlaka hüquqlar bu Məcəllədə nəzərdə tutulan hallarda bu Məcəlləyə və digər normativ hüquqi aktlara uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınmalıdır. (2)

Maddə 748-6. Lizinq obyektinin və sahibkarlıq (maliyyə) risklərinin sığortası

748-6.1. Lizinq müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, satıcı əmlakı lizinq verənə verdiyi andan lizinq müqaviləsinin müddəti başa çatanadək lizinq obyektini itirilmə (məhv olma), çatışmazlıq və ya zədələnmə risklərindən sığortalamalıdır.

748-6.2. Sahibkarlıq (maliyyə) risklərinin sığortası lizinq müqaviləsi tərəflərinin razılığı ilə həyata keçirilə bilər.

748-6.3. Sığorta edənin öhdəliklərini yerinə yetirən və qazanc götürən tərəflər, həmçinin sığortanın müddəti lizinq müqaviləsi ilə müəyyənləşdirilir.

748.6.4. Lizinq alan, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən hallarda, lizinq obyektinin istifadəsi prosesində digər şəxslərin həyatına, sağlamlığına və ya əmlakına dəyən ziyan nəticəsində yaranan öhdəliklərin yerinə yetirilməsinə görə öz məsuliyyətini sığortalamalıdır.

748-6.5. Lizinq alanın lizinq müqaviləsinin pozulmasına görə öz məsuliyyətinin riskini lizinq verənin xeyrinə sığortalamaq hüququ vardır. (2)

Maddə 748-7. Lizinq müqaviləsinin tərəfləri arasında risklərin bölüşdürülməsi

748-7.1. Lizinq obyekti olan əmlakın zərərin bütün növlərindən qorunması, həmçinin onun məhv edilməsi, itirilməsi, korlanması, talanması, vaxtından əvvəl sıradan çıxması, quraşdırılması və ya istifadəsi zamanı buraxılan səhvlərdən və istismarı zamanı yol verilən risklərdən qorunması ilə bağlı məsuliyyəti, lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq obyektinin faktiki qəbulu anından lizinq alan daşıyır.

748-7.2. Satıcının müflisləşməsi ilə bağlı riskin məsuliyyətini, əgər lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, satıcını seçən tərəf daşıyır.

748-7.3. Lizinq obyektinin lizinq müqaviləsinə əsasən istifadə məqsədlərinə uyğunsuzluğu ilə bağlı riskin məsuliyyətini, lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq obyektini seçən tərəf daşıyır. (2)

Maddə 748-8. Üçüncü şəxslərin iddiasının lizinqin obyektinə yönəldilməsi

748-8.1.Lizinq alanın öhdəliklərinə görə üçüncü şəxslərin iddiası lizinqin predmetinə yönəldilə bilməz.

748-8.2. Lizinq verənin əmlakına yönəldilmiş üçüncü şəxslərin iddiası lizinq verənin yalnız bu mülkiyyət hüququnun obyektinə lizinq obyektinə münasibətdə aid edilə bilər. İddianın təmin edilməsi nəticəsində lizinq verənin hüquqlarını əldə edənə lizinq verənin lizinq müqaviləsində müəyyənləşdirilmiş həm hüquqları, həm də öhdəlikləri məcburi qaydada keçir. (2)

Maddə 748-9. Lizinqin obyektinin itirilməsi zamanı lizinq alanın vəzifələri

Əgər lizinq müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq alanın günahı üzündən lizinq obyektinin itirilməsi və ya lizinq obyektinin öz funksiyalarının itirməsi lizinq alanı lizinq müqaviləsi üzrə öhdəliklərindən azad etmir. (2)

Maddə 748-10. Lizinq ödənişləri

748-10.1. Lizinq müqaviləsinin qüvvədə olduğu müddət ərzində həmin müqavilə üzrə ödənişlərin ümumi məbləği lizinq ödənişləri hesab edilir. Lizinq ödənişləri lizinq müqaviləsi üzrə lizinq alana verilmiş lizinq obyektindən istifadəyə görə onun tərəfindən lizinq verənin xeyrinə həyata keçirilən ödənişlərdir.

748-10.2. Lizinq ödənişlərinin məbləği həyata keçirilməsi üsulu, forması və dövriliyi lizinq müqaviləsinə uyğun olaraq bu Məcəllənin müddəaları nəzərə alınmaqla həyata keçirilir.

748-10.3. Əgər lizinq alan və lizinq verən arasında lizinq ödənişləri ilə bağlı hesablaşmalar lizinq obyekti vasitəsilə istehsal olunan məhsulla (natura formasında) aparılırsa, belə məhsulun qiyməti tərəflərin razılığı ilə müəyyənləşdirilir və lizinq müqaviləsində qeyd edilir.

748-10.4. Lizinq alanın lizinq ödənişlərinin verilməsi ilə bağlı öhdəlikləri, lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq alanın lizinq obyektindən istifadəyə başladığı vaxtdan qüvvəyə minir.

748-10.5. Lizinq müqaviləsində lizinq ödənişlərinə lizinq obyektindən istifadəyə başlanıldığı vaxtından 6 ay (180 gün) keçənədək möhlət verilməsi nəzərdə tutula bilər.

748-10.6. Lizinq ödənişləri bilavasitə lizinq verənin hesabına köçürülür. (2)

Maddə 748-11. Lizinq ödənişlərinin ümumi məbləği

748-11.1. Lizinq ödənişlərinin ümumi məbləğinə aşağıdakılar daxildir:

748-11.1.1. Lizinq obyektinin amortizasiya ödənişləri;

748-11.1.2. Lizinq obyektinin əldə edilməsi ilə bağlı zəruri xərclər;

748-11.1.3. Lizinq obyektini əldə etmək üçün alınan kreditə görə faiz;

748-11.1.4. Lizinq verənin mükafatının məbləği;

748-11.1.5. Lizinq obyekti lizinq verən tərəfindən sığorta edilmişdirsə, sığorta üçün ödənilən məbləğ.

748-11.1.6. Lizinq verənin əlavə xidmətlərinin haqqı;

748-11.1.7. Lizinq verənin lizinq müqaviləsi ilə nəzərdə tutulmuş digər xərcləri.

748-11.2. Lizinq ödənişlərinin tərkibinə daxil edilən məbləğlər lizinq verən tərəfindən müvafiq sənədlərlə əsaslandırılmalıdır. (2)

Maddə 748-12. Lizinq müqaviləsini yoxlamaq hüququ

748-12.1. Lizinq müqaviləsində müəyyənləşdirilmiş lizinq obyektinə aid şərtlərə lizinq alan tərəfindən əməl edilməsinə lizinq verənin nəzarət etmək hüququ vardır.

748-12.2. Yoxlamanın məqsədləri və qaydası lizinq müqaviləsində nəzərdə tutulur.

748-12.3. Lizinq alan lizinq verənin lizinqlə bağlı maliyyə sənədləri və lizinqin obyekti ilə maneəsiz tanış olması və onlara baxış keçirilməsi imkanını təmin etməlidir. (2)

Maddə 748-13. Lizinq verənin maliyyə nəzarəti hüququ

748-13.1. Lizinq verən lizinq alanın lizinq müqaviləsi üzrə lizinq obyektinə aid öhdəliklərini yerinə yetirməsi hissəsində onun fəaliyyətinə maliyyə nəzarətini həyata keçirmək hüququna malikdir.

748-13.2. Maliyyə nəzarətinin məqsədləri və qaydası lizinq müqaviləsi ilə nəzərdə tutulur.

748-13.3. Lizinq verənin maliyyə nəzarətini həyata keçirməyə lazım olan məlumatı almaq üçün lizinq alana yazılı sorğu göndərmək hüququ vardır, lizinq alan isə bu sorğulara cavab verməyə borcludur.

748-13.4. Lizinq alan lizinq ödənişləri üzrə öhdəliklərini yerinə yetirmədikdə. lizinq verənin bu Məcəllə və lizinq müqaviləsi ilə nəzərdə tutulmuş və öhdəliklərin təmin edilməsinə yönəldilmiş hərəkətləri həyata keçirmək hüququ vardır. (2)

Maddə 749. Lizinq verənin məsuliyyəti

749.1. Kirayə müqaviləsinin qaydalarına uyğun olaraq lizinq verən əmlakı göndərməyi gecikdirməyə və ya göndərməməyə, habelə qüsurlu əmlak göndərməyə görə lizinq alan qarşısında məsuliyyət daşıyır.

749.2. Tərəflər razılığa gələ bilərlər ki, lizinq alan lizinq verənə qarşı pretenziyalar irəli sürməzdən əvvəl tələbin əmlakı göndərən tərəfindən yerinə yetirilməsini tələb etməlidir.

Maddə 750. Lizinq alanın məsuliyyəti

Lizinq alanın təqsiri üzündən müqaviləyə vaxtından əvvəl xitam verildikdə lizinq verən icra ilə bağlı öz mənafelərinə aid olmayan tələbləri irəli sürə bilməz. Tələblər müəyyənləşdirilərkən lizinq əmlakının qalıq dəyəri, lizinq muzdu üzrə faizlərin qalığı və qənaət edilmiş digər xərclər nəzərə alınır.

Maddə 751. Lizinqə tətbiq edilən digər qaydalar

Lizinq barəsində əmlak kirayəsi müqaviləsinin bu Məcəllənin 747-750-ci maddələrinə zidd olmayan qaydaları tətbiq edilir.

39-cu fəsil. Podrat

Maddə 752. Podrat müqaviləsi

752.1. Podrat müqaviləsinə görə podratçı müqavilədə nəzərdə tutulan işi icra etməyi, sifarişçi isə podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürür.

752.2. Əgər podratda hər hansı məmulatın hazırlanması nəzərdə tutularsa və podratçı onu özünün əldə etdiyi materiallardan hazırlayarsa, hazırlanmış məmulata mülkiyyəti sifarişçiyə verir. Əgər əvəz edilən əşya hazırlanmışdırsa, alğı-satqı qaydaları tətbiq edilir.

752.3. Podratla bağlı smetanın tərtibi, əgər razılaşmada ayrı qayda müəyyənləşdirilməyibsə, ödənilmir.

Maddə 753. Muzd barəsində razılaşma

753.1. Sifarişçi podratçıya şərtləşdirilmiş muzd ödəməyə borcludur. Əgər həmin şəraitdə podratın yalnız muzd müqabilində yerinə yetirilməsi ehtimal edilirsə, belə hesab edilir ki, muzd dinməz razılıq əsasında şərtləşdirilmişdir. Əgər muzdun miqdarı müəyyənləşdirilməyibsə, adi muzdun şərtləşdirildiyi hesab olunur. Şərtləşdirilmiş muzd ödənildikdə, podratçının müqavilə üzrə razılaşdırılmış iş həcminə daxil olan bütün işləri ödənilmiş sayılır.

753.2. Əgər müqavilədə nəzərdə tutulan iş həcminin yerinə yetirilməsi üçün muzdun əsasları müqavilə bağlandıqdan sonra sifarişçinin sərəncamları əsasında dəyişmişdirsə, onda dəyərin artması və ya azalması nəzərə alınmaqla yeni qiymət razılaşdırılmalıdır.

753.3. Əgər sifarişçi müqavilədə nəzərdə tutulmayan əlavə işlərin görülməsini tələb edirsə, podratçının həmin işləri yerinə yetirməyə görə ayrıca muzd almaq hüququ vardır. Əgər sifarişçi əlavə işlərin yalnız ayrıca muzd müqabilində yerinə yetirilə biləcəyini qəbul etmirsə, podratçı ayrıca muzd almaq hüququ barəsində işə başlamazdan əvvəl məlumat verməlidir.

753.4. Müqavilədə nəzərdə tutulmayan və sifarişçi tərəfindən yerinə yetirilməsi tələb edilməyən işlər ödənilmir. Tələb edildikdə podratçı belə işlərin nəticələrini aradan qaldırmalıdır. Əgər o bunu ağlabatan müddət ərzində etməzsə, sifarişçi onları podratçının hesabına aradan qaldıra bilər. Bundan başqa, podratçı bütün digər zərər üçün sifarişçi qarşısında məsuliyyət daşıyır.

Maddə 754. Təqribi smetadan kənaraçıxmanın nəticələri

754.1. Əgər podratçı təqribi smetadan əhəmiyyətli dərəcədə kənara çıxarsa, yalnız razılaşdırılmış muzdun verilməsini tələb edə bilər, amma artıq xərci qabaqcadan nəzərdə tutmağın mümkün olmadığı hallar istisna təşkil edir.

754.2. Müqavilə bağlanarkən nəzərdə tutulması mümkün olmayan təqribi smetadan bu cür kənaraçıxma barəsində podratçı ləngimədən sifarişçiyə məlumat verməlidir. Əgər sifarişçi smetadan kənaraçıxma nəticəsində müqaviləyə xitam verərsə, icra olunmuş işi təqribi smeta üzrə ödəməyə borcludur.

Maddə 755. İşi şəxsən yerinə yetirmək vəzifəsi

Podratçı işi şəxsən yerinə yetirməyə yalnız bunun müqavilədən, yaxud konkret hallardan və ya işin xarakterindən irəli gəldiyi hallarda borcludur.

Maddə 756. Sifarişçinin zərərin əvəzini ödəmək vəzifəsi

756.1. Əgər sifarişçi yerinə yetirilmiş işi qəbul etməzsə, podratçı *yerinə yetirilməmiş işin haqqını və* zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Sifarişçi işin yerinə yetirilməsi üçün zəruri hərəkətləri icra etmədiyi halda da zərərin əvəzini ödəməyə borcludur.

756.2. Zərərin əvəzinin ödənilməsi miqdarı bir tərəfdən gecikdirmənin müddətindən və muzdun miqdarından asılı olaraq, digər tərəfdən isə, əgər sifarişçi müddəti pozmasaydı, podratçının öz iş qüvvəsindən başqa şəkildə istifadə etməsi nəticəsində ala biləcəyindən asılı olaraq müəyyənləşdirilir. (12)

Maddə 757. Podratçının hazırladığı daşınar əşyaya girov hüququ

Əgər podratçının hazırladığı və ya təmir *sifarişçiyə məxsus* daşınar əşya hazırlanma və ya təmir məqsədi ilə onun sahibliyindədirsə, podratçı öz tələblərinin təminatı üçün həmin əşyaya girov hüququndan istifadə edə bilər. (12)

Maddə 758. Tikinti aparılan torpaq sahəsinə ipoteka hüququ

Əgər müqavilənin predmeti bina və ya onun ayrı-ayrı hissələridirsə, podratçı müqavilədən irəli gələn tələblərinə əsaslanaraq, binanın ucaldıldığı *sifarişçiyə məxsus* torpaq sahəsinə ipoteka tələb edə bilər. (12)

Maddə 759. Podrat müqaviləsinin ləğvi

759.1. Sifarişçi işlər qurtaranadək istənilən vaxt müqavilədən imtina edə bilər, lakin podratçıya yerinə yetirilmiş işin haqqını verməli və müqavilənin ləğvi ilə vurulan zərərin əvəzini ödəməlidir.

759.2. Əgər sifarişçi tərəfindən müqaviləyə bilavasitə podratçının hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verilərsə, podratçı yalnız yerinə yetirilmiş işin haqqını tələb edə bilər, bu şərtlə ki, sifarişçinin həmin işlərə hansısa marağı olsun. (12)

Maddə 760. Müqaviləyə podratçının təşəbbüsü ilə xitam verilməsi

760.1. Əgər podratçı tərəfindən müqaviləyə bilavasitə sifarişçinin hərəkətləri nəticəsində baş verməyən və ya həmin hərəkətlərlə bağlı olmayan səbəbə görə xitam verilirsə, podratçı işlər qurtaranadək müqaviləyə elə tərzdə xitam verməlidir ki, sifarişçi işləri başqa şəkildə və bərabər və ya daha əlverişli şərtlərlə ala bilsin. Bu zaman podratçı yerinə yetirilmiş işin haqqının ödənilməsini tələb edə bilər, bu şərtlə ki, sifarişçinin əvvəl görülmüş işlərə hansısa marağı olsun.

760.2. Əgər podratçı tərəfindən müqaviləyə bilavasitə sifarişçinin hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verilirsə, podratçı yerinə yetirilmiş işin haqqını və müqavilənin ləğvi ilə vurulan zərərin əvəzinin ödənilməsini tələb edə bilər. (12)

~~***Maddə 761. Podratçının muzdun bir hissəsini tələb etmək hüququ***~~

~~Əgər podratçı bu Məcəllənin 760-cı maddəsinə uyğun olaraq öhdəliyə xitam verərsə, özünün əvvəlki xidmətlərinə uyğun gələn muzd hissəsini tələb edə bilər, bu şərtlə ki, sifarişçinin əvvəl göstərilmiş xidmətlərə hansısa marağı olsun.~~ (12)

Maddə 762. Podratın nəticələrini qüsursuz icra etmək vəzifəsi

762.1. Podratçı sifarişçi üçün podratı elə icra etməlidir ki, podratın nəticəsi qüsurlardan, üçüncü şəxslərin hüquqlarından və ya iddialarından azad olsun.

762.2. Podratın nəticəsi şərtləşdirilmiş keyfiyyətə uyğun gəlirsə, qüsurlardan azad sayılır. Keyfiyyət şərtləşdirilmədikdə podratın nəticəsi müqaviləyə uyğun istifadə və ya adi istifadə üçün yararlı olduğu halda qüsurlardan azad sayılır.

762.3. Podratçının sifariş edilmiş podrat nəticəsini deyil, başqa podrat nəticəsini təqdim etməsi və ya podratı kəmiyyətcə yerinə yetirməməsi, əgər bunu icra əvəzinə qəbul etmək açıq-aşkar mümkün deyildirsə, qüsurlara bərabər tutulur.

762.4. Əgər üçüncü şəxslər sifarişçiyə qarşı heç bir hüquq irəli sürə bilmirlərsə, podratın nəticəsi üçüncü şəxslərin hüquqlarından və iddialarından azad sayılır.

Maddə 763. Qüsurlar olduqda əlavə icra tələbi

763.1. Əgər məmulatın qüsuru vardırsa, sifarişçi əlavə icra tələb edə bilər. Podratçı öz seçimi ilə ya qüsuru aradan qaldıra bilər, ya da yeni məmulat hazırlaya bilər.

763.2. Əlavə icra məqsədi ilə podratçı iş və materiallar üçün əlavə xərcləri, o cümlədən nəqliyyat xərclərini ödəməlidir. Əgər əlavə icra tənasübsüz xərclər tələb edirsə, podratçı həmin icradan imtina edə bilər.

763.3. Əgər podratçı yeni məmulat hazırlayarsa, sifarişçidən qüsurlu məmulatı qaytarmağı tələb edə bilər.

Maddə 764. Məmulatın qüsurunun sifarişçi tərəfindən düzəldilməsi

764.1. Əgər podratçı xərclərin tənasübsüzlüyünə baxmayaraq, əlavə icradan imtina etməzsə, lakin əlavə icra üçün müəyyənləşdirilmiş müddət nəticəsiz qurtararsa, sifarişçi qüsuru özü aradan qaldırıb çəkdiyi xərclərin əvəzini ödəməyi tələb edə bilər.

764.2. Sifarişçi podratçıdan qüsurun aradan qaldırılması üçün zəruri xərclər hesabına avans tələb edə bilər.

Maddə 765. Məmulatın qüsuru nəticəsində podrat müqaviləsindən imtina

Məmulatın qüsuru nəticəsində*, əgər müqavilənin əlavə icrası üçün müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra həmin qüsur tamamilə aradan qaldırılmazsa,* sifarişçi müqavilədən imtina edə bilər. Bu halda podratçı müqavilə ilə bağlı xərclərin əvəzini sifarişçiyə ödəməyə borcludur. (12)

Maddə 766. Məmulatın qüsuru nəticəsində muzdun azaldılması

Sifarişçi müqavilənin əlavə icrası üçün müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra əlavə icranı qəbul etmədikdə və müqavilədən imtina etdiyini bildirmədikdə muzdun miqdarını qüsur məmulatın dəyərini nə qədər azaldırsa, o qədər azalda bilər.

Maddə 767. İşin podratçının materialları ilə icra edilməsi

767.1. Əgər podratçı işi öz materialları ilə icra edirsə, keyfiyyətsiz materiallar üçün məsuliyyət daşıyır.

767.2. Podratçı sifarişçinin materiallarından yanlış istifadə üçün məsuliyyət daşıyır. Podratçı materialların işlədilməsi haqqında sifarişçiyə hesabat verməyə və qalan materialı ona qaytarmağa borcludur.

Maddə 768. Podratçının sifarişçini vaxtında xəbərdar etmək vəzifəsi

768.1. Podratçı aşağıdakı hallarda sifarişçini vaxtında xəbərdar etməyə borcludur:

768.1.1. sifarişçidən alınmış material keyfiyyətsiz və yararsız olduqda;

768.1.2. sifarişçinin göstərişinin icra ediləcəyi təqdirdə məmulatın davamsız və ya yararsız olacağı halda;

768.1.3. podratçıdan asılı olmayan, məmulatın möhkəmliyi və yararlığı üçün təhlükə törədən hər hansı başqa hallar olduqda.

768.2. Əgər podratçının vaxtında etdiyi xəbərdarlığa baxmayaraq, sifarişçi müvafiq müddətdə yararsız və ya keyfiyyətsiz materialı əvəz etməzsə, işin yerinə yetirilməsi qaydaları haqqında verdiyi göstərişi dəyişməzsə və ya hazırlanan məmulatın yararlığına və möhkəmliyinə zərər vura bilən digər halları aradan qaldırmazsa, podratçı müqavilədən imtina edə bilər və bununla vurulan zərərin əvəzini ödəməyi tələb edə bilər.

Maddə 769. Yerinə yetirilmiş iş üçün muzd ödənilməsi

Əgər müqavilədə muzdun hissə-hissə ödənilməsi nəzərdə tutulmursa, sifarişçi podratçının muzdunu iş yerinə yetirildikdən sonra ödəməlidir.

Maddə 770. Yerinə yetirilmiş işin qəbul edilməsi

Əgər müqaviləyə görə və ya işin xarakterinə əsasən iş qəbul edilməlidirsə, sifarişçi yerinə yetirilmiş işi qəbul etməyə borcludur. İşi qəbul etdikdə sifarişçi muzd ödəməlidir. Əgər sifarişçi işi podratçının müəyyənləşdirdiyi müddətdə qəbul etmirsə, iş qəbul edilmiş sayılır.

Maddə 771. Sifarişçinin əmlakının məhv olması üçün podratçının məsuliyyəti

Podratçı sifarişçinin əmlakı barəsində diqqətsizlik üzündən həmin əmlakın məhv olması və ya zədələnməsi üçün məsuliyyət daşıyır.

Maddə 772. Podratçının riski

772.1. Görülmüş işin təsadüfən məhv olması və ya zədələnməsi riski icranın sifarişçiyə verildiyi vaxtadək podratçının üzərinə düşür. İcranın sifarişçiyə verilməsi ilə bir vaxtda

təsadüfən məhvolma və ya zədələnmə riski də ona keçir. Sifarişçinin icranı qəbul etməyi gecikdirməsi də icranın verilməsinə bərabər tutulur.

772.2. Materialın təsadüfən məhv olması və ya zədələnməsi riski materialı vermiş tərəfin üzərinə düşür.

Maddə 773. Qüsurlu məmulatın qəbul edilməsinin nəticələri

Əgər sifarişçi məmulatın qüsurlu olduğunu bilə-bilə pretenziya irəli sürmədən onu qəbul edirsə, bu qüsurlarla bağlı tələb hüququ əmələ gəlmir.

Maddə 774. Qarantiya müddəti

Əgər podratçı məmulata qarantiya müddəti üzrə öhdəlik götürmüşdürsə, qarantiyanın qüvvədə olduğu müddətdə aşkar edilən qüsur müvafiq hüquqlar doğurur.

Maddə 775. Podratçının əşyanın qüsurunu bilərəkdən gizlətməsinin nəticələri

Əgər podratçı qüsuru bilərəkdən gizlədərsə, sifarişçinin məmulatın qüsuru ilə bağlı hüquqlarını istisna edən və ya məhdudlaşdıran razılaşmaya istinad edə bilməz.

Maddə 776. Podrat müqaviləsi üzrə iddia müddəti

776.1. Sifarişçi icranın qüsuru barəsində tələbi işin qəbul edildiyi gündən bir il ərzində, binaya aid tələbi isə beş il ərzində irəli sürə bilər.

776.2. Əgər müqaviləyə əsasən iş hissə-hissə qəbul edilmişdirsə, qüsur barəsində tələb müddətinin axımı işin tam qəbul olunduğu gündən başlanır.

40-cı fəsil. Tapşırıq

Maddə 777. Tapşırıq müqaviləsi

777.1. Tapşırıq müqaviləsinə görə tapşırığı həyata keçirməyi öhdəsinə götürən şəxs (vəkalət alan) başqa şəxsin (vəkalət verənin) ona tapşırdığı əqdləri, işləri və ya digər xidmətləri konkret nəticə əldə olunmasına təminat vermədən icra etməyi öhdəsinə götürür.

777.2. Tapşırıq müqaviləsi həm şifahi, həm də yazılı formada bağlana bilər. Müqavilə vəkalət alanın tapşırığı qəbul etməsindən sonra qüvvəyə minir.

~~777.3. Əgər tapşırığı alan özünü hüquqi hərəkətlərin yerinə yetirilməsi üzrə öhdəliklərlə bağlamaq niyyətində deyildirsə və yalnız ictimai, ənənəvi və ya dostluq mülahizələri ilə hərəkət edirsə, bu cür hərəkətlər tapşırıq müqaviləsinin doğurduğu hüquqi nəticələri doğurmur.~~

777.4. Bu Məcəlləyə uyğun olaraq müqavilələrin hər hansı növünə aid olan müqavilələrə, o cümlədən podrat müqaviləsinə tapşırıq müqaviləsi haqqında qanunvericilik yalnız subsidiar şəkildə (əlavə vasitə kimi) tətbiq edilir. (12)

Maddə 778. Tapşırığın məzmunu

778.1. Vəkalət alan tapşırığı vicdanla icra etməli, bu zaman vəkalət verənin haqlı mənafelərini müdafiə etməlidir.

778.2. Tapşırığın məzmunu birbaşa göstərilmədikdə, bağlanan əqdlərin və ya göstərilən xidmətlərin xarakteri ilə müəyyənləşdirilir. Məsələn, tapşırıqda onun icrasına aid hüquqi hərəkətlərin yerinə yetirilməsi səlahiyyəti göstərilməlidir. Üçüncü şəxslər üçün nümayəndəliyə aid müddəalar qüvvədə olur.

778.3. Əgər vəkalət verən tapşırılmış əqdin icrası üçün hansısa göstərişlər vermişdirsə, vəkalət alan bu göstərişlərdən yalnız o halda kənara çıxa bilər ki, işin hallarına görə buna müvafiq icazə ala bilməsin və bundan əlavə, vəkalət verənin işin vəziyyətini bilsəydi, tapşırıqdan bu cür kənaraçıxmaya icazə verə biləcəyini ehtimal etmək üçün əsaslar olsun. Əgər bu cür əsaslar olmadan vəkalət alan vəkalət verənin ziyanına onun göstərişlərindən kənara çıxmışdırsa, *o, vurulmuş zərərin əvəzini ödəməlidir*. (12)

Maddə 779. Vəkalət alanın məsuliyyəti

779.1. Vəkalət alan tapşırığı qəsdən və ya ehtiyatsızlıq üzündən kifayət qədər vicdanla icra etməməsi nəticəsində vəkalət verənə dəyən zərər üçün məsuliyyət daşıyır. *Əvəzsiz tapşırıq müqaviləsi üzrə vəkalət alan, tapşırığı qəsdən və ya kobud ehtiyatsızlıq üzündən kifayət qədər vicdanla icra etməməsi nəticəsində vəkalət verənə dəyən zərər üçün məsuliyyət daşıyır.*

779.2. Vəkalət alanın məsuliyyət daşıdığı vicdanlılıq dərəcəsi aşağıdakılar nəzərə alınmaqla tapşırığın növü ilə müəyyənləşdirilir:

779.2.1. peşə fəaliyyəti ilə bağlı risk və tapşırığın həyata keçirilməsi üçün zəruri olan xüsusi biliklər;

779.2.2. vəkalət verənin bildiyi və ya bilməli olduğu, vəkalət alanın qabiliyyəti və keyfiyyətləri. (12)

Maddə 780. Vəkalət alanın şəxsi öhdəlikləri. Üçüncü şəxslər üçün məsuliyyət

780.1. Vəkalət alan tapşırığı aşağıdakı hallar istisna olmaqla şəxsən özü icra etməlidir:

780.1.1. vəkalət verən onu icranı üçüncü şəxslərə verməyə vəkil etdikdə;

780.1.2. tapşırığın icrasının üçüncü şəxslərə verilməsi şəraitdən irəli gəldikdə;

780.1.3. icranın bu cür verilməsi qəbul olunmuş işgüzar adətlərə uyğun gəldikdə.

780.2. Əgər vəkalət alan əqdin icrasını və ya xidmətlərin göstərilməsini buna ixtiyarı çatmadan üçüncü şəxsə vermişdirsə, həmin şəxsin hərəkətləri üçün o öz hərəkətləri kimi məsuliyyət daşıyır.

780.3. Əgər o, əqdin icrasını və ya xidmətlərin göstərilməsini buna ixtiyarı çataraq vermişdirsə, yalnız üçüncü şəxsin seçilməsi və təlimatlandırılması zamanı lazımi vicdanlılıq üçün məsuliyyət daşıyır, bu şərtlə ki, müqavilədə ayrı şərt qoyulmasın və işin hallarından ayrı şərt irəli gəlməsin.

780.4. Hər bir halda vəkalət verən vəkalət alanın üçüncü şəxslərə qarşı malik olduğu tələbləri bilavasitə həmin üçüncü şəxslərə qarşı irəli sürə bilər.

Maddə 781. Vəkalət verənə informasiya və hesabat vermək vəzifəsi

Vəkalət alan istənilən vaxt vəkalət verənin tələbi ilə ona tapşırığın icrası gedişi haqqında informasiya, habelə tapşırığın icrasından sonra hesabat verməlidir.

Maddə 782. Tapşırığın icrası nəticələrini vermək vəzifəsi

782.1. Vəkalət alan tapşırığın icrası nəticəsində əldə olunanların hamısını vəkalət verənə verməyə borcludur.

782.2. Vəkalət alan verilməsini gecikdirdiyi pulun üstünə faizlər hesablamağa borcludur.

782.3. Əgər vəkalət alan vəkalət verənin hesabına öz adından üçüncü şəxslərə qarşı tələb hüquqları əldə etmişdirsə, bu hüquqlar vəkalət verənə öz növbəsində onun tapşırıq müqaviləsi üzrə hüquq münasibətlərindən irəli gələn bütün öhdəlikləri icra etməsindən sonra keçir.

782.4. Vəkalət alanın ödəmə qabiliyyətinin olmadığı halda vəkalət verən saxlama hüququnu vəkalət alan üçün saxlamaqla, ondan öz adından, lakin vəkalət verənin hesabına əldə etdiyi daşınar əşyaları verməyi tələb edə bilər.

Maddə 783. Vəkalət alanın xərclərinin əvəzinin ödənilməsi və muzdu

783.1. Vəkalət verən vəkalət alanın tapşırığı vicdanla icra edərkən çəkdiyi xərclərin əvəzini, o cümlədən faizləri ödəməli və onu bu məqsədlə götürdüyü öhdəliklərdən azad etməlidir.

783.2. Vəkalət verən vəkalət alana yalnız o halda muzd ödəməlidir ki, bu, şərtləşdirilmiş olsun və ya belə qəbul edilmiş olsun, xüsusən o hallarda ki, şəraitə görə vəkalət alan müstəqil peşə fəaliyyəti şəklində bu cür əqdlər bağlayır və ya xidmətlər göstərir.

783.3. Əgər bu Məcəllənin 783.2-ci maddəsində nəzərdə tutulan hallarda muzdun miqdarı müəyyənləşdirilməyibsə, tarif olduqda bu tarifə uyğun muzd, tarif olmadıqda isə vəkalət alanın olduğu yerdə qəbul edilmiş muzd şərtləşdirilmiş muzd sayılır.

Maddə 784. Vəkalət verənin məsuliyyəti

Vəkalət verən tapşırığın icrası gedişində vəkalət alana dəyən zərər üçün, əgər zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, vəkalət alan qarşısında məsuliyyət daşıyır.

Maddə 785. Tapşırıq müqaviləsi üzrə bir neçə şəxsin məsuliyyəti

785.1. Əgər tapşırığı bir neçə şəxs birlikdə vermişsə, vəkalət alan qarşısında onlar birgə borclular kimi məsuliyyət daşıyırlar.

785.2. Əgər tapşırığı icraya bir neçə şəxs birlikdə qəbul etmişsə, onlar birgə borclular kimi məsuliyyət daşıyır və vəkalət verəni yalnız birgə hərəkətlərlə mükəlləfiyyətli edə bilərlər, bu şərtlə ki, onlar tapşırığın icrasını üçüncü şəxslərə verməyə vəkil edilməsinlər.

Maddə 786. Tapşırıq müqaviləsinin qüvvəsinə xitam verilməsi

786.1. Tapşırıq müqaviləsinin hər bir iştirakçısı istənilən vaxt müqaviləni ləğv edə bilər. *Əgər müqavilə əvəzlidirsə, ləğvetməyə dair bildirişi verən tərəf digər tərəfin düşdüyü zərərin əvəzini ona ödəməlidir, bu şərtlə ki, müqavilənin ləğvinə səbəbin bilavasitə digər tərəfin hərəkəti nəticəsində baş verdiyini və ya həmin hərəkətlərlə bağlı olduğunu sübut etməsin.*

786.2. Əgər müqavilədə ayrı şərt qoyulmayıbsa və ya tapşırığın xarakterindən ayrı şərt irəli gəlmirsə, vəkalət verən və ya vəkalət alan öldükdə, fəaliyyət qabiliyyətini itirdikdə və ya ödəniş qabiliyyəti olmayan elan edildikdə tapşırıq müqaviləsinə xitam verilir.

786.3. Əgər tapşırıq müqaviləsinin qüvvəsinə bu Məcəllənin 786.2-ci maddəsinə əsasən xitam verilməsi nəticəsində və ya vəkalət verənin təqsiri olmadan müqavilənin vəkalət alan tərəfindən ləğv edilməsi nəticəsində vəkalət verənin mənafelərinin müdafiəsi təhlükəyə məruz qalarsa, vəkalət alan, onun vərəsəsi və ya onun nümayəndəsi vəkalət verənin, onun vərəsəsinin və ya onun nümayəndəsinin tapşırıq müqaviləsi üzrə hüquq münasibətlərini davam etdirməyə qadir olmasınadək bu münasibətlərin davam etməsi qayğısına qalmalıdırlar.

786.4. Tapşırıq müqaviləsinə xitam verilməsi vəkalət alana məlum olanadək onun həyata keçirdiyi əqdlərdən vəkalət verən və ya onun vərəsəsi üçün tapşırıq müqaviləsinə xitam verilmədiyi halda əmələ gələ bilən öhdəliklər əmələ gəlir.

786.5. Əgər vəkalət alan tərəfindən müqaviləyə bilavasitə vəkalət verənin hərəkəti nəticəsində baş verən və ya həmin hərəkətlə bağlı olan səbəbə görə xitam verilirsə, vəkalət alan vəkalət verəndən görülmüş işlərin haqqını tələb edə bilər.

786.6. Əgər vəkalət alan tərəfindən müqavilə bilavasitə vəkalət verənin hərəkəti nəticəsində baş verməyən və ya həmin hərəkətlə bağlı olmayan səbəbə görə ləğv edilirsə, vəkalət alan görülmüş işlərin haqqının ödənilməsini yalnız o halda tələb edə bilər ki, vəkalət verənin görülmüş işlərdə hansısa marağı olsun. (12)

41-ci fəsil. Brokerlik

Maddə 787. Broker müqaviləsi anlayışı

787.1. Broker müqaviləsinə əsasən brokerə muzd müqabilində sifarişçiyə vasitəçilik xidmətləri göstərmək tapşırığı verilir.

787.2. Əgər bu Məcəllənin bu fəslinin aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, broker müqaviləsinə tapşırıq müqaviləsi haqqında qaydalar tətbiq edilir.

Maddə 788. Brokerin muzd almaq hüququnun əmələ gəlməsi. Xərclərin əvəzinin ödənilməsi

788.1. Brokerin öz vasitəçilik xidmətləri və ya köməyi nəticəsində müqavilə həyata keçirildikdən sonra muzd almaq hüququ vardır. Əgər müqavilə təxirəsalıcı şərtlə bağlanırsa, muzd yalnız həmin şərt baş verdikdə tələb edilə bilər.

788.2. Brokerin xərclərinin əvəzi yalnız ayrıca şərtləşdirildiyi halda ödənilir. Bu, müqavilənin bağlanmadığı hallara da tətbiq edilir.

788.3. Əgər broker başqa iştirakçıya broker müqaviləsinə zidd üsulla xidmətlər göstərmişsə və ya vicdanlılıq prinsipinə zidd olaraq digər tərəfdən də muzd almağı şərtləşdirmişdirsə, onun muzd almaq və xərclərinin əvəzinin ödənilməsi hüququ istisna edilir.

42-ci fəsil. Ticarət nümayəndəsi (agent)

Maddə 789. Ticarət nümayəndəsi (agent) haqqında müqavilə

789.1. Ticarət nümayəndəsi haqqında müqaviləyə görə, sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxsə (ticarət agentinə) alğı-satqı müqavilələrinin, habelə xidmətlər yaradılmasına dair müqavilələrin (ticarət əqdlərinin) bağlanmasında hər hansı istehsalçının, sənayeçinin və ya tacirin (tapşıranın) adından və hesabına vasitəçilik xidmətləri göstərmək və (və ya) bunları bağlamaq barəsində uzunmüddətli tapşırıq verilir.

789.2. Həm fiziki, həm də hüquqi şəxslər ticarət agenti ola bilərlər. Aşağıdakılar ticarət agentləri deyildirlər:

789.2.1. vasitəçilik fəaliyyəti və ya əqdlərin bağlanması ilə təsadüfdən-təsadüfə məşğul olan şəxslər;

789.2.2. ticarət və xammal birjalarında işləyən şəxslər;

789.2.3. tapşıranla əmək müqaviləsi bağlamış şəxslər.

789.3. Ticarət nümayəndəsi haqqında müqavilə yazılı formada bağlanır.

789.4. Müqavilə ilə tənzimlənməyən öhdəliklərə bu Məcəllə və əlavə olaraq, ticarət nümayəndəsinin olduğu yerdə ticarət sahəsindəki işgüzar adətlər tətbiq edilir.

Maddə 790. Ticarət agentinin vəzifələri

790.1. Ticarət agentinin ümumi vəzifələri bu Məcəllənin 778-ci maddəsindən irəli gəlir.

790.2. Ticarət agentinin aşağıdakı vəzifələri vardır:

790.2.1. vasitəçilik qaydasında tapşıran üçün əqdləri bağlamağa çalışmaq və ya əqdləri bağlamaq, habelə tapşıranın müştərilərinin sayının optimal surətdə artmasına çalışmaq;

790.2.2. bütün sifarişlər və (və ya) bağlanmış müqavilələr barəsində tapşırana bildiriş vermək;

790.2.3. özündə olan hər bir zəruri informasiyanı tapşırana bildirmək;

790.2.4. tapşıranın əsaslı sərəncamlarını yerinə yetirmək;

790.2.5. tapşıranın məhsullarına və xidmətlərinə oxşar məhsulları və xidmətləri öz hesabına və ya başqa tapşıranın hesabına təklif etmək üçün tapşıranın qabaqcadan razılığını almaq.

790.3. Müqavilədə ticarət agentinin öhdəsinə başqa vəzifələr, o cümlədən aşağıdakı vəzifələr də qoyula bilər:

790.3.1. müəyyən mövzular üzrə müntəzəm hesabat vermək;

790.3.2. sifarişlər və ya müqavilələr üzrə minimum dövriyyəyə (kvotaya) nail olmaq;

790.3.3. zərurət olduqda və ayrıca muzd müqabilində tapşıran üçün malları saxlamaq və göndərmək, habelə onun borclularından məbləğləri tutmaq.

790.4. Ticarət agenti tapşıran barəsində müqavilələrin müştərilər tərəfindən icrasına yalnız aşağıdakı hallarda qarantiya verməlidir:

790.4.1. bu, yazılı formada qabaqcadan ifadə edildikdə;

790.4.2. qarantiya dəqiq müəyyənləşdirilmiş əqdə və ya müştəriləri qabaqcadan müəyyənləşdirilməklə bir neçə əqdə şamil edildikdə;

790.4.3. öz öhdəsinə qarantiya götürmək barəsində razılaşmada ayrıca muzd şərtləşdirildikdə və ticarət nümayəndəsinə bu muzdun ödənilməsi müddəti müştəri ilə həmin müqavilənin bağlanmasından dərhal sonra çatdıqda. Buna zidd olanlar barəsində razılaşmaların qüvvəsi yoxdur.

Maddə 791. Tapşıranın vəzifələri

791.1. Ticarət agenti barəsində tapşıran vicdanlılıq prinsipinə uyğun hərəkət etməlidir. Tapşıran:

791.1.1. öz məhsulları və xidmətləri, işlərin aparılması qaydaları və qiymətləri barəsində ticarət agentinə lazımi informasiya verməlidir;

791.1.2. ticarət agentini ticarət nümayəndəsi haqqında müqavilənin yerinə yetirilməsi üçün zəruri informasiya ilə təmin etməli, o cümlədən bunu ehtimal etməyin mümkün olduğu hallarda ticarət agentini dərhal xəbərdar etməlidir ki, ticarət əqdlərinin həcmi ticarət nümayəndəsinin adi halda ümid bəsləyə biləcəyi həcmdən xeyli az olacaqdır;

791.1.3. ticarət nümayəndəsinin vasitəçilik qaydasında təklif etdiyi ticarət əqdinin qəbul olunması, rədd edilməsi və ya icra olunmaması barədə ticarət agentinə ağlabatan müddət ərzində bildiriş verməlidir;

791.1.4. ticarət agentinə muzd ödəməlidir.

791.2. Müqavilədə tapşıranın digər vəzifələri, o cümlədən ticarət agentinin müəyyən ərazi və ya müəyyən müştərilər üçün qüvvədə olan müstəsna hüququna (inhisar hüququna) hörmət bəsləmək vəzifəsi də nəzərdə tutula bilər.

Maddə 792. Ticarət agentinin muzdu

792.1. Ticarət agentinin sabit aylıq muzd və (və ya) əqdlərin dövriyyəsindən və ya miqdarından asılı muzd (komisyon muzdu) almaq hüququ vardır.

792.2. Muzd müqaviləyə əsasən hesablanır. Əgər o, müqavilə ilə tənzimlənmirsə, ticarət agentinin öz təqdim etdiyi mallar və ya bunlara oxşar mallar üçün işgüzar adətlərə uyğun qəbul edilmiş muzda bərabər muzd almaq hüququ vardır. İşgüzar adətlər olmadıqda müqavilənin istənilən iştirakçısı bütün hallar nəzərə alınmaqla ağlabatan muzdun müəyyənləşdirilməsi üçün məhkəməyə müraciət edə bilər.

792.3. Muzdun tamamilə və ya qismən komisyon prinsiplərinə əsaslandığı hallara bu Məcəllənin 793-cü maddəsi tətbiq edilir.

Maddə 793. Ticarət agentinin komisyon muzdu

793.1. Ticarət agentinin aşağıdakılar üçün komisyon muzdu almaq hüququ vardır:

793.1.1. ticarət nümayəndəsi haqqında müqavilənin qüvvədə olduğu müddət ərzində ya ticarət agentinin fəaliyyəti nəticəsində bağlanmış, ya da oxşar əqdlərin həyata keçirilməsi üçün ticarət agentinin əvvəllər müştəri kimi cəlb etdiyi şəxslər ilə bağlanmış bütün ticarət əqdləri;

793.1.2. əgər ticarət agentinin müəyyən coğrafi ərazidə və ya şəxslərin müəyyən qrupuna inhisar hüququ varsa, həmin ərazidə və ya həmin qrupdan müştərilər ilə bağlanan bütün əqdlər;

793.1.3. ticarət nümayəndəsi haqqında müqavilənin qüvvədə olma müddəti bitəndən sonra bağlanmış ticarət əqdləri—bu şərtlə ki, əqd ticarət agentinin müqavilənin qüvvədə olduğu dövrdə və ya bundan sonra ağlabatan dövrdə fəaliyyəti nəticəsində yaransın və ya müştərinin sifarişini agent və ya tapşıran ticarət nümayəndəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə xitam verilənədək alsın.

793.2. Əgər ticarət əqdi bir neçə ticarət agentinin fəaliyyəti nəticəsində həyata keçirilərsə, onlar komisyon muzdunu həmin əqdin bağlanmasına onlardan hər birinin göstərdiyi təsirə uyğun nisbətdə bölüşdürürlər.

793.3. Ticarət agentinin komisyon muzduna iddiası tapşıranın üçüncü şəxslə müqavilə üzrə öz öhdəliklərini icra etməsindən və ya icra etməli olmasından sonra əmələ gəlir. Komisyon muzduna iddia tapşıran öz öhdəliklərini icra etdikdən sonra üçüncü şəxsin öz müqavilə öhdəliklərini yerinə yetirdiyi və ya yerinə yetirməli olduğu andan gec olmayaraq əmələ gəlir.

793.4. Əgər tapşıranla üçüncü şəxs arasında bağlanmış müqavilənin yerinə yetirilməyəcəyinə əminlik olarsa və onun yerinə yetirilməməsi tapşıranın cavabdeh olduğu hallardan irəli gəlməzsə, komisyon muzduna iddia istisna edilir. Əgər ticarət agenti həmin əqd əsasında komisyon muzdunu almışdırsa, bu muzdu qaytarmağa borcludur.

793.5. Təqvim ilinin hər rübündən sonrakı ayda tapşıran ticarət agentinə müvafiq rüb üçün ona çatası komisyon muzdunun hesabını verir. Bu hesabda komisyon muzdunun miqdarını və ödənilməsi müddətini yoxlamaq üçün zəruri məlumat göstərir.

793.6. Hər rüb üçün komisyon muzdu rübün qurtarmasından ən geci bir ay keçənədək ödənilməlidir.

793.7. Bu Məcəllənin 793.5 və 793.6-cı maddələrinə uyğun komisyon muzdlarının hesabının verilməsi və ödənilməsi müddəti tərəflərin razılaşmasına əsasən qısaldıla və ya uzadıla bilər, özü də bu müddət ən çoxu altı aylığına uzadıla bilər.

793.8. Ticarət agenti komisyon muzdunun hesablanması üçün zəruri olan mühasibat uçotu sənədləri də daxil olmaqla tapşıranın bütün sənədlərini gözdən keçirmək hüququna malikdir.

Maddə 794. Ticarət nümayəndəsi haqqında müqavilənin qüvvədə olma müddəti və ləğvi

794.1. Ticarət nümayəndəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə, əgər müqavilənin qüvvədə olması konkret müddətlə məhdudlaşdırılmayıbsa, müqavilədə müəyyənləşdirilmiş müddətdə xitam verilir. Lakin əgər tapşıranın dinməz və ya birbaşa razılığı ilə ticarət agenti öz fəaliyyətini davam etdirirsə və ya əgər ilkin müqavilədən sonra yeni müqavilə bağlanırsa, hesab edilir ki, müqavilə lap əvvəldən qeyri-müəyyən müddətə bağlanmışdır.

794.2. Qeyri-müəyyən müddətə bağlanmış müqaviləni istənilən iştirakçı ləğvetmə haqqında xəbərdarlıq edilməsinin ağlabatan müddətini gözləməklə ləğv edə bilər. Ağlabatan müddət birinci il ərzində azı 1 ay, ikinci il ərzində azı 2 ay və əgər müqavilənin qüvvəsi iki ildən çox davam edirsə, 3 ay təşkil edir. Əgər müddətli müqavilə bu Məcəllənin 794.1-ci maddəsinə uyğun olaraq müddətsiz müqaviləyə çevrilirsə, ləğvetmə haqqında xəbərdarlıq müddəti hesablanarkən müqavilənin bütün qüvvədə olma müddəti əsas götürülür.

794.3. Müqavilənin iştirakçıları ləğvetmə haqqında xəbərdarlıq edilməsinin daha uzun müddətini şərtləşdirə bilərlər. Ləğvetmə haqqında xəbərdarlıq edilməsinin bu müddəti həm tapşıran, həm də ticarət agenti üçün eyni olmalıdır.

Maddə 795. Ticarət nümayəndəsi haqqında müqavilənin qüvvəsinə fövqəladə hallar nəticəsində xitam verilməsi

795.1. Ticarət nümayəndəsi haqqında müqavilənin hər bir iştirakçısı aşağıdakı hallarda xəbərdarlıq müddətini gözləmədən istənilən vaxt müqaviləni ləğv edə bilər:

795.1.1. öz vəzifələrini əhəmiyyətli dərəcədə pozan digər iştirakçıya bu barədə yazılı xəbərdarlıq edildikdə, o, müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra da öz vəzifələrini pozmaqda davam etdikdə;

795.1.2. müqavilə iştirakçılarından heç birinin cavabdeh olmadığı digər fövqəladə hallar baş verdikdə və bu hallar ləğvetməyə dair bildiriş vermiş iştirakçıdan müqaviləni qüvvədə saxlamağı tələb etməyi artıq ağlabatan etmədikdə.

795.2. Ticarət nümayəndəsi haqqında müqavilənin hər hansı iştirakçısının digər iştirakçının öz vəzifələrini pozması nəticəsində dəyən zərərin əvəzinin ödənilməsinə iddiaları qüvvədə qalır.

Maddə 796. Müştərilər üçün kompensasiya

796.1. Müqavilənin qüvvəsinə xitam verildikdən sonra ticarət agenti özünün cəlb etdiyi müştərilər üçün kompensasiya almaq hüququna malikdir, bu şərtlə ki:

796.1.1. o, tapşıran üçün yeni müştərilər cəlb etsin və ya mövcud müştərilərlə əqdlərin həcmini xeyli artırsın;

796.1.2. tapşıran bu Məcəllənin 796.1.1-ci maddəsindən onun üçün irəli gələn faydalardan istifadəni davam etdirə bilsin;

796.1.3. müqaviləyə xitam verilməsi nəticəsində komisyon muzdu ticarət agentinin əlindən çıxsın.

796.2. Kompensasiyanın maksimum miqdarı illik muzdun miqdarı ilə məhdudlaşdırılır. Ticarət agentinin illik muzdu ticarət nümayəndəsi haqqında müqavilənin qüvvəsinə xitam verilməzdən əvvəlki son illər (maksimum 5 il) üçün orta muzd şəklində hesablanır.

796.3. Aşağıdakı hallarda kompensasiya ödənilmir:

796.3.1. müqavilə üzrə hüquq münasibətlərinə ticarət agentinin təqsiri üzündən xitam verildikdə;

796.3.2. ticarət agenti müqavilə üzrə hüquq münasibətlərinə şəxsi əsaslar üzrə xitam verdikdə;

796.3.3. tapşıranın razılığı ilə ticarət agenti müqavilədən irəli gələn hüquq və vəzifələrini hər hansı üçüncü şəxsə verdikdə.

Maddə 797. Zərərin əvəzinin ödənilməsi

Müqavilə üzrə hüquq münasibətlərinə xitam verildikdə ticarət agenti, bu Məcəllənin 796-cı maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, tapşıranın müqavilə üzrə hüquq münasibətlərini hüquqa zidd və ya yanlış dəyişdirməsi və ya bu münasibətlərə xitam verməsi nəticəsində ona dəymiş zərərin əvəzinin ödənilməsini də tələb edə bilər.

Maddə 798. Ticarət agentinin ölümünün nəticələri

Ticarət agentinin öldüyü halda onun vərəsələri müştərilər üçün kompensasiya alınmasına dair tələb irəli sürə bilərlər.

Maddə 799. Ticarət nümayəndəsi haqqında müqavilənin qüvvəsinə xitam verildikdən sonra rəqabətin istisna edilməsi

Ticarət agenti müqavilənin qüvvəsinə xitam verildikdən sonra tapşıranla rəqabət aparmayacağı barədə iltizam verə bilər. Rəqabətin bu cür istisna edilməsi yalnız o halda etibarlıdır ki, əvvəla, ticarət nümayəndəsinin nümayəndəlik hüququna malik olduğu əraziyə, şəxslərə və məhsul növünə şamil edilsin, ikincisi, ticarət nümayəndəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə xitam verildiyi andan ən çoxu iki illik müddətlə məhdudlaşdırılsın.

43-cü fəsil. Kommersiya Konsessiyası (12)

Maddə 800. Konsessiya müqaviləsi

800.1. Konsessiya müqaviləsi istehsalçı və ya tacir (tapşıran) ilə sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxs (konsessioner) arasında elə bir ümumi razılaşmadır (birtipli müqavilədir) ki, onun əsasında konsessioner aşağıdakıları öhdəsinə götürür:

800.1.1. tapşırandan müəyyən malları (kontrakt mallarını) vaxtaşırı satın almaq;

800.1.2. bu malları öz adından və öz hesabına başqasına satmaq;

800.1.3. bu zaman kontrakt mallarını müəyyən ərazilərdə və (və ya) müəyyən müştərilərə (müqavilə ərazisi və müqavilə müştəriləri) satmaq. Onların barəsində tapşıran konsessionerə müstəsna satış hüququ (inhisar hüququ) verir, konsessioner isə tapşıranın mallarının onun nəzarəti altında satışına qarantiya verməlidir.

800.2. Əgər müqavilədə ayrı şərt qoyulmayıbsa, tapşıran barəsində konsessionerin kontrakt mallarını müqavilə ərazisinin hüdudlarından kənarda və ya müqavilə müştərilərindən savayı, başqa müştərilərə satmaq hüququ yoxdur.

800.3. Başqasına satmaq üçün sadə satınalma konsessiya müqaviləsinə əsas verə bilməz. Müntəzəm ticarət münasibətləri də konsessiya haqqında müqaviləyə əsas verə bilməz.

Maddə 801. Ticarət nümayəndəsi haqqında müddəaların konsessiya müqaviləsinə tətbiqi

801.1. Ayrı razılaşma olmadıqda konsessioner ilə tapşıran arasında hüquq münasibətlərinə müvafiq olaraq bu Məcəllənin 789.3, 790.2.3-790.2.5 və 791.1.1-791.1.3-cü maddələri tətbiq edilir.

801.2. Aşağıdakı şərtlər gözlənilməklə, bu Məcəllənin 794-798-ci maddələri konsessiya müqaviləsi üzrə hüquq münasibətlərinə də tətbiq edilir:

801.2.1. bu Məcəllənin 794.2-ci maddəsinə uyğun olaraq ləğvetmə haqqında xəbərdarlıq edilməsinin qarşılıqlı müddətləri müvafiq olaraq üç ay uzadılır;

801.2.2. bu Məcəllənin 796.1 və 796.2-ci maddələrinə uyğun kompensasiyanın hesablanması üçün konsessionerin ticarət nümayəndəsi vəzifələrini icra etdiyi təqdirdə ona çata bilməsi ehtimal edilən haqq əsas götürülür.

801.3. Qalan hallarda kompensasiya yalnız aşağıdakı şərtlər gözlənilməklə ödənilir:

801.3.1. əgər müqavilənin qüvvəsinə xitam verildiyi məqamda tapşıran konsessionerin çoxaltdığı və ya genişləndirdiyi müştərilər dairəsi barəsində məlumat almışdırsa və həmin müştərilərə konsessionerin göndərdiyi həcmdə mal göndərə bilərsə;

801.3.2. əgər artıq konsessioner müştərilərdən rəqabətli malların satışı üçün özü istifadə etmirsə.

Maddə 802. Konsessiya haqqında birtipli müqavilə ilə alğı-satqı müqavilələri arasında qarşılıqlı əlaqə

802.1. Tapşıran ilə konsessioner arasında münasibətlər ümumi (birtipli) müqavilənin predmetidir. Birtipli müqavilədə bu Məcəllənin 800.1-ci maddəsindən irəli gələn müddəalardan əlavə, nəzərdə tutula bilər ki, konsessioner:

802.1.1. müəyyən ticarət-servis təşkilatına malik olmalıdır;

802.1.2. müvafiq işçi heyətinə malik olmalıdır;

802.1.3. satılmış malların təmiri işlərini yerinə yetirməlidir;

802.1.4. işçilərə təlim verilməsində və reklam tədbirlərində iştirak etməlidir;

802.1.5. həmişə anbarda müəyyən miqdarda mal saxlamalıdır;

802.1.6. hər il tapşırandan müəyyən həcmdə və ya müəyyən miqdarda mal (kvota) qəbul etməlidir.

802.2. Konsessionerə malların satılması barədə ayrıca müqavilələr birtipli müqavilədən asılı deyildir. Lakin birtipli müqavilədə bütün alğı-satqı müqavilələri üçün qüvvədə olan ümumi şərtlər, o cümlədən aşağıdakılar göstərilə bilər:

802.2.1. tapşıranın ümumi prays-vərəqindən konsessionerə verilən güzəşt;

802.2.2. ödənişlərin müddətləri;

802.2.3. tapşıranın qarantiyası barədə şərtlər.

802.3. Tapşıran birtipli müqavilə üzrə aşağıdakı hüquqları birtərəfli qaydada əldə edə bilməz:

802.3.1. konsessioner üçün satış qiymətləri təyin etmək;

802.3.2. mümkün şərtləşdirilmiş kvotaları dəyişdirmək.

Maddə 803. Konsessionerin qəti qərar qəbul etmək hüququ

803.1. Konsessionerin öz ticarət fəaliyyətini sərbəst təşkil etmək, o cümlədən təkrar satış qiymətlərini sərbəst təyin etmək hüququ vardır.

803.2. Konsessionerin ticarətin təşkilini, satış və ya servis xidməti metodlarını dəyişdirməsi tapşıranın mallarının optimal satışını təhlükəyə məruz qoyursa, bu Məcəllənin 795-ci maddəsinə uyğun olaraq, lakin 803.1-ci maddəsi nəzərə alınmaqla, müqavilənin tapşıran tərəfindən dərhal ləğv edilməsinə əsas verə bilər.

Maddə 804. Konsessionerin müştərilərinin müdafiəsi

804.1. Birtipli müqavilənin qüvvədə olduğu müddətdə tapşıranın eyni və ya oxşar malları satmaq məqsədi ilə birbaşa və ya üçüncü şəxslər vasitəsi ilə konsessionerin müştərilərinə müraciət etməsi qadağandır.

804.2. Müqavilənin iştirakçıları razılığa gələ bilərlər ki, tapşıranın malları bilavasitə konsessionerin müştərilərinə satmasına istisna qaydasında icazə verilir. Bu halda tapşıran konsessionerə bu Məcəllənin 793-cü maddəsinə uyğun komisyon muzdu ödəməyə borcludur.

Maddə 805. Tapşıranın mal göndərmək vəzifəsi

805.1. Tapşıran birtipli müqaviləyə uyğun olaraq konsessionerin sifariş etdiyi malları ona göndərməyə borcludur.

805.2. Tapşıran malları göndərməkdən yalnız vacib əsaslar üzrə imtina edə bilər.

805.3. Əgər malların göndərilməsindən imtina edilmişdirsə və ya mallar başqa əsaslar üzrə göndərilmirsə, konsessioner sifarişə müvafiq surətdə malların göndərilməli olduğu ildə müəyyən kvotaya çatmaq vəzifəsindən azad edilir. Bu zaman zərərin ödənilməsi barədə digər iddialar da qüvvədə qalır.

Maddə 806. Tapşıranın qarantiyası

806.1. Tapşıran qarantiya verir ki, konsessionerə çatdırılarkən malın qüsuru yoxdur. Əgər konsessioner qarantiya verilməsi barədə öz ölkəsində qüvvədə olan göstərişləri qabaqcadan və yazılı şəkildə tapşırana göstərirsə, tapşıran ən azı bu qarantiyanı verməyə borcludur. Qarantiya pretenziyalarının irəli sürülməsi müddəti konsessionerin malı təkrar satdığı gündən, lakin ən geci tapşıranın malı göndərdiyi gündən altı ay keçənədək başlanır. Bundan kənaraçıxmalar barəsində razılaşmaların, əgər bu kənaraçıxmalar birbaşa şərtləşdirilməmişsə və yazılı formada ifadə edilməmişsə, qüvvəsi yoxdur.

806.2. Tapşıranın qabaqcadan razılığını almadan konsessionerin satış üçün nəzərdə tutulan mallarda və ya onların qablarında hər hansı dəyişikliklər etmək hüququ yoxdur. Əgər mallarda dəyişiklikləri tapşıran edirsə, bu barədə o, konsessionerə ağlabatan müddətdə bildiriş verməlidir.

Maddə 807. Konsessiya müqaviləsinin qüvvəsinə xitam verilməsinin nəticələri

807.0. Konsessioner ilə tapşıran arasında birtipli müqavilənin qüvvəsinə xitam verildikdən sonra:

807.0.1. Artıq konsessioner müştərilər qarşısında tapşıranın konsessioneri kimi çıxış edə bilməz. Bundan başqa, o, tapşıranın firma markalarından və nişanlarından istifadə edə bilməz. Konsessioner öz adına qeydə alınmış və müqavilə bağlananadək istifadə edilmiş bütün firma markalarını və nişanlarını tapşıranın adına keçirməyə borcludur. İlkin qeydiyyat və keçirmə xərclərini tapşıran çəkir.

807.0.2. Əgər konsessioner müştərilər və (və ya) tapşıran qarşısında öhdəliklərini yerinə yetirmək üçün anbar saxlamalı olmuşdursa, tapşıran onun anbarında qalan malları satın almağa borcludur. Əgər mal satış üçün yararlı olan yaxşı vəziyyətdədirsə, satınalma qiyməti son satınalma zamanı konsessionerin tapşırana ödədiyi qiymətdən aşağı olmamalıdır. Konsessioner satınalmadan imtina edə bilər. Bu isə ona anbardakı qalığı ağlabatan müddətdə müştərilərə satmaq hüququ verir.

44-cü fəsil. Komissiya

Maddə 808. Komissiya müqaviləsi

808.1. Komissiya müqaviləsinə görə bir tərəf (komisyonçu) digər tərəfin (komitentin) tapşırığı ilə muzd müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqd bağlamağı öhdəsinə götürür. Komisyonçunun üçüncü şəxslə bağladığı əqd üzrə

hüquqları, əqddə komitent adlandırılmış olduqda və ya əqdin icrası üzrə üçüncü şəxslə bilavasitə münasibətlərə girdikdə belə, komisyonçu əldə edir və komisyonçu mükəlləfiyyətli olur.

~~808.2. Komissiya müqaviləsi yazılı formada bağlanır.~~

808.3. Komissiya müqaviləsi müəyyən müddətə və ya qüvvədə olma müddəti göstərilmədən, icra ərazisi göstərilməklə və ya göstərilmədən, komitentin onun mənafeləri üçün və onun hesabına bağlamağı komisyonçuya tapşırdığı əqdləri bağlamaq hüququnu üçüncü şəxslərə verməmək öhdəliyi nəzərdə tutulmaqla və ya nəzərdə tutulmadan, komissiya predmeti olan malların çeşidi barəsində şərtlər qoyulmaqla və ya qoyulmadan bağlana bilər. (12)

Maddə 809. Komisyonçunun ümumi vəzifələri

809.1. Komisyonçu tapşırılmış işi vicdanla aparmalı və komitentin mənafelərini qorumalıdır.

809.2. Komisyonçu əqdləri vicdanlı üçüncü şəxslərlə bağlamalı və komitentin razılığı olmadan üçüncü şəxslərə kredit verməməlidir.

809.3. Komisyonçu öz işlərinin gedişi, o cümlədən komisyon tapşırığının icrası gedişi barəsində komitentə məlumat verməlidir.

809.4. Komisyonçu komitentin icazəsi olmadan onun adını açıqlamamalıdır.

Maddə 810. Komitentin göstərişləri

810.1. Komisyonçu komitentin göstərişlərinə əməl etməli, o cümlədən qiymətlərin limitini gözləməlidir.

810.2. Komitent öz zərərinə olan kənaraçıxmalarla bağlanan əqddən imtina edə bilər, amma komisyonçunun zərər üçün kompensasiya təklif etdiyi hallar istisna təşkil edir.

810.3. Komisyonçunun daha sərfəli şərtlərlə bağladığı əqddən bütün fayda komitentə çatır.

Maddə 811. Komisyonçunun hesabat verməsi

811.1. Komisyonçu əqdin müqavilə şərtləri haqqında, öz adından və sifarişçinin hesabına hərəkətləri yerinə yetirməsi haqqında komitentə məlumat verməyə borcludur.

811.2. Ayrı razılaşmanın olmadığı halda komisyonçu üçüncü şəxsin adını bildirməyə borclu deyildir, amma komisyonçunun ödəniş qabiliyyətli olmadığından ehtiyat edildiyi hallar istisna təşkil edir.

811.3. Üçüncü şəxsin adını bildirməkdən imtina hüququ hesabat üçün vacib olan hər hansı digər informasiyanı vermək vəzifəsinə təsir göstərmir. Komitentin xahişi ilə komisyonçu üçüncü şəxsin adı da daxil olmaqla, bütün informasiyanı notariusa verməlidir. Notarius isə üçüncü şəxsin anonimliyini saxlamaqla, bu informasiyanı komitentə verir.

Maddə 812. Komisyonçunun komisyon malı barəsində vəzifələri

812.1. Komitentin sərəncamı ilə komisyonçuya göndərilmiş komisyon malı zədələnmiş olduqda komisyonçu komitentin hüquqlarını müdafiə etməli, malın vəziyyəti barəsində sübutlar qayğısına qalmalı və bu barədə dərhal komitentə bildiriş verməlidir.

812.2. Komitent üçün nəzərdə tutulan komisyon malı barəsində komisyonçunun üzərinə satıcı hüquqları və vəzifələri qoyulur.

Maddə 813. Komisyonçunun mal üçün məsuliyyəti

Komisyonçu saxlamağa götürdüyü malın itməsi və zədələnməsi üçün, əgər qarşısıalınmaz qüvvə ilə bağlı hallar yoxdursa, məsuliyyət daşıyır.

Maddə 814. Əqdin üçüncü şəxs tərəfindən icrası üçün komisyonçunun məsuliyyəti

814.1. Komisyonçu komitentin hesabına əqd bağladığı üçüncü şəxsin öhdəliklərinin icrası üçün məsuliyyət daşıyır, bu şərtlə ki, o belə məsuliyyət götürmüş olsun. Məsuliyyət üçüncü şəxslə bağlanmış əqddən onun üçün irəli gələn bütün öhdəliklərə şamil edilir.

814.2. Bu halda komisyonçuya əlavə muzd verilməlidir. Müqavilədə ayrı şərt qoyulmadıqda əlavə muzdun miqdarı bank zaminliyi üçün adi muzd üzrə müəyyənləşdirilir.

Maddə 815. Komisyon muzdu

815.1. Komisyonçu komitentin hesabına bağlanmış əqdin üçüncü şəxs tərəfindən icra edildiyi halda və ya komitentin cavabdeh olduğu səbəblərdən əqdin icra edilmədiyi halda komisyon muzdu tələb edə bilər.

815.2. Komisyon muzdunun miqdarı komissiya müqaviləsi ilə, belə qeyd-şərt olmadıqda isə, əgər komisyon əqdləri komisyonçunun müəssisəsinin fəaliyyət predmetinə aiddirsə, yerli işgüzar adətlər əsasında müəyyənləşdirilir.

815.3. Bundan başqa, komisyonçu komissiya müqaviləsinin yerinə yetirilməsi gedişində çəkdiyi və bütün halları nəzərə almaqla zəruri saydığı xərclərin əvəzinin ödənilməsini tələb edə bilər. Komisyonçunun və ya onun işçi heyətinin adi işlərin yerinə yetirilməsi xərclərinin və müqaviləyə uyğun və ya komisyon muzdunun hesabına ödənilən digər xərclərin əvəzi ödənilmir.

Maddə 816. Komisyonçunun özü ilə əqdləri

816.1. Əgər malların rəsmi birja və ya bazar qiyməti vardırsa və komitent ayrı şərt qoymayıbsa, komisyonçunun özü ilə əqdlər bağlamaq hüququ vardır.

816.2. Komisyonçu özü ilə bağladığı əqdlər barəsində bildiriş verməli və bildirişin göndərildiyi an mövcud olmuş birja və ya bazar qiymətini sübut etməlidir.

Maddə 817. Komisyonçunun satış hüququ

817.1. Əgər komitent müqaviləyə və ya şəraitə uyğun komisyon malına sahibliyə başlamalı olsa da, bunu etmirsə, komisyonçu komisyon malının satışını həyata keçirmək hüququnu əldə edir.

817.2. Əgər mal korlanmaya meyllidirsə və ya sonradan malda onun qiymətdən düşməsinə səbəb ola biləcək dəyişikliklər aşkar edilərsə və komitentlə əlaqə yaratmağa vaxt olmazsa, komisyonçu komitentə qabaqcadan bildiriş verməklə, malın satılması qayğısına qalmaq hüququna malikdir.

Maddə 818. Komitentin verdiyi obyektlərə mülkiyyət hüququ

Komitentin komisyonçuya verdiyi obyektlərə mülkiyyət hüququ komisyon əqdi icra edilənədək komitentdə qalır.

Maddə 819. Öz adından və sifarişçinin hesabına hərəkətlərin yerinə yetirilməsi haqqında əqd

819.1. Komisyonçu öz adından və sifarişçinin hesabına hərəkətlərin yerinə yetirilməsi haqqında üçüncü şəxslər ilə əqd üzrə kreditor və borcludur.

819.2. Komisyonçu komissiya müqaviləsinin icrasından əldə etdiklərinin hamısını komitentə verməyə borcludur.

819.3. Komitent komisyonçunun bağladığı əqddən irəli gələn tələbləri yalnız komisyonçu tələbi güzəşt etdikdən sonra irəli sürə bilər.

819.4. Komisyonçunun öz adından və sifarişçinin hesabına hərəkətlərin yerinə yetirilməsi haqqında əqddən irəli gələn tələbləri kreditora güzəşt etməsinin, ~~kreditorun vicdanlılığına baxmayaraq,~~ qüvvəsi yoxdur. Əmlakın girov qoyulduğu halda komitent onun ləğvini tələb edə bilər. Əgər girov qoyulmuş tələb artıq kreditora göndərilmişdirsə, komisyonçu kreditorun həmin tələb əsasında aldıqlarının verilməsini tələb edə bilər. (12)

Maddə 820. Komisyonçunun təminat hüququ

820.1. Komisyonçunun hər hansı komisyon əqdindən və ya əvvəlki komisyon əqdlərindən komitentə qarşı əmələ gəlmiş tələbləri əsasında komisyonçu sənədlərə əsasən sahiblik etdiyi və ya sərəncam verə bildiyi komisyon malına qanuni girov hüququ əldə edir. Komisyon malının komitentin mülkiyyətində olmadığı, lakin komisyonçunun həmin malı onun komitentə mənsub *olduğunu vicdanlı* qəbul etdiyi halda da *komisyonçu bu mala girov hüququnu əldə edir*.

820.2. Komisyonçu komisyon əqdinin icrası əsasında üçüncü şəxsə qarşı mövcud olan tələblər üzrə təminat ala bilər. (12)

Maddə 821. Komissiya müqaviləsinə xitam verilməsi

821.1. Komisyonçunun öldüyü halda komissiya müqaviləsinə xitam verilir.

821.2. Komissiya müqaviləsinin iştirakçıları istənilən vaxt müqaviləni ləğv edə bilərlər. Əgər müqavilənin ləğvinə dair komitent bildiriş verirsə, komisyonçunun çəkdiyi xərclərin əvəzini ona ödəməlidir.

45-ci fəsil. Saxlama

§ 1. Saxlama haqqında ümumi müddəalar

Maddə 822. Saxlama müqaviləsi

Saxlama müqaviləsinə görə bir şəxs (yük götürən, saxlayıcı) başqa şəxsin (yük verənin, tapşıranın) ona verdiyi daşınar əşyanı saxlamağı və müqavilənin qüvvəsi sona çatdıqda qaytarmağı öhdəsinə götürür.

Maddə 823. Yük verənin (tapşıranın) vəzifələri

823.1. Tapşıran saxlama müqaviləsinin icrası ilə bağlı saxlayıcının çəkdiyi zəruri xərclərin əvəzini ödəməlidir.

823.2. Tapşıran saxlama üçün muzdu yalnız o halda ödəməlidir ki, bu, şərtləşdirilmiş olsun və ya şərait nəzərə alınmaqla saxlama üçün muzd ödənilməsi qəbul edilmiş olsun. Zərurət olduqda muzd saxlamanın sonunda ödənilir. Müəyyən zaman hissələri üçün muzd ödənilməsi barədə razılaşma olduqda həmin muzd müvafiq olaraq ayrı-ayrı zaman hissələrinin sonunda hissələr şəklində ödənilir.

823.3. Tapşıran saxlamaya götürülmüş əşyanın xarakteri ilə əlaqədar saxlayıcının düşdüyü zərərin əvəzini ödəməlidir, amma əşyanı saxlamaya verərkən onun təhlükəli xassələrini bilmədiyi və ya bilməli olmadığı və ya bu barədə saxlayıcıya bildiriş verdiyi və ya saxlayıcının bildirişsiz də bunu bildiyi hallar istisna təşkil edir.

Maddə 824. Yük götürənin (saxlayıcının) vəzifələri

824.1. Əgər saxlama əvəzsiz həyata keçirilirsə, saxlama dövründə saxlayıcı yalnız *qəsd və/və ya kobud ehtiyatsızlığa görə* məsuliyyət daşıyır. Əgər saxlama haqq müqabilində həyata keçirilirsə, saxlayıcı şərtləşdirilmiş vicdanlılığa riayət edilməsi üçün, qalan hallarda isə bu cür əşyaların saxlanması zamanı adi olan vicdanlılıq üçün məsuliyyət daşıyır.

824.2. Saxlayıcının saxlamaya götürdüyü əşyadan tapşıranın qabaqcadan razılığı olmadan istifadə etmək hüququ yoxdur. Əks halda o, əşyanın təsadüfən itməsi üçün, əgər itmənin əşyadan istifadə edilmədən də mümkün olduğunu sübuta yetirməsə, tapşıran qarşısında məsuliyyət daşıyır.

824.3. Tapşıranın xahişi ilə saxlayıcı əşyanı qaytarmalıdır. Saxlama üçün konkret müddətin təyin edildiyi halda da bu müddəa həmişə qüvvədədir. Əşya onun saxlandığı yerdə qaytarılmalıdır. Əşyanın saxlayıcısı onu tapşırana çatdırmağa borclu deyildir. Əşya tapşıranın hesabına və tapşıranın riski ilə qaytarılır. (12)

Maddə 825. Yük götürənin (saxlayıcının) hüquqları

825.1. Saxlayıcı şərtləşdirilmiş saxlama növünü dəyişdirmək hüququna o halda malikdir ki, tapşıranın vəziyyəti bildikdən sonra buna razı olacağını şəraiti nəzərə almaqla ehtimal edə bilsin. Buna qədər isə saxlayıcı dəyişiklik barəsində tapşırana bildiriş verməli və əgər ləngimə risklə bağlı deyildirsə, onun qərarını gözləməlidir.

825.2. Əgər saxlama üçün müddət təyin edilməyibsə, saxlayıcı istənilən vaxt tapşırandan əşyanı geri götürməyi tələb edə bilər. Saxlama müddəti müəyyənləşdirildikdə saxlayıcı əşyanın geri götürülməsini yalnız vacib əsaslar üzrə tələb edə bilər*, bu şərtlə ki, həmin*

tələb tapşıran üçün açıq-aşkar qeyri-münasib vaxtda irəli sürülməsin və əlverişsiz müddətdə icra edilməli olmasın. (12)

Maddə 826. Əvəz edilə bilən əşyaların saxlanması

826.1. Əgər saxlamaya pul qəbul edilirsə və bu zaman saxlayıcının eyni pulu deyil, eyni məbləği qaytarmalı olduğu birbaşa və ya dinməz razılıqla şərtləşdirilirsə, pula mülkiyyət hüququ, ondan istifadə hüququ və onun itməsi riski saxlayıcıya keçir. Bu mənada dinməz razılıq pul məbləğinin möhürlənməmiş və bağlanmamış şəkildə verildiyi halda ehtimal edilir.

826.2. Əgər saxlamaya digər əvəz edilən əşyalar və ya qiymətli kağızlar qəbul edilirsə, saxlayıcı onlara dair yalnız o halda sərəncam verə bilər ki, tapşıran buna birbaşa icazə vermiş olsun.

§ 2. Anbarlarda saxlama

Maddə 827. Anbar sahibi

Anbar sahibi sənətkarlıq şəklində saxlama ilə məşğul olan və saxlama üzrə öz xidmətlərini açıq təklif edən saxlayıcıdır. Əgər bu Məcəllənin bu paraqrafının aşağıdakı müddəalarında ayrı şərt qoyulmayıbsa, anbar sahibinin xidmətlərinə saxlama haqqında göstərişlər tətbiq edilir.

Maddə 828. Əmtəə kağızları

828.1. *Bu Məcəllənin 1078-ci maddəsinə uyğun olaraq,* Anbar sahibi saxlamaya qəbul edilmiş mallar üçün əmtəə sənədləri yazıb verə bilər~~, bir şərtlə ki, bunun üçün onun müvafiq icra hakimiyyəti orqanından icazəsi olsun~~.

828.2. Əmtəə kağızları anbarda saxlanılan, bu sənədlərdə göstərilən malların verilməsinə hüquq verən qiymətli kağızlardır.

828.3. Əmtəə kağızları order şəklində, yaxud yük verənin və ya mal sahibinin adına yazıla bilər.

828.4. Əgər hər hansı mala əmtəə kağızı yazılmışdırsa, anbar sahibi həmin malı yalnız bu sənəddə göstərilmiş ixtiyarlı şəxsə verə bilər və verməlidir. (12)

Maddə 829. Anbar sahibinin vəzifələri

829.1. Anbar sahibi malların saxlanması üçün komisyonçu kimi məsuliyyət daşıyır.

829.2. Anbar sahibi malın məruz qaldığı və saxlama xidmətlərindən əlavə tədbirlər görülməsinə yol verən dəyişikliklər barəsində tapşırana dərhal bildiriş göndərməlidir.

829.3. Anbar sahibi anbarın adi iş vaxtında tapşıranın malı gözdən keçirməsinə və nümunələr götürməsinə yol verməlidir. Bundan başqa, anbar sahibi tapşıranın malın salamatlığı üçün tədbirlər görməsinə bunun zəruri olduğu hər bir vaxt yol verməlidir.

829.4. Anbar sahibinin əvəz edilən əşyaları eyni növlü və keyfiyyətli başqa əşyalarla qarışdırmasına yalnız tapşıranın ona qabaqcadan birbaşa icazə verdiyi hallarda yol verilir.

Qarışıq saxlama halında anbar sahibi hər hansı tapşıranın xahişi ilə həmin tapşıranın saxlamaya verdiyi miqdara uyğun miqdarda mal verməlidir.

829.5. Anbar sahibi malı saxlayıcı kimi qaytarmalıdır. Gözlənilməz hallar nəticəsində adi saxlayıcının şərtləşdirilmiş müddət bitənədək əşyanı qaytarmaq hüququna malik ola bildiyi halda da anbar sahibi şərtləşdirilmiş saxlama müddəti ilə bağlı qalır.

Maddə 830. Anbar sahibinin muzd almaq və xərclərinin əvəzinin ödənilməsi hüququ, habelə girov hüququ

830.1. Əgər müəyyən muzd (saxlama haqqı) şərtləşdirilməyibsə, anbar sahibinin anbarda saxlama üçün adi haqq almaq hüququ vardır. Əgər tapşıran malı tamamilə və ya qismən geri qəbul edərsə, saxlama haqqını hər bir halda ödəməlidir. Əgər saxlama müddəti üç aydan çoxdursa, anbarda saxlama haqqı müvafiq olaraq hər üç ayın sonunda ödənilir.

830.2. Anbar sahibi saxlama haqqından başqa, saxlamanın özü ilə bağlı olmayan bütün xərclərin əvəzinin, məsələn, fraxtın, gömrük rüsumlarının, təmir xərclərinin ödənilməsi hüququna malikdir. Müvafiq olaraq anbar sahibinin tələbi ilə tapşıran xərclərin əvəzini dərhal ödəməlidir.

830.3. Saxlama müqaviləsindən irəli gələn bütün tələblər üzrə anbar sahibi saxladığı mallara—tapşıranın mallarına *komisyonçu kimi* girov hüququna malikdir. (12)

§ 3. Mehmanxanalarda və restoranlarda əşyaların saxlanması

Maddə 831. Mehmanxana və ya restoran sahibinin məsuliyyəti

831.1. Mehmanxana və ya restoran sahibi başqa şəxslərə (qonaqlara) daldalanacaq verən şəxsdir. Mehmanxana və ya restoran sahibi qonaqların mehmanxana və ya restoran sahibinin otaqlarında və ya mehmanxana və ya restoran sahibinin və ya onun işçi heyətinin müəssisədən kənarda müəyyənləşdirdiyi başqa yerdə saxladıqları və ya mehmanxana və ya restoran sahibinin və ya onun işçi heyətinin saxlamaya başqa şəkildə qəbul etdiyi əşyaların hər hansı zədələnməsi, korlanması və ya oğurlanması üçün məsuliyyət daşıyır.

831.2. Əvəz ödəmək vəzifəsi avtomobillərə, avtomobillərdəki əşyalara və diri heyvanlara şamil edilmir.

831.3. Əgər mehmanxana və ya restoran sahibi zərəri qonağın, onu müşayiət edən şəxsin və ya qonağın qəbul etdiyi şəxsin vurduğunu və ya əşyanın xarakterindən və ya qarşısıalınmaz qüvvənin təsirindən irəli gəldiyini sübuta yetirərsə, onun məsuliyyəti istisna edilir.

Maddə 832. Mehmanxanalarda və restoranlarda pulların, qiymətli kağızların və digər qiymətli əşyaların saxlanması

Mehmanxana və ya restoran sahibi pulları, qiymətli kağızları, sərvətləri və digər qiymətli əşyaları saxlamaya qəbul etməyə borcludur, amma miqdarı və ya dərəcəsi ilə əlaqədar onların əhəmiyyətinə və ya həcminə görə mehmanxana və ya restoran üçün ifrat və ya təhlükəli olduğu hallar istisna təşkil edir. Mehmanxana və ya restoran sahibi onların qapalı və ya möhürlənmiş yeşikdə (mücrüdə, sandıqçada) verilməsini tələb edə bilər.

Maddə 833. Mehmanxana və ya restoran sahibinin məsuliyyətinin məhdudlaşdırılması

833.1. Mehmanxana və ya restoran sahibi bu Məcəllənin 831.1-ci maddəsində nəzərdə tutulan məsuliyyəti *min yüz manatdan* çox olmayan miqdarda daşıyır.

833.2. Lakin əgər əşya mehmanxana və ya restoran sahibinin və ya onun işçi heyətinin təqsiri üzündən itmişsə, korlanmışsa və ya zədələnmişsə, habelə əgər söhbət onun saxlamaya qəbul etdiyi və ya bu Məcəllənin 832-ci maddəsinə zidd olaraq saxlamaya qəbul etmədiyi əşyalardan gedirsə, onun məsuliyyəti məhdudlaşdırılmır. (32)

Maddə 834. Mehmanxana və ya restoran sahibinin məsuliyyətinin istisna edilməsi

Bu Məcəllənin 832-ci maddəsində nəzərdə tutulan hallarda müqavilə üzrə məsuliyyətin istisna edilməsinin qüvvəsi yoxdur. Qalan hallarda mehmanxana və ya restoran sahibinin məsuliyyəti yalnız zərərin bu Məcəllənin 833.1-ci maddəsində müəyyənləşdirilmiş maksimum məbləğdən çox olan hissəsi üçün qabaqcadan istisna edilir. Məsuliyyətdən azad edilmə yalnız o halda baş verir ki, qonaq bu barədə yazılı bildiriş verir və bu bildirişdə ayrı müddəalar olmur.

Maddə 835. Qonağın zərərin əvəzinin ödənilməsi hüququnun ləğvi

Əgər qonaq əşyanın zədələnməsi, korlanması və ya itməsi ona məlum olan kimi bu barədə mehmanxana və ya restoran sahibinə bildiriş verməzsə, ona mənsub olan zərərin əvəzinin ödənilməsi hüququ ləğv edilir.

Maddə 836. Mehmanxana və ya restoran sahibinin girov hüququ

Qonağın mehmanxanada yaşayışı, ona qulluq üçün göstərilmiş xidmətlərdən və tələbatının ödənilməsi üçün digər xidmətlərdən irəli gələn tələbləri, o cümlədən çəkilmiş xərclər üzrə mehmanxana və ya restoran sahibi qonağın bu Məcəllənin 831.1-ci maddəsində müəyyənləşdirilmiş əşyalarına girov hüququna malikdir. Bu halda yaşayış otağını kirayəyə verənin girov hüququ üçün qüvvədə olan göstərişlər tətbiq edilir.

§ 4. Konsiqnasiya anbarında saxlama

Maddə 837. Konsiqnasiya anbarı haqqında müqavilə

837.1. Konsiqnasiya anbarı haqqında müqavilə hər hansı sahibkara (tapşırana) malları (konsiqnasiya mallarını) müştərilərə tez çatdırmaq məqsədi ilə sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan başqa şəxsin (tacirin) anbarında saxlamaq hüququ verir. Tacir konsiqnasiya mallarını saxlamağı öhdəsinə götürür və konsiqnasiya anbarı haqqında müqavilənin şərtlərinə əsasən bu mallara dair sərəncam vermək hüququna malikdir.

837.2. Əgər bu Məcəllənin bu paraqrafının aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, konsiqnasiya mallarının saxlanmasına anbarda saxlama haqqında müddəalar, konsiqnatorun konsiqnasiya anbarından mal götürməsinə isə alğı-satqı haqqında müddəalar tətbiq edilir.

Maddə 838. Tacirin vəzifələri

838.1. Tacir konsiqnasiya mallarını ayrıca saxlamalı və onları tapşıranın mülkiyyəti kimi eyniləşdirməlidir.

838.2. Konsiqnasiya malı anbara göndərilərkən tacir onun tamlığını və qüsursuzluğunu yoxlamalı və görünən qüsurlar barəsində tapşırana dərhal məlumat verməlidir. Görünməyən qüsurlar aşkar edilən kimi onlar barəsində dərhal bildiriş verilməlidir. Əgər tacir bunu etməzsə, hesab edilir ki, o, malı saxlamaya qəbul etmişdir.

838.3. Konsiqnasiya malında qüsurların aşkar edildiyi halda tacir tapşıranın ekspeditor, daşıyıcı və ya sığorta firması barəsində hüquqlarının müdafiəsi üçün lazımi tədbirlər görməlidir.

Maddə 839. Tacirin məsuliyyəti

839.1. Tacir malın saxlanması üçün komisyonçu kimi məsuliyyət daşıyır.

839.2. Tacir konsiqnasiya malını oğurlanmadan, yanmadan və üçüncü şəxs tərəfindən zədələnmədən sığorta etdirmək hüququna malikdir və tapşıranın tələbi ilə bunu onun hesabına etməyə borcludur.

Maddə 840. Konsiqnasiya anbarından malın götürülməsi

840.1. Konsiqnasiya anbarı haqqında müqavilənin qüvvədə olduğu müddətdə tacirin öz adi ticarət fəaliyyəti çərçivəsində müştərilərinə mal göndərmək üçün konsiqnasiya anbarından mal götürmək hüququ vardır.

840.2. Konsiqnasiya anbarından mal götürüldükdə tapşıran ilə tacir arasında münasibətlər həmin malın alğı-satqısı haqqında müqavilə ilə tənzimlənir. Alış qiyməti və alğı-satqının digər şərtləri iştirakçılar arasında razılaşmalara əsasən, qalan məsələlər isə bu Məcəllə ilə müəyyənləşdirilir.

840.3. Tapşıran istənilən vaxt tacirin mal götürmək səlahiyyətini qabaqcadan ləğv edə bilər, bir şərtlə ki, bununla birlikdə o, konsiqnasiya anbarını dərhal geri qəbul etmək təklifini versin.

Maddə 841. Konsiqnasiya anbarında saxlama muzdu

Ayrı razılaşma olmadıqda konsiqnasiya anbarında saxlama üçün tacirə heç bir muzd verilməməlidir.

46-cı fəsil. Daşıma

§ 1. Sərnişin daşınması

Maddə 842. Sərnişin daşınması müqaviləsi

842.1. Sərnişin daşınması müqaviləsinə görə daşıyıcı müəyyən nəqliyyat növü ilə sərnişini, habelə onun əl yükünü yola düşmə yerindən təyinat yerinə çatdırmağı, sərnişin isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür.

842.2. Sərnişin daşınması müqaviləsi sərnişinin daşıyıcıdan sərnişin daşınması üçün nəqliyyat sənədi (gediş bileti) aldığı andan və ya daşıyıcının razılığı ilə sərnişinin nəqliyyat vasitəsində yer tutması nəticəsində bağlanmış sayılır.

842.3. Əgər bu Məcəllənin bu paraqrafından ayrı qayda irəli gəlmirsə, sərnişin daşınması haqqında müqaviləyə tapşırıq müqaviləsi haqqında göstərişlər tətbiq edilir.

Maddə 843. Sərnişin daşınmasının qiyməti

843.1. Əgər daşıma üçün müəyyən qiymət təyin edilməyibsə, daşımanın tarif qiyməti, tarif olmadıqda isə həmin nəqliyyat vasitəsində gediş üçün daşımanın müvafiq hissəsində tutulan adi haqq şərtləşdirilmiş haqq sayılır.

843.2. Daşımanın dəyəri daşıyıcının tələbi ilə, lakin ən geci sərnişin nəqliyyat vasitəsindən düşənədək ödənilməlidir.

Maddə 844. Sərnişinin başqa şəxslə əvəz edilməsi

Daşıma başlayanadək sərnişin gedişdə onun əvəzinə başqa şəxsin (üçüncü şəxsin) iştirak etməsini xahiş edə bilər. Əgər üçüncü şəxs daşımanın xüsusi tələblərinə uyğun gəlmirsə və ya onun iştirakına qanuni göstərişlər mane olursa, daşıyıcı onun iştirakına etiraz edə bilər. Daşıyıcı sərnişindən üçüncü şəxsin gedişi ilə əlaqədar yaranmış əlavə xərclərin əvəzini ödəməyi tələb edə bilər.

Maddə 845. Sərnişin daşınması müqaviləsinin daşıma başlayanadək ləğvi

845.1. Daşıma başlayanadək istənilən vaxt sərnişin müqavilənin ləğv olunduğunu bəyan edə bilər.

845.2. Müqavilənin ləğvi ilə daşıyıcı şərtləşdirilmiş haqqı almaq hüququnu itirir. Lakin o, ağlabatan kompensasiya tələb edə bilər. Kompensasiyanın miqdarı daşıyıcının qənaət etdiyi xərclərin və gediş hüququnu başqa şəxsə satmaqdan əldə edə biləcəyi gəlirin dəyəri çıxılmaqla gedişin dəyəri ilə müəyyənləşdirilir.

845.3. Adətən qənaət edilən xərclər və gedişin başqa şəxslərə satılması nəticəsində adətən əldə olunan mümkün gəlir nəzərə alınmaqla, müqavilədə hər nəqliyyat növü üçün kompensasiya kimi daşımanın dəyərindən faiz dərəcəsi müəyyənləşdirilə bilər.

Maddə 846. Sərnişin daşınmasının həyata keçirilməsi və daşıyıcının məsuliyyəti

846.1. Daşıyıcı daşımanı müqaviləyə, sərnişinlərin müdafiəsi üçün qüvvədə olan göstərişlərə və sərnişin nəqliyyat vasitələrinin istismarı qaydalarına uyğun həyata keçirməlidir. Əgər daşıma müqaviləsində xüsusi müddəalar yoxdursa, adi nəqliyyat növləri üçün yolun həmin hissəsində qüvvədə olan adi şərtlər razılaşdırılmış şərtlər sayılır. Əgər daşıma bu tələbləri təmin etmirsə, qüsurla həyata keçirilmiş sayılır.

846.2. Daşıma hər hansı qüsurla həyata keçirildikdə, sərnişinin, əgər o həmin qüsur barəsində dərhal daşıyıcıya bildiriş vermişsə və daşıyıcı qüsuru dərhal aradan qaldırmamışsa, aşağıdakı hüquqları vardır:

846.2.1. daşımanın dəyərinin ağlabatan dərəcədə aşağı salınmasını tələb etmək;

846.2.2. əgər daşıma qüsur nəticəsində xeyli pisləşmişsə və ya bu qüsura görə daşıyıcı üçün aşkar olan vacib əsaslar üzrə sərnişinə məqbul deyildirsə, gələcək üçün daşıma müqaviləsinin ləğv olunduğunu bəyan etmək.

846.3. Əgər müqavilə bu Məcəllənin 846.2.2-ci maddəsinə uyğun ləğv edilərsə, sərnişin özünü təhlükəyə məruz qoymayacağı ən yaxın yerdə nəqliyyat vasitəsini tərk edə bilər. Bu halda daşıyıcı daşımanın şərtləşdirilmiş dəyərinin daşımanın icra edilməmiş hissəsinə uyğun qismini almaq hüququnu itirir. Əgər göstərilmiş nəqliyyat xidmətləri müqavilənin ləğvi nəticəsində sərnişin üçün maraq doğurmursa, daşıyıcı daşımanın qalıq dəyərini almaq hüququnu da itirir.

846.4. Əgər daşıyıcıya bildirilmiş daşıma qüsuru daşıyıcının cavabdeh olduğu hallardan irəli gəlmişdirsə, sərnişin daşıma müqaviləsinin icra edilməməsi nəticəsində dəyən zərər üçün əlavə kompensasiya tələb edə bilər.

Maddə 847. Sərnişin daşınmaları zamanı qarşısıalınmaz qüvvə

847.1. Əgər daşıma müqaviləsinin bağlandığı məqamda qabaqcadan nəzərdə tutulması mümkün olmayan, nəqliyyat vasitəsinə texniki xidmət və onun istismarı ilə qarşılıqlı surətdə bağlı olmayan və ağlabatan ehtiyatlılıq şəraitində rəf edilməsi mümkün olmayan qarşısıalınmaz qüvvə ilə bağlı hadisənin kənarda baş verməsi nəticəsində daşıma xeyli çətinləşərsə, təhlükəyə məruz qalarsa və ya pisləşərsə, müqavilə həm daşıyıcı, həm də sərnişin tərəfindən ləğv edilə bilər.

847.2. Müqavilənin ləğv edildiyi halda sərnişin özünü təhlükəyə məruz qoymayacağı ən yaxın yerdə nəqliyyat vasitəsini tərk edə bilər, daşıyıcı isə daşımanın şərtləşdirilmiş dəyərinin daşımanın icra edilməmiş hissəsinə uyğun qismini almaq hüququnu itirir. Müqavilənin iştirakçıları geriyə daşıma üçün əlavə xərcləri yarıbayarı çəkirlər. Qalan əlavə xərcləri sərnişin çəkir.

Maddə 848. Sərnişinin pretenziyalarının ödənilməsi

Sərnişin bu Məcəllənin 846-cı maddəsinə əsasən pretenziyaları daşıyıcıya müqavilədə nəzərdə tutulan daşımanın qurtarmasından ən geci bir ay keçənədək verməlidir. Müddət keçdikdən sonra sərnişin pretenziyaları yalnız həmin müddəti öz təqsiri olmadan gözləyə bilmədiyi halda verə bilər. Daşıyıcı sərnişinin pretenziyalarını qəbul etmədikdə onlar daşımanın qurtarmasından altı ay keçənədək ödənilir, bir şərtlə ki, məhkəmə qaydasında bundan da tez ödənilmiş olmasın.

Maddə 849. Daşıyıcının məsuliyyətinin məhdudlaşdırılması

849.1. Əgər daşıyıcının ayrı-ayrı və ya bütün nəqliyyat xidmətlərinə qanuni və ya rəsmi göstərişlər və ya beynəlxalq konvensiyalar tətbiq edilirsə və bu göstərişlərə və konvensiyalara görə zərərin əvəzinin ödənilməsi hüququ yalnız müəyyən şərtlər və ya məhdudiyyətlər olduqda əmələ gəlirsə və ya həyata keçirilə bilirsə, yaxud müəyyən şərtlər olduqda istisna edilirsə, daşıyıcı sərnişin qarşısında həmin göstərişlərə yalnız onları yerinə yetirdiyi halda istinad edə bilər.

849.2. Bütün digər hallarda daşıyıcı sərnişinlə razılaşmaya əsasən öz məsuliyyətini daşımanın dəyərinin üç misli ilə məhdudlaşdıra bilər, bu şərtlə ki, sərnişinə zərər qəsdən və ya kobud ehtiyatsızlıq üzündən vurulmasın və ya sərnişin üçün yaranmış zərərə görə

daşıyıcı yalnız onun xidmətində olmayan başqa şəxsin təqsiri nəticəsində məsuliyyət daşısın.

§ 2. Yük daşınması

Maddə 850. Yük daşınması müqaviləsi

850.1. Yük daşınması müqaviləsinə görə daşıyıcı əşyaları haqq (yüklərin daşınması üçün haqq) müqabilində olduqları yerdən təyinat yerinə daşımağı (yola salmağı), yola salan və ya yükü alan isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür.

850.2. Əgər bu Məcəllənin bu paraqrafının aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, yük daşınması müqaviləsinə tapşırıq haqqında göstərişlər tətbiq edilir.

Maddə 851. Yük göndərən və yük alan

Yük göndərən daşımanın təşəbbüsçüsü olan və daşıyıcı ilə müqavilə bağlayan şəxsdir. Yük göndərən həm yükün daşımadan əvvəl olduğu şəxs, həm də yükün göndərildiyi şəxs (yük alan) ola bilər.

Maddə 852. Ekspeditor. Nəqliyyat komisyonçusu

852.1. Ekspeditor üçüncü şəxslər (daşıyıcılar) vasitəsi ilə yüklərin ilkin yerindən təyinat yerinə daşınmasını öz adından, lakin yük göndərənin hesabına təşkil edən şəxsdir.

852.2. Daşıyıcılar ilə münasibətlərdə ekspeditor yük göndərənin hüquq və vəzifələrinə malikdir.

852.3. Ekspeditor yük göndərənin göstərişlərinə əməl etməlidir. O, daşıyıcıları öz məsuliyyəti ilə seçir. Əgər ekspeditor daşımanı tamamilə və ya qismən özü həyata keçirirsə, daşıyıcının hüquq və vəzifələrinə malik olur. Əgər bir neçə yük göndərinin əşyalarının aralıq və son təyinat yerləri eynidirsə, ekspeditor bu əşyaları qruplaşdıraraq yığma nəqliyyat təşkil edə bilər. Bütün hallarda o, yük göndərənin mənafelərini qorumalı və göstərişlərinə əməl etməlidir. O, qarşıya çıxan bütün çətinliklər barəsində yük göndərənə məlumat verməlidir.

852.4. Ekspeditorun öz xidmətləri üçün muzd almaq və yük göndərən üçün çəkdiyi xərclərin əvəzinin ödənilməsi hüququ vardır. Ekspeditorun muzdu xüsusən aşağıdakılardan ibarət ola bilər:

852.4.1. daşıyıcıların muzdlarının məbləğindən faiz dərəcəsi (komisyon muzdu);

852.4.2. və (və ya) daşımanın dəyəri və ekspeditorun muzdu da daxil olmaqla, əvvəldən axıradək bütün daşıma xərcləri üçün muzd.

852.5. Ekspeditor yük göndərənin göstərişlərindən bütün kənaraçıxmalar üçün onun qarşısında məsuliyyət daşıyır. Ekspeditor daşıyıcıların təqsiri üçün də məsuliyyət daşıyır, amma daşıyıcıları seçərkən lazımi vicdanlılıq göstərdiyini sübuta yetirdiyi hallar istisna təşkil edir.

Maddə 853. Yük göndərənin zəruri məlumatları

853.1. Yük göndərən daşıyıcıya aşağıdakıları dəqiq göstərməlidir:

853.1.1. yük alanın ünvanı;

853.1.2. çatdırılma yeri;

853.1.3. yük yerlərinin miqdarı, qabı, tərkibi və brutto çəkisi;

853.1.4. göndərmə müddəti və nəqliyyat növü;

853.1.5. qiymətli obyektlər olduqda—onların dəyəri;

853.1.6. habelə xüsusi təhlükəli və potensial təhlükəli yüklər olduqda—təhlükənin konkret növü və belə hallarda qəbul edilməli ehtiyat tədbirləri.

853.2. Yük göndərən bü məlumatın olmaması və dəqiqsizliyi nəticəsində dəyən zərərin əvəzini ödəyir.

Maddə 854. Qaimə

854.1. Yük daşınması müqaviləsi və onun həyata keçirilməsi formulyar şəklində tərtib edilən sənədlə (qaimə ilə) təsdiq edilə bilər. Əksi sübuta yetirilənədək qaimə aşağıdakıları təsdiq edir:

854.1.1. yük göndərən ilə daşıyıcı arasında müqavilə;

854.1.2. bir və ya bir neçə daşıyıcı tərəfindən yükün daşımaya qəbul olunması;

854.1.3. yük alan tərəfindən yükün qəbul edilməsi;

854.1.4. müqavilə iştirakçılarından birinin bəyan etdiyi reklamasiyalar və ya qeyd-şərtlər;

854.1.5. yük göndərənin və ya yük alanın yükə dair sərəncam vermək hüququ;

854.1.6. daşıyıcının yükə girov hüququ.

854.2. Qaimənin üç orijinalında yük göndərənin və daşıyıcının imzaları və ya ştempelləri olmalıdır. Qaimənin birinci nüsxəsi yük göndərənə verilir, ikinci nüsxəsi yükü müşayiət edir, üçüncü nüsxəsi isə daşıyıcıya verilir.

854.3. Qaimədə aşağıdakı məlumatlar göstərilməlidir:

854.3.1. bu Məcəllənin 853-cü maddəsində göstərilən məlumatlar;

854.3.2. qaimənin tərtib edildiyi yer və tarix;

854.3.3. yük göndərənin adı və ünvanı;

854.3.4. daşıyıcının adı və ünvanı;

854.3.5. yükləmənin yeri və tarixi;

854.3.6. yük yerlərinin adı və nömrələri;

854.3.7. daşımanın qiyməti (yük daşınması üçün haqq, əlavə xərclər);

854.3.8. zərurət olduqda daşımanın şərtləri barəsində yük göndərənin xüsusi göstərişləri.

854.4. Zərurət olduqda qaimədə aşağıdakı əlavə məlumatlar da göstərilə bilər:

854.4.1. yükün boşaldılıb başqa nəqliyyat vasitələrinə yüklənməsinin qadağan edilməsi;

854.4.2. yük göndərənin öz hesabına qəbul etdiyi və ya yükü alana avansını verdiyi xərclər;

854.4.3. yük alanın daşıyıcıya ödədiyi dəyər (yükə əlavə edilmiş, yük təhvil verilərkən icra olunmalı ödənişin məbləği);

854.4.4. yükün dəyəri;

854.4.5. yük göndərənin sığorta barəsində təlimatı;

854.4.6. yükün daşınması üçün şərtləşdirilmiş müddətlər;

854.4.7. daşıyıcıya yüklə birlikdə verilmiş sənədlərin siyahısı.

854.5. Yük göndərən qaimədəki məlumatların dəqiqliyi və tamlığı üçün daşıyıcı qarşısında məsuliyyət daşıyır.

854.6. Əgər yük göndərən bu Məcəllənin 854.3.2, 854.3.4-854.3.8 və ya 854.4-cü maddələrində nəzərdə tutulan məlumatları yanlış və ya natamam vermişdirsə, bununla əlaqədar bütün zərər üçün daşıyıcı qarşısında məsuliyyət daşıyır.

854.7. Qaimənin tərtib edilmədiyi, yaxud yanlış və ya natamam tərtib edildiyi, yaxud itirildiyi halda da yük daşınması müqaviləsi qüvvədə olur. Müqavilənin iştirakçıları yük daşınması haqqında şərtləşdirdikləri müqavilənin mövcudluğunu və məzmununu sübuta yarayan hər bir vasitə ilə sübut edə bilərlər.

Maddə 855. Yükün qablaşdırılması

855.1. Yük göndərən yükün lazımınca qablaşdırılmasını təmin etməlidir. O, qablaşdırmanın zahirən görünməyən qüsurları üçün məsuliyyət daşıyır.

855.2. Öz növbəsində daşıyıcı yükü daşımaya qeyd-şərtsiz qəbul edərkən mövcud olmuş zahirən görünən qüsurların nəticələri üçün məsuliyyət daşıyır.

Maddə 856. Yükə dair sərəncam vermək hüququ

856.1. Nə qədər ki yük hələ daşıyıcıdadır, yük göndərənin daşıyıcıya onun xərcləri və zərərləri üçün kompensasiya ödəyərək, yükü geri qəbul etmək və ya çatdırma yerini və yük alanı dəyişdirmək hüququ vardır. Bu müddəalar aşağıdakı hallarda tətbiq edilmir:

856.1.1. yük daşınması müqaviləsində və ya qaimədə yükə dair sərəncam verməyə yalnız yük alanın ixtiyarının çatdığı müəyyənləşdirildikdə;

856.1.2. qaimənin birinci nüsxəsi yük alana verildikdə;

856.1.3. yük təyinat yerinə gəldikdən sonra yük alan yükün çatdırılmasını tələb etdikdə və ya daşıyıcı qaimənin ikinci nüsxəsini yük alana verdikdə;

856.1.4. yük göndərən yükün alınması barədə daşıyıcıdan qəbz aldıqda və onu qaytara bilmədikdə.

856.2. Bu Məcəllənin 856.1.1-856.1.4-cü maddələrində nəzərdə tutulan hallarda daşıyıcı yük alanın göstərişlərinə şərtsiz əməl etməlidir. Bu Məcəllənin 856.1.4-cü maddəsində nəzərdə tutulan halda, yük təyinat yerinə gələnədək daşıyıcı bunu etməyə yalnız yükün alınması barədə yük alana qəbz çatdırıldıqda borcludur.

Maddə 857. Yükün gəlməsi haqqında bildiriş

Daşıyıcı yükün çatdırılma yerinə gəlməsi barədə yük alana dərhal bildiriş verməlidir.

Maddə 858. Yükün çatdırılması zamanı maneələr

858.1. Əgər yük qəbul edilmirsə və ya yük üzrə ödənişlər həyata keçirilmirsə və ya yük alanı müəyyənləşdirmək mümkün deyilsə, daşıyıcı yük göndərənə bu barədə məlumat verməli və yük göndərənin riski və hesabı ilə yükü müvəqqəti saxlamaya götürməli və ya saxlama üçün üçüncü şəxsə verməlidir. Əgər yük göndərən və yük alan şərait nəzərə alınmaqla ağlabatan müddət ərzində yükə dair zəruri sərəncamlar verməzlərsə, ekspertin köməyi ilə daşıyıcı eynilə komisyonçu kimi yükü ixtiyarlı şəxsin xeyrinə sata bilər.

858.2. Əgər yük tez korlanandırsa və ya onun ehtimal edilən dəyəri xərcləri ödəmirsə, daşıyıcı ləngimədən bu faktı rəsmən təyin edilmiş ekspertin köməyi ilə müəyyənləşdirməli və yükü çatdırılma zamanı maneələrin olduğu haldakı kimi eyni qaydada satmalıdır. Yükün satılmasına dair sərəncam verilməsi barədə iştirakçılara imkan daxilində bildiriş verilir.

858.3. Daşıyıcı yüklə rəftar üçün ona verilmiş səlahiyyətlərin icrası zamanı mülkiyyətçinin mənafelərini maksimum müdafiə etməyə borcludur. Bu vəzifələri öz təqsiri üzündən pozduqda o, zərərin əvəzinin ödənilməsi üçün məsuliyyət daşıyır.

Maddə 859. Yük daşıyıcısının məsuliyyəti

859.1. Yükün itirildiyi və ya məhv olduğu halda daşıyıcı onun tam dəyərini ödəyir. Əgər yük daşıyıcı tərəfindən daşımaya qəbul edildikdən sonra üç ay ərzində çatdırılmazsa, əksi sübut edilənədək itirilmiş sayılır.

859.2. Bundan başqa, daşıyıcı çatdırmanın gecikdirilməsi və ya yükün zədələnməsi və ya qismən məhv olması ilə bağlı bütün zərər üçün məsuliyyət daşıyır.

859.3. Əgər daşıyıcı yükün itirilməsinin və ya məhvinin aşağıdakılar nəticəsində baş verdiyini sübuta yetirərsə, bu Məcəllənin 859.1-859.2-ci maddələrində nəzərdə tutulan məsuliyyət tətbiq edilmir:

859.3.1. risk məlum olsa da, yükün xarakteri və ya nəqliyyat vasitəsinin birbaşa təyinatı;

859.3.2. yük göndərənin və ya yük alanın təqsiri və ya göstərişi;

859.3.3. daşıyıcının lazımi vicdanlılığı şəraitində qarşısı alınması mümkün olmayan hallar.

859.4. Daşıyıcı daşımanı tamamilə və ya qismən başqa daşıyıcının vasitəsi ilə həyata keçirdiyi halda da məsuliyyət daşıyır. Onun daşıma üçün yükü verdiyi daşıyıcıya qarşı reqres hüququ saxlanılır.

859.5. Daşıyıcıya qarşı bütün iddialar yük qeyd-şərtsiz qəbul edildikdən və ödənildikdən sonra ödənilir. Bu müddəa aşağıdakı hallarda tətbiq edilmir:

859.5.1. daşıyıcı qəsd və ya kobud ehtiyatsızlıq üçün məsuliyyət daşıyırsa;

859.5.2. əgər iddialar yükün zahirən görünən zədələrinə əsaslanırsa, yük alan bunları şərait nəzərə alınmaqla onun üçün mümkün və yolverilən müddət ərzində aşkar etdikdə və bu barədə daşıyıcıya zədələr aşkar edildikdən sonra dərhal, lakin çatdırılmadan ən geci səkkiz gün keçənədək bildiriş verdikdə.

Maddə 860. Yükə girov hüququ

860.1. Daşıyıcı ona çatası daşıma haqqına və xərclərin kompensasiyasına əsasən yükə girov hüququna malikdir. *Yükə girov hüququnun əldə edilməsinə bu Məcəllənin 182-ci maddəsinin müddəaları şamil edilir. Yük göndərənin yükün mülkiyyətçisi olmadığı, lakin həmin yük barəsində yük göndərənin yükün mülkiyyətçisindən sərəncam vermək səlahiyyəti olması ilə əlaqədar daşıyıcının vicdanlı olduğu hallarda da, yükə girov hüququ əldə edilir.*

860.2. Əgər daşıyıcı öz girov hüququnu həyata keçirirsə, yükün çatdırılması yalnız mübahisəli məbləğin məhkəmədə depozitə qoyulduğu halda tələb edilə bilər. Bu məbləğ fraxt verənin girov hüququ barəsində yükü əvəz edir.

~~860.3. Bütün mübahisəli hallarda yükün olduğu yerdəki məhkəmə yükün depozitə qoyulmasına və ya satılmasına dair sərəncam verə bilər. Satışın qarşısı bütün mübahisəli tələblərin məbləğinin ödənilməsi və ya depozitə qoyulması vasitəsi ilə alına bilər.~~ (12)

Maddə 861. Yüklərin daşınması zamanı iddia müddətləri

Daşıyıcıya qarşı iddialar müddətin keçməsinə görə bir ildən sonra, yəni yükün məhv olduğu, itirildiyi və ya gecikdirildiyi təqdirdə çatdırmanın həyata keçirilməli olduğu gündən, yük zədələndikdə isə onun yük alana verildiyi gündən qüvvəsini itirir. Etiraz qaydasında yük alan və ya yük göndərən istənilən vaxt öz pretenziyalarını irəli sürə bilərlər, bu şərtlə ki, onlar bir illik müddət ərzində reklamasiya haqqında öz tələblərini bildirmiş olsunlar və iddia yükün qəbul edilməsi nəticəsində qüvvəsini itirməsin. Daşıyıcının qəsdi və kobud ehtiyatsızlığı halları istisna təşkil edir.

47-ci fəsil. Turist xidmətlərinin göstərilməsi

Maddə 862. Turist xidmətlərinin göstərilməsinə dair müqavilə

862.1. Turist xidmətlərinin göstərilməsinə dair müqaviləyə görə bu xidmətlərin təşkilatçısı istifadəçiyə məcmu halda turist xidmətləri göstərməyi (turist səfəri) öhdəsinə götürür, turist isə turist xidmətlərinin təşkilatçısına şərtləşdirilmiş xidmətlərə görə şərtləşdirilmiş muzd ödəməyə borcludur.

862.2. Turist xidmətlərinin məzmununa turist səfərinin əhatə etdiyi bir və ya bir neçə yerə aparma, habelə geriyə, səfərin başlandığı yerə gətirmə daxil ola bilər. Lakin turist xidmətləri (turist səfəri) göstərilməsi yalnız o halda baş verir ki, onun təşkilatçısı daşımadan əlavə, aşağıdakı xidmətlərdən, heç olmasa, birini göstərir:

862.2.1. qidalanma;

862.2.2. mehmanxanalarda yerləşdirmə;

862.2.3. təyinat məntəqəsində seyretmələr və ya mədəni tədbirlərdə iştirak.

862.3. Turist səfərinin təşkilatçısı turist xidmətlərinin göstərilməsinə dair müqavilə bağlayan hər hansı şəxsdir. Turist səfərinin təşkilatçısı özü daşıyıcı ola bilər və ya başqa turist xidmətləri göstərə bilər.

862.4. Turist xidmətlərinin göstərilməsinə dair müqaviləyə bu Məcəllənin 844, 845 və 847-849-cu maddələri müvafiq surətdə tətbiq olunur.

Maddə 863. Turist səfərinin həyata keçirilməsi və qüsurlara görə təşkilatçının məsuliyyəti

863.1. Turist səfərinin təşkilatçısı səfəri elə həyata keçirməlidir ki, səfərin qarantiya verilmiş xassələri olsun və turist səfərinin dəyərini, yaxud adi istifadəyə və ya müqavilənin məqsədlərinə uyğun istifadəyə yararlığını istisna edən və ya azaldan qüsurları olmasın.

863.2. Bu Məcəllənin 863.1-ci maddəsində göstərilmiş qüsurlar olduqda, bu Məcəllənin 846.2-846.4-cü maddələri tətbiq edilir. Lakin müqavilənin ləğvinə yalnız o halda yol verilir ki, turist səfərinin təşkilatçısı vəziyyəti düzəltmək üçün səfər iştirakçısının ona təyin etdiyi ağlabatan müddəti ötürmüş olsun. Əgər vəziyyəti düzəltmək mümkün deyildirsə və ya təşkilatçı bundan imtina edirsə və ya müqavilənin dərhal ləğv edilməsi səfər iştirakçısının xüsusi mənafelərinə uyğundursa, müddət təyin etmək tələb olunmur.

48-ci fəsil. Renta

§ 1. Renta haqqında ümumi müddəalar

Maddə 864. Renta müqaviləsi

864.1. Renta müqaviləsinə görə bir tərəf (renta alan) əmlakı digər tərəfin (renta ödəyicisinin) mülkiyyətinə verir, renta ödəyicisi isə alınmış əmlakın müqabilində renta alana vaxtaşırı müəyyən pul məbləği şəklində renta ödəməyi öhdəsinə götürür.

864.2. Renta müqaviləsinə görə rentanı müddətsiz ödəmək (daimi renta) və ya renta alanın ömrü boyu ödəmək (ömürlük renta) vəzifəsinin müəyyənləşdirilməsinə yol verilir.

Maddə 865. Renta müqaviləsinin forması

865.1. Renta müqaviləsi tərəflərin imzaladığı bir sənədin tərtibi yolu ilə yazılı formada bağlanır.

865.2. Renta ödənilməsi üçün daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsi notariat qaydasında təsdiqlənməlidir.

Maddə 866. Daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsinə görə mülkiyyət hüququnun keçməsinin qeydə alınması

Renta ödənilməsi üçün daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsinə görə mülkiyyət hüququnun keçməsi daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır.

Maddə 867. Renta ödənilməsi üçün əmlakın özgəninkiləşdirilməsi

867.1. Renta ödənilməsi üçün özgəninkiləşdirilən əmlakı renta alan renta ödəyicisinin mülkiyyətinə haqq müqabilində və ya pulsuz verə bilər.

867.2. Renta müqaviləsində əmlakın haqq müqabilində verilməsinin nəzərdə tutulduğu halda əmlakın verilməsi və ödənilməsi üzrə tərəflərin münasibətlərinə alğı-satqı haqqında qaydalar, belə əmlakın pulsuz verildiyi halda isə bağışlama müqaviləsi haqqında qaydalar tətbiq edilir, bir şərtlə ki, bu Məcəllənin bu fəslinin qaydaları ilə ayrı hal müəyyənləşdirilməsin və bu, renta müqaviləsinin mahiyyətinə zidd olmasın.

Maddə 868. Daşınmaz əşyanın renta ilə yüklülüyü

868.1. Renta torpaq sahəsini, binanı, qurğunu və ya onun ödənilməsi üçün verilmiş başqa daşınmaz əşyanı yüklü edir. Renta ödəyicisi belə əşyanı özgəninkiləşdirdikdə onun renta müqaviləsi üzrə öhdəlikləri əldə edənə keçir.

868.2. Renta ilə yüklü olan daşınmaz əşyanı başqa şəxsin mülkiyyətinə vermiş şəxs renta alanın renta müqaviləsinin pozulması ilə əlaqədar əmələ gəlmiş tələbləri üzrə həmin şəxslə subsidiar məsuliyyət daşıyır, bir şərtlə ki, bu Məcəllədə və ya müqavilədə bu öhdəlik üzrə birgə məsuliyyət nəzərdə tutulmasın.

Maddə 869. Renta ödənilməsinin təmin edilməsi

869.1. Torpaq sahəsi və ya digər daşınmaz əşya renta ödənilməsi üçün verildikdə renta alan renta ödəyicisinin öhdəliyinin təminatından ötrü həmin əşyaya girov hüququ əldə edir.

869.2. Pul məbləğinin və ya başqa daşınar əşyanın renta ödənilməsi üçün verilməsini nəzərdə tutan müqavilənin mühüm şərti renta ödəyicisinin öz öhdəliklərinin icrasına təminat vermək və ya bu öhdəliklərin icra olunmaması, ya da lazımınca icra olunmaması üçün məsuliyyət riskini renta alanın xeyrinə sığorta etdirmək vəzifəsini müəyyənləşdirən şərtdir.

869.3. Renta ödəyicisi bu Məcəllənin 869.2-ci maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmədikdə, habelə renta şərtlərinin təminatı renta alanın cavabdeh olmadığı hallara görə itirildikdə və ya pisləşdikdə renta alanın renta müqaviləsini ləğv etmək və müqavilənin ləğvi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb etmək ixtiyarı vardır.

Maddə 870. Rentanın forması və miqdarı

870.1. Renta müqavilə ilə müəyyənləşdirilmiş miqdarda pulla ödənilir. Renta müqaviləsində rentanın dəyərcə onun pul məbləğinə uyğun əmlakın verilməsi, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi yolu ilə ödənilməsi nəzərdə tutula bilər.

870.2. Renta müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, ödənilən rentanın miqdarı minimum əmək haqqının miqdarının artırılmasına proporsional surətdə artırılır.

§ 2. Daimi renta

Maddə 871. Daimi renta alan

871.1. Daimi renta alanlar yalnız fiziki şəxslər, habelə qeyri-kommersiya təşkilatları ola bilərlər, bir şərtlə ki, bu, qanuna zidd olmasın və onların fəaliyyətinin məqsədlərinə uyğun gəlsin.

871.2. Daimi renta müqaviləsi üzrə renta alanın hüquqları bu Məcəllənin 871.1-ci maddəsində göstərilmiş şəxslərə tələbin güzəşti yolu ilə verilə bilər və vərəsəlik üzrə və ya hüquqi şəxslər yenidən təşkil olunduqda hüquq varisliyi qaydasında keçə bilər, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

Maddə 872. Daimi rentanın ödənilməsi müddətləri

Əgər daimi renta müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, daimi renta hər təqvim rübünün sonunda ödənilir.

Maddə 873. Ödəyicinin daimi rentanı satın almaq hüququ

873.1. Daimi renta ödəyicisinin onu satın almaq ixtiyarı vardır.

873.2. Əgər müqavilədə satınalmanın başqa qaydası nəzərdə tutulmayıbsa, renta alan bütün satınalma məbləğini alanadək renta ödənilməsi öhdəliyinə xitam verilmir.

873.3. Daimi renta ödəyicisinin rentanı satın almaq hüququndan imtina etməsi haqqında daimi renta müqaviləsinin şərti əhəmiyyətsizdir.

873.4. Müqavilədə nəzərdə tutula bilər ki, daimi rentanı satın almaq hüququ renta alanın sağlığında və ya başqa müddət ərzində həyata keçirilə bilməz.

Maddə 874. Renta alanın tələbi ilə daimi rentanın satın alınması

874.0. Daimi renta alan aşağıdakı hallarda ödəyicinin rentanı satın almasını tələb edə bilər:

874.0.1. daimi renta müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, renta ödəyicisi onun ödənilməsini bir ildən çox gecikdirdikdə;

874.0.2. renta ödəyicisi renta ödənişini təmin etmək öhdəliklərini pozduqda;

874.0.3. onun rentanı müqavilə ilə müəyyənləşdirilmiş miqdarda və müddətlərdə ödəməyəcəyinə aşkar dəlalət edən hallar yarandıqda;

874.0.4. renta ödənilməsi üçün verilmiş daşınmaz əmlak ümumi mülkiyyətə daxil olduqda və ya bir neçə şəxs arasında bölüşdürüldükdə;

874.0.5. müqavilədə nəzərdə tutulmuş digər hallarda.

Maddə 875. Daimi rentanın satınalma qiyməti

875.1. Bu Məcəllənin 873 və 874-cü maddələrində nəzərdə tutulmuş hallarda daimi renta ona dair müqavilə ilə müəyyənləşdirilmiş qiymətlə satın alınır.

875.2. Daimi renta ödənilməsindən ötrü əmlakın haqq müqabilində verilməsi üçün əsas götürülən daimi renta müqaviləsində satınalma qiyməti haqqında şərt olmadıqda satınalma ödəniləsi rentanın illik məbləğinə uyğun qiymətlə həyata keçirilir.

875.3. Daimi renta ödənilməsindən ötrü əşyanın pulsuz verilməsi üçün əsas götürülən daimi renta müqaviləsində satınalma qiyməti haqqında şərt olmadıqda, satınalma qiymətinə renta ödənişlərinin illik məbləği ilə yanaşı, verilmiş əşyanın qiyməti də daxil edilir.

Maddə 876. Daimi renta ödənilməsi üçün verilmiş əmlakın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski

876.1. Daimi renta ödənilməsi üçün pulsuz verilmiş əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski renta ödəyicisinin üzərinə düşür.

876.2. Daimi renta ödənilməsi üçün haqq müqabilində verilmiş əşya təsadüfən məhv olduqda və ya təsadüfən zədələndikdə ödəyici müvafiq olaraq, rentanın ödənilməsi öhdəliyinə xitam verilməsini və ya onun ödənilməsi şərtlərinin dəyişdirilməsini tələb edə bilər.

§ 3. Ömürlük renta

Maddə 877. Ömürlük renta alan

877.1. Ömürlük renta əşyanı renta ödənilməsi üçün verən fiziki şəxsin sağlığı dövrü üçün və ya onun göstərdiyi başqa fiziki şəxsin sağlığı dövrü üçün müəyyənləşdirilə bilər.

877.2. Ömürlük rentanın bir neçə fiziki şəxsin xeyrinə müəyyənləşdirilməsinə yol verilir və əgər ömürlük renta müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, renta almaq hüququnda onların payları bərabər sayılır.

877.3. Əgər ömürlük renta müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, renta alanlardan biri öldükdə renta almaq hüququnda onun payı ondan çox yaşayan renta alanlara keçir. Sonuncu renta alan öldükdə rentanı ödəmək öhdəliyinə xitam verilir.

877.4. Müqavilənin bağlandığı məqamda sağ olmayan fiziki şəxsin xeyrinə ömürlük renta müəyyənləşdirən müqavilə əhəmiyyətsizdir.

Maddə 878. Ömürlük rentanın ödənilməsi müddətləri

Əgər ömürlük renta müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, ömürlük renta hər təqvim ayının sonunda ödənilir.

Maddə 879. Renta alanın tələbi ilə ömürlük renta müqaviləsinin ləğv edilməsi

879.1. Renta ödəyicisi ömürlük renta müqaviləsini əhəmiyyətli dərəcədə pozduqda renta alan renta ödəyicisindən rentanı satın almağı və ya müqaviləni ləğv etməyi və zərərin əvəzini ödəməyi tələb edə bilər.

879.2. Əgər ömürlük renta ödənilməsi üçün mənzil, yaşayış evi və ya başqa əmlak pulsuz özgəninkiləşdirilmişdirsə, renta ödəyicisi müqaviləni əhəmiyyətli dərəcədə pozduqda renta alan həmin əmlakın qaytarılmasını və onun dəyərinin rentanın satınalma qiyməti ilə əvəzləşdirilməsini tələb edə bilər.

Maddə 880. Ömürlük renta ödənilməsi üçün verilmiş əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski

Ömürlük renta ödənilməsi üçün verilmiş əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi renta ödəyicisini ömürlük renta müqaviləsində nəzərdə tutulmuş şərtlər əsasında rentanı ödəmək öhdəliyindən azad etmir.

49-cu fəsil. Barışıq razılaşması və mövcud borcun etirafı haqqında mücərrəd müqavilə (12)

Maddə 881. Barışıq razılaşması haqqında müqavilə

881.1. Barışıq razılaşması haqqında müqaviləyə görə tərəflər öz aralarında hüquqlar və ya iddialar barəsində mübahisəni və ya qeyri-müəyyənliyi qarşılıqlı güzəştlər yolu ilə həll edirlər.

881.2. Barışıq razılaşmasının qüvvəsi ondan ibarətdir ki, əvvəllər mübahisəli və ya qeyri-müəyyən olmuş hüquqlara və iddialara istinad edilməsi həmin razılaşmaya əsasən istisna edilir və hüquqi statusundan asılı olmayaraq iştirakçılar üçün yalnız barışıq razılaşmasında təsbit edilənlər etibarlı olur. Ayrı şərt haqqında razılaşma olmadıqda:

881.2.1. hər hansı iddiaya aid təminat və üstünlük hüquqları, məsələn, girov hüquqları, mülkiyyət və zaminlik hüquqlarının saxlanması haqqında qeyd-şərt qüvvədə qalır, bu şərtlə ki, belə iddia barışıq razılaşması ilə təsdiqlənsin;

881.2.2. barışıq razılaşmasının qüvvəsi barışıq razılaşması məqamında müqavilənin iştirakçısına məlum olmayan iddialara şamil edilmir.

881.3. Barışıq razılaşmasının bağlanması üçün forma tələb olunmur. Lakin əgər barışıq razılaşmasında hər hansı formanın gözlənilməsini tələb edən əqdlər vardırsa, razılaşma bu əqdlər üçün tələb edilən forma üzrə tərtib olunmalıdır, amma barışıq razılaşmasının məhkəmə qaydasında protokol şəklində tərtib olunduğu hallar istisna təşkil edir.

~~881.4. Əgər barışıq razılaşması məhkəmə qaydasında protokol şəklində bağlanmışdırsa və ya əgər notariat qaydasında təsdiqlənmiş barışıq razılaşmasının iştirakçılarından biri üçün digər iştirakçının müəyyən iddiaları ilə əlaqədar dərhal icraata başlanırsa, onda icraat istər barışıq razılaşması üzrə, istərsə də hüquqi qüvvəsi olan məhkəmə qərarı üzrə həyata keçirilə bilər.~~

881.5. Əgər müqavilə iştirakçıları hüquq münasibətlərini və ya iddiaları həyata keçirə bilmirlərsə, xüsusən məcburi qüvvəyə malik qanuni göstərişlərlə əlaqədar həyata keçirə bilmirlərsə, barışıq razılaşmasının qüvvəsi yoxdur. (12)

Maddə 882. Mövcud borcun etirafı haqqında mücərrəd müqavilə

882.1. Borcun etiraf edilməsini, həm də öhdəliyə əsas verən şəkildə etiraf edilməsini nəzərdə tutan hər hansı müqavilənin (mövcud borcun etirafı haqqında mücərrəd müqavilənin) yalnız o halda qüvvəsi vardır ki, borc öhdəliyi yazılı şəkildə və mövcudluğu etiraf edilən borcun əsaslandırılması üçün müəyyənləşdirilmiş forma üzrə verilsin. *Əgər mövcudluğu etiraf edilmiş öhdəlik münasibətlərinin yaranması üçün ayrı forma nəzərdə tutulubsa, etiraf üçün də belə forma tələb edilir.*

882.2. Bu Məcəllədə nəzərdə tutulan başqa göstərişlər olmadıqda, mövcud borcun etirafı haqqında mücərrəd müqaviləyə əsaslanan iddiaya qarşı başlıca əqddən irəli gələn heç bir etiraz irəli sürülə bilməz.

882.3. Bu zaman bu Məcəllənin *881.5-ci maddəsi* tətbiq olunur.

882.4. Bu Məcəllənin 882.1-882.3-cü maddələri öhdəliyin icrasının qəbul edilməsini, həm də bu barədə vədin öhdəliyə əsas verən şəkildə qəbul edilməsini nəzərdə tutan hər bir müqaviləyə (öhdəliyi öz üzərinə götürmək haqqında müqaviləyə) müvafiq surətdə tətbiq edilir.

882.5. Əgər borc hesablaşmaya (ödənişə) əsasən və ya razılaşma yolu ilə etiraf olunmuşsa, formaya riayət edilməsi məcburi deyildir. (12, 23)

50-ci fəsil. Sığorta

§ 1. Sığorta haqqında ümumi müddəalar

Maddə 883. Sığorta və təkrarsığorta müqaviləsi

883.1. Sığorta müqaviləsi sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

883.2. Təkrarsığorta müqaviləsi təkrarsığortalının müvafiq təkrarsığorta haqqı ödəməsi müqabilində sığortaladığı risklərin bütövlükdə və ya bir hissəsinin təkrarsığortaçıya ötürülməsi və ya onunla bölüşdürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır. (28)

Maddə 884. Sığorta münasibətlərinin subyektləri

884.1. Sığorta münasibətləri sığortalının və ya sığorta olunanın əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə bağlı olan əmlak mənafelərinin müdafiəsi sahəsində risklərin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanır.

884.2. Sığorta və ya təkrarsığorta müqaviləsinin tərəfi olan, yaxud belə müqavilənin həyata keçirilməsi üzrə hüquqlara və (və ya) vəzifələrə malik olan şəxslər sığorta münasibətlərinin subyektləridir.

884.3. Sığortaçı sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfidir.

884.4. Sığortalı sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfidir.

884.5. Sığorta olunan əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanan şəxsdir. Şəxsi sığorta üzrə sığorta müqaviləsində sığorta olunan qismində başqa şəxs nəzərdə tutulmayıbsa, sığortalı eyni zamanda sığorta olunan sayılır. Əmlak sığortası üzrə sığorta müqaviləsində sığorta olunan qismində başqa şəxs nəzərdə tutulmasından asılı olmayaraq, sığortalının sığorta olunan kimi tanınması heç bir halda, o cümlədən müqavilə şərtləri ilə məhdudlaşdırıla bilməz.

884.6. Faydalanan şəxs icbari sığorta qanunvericiliyinə və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) sığorta olunan faydalanan şəxs sayılır.

884.7. Təkrarsığortaçı ilkin sığortaçı və ya ilkin təkrarsığortaçı tərəfindən bağlanmış sığorta və ya təkrarsığorta müqavilələri əsasında sığortalanmış (təkrarsığortalanmış) riskləri təkrarsığortalayan (təkrarsığortaya qəbul edən) təkrarsığorta müqaviləsinin tərəfidir.

884.8. Təkrarsığortalı sığortaladığı və ya təkrarsığortaladığı riskləri təkrarsığorta müqaviləsi əsasında təkrarsığorta etdirən (təkrarsığortaya ötürən) sığortaçı və ya təkrarsığortaçıdır. (28)

Maddə 885. Sığorta sahələri

885.1. Sığorta sığortaçıların fəaliyyət istiqamətləri baxımından həyat sığortası və qeyri-həyat sığortası (ümumi sığorta) sahələrinə, sığorta obyekti baxımından şəxsi sığorta və əmlak sığortası sahələrinə bölünür.

885.2. Həyat və qeyri-həyat sığortası sahələrinin hər biri sığorta qanunvericiliyində nəzərdə tutulmuş sığorta siniflərindən ibarətdir.

885.3. Həyat sığortası sahəsinə aid olan sığorta sinifləri sığorta obyektinə görə yalnız şəxsi sığortaya aiddir.

885.4. Qeyri-həyat sığortası sahəsinə aid olan sığorta sinifləri həm şəxsi, həm də əmlak sığortasına aid ola bilər. (28)

Maddə 886. Sığorta obyekti və sığorta predmeti

886.1. Sığorta obyekti sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyidir.

886.2. Qanunazidd mənafelər, həmçinin qanuni, lakin sığortalanması qanunla qadağan olunan mənafelər, qanunvericiliklə nəzərdə tutulmuş cərimələr, habelə oyunlarda, mərclərdə, lotereyalarda iştirakla bağlı mənafelər sığorta obyekti ola bilməz.

886.3. Sığorta predmeti sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya haldır. (11, 28)

Maddə 887. Şəxsi sığortanın obyekti

Şəxsi sığortanın obyektləri sığortalının və ya sığorta olunanın həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə bağlı əmlak mənafeləridir. Şəxsi sığorta zamanı həm sığortalı özü, həm də müqavilədə göstərilən başqa şəxs (sığorta olunan) sığortalana bilər. (28)

Maddə 888. Əmlak sığortasının obyekti

888.1. Əmlak sığortasının obyektləri sığortalının əmlaka sahibliyi, ondan istifadəsi və (və ya) ona sərəncam verməsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, digər fiziki şəxslərin sağlamlığına xəsarət yetirməsi və ya fiziki şəxslərin əmlakına, həmçinin hüquqi şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi, istehsalat fəaliyyəti ilə bağlı əmlak mənafeləridir. Əmlak sığortasına əmlakın və mülki məsuliyyətin sığortası aiddir.

888.2. Əmlakın sığortası zamanı əmlakın zədələnməsi, itirilməsi (məhv olması) və çatışmazlığı, eyni zamanda əmlak hüquqlarının itirilməsi ilə bağlı risklər sığortalanır.

888.3. Mülki məsuliyyətin sığortası zamanı üçüncü şəxslərin həyatına, sağlamlığına, yaxud əmlakına zərər vurulması nəticəsində yaranan öhdəliklərə görə (zərər vurmağa görə mülki məsuliyyətin sığortası), habelə mülki-hüquqi müqavilələrlə bağlı yaranan məsuliyyətə görə (müqavilə şərtlərini pozmağa görə mülki məsuliyyətin sığortası) risklər sığortalanır.

888.4. Qarışıq maliyyə risklərinin, kredit risklərinin, ticarət və investisiya risklərinin, tapşırıq və qarantiya risklərinin, məhkəmə xərclərinin, habelə bu Məcəllənin 888.1-ci maddəsində nəzərdə tutulmuş əmlak mənafeləri ilə bağlı digər risklərin sığortası da obyektinə görə əmlak sığortasına aid edilir. (28)

Maddə 889. Sığorta marağı

889.1. Sığorta marağı sığorta hadisəsinin baş verəcəyi təqdirdə sığortalının maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir.

889.2. Sığorta marağının mövcudluğu qanunvericiliklə və ya qanunvericiliyə uyğun olaraq bağlanmış mülki-hüquqi müqavilə ilə tanınır. Sığortalı ilə sığorta predmeti arasında bu cür tanınan əlaqə yoxdursa, sığorta marağının mövcud olmadığı hesab edilir.

889.3. Sığortalının öz həyatı, habelə arvadının (ərinin), valideynlərinin, uşaqlarının, işçilərinin, işəgötürəninin, borclusunun, qəyyumunun, qəyyumluğunda olan şəxsin həyatı ilə bağlı sığorta marağı mövcuddur.

889.4. Sığorta marağı mövcud olmadan bağlanan sığorta müqaviləsi bağlandığı andan etibarsızdır.

889.5. Sığorta marağının gələcəkdə əldə edilməsi ehtimalı müvafiq sığorta müqaviləsinin bağlanması üçün əsas deyil.

889.6. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta marağı itərsə, sığorta müqaviləsinə xitam verilməlidir.

889.7. Sığorta hadisəsi kimi tanına bilən hadisə və ya hal baş verdiyi anda sığorta marağı mövcud olmadıqda, həmin hadisə və ya hal sığorta hadisəsi hesab edilmir və sığortaçı sığorta ödənişi üzrə vəzifələrinin icrasından azad edilir. (28)

Maddə 890. Təkrarsığorta

890.1. Təkrarsığorta sığortaçının sığorta müqaviləsi üzrə sığortaladığı və ya təkrarsığortaladığı risklərin bütövlükdə, yaxud bir hissəsinin sığorta qanunvericiliyində nəzərdə tutulmuş qaydada təkrarsığortaçı ilə bölüşdürülməsi və ya təkrarsığortaçıya ötürülməsidir.

890.2. Təkrarsığortanın şərtləri təkrarsığortaçı və təkrarsığortalı arasında yazılı formada bağlanan təkrarsığorta müqaviləsi ilə müəyyən edilir.

890.3. Bu Məcəllənin 940-cı maddəsində təminat şəhadətnaməsi üçün müəyyən edilmiş bütün məlumatlar təkrarsığorta müqaviləsində göstərilməlidir.

890.4. Sığortaçı və ya təkrarsığortaçı sığorta və ya təkrarsığorta müqavilələri üzrə sığortaladığı (təkrarsığortaladığı) riskləri təkrarsığorta etdirərkən, müvafiq sığortalıların və ya təkrarsığortalıların razılığı tələb olunmur.

890.5. Təkrarsığorta fakultativ və ya obliqator formada, mütənasib və ya qeyri-mütənasib növlər üzrə aparıla bilər.

890.6. Mütənasib təkrarsığorta müvafiq sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisəsinin baş verdiyi təqdirdə, təkrarsığortaçının təkrarsığorta müqaviləsi üzrə qəbul etdiyi sığorta riskinə mütənasib məbləğdə sığorta ödənişi vermək öhdəliyinin müəyyən edildiyi təkrarsığorta növüdür.

890.7. Qeyri-mütənasib təkrarsığorta müvafiq sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisəsinin baş verdiyi təqdirdə, təkrarsığortaçının təkrarsığortalının şəxsi tutumundan artıq olan məbləğdə sığorta ödənişi vermək öhdəliyinin müəyyən edildiyi təkrarsığorta növüdür.

890.8. Fakultativ təkrarsığorta hər bir riskin ayrılıqda qiymətləndirilməsinə əsasən onun təkrarsığortalanmasını nəzərdə tutan təkrarsığortanın formasıdır.

890.9. Obliqator təkrarsığorta təkrarsığorta müqaviləsi ilə müəyyən olunan şərtlərə cavab verən bütün risklərin təkrarsığortalanmasını nəzərdə tutan təkrarsığortanın formasıdır. (28)

Maddə 891. Sığortaçının (təkrarsığortaçının) təkrarsığorta müqaviləsinə görə sığortalı (təkrarsığortalı) qarşısında öhdəliyi

891.1. Bu Məcəllənin 891.2-ci maddəsi nəzərə alınmaqla, sığorta müqaviləsi üzrə sığortaladığı riskləri təkrarsığorta etdirən sığortaçı (təkrarsığorta müqaviləsinə əsasən təkrarsığortalı) həmin sığorta müqaviləsinə görə sığortalı qarşısında tam və birbaşa öhdəlik daşıyır.

891.2. Sığortaçı sığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçının öz öhdəliklərini icra edə bilmədiyi həddə müvafiq sığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən azaddır.

891.3. Bu Məcəllənin 891.4-cü maddəsi nəzərə alınmaqla, təkrarsığorta müqaviləsi üzrə təkrarsığortaladığı riskləri yenidən təkrarsığorta etdirən təkrarsığortaçı təkrarsığortalı qarşısında tam və birbaşa öhdəlik daşıyır.

891.4. Təkrarsığortaçı müvafiq riskləri təkrarsığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçıda yenidən təkrarsığorta etdirərsə, müvafiq təkrarsığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən ikinci təkrarsığortaçının öhdəliklərini icra edə bilmədiyi həddə azaddır. (28)

Maddə 892. Təkrarsığortaçının sənədləri tələb etmək hüququ

Təkrarsığortaçı təkrarsığortalıdan müvafiq sığorta qaydalarını və müqavilələrini, həmçinin sığorta hadisəsi baş verdikdə, müvafiq təsdiqedici sənədləri və ya onların surətlərini tələb etmək hüququna malikdir. (28)

Maddə 893. Şərikli sığorta

893.1. Şərikli sığorta bir neçə sığortaçının aralarında bağladıqları müqaviləyə müvafiq olaraq, sığorta ödənişi üzrə öhdəlikləri bölüşdürməklə sığorta müqaviləsi ilə müəyyən edilmiş sığorta risklərini eyni zamanda sığortalamaları ilə bağlı fəaliyyət və bununla əlaqədar yaranan münasibətlərdir.

893.2. Sığorta obyekti bir müqavilə ilə bir neçə sığortaçı tərəfindən sığortalana bilər. Bu müqavilədə hər bir sığortaçının razılaşdırılmış paylar əsasında hüquq və vəzifələrini müəyyən edən şərtlər olmalıdır.

893.3. Sığortalı qarşısında öhdəliyi öz payı miqdarında olmaqla şərikli sığortaçılardan biri sığortalı ilə münasibətdə bütün şərikləri təmsil edə bilər.

893.4. Müvafiq sığorta növü üzrə fəaliyyət göstərməyə icazəsi olmayan sığortaçı şərikli sığortada iştirak edə bilməz. (28)

Maddə 894. Qrup halında sığorta

894.1. Qrup halında sığorta zamanı bir sığorta müqaviləsi ilə bir neçə sığorta predmeti sığortalanır.

894.2. Qrup halında sığorta həm şəxsi, həm də əmlak sığortası üzrə aparıla bilər.

894.3. Şəxsi sığortaya aid olan qrup halında sığorta zamanı sığortalı sığorta olunanın kimliyi göstərilən sığorta müqaviləsində sığorta olunan şəxslərin hər birini sığorta müqaviləsinin onlara aid olan bütün şərtləri ilə tanış etməlidir. Bu halda sığorta olunanların sığorta müqaviləsi ilə müvafiq şəkildə tanış edilməsini təsdiq edən sənəd

(siyahı və s.) sığorta şəhadətnaməsinin ayrılmaz tərkib hissəsidir. Qrup halında sığorta zamanı şəxsi sığorta müqaviləsində sığorta olunanın kimliyi göstərildikdə və ya əmlak sığortası müqaviləsində sığortalanan əmlak fərdi şəkildə qeyd olunduqda, tərəflər arasında razılaşmaya əsasən, müvafiq olaraq sığorta olunan şəxslərin hər birinə, yaxud hər bir sığortalanan əmlaka görə sığorta şəhadətnaməsi verilə bilər.

894.4. Qrup halında sığorta zamanı sığorta olunanın kimliyi göstərilməyən şəxsi sığorta müqaviləsində və ya sığortalanan əmlak fərdi şəkildə qeyd olunmayan əmlak sığortası müqaviləsində sığorta olunan şəxslərin və ya əmlak sığortası müqaviləsində sığortalanan əmlakın dairəsi o dərəcədə konkretləşdirilməlidir ki, sığorta hadisəsini, onun nəticələrini və sığorta predmeti üzrə verilməli olan sığorta ödənişinin miqdarını müvafiq olaraq hər bir sığorta olunana və ya sığortalanan əmlaka münasibətdə fərdiləşdirmək mümkün olsun. (28)

Maddə 895. İkili (çoxqat) sığorta

895.1. Əmlakın sığortasında sığorta məbləği həmin əmlakın sığorta müqaviləsi bağlandığı andakı həqiqi dəyərindən - sığorta dəyərindən çox olduğu halda (ikili və ya çoxqat sığorta halında), həmin müqavilə sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində etibarsızdır.

895.2. Əmlak sığortalı tərəfindən qanunsuz gəlir əldə etmək məqsədi ilə bir və ya bir neçə sığorta müqaviləsi əsasında onun həqiqi dəyərindən artıq məbləğə sığorta etdirildikdə, bu məqsədlə bağlanmış hər bir sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır. Bu halda sığortalının qanunsuz gəlir əldə etmək məqsədi məhkəmə qaydasında sübut edilməlidir. (28)

Maddə 896. Qismən sığorta

Əmlakın sığortası üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında), sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir. (28)

Maddə 897. İcbari sığorta

897.1. İcbari sığortanın həyata keçirilməsi qanunvericiliklə tələb olunur.

897.2. Qanunvericiliyə uyğun olaraq, xeyrinə icbari sığorta müqaviləsi bağlanmalı olan şəxs sığortalanmadığını bildikdə, onu sığorta etdirmək vəzifəsi olan şəxsdən sığorta etdirilməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.

897.3. Qanunvericiliklə icbari sığorta etdirmək vəzifəsi müəyyən olunmuş şəxs bu vəzifəni yerinə yetirmədikdə və ya müvafiq sığorta müqaviləsini qanunvericiliklə nəzərdə tutulmuş şərtlərlə müqayisədə sığorta olunanın vəziyyətini pisləşdirən şərtlərlə bağladıqda, həmin şəxs müvafiq icbari sığorta üzrə sığorta hadisəsi kimi tanına bilən hadisənin baş verdiyi, yaxud halın yarandığı zaman sığorta olunan qarşısında ən azı həmin icbari sığorta üzrə qanunvericiliklə müəyyən edilmiş sığorta təminatı həddində öhdəlik daşıyır. (12, 28)

Maddə 898. Azadolma məbləği və gözləmə müddəti

898.1. İcbari sığorta qanunvericiliyində və könüllü sığorta növləri üzrə sığorta müqavilələrində şərtli və ya şərtsiz azadolma məbləği, həmçinin gözləmə müddəti müəyyən oluna bilər.

898.2. Azadolma məbləği sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur.

898.3. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda, zərər məbləğindən azadolma məbləği çıxılmır.

898.4. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda, həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

898.5. Sığorta müqaviləsində gözləmə müddəti nəzərdə tutulduqda, sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin əvəzinin ödənilməsi sığortalının üzərində qalır.

898.6. Şərtli gözləmə müddəti müəyyən edildikdə, sığorta hadisəsinin nəticələrinin həmin müddətə bərabər və ya ondan artıq müddətdə davam etməsi şərti ilə sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə də şamil edilir.

898.7. Sığorta müqaviləsində şərtsiz gözləmə müddəti müəyyən edildikdə, sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə şamil edilmir. (28)

§ 2. Sığorta müqaviləsinə dair başlıca tələblər

Maddə 899. Sığorta müqaviləsinin forması

899.1. Sığorta müqaviləsi yazılı formada aşağıdakı kimi bağlanır:

899.1.1. tərəflərin müvafiq sığorta qaydaları əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

899.1.2. müvafiq sığorta qaydaları ilə sığortalının razı olmasını təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;

899.1.3. icbari sığorta qanunvericiliyində nəzərdə tutulmuş digər qaydada.

899.2. Bu Məcəllənin 899.1.2-ci maddəsində nəzərdə tutulmuş halda sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

899.3. Bu Məcəllənin 899.1-ci və 899.2-ci maddələrinə əməl edilməməsinə görə sığortaçı məsuliyyət daşıyır. (28)

Maddə 900. Sığorta müqaviləsinin məzmunu

900.1 Bu Məcəllənin 899.1.1.-ci maddəsində nəzərdə tutulmuş halda sığorta müqaviləsində aşağıdakılar göstərilməlidir:

900.1.1. sığortaçının adı və ünvanı;

900.1.2. sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı və atasının adı) və ünvanı;

900.1.3. sığorta predmeti və yerləşdiyi ünvan, həmçinin sığorta olunan(lar)ın adı (fiziki şəxs olduqda, həmçinin soyadı, atasının adı, doğum tarixi) və ünvanı;

900.1.4. faydalanan şəxsin adı (fiziki şəxs olduqda, həmçinin soyadı, atasının adı və doğum tarixi) və ünvanı;

900.1.5. sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə, yaxud hər bir sığorta olunana münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı;

900.1.6. sığorta haqqının ümumi və hər bir sığorta predmeti üzrə məbləği və ödənilməsi qaydası;

900.1.7. sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;

900.1.8. sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi, həmçinin ona xitam verilməsi qaydası;

900.1.9. sığorta müqaviləsi üzrə təminat verilən sığorta riskləri, eyni zamanda, əgər bu barədə razılaşdırılıbsa, müvafiq sığorta qaydalarında nəzərdə tutulmuş əlavə sığorta təminatları;

900.1.10. sığorta ödənişinin verilməsi qaydası və əsasları;

900.1.11. sığorta ödənişinin verilməsindən imtinanın əsasları;

900.1.12. sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti;

900.1.13. mübahisələrin həlli qaydası;

900.1.14. sığorta müqaviləsinin tərəflərinin qarşılıqlı razılaşması əsasında müəyyən edilən, qanunvericiliyə zidd olmayan digər şərtlər;

900.1.15. sığorta müqaviləsinin tərəflərinin imzaları, hüquqi şəxs olduqda həmçinin möhürləri.

900.2 İcbari sığorta müqaviləsinin bağlanması qaydası icbari sığorta qanunvericiliyi ilə müəyyən edilir. (28)

Maddə 901. Sığorta şəhadətnaməsi

901.1. Qanunvericilikdə başqa cür nəzərdə tutulan hallar istisna olmaqla, sığortaçı sığortalıya sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən sənəd - sığorta

şəhadətnaməsi verməlidir. Bu tələb sığorta müqaviləsinin bu Məcəllənin 899.1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada bağlandığı hala da şamil edilir.

901.2. Müqavilə üzrə sığorta olunan eyni zamanda sığortalı olmadıqda, sığorta şəhadətnaməsi sığortalının yazılı tələbi ilə sığorta olunana da verilə bilər.

901.3. Əgər icbari sığorta qanunvericiliyində və sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta şəhadətnaməsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənildiyi gün, qrup halında sığorta zamanı isə sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən 3 iş günü müddətində verilməlidir.

901.4. Sığorta şəhadətnaməsi itdikdə və ya məhv olduqda, sığortalı və ya sığorta olunan onun dublikatını sığortaçıdan tələb edə bilər.

901.5. Bu Məcəllənin 901.4-cü maddəsində nəzərdə tutulmuş tələbin yazılı şəkildə daxil olduğu tarixdən etibarən 3 iş günü müddətində sığortaçı sığortalını və ya sığorta olunanı müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, öz hesabına müvafiq sığorta şəhadətnaməsinin dublikatı ilə təmin etməlidir. (28)

Maddə 902. Sığorta şəhadətnaməsinin məzmunu

902.1. Sığorta şəhadətnaməsində aşağıdakılar göstərilməlidir:

902.1.1. sığortaçının adı və ünvanı;

902.1.2. sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı və atasının adı) və ünvanı;

902.1.3. sığorta predmeti və onun olduğu yer, yaxud sığorta olunanın adı (fiziki şəxs olduqda, həmçinin soyadı, atasının adı, doğum tarixi) və ünvanı;

902.1.4. sığorta riskləri;

902.1.5. sığorta məbləği;

902.1.6. sığorta haqqının məbləği, onun verilməsi qaydası və müddəti;

902.1.7. sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;

902.1.8. sığorta müqaviləsinin aid olduğu digər şəxslər (faydalanan şəxs, sığorta agenti və sığorta brokeri) varsa, onların adı (fiziki şəxs olduqda, həmçinin soyadı və atasının adı) və ünvanı;

902.1.9. sığortaçının sığorta şəhadətnaməsini, sığortalının isə müvafiq sığorta qaydaları ilə tanış olmasını təsdiq edən imzaları və (və ya) möhürləri.

902.2. Sığorta şəhadətnaməsində sığortalının və ya sığorta olunanın sığorta müqaviləsi üzrə hüquqlarının pozulmasını hesab etdiyi hallarda sığorta nəzarəti orqanına şikayətlə müraciət etməsi üçün həmin orqanın adı, ünvanı və telefon nömrəsi aydın şəkildə göstərilməlidir. (28)

Maddə 903. Sığorta haqqı

903.1. Sığorta haqqı risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

903.2. Sığorta haqqının miqdarı və ya onun hesablanması və ödənilməsi qaydası könüllü sığortada sığorta müqaviləsi ilə, icbari sığortada isə icbari sığorta qanunvericiliyi ilə müəyyən edilir.

903.3. Qanunvericilikdə başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsində sığorta haqqının hissə-hissə ödənilməsi razılaşdırıla bilər.

903.4. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.

903.5. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə, sığortaçı onun ödənilməsi üçün bu Məcəllənin 903.6-cı maddəsinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

903.6. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir. (28)

Maddə 904. Sığorta məbləği

904.1. Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

904.2. Sığorta məbləği qanunvericiliklə və ya sığorta müqaviləsi ilə müəyyənləşdirilir. (28)

Maddə 905. Sığortalanan əmlakın dəyərinin mübahisə predmeti olması

Sığortalanan əmlak barəsində sığortaçıya sığortalı tərəfindən qəsdən yanlış məlumat verilməsinin sübut edildiyi hallar istisna olmaqla, tərəflər əmlakın sığorta müqaviləsində müəyyən edilmiş dəyərini mübahisələndirə bilməzlər. (28)

Maddə 906. Sığorta təminatının müddətinin başlanması və sonu

İcbari sığorta qanunvericiliyində və ya könüllü sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır. (28)

Maddə 907. İcbari sığorta müqaviləsinin məcburiliyi

907.1. Sığorta qanunvericiliyi ilə üzərinə icbari qaydada sığorta etdirmək vəzifəsi qoyulan şəxs müvafiq icbari sığorta növünü aparmağa icazəsi olan sığortaçını sərbəst seçmək hüququndan istifadə etməklə müvafiq icbari sığorta müqaviləsini bağlamağa borcludur.

907.2. İcbari sığorta növünü aparmağa icazəsi olan sığortaçı sığorta qanunvericiliyi ilə müəyyən edilmiş hallar istisna olmaqla müvafiq icbari sığorta müqaviləsini bağlamaqdan imtina edə bilməz.

907.3. Sığortalı qismində sığorta etdirməli olan şəxsin, eləcə də sığortaçı qismində sığortalamağa borclu olan sığortaçının müvafiq icbari sığorta müqaviləsini bağlamaması qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. (28)

Maddə 908. Sığorta müqaviləsinin etibarsızlığı

908.1. Əqdlərin etibarsızlığının bu Məcəllə ilə nəzərdə tutulmuş ümumi əsasları ilə yanaşı, sığorta müqaviləsi aşağıdakı hallarda bağlandığı andan etibarsız sayılır:

908.1.1. sığorta obyekti məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən müsadirə edilməli əmlakla bağlı olduqda;

908.1.2. sığorta müqaviləsi sığortaçının və ya sığortalının adından müqavilə bağlamağa ixtiyarı olmayan şəxslərlə bağlandıqda;

908.1.3. sığorta müqaviləsi bağlandığı anda sığorta predmeti mövcud olmadıqda;

908.1.4. sığorta obyekti sığortalının qeyri-qanuni mənafeləri ilə, həmçinin sığortalanması qanunvericiliklə qadağan olunmuş mənafeləri ilə bağlı olduqda;

908.1.5. əmlak bir və ya bir neçə sığorta müqaviləsi ilə həqiqi dəyərindən artıq məbləğə sığortalandıqda, sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində;

908.1.6. sığorta qaydalarında nəzərdə tutulmayan və sığortalının vəziyyətini pisləşdirən əlavə şərtlər sığorta müqaviləsinə daxil edildikdə, həmin şərtlərə münasibətdə;

908.1.7. sığorta fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan və ya müvafiq sığorta növünü aparmağa icazəsi olmayan şəxs sığortaçı qismində müvafiq sığorta müqaviləsini bağladıqda (bu halda ödənilmiş sığorta haqları tam həcmdə sığortalıya qaytarılır);

908.1.8. sığorta marağı mövcud olmadıqda.

908.2. Sığortaçı sığorta müqaviləsinin bağlanmasının bu Məcəllənin 899.1-ci maddəsində nəzərdə tutulmuş qaydalarına əməl olunmamasına görə öz vəzifələrinin yerinə yetirilməsindən imtina etmək üçün sığorta müqaviləsinin etibarsız olmasını iddia edə bilməz. (28)

Maddə 909. Faydalanan şəxsin təyin edilməsi

909.1. Sığortalı sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi faydalanan şəxs kimi təyin etmək, habelə sığorta hadisəsi baş verənədək sığortaçının və həmin şəxsin razılığı ilə onu dəyişdirmək hüququna malikdir.

909.2. Girov qoyulan əmlakın sığortası müqaviləsində girov saxlayan yalnız sığorta ödənişinin verilməsi anında borclunun (girov qoyanın) ona olan borc məbləği həddində ödəniş almaq hüququna malik olan faydalanan şəxs kimi tanına bilər. Zərərin borc məbləğindən artıq olan hissəsinə münasibətdə girov qoyan (borclu) faydalanan şəxs qismində tanınmalıdır.

909.3. Öz həyatını sığorta etdirən fiziki şəxs müvafiq sığorta müqaviləsində istənilən şəxsi faydalanan şəxs qismində təyin edə bilər. (28)

Maddə 910. Şəxsi sığorta müqavilələrində sığorta olunanın yazılı razılığı

Şəxsi sığortada sığortalı həm də sığorta olunan olmadıqda, sığorta müqaviləsinin bağlanmasına sığorta olunanın (və ya onun qanuni nümayəndəsinin) müqavilənin onun xeyrinə bağlanması təklifi ilə yazılı qaydada tanış edilməsi şərti ilə yol verilir. (28)

Maddə 911. Sığorta müqaviləsinin bağlanması zamanı məlumat vermək vəzifəsi

911.1. Sığorta müqaviləsi bağlanarkən sığortalı sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq hüququna malikdir.

911.2. Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir.

911.3. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan sığortalı bu barədə sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə, bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır. (28)

Maddə 912. Sığorta riskinin artması barədə məlumat vermək vəzifəsi

Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə sığortaçıya məlumat verməlidir. (28)

Maddə 913. Sığorta müqaviləsinin şərtləri ilə tanış etmək vəzifəsi

Sığortaçı, sığorta brokeri və ya sığorta agenti sığortalını icbari sığortanın şərtləri ilə, yaxud könüllü sığorta müqaviləsinin əsaslandığı sığorta qaydaları ilə tanış etməlidir. (28)

Maddə 914. Sığorta riskinin qiymətləndirilməsi

914.1. Əmlak sığortası müqaviləsi bağlayarkən sığortaçı sığortalanan predmetə baxış keçirmək, fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirmək, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədi ilə sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin etmək hüququna malikdir.

914.2. Sığortaçı sığortalanan əmlakı, həmçinin sığorta risklərini bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs, yaxud müstəqil ekspert vasitəsilə qiymətləndirir.

914.3. Şəxsi sığorta müqaviləsi bağlandıqda sığortaçı sığorta olunan şəxsin səhhətinin mövcud vəziyyətini qiymətləndirmək məqsədi ilə onun sığorta müqaviləsinin şərtlərindən asılı olaraq, öz hesabına və ya sığortalının hesabına müayinə olunmasını tələb edə bilər.

914.4. Sığorta riskinin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər. (28)

Maddə 915. Sığorta qaydaları

Sığortaçının təklif etdiyi könüllü sığorta növünün sığorta qanunvericiliyində müəyyən edilmiş qaydada aparılmasının əsaslandığı, həmin sığorta növü üzrə qayda və şərtlərin məcmusu olan sığorta qaydaları sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, sığortaçının özü tərəfindən və ya qanunvericilikdə nəzərdə tutulmuş digər qaydada müəyyən edilir. (28)

Maddə 916. Sığorta qaydalarının məzmunu

916.1. Sığorta qaydalarında aşağıdakılar müəyyən edilməlidir:

916.1.1. müvafiq sığorta növünün aid olduğu və ya bu növdə birləşdirilmiş sığorta sinifləri;

916.1.2. sığorta predmetlərinin—sığorta olunanların, sığortalanan əşyaların və ya halların konkret kateqoriyası;

916.1.3. sığorta məbləğlərinin müəyyən edilməsi qaydası;

916.1.4. sığorta riskləri;

916.1.5. sığorta risklərindən istisnalar və (və ya) sığorta təminatında məhdudiyyətlər;

916.1.6. sığorta müqaviləsinin bağlanması, həmçinin ona əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası;

916.1.7. tərəflərin hüquqları və vəzifələri;

916.1.8. sığorta hadisəsi baş verdikdə sığortalının vəzifələri;

916.1.9. sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri, sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin konkret siyahısı;

916.1.10. sığorta ödənişinin verilməsindən imtinanın əsasları;

916.1.11. sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarın qəbul edilməsi müddəti;

916.1.12. sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti;

916.1.13. mübahisələrin həlli qaydası;

916.1.14. sığorta tarifləri və onların iqtisadi əsaslandırılması.

916.2. Bu Məcəllənin 916.1.5-ci maddəsində nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər qanunvericiliyə zidd olmadığı və sığorta nəzarəti orqanının etiraz etmədiyi hallarda tərəflərin razılığı ilə sığorta təminatına daxil edilə bilər. (28)

Maddə 917. Həyat sığortası müqavilələrinə dair əlavə tələblər

917.1. Sığorta olunanın sığortaçının mənfəətində iştirak etməsi şərti ilə bağlanan həyat sığortası müqaviləsində mənfəətin bölüşdürülməsi qaydası göstərilməlidir.

917.2. Sığortalının həyat sığortası müqaviləsinin bağlanması zamanı özünün məlumat vermək vəzifəsini icra etməməsi müqavilənin bağlandığı vaxtdan 5 il müddət keçdikdən sonra sığortaçının müqavilə üzrə vəzifələrinin icrasından imtina etməsi üçün əsas ola bilməz. Bu halda sığortalı məlumat vermək vəzifəsini qəsdən icra etməmişdirsə, müqavilədən imtinaya yol verilir. (28)

Maddə 918. Vahid sığorta müqaviləsi tərtib etməklə sığorta müqaviləsinin bağlanması

918.1. Sığortalı ilə sığortaçı arasındakı razılaşmaya görə davamlı olaraq eynicinsli əmlakın (malların, yüklərin və s.) müxtəlif hissələrinin oxşar şərtlərlə ayrı-ayrı dövrlər üzrə sığorta olunması vahid sığorta müqaviləsi tərtib edilməklə bir sığorta müqaviləsi əsasında həyata keçirilə bilər.

918.2. Sığortalı bu Məcəllənin 918.1-ci maddəsində göstərilən əmlakın hər bir hissəsi haqqında sığorta müqaviləsində razılaşdırılmış məlumatları vaxtında, belə məlumatların təqdim edilmə vaxtı müqavilədə nəzərdə tutulmadıqda isə, həmin məlumatları əldə etdikdən dərhal sonra sığortaçıya çatdırmalıdır. Məlumatlar əldə edildiyi zaman zərərlərin əvəzinin sığortaçı tərəfindən ödənilməyəcəyi məlum olduqda belə, sığortalı bu maddədə nəzərdə tutulmuş vəzifənin yerinə yetirilməsindən azad edilmir.

918.3. Sığortalı tələb etdikdə, sığortaçı bu Məcəllənin 918.1-ci maddəsində nəzərdə tutulan müqavilənin aid olduğu əmlakın ayrı-ayrı hissələri üzrə sığorta şəhadətnaməsi verməlidir. (28)

Maddə 919. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi

919.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

919.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;

919.1.2. aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:

919.1.2.1. əmlak sığortası müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri mülki qanunvericiliklə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

919.1.2.2. qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

919.1.2.3. başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış sığortalı vəfat etdikdə, onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə təqdim edildikdən sonra ona özünün yazılı razılığı ilə keçir;

919.1.2.4. sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir.

919.1.3. Sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə, sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

919.1.4. icbari sığorta qanunvericiliyində, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən, sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə, əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilə bilər;

919.1.5. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

919.1.6. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;

919.1.7. sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

919.1.8. sığorta marağı artıq mövcud olmadıqda.

919.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, mülki məsuliyyət sığortası üzrə müqavilə məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir, digər hallarda isə belə sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir. (28)

Maddə 920. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə

920.1. Bu Məcəllənin 919-cu maddəsində göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda, müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

920.2. Sığorta qanunvericiliyində və ya könüllü sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, həmçinin tərəflərin başqa cür razılaşmasına əsasən, sığorta müqaviləsinə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış

olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir. (28)

Maddə 921. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

921.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

921.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır.

921.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

921.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Məcəllənin 921.1-ci və 921.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

921.5. Sığorta müqaviləsi bu Məcəllənin 919.2-ci maddəsində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Məcəllənin 921.3-cü və 921.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır. (28)

§3. Sığorta hadisəsi və sığorta ödənişi

Maddə 922. Sığorta hadisəsi

922.1. Sığorta hadisəsi qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan haldır.

922.2. Sığorta hadisəsi hesab edilən hadisələr və hallar icbari sığorta üzrə icbari sığorta qanunvericiliyində, könüllü sığorta üzrə isə tərəflərin razılaşması əsasında sığorta müqaviləsində müəyyən edilir.

922.3. Sığorta hadisəsi baş vermə ehtimalına və (və ya) təsadüfilik əlamətlərinə malik olmalıdır. (28)

Maddə 923. Sığorta hadisəsi barədə məlumatlandırma

923.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir. İcbari sığorta qanunvericiliyində və sığorta müqaviləsində sığorta hadisəsi barədə sığortaçıya xəbər vermənin ağlabatan müddəti və (və ya) üsulu nəzərdə tutula bilər.

923.2. Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya sığorta olunan şəxs, həmçinin faydalanan şəxs bu Məcəllənin 923.1-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.

923.3. Sığortalı və ya sığorta olunan tərəfindən sığortaçının sığorta hadisəsinin baş verməsi barədə məlumatlandırmasından asılı olmayaraq, sığortaçıya bu barədə məlumatlandırılmış səlahiyyətli dövlət orqanı xəbər verməlidir.

923.4. Bu Məcəllənin 923.1-ci maddəsində üzərinə məlumatlandırma vəzifəsi qoyulan şəxslərdən başqa digər şəxslər, o cümlədən səlahiyyətli dövlət orqanları və müvafiq hallarda zərərçəkən tərəfindən də sığorta hadisəsinin baş verməsi haqqında hər hansı vasitə ilə sığortaçıya xəbər verilməsi sığorta hadisəsi barədə məlumatlandırılma hesab edilir. (28)

Maddə 924. Sığorta hadisəsinin təsdiqi

924.1. Sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları bu Məcəllənin 924.2-ci maddəsi nəzərə alınmaqla, sığortalıdan tələb etmək hüququna malikdir.

924.2. Sığorta hadisəsi hesab edilə bilən, qanunvericiliyə uyğun olaraq araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək sığortaçının və ya onun nümayəndəsinin vəzifəsidir.

924.3. Səlahiyyətli dövlət orqanları sığortaçının yazılı sorğusuna əsasən, sığorta hadisəsi ilə əlaqədar tələb olunan, yayılması qanunvericiliklə qadağan olunmayan istənilən məlumatı sığortaçının sorğusu daxil olduğu tarixdən etibarən 10 gün müddətində təqdim etməlidirlər. (28)

Maddə 925. Zərərin qiymətləndirilməsi

925.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir.

925.2. Sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirir.

925.3. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.

925.4. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

925.5. Əmlak sığortası müqaviləsi üzrə sığortalı, sığorta olunan və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

925.5.1. Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

925.5.2. sığortaçı sığorta hadisəsi barədə bu Məcəllədə nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

925.5.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda. (28)

Maddə 926. Sığorta ödənişi

926.1. Sığorta ödənişi sığorta hadisəsi baş verdikdə qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq, sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

926.2. Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

926.3. Sığorta ödənişinin miqdarının müəyyən edilməsi və ödənilməsi qaydası icbari sığortada icbari sığorta qanunvericiliyi ilə, könüllü sığortada müvafiq sığorta qaydalarına əsasən bağlanan sığorta müqaviləsi ilə müəyyən edilir. (28)

Maddə 927. Əmlak sığortası üzrə sığorta ödənişinə dair əlavə tələblər

927.1. Əmlakın sığortasında və əmlaka vurulan zərərə görə mülki məsuliyyətin sığortasında sığorta ödənişi sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya sığorta olunana, habelə zərərçəkən üçüncü şəxsə dəyən real zərərin miqdarından çox ola bilməz.

927.2. Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra əmlak sığortası üzrə sığorta ödənişi sığortaçının seçimi əsasında aşağıdakı formalarda həyata keçirilə (ödənilə) bilər:

927.2.1. zərər məbləğinin pul şəklində faydalanan şəxsə ödənilməsi;

927.2.2. sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün sığortalıya (sığorta olunana və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

927.2.3. sığorta predmeti olan, yaxud zərərçəkmiş üçüncü şəxsə məxsus əmlakın təmiri və ya bərpası;

927.2.4. sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

927.3. Girov qoyulan əmlakın sığortası üzrə sığorta hadisəsi baş verdiyi tarixdə faydalanan şəxs olan girov saxlayana borclunun (girov qoyanın) borc (kredit) müqaviləsi üzrə sığorta ödənişinin verildiyi tarixə ona ödəməli olduğu məbləğdən artıq sığorta ödənişi verilə bilməz. (28)

Maddə 928. Şəxsi sığorta üzrə sığorta ödənişi

Şəxsi sığorta üzrə sığorta ödənişi onu almaq hüququ olan şəxsə sosial sığorta, həmçinin icbari və ya könüllü sığortalar üzrə nəzərdə tutulan ödənişlərdən asılı olmayaraq, qanunvericilikdə və ya sığorta müqaviləsində müəyyən olunmuş qaydada ödənilməlidir. (28)

Maddə 929. Sığorta ödənişindən sığorta haqqının tutulması

Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir. (28)

Maddə 930. Sığorta məbləğinin sığorta ödənişinə uyğun olaraq azalması

930.1. Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur. Sığorta qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik etmək vacib deyil.

930.2. Bu Məcəllənin 930.1-ci maddəsində nəzərdə tutulmuş halda sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər. (28)

Maddə 931. İcbari sığorta ödənişinin üstünlüyü

Bir sığorta hadisəsi üzrə dəyən zərərin və (və ya) yaranan itkilərin əvəzinin ödənilməsi üçün iki və ya daha çox sığorta müqaviləsi ilə bir və ya bir neçə sığortaçının öhdəlikləri yarandıqda, əvvəlcə icbari sığorta müqavilələri üzrə sığorta ödənişləri verilməlidir. Bu zaman könüllü sığorta müqaviləsi bağlamış sığortaçı sığortalı (sığorta olunan və ya faydalanan şəxs) qarşısındakı öhdəliklərini öz istəyi ilə icbari sığorta müqaviləsi bağlamış sığortaçıdan əvvəl yerinə yetirə bilər. (28)

Maddə 932. Sığorta ödənişi barədə qərarın təxirə salınması

Sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı mülki məsuliyyətin sığortası üzrə üçüncü şəxs barəsində, digər hallarda isə sığortalı və ya sığorta olunan barəsində həmin hadisənin baş verməsi ilə əlaqədar inzibati xəta üzrə iş və ya cinayət işi başlanarsa, sığortaçı müvafiq sığorta ödənişinin verilib-verilməməsi barədə qərarını səlahiyyətli orqanın bu iş üzrə yekun qərarından sonra qəbul edir. (28)

Maddə 933. Sığorta ödənişinin verilməsinin əsasları

933.1. Sığorta ödənişi aşağıdakılara əsasən həyata keçirilir:

933.1.1. sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi;

933.1.2. sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;

933.1.3. qanunvericilikdə və müvafiq sığorta qaydalarında nəzərdə tutulan, sığorta ödənişinin verilməsi üçün tələb olunan digər sənədlər.

933.2. Bu Məcəllənin 933.1.1-ci maddəsi tibbi sığorta sinfi üzrə sığorta hadisələrinə şamil edilmir. (28)

Maddə 934. Sığorta ödənişinin gecikdirilməsinin nəticəsi

Sığortaçı sığorta ödənişini sığorta qanunvericiliyi və ya sığorta müqaviləsi ilə müəyyən olunmuş müddətdə ödəmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir. (28)

Maddə 935. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları

935.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

935.1.1. bu Məcəllənin 923.1-ci maddəsinin tələblərinə əməl edilməməsi nəticəsində sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar

olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı bu Məcəllənin 925.5-ci maddəsinə riayət edilmədikdə;

935.1.2. qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

935.1.3. müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

935.1.4. sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

935.1.5. sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən bu Məcəllənin 925.5.1-ci maddəsində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

935.1.6. bu Məcəllənin 935.2-ci maddəsi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

935.1.7. əmlakın sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

935.1.8. baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

935.1.9. sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu Məcəllənin 903.5-ci maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

935.1.10. icbari sığorta qanunvericiliyində və ya sığorta qaydalarında nəzərdə tutulmuş digər hallarda.

935.2. Bu Məcəllənin 911.2-ci maddəsində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış

məlumatların verilməsində təqsirli olmadıqda, sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi faktına əsaslana bilməz. (28)

Maddə 936. Subroqasiya hüququ

936.1. Subroqasiya hüququ bu Məcəllənin 936.6-cı maddəsi nəzərə alınmaqla, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.

936.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

936.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda, subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

936.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə, sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

936.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən, dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

936.6. Həyat sığortası siniflərinə və fərdi qəza sığortasına aid olan hallarda subroqasiya hüququ tətbiq edilmir. (28)

§ 4. Sığorta vasitəçiliyi

Maddə 937. Sığorta münasibətlərində sığorta vasitəçilərinin iştirakı

937.1. Sığorta (təkrarsığorta) müqaviləsi tərəflər arasında həm birbaşa, həm də sığorta vasitəçilərinin - sığorta agentlərinin və ya sığorta brokerlərinin xidmətindən istifadə etməklə bağlana bilər.

937.2. Sığortaçı aşağıdakı sığorta əməliyyatlarında onun adından çıxış edən sığorta agentinin vasitəçilik xidmətlərindən istifadə edə bilər:

937.2.1. sığorta müqavilələrinin bağlanması və bununla əlaqədar sövdələşmələrin aparılması;

937.2.2. sığorta müqaviləsinin davam etdirilməsi və ya yenilənməsi ilə bağlı sövdələşmələrin aparılması.

937.3. Sığorta brokeri sığortalını (təkrarsığortalını) sığortaçı (təkrarsığortaçı) ilə münasibətlərdə təmsil etməklə aşağıdakı sığorta əməliyyatlarında vasitəçilik edə bilər:

937.3.1. sığorta (təkrarsığorta) müqavilələrinin bağlanması və bununla əlaqədar sövdələşmələrin aparılması;

937.3.2. sığorta (təkrarsığorta) müqavilələrinin davam etdirilməsi və ya yenilənməsi ilə bağlı sövdələşmələrin aparılması;

937.3.3. sığorta (təkrarsığorta) müqavilələrinin həyata keçirilməsi, o cümlədən sığorta (təkrarsığorta) tələbləri və sığorta ödənişləri üzrə sövdələşmələrin aparılması və (və ya) məsləhətlərin verilməsi. (28)

Maddə 938. Sığorta və ya təkrarsığorta müqavilələrinin sığorta vasitəçiliyi ilə bağlanması

938.1. Sığorta müqaviləsi sığorta agenti vasitəsilə bağlandıqda, sığorta agenti müqaviləni həmin sığortaçının adından yalnız onun yazılı qaydada verdiyi səlahiyyət əsasında imzalaya bilər.

938.2. Sığorta (təkrarsığorta) müqaviləsi sığorta brokeri vasitəsilə bağlandıqda, müqavilə sığortaçı və sığortalı tərəfindən və ya sığortalının (təkrarsığortalının) yazılı qaydada verdiyi səlahiyyət əsasında sığorta brokeri tərəfindən imzalana bilər.

938.3. Sığorta (təkrarsığorta) müqaviləsi sığorta vasitəçiliyi ilə bağlandıqda, həmin müqavilədə müvafiq olaraq sığorta agentinin və ya sığorta brokerinin adı, (fiziki şəxsdirsə, həmçinin soyadı) və ünvanı göstərilməlidir. (28)

Maddə 939. Sığorta brokerinin sığorta müqaviləsinin tərəflərini sənədlərlə təmin etməsi

939.1. Sığorta brokeri onun vasitəsilə bağlanan sığorta müqaviləsini tərəflərdən sonuncusunun imzaladığı tarixdən etibarən 3 gün müddətində sığortalını həmin müqavilənin nüsxəsi və (və ya) müvafiq sığorta şəhadətnaməsi ilə, bu mümkün olmadıqda isə, müvafiq sığorta müqaviləsinin nüsxəsinin, yaxud sığorta şəhadətnaməsinin sığortalıya verilməsinədək qüvvədə olan, bu Məcəllənin 940-cı maddəsində nəzərdə tutulmuş təminat şəhadətnaməsi ilə təmin etməlidir.

939.2. Sığorta brokeri onun vasitəsilə bağlanan təkrarsığorta müqaviləsini tərəflərdən sonuncusunun imzaladığı tarixdən etibarən 10 gün müddətində təkrarsığortalını müvafiq təkrarsığorta müqaviləsinin nüsxəsi və ya bu Məcəllənin 940-cı maddəsində nəzərdə tutulmuş təminat şəhadətnaməsi ilə təmin etməlidir.

939.3. Sığorta brokeri vasitəsilə bağlanan sığorta (təkrarsığorta) müqaviləsi üzrə riskləri qəbul edən və ya bölüşən sığortaçı (təkrarsığortaçı) həmin müqavilə üzrə istənilən məlumatı sığorta brokerindən tələb edə bilər. (28)

Maddə 940. Təminat şəhadətnaməsi

940.1. Təminat şəhadətnaməsi sığorta brokerinin sığortalıya (təkrarsığortalıya) verdiyi və sığorta risklərinin yerləşdirilməsini təsdiq edən sənəddir.

940.2. Təminat şəhadətnaməsində aşağıdakılar göstərilməlidir:

940.2.1. sığorta (təkrarsığorta) müqaviləsi üzrə riskləri qəbul edən və ya bölüşən sığortaçının (təkrarsığortaçının) tam adı və ünvanı;

940.2.2. sığortalının (təkrarsığortalının) tam adı və ünvanı;

940.2.3. sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;

940.2.4. sığorta (təkrarsığorta) müqaviləsi üzrə təminat verilən sığorta riskləri;

940.2.5. sığortaçının (təkrarsığortaçının) qəbul etdiyi və ya bölüşdüyü sığorta və ya təkrarsığorta riskinə uyğun olan sığorta (təkrarsığorta) məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə, yaxud hər bir sığorta olunana münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı;

940.2.6. sığorta (təkrarsığorta) haqqının ümumi və hər bir sığorta predmeti üzrə məbləği və ödənilməsi qaydası.

940.3. Sığorta riski bir neçə sığortaçıda (təkrarsığortaçıda) yerləşdirildikdə, bu Məcəllənin 940.2.3-940.2.6-cı maddələrində nəzərdə tutulmuş məlumatlar hər bir sığortaçıya (təkrarsığortaçıya) münasibətdə ayrılıqda göstərilməlidir. (28)

Maddə 941. Sığorta vasitəçilərinin sığorta haqqı və sığorta ödənişlərinin ödənilməsində iştirakı

941.1. Sığorta agenti sığortaçının adından sığorta haqqını onun yazılı qaydada verdiyi səlahiyyət əsasında qəbul edə bilər.

941.2. Sığorta (təkrarsığorta) müqaviləsi sığorta brokeri vasitəsilə bağlandıqda, onunla sığortalı (təkrarsığortalı) və (və ya) sığortaçı (təkrarsığortaçı) arasında bağlanmış vasitəçilik xidməti üzrə müqavilədən asılı olaraq, sığortalı (təkrarsığortalı) sığorta (təkrarsığorta) haqqını sığortaçıya (təkrarsığortaçıya) birbaşa, yaxud sığorta brokeri vasitəsilə ödəyə bilər.

941.3. Sığorta (təkrarsığorta) haqqı sığorta brokerinə daxil olduğu andan müvafiq sığorta (təkrarsığorta) müqaviləsi üzrə ödənilmiş hesab edilir.

941.4. Sığorta brokeri ona sığorta (təkrarsığorta) haqqı kimi ödənilən pul vəsaitlərini «sığorta haqqı hesabı» kimi müəyyən edilən digər hesablardan ayrı və fərqli olan bank hesabında sığortaçıya (təkrarsığortaçıya) ödənilmək məqsədi ilə saxlayır və bu vəsaitləri digər məqsədlər üçün istifadə edə bilməz.

941.5. Sığorta vasitəçisi sığorta (təkrarsığorta) haqlarını sığortaçı (təkrarsığortaçı) ilə razılaşdırılmış müddətdə gecikdirmədən təyinatı üzrə həmin sığortaçıya (təkrarsığortaçıya) ötürməlidir.

941.6. Sığorta vasitəçisi ilə sığortaçı (təkrarsığortaçı) arasındakı müvafiq müqaviləyə əsasən müəyyən edilmiş komissiya və ya muzd məbləği sığorta (təkrarsığorta) haqqının bu Məcəllənin 941.6-cı maddəsində nəzərdə tutulmuş qaydada ötürülməsi zamanı, sığorta (təkrarsığorta) haqqından çıxıla bilər.

941.7. Sığorta brokeri sığortaçı (təkrarsığortaçı) tərəfindən sığorta ödənişləri ilə bağlı ona ödənilən pul vəsaitlərini «sığorta ödənişi hesabı» kimi müəyyən edilən, digər hesablardan ayrı və fərqli olan bank hesabında sığortalıya (təkrarsığortalıya) və ya faydalanan şəxsə ötürülmək məqsədi ilə saxlayır və bu vəsaiti digər məqsədlər üçün istifadə edə bilməz.

941.8. Sığorta brokeri bu Məcəllənin 941.7-ci maddəsində nəzərdə tutulmuş vəsaitləri sığorta ödənişi hesabına daxil olduğu tarixdən etibarən 3 gündən gec olmayaraq, müvafiq sığortalıya (təkrarsığortalıya) və ya faydalanan şəxsə ötürməlidir. (28)

Maddə 942. Sığorta vasitəçilərinin sığortalı və ya təkrarsığortalı qarşısında subsidiar öhdəliyi

Sığorta vasitəçisi onun vasitəçiliyi ilə müvafiq hallarda sığorta və ya təkrarsığorta fəaliyyətinə lisenziyası olmayan şəxslə bağlanmış sığorta və ya təkrarsığorta müqaviləsinə, yaxud müvafiq sığorta növünün aparılmasına icazəsi olmayan sığortaçı ilə bağlanmış sığorta müqaviləsinə görə, həmçinin bu Məcəllənin 941.5-ci və 941.8-ci maddələrinə əməl etməməsi üzündən sığortalının (təkrarsığortalının) mənafelərinin pozulmasına görə onun qarşısında həmin sığorta (təkrarsığorta) müqaviləsində sığortaçıya (təkrarsığortaçıya) aid nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi üzrə sığortaçı (təkrarsığortaçı) kimi subsidiar öhdəlik daşıyır. (28)

51-ci fəsil. Bank əmanəti

Maddə 943. Bank əmanəti haqqında ümumi müddəa

Bu Məcəllənin bu fəslinin banklara aid qaydaları hüquqi şəxslərdən əmanətlər (depozitlər) qəbul edən digər kredit təşkilatlarına *və poçt rabitəsinin milli operatoruna* da tətbiq olunur. (34)

Maddə 944. Bank əmanəti müqaviləsi

944.1. Bank əmanəti (depozit) müqaviləsinə görə bir tərəf (bank) başqa tərəfdən (əmanətçidən) və ya başqa tərəf (əmanətçi) üçün daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürür.

944.2. Əmanətin qoyulduğu hesab üzrə bank ilə əmanətçinin münasibətlərinə bank hesabı müqaviləsi haqqında qaydalar tətbiq olunur, bir şərtlə ki, bu Məcəllənin bu fəslinin müddəalarında ayrı hal nəzərdə tutulmasın və ya bank əmanəti müqaviləsinin mahiyyətindən ayrı hal irəli gəlməsin. ~~Hüquqi şəxslərin əmanətlərdə (depozitlərdə) olan pul vəsaitini başqa şəxslərə köçürməyə ixtiyarı yoxdur.~~ (12)

Maddə 945. Pul vəsaitini əmanətlərə cəlb etmək hüququ

945.1. Pul vəsaitini əmanətlərə cəlb etmək hüququna qanunla müəyyənləşdirilmiş qaydada verilən xüsusi icazəyə (lisenziyaya) uyğun olaraq buna hüququ çatan banklar *və poçt rabitəsinin milli operatoru* malikdirlər.

945.2. Hüququ çatmayan şəxs tərəfindən və ya qanunla müəyyənləşdirilmiş qayda, yaxud *qanuna* uyğun qəbul edilmiş bank qaydaları pozulmaqla fiziki şəxsdən əmanət qəbul olunduqda əmanətçi əmanət məbləğinin dərhal qaytarılmasını, habelə onun üçün faizlər ödənilməsini və bundan əlavə, əmanətçiyə vurulmuş bütün zərərin əvəzinin verilməsini tələb edə bilər. Belə bir şəxs bank əmanəti müqaviləsinin şərtləri əsasında hüquqi şəxsin pul vəsaitini qəbul etdikdə, bu cür müqavilə etibarsızdır.

945.3. Əgər qanunla ayrı qayda müəyyənləşdirilməyibsə, bu Məcəllənin 945.2-ci maddəsində nəzərdə tutulmuş nəticələr aşağıdakı hallarda da tətbiq olunur:

945.3.1. fiziki və hüquqi şəxslərin pul vəsaiti onlara buraxılması qanunsuz sayılmış səhmlər və digər qiymətli kağızlar satmaq yolu ilə cəlb olunduqda;

945.3.2. fiziki şəxslərin pul vəsaiti əmanət sahiblərinin əmanəti ilk tələb üzrə almasını və bu Məcəllənin bu fəslinin qaydalarında nəzərdə tutulmuş digər hüquqları həyata keçirməsini istisna edən veksellər və ya başqa qiymətli kağızlar müqabilində əmanətlərə cəlb olunduqda. (12, 34)

Maddə 946. Bank əmanəti müqaviləsinin forması

946.1. Bank əmanəti müqaviləsi yazılı formada bağlanır. Bank əmanəti müqaviləsinin yazılı formasına o halda riayət olunmuş sayılır ki, əmanətin qoyulması bank kitabçası ilə, bank və ya depozit sertifikatı ilə və ya bank tərəfindən əmanətçiyə verilmiş digər sənədlə, özü də qanunda bu cür sənədlər üçün nəzərdə tutulmuş tələblərə, qanuna uyğun müəyyənləşdirilmiş bank qaydalarına və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətlərinə uyğun gələn sənədlə təsdiq edilsin.

946.2. Bank əmanəti müqaviləsinin yazılı formasına riayət edilməməsi bu müqavilənin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsizdir.

Maddə 947. Əmanətlərin növləri

947.1. Bank əmanəti müqaviləsi əmanətin ilk tələb üzrə verilməsi şərti ilə (tələbli əmanət) və ya əmanətin müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra şərti ilə (müddətli əmanət) bağlanır. Müqavilədə əmanətlərin qanuna zidd olmayan başqa qaytarma şərtləri ilə də qoyulması nəzərdə tutula bilər.

947.2. İstənilən növ bank əmanəti müqaviləsinə görə bank əmanətçinin ilk tələbi ilə *əmanəti məbləğinin ən azı dörddə bir hissəsini dərhal, qalan hissəsini isə ən geci beş bank günü müddətində* verməlidir, amma qaytarmanın müqavilədə nəzərdə tutulmuş başqa şərtləri ilə hüquqi şəxslərin qoyduqları əmanətlər istisna təşkil edir. Fiziki şəxsin əmanəti ilk tələb üzrə almaq hüququndan imtina etməsi haqqında müqavilənin şərti əhəmiyyətsizdir.

947.3. Tələbli əmanət istisna olmaqla, müddətli və ya başqa əmanət müddət qurtaranadək və ya bank əmanəti müqaviləsində göstərilmiş ayrı hallar baş verənədək əmanətçinin tələbi ilə ona qaytarıldıqda əmanət üzrə faizlər bankın tələbli əmanətlər üzrə ödədiyi faizlərin miqdarına uyğun miqdarda ödənilir, bu şərtlə ki, müqavilədə faizlərin ayrı miqdarı nəzərdə tutulmasın.

947.4. Əmanətçinin müddətli əmanətin məbləğini müddət qurtardıqdan sonra və ya başqa qaytarma şərtləri ilə qoyulmuş əmanətin məbləğini müqavilədə nəzərdə tutulmuş hallar baş verdikdən sonra qaytarmağı tələb etmədiyi hallarda müqavilə tələbli əmanətin şərtləri ilə uzadılmış sayılır, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın. (12)

Maddə 948. Əmanətin məbləği üçün faizlər

948.1. Bank əmanətçiyə əmanətin məbləği üçün bank əmanəti müqaviləsi ilə müəyyənləşdirilmiş miqdarda faizlər ödəyir. Müqavilədə ödənilən faizlərin miqdarı haqqında şərtlər olmadıqda bank faizləri bu Məcəllənin 449.1-ci maddəsinə uyğun müəyyənləşdirilən miqdarda ödəməlidir.

948.2. Əgər bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bankın tələbli əmanətlər üçün ödənilən faizlərin miqdarını dəyişməyə ixtiyarı vardır. Bank faizlərin miqdarını azaltdıqda faizlərin yeni miqdarı faizlərin azaldılması haqqında əmanətçilərə

məlumat verilənədək qoyulmuş əmanətlərə həmin məlumatın verildiyi andan bir ay keçəndən sonra tətbiq olunur, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

948.3. Fiziki şəxs əmanəti müəyyən müddət qurtardıqdan sonra və ya müqavilədə nəzərdə tutulan hallar baş verdikdə qaytarılmaq şərtləri ilə qoyduqda əmanət üçün faizlərin bank əmanəti müqaviləsində müəyyənləşdirilmiş miqdarı bank tərəfindən birtərəfli qaydada azaldıla bilməz. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, bankın hüquqi şəxslə bağladığı bu cür bank əmanəti müqaviləsi üzrə faizlərin miqdarı birtərəfli qaydada dəyişdirilə bilməz.

Maddə 949. Əmanətin məbləğinə faizlərin hesablanması və ödənilməsi qaydası

949.1. Bank əmanətinin məbləğinə faizlər bu məbləğin banka daxil olduğu günün ertəsi günündən məbləğin əmanətçiyə qaytarılmasından və ya başqa əsaslarla əmanətçinin hesabından silinməsindən əvvəlki günədək hesablanır. Bu qayda bir günlük depozitlərə tətbiq edilmir.

949.2. Əgər bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bank əmanəti məbləğinə hesablanan faizlər əmanətçiyə hər rüb başa çatdıqdan sonra onun tələbi ilə əmanətin məbləğindən ayrılıqda ödənilir, həmin müddətdə tələb olunmamış faizlər isə üstünə faizlər hesablanan əmanətin məbləğini artırır. Əmanət qaytarıldıqda həmin anadək hesablanmış bütün faizlər ödənilir.

Maddə 950. Əmanətin qaytarılmasının təmin edilməsi

950.1. Banklar fiziki şəxslərin əmanətlərinin qaytarılmasını icbari sığorta yolu ilə, qanunda nəzərdə tutulan hallarda isə başqa üsullarla təmin etməlidirlər. Nizamnamə kapitalında iştirak paylarının və ya səhmlərin əlli faizindən çoxunun Azərbaycan Respublikasına və ya bələdiyyələrə mənsub olduğu bank tərəfindən fiziki şəxslərin əmanətlərinin qaytarılmasına, bundan əlavə, əmanətçinin banka qarşı tələbləri üzrə onların bu Məcəllənin 453-cü maddəsində nəzərdə tutulmuş qaydada subsidiar məsuliyyəti ilə qarantiya verilir.

950.2. Bank tərəfindən hüquqi şəxslərin əmanətlərinin qaytarılması üsulları bank əmanəti müqaviləsi ilə müəyyənləşdirilir.

950.3. Bank əmanəti müqaviləsi bağlanarkən bank əmanətin qaytarılmasının necə təmin ediləcəyi barədə əmanətçiyə məlumat verməlidir.

950.4. Bank əmanətin qaytarılmasının təmin edilməsi üçün bank əmanəti müqaviləsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmədikdə, habelə əmanətin qaytarılması üçün təminat itirildikdə və ya onun şərtləri pisləşdikdə, əmanətçi bankdan əmanət məbləğini dərhal qaytarmağı, bu Məcəllənin 948.1-ci maddəsinə uyğun müəyyənləşdirilmiş miqdarda faizlər ödəməyi və vurulmuş zərərin əvəzini verməyi tələb edə bilər.

Maddə 951. Əmanətçinin hesabına üçüncü şəxslərin pul vəsaiti qoyması

Əgər bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, əmanətçinin əmanət üzrə hesabına dair lazımi məlumat göstərilməklə banka onun adına üçüncü şəxslərdən daxil olmuş pul vəsaiti əmanət üzrə hesaba daxil edilir. Həm də nəzərdə tutulur ki, əmanətçi həmin şəxslərdən pul vəsaiti almağa razılığını ifadə edərək, onlara əmanət üzrə hesaba dair lazımi məlumat vermişdir.

Maddə 952. Üçüncü şəxslərin xeyrinə əmanətlər

952.1. Əmanət banka müəyyən üçüncü şəxsin adına qoyula bilər. Əgər bank əmanəti müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, həmin şəxs bu hüquqlara əsaslanan ilk tələbini banka verdiyi və ya belə hüquqlardan istifadə etmək niyyətini başqa üsulla banka bildirdiyi andan əmanətçi hüququ qazanır. Xeyrinə əmanət qoyulan fiziki şəxsin və ya hüquqi şəxsin adının göstərilməsi müvafiq bank əmanəti müqaviləsinin mühüm şərtidir. Müqavilənin bağlandığı vaxt sağ olmayan fiziki şəxsin və ya bu vaxt mövcud olmayan hüquqi şəxsin xeyrinə bank əmanəti müqaviləsi əhəmiyyətsizdir.

952.2. Bank əmanəti müqaviləsi bağlamış şəxs onun əmanət üzrə hesabına qoyulmuş pul vəsaiti barəsində əmanətçi hüquqlarından üçüncü şəxs əmanətçi hüquqlarından istifadə etmək niyyətini bildirənədək istifadə edə bilər.

952.3. Üçüncü şəxsin xeyrinə müqavilə haqqında qaydalar üçüncü şəxsin xeyrinə bank əmanəti müqaviləsinə bu şərtlə tətbiq edilir ki, belə tətbiq bu maddənin qaydalarına və bank əmanətinin mahiyyətinə zidd olmasın.

Maddə 953. Bank kitabçası

953.1. Əgər tərəflərin razılaşması ilə ayrı qayda nəzərdə tutulmayıbsa, fiziki şəxslə bank əmanəti müqaviləsinin bağlanması və onun əmanət üzrə hesabına pul vəsaitinin qoyulması bank kitabçası ilə təsdiq olunur. Bank əmanəti müqaviləsində adlı bank kitabçasının və ya adsız bank kitabçasının verilməsi nəzərdə tutula bilər. Bank kitabçasında bankın adı və olduğu yer, əmanət filiala qoyulduqda isə həm də müvafiq filialın adı və olduğu yer, əmanət üzrə hesabın nömrəsi, habelə hesaba köçürülmüş pul vəsaitinin bütün məbləğləri, hesabdan silinmiş pul vəsaitinin bütün məbləğləri və bank kitabçasının banka təqdim olunduğu anadək hesabdakı pul vəsaitinin qalığı göstərilməli və bank tərəfindən təsdiq edilməlidir. Əgər ayrı hal sübuta yetirilməyibsə, bank kitabçasında göstərilmiş əmanət haqqında məlumatlar bankla əmanətçi arasında əmanət üzrə hesablaşmalar üçün əsasdır.

953.2. Bank əmanətin verilməsini, əmanət üzrə faizlərin ödənilməsini və əmanət üzrə hesabdan pul vəsaitinin digər şəxslərə köçürülməsinə dair əmanətçinin sərəncamlarının icrasını bank kitabçası təqdim olunduqda həyata keçirir. Adlı bank kitabçası itirildikdə və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düşdükdə, əmanətçinin ərizəsi üzrə bank ona yeni bank kitabçası verir. İtirilmiş adsız bank kitabçası üzrə hüquqların bərpası adsız qiymətli kağızlar üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.

953.3. Bank, bank kitabçasını qeyri-qanuni yollarla və ya itirmə nəticəsində əldə etmiş şəxslə həmin kitabça üzrə hesablaşma apararsa, məsuliyyətdən azad olunur, bu şərtlə ki, həmin hallar barədə məlumata malik olmasın. Lakin, əgər bank kobud ehtiyatsızlıq üzündən belə məlumata malik olmazsa, məsuliyyətdən azad edilmir.

953.4. Banka qarşı olan tələbi bu Məcəllə ilə müəyyən edilmiş qaydada həmin tələbin güzəşti yolu ilə əldə etmiş yeni kreditor, ona bank kitabçasının verilməsini tələb edə bilər. (12)

52-ci fəsil. Bank hesabı

Maddə 954. Bank hesabı müqaviləsi

954.1. Bank hesabı müqaviləsinə görə bank müştəriyə (hesabın sahibinə) açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür.

954.2. Bank hesabda olan pul vəsaitinə dair müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə, bu vəsaitdən istifadə edə bilər.

954.3. Bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz.

954.4. Bu fəslin banklara aid qaydaları verilmiş xüsusi icazəyə (lisenziyaya) müvafiq surətdə bank hesabı müqaviləsi bağlayan və icra edən başqa kredit təşkilatlarına *və poçt rabitəsinin milli operatoruna* da tətbiq olunur. (34)

Maddə 955. Bank hesabı müqaviləsinin forması

955.1. Bank hesabı müqaviləsi yazılı formada bağlanır.

955.2. Bank hesabı müqaviləsinin yazılı formasına riayət edilməməsi bu müqavilənin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsizdir.

Maddə 956. Bank hesabı müqaviləsinin bağlanması

956.1. Bank hesabı müqaviləsi bağlanarkən müştəriyə və ya onun göstərdiyi şəxsə tərəflərin razılaşdırdığı şərtlərlə bankda hesab açılır.

956.2. Bank həmin növ hesabların açılması üçün bankın elan etdiyi, qanunda nəzərdə tutulmuş və qanuna əsasən bank qaydaları ilə müəyyənləşdirilmiş tələblərə uyğun şərtlər əsasında hesab açmaq təklifi ilə müraciət etmiş müştəri ilə bank hesabı müqaviləsi bağlamalıdır.

956.3. Hesab üzrə müvafiq əməliyyatların aparılması qanunla, bankın nizamnaməsi və ona verilmiş xüsusi icazə (lisenziya) ilə nəzərdə tutulduqda, bankın həmin hesabın açılmasından imtina etməyə ixtiyarı yoxdur, amma belə imtinanın bank xidmətinə qəbul etməyə bankın imkanının olmaması ilə bağlı olduğu və ya buna qanunla, yaxud başqa hüquqi aktlarla yol verildiyi hallar istisna təşkil edir.

956.4. Bank hesabı müqaviləsinin bağlanmasından bank əsassız boyun qaçırdıqda müştərinin onu müqavilə bağlamağa məcbur etmək tələbi ilə məhkəməyə müraciət etməyə ixtiyarı vardır. Bank hesabı müqaviləsi bağlamaqdan əsassız boyun qaçıran bank müştəriyə bununla vurulmuş zərərin əvəzini ödəməlidir.

Maddə 957. Hesabda olan pul vəsaitinə dair sərəncam vermək hüququnun təsdiqi

957.1. Hesabdan vəsaitin köçürülməsi və verilməsi haqqında müştərinin adından sərəncamlar verən şəxslərin hüquqları qanunda nəzərdə tutulmuş, qanuna əsasən bank qaydaları və bank hesabı müqaviləsi ilə müəyyənləşdirilmiş sənədlərin müştəri tərəfindən banka təqdim olunması yolu ilə təsdiq edilir.

957.2. Üçüncü şəxslərin tələbi ilə, o cümlədən müştərinin bu şəxslər qarşısında öhdəliklərini yerinə yetirməsi ilə bağlı tələbi üzrə müştəri pul vəsaitinin hesabdan silinməsi haqqında banka sərəncam verə bilər. Bank belə sərəncamları bu şərtlə qəbul edir ki, müvafiq tələb irəli sürülərkən onu irəli sürməyə hüququ çatan şəxsi eyniləşdirməyə imkan verən lazımi məlumatlar həmin sərəncamlarda yazılı formada göstərilmiş olsun.

957.3. Müqavilədə hesabdakı pul məbləğlərinə dair sərəncam hüququnun elektron ödəmə vasitələri və öz əli ilə imza analoqlarından, kodlardan, parollardan və sərəncamın buna vəkil edilmiş şəxs tərəfindən verildiyini təsdiqləyən digər vasitələrdən istifadə olunmaqla başqa sənədlər ilə təsdiq edilməsi də nəzərdə tutula bilər.

957.4. Əgər bank hesab sahibinin həqiqi iradəsini ifadə etməyən sərəncam əsasında pul vəsaitini həmin hesabdan silərsə, bunun üçün məsuliyyət daşıyır, bir şərtlə ki, belə sərəncamın hesab sahibinin öz təqsiri üzündən verildiyini sübut edə bilməsin. (12)

Maddə 958. Bankın apardığı hesab əməliyyatları

Bank müştəri üçün həmin növ hesablardan ötrü qanunla, qanuna əsasən müəyyənləşdirilmiş bank qaydaları ilə və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulan əməliyyatlar aparmalıdır, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın.

Maddə 959. Hesab əməliyyatlarının müddətləri

959.1. Bank müştərinin hesabına daxil olmuş pul vəsaitini müvafiq ödəniş sənədinin banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq hesaba salmalıdır, bu şərtlə ki, qanunda və ya bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın.

959.2. Müştərinin sərəncamı ilə bank müştərinin pul vəsaitini müvafiq ödəniş sənədinin banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq verməli və ya hesabdan köçürməlidir, bu şərtlə ki, qanunla, qanuna uyğun qəbul edilmiş bank qaydaları ilə və ya bank hesabı müqaviləsi ilə ayrı müddətlər nəzərdə tutulmasın.

Maddə 960. Hesabın kreditləşdirilməsi

960.1. Bank hesabı müqaviləsinə müvafiq surətdə, pul vəsaitinin olmadığına baxmayaraq, bankın ödənişləri həyata keçirdiyi hallarda (hesabın kreditləşdirilməsi) bank bu cür ödənişi həyata keçirdiyi gündən müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır.

960.2. Tərəflərin hesabın kreditləşdirilməsi ilə bağlı hüquq və vəzifələri borc və kredit haqqında qaydalarla müəyyənləşdirilir, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın.

Maddə 961. Hesab əməliyyatlarının aparılmasına bankın xidmətlərinin haqqının ödənilməsi

961.1. ~~Bank hesabı müqaviləsində nəzərdə tutulmuş hallarda~~ müştəri hesabdakı pul vəsaiti ilə əməliyyatların aparılması üzrə bank xidmətlərinin haqqını ödəyir.

961.2. Bu Məcəllənin 961.1-ci maddəsində nəzərdə tutulmuş bank xidmətlərinin haqqını bank hər bir əqd başa çatdıqdan sonra müştərinin hesabdakı pul vəsaitindən tuta bilər, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmasın. (12)

Maddə 962. Pul vəsaitindən bankın istifadə etməsi üçün faizlər

962.1. Əgər bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bank müştərinin hesabında olan pul vəsaitindən istifadə etməsi üçün faizlər ödəyir və bu faizlərin məbləği hesaba salınır.

962.2. Bu Məcəllənin 962.1-ci maddəsində göstərilən faizlər bank tərəfindən bank hesabı müqaviləsində müəyyənləşdirilmiş miqdarda, müqavilədə müvafiq şərt olmadıqda isə bu bankın tələbli əmanət üzrə müəyyənləşdirdiyi miqdarda ödənilir.

962.3. Faizlərin məbləği müqavilədə nəzərdə tutulmuş müddətlərdə, müqavilədə bu cür müddətlər nəzərdə tutulmadıqda isə hər rübün axırında hesaba salınır.

Maddə 963. Bankın və müştərinin hesab üzrə qarşılıqlı tələblərinin əvəzləşdirilməsi

963.1. Hesabın kreditləşdirilməsi və bank xidmətlərinin haqqının ödənilməsi ilə bağlı bankın müştəriyə qarşı pul tələblərinə, habelə pul vəsaitindən istifadə üçün faizlərin ödənilməsi haqqında müştərinin banka qarşı tələblərinə əvəzləşdirmə yolu ilə xitam verilir, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmasın. Göstərilən tələblər bank tərəfindən əvəzləşdirilir.

963.2. Bank aparılmış əvəzləşdirmə haqqında müştəriyə müqavilədə nəzərdə tutulmuş qaydada və müddətlərdə, əgər tərəflər müvafiq şərtləri razılaşdırmayıblarsa, müvafiq hesabdakı pul vəsaitinin vəziyyəti haqqında müştərilərə məlumat verilməsinin bank praktikası üçün adi olan qaydada və müddətlərdə məlumat verməlidir.

Maddə 964. Pul vəsaitinin hesabdan silinməsinin əsasları

964.1. Hesabdan pul vəsaitinin silinməsini bank müştərinin sərəncamına əsasən həyata keçirir.

964.2. Müştərinin sərəncamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla müştəri arasında müqavilədə nəzərdə tutulmuş hallarda yol verilir.

Maddə 965. Hesabdan pul vəsaitinin silinməsinin növbəliyi

965.1. Hesabdakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə hesabdan bu vəsaitin silinməsi müştərinin sərəncamlarının və hesabdan silməyə dair digər sənədlərin daxil olduğu ardıcıllıqla (təqvim ardıcıllığı) həyata keçirilir, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın.

965.2. Hesabdakı pul vəsaiti müştərinin sərəncamlarını və ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə hesabdan pul vəsaiti aşağıdakı ardıcıllıqla silinir:

965.2.1. birinci növbədə həyata və ya sağlamlığa vurulmuş zərərin ödənilməsi haqqında tələblərin, habelə alimentlərin tutulması haqqında tələblərin yerinə

yetirilməsi üçün hesabdan pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan icra sənədi üzrə hesabdan silmə həyata keçirilir;

965.2.2. ikinci növbədə əmək müqaviləsi ilə işləyən şəxslərə işdənçıxma müavinətlərinin və əmək haqqının ödənilməsi üzrə və müəlliflik müqaviləsinə görə haqların ödənilməsi üzrə hesablaşmalar üçün pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan icra sənədi üzrə hesabdan silmə, habelə bu məqsədlər üçün verilmiş bank kreditlərinin hesabdan silinməsi həyata keçirilir;

965.2.3. üçüncü növbədə dövlət büdcəsinə, *məcburi dövlət sosial sığorta haqları üzrə büdcədənkənar dövlət fonduna* və bələdiyyələrin büdcələrinə ödənişləri nəzərdə tutan ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir;

965.2.4. dördüncü növbədə verilmiş kreditlər üzrə bankın tələblərinin yerinə yetirilməsini nəzərdə tutan ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir;

965.2.5. beşinci növbədə başqa pul tələblərinin yerinə yetirilməsini nəzərdə tutan icra sənədi üzrə hesabdan silmə həyata keçirilir;

965.2.6. altıncı növbədə təqvim ardıcıllığı qaydasında digər ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir.

965.3. Bir növbəyə aid tələblər üzrə vəsait sənədlərin daxil olmasının təqvim ardıcıllığı qaydasında hesabdan silinir. (13)

Maddə 966. Hesab əməliyyatlarının lazımınca aparılmaması üçün bankın məsuliyyəti

Müştəriyə gələn pul vəsaitinin vaxtında hesaba salınmadığı və ya bank tərəfindən əsassız olaraq hesabdan silindiyi, habelə pul vəsaitinin hesabdan köçürülməsi və ya hesabdan verilməsi haqqında müştərinin göstərişlərinin lazımınca yerinə yetirilmədiyi hallarda bank həmin məbləğ üçün bu Məcəllənin 449-cu maddəsində nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir.

Maddə 967. Bank sirri

967.1. Bank hesabının və bank əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrinə bank qarantiya verir.

967.2. Bank sirri təşkil edən məlumatlar yalnız müştərilərin özlərinə və ya nümayəndələrinə verilə bilər. Dövlət orqanlarına və onların vəzifəli şəxslərinə bu cür məlumatlar yalnız qanunda nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər.

967.3. Bank sirri təşkil edən məlumatlar bank tərəfindən açıqlandığı halda hüquqları pozulmuş müştəri bankdan vurulmuş zərərin əvəzini ödəməyi tələb edə bilər.

Maddə 968. Hesaba dair sərəncam verilməsinin məhdudlaşdırılması

Müştərinin hesabdakı pul vəsaitinə dair sərəncam vermək hüquqlarının məhdudlaşdırılmasına yol verilmir, amma qanunda nəzərdə tutulan hallarda məhkəmənin qərarı ilə hesabdakı pul vəsaiti üzərinə həbs qoyulduğu və ya hesab əməliyyatlarının dayandırıldığı hallar istisna təşkil edir.

Maddə 969. Bank hesabı müqaviləsinin ləğvi

969.1. Bank hesabı müqaviləsi müştərinin ərizəsi üzrə istənilən vaxt ləğv edilir.

969.2. Əgər bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bankın tələbi ilə bank hesabı müqaviləsi məhkəmə tərəfindən aşağıdakı hallarda ləğv edilə bilər:

969.2.1. müştərinin hesabında saxlanan pul vəsaitinin məbləği bank qaydaları və ya müqavilə ilə nəzərdə tutulmuş minimum miqdardan az olduqda, bir şərtlə ki, belə məbləğ bankın bu barədə xəbərdarlıq etdiyi gündən bir ay ərzində bərpa edilməmiş olsun;

969.2.2. bir il ərzində həmin hesab üzrə əməliyyatlar aparılmadıqda, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

969.2.3. ciddi əsaslar olduqda, xüsusilə də bank hesabı sahibinin bank hesabından qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübut edilsin.

969.3. Hesabdakı pul vəsaitinin qalığı müştəriyə verilir və ya müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci yeddi gün keçənədək başqa hesaba köçürülür.

969.4. Bank hesabı müqaviləsinin ləğv edilməsi müştərinin hesabının bağlanması üçün əsasdır. (12)

Maddə 970. Bankların hesabları

Əgər qanunla, başqa hüquqi aktlarla və ya onlara uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmayıbsa, bu Məcəllənin bu fəslinin qaydaları müxbir hesablarına, müxbir subhesablarına və bankların digər hesablarına da şamil edilir.

53-cü fəsil. Mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalar

§ 1. Hesablaşmalar haqqında ümumi müddəalar

Maddə 971. Nağd və nağdsız hesablaşmalar

971.1. Fiziki şəxslərin iştirakı ilə hesablaşmalar onların sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə bağlı deyilsə, məbləğ məhdudlaşdırılmadan nağd pullarla və ya nağdsız qaydada aparıla bilər.

~~971.2. Hüquqi şəxslər arasında hesablaşmalar, habelə fiziki şəxslərin iştirakı ilə aparılan və onların sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə bağlı olan hesablaşmalar nağdsız qaydada icra edilir. Əgər qanunla ayrı qayda müəyyənləşdirilməyibsə, bu şəxslər arasında hesablaşmalar nağd pullarla da aparıla bilər.~~

971.3. Nağdsız hesablaşmalar banklar, müvafiq hesabların açıldığı başqa kredit təşkilatları (bundan sonrabanklar) *və poçt rabitəsinin milli operatoru* vasitəsi ilə aparılır, bu şərtlə ki, hesablaşmaların istifadə edilən forması ilə ayrı qayda şərtləşdirilməsin. (12, 34)

Maddə 972. Nağdsız hesablaşmaların formaları

972.1. Nağdsız hesablaşmalar aparılarkən ödəniş tapşırıqları ilə, akkreditiv üzrə hesablaşmalara, inkasso üzrə, çeklərlə, ödəniş kartları ilə, elektron şəklində hesablaşmalara, habelə qanunla, qanuna uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulmuş digər formalarda hesablaşmalara yol verilir.

972.2. Müqavilə üzrə tərəflərin bu Məcəllənin 972.1-ci maddəsində göstərilmiş hesablaşma formalarından hər hansı birini seçmək və müqavilədə müəyyənləşdirmək hüququ vardır.

§ 2. Ödəniş tapşırıqları ilə hesablaşmalar

Maddə 973. Ödəniş tapşırıqları ilə hesablaşmalar haqqında ümumi müddəalar

973.1. Ödəniş tapşırığı ilə hesablaşma zamanı bank ödəyicinin tapşırığı ilə onun hesabında olan vəsait hesabına müəyyən pul vəsaitini bu və ya başqa bankda ödəyicinin göstərdiyi şəxsin hesabına qanunla nəzərdə tutulmuş və ya qanuna uyğun təyin edilmiş müddətdə köçürməyi öhdəsinə götürür, bu şərtlə ki, bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın və ya bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə daha qısa müddət müəyyənləşdirilməsin.

973.2. Bu Məcəllənin bu paraqrafının qaydaları bankda hesabı olmayan şəxsin öz pul vəsaitini həmin bank vasitəsi ilə köçürməsi ilə bağlı münasibətlərə tətbiq edilir, bu şərtlə ki, qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmasın və ya bu münasibətlərin mahiyyətindən ayrı hal irəli gəlməsin.

973.3. Ödəniş tapşırıqları ilə hesablaşmaların həyata keçirilməsi qaydası qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə tənzimlənir.

Maddə 974. Bank tərəfindən ödəniş tapşırığının yerinə yetirilməsi şərtləri

974.1. Ödəniş tapşırığının və onunla birlikdə təqdim edilən hesablaşma sənədlərinin məzmunu və forması qanunla və ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş tələblərə uyğun gəlməlidir.

974.2. Ödəniş tapşırığı bu Məcəllənin 974.1-ci maddəsində göstərilmiş tələblərə uyğun gəlmədikdə bank tapşırığın məzmununu dəqiqləşdirə bilər. Ödəyiciyə bu cür sorğu tapşırıq alındıqdan dərhal sonra verilməlidir. Qanunla və ya ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş müddətdə, bunlar olmadıqda isə ağlabatan müddətdə cavab almadıqda bank tapşırığı icra etmədən ödəyiciyə qaytara bilər, bu şərtlə ki, qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və ya bankla ödəyici arasında müqavilə ilə ayrı hal nəzərdə tutulmasın.

974.3. Əgər ödəyici ilə bank arasında müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, ödəyicinin tapşırığını bank ödəyicinin hesabında vəsait olduqda yerinə yetirir. Bank tapşırıqları hesabdan pul vəsaitinin silinməsi növbəliyini gözləməklə icra edir. *Ödəyicinin hesabında vəsait olmadıqda, bank bu barədə ona məlumat verir.* (12)

Maddə 975. Tapşırığın icrası

975.1. Ödəyicinin ödəniş tapşırığını qəbul etmiş bank müvafiq pul məbləğini tapşırıqda göstərilmiş şəxsin hesabına salınmaq üçün vəsait alanın bankına bu Məcəllənin 973.1-ci maddəsi ilə müəyyənləşdirilmiş müddətdə köçürməlidir.

975.2. Bank müştərinin tapşırığında göstərilmiş hesaba pul vəsaitinin köçürülməsi əməliyyatlarının yerinə yetirilməsi üçün digər bankları cəlb edə bilər.

975.3. Bank ödəyicinin tələbi ilə ona tapşırığın icrası haqqında dərhal bildiriş verməlidir. Tapşırığın icrası haqqında bildirişin tərtibi qaydası və onun məzmununa aid tələblər qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və ya tərəflərin razılaşması ilə nəzərdə tutulur.

Maddə 976. Tapşırığın icra edilməməsinə və ya lazımınca icra edilməməsinə görə məsuliyyət

976.1. Müştərinin tapşırığı icra edilmədikdə və ya lazımınca icra edilmədikdə bank bu Məcəllənin 23-cü fəslində nəzərdə tutulmuş əsaslar üzrə və miqdarda məsuliyyət daşıyır.

976.2. Tapşırığın icra edilməməsi və ya lazımınca icra edilməməsi ödəyicinin tapşırığının icrası üçün cəlb olunmuş bank tərəfindən hesablaşma əməliyyatlarının aparılması qaydalarının pozulması ilə əlaqədar baş verdikdə bu Məcəllənin 976.1-ci maddəsində nəzərdə tutulmuş məsuliyyəti məhkəmə həmin bankın üzərinə qoya bilər.

976.3. Əgər bank tərəfindən hesablaşma əməliyyatlarının aparılması qaydalarının pozulması pul vəsaitinin qanunsuz tutulmasına səbəb olmuşdursa, bank bu Məcəllənin 449-cu maddəsində nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir.

§ 3. Akkreditiv üzrə hesablaşmalar

Maddə 977. Akkreditiv üzrə hesablaşmalar haqqında ümumi müddəalar

977.1. Akkreditiv üzrə hesablaşmalar zamanı ödəyicinin akkreditiv açılması haqqında tapşırığı və göstərişi ilə hərəkət edən bank (emitent bank) vəsait alana vəsait ödəməyi və ya köçürmə vekselini ödəməyi, aksept etməyi və ya uçota almağı və ya bu səlahiyyətləri başqa banka (icraçı banka) verməyi öhdəsinə götürür. Vəsait alana vəsaiti ödəyən və ya köçürmə vekselini ödəyən, aksept edən və ya uçota alan emitent banka icraçı bank haqqında qaydalar tətbiq olunur.

977.2. Akkreditiv üzrə hesablaşmaların həyata keçirilməsi qaydası qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq edilən işgüzar dövriyyə adətləri ilə tənzimlənir.

Maddə 978. Geriçağırma akkreditivi

978.1. Vəsait alana qabaqcadan bildirmədən emitent bankın dəyişdirə və ya ləğv edə bildiyi akkreditiv geriçağırma akkreditivi sayılır. Akkreditivin geri çağırılması emitent bankın vəsait alan qarşısında hər hansı öhdəliklərini yaratmır.

978.2. İcraçı bank geriçağırma akkreditivi üzrə ödənişi və ya digər əməliyyatları icra etməlidir, bu şərtlə ki, icra anınadək o, akkreditivin şərtlərinin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında bildiriş almasın.

978.3. Akkreditiv o vaxt geriçağırma akkreditivi olur ki, onun mətnində *bu hal birbaşa müəyyənləşdirilir*. (12)

Maddə 979. Geri çağırılmayan akkreditiv

979.1. O akkreditiv geri çağırılmayan akkreditiv sayılır ki, o, vəsait alanın razılığı olmadan ləğv edilə və ya dəyişdirilə bilmir.

979.2. Akkreditiv əməliyyatının aparılmasında iştirak edən icraçı bank emitent bankın xahişi ilə geri çağırılmayan akkreditivi təsdiqləyə bilər (təsdiqlənmiş akkreditiv). Bu cür təsdiqləmə icraçı bankın emitent bankın öhdəliyindən əlavə, akkreditivin şərtlərinə uyğun ödənişi icra etmək öhdəliyini qəbul etdiyini bildirir.

979.3. İcraçı bankın təsdiqlədiyi geri çağırılmayan akkreditiv icraçı bankın razılığı olmadan dəyişdirilə və ya ləğv edilə bilməz.

Maddə 980. Akkreditivin icrası

980.1. Akkreditivin icrası üçün vəsait alan icraçı banka akkreditivin bütün şərtlərinin yerinə yetirildiyini təsdiqləyən sənədləri təqdim edir. Bu şərtlərdən, heç olmasa, biri pozulduqda akkreditiv icra edilmir. *İcraçı bank həmin sənədlərin yalnız formal baxımdan qaydada olmasını yoxlamalıdır.*

980.2. Əgər icraçı bank akkreditivin şərtlərinə müvafiq surətdə ödənişi icra etmiş və ya başqa əməliyyatı aparmışdırsa, emitent bank ona akkreditivin icrası ilə bağlı çəkdiyi xərclərin əvəzini ödəməlidir. Göstərilən xərclərin əvəzi, habelə akkreditivin icrası ilə əlaqədar emitent bankın bütün başqa xərclərinin əvəzi ödəyici tərəfindən ödənilir. (12)

Maddə 981. Sənədləri qəbul etməkdən imtina

981.1. Əgər icraçı bank zahiri əlamətlərinə görə akkreditivin şərtlərinə uyğun gəlməyən sənədləri qəbul etməkdən imtina edirsə, bu barədə o, imtinanın səbəblərini göstərməklə, vəsait alana və emitent banka dərhal məlumat verməlidir.

981.2. Əgər icraçı bankın qəbul etdiyi sənədləri aldıqdan sonra emitent bank onları zahiri əlamətlərinə görə akkreditivin şərtlərinə uyğun gəlməyən hesab edərsə, onların qəbulundan imtina edə bilər və akkreditivin şərtləri pozulmaqla vəsait alana ödənilmiş məbləği icraçı bankdan tələb edə bilər, ödənilməmiş akkreditiv üzrə isə ödənilmiş məbləğlərin əvəzini ödəməkdən imtina edə bilər.

Maddə 982. Akkreditivin şərtlərinin pozulmasına görə bankın məsuliyyəti

982.1. Bu maddədə nəzərdə tutulmuş hallar istisna olmaqla akkreditivin şərtlərinin pozulmasına görə ödəyici qarşısında emitent bank, emitent bank qarşısında isə icraçı bank məsuliyyət daşıyır.

982.2. İcraçı bank ödənilmiş və ya təsdiqlənmiş akkreditiv üzrə pul vəsaitini ödəməkdən əsassız imtina etdikdə vəsait alan qarşısında məsuliyyət icraçı bankın üzərinə qoyula bilər.

982.3. İcraçı bank ödənilmiş və ya təsdiqlənmiş akkreditiv üzrə pul vəsaitini akkreditivin şərtlərinin pozulması nəticəsində düzgün ödəmədikdə ödəyici qarşısında məsuliyyət icraçı bankın üzərinə qoyula bilər.

Maddə 983. Akkreditivin bağlanması

983.1. İcraçı bankda akkreditiv aşağıdakı hallarda bağlanır:

983.1.1. akkreditivin müddəti qurtardıqda;

983.1.2. akkreditivin qüvvədə olma müddəti qurtaranadək onun istifadəsindən imtina etmək haqqında vəsait alanın ərizəsi üzrə, bir şərtlə ki, bu cür imtinanın mümkünlüyü akkreditivin şərtləri ilə nəzərdə tutulsun;

983.1.3. akkreditivin tam və ya qismən geri çağırılması haqqında ödəyicinin tələbi ilə, bir şərtlə ki, akkreditivin şərtlərinə görə belə geriçağırma mümkün olsun.

983.2. Akkreditivin bağlanması haqqında icraçı bank emitent banka məlumat verməlidir.

983.3. Ödənilmiş akkreditivin istifadə olunmamış məbləği akkreditivin bağlanması ilə eyni vaxtda dərhal emitent banka qaytarılmalıdır. Emitent bank qaytarılmış məbləğləri ödəyicinin vəsaitin deponentləşdirildiyi hesabına daxil etməlidir.

§ 4. İnkasso üzrə hesablaşmalar

Maddə 984. İnkasso üzrə hesablaşmalar haqqında ümumi müddəalar

984.1. İnkasso üzrə hesablaşmalar zamanı bank (emitent bank) müştərinin tapşırığı ilə ödəyicidən ödənişin və (və ya) ödəniş akseptinin alınması əməliyyatlarını müştərinin hesabına həyata keçirməyi öhdəsinə götürür.

984.2. Müştərinin tapşırığını almış emitent bank tapşırığın icrası üçün başqa bankı (icraçı bankı) cəlb edə bilər. İnkasso üzrə hesablaşmaların həyata keçirilməsi qaydası qanunla, qanuna əsasən müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə tənzimlənir.

984.3. Müştərinin tapşırığının icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda emitent bank onun qarşısında bu Məcəllənin 23-cü fəslində nəzərdə tutulmuş əsaslar üzrə və miqdarda məsuliyyət daşıyır.

984.4. Əgər müştərinin tapşırığının icra edilməməsi və ya lazımınca icra edilməməsi hesablaşma əməliyyatlarının həyata keçirilməsi qaydalarının icraçı bank tərəfindən pozulması ilə əlaqədar baş vermişdirsə, müştəri qarşısında məsuliyyət həmin bankın üzərinə qoyula bilər.

984.5. İnkasso üzrə hesablaşmalarla əlaqədar olan, bu Məcəllə ilə tənzimlənməyən münasibətlər bank qanunvericiliyi ilə tənzimlənir.

Maddə 985. İnkasso tapşırığının icrası

985.1. Hər hansı sənəd olmadıqda və ya sənədlər zahiri əlamətlərinə görə inkasso tapşırığına uyğun gəlmədikdə icraçı bank inkasso tapşırığını aldığı şəxsə bu barədə dərhal

məlumat verməlidir. Göstərilən qüsurlar aradan qaldırılmadıqda bank sənədləri icra etmədən qaytara bilər.

985.2. Sənədlər alındıqları formada ödəyiciyə təqdim edilir, amma inkasso əməliyyatının rəsmiləşdirilməsi üçün zəruri olan bank qeydləri və yazıları istisna edilir.

985.3. Əgər sənədlər təqdim olunduqda ödənilməlidirsə, icraçı bank inkasso tapşırığını aldıqdan dərhal sonra sənədləri ödənişə təqdim etməlidir. Əgər sənədlər başqa müddətdə ödənilməlidirsə, icraçı bank ödəyicinin akseptini almaq üçün sənədləri inkasso tapşırığını aldıqdan sonra dərhal akseptə təqdim etməlidir, ödəniş isə sənəddə göstərilmiş ödəniş müddətinin çatdığı gündən gec olmayaraq tələb olunmalıdır.

985.4. Qismən ödənişlər bunun bank qaydaları ilə müəyyənləşdirildiyi və ya inkasso tapşırığında xüsusi icazənin olduğu hallarda qəbul edilə bilər.

985.5. Alınmış (inkasso edilmiş) məbləğlər icraçı bank tərəfindən dərhal emitent bankın sərəncamına verilməli, həmin bank isə bu məbləğləri müştərinin hesabına salmalıdır. İcraçı bank inkasso edilmiş məbləğlərdən ona çatan muzdu və xərclərin əvəzini tuta bilər.

Maddə 986. Aparılmış əməliyyatlar haqqında bildiriş

986.1. Əgər ödəniş və (və ya) aksept alınmamışdırsa, icraçı bank ödənişin icra olunmamasının və ya akseptdən imtina edilməsinin səbəblərini dərhal emitent banka bildirməlidir. Emitent bank bu barədə müştəriyə dərhal məlumat verərək, ondan gələcək hərəkətlər barəsində göstərişlər istəməlidir.

986.2. Gələcək hərəkətlər haqqında göstərişlər bank qaydaları ilə müəyyənləşdirilmiş müddətdə, bu müddət olmadıqda isə ağlabatan müddətdə alınmadıqda, icraçı bankın sənədləri emitent banka qaytarmağa ixtiyarı vardır.

54-cü fəsil. Qiymətli kağızlar

§ 1. Qiymətli kağızlar haqqında ümumi müddəalar

Maddə 987. Qiymətli kağız anlayışı

987.1. Qiymətli kağız müəyyənləşdirilmiş formaya riayət olunmaqla hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan nə həyata keçirilə bilər, nə də başqa şəxsə verilə bilər. Qiymətli kağız başqasına verildikdə onun təsdiqlədiyi bütün hüquqlar da keçir.

987.2. Qiymətli kağızlarla təsdiqlənən hüquqların növləri, qiymətli kağızların məcburi rekvizitləri, qiymətli kağızın formasına aid tələblər və digər zəruri tələblər qiymətli kağızlar haqqında qanunlarla və ya onların müəyyənləşdirdiyi qaydada təyin edilir.

987.3. Qiymətli kağızın məcburi rekvizitlərinin olmaması və ya qiymətli kağızın onun üçün müəyyənləşdirilmiş formaya uyğun gəlməməsi onun əhəmiyyətsizliyinə səbəb olur.

Maddə 988. Qiymətli kağız üzrə öhdəliklər və onların icrası

988.1. Qiymətli kağızda borcluya qarşı göstərilmiş hər hansı ayrıca tələb həmin qiymətli kağızla təsdiqlənir. Qiymətli kağızla qarantiya verilmiş tələbin etibarlığı bu tələbi əmələ gətirən əqdin mövcudluğundan və ya etibarlığından asılı deyildir.

988.2. Qiymətli kağız üzrə borclu icranı yalnız qiymətli kağızın ona verilməsi ilə eyni vaxtda həyata keçirməlidir. Borclu qiymətli kağızla təsdiqlənən kreditora icranı hansı həcmdə həyata keçirmişdirsə, öz öhdəliyindən də həmin həcmdə azad edilir.

988.3. Qiymətli kağızı vermiş borclu və onu indossament etmiş bütün şəxslər onun qanuni sahibi qarşısında birgə məsuliyyət daşıyırlar. Qiymətli kağızın qanuni sahibinin tələbi qiymətli kağız üzrə öhdəlik götürmüş bir və ya bir neçə şəxs tərəfindən yerinə yetirildikdə, o (onlar), qiymətli kağız üzrə öhdəlik götürmüş qalan şəxslər qarşısında geriyə tələb (reqres) hüququ əldə edir.

988.4. Qiymətli kağızla təsdiqlənmiş öhdəliyin icrasından onun əsasının olmamasına və ya onun etibarsızlığına istinadla imtina edilməsinə yol verilmir.

988.5. Qiymətli kağızın sahibi qiymətli kağızda aldatma və ya saxtalaşdırma aşkar etdikdə kağızı ona vermiş borcluya qarşı qiymətli kağızla təsdiqlənmiş öhdəliyin lazımınca yerinə yetirilməsi və zərərin əvəzinin ödənilməsi tələbini irəli sürə bilər.

Maddə 989. Adlı qiymətli kağızlar

989.1. Müəyyən şəxsin adına verilmiş qiymətli kağız adlı qiymətli kağız sayılır.

989.2. Adlı qiymətli kağız üzrə borclu icranı yalnız sənədin sahibi olan və özünü adına sənəd verilmiş şəxs kimi və ya şəxsin hüquq varisi kimi təsdiq edən şəxsə həyata keçirməlidir. Əgər borclu icranı bu cür təsdiq olmadan həyata keçirsə, o öz ixtiyarını sübut edəcək üçüncü şəxs qarşısında öhdəliyindən azad edilmir.

989.3. Əgər adlı kağızda borclu icranı sənədin hər hansı sahibinə həyata keçirmək hüququnu özündə saxlamışdırsa, onun icranı kağız sahibinə həyata keçirmək hüququ vardır, lakin buna borclu deyildir.

Maddə 990. Adsız qiymətli kağızlar

990.1. Qiymətli kağız o halda adsız sayılır ki, ona əsasən borclu öhdəliyi bu qiymətli kağızı təqdim edən istənilən şəxsə icra etməyi öz üzərinə götürür.

990.2. Əgər məhkəmənin qərarı ilə və ya başqa qanuni göstəriş əsasında qadağan edilərsə, borclu adsız qiymətli kağız üzrə sonrakı ödənişləri icra etməməlidir.

Maddə 991. Orderli kağızlar

991.1. Əgər qiymətli kağız üzrə ixtiyarlı şəxs öz sərəncamı ilə öz əvəzinə başqa ixtiyarlı şəxsi təyin edə bilərsə, qiymətli kağız orderli kağız sayılır.

991.2. Borclu icranı yalnız adına və ya sərəncamı ilə sənəd yazılmış şəxs və ya şəxsin hüquq varisi olduğunu sübut edən şəxsə həyata keçirməlidir.

Maddə 992. Qiymətli kağızların bir kateqoriyadan digərinə keçirilməsi

Adlı və ya orderli qiymətli kağız yalnız bütün ixtiyarlı və mükəlləfiyyətli şəxslərin razılığı ilə adsız qiymətli kağıza çevrilə bilər. Bu razılıq qiymətli kağızın özündə yazılmalıdır.

Maddə 992-1. Qiymətli kağızlar bazarı və qiymətli kağızlar bazarının iştirakçıları

992-1.1. Qiymətli kağızlar bazarı qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, sahibliyi, saxlanılması, onlarla əqdlərin bağlanması, digər əməliyyatların aparılması üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusudur.

992-1.2. Qiymətli kağızlar bazarının iştirakçıları qiymətli kağızların emissiyasında, tədavülündə, ödənilməsində, sahibliyində, saxlanılmasında, qiymətli kağızlarla əməliyyatların aparılmasında subyekt və ya tərəf kimi çıxış edən şəxslər, habelə qiymətli kağızlar bazarının tənzimlənməsini həyata keçirən dövlət və qeyri-kommersiya təşkilatları olan qiymətli kağızlar bazarının iştirakçılarının özünü tənzimləyən təşkilatlarıdır.

992-1.3. Emitent qiymətli kağızların emissiyasını qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirən şəxs, müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı və ya bələdiyyədir.

992-1.4. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət hüquqi və ya fiziki şəxslər tərəfindən qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilən sahibkarlıq fəaliyyətidir.

992-1.5. Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və ya fiziki şəxslərdir.

992-1.6. Qiymətli kağızların nominal saxlayıcısı hüquq sahibinin tapşırığı ilə və onun xeyrinə qiymətli kağız sahiblərinin reyestrində qeydə alınmış və bu qiymətli kağızların hüquqi mülkiyyətçisi olmayan şəxsdir.

992-1.7. Broker fəaliyyəti müştərinin hesabına tapşırıq və ya komisyon müqaviləsi əsasında müvəkkil və ya komisyonçu kimi fəaliyyət göstərən, həmin müştərinin mənafeyi üçün qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanması üzrə qiymətli kağızlar bazarında peşəkar fəaliyyətdir.

992-1.8. Diler fəaliyyəti öz adından və öz hesabına əvvəlcədən kütləvi elan olunmuş alış və (və ya) satış qiymətləri ilə qiymətli kağızlar üzrə alqı -satqı əqdlərinin bağlanması üzrə qiymətli kağızlar bazarında peşəkar fəaliyyətdir. Kütləvi elan açıq elan formasında edilmiş təklifdir.

992-1.9. Qiymətli kağızların idarə olunması müştəriyə məxsus olub, peşəkar iştirakçının idarəçiliyinə verilmiş qiymətli kağızlar və ya pul vəsaitləri ilə müştərinin mənafeyi üçün və ya onun göstərdiyi üçüncü şəxsin mənafeyi üçün qiymətli kağızlar bazarında əməliyyatların aparılması üzrə peşəkar fəaliyyətdir.

992-1.10. Klirinq fəaliyyəti qiymətli kağızlarla əqdlər üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (məlumatların toplanması, yoxlanması, üzləşdirilməsi, mühasibat sənədlərinin hazırlanması), hesablaşmaların aparılması və öhdəliklərin qarşılıqlı icrasının təmin edilməsi üzrə peşəkar fəaliyyətdir.

992-1.11. Depozitar fəaliyyəti qiymətli kağızların saxlanması və onlara hüquqların, habelə öhdəliklərlə yüklənməsi faktlarının uçotu və təsdiq edilməsi üzrə xidmətlərin göstərilməsi üzrə peşəkar fəaliyyətdir.

992-1.12. Depozitar sistemi bir-biri ilə «depo» hesabları açmaq vasitəsi ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən depozitarların vahid sistemidir.

992-1.13. Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması qiymətli kağızlar, onların emitenti, sahibləri, nominal saxlayıcıları barədə məlumatların toplanması, qeydə alınması, işlənməsi, saxlanması və təqdim edilməsi xidmətlərinin göstərilməsi üzrə peşəkar fəaliyyətdir.

992-1.14. Fond birjası qiymətli kağızlarla əqdlərin bağlanması üçün zəruri şəraitin yaradılması, onların bazar qiymətlərinin müəyyən edilməsi, onlar haqqında lazımi məlumatın yayılması üzrə peşəkar fəaliyyətdir.

992-1.15. İnvestor qiymətli kağızları mülkiyyətinə əldə etmiş şəxsdir.

992-1.16. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının könüllülük, qeyri-kommersiya prinsipləri əsasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatı olan ictimai birliyidir.

992-1.17. Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiya qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilən, qiymətli kağızlar bazarının iştirakçılarının qiymətli kağızlarla əqdlər üzrə qiymətli kağızların bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış, qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsidir. Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyaya yol verilmir. (3)

Maddə 993. Qiymətli kağızın başqasına verilməsi

993.1. Qiymətli kağıza mülkiyyət hüququ qiymətli kağıza sahiblik hüququnun verilməsi yolu ilə verilir.

993.2. Adlı kağızlar veriləndə tələbin güzəşti haqqında yazılı ərizə zəruridir. Bu Məcəllənin 521-ci maddəsinə uyğun olaraq, qiymətli kağız üzrə hüququ başqasına verən şəxs müvafiq tələbin etibarsızlığına görə məsuliyyət daşıyır, lakin onun icra edilməməsi üçün məsuliyyət daşımır.

993.3. Orderli qiymətli kağızlar verilərkən qiymətli kağızın arxa tərəfində tələbin güzəşti haqqında qeyd (indossament) etmək zəruridir. Orderli qiymətli kağız üzrə hüququ verən şəxs (indossant) təkcə hüququn mövcudluğuna görə deyil, həm də onun həyata keçirilməsinə görə məsuliyyət daşıyır. Qiymətli kağızda icra edilmiş indossament qiymətli kağızla təsdiqlənmiş bütün hüquqları o şəxsə keçirir ki, qiymətli kağız üzrə hüquqlar ona və ya onun sərəncamı ilə verilir (indossat).

993.4. İndossament blanklı (icranın həyata keçirilməli olduğu şəxs göstərilmədən) və ya orderli (icranın həyata keçirilməli olduğu və ya əmri ilə həyata keçirilməli olduğu şəxs göstərilməklə) ola bilər. İndossament yalnız qiymətli kağızla təsdiqlənmiş hüquqları həyata keçirmək tapşırığı ilə, bu hüquqlar indossata verilmədən (təkrar tapşırılan indossament) məhdudlaşdırıla bilər. Bu halda indossat nümayəndə kimi çıxış edir.

993.5. İndossament aşağıdakı tələblərə uyğun gəlməlidir:

993.5.1. onda indossat haqqında məlumatlar və indossantın imzası olmalıdır;

993.5.2. sadə olmalı və heç nə ilə şərtlənməməlidir. (İndossamenti məhdudlaşdıran hər cür şərt etibarsız sayılır. Qismən indossament də etibarsızdır.);

993.5.3. qiymətli kağızda və ya ona əlavə edilmiş vərəqdə (əlavə vərəq) yazılmalıdır.

993.6. Qiymətli kağız başqasına verildikdə və bu Məcəllənin 993-cü maddəsində nəzərdə tutulmuş digər şərtlər yerinə yetirildikdə qiymətli kağıza bütün hüquqlar əldə edənə keçir, bu şərtlə ki, həmin qiymətli kağızı başqasına vermək hüququ mövcud olsun.

993.7. Əgər müqavilədə və ya qiymətli kağızın özündə nəzərdə tutulubsa, digər şəxslərin və xüsusən borclunun iştirakı qiymətli kağızın başqasına verilməsi üçün zəruridir.

Maddə 994. Qiymətli kağızların zədələnməsi, korlanması

Qiymətli kağız zədələnmək və ya korlanmaq nəticəsində dövriyyə üçün yararsız olduqda onun sahibi kağızı vermiş şəxsdən zədələnmiş və ya korlanmış kağızın qaytarılması müqabilində yeni qiymətli kağız verməyi tələb edə bilər, bu şərtlə ki, həmin kağızda onun əsas məzmununu və fərqləndirici əlamətlərini inamla müəyyənləşdirmək hələ mümkün olsun. Zədələnmiş və ya korlanmış qiymətli kağızın əvəz olunması xərclərini onun sahibi çəkir.

Maddə 995. Qiymətli kağızın etibarsız elan edilməsi

995.1. Əgər qiymətli kağız itirilmişdirsə, ixtiyarlı şəxsin vəsatəti ilə məhkəmə borclu fiziki şəxsin yaşayış yeri üzrə və ya borclu hüquqi şəxsin olduğu yer üzrə bu qiymətli kağızı etibarsız elan edə bilər. Əgər orderli və ya adsız qiymətli kağızlar itirilmişdirsə, ərizəçinin tələbi ilə məhkəmə qiymətli kağız üzrə mükəlləfiyyətliyə onu ödəməyi qadağan edə bilər.

995.2. Qiymətli kağızın etibarsız elan edilməsi haqqında vəsatəti itki və ya itkinin aşkar edilməsi məqamında bu qiymətli kağız əsasında ixtiyarlı olmuş şəxs verə bilər. Ərizəçi qiymətli kağıza sahibliyini və onun itirildiyini sübuta yetirməlidir. Əgər kupon vərəqi və ya səhm kuponu olan qiymətli kağız sahibi yalnız kupon vərəqini və ya səhm kuponunu itirərsə, vəsatətini əsaslandırması üçün əsas qiymətli kağızı təqdim etməsi kifayətdir.

Maddə 996. Sənədsiz qiymətli kağızlar

996.1. Sənədsiz qiymətli kağız sahibini depozitarda depo hesabında olan yazı əsasında müəyyən etmək imkanı verən qiymətli kağız formasıdır.

996.2. Hüququ sənədsiz formada təsbit etmiş şəxs hüquq sahibinin tələbi ilə ona təsbit edilmiş hüququ təsdiqləyən sənəd verməlidir.

996.3. Göstərilən təsbit yolu ilə təsdiqlənən hüquqlar, hüquqların və hüquq sahiblərinin rəsmən təsbit edilməsi qaydası, qeydlərin sənədli surətdə təsdiqlənməsi qaydası və

sənədsiz qiymətli kağızlarla əməliyyatların aparılması qaydası qanunla və ya qanunun müəyyənləşdirdiyi qaydada təyin edilir.

996.4. Sənədsiz qiymətli kağızlarla əməliyyatlar yalnız hüquqların qeydiyyatını aparan şəxsə müraciət etməklə aparıla bilər. Hüquqların başqasına verilməsi, təqdim olunması və məhdudlaşdırılması rəsmi yazıların salamatlığı, onların məxfiliyinin təmin edilməsi, bu cür yazılar haqqında düzgün məlumatlar verilməsi, aparılmış əməliyyatlar haqqında rəsmi qeydlərin yazılması üçün məsuliyyət daşıyan bu şəxs tərəfindən rəsmən təsbit edilməlidir. (3)

Maddə 997. Qiymətli kağızların növləri

997.1. Qiymətli kağızlara orderlər, veksellər, çeklər, istiqrazlar, səhmlər, əmtəə kağızları, *depozit sertifikatı, ipoteka kağızı, opsion, fyuçers, girov kağızı, mənzil sertifikatı və bu Məcəllə* ilə qiymətli kağızlar sırasına daxil edilmiş digər sənədlər aiddir.

997.2. İstiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır. *İnvestisiya qiymətli kağızları buraxılışlarla yerləşdirilir və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq, bir buraxılış daxilində hüquqların həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlardır. Qiymətli kağızların buraxılışı emitentin qiymətli kağızların bir növünə aid olan və eyni dövlət qeydiyyat nömrəsi olan qiymətli kağızların toplusudur.*

997.3. Orderlər, çeklər və veksellər ödəniş qiymətli kağızlarıdır.

997.4. Ticarət kağızları titul qiymətli kağızlarıdır.

997.5. Opsion və fyuçerslər törəmə qiymətli kağızlardır. Törəmə qiymətli kağızlar hər hansı aktivi (qiymətli kağız, valyuta, əmtəə, birja indeksi və s.) almaq və ya satmaq hüququnu təsbit edən qiymətli kağızlardır.

997.6. Qiymətli kağızın sertifikatının məcburi rekvizitləri və onun blankının hazırlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

997.7. Bu Məcəllənin və qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının başqa qanunvericilik aktlarının pozulmasına görə təqsirli şəxslər Azərbaycan Respublikasının mülki, inzibati və ya cinayət qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada məsuliyyət daşıyırlar.

997.8. Qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin pozulması nəticəsində vurulmuş ziyan bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada ödənilməlidir.

997.9. Qiymətli kağızlar bazarında dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən qiymətli kağızlar bazarının iştirakçıları barəsində inzibati tənbeh, müvafiq lisenziyanın dayandırılması, ləğv edilməsi, qiymətli kağızlarla əməliyyatların məhdudlaşdırılması, dayandırılması və qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş digər tədbirlərin tətbiq edilməsindən inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər. Belə şikayətin verilməsi məhkəmənin qərarının çıxarılmasına qədər tətbiq olunmuş tədbirin qüvvəsini dayandırmır. (3, 23, 25)

Maddə 997-1. Dövlət və bələdiyyə qiymətli kağızları

997-1.1. Dövlət qiymətli kağızları müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı tərəfindən buraxılan qiymətli kağızlardır.

997-1.2. Bələdiyyə qiymətli kağızları bələdiyyə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada buraxılan qiymətli kağızlardır. (3)

§ 2. Order

Maddə 998. Order anlayışı

998.1. Order elə bir sənəddir ki, onun əsasında bir şəxs (çıxarıcı) başqa şəxsə (ödəyiciyə) çıxarıcının hesabına remitentə pul, qiymətli kağızlar və ya digər əvəzolunan əşyalar verməyi tapşırır. Order remitentin adına,adsız və ya əmrə dair qeyd-şərtlə verilə bilər. Əgər order «veksel» və ya «çek» kimi göstərilirsə, onda, birinci növbədə, bu Məcəllənin veksellər və ya çeklər haqqında müddəaları tətbiq edilir.

998.2. Orderi almaqla remitent ödəyicidən öhdəliyin icrasını öz adından tələb etmək hüququ qazanır.

998.3. Ödəyici remitent barəsində öhdəliyi icra etməlidir.

Maddə 999. Orderin ödəyici tərəfindən aksept edilməsi

999.1. Ödəyici remitentə icranı yalnız onun orderi aksept etdiyi halda həyata keçirməlidir. Lakin əgər ödəyici çıxarıcının borclusudursa, ödəyici icranı aksept edilmədən də həyata keçirməlidir.

999.2. Aksept etmə icradan əvvəl və ya icra zamanı bəyan oluna bilər. Əgər aksept etmə icradan əvvəl elan olunursa, ödəyici orderdə aksept haqqında qeyd yazır. Əgər orderdə qeyd onun remitentə təqdim edilməsinədək yazılmışdırsa, remitent üçün aksept ancaq təqdim edilmə anından qüvvəyə malikdir.

999.3. Order ödəyici üçün aksept edildikdə icranı remitentə həyata keçirmək barəsində birbaşa öhdəlik əmələ gəlir. Order aksept edildikdən sonra o, remitentə yalnız akseptin etibarlığına aid olan və ya orderin, yaxud akseptin məzmunundan irəli gələn etirazlarını bildirə bilər.

Maddə 1000. Aksept etməkdən və ya ödənişdən imtina

Əgər ödəniş müddəti çatanadək ödəyici orderi aksept etməkdən və ya ödənişi həyata keçirməkdən imtina edirsə, remitent bu barədə çıxarıcıya dərhal bildiriş verməlidir. Remitent orderdən irəli gələn hüququnu həyata keçirə bilmədikdə və ya həyata keçirmək niyyətində olmadıqda da eyni qayda tətbiq olunur.

Maddə 1001. Çıxarıcının remitentlə münasibətləri

1001.1. Əgər ödəyicinin icranı həyata keçirməsi ilə çıxarıcının borcu ödənilməlidirsə, ödəniş yalnız ödəyici tərəfindən orderin remitentə icrasından sonra yerinə yetirilmiş sayılır.

1001.2. Remitent orderi qəbul edərək, çıxarıcıya qarşı öz tələb hüququnu yalnız o halda həyata keçirə bilər ki, ödəyicidən ödənişin icrasını tələb etsin və onu orderdə nəzərdə tutulan müddət qurtardıqdan sonra almasın.

1001.3. Order ona dəlalət edir ki, başlıca əqd üzrə ixtiyarlının çıxarıcıya qarşı müvafiq tələbi vardır.

Maddə 1002. Orderin geri götürülməsi

Ödəyici orderi aksept edənədək və ya ödənişi icra edənədək çıxarıcı ondan orderi geri götürə bilər.

Maddə 1003. Orderin başqasına verilməsi

1003.1. Remitent orderi hələ aksept edilməmiş olsa belə, hər hansı üçüncü şəxsə keçirə bilər.

1003.2. Çıxarıcı orderin keçirilməsini istisna edə bilər. Ödəyici üçün belə istisna yalnız o halda etibarlıdır ki, orderdə onun haqqında qeyd-şərt edilmiş olsun və ya ödəyici orderi aksept etməzdən və ya ödənişi icra etməzdən əvvəl çıxarıcı ödəyiciyə bu barədə məlumat vermiş olsun.

§ 3. Veksel

Maddə 1004. Veksel anlayışı

Veksellər orderli qiymətli kağızlardır, veksel verən onların vasitəsi ilə müəyyən şəxsə müəyyən məbləğ ödəmək barəsində başqa şəxsə (ödəyiciyə) göstəriş verir (köçürmə vekseli) və ya hər hansı müəyyən şəxsə və ya bu şəxsin sərəncamına müəyyən məbləğ ödəməyi öhdəsinə götürür (sadə veksel).

Maddə 1005. Köçürmə vekseli

1005.1. Köçürmə vekseli aşağıdakı rekvizitlərin olduğu sənəddir:

1005.1.1. sənədin mətninə daxil edilmiş «veksel» adı;

1005.1.2. veksel verənin müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləşdirilməmiş göstərişi;

1005.1.3. kim ödəməlidirsə, onun (ödəyicinin) adı;

1005.1.4. ödəniş kimə və ya kimin sərəncamı ilə icra edilməlidirsə, onun adı;

1005.1.5. vekselin tərtib edildiyi tarix;

1055.1.6. veksel verənin imzası;

1005.1.7. vekselin tərtib edildiyi yer;

1005.1.8. vekselin ödənilməsi vaxtı (veksel üzrə ödəniş müddəti);

1005.1.9. ödənişin icra edilməli olduğu yer.

1005.2. Bu Məcəllənin 1005.1-ci maddəsində göstərilmiş rekvizitlərdən hər hansı birinin olmadığı sənədin, aşağıdakı hallar istisna olmaqla, köçürmə vekseli qüvvəsi yoxdur:

1005.2.1. ödəniş müddəti göstərilməmiş köçürmə vekseli təqdim edildikdə ödənilməli olan veksel (müddəti təqdim edilməsi ilə müəyyənləşdirilən veksel) sayılır;

1005.2.2. ödəniş yeri xüsusi göstərilmədikdə ödəyicinin adı ilə yanaşı göstərilmiş yer ödəniş yeri və bununla birlikdə ödəyicinin yaşayış yeri və ya olduğu yer sayılır;

1005.2.3. tərtib edildiyi yer göstərilməmiş köçürmə vekseli veksel verənin adı ilə yanaşı göstərilmiş yerdə imzalanmış sayılır;

1005.2.4. verildiyi məqamda tam doldurulmamış köçürmə vekseli başqa şəxslərə verildikdə və həmin şəxslərə vekseldə çatışmayan məlumatları sonradan tamamlamaq hüququ verildikdə blank vekseli qüvvəsinə malik olur.

Maddə 1006. Köçürmə vekselləri̇nin növləri̇

1006.1. Köçürmə vekseli veksel verənin özünün sərəncamı ilə verilə bilər.

1006.2. Köçürmə vekseli veksel verənin özünə verilə bilər.

1006.3. Köçürmə vekseli üçüncü şəxsin hesabına verilə bilər.

Maddə 1007. Köçürmə vekseli üzrə ödəniş yeri

Köçürmə vekseli üçüncü şəxsdə, ödəyicinin yaşayış yerində və ya olduğu yerdə və ya hər hansı başqa yerdə ödənilməli ola bilər.

Maddə 1008. Veksel üzrə faizlər

1008.1. Təqdim edildikdə və ya təqdim edildikdən sonra müəyyən vaxt ərzində ödənilməli olan köçürmə vekselində veksel verən şərt qoya bilər ki, veksel məbləğinin üstünə faizlər hesablanacaqdır.

1008.2. Faiz dərəcəsi vekseldə göstərilməlidir; belə göstəriş olmadıqda şərt yazılmamış sayılır.

1008.3. Faizlərin hesablanmağa başlandığı gün göstərilmədikdə onlar vekselin tərtib edildiyi gündən hesablanmalıdır.

Maddə 1009. Veksel məbləği

1009.1. Əgər veksel məbləği həm sözlə, həm də rəqəmlə göstərilmişdirsə, onların arasında fərq olduqda vekselin yazı ilə göstərilmiş məbləğdə qüvvəsi olur.

1009.2. Əgər köçürmə vekselində məbləğ bir neçə dəfə yazı ilə və bir neçə dəfə rəqəmlə göstərilmişdirsə, onların arasında fərq olduqda vekselin daha az məbləğdə qüvvəsi olur.

Maddə 1010. Köçürmə vekselində etibarsız imzalar

Köçürmə vekselində veksel üzrə öhdəlik götürə bilməyən şəxslərin imzaları, saxta imzalar və ya uydurma şəxslərin imzaları olduqda və ya imzaları atmış və ya adından imzalar atılmış şəxsləri hər hansı başqa əsasla mükəlləfiyyətli edə bilməyən imzalar olduqda, digər şəxslərin imzaları qüvvəsini itirmir.

Maddə 1011. Nümayəndəlik səlahiyyəti olmayan şəxsin köçürmə vekselini imzalaması

Şəxsin adından fəaliyyət göstərmək üçün səlahiyyət almadan onun nümayəndəsi kimi köçürmə vekselini imzalamış hər bir şəxs veksel üzrə öhdəlikləri özü daşıyır və əgər veksel üzrə ödənişi həyata keçirmişdirsə, təmsil etdiyi şəxsin malik ola biləcəyi hüquqlara malik olur. Öz səlahiyyətlərini aşan nümayəndə də eynilə bu vəziyyətdə olur.

Maddə 1012. Veksel verənin məsuliyyəti

1012.1. Veksel verən aksept və ödəniş üçün məsuliyyət daşıyır.

1012.2. Veksel verən aksept üçün məsuliyyəti öhdəsindən götürə bilər, lakin ödəniş üçün məsuliyyəti öhdəsindən götürə bilməz.

Maddə 1013. Vekselin aksepti

1013.1. Ödəyici aksept vasitəsi ilə köçürmə vekselini vaxtında ödəmək öhdəliyini götürür. Ödənişin həyata keçirilmədiyi halda veksel verən akseptanta qarşı məhkəməyə iddia verə bilər.

1013.2. Aksept vekseldə yazılı bəyanat vasitəsi ilə ifadə edilir.

1013.3. Əgər veksel təqdim edildikdən sonra müəyyən müddətdə ödənilməlidirsə və ya əgər xüsusi şərtə görə veksel aksept üçün müəyyən müddətdə təqdim edilməlidirsə, akseptə onun verildiyi günün tarixi qoyulmalıdır, bu şərtlə ki, veksel saxlayan akseptə təqdim edilmə gününün tarixini qoymağı tələb etməsin.

1013.4. Əgər veksel verən köçürmə vekselində ödəniş yeri kimi ödəyicinin yaşayış yerini və ya olduğu yeri deyil, başqa yeri göstərmişdirsə və bu zaman ödənişin hansı üçüncü şəxsdə icra edilməli olduğunu göstərməmişdirsə, ödəyici həmin şəxsi aksept zamanı göstərə bilər.

1013.5. Əgər veksel ödəyicinin yaşayış yerində və ya olduğu yerdə ödənilməlidirsə, ödəyici akseptdə ödənişin icra edilməli olduğu yerdəki hər hansı ünvanı göstərə bilər.

1013.6. Ödəyici aksepti veksel məbləğinin bir hissəsi ilə məhdudlaşdıra bilər.

1013.7. Qalan məsələlərdə aksept sadə olmalı və heç nə ilə şərtləşdirilməməlidir. Köçürmə vekselinin məzmununda akseptin etdiyi hər hansı başqa dəyişiklik akseptdən imtinaya bərabərdir.

Maddə 1014. Köçürmə vekselinin aksept üçün təqdim edilməsi

1014.1. Veksel saxlayan və ya vekseli olan hər hansı şəxs köçürmə vekselini ödəniş müddəti çatanadək aksept üçün ödəyiciyə onun yaşayış yerində təqdim edə bilər.

1014.2. Veksel verən aşağıdakıları edə bilər:

1014.2.1. köçürmə vekselində şərt qoya bilər ki, veksel aksept üçün müddət təyin edilməklə və ya təyin edilmədən təqdim oluna bilər;

1014.2.2. üçüncü şəxsdə ödənilməli olan köçürmə vekseli və ya ödəyicinin yaşayış yerində və ya olduğu yerdə deyil, başqa yerdə ödənilməli olan veksel və ya təqdim edildikdən müəyyən müddət sonra ödənilməli olan veksel istisna edilməklə, vekseldə onun aksept üçün təqdim olunmasını qadağan edə bilər;

1014.2.3. şərt qoya bilər ki, veksel aksept üçün müəyyən müddətdən tez təqdim edilə bilməz.

1014.3. Hər bir indossant şərt qoya bilər ki, veksel aksept üçün müddət təyin edilməklə və ya təyin edilmədən təqdim oluna bilər, bu şərtlə ki, veksel verən onun aksept üçün təqdim olunmasını qadağan etməsin.

1014.4. Təqdim edildikdən sonra müəyyən müddətdə ödənilməli olan köçürmə vekseli aksept üçün onun verildiyi gündən bir il ərzində təqdim edilməlidir. Veksel verən başqa müddət təyin edə bilər. İndossantlar bu müddəti qısalda bilərlər.

Maddə 1015. Köçürmə vekseli üzrə akseptin geri götürülməsi

1015.1. Köçürmə vekselində öz aksepti barəsində qeyd yazmış ödəyici veksel qaytarılanadək qeydin üstündən xətt çəkdikdə hesab edilir ki, akseptdən imtina olunmuşdur.

1015.2. Lakin ödəyici öz aksepti barəsində veksel saxlayana və ya vekseldə imza edənlərin hər hansı birinə yazılı məlumat vermişdirsə, onların qarşısında öz akseptinin şərtlərinə uyğun məsuliyyət daşıyır.

Maddə 1016. Aval (veksel zaminliyi)

1016.1. Köçürmə vekseli üzrə ödəniş veksel zaminliyi (aval) vasitəsi ilə tamamilə və ya qismən təmin edilə bilər.

1016.2. Avalı üçüncü şəxs və ya vekseldə imza etmiş şəxslərdən biri verə bilər.

1016.3. Veksel zaminliyi köçürmə vekselində və ya əlavə vərəqdə verilir. Aval üçün ödəyici və ya veksel verən olmayan avalçının köçürmə vekselinin üz tərəfində qoyduğu imza kifayətdir.

1016.4. Avalda onun kimin hesabına verildiyi göstərilməlidir. Bu, göstərilmədikdə hesab edilir ki, aval veksel verənin hesabına verilmişdir.

1016.5. Avalçı avalı kimin əvəzinə vermişdirsə, onun qədər məsuliyyət daşıyır. Onun öhdəliyi qarantiya verdiyi öhdəliyin etibarsız olduğu halda da qüvvədə qalır.

1016.6. Avalçı köçürmə vekselini ödəyərək həmin vekseldən irəli gələn hüquqları qarantiya verdiyi şəxsə qarşı və köçürmə vekselinə görə onun qarşısında mükəlləfiyyətli olanların hamısına qarşı əldə edir.

Maddə 1017. Vekselin başqasına verilməsi

1017.1. İstənilən köçürmə vekseli indossament vasitəsi ilə başqasına verilə bilər.

1017.2. İndossament həmçinin veksel verənin və veksel üzrə mükəlləfiyyətli olan hər hansı digər şəxsin xeyrinə icra edilə bilər. Bu, vekseli aksept edib-etmədiyindən asılı olmayaraq ödəyici üçün də qüvvədədir. Bu şəxslər də vekseli indossament edə bilərlər.

Maddə 1018. İndossantın məsuliyyəti

Əgər razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, indossant aksept və ödəniş üçün məsuliyyət daşıyır. İndossant öz indossamentində sonrakı indossamenti qadağan edirsə, veksel xeyrinə indossament edilmiş şəxslərin qarşısında məsuliyyət daşımır.

Maddə 1019. Veksel saxlayanın xeyrinə ehtimallar

1019.1. Köçürmə vekseli olan şəxs indossamentlərin ardıcıl sırasına öz hüququnu əsaslandırırsa, hətta sonuncu indossament blank indossamenti olsa da, qanuni veksel saxlayandır. Bu zaman üstündən xətt çəkilmiş indossamentlər yazılmamış sayılırlar. Blank indossamentinin ardınca başqa indossament gəldikdə bu sonuncunu imzalamış şəxs blank indossamenti üzrə veksel əldə edən sayılır.

1019.2. Əgər əvvəlki veksel saxlayan köçürmə vekselini hər hansı səbəblərə görə itirmişsə, bu Məcəllənin 1019.1-ci maddəsinə əsasən öz hüququnu sübuta yetirən yeni veksel saxlayan vekseli yalnız onu haqsız əldə etdiyi və ya əldə edərkən kobud ehtiyatsızlıq göstərmiş olduğu halda geri verməyə borcludur.

Maddə 1020. Yenidən tapşırma indossamenti

1020.1. Əgər indossamentdə sadə tapşırıqdan ibarət hər hansı qeyd-şərt qoyulmuşdursa, veksel saxlayan köçürmə vekselindən irəli gələn bütün hüquqları həyata keçirə bilər, lakin onu yalnız yenidən tapşırma qaydasında indossament edə bilər.

1020.2. Yenidən tapşırma indossamentində olan tapşırığa yenidən tapşıranın ölümü və ya fəaliyyət qabiliyyətini itirməsi nəticəsində xitam verilmir.

Maddə 1021. Girov indossamenti

Əgər indossamentdə girovu nəzərdə tutan qeyd-şərt qoyulmuşdursa, veksel saxlayan köçürmə vekselindən irəli gələn bütün hüquqları həyata keçirə bilər, lakin onun qoyduğu indossamentin yalnız yenidən tapşırma indossamenti kimi qüvvəsi vardır.

Maddə 1022. Ödəniş müddətindən sonra indossament

1022.1. Ödəniş müddətindən sonra icra edilmiş indossament həmin müddətdən əvvəl icra edilmiş indossamentlə eyni nəticələrə səbəb olur.

1022.2. Tarixi qoyulmamış indossament, nə qədər ki əksi sübuta yetirilməmişdir, müddət bitənədək icra edilmiş sayılır.

Maddə 1023. Köçürmə vekselinin ödəniş vaxtı (ödəniş müddətləri)

1023.1. Köçürmə vekseli aşağıdakı ödəniş müddəti ilə verilə bilər:

1023.1.1. təqdim edildiyi an;

1023.1.2. təqdim edildikdən sonra müəyyən müddətdə;

1023.1.3. tərtib edildikdən sonra dəqiq göstərilmiş vaxtda;

1023.1.4. müəyyən gündə.

1023.2. Başqa ödəniş müddətləri və ya bir neçə ardıcıl ödəniş müddəti olan köçürmə vekselləri etibarsızdır.

Maddə 1024. Ödəniş müddəti təqdim edildiyi an çatan köçürmə vekseli

1024.1. Ödəniş müddəti təqdim edildiyi an çatan köçürmə vekseli təqdim edildikdə dərhal ödənilməlidir. Ödəniş üçün həmin veksel tərtib edildiyi gündən bir il ərzində təqdim edilməlidir. Veksel verən bu müddəti qısalda və ya daha uzun müddət təyin edə bilər. Bu müddətləri indossantlar qısalda bilərlər.

1024.2. Veksel verən müəyyənləşdirə bilər ki, ödəniş müddəti təqdim edildiyi an çatan köçürmə vekseli ödəniş üçün müəyyən müddətdən tez təqdim edilə bilməz. Bu halda təqdim edilmə müddətinin axımı həmin vaxtdan başlanır.

Maddə 1025. Təqdim edildikdən sonra müəyyən müddətdə ödənilən köçürmə vekseli

1025.1. Təqdim edildikdən sonra müəyyən ödəniş müddəti ilə verilmiş köçürmə vekseli üzrə ödəniş müddəti akseptdə göstərilən tarixlə təyin edilir.

1025.2. Əgər akseptdə tarix göstərilməyibsə, akseptant barəsində veksel aksept üçün təqdim edilmək üçün nəzərdə tutulan müddətin sonuncu günündə aksept edilmiş sayılır.

Maddə 1026. Veksellər üzrə ödəniş müddətlərinin hesablanması

1026.1. Tərtib edildikdən və ya təqdim olunduqdan sonra bir və ya bir neçə aylıq müddətə verilmiş köçürmə vekseli üzrə ödəniş müddəti ödənişin icra edilməli olduğu ayın müvafiq günündə çatır. Həmin ayda müvafiq gün olmadıqda ödəniş müddəti həmin ayın sonuncu günündə çatır.

1026.2. Əgər köçürmə vekseli tərtib edildikdən və ya təqdim olunduqdan sonra bir ay yarım və ya bir neçə ay üstəgəl yarım ay müddətinə verilmişdirsə, əvvəlcə tam aylar hesablanır.

1026.3. Əgər ödəniş müddəti ayın əvvəlinə, ortasına və ya axırına təyin edilmişdirsə, bu ifadələr ayın birinci, on beşinci və ya sonuncu gününü bildirir.

1026.4. «Səkkiz gün» və ya «on beş gün» ifadəsi bir və ya iki həftəni deyil, tam səkkiz və ya on beş günlük müddəti bildirir.

1026.5. «Yarım ay» ifadəsi on beş günlük müddəti bildirir.

1026.6. Əgər köçürmə vekseli onun verildiyi yerdəki təqvimdən fərqlənən başqa təqvimin qəbul olunduğu hər hansı yerdə müəyyən gün ödənilməlidirsə, ödəniş müddəti ödəniş yerinin təqvimi üzrə təyin edilmiş sayılır.

1026.7. Tərtib edildikdən sonra müəyyən ödəniş müddəti ilə verilmiş köçürmə vekselinin verildiyi yerdə və ödəniş yerində müxtəlif təqvimlər qüvvədədirsə, ödəniş yerinin təqvimində verilmə gününə uyğun tarix müəyyənləşdirilir və ondan asılı olaraq ödəniş müddəti təyin edilir.

1026.8. Köçürmə veksellərinin təqdim edilməsi üçün müddətlər bu Məcəllənin 1026.7-ci maddəsinə əsasən hesablanır.

Maddə 1027. Vekselin ödəniş üçün təqdim edilməsi

1027.1. Tərtib edildikdən və ya təqdim olunduqdan sonra müəyyən ödəniş müddəti ilə verilmiş köçürmə vekselini saxlayan ödəniş üçün köçürmə vekselini ya onun ödənilməli olduğu gün, ya da həmin gündən sonrakı iki iş günündən birində təqdim etməlidir.

1027.2. Köçürmə vekseli ödəniş üçün bu Məcəllənin 1027.1-ci maddəsində müəyyənləşdirilmiş müddət ərzində təqdim edilmədikdə borclu veksel məbləğini kreditorun yaşayış yeri üzrə məhkəməyə depozitə verə bilər.

Maddə 1028. Ödənişin alınması barədə qəbz təqdim edilməsi. Qismən ödəniş

1028.1. Köçürmə vekselini ödəyərkən ödəyici tələb edə bilər ki, veksel saxlayan vekseli ona ödənişi aldığı barədə qəbzlə təqdim etsin.

1028.2. Veksel saxlayan qismən ödənişin qəbulundan imtina edə bilməz.

1028.3. Vekselin qismən ödənildiyi halda ödəyici tələb edə bilər ki, bu cür ödənişə dair vekseldə qeyd edilsin və bu barədə ona qəbz verilsin.

Maddə 1029. Veksel üzrə ödəniş müddəti çatanadək və çatdıqda ödəniş

1029.1. Veksel saxlayan köçürmə vekselini ödəniş üçün onun ödəniş müddəti çatanadək qəbul etməyə borclu deyildir.

1029.2. Vekseli müddət çatanadək ödəyən ödəyici bunu öz riski ilə edir.

1029.3. Vekseli vaxtında ödəyən şəxs öhdəlikdən azaddır.

1029.4. Ödəyici indossamentlərin ardıcıl sırasının düzgünlüyünü yoxlamağa borcludur, lakin indossantların imzalarını yoxlamağa borclu deyildir.

Maddə 1030. Xarici valyuta ilə verilən veksellər

1030.1. Əgər köçürmə vekseli xarici valyuta ilə yazılıb verilmişdirsə, onun məbləği ödəniş müddətinin çatdığı günün məzənnəsi üzrə manatla ödənilə bilər. Əgər borclu ödənişi gecikdirmişsə, veksel saxlayan öz mülahizəsinə əsasən tələb edə bilər ki, köçürmə vekselinin məbləği ya ödəniş müddətinin çatdığı günün, ya da ödəniş gününün məzənnəsi üzrə manatla ödənilsin.

1030.2. Xarici valyutanın məzənnəsini Azərbaycan Respublikasının *Mərkəzi Bankı* müəyyənləşdirir. Lakin veksel verən şərt qoya bilər ki, ödənilməli məbləğ vekseldə göstərilmiş məzənnə üzrə hesablanacaqdır.

1030.3. Veksel verən ödənişin vekseldə göstərilmiş müəyyən valyuta ilə həyata keçirilməli olduğu barədə məcburi şərt qoyduqda, bu Məcəllənin 1030.1 və 1030.2-ci maddələrinin müddəaları tətbiq edilmir. (39)

Maddə 1031. Vekselin ödənişindən və ya akseptindən imtina

1031.1. Əgər köçürmə vekselini ödəməkdən imtina edilmişdirsə, ödəniş müddəti çatdıqda veksel saxlayan özünün reqres hüquqlarını indossantlara, veksel verənə və veksel üzrə digər mükəlləfiyyətlilərə qarşı həyata keçirə bilər.

1031.2. Ödəyici köçürmə vekselinin akseptindən tamamilə və ya qismən imtina etdikdə, veksel saxlayana da eyni hüquq ödəniş müddəti çatanadək mənsub olur.

Maddə 1032. Akseptdən və ya ödənişdən rəsmi akt üzrə imtina (protest)

1032.1. Akseptdən və ya ödənişdən imtina bu Məcəllənin 1033-cü maddəsinə uyğun tərtib edilmiş rəsmi aktla təsdiqlənməlidir (akseptdən və ya ödənişdən imtinaya protest).

1032.2. Akseptdən imtinaya protest vekselin akseptə təqdim edilməsi üçün müəyyənləşdirilmiş müddətlərdə verilməlidir. Əgər vekselin aksept üçün ilk təqdimatı müddətin sonuncu günündə baş vermişdirsə, protest növbəti gündə də verilə bilər.

1032.3. Tərtib edildikdən və ya təqdim olunduqdan sonra müəyyən ödəniş günü və ya müəyyən ödəniş müddəti olan köçürmə vekselini ödəməkdən imtina edilməsinə protest köçürmə vekselinin ödənilməli olduğu gündən sonrakı iki iş günündən birində verilməlidir. Ödəniş müddəti təqdim edildiyi an çatan köçürmə vekseli ilə əlaqədar protest bu Məcəllənin 1032.2-ci maddəsində müəyyənləşdirilmiş müddətlərdə verilməlidir.

1032.4. Akseptdən imtinaya protest verilməsi vekselin ödəniş üçün təqdim edilməsindən və ödənişdən imtinaya protestdən azad edir.

1032.5. Ödəyici ödənişləri dayandırdıqda onun vekseli aksept edib-etmədiyindən asılı olmayaraq veksel saxlayan özünə mənsub hüquqları yalnız veksel ödəniş üçün ödəyiciyə təqdim edildikdən və protest verildikdən sonra həyata keçirə bilər.

Maddə 1033. Veksel üzrə akseptdən və ya ödənişdən imtinaya protest verilməsi

1033.1. Protest məhkəmə icraçısı, notarius və ya müvafiq icra hakimiyyəti orqanının rəsmi sənədlərin tərtibinə vəkil etdiyi digər şəxs tərəfindən tərtib edilməlidir.

1033.2. Protestdə aşağıdakı məlumatlar göstərilməlidir:

1033.2.1. protest verən şəxsin adı;

1033.2.2. protest kimə qarşı yönəldilmişdirsə, həmin şəxsin adı;

1033.2.3. protestin yönəldildiyi şəxsdən ödənişi həyata keçirmək və ya aksepti icra etmək barəsində xahişlər edilməsinin nəticəsiz qaldığının göstərilməsi; və ya onu yerində tapmağın mümkün olmadığının göstərilməsi; və ya protestin yönəldildiyi şəxsin yaşayış yerini və ya olduğu yeri müəyyənləşdirməyin mümkün olmadığının göstərilməsi;

1033.2.4. nəticəsiz qalmış xahişin verildiyi və ya cəhdin edildiyi yerin və günün göstərilməsi.

1033.3. Protest tərtib edən şəxs onu imzalayır və köçürmə vekselinin arxa tərəfinə və ya ona qoşulmuş vərəqə möhür və ya ştempel vurur.

1033.4. Əgər eyni köçürmə vekselinin bir neçə nüsxəsi təqdim edilərkən və ya onun əsli və surəti təqdim edilərkən protest verilirsə, protestin nüsxələrdən birində və ya vekselin əslində yazılması kifayətdir. Digər nüsxələrdə və ya surətdə protestin hansı nüsxədə yazıldığı və ya vekselin əslində olduğu qeyd edilməlidir. Bu qeydi protesti tərtib etmiş şəxs imzalamalıdır.

1033.5. Əgər aksept veksel məbləğinin bir hissəsi ilə məhdudlaşdırıldığına görə protest verilirsə, köçürmə vekselinin surəti tərtib edilir və protest həmin surətə və ya ona qoşulan vərəqə yazılır. Köçürmə vekselində olan indossamentlər və digər qeydlər onun surətində də olmalıdır.

1033.6. Əgər köçürmə vekselindən irəli gələn bir neçə tələb bir neçə şəxsə və ya eyni şəxsə qarşı irəli sürülməlidirsə, çoxsaylı tələblər üçün bir protestin tərtibi kifayətdir.

1033.7. Protesti tərtib edən şəxs onun bir surətini özündə saxlamalıdır. Bu surətdə aşağıdakılar göstərilməlidir:

1033.7.1. veksel məbləği;

1033.7.2. ödəniş müddəti;

1033.7.3. protestin tərtib edildiyi yer və tarix;

1033.7.4. veksel verənin, ödəyicinin adı, habelə ödəniş kimə və ya kimin sərəncamı ilə həyata keçirilməlidirsə, onun adı.

Maddə 1034. Veksel üzrə akseptdən və ya ödənişdən imtina barəsində bildiriş

1034.1. Veksel saxlayan akseptdən və ya ödənişdən imtina barəsində öz indossantına və veksel verənə protest günündən sonrakı dörd iş günü ərzində bildiriş verməlidir. Hər bir indossant bildirişi aldığı gündən sonrakı iki iş günü ərzində öz indossantına bu bildiriş barəsində, əvvəlki bildirişləri göndərənlərin, o cümlədən veksel verənin adlarını və ünvanlarını göstərməklə məlumat verməlidir. Yuxarıda göstərilən müddətlərin axımı əvvəlki bildirişin alındığı gündən başlanır.

1034.2. Əgər bu Məcəllənin 1034.1-ci maddəsinə əsasən, köçürmə vekselinə imza etmiş şəxsə bildiriş göndərilərsə, eyni bildiriş eyni müddətdə veksel üçün aval vermiş şəxsə də göndərilməlidir.

1034.3. İndossantlardan hər hansı biri öz ünvanını göstərmədikdə və ya dolaşıq göstərdikdə bildirişin ondan əvvəlki indossanta göndərilməsi kifayətdir.

1034.4. Bildiriş istənilən formada, hətta köçürmə vekselinin sadə qaytarılması yolu ilə verilə bilər.

1034.5. Bildirişi göndərməli olan onu müəyyənləşdirilmiş müddətdə göndərdiyini sübuta yetirməlidir. Əgər bildirişdən ibarət məktub göstərilmiş müddətdə poçtla yola salınmışdırsa, müddətə riayət edildiyi hesab olunur.

1034.6. Bildirişi yuxarıda göstərilmiş müddətdə göndərməyən şəxs öz hüquqlarını itirmir, lakin öz səliqəsizliyi üzündən əmələ gələ bilən zərər üçün veksel məbləği həddində məsuliyyət daşıyır.

Maddə 1035. Veksel üzrə akseptdən və ya ödənişdən imtinaya protest verməkdən azad edilmə

1035.1. Veksel verən, indossant və ya avalçı vekselə daxil edilmiş və imzalanmış qeyd-şərt vasitəsi ilə veksel saxlayanı akseptdən və ya ödənişdən imtinaya protest vermək öhdəliyindən azad edə bilər.

1035.2. Bu qeyd-şərt veksel saxlayanı köçürmə vekselini müəyyənləşdirilmiş müddətdə təqdim etmək və bildiriş göndərmək vəzifəsindən azad etmir. Müddətlərə riayət olunmadığını veksel saxlayanla mübahisədə bu hala istinad edən şəxs sübuta yetirməlidir.

1035.3. Əgər qeyd-şərti veksel verən daxil etmişdirsə, bu qeyd-şərtin vekseli imzalamış bütün şəxslər barəsində qüvvəsi vardır. Qeyd-şərti indossant və ya avalçı daxil etmişdirsə, həmin qeyd-şərtin onların özləri barəsində qüvvəsi vardır.

Maddə 1036. Veksel üzrə mükəlləfiyyətlilərin məsuliyyəti

1036.1. Köçürmə vekselini vermiş, aksept etmiş, indossament etmiş və ya ona aval qoymuş bütün şəxslər veksel saxlayan qarşısında birgə borclular kimi məsuliyyət daşıyırlar.

1036.2. Veksel saxlayan bu şəxslərin ayrılıqda hər birinə və ya birlikdə hamısına qarşı onların ardıcıllığını gözləmədən iddia irəli sürmək hüququna malikdir.

1036.3. Köçürmə vekselini imzalamış hər kəs onu ödədikdən sonra eyni hüquqa malikdir.

1036.4. Əgər vekseldə onun aksepti haqqında qeyd olunubsa, onun aksepti hallarında veksel üzrə ödənilməməsinə protest icra sənədidir və ödəyicinin hesabındakı vəsaitin mübahisəsiz silinməsi üçün əsasdır. Ödəyənin hesabında vəsait olmadıqda, protest verən ərizəçi veksel üzrə öhdəliklərin veksel üzrə borclunun əmlakına yönəldilməsini tələb etmək hüququna malikdir.

1036.5. Veksel üzrə ödəyicinin əmlakı hesabına vekselsaxlayanın tələblərinin ödənilməsi hüququ bu Məcəllənin 1036.4-cü maddəsində göstərilən hal istisna olmaqla, yalnız məhkəmə qərarlarının icrası qaydasında həyata keçirilir. Vekselin etibarsız sayıldığı hallar istisna olmaqla, məhkəmə veksel verilməsinə əsas olan müqavilə şərtlərindən asılı olmayaraq, qanunvericiliyin tələblərinə uyğun qeydiyyatdan keçmiş və protest edilmiş veksel əsasında tezləşdirilmiş prosedur üzrə (yeddi iş günü ərzində) veksel saxlayanın xeyrinə qərar çıxarmalıdır. (3)

Maddə 1037. Ödənişdən və ya akseptdən imtina edildikdə veksel saxlayanın hüququ

1037.0. Veksel saxlayan iddia irəli sürdüyü şəxsdən aşağıdakıları tələb edə bilər:

1037.0.1. Aksept edilməmiş və ya ödənilməmiş köçürmə vekselinin məbləğini və əgər şərtləşdirilmişdirsə, faizləri;

1037.0.2. ödəniş müddətinin çatdığı gündən faizləri;

1037.0.3. Protest üzrə və bildiriş göndərmək üzrə xərcləri, habelə digər xərcləri.

Maddə 1038. Ödəyicinin hüquqları

Ödəyici onun qarşısında mükəlləfiyyətli olan şəxslərdən bütün ödənilmiş məbləği, həmin məbləğə ödəniş günündən hesablanan faizləri və çəkdiyi xərcləri tələb edə bilər.

Maddə 1039. Veksel sənədlərinin təqdim edilməsi

1039.1. İddia irəli sürülmüş və ya irəli sürülə biləcək hər bir mükəlləfiyyətli şəxs tələb edə bilər ki, veksel məbləğinin ödənilməsi müqabilində ona protestlə və ödəniş qəbzi ilə birlikdə köçürmə vekseli verilsin.

1039.2. Köçürmə vekselini ödəmiş hər bir indossant öz indossamentinin və özündən sonrakı indossantların indossamentlərinin üstündən xətt çəkə bilər.

Maddə 1040. Qismən akseptdən sonra reqres tələbi

Qismən akseptdən sonra reqres tələbinin irəli sürüldüyü halda vekselin aksept edilmədiyi məbləği ödəyən həmin ödənişin vekseldə qeyd olunmasını və bu barədə ona qəbz verilməsini tələb edə bilər. Veksel saxlayan bundan əlavə, ona vekselin təsdiqlənmiş surətini və protest aktını verməlidir ki, o, sonrakı reqres tələbini həyata keçirə bilsin.

Maddə 1041. Geriyə tratta

İddia irəli sürmək hüququ olan şəxs, əgər əks razılaşma yoxdursa, onun qarşısında mükəlləfiyyətli şəxslərdən birinə ödəniş müddəti təqdim edildiyi an çatan, həmin şəxsin yaşayış yeri üzrə ödənilməli olan yeni veksel vermək vasitəsi ilə ödənişi ala bilər (geriyə tratta).

Maddə 1042. Müddətlər keçdikdə veksel saxlayanın hüquqlarını itirməsi

1042.1. Veksel saxlayan indossantlara qarşı, veksel verənə qarşı və akseptant istisna olmaqla, veksel üzrə mükəlləfiyyətli olan digər şəxslərə qarşı öz hüquqlarını aşağıdakılar üçün müəyyənləşdirilmiş müddətlər keçdikdə itirir:

1042.1.1. təqdim edildiyi an və ya təqdim edildikdən sonra müəyyən müddətdə ödənilən köçürmə vekselinin təqdim edilməsi üçün;

1042.1.2. akseptdən və ya ödənişdən imtina nəticəsində protestin verilməsi üçün;

1042.1.3. müvafiq qeyd-şərtin olduğu halda ödənişə təqdim etmək üçün.

1042.2. Vekseli aksept üçün veksel verənin şərtləşdirdiyi müddətdə təqdim etmədikdə veksel saxlayan həm ödənişdən imtina nəticəsində, həm də akseptdən imtina nəticəsində əmələ gələn və ona mənsub olan hüquqları itirir.

1042.3. Əgər vekselin ödəniş üçün təqdim edilməsi müddəti indossamentdə şərtləşdirilmişdirsə, ona yalnız indossant istinad edə bilər.

1042.4. Əgər müəyyənləşdirilmiş müddətdə köçürmə vekselinin təqdim edilməsinə və ya protestin verilməsinə qarşısıalınmaz maneə varsa, bu cür hərəkətlər üçün müəyyənləşdirilmiş müddətlər qarşısıalınmaz qüvvənin təsir etdiyi müddətə uzadılır və bu müddətə 14 gün əlavə edilir. Şəxsən veksel saxlayana və ya onun vekseli təqdim etməyi və ya protest verməyi tapşırdığı şəxsə aid olan hallar qarşısıalınmaz qüvvə sayılmır.

Maddə 1043. Vekselin bir neçə nüsxəsinin verilməsi

1043.1. Köçürmə vekseli bir neçə eyni nüsxədə verilə bilər. Bu nüsxələrə vekselin özündə ardıcıl nömrələr qoyulmalıdır; əks halda onların hər biri ayrıca köçürmə vekseli sayılır. Əgər vekseldə onun yeganə nüsxədə verildiyi göstərilməyibsə, veksel saxlayan öz hesabına onun bir neçə nüsxəsinin verilməsini tələb edə bilər. Bu məqsədlə o bilavasitə özündən əvvəlki indossanta müraciət etməlidir. Həmin indossant ona öz indossantı və əvvəlki indossantlar, o cümlədən veksel verən barəsində kömək göstərməlidir. İndossantlar öz indossamentlərini yeni nüsxələrdə təkrar etməyə borcludurlar.

1043.2. Bir nüsxə üzrə ödənişin həyata keçirilməsi bütün qalan nüsxələrdən irəli gələn hüquqları, hətta bir nüsxə üzrə ödənişin həyata keçirilməsi nəticəsində bütün qalan nüsxələrin qüvvədən düşdüyü qeyd edilməsə belə, ləğv edir. Lakin ödəyici özünün aksept etdiyi və ona qaytarılmamış hər bir nüsxə üzrə məsuliyyət daşımaqda davam edir. Nüsxəni müxtəlif şəxslərə vermiş indossant, habelə sonrakı indossantlar özlərinin imza etdikləri və qaytarılmamış bütün nüsxələr üzrə məsuliyyət daşıyırlar.

1043.3. Nüsxələrdən birini aksept üçün göndərən həmin nüsxənin kimdə olduğunu başqa nüsxələrdə göstərməlidir. Həmin nüsxənin olduğu şəxs onu digər nüsxəni qanuni saxlayana verməyə borcludur. Əgər o bunu etməkdən imtina edərsə, veksel saxlayan özünün iddia hüququnu yalnız aşağıdakılar protestlə təsdiqləndikdən sonra həyata keçirə bilər:

1043.3.1. aksept üçün göndərilmiş nüsxə onun tələbinə baxmayaraq ona verilməmişdir;

1043.3.2. aksept və ya ödəniş başqa nüsxə üzrə alına bilməzdi.

Maddə 1044. Vekselin surətləri

1044.1. Köçürmə vekselini saxlayan hər kəs onun surətini çıxara bilər.

1044.2. Surət orijinalı indossamentlər ilə və üzərində olan bütün digər qeydlərlə birlikdə dəqiq təkrar etməlidir. Surətdə onun hansı indossamentə qədər etibarlı olduğu göstərilməlidir.

1044.3. Surət orijinalla eyni qaydada və eyni nəticələr ilə indossament və aval edilə bilər.

1044.4. Surətdə sənədin əslinin kimdə olduğu göstərilməlidir.

1044.5. Əgər sənədin əslində onun surəti çıxarılanadək edilmiş sonuncu indossamentdən sonra belə bir qeyd-şərt varsa ki, yalnız surətdəki indossament etibarlıdır, sənədin əslində ondan sonra qoyulmuş indossament etibarsız olur.

Maddə 1045. Vekselin mətninin dəyişdirilməsi

Köçürmə vekselinin mətninin dəyişdirildiyi halda bu dəyişiklikdən sonra imza etmiş şəxslər dəyişdirilmiş mətnin məzmununa uyğun məsuliyyət daşıyırlar; dəyişikliyə qədər imza etmiş şəxslər əvvəlki mətnin məzmununa uyğun məsuliyyət daşıyırlar.

Maddə 1046. Köçürmə vekselindən irəli gələn iddia tələbləri üzrə müddətlər

1046.1. Köçürmə vekselindən akseptanta qarşı irəli gələn iddia tələbləri ödəniş müddətinin çatdığı gündən üç il sonra ödənilir.

1046.2. Veksel saxlayanın indossantlara və veksel verənə qarşı iddia tələbləri müəyyənləşdirilmiş müddətdə protestin verildiyi gündən bir il sonra ödənilir.

1046.3. İndossantların bir-birinə və veksel verənə qarşı iddia tələbləri indossantın vekseli ödədiyi gündən və ona qarşı iddia irəli sürüldüyü gündən altı ay sonra ödənilir.

1046.4. Qanuni və ya vekseldə göstərilmiş müddətlər hesablanarkən həmin müddətlərin axımının başlandığı gün hesaba alınmır.

Maddə 1047. Vekselin etibarsız elan edilməsi

İtmiş və ya məhv olmuş veksel ödəniş yeri üzrə məhkəmə tərəfindən etibarsız elan edilə bilər.

Maddə 1048. Sadə veksel. Rekvizitlər

1048.1. Sadə vekseldə aşağıdakılar göstərilməlidir:

1048.1.1. mətnin özünə daxil edilmiş «veksel» adı;

1048.1.2. müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləşdirilməmiş vəd;

1048.1.3. bu Məcəllənin 1005.1.4-1005.1.9-cu maddələrində göstərilmiş rekvizitlər.

1048.2. Bu Məcəllənin 1048.1-ci maddəsində göstərilmiş rekvizitlərdən hər hansı birinin olmadığı sənədin sadə veksel qüvvəsi yoxdur.

1048.3. Sadə vekseli verən köçürmə vekselinin akseptantı ilə eyni əsaslar üzrə məsuliyyət daşıyır.

1048.4. Təqdim edildikdən sonra müəyyən müddətli sadə veksellər veksel verənə bu Məcəllənin 1014.4-cü maddəsində göstərilmiş müddətlər ərzində təqdim edilməlidir. Veksel verən vekselin təqdim edildiyini, günü göstərməklə və öz imzasını qoymaqla

təsdiqləməlidir. Təqdim edildikdən sonra müəyyən müddətin axımı təqdim edilmə haqqında qeydin edildiyi gündən başlanır.

1048.5. Qalan məsələlərdə sadə veksellərə köçürmə vekselləri üçün qüvvədə olan müddəalar tətbiq edilir.

Maddə 1048-1. Xəzinə vekseli

1048-1.1. Xəzinə vekseli dövlət büdcəsindən ödənilməli olan vəsaitlərin məbləğini təsbit edən və ya qısa müddətə şəxslərdən sərbəst pul vəsaitlərinin cəlb edilməsi məqsədi ilə buraxılmış sadə vekseldir.

1048-1.2. Xəzinə vekseli aşağıdakı hallarda verilir:

1048-1.2.1. büdcə təşkilatlarına nəzərdə tutulmuş vəsaitlərin ödənilməsi zamanı xəzinədarlığın sərəncamında kifayət qədər vəsait olmadıqda;

1048-1.2.2. büdcənin cari ehtiyaclarını təmin etmək məqsədilə vəsaitlərin cəlb edilməsi hallarında;

1048-1.2.3. büdcənin mülkiyyət formasından asılı olmayaraq, müəssisə və təşkilatlara borcu olduqda (artıq ödənilmiş vergilər, geri qaytarılmalı olan məbləğlər və s.).

1048-1.3. Xəzinə vekselinin ödəmə müddəti aşağıdakı kimi ola bilər:

1048-1.3.1. tərtib olunduqdan sonra müəyyən vaxt ərzində;

1048-1.3.2. müəyyən edilmiş bir gündə.

1048-1.4. Xəzinə vekselinin ödəmə müddəti yüz səksən təqvim günündən artıq ola bilməz. Xəzinə vekseli yalnız onun buraxıldığı büdcə ili ərzində ödənilməlidir. Xəzinə vekselinin buraxılışı ilin ikinci yarısına təsadüf edərsə, ödəmə müddəti vekselin buraxıldığı tarixdən təqvim ilinin sonuna qədər olan müddətdən çox olmamalıdır.

1048-1.5. Xəzinə vekselindən alınmış mallara görə, görülmüş işlərə və ya göstərilmiş xidmətlərə görə ödəniş vasitəsi kimi istifadə oluna bilər.

1048-1.6. Xəzinə vekseli müvafiq qaydada uçot təşkilatında uçot edilə bilər.

1048-1.7 Xəzinə vekseli təkrar bazarda müvafiq qanunvericiliyə riayət etməklə satılıb-alına bilər. Bu əməliyyatların aparılması üçün vekselsaxlayan müəyyən edilmiş qaydada vekseli verdiyi şəxsin adına indossament vasitəsilə ötürməlidir.

1048-1.8. Xəzinə vekseli hüquqi şəxslər tərəfindən büdcəyə olan vergi və ya digər borcları əvəzinə xəzinədarlığa təqdim edilə bilər.

1048-1.9. Xəzinə vekseli ödəmə vaxtı çatmazdan əvvəl xəzinədarlığa ödəniş üçün təqdim oluna bilməz.

1048-1.10. Xəzinə vekseli ödəniş vaxtı çatdıqda ödəniş üçün onu buraxan xəzinədarlığa (ödəyiciyə) təqdim olunur və onun tərəfindən ödənilir. Xəzinədarlıq (ödəyici) xəzinə

vekselini ödəməkdən imtina etdikdə, vekselsaxlayan qanunvericiliyə uyğun olaraq ödəmədən imtinanı rəsmi protest aktı ilə təsbit etdirməlidir.

1048-1.11. Hüquqi və fiziki şəxslərin sərbəst pul vəsaitlərinin büdcəyə cəlb edilməsi məqsədilə xəzinə vekseli diskont qiymətli kağızı kimi buraxılır və xəzinədarlıq tərəfindən nominal dəyərindən aşağı qiymətlə realizə olunur, ödənildikdə isə ödəyici tərəfindən vekselsaxlayana veksel məbləği tam ödənilir. (3)

Maddə 1048-2. Veksellərin uçotu

1048-2.1. Veksellərin uçotu ödəniş vaxtı çatana qədər vekselsaxlayan tərəfindən vekselin uçot təşkilatına verilməsi və onun müqabilində, veksel məbləğindən diskont məbləği çıxılmaqla, qalan məbləğin alınmasıdır.

1048-2.2. Azərbaycan Respublikasında veksellərin uçotu, domisilyasiyası, inkassoya qəbul edilməsi, veksellərin ödənilməsi üzrə xidmətlərin göstərilməsi və veksellər üzrə digər əməliyyatlar yalnız qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçmiş uçot təşkilatları tərəfindən (kredit təşkilatları, veksel evləri və digər ixtisaslaşdırılmış maliyyə-investisiya müəssisələri) həyata keçirilə bilər.

1048-2.3. Veksellərin yenidən uçotu vekselin uçotunu aparan bankdan uçota aldığı veksellərin, ödəniş tarixindən əvvəl Mərkəzi Bank tərəfindən vekselin məbləğini diskontla ödəməklə alınmasıdır.

1048-2.4. Veksellərin uçotu və yenidən uçotu qaydaları qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanının və Mərkəzi Bankın normativ hüquqi aktları ilə müəyyən edilir. (3, 39)

§ 4. Çek

Maddə 1049. Çek anlayışı və onun məzmunu

1049.1. Çek orderli qiymətli kağız olub, ifadə etdiyi pul məbləğinin çek sahibinə ödənilməsi barədə çek verənin banka verdiyi və heç nə ilə şərtləşdirilməyən yazılı sərəncamından ibarətdir.

1049.2. Çekdə aşağıdakı rekvizitlər göstərilməlidir:

1049.2.1. sənədin mətninə daxil edilmiş «çek» adı;

1049.2.2. müəyyən pul məbləğini ödəmək barədə sadə və heç nə ilə şərtləşdirilməyən tapşırıq;

1049.2.3. ödənişi icra etməli bankın adı;

1049.2.4. ödəniş yerinin göstərilməsi;

1049.2.5. çekin tərtib olunduğu tarixin və yerin göstərilməsi;

1049.2.6. çek verənin imzası.

1049.3. Bankların yalnız elə çek blankları verməsinə icazə verilir ki, orada mətbəə üsulu ilə çap edilmiş aşağıdakı məlumatlar olsun: ödəyici bankın adı, ünvanı və telefon nömrəsi, çek verənin (hesab sahibinin) adı və ünvanı, habelə ödəyici bankın hesab nömrəsi.

1049.4. Çeklərə hesablaşma çeki, bank çeki, pul çeki və yol çeki aiddir.

1049.5. Hesablaşma çeki hesablardan nağdsız qaydada hesablaşmaların aparılmasını nəzərdə tutan çekdir.

1049.6. Bank çeki bir bankın başqa banka banklararası hesablaşmaların aparılması üçün təqdim etdiyi çekdir.

1049.7. Pul çeki müştərinin bankda olan hesabından nağd pul vəsaitini almaq üçün yazılı sərəncamdan ibarət olan çekdir.

1049.8. Yol çeki bir məntəqədə verilmiş çekdə imza nümunəsi göstərilən çek sahibinə, çekdə yazılmış məbləği ödəməyi üzərinə götürən təşkilatın öhdəliyi olub, digər məntəqədə nağdlaşdırılan çekdir. Yol çeklərinin ödənilməsi sahibinin imzası əsasında çekin emitenti, onun filialı və yaxud emitentin göstərdiyi digər təşkilat tərəfindən həyata keçirilir.

1049.9.Azərbaycan Respublikasında çeklərin buraxılışı və tədavülü qaydaları qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktları ilə müəyyən edilir. (3)

Maddə 1050. Veksellər haqqında müddəaların çeklərə tətbiqi

Vekselin aksept edilməsinə dair müddəalar istisna olmaqla, bu Məcəllənin 1005.2.4, 1006, 1009-1012-ci maddələrinin müddəaları çeklərdən irəli gələn münasibətlərin tənzimlənməsinə də tətbiq edilir.

Maddə 1051. Çekin təminatı tələbi

1051.1. Çek yalnız o hallarda verilə bilər ki, çek verənin bankdakı hesablarında vəsaiti və həmin vəsaitə dair çeklər vasitəsi ilə sərəncam vermək hüququ olsun.

1051.2. Çekin ödənilməsi üçün çek verənin vəsaiti və ya ona verilmiş kredit kifayət etmədikdə bankın çeki ödəməkdən imtina etmək hüququ vardır. Bank təmin olunmamış məbləği ödədikdə isə, çek sahibinin hüquqları ona keçir. Bank çeki tamamilə və ya qismən ödəməkdən imtina etdikdə, aşağıdakı nəticələr baş verməlidir:

1051.2.1. çek verən, yaxud tamamilə və ya qismən ödənilməmiş çeki çek verənin əvəzinə imzalamış şəxs birgə borclular kimi, çek məbləğinin ödənilməmiş hissəsinin 6 faizi miqdarında zərərin əvəzini çek sahibinə ödəməlidirlər. Çek sahibinin başqa zərərin əvəzinin ödənilməsi tələbini həyata keçirmək hüququ saxlanılır;

1051.2.2. bank təminat olmadığından çekin tamamilə və ya qismən ödənilmədiyini çekin özündə qeyd etməli və ləngimədən onu çek sahibinə göndərməli, bu barədə belə çekləri imzalamış çek verənlərin reyestrini tərtib edən Azərbaycan Respublikasının *Mərkəzi Bankına* dərhal bildiriş göndərməlidir;

1051.2.3. təmin olunmamış çeki verənin bir il ərzində çeklər verməsinə icazə verilmir və o, özündə olan bütün çek blanklarını dərhal ödəyici banka və müştərisi olduğu bütün başqa banklara qaytarmalıdır. Ödəyici bank bunu yazılı şəkildə dərhal çek verəndən və hesablardakı vəsaitə dair sərəncam verməyə ixtiyarlı olan bütün şəxslərdən tələb etməli və bundan sonra çek verməyi onlara qadağan etməlidir;

1051.2.4. bu tələbdən sonra bir ay müddətində çek verən çek sahibi barədə çek məbləğinin ödənilməmiş hissəsini ödədiyini, habelə bu Məcəllənin 1051.2.1-ci maddəsinə uyğun olaraq zərərin əvəzini ödədiyini, yaxud həmin məbləğlərin tam ödənilməsi üçün ödəyici bankın kifayət qədər vəsaitə malik olması qayğısına qaldığını ödəyici banka sübut edərsə, bu Məcəllənin 1051.2.3-cü maddəsinə uyğun olaraq çeklərin verilməsinin qadağan edilməsinin gələcək üçün qüvvəsi yoxdur. (39)

Maddə 1052. Çekin aksept edilməsinin istisna olunması

Ödəyici çeki aksept etməməlidir. Çekdə aksept barədə yazılan qeyd etibarsız sayılır.

Maddə 1053. Çek üzrə ödənişi almağa ixtiyarlı şəxsin adı

1053.1. Çek yazıla bilər:

1053.1.1. müəyyən şəxsin adına;

1053.1.2. təqdim edənə (adsız).

1053.2. Çek «və ya təqdim edənə» qeyd-şərti ilə, yaxud bu cür məna ifadə edən qeyd-şərtlə müəyyən şəxsə verilərsə, adsız çek sayılır.

1053.3. Sahibinin adı göstərilməyən çek adsız çek sayılır.

1053.4. Çek çek verənin özünə verilə bilər.

Maddə 1054. Çekdə faizlər barədə yazılan qeyd-şərtin etibarsızlığı

Çekdə faizlər barədə yazılan qeyd-şərt etibarsız sayılır.

Maddə 1055. Çekin başqasına verilməsi

1055.1. Müəyyən şəxsə verilmiş və ödənişə təqdim olunmuş çek indossament vasitəsi ilə başqa şəxsə verilə bilər.

1055.2. Çek indossament vasitəsi ilə həmçinin çek verənə və çek üzrə mükəlləfiyyətli hər hansı şəxsə verilə bilər. Öz növbəsində bu şəxslər də çeki indossament edə bilərlər.

1055.3. Ödəyici bankın indossamenti etibarsızdır. Adsız indossament blanklı indossament sayılır. Bankın bir neçə şöbəsinin (filialının) olduğu və indossamentin çekin verildiyi şöbənin deyil, başqa şöbənin xeyrinə edildiyi hallar istisna olmaqla, bank üçün indossamentin yalnız ödəniş qəbzi qüvvəsi vardır.

1055.4. Vekselin aksept edilməsinə dair müddəalar istisna olmaqla, bu Məcəllənin 993.3-993.4, 1018 və 1020-ci maddələrinin müddəaları çeklərə də tətbiq edilir.

Maddə 1056. Çek sahibinin xeyrinə ehtimal. Çekin itirilməsi

1056.1. Çek sahibinin xeyrinə ehtimala bu Məcəllənin 1019.1-ci maddəsi tətbiq edilir.

1056.2. Çek sahibi çeki itirdikdə, əlində çek olan şəxs, onun adsız çek və ya indossament vasitəsi ilə verilən çek olmasına baxmayaraq, çeki yalnız o halda qaytarmağa borcludur ki, onu vicdansız yolla əldə etmiş olsun və ya əldə edərkən kobud ehtiyatsızlıq etmiş olsun.

Maddə 1057. Çek zaminliyi (aval)

Çek məbləğinin ödənişinə avalçı tərəfindən aval (çek zaminliyi) vasitəsi ilə tamamilə və ya qismən qarantiya verilə bilər. Ödənişə belə qarantiyanı, ödəyici bank istisna olmaqla, hər hansı üçüncü şəxs və ya artıq çekdə imzası olan şəxs verə bilər.

Maddə 1058. Çekin ödənişə təqdim olunması

1058.1. Çek təqdim olunduqda ödənilməlidir. Hər cür başqa göstəriş etibarsız sayılır.

1058.2. Tərtib edildiyi ölkədə ödənilməli olan çek bir ay müddətində ödənişə təqdim olunmalıdır. Verildiyi ölkədə deyil, başqa ölkədə ödənilməli olan çek, verilmə yeri ilə ödəniş yeri eyni qitədədirsə, iki ay müddətində, müxtəlif qitələrdədirsə, üç ay müddətində ödənişə təqdim edilməlidir. Həm də Müstəqil Dövlətlər Birliyinin üzvü olan bir dövlətin ərazisində verilən və Müstəqil Dövlətlər Birliyinin üzvü olan digər dövlətin ərazisində ödənilməli olan çeklər eyni qitədə verilən və ödənilməli olan çeklər sayılır. Yuxarıda göstərilən müddətlərin axımı çekdə onun verilmə günü kimi göstərilən gündən başlanır.

1058.3. Əgər çek onun verildiyi yerin təqvimindən fərqlənən başqa təqvimin qüvvədə olduğu yerdə ödənilməlidirsə, ödəniş yerinin təqviminə əsasən verilmə gününə uyğun tarix və bundan asılı olaraq ödəniş müddəti müəyyənləşdirilir.

Maddə 1059. Çekin geri götürülməsi

1059.1. Çekin geri götürülməsi yalnız onun təqdim edilmə müddəti qurtardıqdan sonra etibarlıdır.

1059.2. Çek geri götürülmədikdə, bank çekin təqdim edilmə müddəti qurtardıqdan sonra da ödənişi icra edə bilər.

1059.3. Çek verən özünün və ya hər hansı üçüncü şəxsin çeki itirdiyini təsdiq edirsə, ödəyiciyə ödənişin icrasını qadağan edə bilər.

Maddə 1060. Çek verənin ölməsinin, fəaliyyət qabiliyyətini itirməsinin və ödəmə qabiliyyətli olmamasının nəticələri

Çek verildikdən sonra çek verənin ölməsi və ya fəaliyyət qabiliyyətini itirməsi və ya ödəmə qabiliyyətli olmamasının elan edilməsi çekin etibarlığına təsir göstərmir.

Maddə 1061. Çek üzrə ödəniş və ödənişə dair qəbz. Xarici valyutada verilən çeklər

Çek üzrə ödənişlərə, ödənişə dair qəbz verilməsinə və xarici valyutada çeklərə bu Məcəllənin 1028, 1029.4 və 1030-cu maddələri müvafiq surətdə tətbiq olunur.

Maddə 1062. Cızıqlı çek

1062.1. Çek verən, habelə hər hansı çek sahibi bu Məcəllənin 1062.2-1062.6-cı maddələrində nəzərdə tutulan nəticələr ilə çeki cızıqlaya bilərlər. Cızıqlama çekin üz tərəfinə iki paralel xətt çəkməklə aparılır. Cızıqlama ümumi və ya xüsusi ola bilər. Xətlər arasında heç bir göstəriş və ya «bank» qeydi və ya eyni mənalı başqa qeyd yoxdursa, cızıqlama ümumi sayılır. Xətlər arasında bankın adı yazılmışsa, cızıqlama xüsusi sayılır. Ümumi cızıqlama xüsusiyə çevrilə bilər, lakin xüsusi cızıqlama ümumiyə çevrilə bilməz. Cızıqlamanın və ya göstərilmiş bankın adının qaralanması etibarsız sayılır.

1062.2. Ödəyici ümumi cızıqlaması olan çeki yalnız banka və ya öz müştərisinə ödəyə bilər.

1062.3. Xüsusi cızıqlaması olan çeki ödəyici yalnız göstərilmiş banka və ya əgər bu bankın özü ödəyicidirsə, həmin bankın müştərisinə ödəyə bilər. Göstərilən bank çeki qəbul etməyi digər banka tapşıra bilər.

1062.4. Bank cızıqlı çeki yalnız öz müştərisindən və ya başqa bankdan qəbul edə bilər.

1062.5. Bir neçə xüsusi cızıqlaması olan çeki ödəyici yalnız o halda ödəyə bilər ki, çekin üzərində ikidən çox cızıqlama aparılmasın.

1062.6. Yuxarıdakı göstərişləri yerinə yetirməyən ödəyici və ya bank vurulan zərərin əvəzini çekin məbləğindən artıq olmayan miqdarda ödəməyə borcludur.

Maddə 1063. Hesablaşma çeki

1063.1. Çek verən, habelə hər hansı çek sahibi çekin üz tərəfində «hesablaşma» qeydi və ya eyni mənalı başqa qeyd yazmaqla, çekin nağd pulla ödənilməsini qadağan edə bilər. Bu halda ödəyici çekin ödənişini yalnız hesabdan hesaba keçirmə yolu ilə (hesablaşma, köçürmə, nağdsız hesablaşmalar) icra edə bilər. Hesabda yazı ödəniş sayılır. «Hesablaşma» qeydinin pozulması etibarsız sayılır. Yuxarıdakı göstərişləri yerinə yetirməyən ödəyici vurulan zərərin əvəzini çekin məbləğindən artıq olmayan miqdarda ödəməyə borcludur.

1063.2. Əgər ödəyici ödəmə qabiliyyəti olmayan elan edilmişsə və ya o, ödənişlərin icrasını dayandırmışsa və ya tutmanın onun əmlakına yönəldilməsi nəticəsiz qalmışsa, hesablaşma çekinin sahibi ödəyicidən çeki nağd pulla ödəməyi tələb edə bilər, çek ödənilmədikdə isə özünün reqres hüququnu həyata keçirə bilər. Banklar haqqında qanuna əsasən görülən tədbirlər nəticəsində çek sahibi özünün ödəyicidəki hesablarına dair sərəncam verə bilmədikdə də bu qayda tətbiq olunur.

1063.3. Hesablaşma çeki sahibinin, bundan əlavə, iddia vermək hüququ vardır, amma o, sübut etməlidir ki, ödəyici hesabda sadə və heç nə ilə şərtləşdirilməyən qeyd yazmaqdan imtina edir və ya ödəniş yeri üzrə müvafiq hesablaşma orqanı öhdəliklərin ödənilməsi məqsədi ilə nağdsız hesablaşmalar aparılması üçün çeki yararsız elan etmişdir.

Maddə 1064. Çek üzrə ödəməmə nəticəsində iddia

1064.1. Ödənişə vaxtında təqdim olunan çek ödənilmədikdə çek sahibi indossantlara, çek verənə və çek üzrə digər mükəlləfiyyətli şəxslərə iddia verə bilər.

1064.2. Çek sahibi iddia verdiyi şəxsdən aşağıdakıları tələb edə bilər:

1064.2.1. çek ödənilməyibsə, çek məbləğinin ödənilməsini;

1064.2.2. faizlərin ödənilməsini;

1064.2.3. xərclərin ödənilməsini;

1064.2.4. faizin üçdə birindən çox olmayan miqdarda penya.

1064.3. Əgər çekin vaxtında təqdim edilməsinə qarşısıalınmaz maneə əngəl törədirsə, çeklərin ödənişə təqdim edilməsi müddətlərinin uzadılmasına bu Məcəllənin 1042-ci maddəsi tətbiq olunur.

Maddə 1065. Saxta çek

1065.1. Qəlp və ya saxta çekin ödənişi ilə əlaqədar zərəri ödəyici çəkir, bu şərtlə ki, çekdə göstərilən çek verən təqsirli olmasın, məsələn, ona tapşırılmış çek blanklarını etinasız saxlamış olmasın.

Maddə 1066. Çekin mətninin dəyişdirilməsi

Çekin mətninin dəyişdirilməsinə bu Məcəllənin 1045-ci maddəsi tətbiq edilir.

Maddə 1067. Çek öhdəlikləri üzrə iddia müddətləri

Çek sahibinin indossantlara, çek verənə və çek üzrə digər mükəlləfiyyətli şəxslərə qarşı çekdən irəli gələn iddia tələbləri təqdimetmə müddəti qurtardıqdan bir il sonra ödənilir. Çek üzrə mükəlləfiyyətli olan bir şəxsin çek üzrə mükəlləfiyyətli olan digər şəxsə iddia tələbləri çekin mükəlləfiyyətli şəxs tərəfindən ödənildiyi və ya məhkəmə qaydasında ondan çek üzrə ödənişin tutulduğu gündən bir il sonra ödənilir.

Maddə 1068. Çekin etibarsız elan edilməsi

Çekin etibarsız elan edilməsinə bu Məcəllənin 1047-ci maddəsi tətbiq olunur.

Maddə 1069. Çekin ödənişə təqdim edilməsi müddətlərinin hesablanması

Çek ödənişə yalnız iş günləri təqdim olunmalıdır. Təqdimetmə müddətinin son günü bazar gününə və ya başqa qeyri-iş gününə düşdükdə, müddət növbəti iş gününədək uzadılır. Müddət ərzində olan qeyri-iş günləri müddət hesablanarkən nəzərə alınır.

§ 5. İstiqraz

Maddə 1070. İstiqraz şəklində borc öhdəliyi anlayışı

1070.1. İstiqraz, onun sahibinin onu buraxmış şəxsdən istiqrazda nəzərdə tutulan müddətdə istiqrazın nominal dəyərini və ya başqa əmlak ekvivalentini almaq hüququnu təsdiqləyən qiymətli kağızdır. İstiqraz onun sahibinə həmçinin istiqrazın nominal

dəyərindən faiz almaq hüququ və ya digər əşya hüquqları *verə bilər. Faiz ödənişlərini nəzərdə tutmayan istiqraz faizsiz istiqraz hesab olunur.*

~~1070.2. İstiqrazlar adsız borc öhdəlikləri və ya borc istiqrazları, girov şəhadətnamələri, səhmdar cəmiyyətinin mənfəətində iştirak hüququ verən borc öhdəlikləri, pulsuz yeni səhmlər, sabit dividendli səhmlər və s. şəklində ola bilər.~~ (3)

~~Maddə 1071. İstiqraz şəklində borc öhdəliyindən irəli gələn tələblərin ödənilməsi~~

~~Adsız istiqraz şəklində borc öhdəliyindən irəli gələn iddia tələbləri öhdəliyin icrası üçün müəyyənləşdirilmiş müddət başlandıqdan otuz il sonra ödənilir, bu şərtlə ki, həmin otuz il keçənə qədər sənəd onu vermiş şəxsə ödəniş üçün təqdim edilməsin. Əgər sənəd təqdim edilərsə, təqdimetmə müddəti qurtardıqdan iki il sonra tələb müddətin keçməsinə görə qüvvədən düşür. Sənəddən irəli gələn tələb hüququnun məhkəmə qaydasında həyata keçirilməsi istiqrazın təqdim edilməsinə bərabər tutulur. Faizli qiymətli kağız kuponları, renta kağızları və dividend kuponları üçün təqdimetmə müddəti dörd ildir. Müddətin axımı öhdəliyin icra müddətinin başlandığı il qurtardıqdan sonra başlanır. Təqdimetmə müddəti və onun başlanğıcı sənədi vermiş şəxs tərəfindən dəyişdirilə bilər. Təqdimetmə müddətinin başlanması və axımı, habelə müddətin keçməsi dövrünün axımı bu Məcəllənin 995-ci maddəsinə uyğun olaraq sənədin etibarsız elan edilməsi haqqında icraatın açılması ilə əlaqədar dayandırıla bilər.~~ (3)

~~Maddə 1072. İstiqrazların etibarsız elan edilməsi~~

~~1072.1. Təqdim edildikdə ödənilməli olan faizli qiymətli kağız kuponları, renta kağızları və dividend kuponları, habelə istiqrazlar şəklində faizsiz borc öhdəlikləri etibarsız elan edilə bilməz. Bu, üzərində etibarsız elan edilə bilmədikləri yazılmış istiqrazlar şəklində borc öhdəliklərinə də tətbiq edilir.~~

~~1072.2. İstiqrazlar şəklində borc öhdəliyi etibarsız elan edilərsə, bu elanın verilməsinə nail olmuş şəxs istiqrazı vermiş şəxsdən ona etibarsız elan edilmiş sənədin əvəzinə adsız istiqraz şəklində yeni borc öhdəliyi verməyi tələb edə bilər.~~ (3)

~~Maddə 1073. Faizli qiymətli kağız kuponları, renta kağızları və dividend kuponları~~

~~1073.1. Əgər adsız istiqrazlar şəklində borc öhdəliyi üçün faizlərin ödənişinə dair kuponlar verilirsə, bu kuponlarda əks müddəa olmadıqda, onlar, hətta başlıca tələbin ödənildiyi və ya faizlər hesablanmasına dair öhdəliyin ləğv edildiyi və ya dəyişdirildiyi halda belə, qüvvədə qalır. Başlıca borc öhdəliyi ödənilərkən belə kuponlar qaytarılmadıqda, çıxarıcının kuponlara görə ödəməli olduğu məbləği tutmaq hüququ vardır.~~

~~1073.2. Əgər faizli qiymətli kağızların kuponları, renta kağızları və dividend kuponları itmiş və ya məhv olmuşsa və onların əvvəlki sahibi onların təqdim edilmə müddəti qurtaranadək itməsi barədə çıxarıcını xəbərdar etmişsə, müddət qurtardıqdan sonra istiqrazın çıxarıcısından onları ödəməyi tələb edə bilər. İtmiş kupon ödəniş üçün çıxarıcıya təqdim edilmişsə və ya ödəniş ondan məhkəmə qaydasında tutulmuşsa, tələb istisna edilir, bu şərtlə ki, istiqrazın təqdim olunması və ya məhkəmə iddiasının irəli sürülməsi müddət qurtardıqdan sonra həyata keçirilməsin. Tələb, dörd ildən sonra müddətin keçməsinə görə qüvvəsini itirir. Faizli qiymətli kağız kuponları, renta kağızları və dividend kuponları üçün bu tələb istisna edilə bilər.~~

~~*1073.3. Faizli qiymətli kağızların yeni kuponlarını və ya borc öhdəliyi üçün adsız istiqraz şəklində yeni renta kağızlarını kuponları almaq səlahiyyəti verən sənədin (prolonqasiya haqqında şəhadətnamə) sahibinə verməyə icazə verilmir, bu şərtlə ki, istiqraz şəklində borc öhdəliyinin sahibi onların verilməsinə razı olmasın. Razılıq olduqda kuponlar istiqraz şəklində borc öhdəliyinin sahibinə verilməlidir, bu şərtlə ki, o, öhdəliyi təqdim etsin.*~~ (3)

~~Maddə 1074. Kartoçkalar, markalar və oxşar sənədlər~~

~~*İstiqraz şəklində borc öhdəlikləri haqqında göstərişlər şəraitdən asılı olaraq çıxarıcı tərəfindən verilmiş və həmin şəxsin icranı həyata keçirməyə borclu olmaq niyyətini bildirən kartoçkalara, markalara və ya kreditorun göstərilmədiyi oxşar sənədlərə müvafiq surətdə tətbiq edilir.*~~ (3)

~~Maddə 1075. Açıq borc istiqrazları. Emissiya prospektinin məcburiliyi~~

~~*1075.1. Borc almaq məqsədi ilə buraxılan borc öhdəlikləri (borc istiqrazları) yalnız emissiya prospekti əsasında açıq abunə yazılışı üçün buraxıla və ya birjaya çıxarıla bilər. Təkcə müəyyən şəxslər dairəsi üçün nəzərdə tutulmayan bütün emissiyalar açıq sayılır.*~~

~~*1075.2. Emissiya prospektində aşağıdakı məlumatlar olmalıdır:*~~

~~*1075.2.1. borclar, faizlərin hesablanması və satınalma şərtləri;*~~

~~*1075.2.2. istiqrazlar üçün müəyyənləşdirilmiş xüsusi təminatlar;*~~

~~*1075.2.3. zərurət olduqda, borclar üzrə kreditorların təmsilçiliyi.*~~

~~*1075.3. Qalan hallarda səhmlərin buraxılışında bu Məcəllənin 1077.3 və 1077.4-cü maddələrinin müddəaları müvafiq surətdə tətbiq edilir.*~~ (3)

Maddə 1076. Konversiya borcu istiqrazları

1076.1. Konversiya borcu istiqrazları açıq səhmdar cəmiyyətləri tərəfindən buraxılan borc öhdəlikləri olub, nəinki faizlərin hesablanmasını tələb etmək hüququ, həm də onları eyni növ qiymətli kağızlara dəyişmək hüququ və ya yeni səhmlər əldə etməkdə üstünlük hüququ verir.

1076.2. Konversiya borcu istiqrazları yalnız emissiya prospekti əsasında açıq abunə yazılışı üçün buraxıla və ya birjaya çıxarıla bilər. Emissiya prospekti barəsində bu Məcəllənin 1078-12-ci maddəsi müvafiq surətdə tətbiq olunur. Prospektdə əlavə olaraq aşağıdakılar göstərilməlidir:

1076.2.1. istiqrazların dəyişdirilməsi və ya səhmlərin əldə edilməsi müddəti;

1076.2.2. konversiya borcu istiqrazlarının səhmlərə dəyişdirilməsi hansı nisbətdə aparılmalıdır və ya konversiya borcu istiqrazları şəklində borc öhdəliyi ilə bağlı üstünlük hüququ əsasında hansı məbləğdə səhmlərin əldə edilməsi mümkündür;

1076.2.3. hansı məbləğdə əlavə haqq mümkündür.

1076.3. Konversiya borcu istiqrazının sahibi istiqrazdan irəli gələn hüquqları ilə kifayətlənə bilər və dəyişdirmə hüququnu və ya əldə etməyə üstünlük hüququnu həyata keçirməyə borclu ola bilməz. (3)

Maddə 1076-1. Təmin edilmiş istiqrazlar

1076-1.1. İstiqrazlar üzrə öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilə bilər. Belə istiqrazlar təmin edilmiş istiqrazlara aid edilir.

1076-1.2. Təmin edilmiş istiqrazlar üzrə hüquqların keçməsi ilə təminat üzrə hüquqlar da keçmiş hesab olunur. İstiqrazlar üzrə hüquqların keçməsi ilə müşayiət olunmayan təminat üzrə hüquqların keçməsi etibarsızdır.

1076-1.3. Təmin edilmiş istiqrazlar üzrə təminat haqqında məlumat istiqrazların emissiyası haqqında qərarda və emissiya prospektində əks etdirilməlidir.

1076-1.4. Təmin edilmiş istiqrazlar üzrə təminat üçüncü şəxs tərəfindən təqdim edildikdə həmin şəxs istiqrazların emissiyası haqqında qərarı imzalamalıdır. Təminatı təqdim etmiş şəxs hüquqi şəxs olduqda istiqrazların emissiyası haqqında qərar həmin hüquqi şəxsin rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

1076-1.5. Təmin edilmiş istiqrazlar üzrə təminatın dəyəri istiqrazların ümumi nominal dəyərindən və ödəniləcək olan faizlərdən (olduqda) aşağı olmamalıdır.

1076-1.6. Təmin edilmiş istiqrazlar üzrə, emitent öhdəliklərini istənilən səbəbdən, o cümlədən müflisləşmə nəticəsində icra etmədiyi halda investorlar təminatın predmetini həmin emitentin digər kreditorlarına nisbətən üstün qaydada əldə etmək hüququna malikdirlər. (3)

Maddə 1076-2. Təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı

1076-2.1. Təmin edilmiş istiqrazlar üzrə öhdəliklərin icrasını təmin edən öz adından və investorların xeyrinə girov saxlayan qismində qiymətli kağızlar bazarının peşəkar iştirakçısı və ya kredit təşkilatı olan sərəncamçı çıxış edir. Emitentlə sərəncamçı arasında qarşılıqlı asılılıq olmamalıdır.

1076-2.2. Sərəncamçı emitentin istiqrazların emissiyası haqqında qəbul olunmuş qərarında müəyyənləşdirilir və emitentlə bağlanılmış müqavilə əsasında fəaliyyət göstərir. (3)

Maddə 1076-3. Girovla təmin edilmiş istiqrazlar

1076-3.1. Girovla təmin edilmiş istiqrazlar üzrə girov predmeti yalnız investisiya qiymətli kağızları, depozit sertifikatları, ipoteka kağızları, girov kağızları və mənzil sertifikatları ola bilər.

1076-3.2. Girovla təmin edilmiş istiqrazların bir buraxılışının daxilində hər bir istiqraz sahibi girov qoyulmuş əmlaka münasibətdə həmin buraxılışda olan digər istiqrazların bütün başqa sahibləri ilə bərabər hüquqlara malikdir.

1076-3.3. Girovla təmin edilmiş istiqrazlar üzrə əmlakın girov qoyulması, qanunvericilikdə girov üçün nəzərdə tutulmuş prosedurlara müvafiq surətdə həyata keçirilir.

1076-3.4. Girovla təmin edilmiş istiqrazlar üzrə girovun predmeti olan qiymətli kağızlar qiymətli kağızlar haqqında qanunvericiliyə müvafiq surətdə depozitarda deponentləşdirilərək öhdəliklərlə yüklənməlidir.

1076-3.5. Girovla təmin edilmiş istiqrazlar dövlət qeydiyyatına alındıqdan əvvəl girov predmetini təşkil edən qiymətli kağızların (adsız qiymətli kağızlar daxil olmaqla) girovu dövlət qeydiyyatına alınır və depozitarda və reyestrin aparılması sistemində (olduqda) dondurulur.

1076-3.6. Girov predmetini təşkil edən qiymətli kağızlar dondurulduqdan sonra, girovqoyan sərəncamçıya bu barədə rəsmi məlumat verir.

1076-3.7. Girovla təmin edilmiş istiqrazlar üzrə öhdəliklərin emitent tərəfindən icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda, girov predmeti olan əmlak bu istiqrazların hər hansı sahibinin sərəncamçıya ünvanlanmış yazılı tələbi ilə, sərəncamçı tərəfindən qanunvericiliyə müvafiq surətdə ödənişə yönəldilə bilər. Sərəncamçı istiqraz sahibinin yazılı tələbində qeyd olunmuş istiqrazlar üzrə öhdəliklərin emitent tərəfindən icra edilməməsi və ya lazımınca icra edilməməsi faktlarını araşdırır və yalnız bu faktlar təsdiq olunduqda girov predmetini ödənişə yönəldir.

1076-3.8. Girov qoyulmuş əmlakın satılmasından əldə edilmiş vəsait girovla təmin edilmiş istiqrazların sahibləri olan şəxslərə verilir. Girov qoyulmuş əmlakın satılmasından əldə edilmiş vəsaitin məbləği istiqrazlar üzrə icra edilməmiş öhdəliklərin məbləğindən çox olduqda, bu fərq öhdəliklər tam şəkildə ödənildikdən sonra emitentə qaytarılır.

1076-3.9. Girovla təmin edilmiş istiqrazların sahibləri bu Məcəllənin 1076-3.7-ci bəndində göstərilmiş tələbləri, öhdəliyin icra müddətinin bitdiyi gündən sonra qanunvericilikdə müəyyən edilmiş müddət ərzində vermək hüququna malikdir. (3, 23)

Maddə 1076-4. Qarantiya ilə təmin edilmiş istiqrazlar

1076-4.1. İstiqrazlar üzrə öhdəliklərin icrasının təmin edilməsi üçün təqdim edilən qarantiya qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməlidir.

1076-4.2. İstiqrazlar üzrə öhdəliklərin icrasının təmin edilməsi üçün təqdim edilən qarantiya bu istiqrazlar üzrə öhdəliklər tam icra edilənədək geri çağırıla bilməz.

1076-4.3. Qarantiya, emitent tərəfindən istiqrazlar üzrə öhdəliklər tam şəkildə icra olunanadək, sərəncamçıda saxlanılır. (3)

Maddə 1076-5. Dövlət və bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazlar

Dövlət və bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazların buraxılması qaydası müvafiq qanunvericiliklə tənzimlənir. (3)

§ 6. Səhm

Maddə 1077. Səhm anlayışı və onun məzmunu

1077.1. Səhm qiymətli kağız olub, səhmdar cəmiyyətində üzvlüyü və sahibinin (səhmdarın) səhmdar cəmiyyəti mənfəətinin bir hissəsini dividendlər şəklində almaq, səhmdar cəmiyyəti işlərinin idarə olunmasında iştirak etmək hüququnu və cəmiyyətin ləğvindən sonra qalan əmlakın bir hissəsinə hüququnu təsdiqləyir. Səhmin emitenti yalnız səhmdar cəmiyyəti ola bilər.

1077.2. Səhm adi və ya imtiyazlı növündə buraxıla bilər. Səhmin nominal dəyəri səhmin dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş pul ifadəsidir. Səhmlərin nominal dəyəri Azərbaycan Respublikasının milli valyutası ilə ifadə olunur. Səhmlərin nominal dəyərindən aşağı qiymətlə ilkin yerləşdirilməsinə yol verilmir.

1077.3. Adi səhmlərin hər biri eyni nominal dəyərli olmaqla onun sahibinə eyni həcmdə hüquqlar verir.

1077.4. İmtiyazlı səhmlərin bir buraxılışı daxilində hər biri eyni nominal dəyərli olmaqla onun sahibinə eyni həcmdə hüquqlar verir.

1077.5. Adi səhm sahibinə emitentin mənfəətinin bir hissəsini dividendlər şəklində almaq, emitentin fəaliyyətinin idarə olunmasında iştirak etmək və emitentin ləğvindən sonra qalan əmlakının bir hissəsini əldə etmək hüququnu verən səhm növüdür.

1077.6. İmtiyazlı səhm emitentin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, sahibinə, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində dividend almasına təminat verən, emitentin ləğvindən sonra qalan əmlakının bir hissəsini almaqda digər səhmdarlara nisbətən üstünlük hüququnu, habelə səhmlərin buraxılış şərtlərində və emitentin nizamnaməsində nəzərdə tutulan digər hüquqlar verən səhm növüdür.

1077.7. Səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarına əsasən cəmiyyət bir neçə eyni növlü səhmi bir səhmdə birləşdirə bilər və bir səhmi bir neçə həmin növ səhmə dəyişdirilmə yolu ilə xırdalaya bilər. Ümumi yığıncaqda səhmlərin birləşdirilməsi və ya xırdalanması haqqında qərar qəbul edildikdə, səhmdar cəmiyyətinin nizamnaməsində də müvafiq dəyişikliklər edilməlidir. Səhmdar cəmiyyətinin səhmlərinin birləşdirilməsi və xırdalanması qaydaları qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

§ 7. Əmtəə kağızları

Maddə 1078. Əmtəə kağızları anlayışı və onların növləri

1078.1. Anbar sahibinin və ya fraxt verənin verdiyi əmtəə kağızlarında (yəni sahibinin qiymətli kağızda göstərilən əmtəəyə dair sərəncam vermək və bu əmtəəni almaq hüququnu təsbit edən qiymətli kağızlarda (anbar şəhadətnaməsi, konosament və s.) aşağıdakı məlumatlar göstərilməlidir:

1078.1.1. sənədin tərtib edildiyi yer və tarix, sənədi vermiş şəxsin imzası;

1078.1.2. sənədi vermiş şəxsin adı və yaşayış yeri və ya olduğu yer;

1078.1.3. malları anbarda saxlayan şəxsin və ya göndərənin adı və yaşayış yeri və ya olduğu yer;

1078.1.4. saxlanılan və ya saxlanmağa verilən malların keyfiyyəti, miqdarı və əlamətləri göstərilməklə adı;

1078.1.5. tutulmalı olan və ya qabaqcadan ödənilmiş rüsumlar və haqlar;

1078.1.6. maraqlı şəxslərin mallar ilə rəftar barəsində qəbul etdikləri xüsusi sazişlər;

1078.1.7. əmtəə sənədləri nüsxələrinin sayı;

1078.1.8. həmin sənəd üzrə ixtiyarlı şəxsin adının göstərilməsi və ya əmr barədə qeyd-şərt və ya təqdim edənin göstərilməsi.

1078.2. Bir neçə əmtəə sənədindən biri girovun müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuşsa, bu cür sənəd girov şəhadətnaməsi (varrant) adlandırılmalı və qalan məlumatlarına görə əmtəə sənədi şəklində olmalıdır. O biri nüsxələrdə girov şəhadətnaməsinin verildiyi qeyd edilməli, tələbin məbləği və ödəniş müddəti göstərilməklə hər bir girov qoyma əks etdirilməlidir.

1078.3. Saxlanılan və ya yola salınmış mallar üçün şəhadətnamələr əmtəə sənədlərinin forması haqqında qanuni göstərişlər pozulmaqla verildikdə bunlar əmtəə sənədləri deyil, alınma haqqında qəbzlər və ya digər təsdiqləyici sənədlər sayılır.

1078.4. Səlahiyyətli orqanlardan qanun üzrə verilməli icazəni almadan anbar sahiblərinin verdikləri şəhadətnamələr forma barədə qanuni göstərişlərə uyğun gəlirsə, əmtəə sənədləri sayılır.

1078.5. Konosament mala dair sərəncam sənədindən ibarət ticarət kağızı olub, onun sahibinin konosamentdə göstərilən yükə dair sərəncam vermək və daşıma başa çatdıqdan sonra yükü almaq hüququnu təsdiqləyir. Konosament adsız, orderli və ya adlı ola bilər.

1078.6. Qoşa anbar şəhadətnaməsi mal anbarı tərəfindən malın saxlanmağa qəbul olunmasını təsdiqləyən orderli qiymətli kağızdır. Qoşa anbar şəhadətnaməsi iki hissədən—anbar şəhadətnaməsindən və girov şəhadətnaməsindən (varrantdan) ibarətdir; ayrı-ayrılıqda bunlar qiymətli kağızlardır.

1078.7. Adi anbar şəhadətnaməsi mal anbarı tərəfindən malın saxlanmağa qəbul olunduğunu təsdiqləyən adsız qiymətli kağızdır. (3)

§8. Mənzil sertifikatı

Maddə 1078-1. Mənzil sertifikatı

1078-1.1. Mənzil sertifikatları fiziki və hüquqi şəxslər arasında yerləşdirilən sənədli qiymətli kağızlar olub, sahiblərinə buraxılış şərtlərində müəyyən olunan şərtlərə əməl etdikləri təqdirdə, emitentdən tikintisi (yenidən qurulması) bu qiymətli kağızların yerləşdirilməsindən alınan vəsait hesabına maliyyələşdirilən binaların (mənzillərin) onların mülkiyyətinə verilməsi yolu ilə ödənilməsini tələb etmək ixtiyarını verir.

1078-1.2. Mənzil sertifikatı adlı və ya adsız qiymətli kağız ola bilər. Mənzil sertifikatlarının buraxılışı və tədavülü qaydaları qiymətli kağızlar bazarını tənzimləyən

müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ-hüquqi aktlarla tənzimlənir. (3)

§9. Girov kağızı və ipoteka kağızı (23)

Maddə 1078-2. Girov kağızı və ipoteka kağızı

1078-2.1. Öhdəliklərin təminatını təsbit edən qiymətli kağızlara girov kağızı və ipoteka kağızı daxildir.

1078-2.2. İpoteka kağızı qanuni sahibinə ipoteka müqaviləsində göstərilən, əmlakın ipotekası ilə təmin edilən başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və əmlakın ipotekası haqqında müqavilədə göstərilən girov hüququnu təsdiq edən adlı qiymətli kağızdır.

1078-2.3. Girov kağızı girovqoyanla, o borclu deyilsə, həm də borclu ilə girovsaxlayan arasında əmlakın və hüquqların girova qoyulmasını və bundan irəli gələn hüquq və öhdəlikləri təsbit edən adlı qiymətli kağızdır.

1078-2.4. Əmlakın və hüquqların girovu və ya ipotekası ilə təmin edilmiş öhdəliklər üzrə girovsaxlayanın və ya ipotekasaxlayanın hüquqları girov kağızının və ya ipoteka kağızının tərtibi ilə rəsmiləşdirilə və təsdiq edilə bilər.

1078-2.5. Girov və ya ipoteka ilə təmin olunmuş öhdəliklər üzrə borclu, girovqoyan və ipotekaqoyan girov kağızı və ya ipoteka kağızı üzrə cavabdeh şəxslərdir. Borclu, girovqoyan və ipotekaqoyan eyni və ayrı-ayrı şəxslər ola bilər.

1078-2.6. Əmlaka girov və ya ipoteka hüququnu təsbit edən girov kağızının və ya ipoteka kağızının sahibi (girovsaxlayan və ya ipotekasaxlayan (kreditor) borclunun və girovqoyanın razılığı olmadan borc üzrə tələbini digər şəxsə, girov kağızında və ya ipoteka kağızında yazdığı ötürücü yazı vasitəsilə o şərtlə ötürə bilər ki, həmin ötürücü yazı (indossament) öhdəliyin mahiyyətinə, onun borclu və girovqoyanla və ya ipotekaqoyanla razılaşmasına və mövcud qanunvericiliyə zidd olmasın.

1078-2.7. Girova və ya ipotekaya şamil edilən təminatlı borc üzrə tələb başqasına keçdikdə, girov kağızı və ya ipoteka kağızı üzrə girovsaxlayanın və ya ipotekasaxlayanın hüquqları müvafiq surətdə həmin şəxsə keçir.

1078-2.8. Girov kağızının və ya ipoteka kağızının sahibi ilə (girovsaxlayan və ya ipotekasaxlayan) digər şəxs arasında bağlanmış müqavilə üzrə öhdəliyin təminatı məqsədilə girov kağızı və ya ipoteka kağızı müvafiq olaraq girov və ya ipotekaya qoyula bilər. Bu halda girov və ya ipoteka hüququ ümumi qaydada dövlət qeydiyyatından keçməlidir, lakin bu hüquq girov kağızı və ya ipoteka kağızı ilə təsbit edilə bilməz.

1078-2.9. Dövlət qeydiyyatına alınmış qiymətli kağızlarla girovu, o cümlədən girov kağızı və ipoteka kağızına dair dövlət qeydiyyatı rəsmi dövlət reyestrində aparılır. Rəsmi dövlət reyestrinin aparılması qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

1078-2.10. Rəsmi dövlət reyestrinin aparılması girov qoyulmuş qiymətli kağızlar üzrə hüquqların məhdudlaşdırılması haqqında bütün məlumatların mərkəzləşdirilmiş qaydada toplanması üçün nəzərdə tutulur. (3, 23)

§ 10. Törəmə qiymətli kağızlar

Maddə 1078-3. Törəmə qiymətli kağızlar

1078-3.1. Törəmə qiymətli kağızlarına fyuçerslər, opsionlar və qanunvericiliklə müəyyən edilmiş digər qiymətli kağızlar aid edilir.

1078-3.2. Fyuçers müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə alınması və ya satılması haqqında öhdəliyini təsbit edən standartlaşdırılmış birja müqaviləsini ifadə edən qiymətli kağızdır.

1078-3.3. Opsion sahibinə müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə almaq və ya satmaq hüququnu ifadə edən qiymətli kağızdır.

1078-3.4. Törəmə qiymətli kağızlar üçün baza aktivi kimi xarici valyuta, qiymətli kağızlar, birja indeksləri, əmtəə və s. çıxış edə bilər.

1078-3.5. Törəmə qiymətli kağızların tədavülü ilə bağlı digər xüsusatlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

§ 11. Özəlləşdirmə qiymətli kağızları

Maddə 1078-4. Özəlləşdirmə qiymətli kağızları

1078-4.1. Özəlləşdirmə qiymətli kağızları dövlət əmlakının özəlləşdirilməsi zamanı dövlət əmlakının müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada özgəninkiləşdirilməsi məqsədi ilə buraxılan qiymətli kağızlardır.

1078-4.2. Dövlət əmlakının özəlləşdirilməsi zamanı buraxılan qiymətli kağızların növləri, emissiyası, tədavül qaydaları və sair məsələlər bu Məcəllə və digər normativ hüquqi aktlarla müəyyən edilir. (3)

§12. Depozit sertifikatı

Maddə 1078-5. Depozit sertifikatı

1078-5.1. Depozit sertifikatı əmanətçidən və ya əmanətçi üçün banka daxil olmuş pul məbləğini (depoziti) və onun üçün faizləri bankdan almaq hüququnu təsbit edən qiymətli kağızdır. Depozit sertifikatı müəyyən müddətə adlı və ya adsız qiymətli kağız kimi buraxıla bilər.

1078-5.2. Depozit sertifikatları birdəfəlik və ya seriyalarla, sənədli formada buraxıla bilər.

1078-5.3. Depozit sertifikatının buraxılması, qeydiyyatı və tədavül qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

§13. Qiymətli kağızların emissiyası

Maddə 1078-6. İnvestisiya qiymətli kağızlarının emissiyasının əsasları

1078-6.1.Qiymətli kağızların emissiyası emitentin qiymətli kağızlarının emissiyası haqqında qərarının qəbulunun, bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda emissiya prospektinin tərtibinin, qiymətli kağızların buraxılışının, yerləşdirilməsinin və bu Məcəllə ilə müəyyən edilmiş digər tədbirlərinin məcmusudur.

1078-6.2. İnvestisiya qiymətli kağızının forması və buraxılış şərtləri investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda və investisiya qiymətli kağızlarının emissiya prospektində (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa) birmənalı müəyyən edilməlidir.

1078-6.3.İnvestisiya qiymətli kağızları aşağıdakı formalardan birində emissiya edilə bilər:

1078-6.3.1. sənədli adlı qiymətli kağızlar;

1078-6.3.2. sənədsiz adlı qiymətli kağızlar;

1078-6.3.3. sənədli adsız qiymətli kağızlar.

1078-6.4. İnvestisiya qiymətli kağızlarının forması emitentin emissiya haqqında qərar qəbul etmiş orqanının qərarı ilə bu dəyişikliklər müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmaqla dəyişdirilə bilər. Adlı qiymətli kağızların adsız qiymətli kağızlara çevrilməsi bu Məcəllənin 992-ci maddəsi ilə tənzimlənir.

1078-6.5. Eyni dövlət qeydiyyat nömrəsi olan investisiya qiymətli kağızları bir formada buraxılmalıdır.

1078-6.6. İnvestisiya qiymətli kağızlarının nominalı milli və səhmlər istisna olmaqla sərbəst dönərli valyutada ifadə oluna bilər.

1078-6.7. İnvestisiya qiymətli kağızlarının konvertasiyası ilə bağlı emissiyanın xüsusiyyətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

Maddə 1078-7. İnvestisiya qiymətli kağızlarının emissiyasının mərhələləri

1078-7.1. İnvestisiya qiymətli kağızlarının emissiyası aşağıdakı mərhələlərdən ibarətdir:

1078-7.1.1. emitent tərəfindən investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarın qəbul edilməsi;

1078-7.1.2. investisiya qiymətli kağızlarının emissiya prospektinin tərtib edilməsi (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa);

1078-7. 1.3. investisiya qiymətli kağızları buraxılışının dövlət qeydiyyatı;

1078-7.1.4. investisiya qiymətli kağızlarının emissiya prospektində olan məlumatların açıqlanması (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa);

1078-7.1.5. investisiya qiymətli kağızlarının yerləşdirilməsi;

1078-7.1.6. investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabatın qeydiyyatı;

1078-7.1.7. investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabatda olan məlumatların açıqlanması (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunubsa).

1078-7.2. Səhmdar cəmiyyətlərinin yaradılması, habelə səhmdar cəmiyyətlərinin və digər hüquqi şəxslərin yenidən təşkili zamanı (qoşulma şəklində yenidən təşkili halı istisna olmaqla) səhmlərin buraxılışının dövlət qeydiyyatı həmin qiymətli kağızların dəyərinin təsisçilər tərəfindən ödənilməsindən sonra həyata keçirilir. (3)

Maddə 1078-8. İnvestisiya qiymətli kağızlarının emissiyası haqqında qərar

1078-8.1. İnvestisiya qiymətli kağızlarının hər bir növünün emissiyası haqqında ayrıca qərar qəbul edilməlidir.

1078-8.2. İnvestisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

1078-8.2.1. emitentin tam adı və olduğu yer;

1078-8.2.2. qərarın qəbul edilməsi tarixi;

1078-8.2.3. qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı;

1078-8.2.4. qiymətli kağızın növü;

1078-8.2.5. qiymətli kağızın forması;

1078-8.2.6. qiymətli kağızın nominal dəyəri;

1078-8.2.7. həmin buraxılışa daxil olan qiymətli kağızların sayı və ümumi məbləği;

1078-8.2.8. qiymətli kağızların yerləşdirilməsi qaydası;

1078-8.2.9. bir qiymətli kağızla təsbit edilən hüquqlar;

1078-8.2.10. qiymətli kağızların sahibləri qarşısında emitentin öhdəlikləri;

1078-8.2.11. emitentin rəhbərinin adı, soyadı, möhürlə təsdiqlənmiş imzası.

1078-8.3. Konversiya borcu istiqrazların emissiyası haqqında qərar qəbul edilərkən, onların ödənilməsinə yönəldilən səhmlərin emissiyası haqqında qərar qəbul edilməlidir. (3)

Maddə 1078-9. Dövlət qiymətli kağızlarının emissiyası

1078-9.1. Dövlət qiymətli kağızlarının emissiyası müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş digər dövlət orqanı tərəfindən həyata keçirilir.

1078-9.2. Dövlət qiymətli kağızlarının emissiyası və tədavülü emitentin rəyi alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla tənzimlənir. (3)

Maddə 1078-10. Bələdiyyə qiymətli kağızlarının emissiyası

Bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

Maddə 1078-11. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı

1078-11.1. İnvestisiya qiymətli kağızlarının buraxılışları müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmalıdır.

1078-11.2. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı üçün emitent tərəfindən müvafiq icra hakimiyyəti orqanına aşağıdakı sənədlər təqdim edilməlidir:

1078-11.2.1. investisiya qiymətli kağızlarının qeydiyyata alınması üçün ərizə;

1078-11.2.2. investisiya qiymətli kağızlarının emissiyası haqqında qərar;

1078-11.2.3. emitentin hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və təsis sənədlərinin notarial qaydada təsdiq olunmuş surətləri;

1078-11.2.4. investisiya qiymətli kağızlarının emissiya prospekti (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa);

1078-11.2.5. investisiya qiymətli kağızının sertifikatının nümunəsi (investisiya qiymətli kağızları sənədli formada buraxıldıqda);

1078-11.2.6. investisiya qiymətli kağızların emissiya prospektinin qeydiyyata alınması üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa).

1078-11.3. Təmin edilmiş istiqrazların buraxılışının dövlət qeydiyyatı yalnız onlar üzrə verilmiş təminatın qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməsindən sonra həyata keçirilir.

1078-11.4. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı üçün təqdim edilən sənədlərə onların təqdim edilməsi tarixindən etibarən on beş iş günü müddətində baxılır və qeydiyyatdan imtina üçün əsas olmadıqda, qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alınır. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatına alınmasından imtina edildikdə, bu barədə emitentə rəsmi bildiriş verilir. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı həmin buraxılışa dövlət qeydiyyat nömrəsinin verilməsindən və bu məlumatların dövlət reyestrinə daxil edilməsindən ibarətdir. Dövlət qeydiyyat nömrəsinin verilməsi və reyestrin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-11.5. Emitentin istiqraz buraxılışının maksimal həcminə dair tələblər haqqında qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-11.6. İnvestisiya qiymətli kağızları buraxılışı dövlət qeydiyyatından keçənə qədər qiymətli kağızların reklamı, hər hansı bir investora rəsmi təklif edilməsi və emissiya prospektinin potensial investorlara təqdim edilməsi qadağandır.

1078-11.7. Emitentin müvafiq icra hakimiyyəti orqanına təqdim etdiyi qiymətli kağızların buraxılışı üzrə sənədlərdə göstərilən məlumatların tamlığına və dürüstlüyünə görə məsuliyyəti həmin sənədləri imzalamış vəzifəli şəxslər daşıyır. (3, 40)

Maddə 1078-12. İnvestisiya qiymətli kağızlarının emissiya prospektinə dair ümumi tələblər

1078-12.1. İnvestisiya qiymətli kağızlarının emissiyası (qapalı yerləşdirmə istisna olmaqla) emissiya prospekti ilə müşayiət olunur.

1078-12.2. İnvestisiya qiymətli kağızlarının emissiya prospektində aşağıdakı məlumatlar olmalıdır:

1078-12.2.1. emitentin tam adı, təşkilati-hüquqi forması və olduğu yer;

1078-12.2.2. hüquqi şəxslərin dövlət reyestrində emitent barədə olan məlumatlar;

1078-12.2.3. emitentin nizamnamə kapitalının on faizindən az olmayan miqdarda səs hüququnu verən səhmlərinə (bundan sonra - səsli səhmlər) malik olan şəxslər barədə məlumat;

1078-12.2.4. emitentin idarəetmə orqanı, icra və nəzarət orqanları haqqında məlumat;

1078-12.2.5. emitentin filial və nümayəndəlikləri haqqında məlumat;

1078-12.2.6. nizamnamə kapitalında emitentin payı on faizdən az olmayan hüquqi şəxslərin siyahısı və rekvizitləri;

1078-12.2.7. nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat (səhmdar cəmiyyətləri üçün);

1078-12.2.8. müstəqil auditorun hesabatı ilə birlikdə, emitentin sonuncu balansı və toplu maliyyə hesabatı;

1078-12.2.9. emitentin təsis edildiyi tarixdən və ya son beş maliyyə ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat;

1078-12.2.10. emitentin əvvəl emissiya edilmiş qiymətli kağızları haqqında məlumat;

1078-12.2.11. investisiya qiymətli kağızlarının buraxılışı haqqında ümumi məlumat;

1078-12.2.12. investisiya qiymətli kağızlarının yerləşdirilmə qaydası;

1078-12.2.13. emitentin kreditor borcları, ödəniləcək faizlərin məbləği və satınalma şərtləri (istiqrazlar üzrə);

1078-12.2.14. istiqrazlar üzrə müəyyənləşdirilmiş xüsusi təminatlar (olduqda);

1078-12.2.15. təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı haqqında məlumat;

1078-12.2.16. investisiya qiymətli kağızlarının ödənilməsi qaydası;

1078-12.2.17. investisiya qiymətli kağızlarının yerləşdirilməsində iştirak edəcək qiymətli kağızlar bazarının peşəkar iştirakçısı haqqında məlumat;

1078-12.2.18. investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarın tarixi, nömrəsi və onu qəbul etmiş orqanın adı;

1078-12.2.19. imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu;

1078-12.2.20. investisiya qiymətli kağızlarının əldə edilməsi üçün məhdudiyyətlər (olduqda). (3)

Maddə 1078-13. İnvestisiya qiymətli kağızları buraxılışının dövlət qeydiyyatından imtina

1078-13.1. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatından aşağıdakı hallarda imtina edilə bilər:

1078-13.1.1. investisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı üçün təqdim olunmuş sənədlər mövcud qanunvericiliyin tələblərinə cavab vermədikdə;

1078-13.1.2. emitentin səhmlərinin əvvəlki emissiyasının yekunları haqqında hesabat qeydiyyatdan keçmədikdə (səhm buraxılışı üçün);

1078-13.1.3. investisiya qiymətli kağızlarının emissiya prospektinə və ya investisiya qiymətli kağızlarının emissiyası haqqında qərara (qiymətli kağızların buraxılışının dövlət qeydiyyatı üçün əsas olan digər sənədlərə) qeyri-dürüst, yaxud təhrif edilmiş məlumatlar daxil edildikdə;

1078-13.1.4. emitent tərəfindən qiymətli kağızlar bazarında ciddi qanun pozuntularına yol verildikdə.

1078-13.2. İnvestisiya qiymətli kağızlarının buraxılışının bu Məcəllədə göstərilənlərdən başqa digər əsaslarla dövlət qeydiyyatından imtina edilməsinə yol verilmir.

1078-13.3. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatından imtina edilməsi haqqında bildiriş müvafiq icra hakimiyyəti orqanı tərəfindən emitentə təqdim edilir.

1078-13.4. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatından imtina edilməsi haqqında qərardan emitent inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət edə bilər. (3, 25)

Maddə 1078-14. İnvestisiya qiymətli kağızlarının buraxılışı haqqında məlumatın açıqlanması

1078-14.1. İnvestisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunduqda, emitent onları yerləşdirməzdən əvvəl emissiya prospektində olan məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada açıqlamalıdır.

1078-14.2. İnvestisiya qiymətli kağızlarının emissiya prospekti emitentin ünvanında, qiymətli kağızların satış yerlərində olmalıdır və tanışlıq üçün emitent və ya yerləşdirməni həyata keçirən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı tərəfindən heç bir ödəniş tələb edilmədən təqdim edilməlidir. Emitent emissiya prospekti ilə tanış olmaq üçün zəruri olan şəraiti yaratmalı və bunun üçün vaxtı və ünvanı kütləvi informasiya vasitələrində elan etməlidir. (3)

Maddə 1078-15. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi

1078-15.1. Qiymətli kağızların yerləşdirilməsi emitentin qiymətli kağızlarının ilk sahiblərinə özgəninkiləşdirilməsidir. Emitent investisiya qiymətli kağızlarının yerləşdirilməsi hüququnu onlar dövlət qeydiyyatından keçdiyi andan əldə edir.

1078-15.2. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi kütləvi təklif və ya investorların məhdud dairəsinə təklif (qapalı yerləşdirmə) üsulu ilə həyata keçirilir.

1078-15.3. Açıq səhmdar cəmiyyətlərinin səhmlərinin qapalı yerləşdirilməsinə (açıq səhmdar cəmiyyətlərinin yaradılması və yenidən təşkili zamanı, habelə səhmlərin konvertasiyası halları istisna olmaqla), qapalı səhmdar cəmiyyətlərinin səhmlərinin isə kütləvi təklif üsulu ilə yerləşdirilməsinə yol verilmir.

1078-15.4. Yerləşdirilən investisiya qiymətli kağızlarının sayı investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda və ya emissiya prospektində göstərilən sayından çox olmamalıdır. Lakin emitent investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda və ya emissiya prospektində göstəriləndən az sayda investisiya qiymətli kağızları yerləşdirə bilər. Bu zaman investisiya qiymətli kağızlarının emissiyasının baş tutmuş hesab edilməsi üçün əsas olan qiymətli kağızların yerləşdirilmiş hissəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-15.5. İnvestisiya qiymətli kağızlarının kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı qiymətli kağızları alarkən bir alıcıya başqaları qarşısında üstünlük verilməsi qadağandır. Bu müddəa səhmdar cəmiyyətinin səhmdarlarına investisiya qiymətli kağızlarının emissiyası haqqında qərar qəbul edilən zaman onlarda olan səhmlərin sayına mütənasib miqdarda yeni emissiya olunan qiymətli kağızları almaqda üstünlük hüququ verildikdə tətbiq olunmur.

1078-15.6. Səhmdar cəmiyyətlərinin səhmlərinin kütləvi təklif üsulu ilə yerləşdirilməsi fond birjası vasitəsi ilə həyata keçirilir. Səhmlərin emissiyasının baş tutmuş hesab edilməsi üçün əsas olan hissəsinin fond birjası vasitəsi ilə yerləşdirilməsi qiymətli kağızların buraxılışı dövlət qeydiyyatına alındığı tarixdən etibarən bir il ərzində başa çatmalıdır.

1078-15.7. Emitent investisiya qiymətli kağızın dəyərinin ilk sahibi tərəfindən ödənildiyi tarixdən etibarən on beş gündən gec olmayaraq onun sahibi haqqında məlumatın qiymətli kağızların sahiblərinin reyestrinə daxil edilməsini (adlı qiymətli kağızların

yerləşdirilməsi halında), investisiya qiymətli kağızın sahibinə investisiya qiymətli kağızın sertifikatının və ya depo hesablardan çıxarışların verilməsini təmin etməlidir.

1078-15.8. İnvestisiya qiymətli kağızları sənədli formada olduqda emitent onların sahibinə qiymətli kağızların sertifikatını (sertifikatlarını) verir.

1078-15.9. İnvestisiya qiymətli kağızları sənədsiz formada olduqda onların sahiblərinə əldə etdikləri qiymətli kağızları əks etdirən sertifikat depozitar tərəfindən verilir.

1078-15.10. Bir sertifikatla bir və daha çox sayda eyni dövlət qeydiyyat nömrəsi olan investisiya qiymətli kağızlara hüquqlar təsdiq edilə bilər. Bir investisiya qiymətli kağıza hüquqlar yalnız bir sertifikatla təsdiq edilə bilər.

1078-15.11. Kütləvi təklif üsulu ilə yerləşdirilən səhmlərin dəyəri yalnız pulla ödənilir.

1078-15.12. Emitent müvafiq icra hakimiyyəti orqanına investisiya qiymətli kağızların yerləşdirilməsi haqqında hesabat təqdim etməlidir. İnvestisiya qiymətli kağızların yerləşdirilməsi haqqında hesabatın təqdim edilməsi qaydası qanunvericiliklə müəyyən olunur.

1078-15.13. Azərbaycan Respublikasının emitentlərinin qiymətli kağızlarının Azərbaycan Respublikası ərazisindən kənarda yerləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

Maddə 1078-16. İnvestisiya qiymətli kağızlarının emissiyasının dayandırılması

1078-16.1. İnvestisiya qiymətli kağızlarının emissiyasının dayandırılması müvafiq icra hakimiyyəti orqanının qərarı ilə qiymətli kağızların çap edilməsi, reklamı və yerləşdirilməsi üzrə digər tədbirlərin dayandırılmasıdır.

1078-16.2. İnvestisiya qiymətli kağızlarının emissiyası aşağıdakı əsaslarla müvafiq icra hakimiyyəti orqanı tərəfindən dayandırıla bilər:

1078-16.2.1. qeydiyyata alınmış emissiya şərtlərinin, habelə bu Məcəllənin və digər müvafiq normativ-hüquqi aktların qiymətli kağızların emissiyası ilə bağlı olan tələbləri pozulduqda;

1078-16.2.2. investisiya qiymətli kağızlarının dövlət qeydiyyatından keçmiş sayından çox yerləşdirildikdə.

1078-16.3. Emitent qiymətli kağızların emissiyasının dayandırılması barədə müvafiq icra hakimiyyəti orqanından rəsmi bildiriş aldıqdan sonra dərhal kütləvi informasiya vasitələri ilə bu barədə məlumat verməli və qiymətli kağızların emissiyası zamanı yol verilmiş pozuntuları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi müddət ərzində aradan qaldırmalıdır.

1078-16.4. Qiymətli kağızların emissiyası zamanı yol verilmiş pozuntular aradan qaldırıldıqdan sonra müvafiq icra hakimiyyəti orqanının qərarı ilə emissiya davam etdirilə bilər. Bu zaman qiymətli kağızların yerləşdirilməsi müddəti emissiya dayandırıldığı müddətə uzadılır.

1078-16.5. İnvestisiya qiymətli kağızları dövlət qeydiyyatından keçmiş sayından çox yerləşdirildikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən gündən iki ay ərzində emitent həmin kağızların geri satın alınmasını və ləğv edilməsini təmin etməlidir. Əks təqdirdə müvafiq icra hakimiyyəti orqanı emitent tərəfindən əsassız əldə edilmiş məbləğlərin investorlara qaytarılması üçün məhkəməyə müraciət edə bilər.

1078-16.6. İnvestisiya qiymətli kağızlarının emissiyasının dayandırılması ilə əlaqədar xərclər və investorlara müvafiq vəsaitlərin qaytarılması emitentin vəsaiti hesabına həyata keçirilir. (3)

Maddə 1078-17. İnvestisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabat

1078-17.1. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi başa çatdıqdan sonra otuz gün müddətində emitent müvafiq icra hakimiyyəti orqanına investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabat təqdim etməlidir.

1078-17.2. İnvestisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabata aşağıdakı məlumatlar daxil edilməlidir:

1078-17.2.1. investisiya qiymətli kağızlarının yerləşdirilməsinin başlanması və başa çatması tarixi;

1078-17.2.2. yerləşdirilmiş investisiya qiymətli kağızlarının sayı;

1078-17.2.3. investisiya qiymətli kağızlarının yerləşdirilməsindən daxil olan vəsaitin ümumi məbləği;

1078-17.2.4. investisiya qiymətli kağızlarının yerləşdirilməsi zamanı emitentlə investorlar arasında bağlanılmış əqdlər haqqında məlumat.

1078-17.3. Müvafiq icra hakimiyyəti orqanı investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabata on beş iş günü müddətində baxır və qeydiyyatdan imtina üçün əsas olmadıqda onu qeydə alır.

1078-17.4. Müvafiq icra hakimiyyəti orqanı investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabatı qeydiyyata almaqdan həmin buraxılış qiymətli kağızlarının emissiyası ilə əlaqədar qanun pozuntularına yol verildikdə imtina edə bilər.

1078-17.5. İnvestisiya qiymətli kağızlarının kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı emissiyanın yekunları haqqında hesabat, qeydiyyata alındıqdan sonra, emitent tərəfindən kütləvi informasiya vasitələrində açıqlanmalıdır. (3)

Maddə 1078-18. İnvestisiya qiymətli kağızlarının emissiyasının baş tutmamış hesab edilməsi

1078-18.1. İnvestisiya qiymətli kağızları onların emissiyasının baş tutmuş hesab edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş saydan az miqdarda yerləşdirildikdə və ya qanunvericiliklə müəyyən edilmiş digər hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən emissiya baş tutmamış hesab edilə bilər.

1078-18.2. Emissiyanın baş tutmamış hesab edilməsi barədə emitent kütləvi informasiya vasitələri ilə elan verməli və yerləşdirilmiş qiymətli kağızları geri satın alaraq,

investorlardan alınmış vəsaitləri onlara qaytarmalı və bunun nəticələri barədə müvafiq icra hakimiyyəti orqanına məlumat təqdim etməlidir. (3)

Maddə 1078-19. İnvestisiya qiymətli kağızlarının buraxılışının etibarsız hesab edilməsi

İnvestisiya qiymətli kağızlarının emissiyası zamanı bu Məcəllənin və müvafiq qanunvericiliyin tələbləri pozulduğu hallarda müvafiq icra hakimiyyəti orqanının iddiası ilə məhkəmə tərəfindən həmin buraxılış etibarsız hesab edilə bilər. Bu halda həmin buraxılışda olan bütün qiymətli kağızlar emitentə, qiymətli kağızların yerləşdirilməsindən əldə edilmiş vəsaitlər investorlara qaytarılmalıdır. (3)

§14. Qiymətli kağızların tədavülü

Maddə 1078-20. Qiymətli kağızlar üzrə əqdlər

1078-20.1. Qiymətli kağızların tədavülü yerləşdirmədən sonra qiymətli kağızlarla mülki-hüquqi əqdlərin bağlanması nəticəsində mülkiyyət hüquqlarının keçməsi və qeydiyyatı prosesidir.

1078-20.2. Qiymətli kağızlar üzrə əqdlər bu Məcəlləyə müvafiq olaraq bağlanılır və həyata keçirilir.

1078-20.3. Adlı qiymətli kağızları əldə edən şəxsin mülkiyyət hüquqları qiymətli kağızlar üzrə hüquqların ötürülməsinin qeydiyyatı ilə yaranır.

1078-20.4. Qiymətli kağızların tədavülü zamanı qanun pozuntuları aşkar edildikdə müvafiq icra hakimiyyəti orqanı qanun pozuntusu ilə müşayiət olunan əqdlərin bağlanılmasını və icrasını dayandıra bilər.

1078-20.5. Qiymətli kağızların növləri üzrə alqı-satqı əqdlərinin bağlanması qaydaları bu Məcəllə və ona müvafiq olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-20.6. Hüquqi və fiziki şəxslərin borclarının qiymətli kağızlarla rəsmiləşdirilməsi və ödənilməsi qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara uyğun həyata keçirilir.

1078-20.7. Adlı investisiya qiymətli kağızlarla əqdlər broker vasitəsilə bağlanmadıqda və ya belə əqdlərdə tərəf-müqabili diler olmadıqda həmin əqdlər notarial qaydada təsdiq olunmalıdır.

1078-20.8. Ünvanlı satış istisna olmaqla, səhmdarların sayı yüzdən artıq olan səhmdar cəmiyyətlərinin yerləşdirilmiş səhmlərilə alqı-satqı əqdləri fond birjası vasitəsilə bağlanmalıdır. (3)

Maddə 1078-21. Qiymətli kağızlar üzrə hüquqların ötürülməsi

1078-21.1. Qiymətli kağızlara hüquqlar bu Məcəllənin 993-cü maddəsinə və bu maddədə müəyyən edilmiş xüsusiyyətlərə uyğun olaraq ötürülür.

1078-21.2. Adsız sənədli qiymətli kağız üzrə hüquqlar onun sertifikatının yeni sahibinə verilməsi ilə ötürülür.

1078-21.3. Depozitarda saxlanılan adsız sənədli qiymətli kağızlar üzrə hüquqlar qiymətli kağızların yeni sahibinin «depo» hesabına köçürülməsi yolu ilə ötürülür.

1078-21.4. Adlı sənədsiz qiymətli kağızlar üzrə hüquqlar qiymətli kağızların sahibinin «depo» hesabından yeni sahibin «depo» hesabına köçürülməsi yolu ilə ötürülür.

1078-21.5. Adlı sənədli qiymətli kağızlar üzrə hüquqlar yeni sahibə qiymətli kağızları (sertifikatları) verməklə reyestrdə müvafiq qeydin aparılması yolu ilə ötürülür. Depozitarda saxlanılan adlı sənədli qiymətli kağızlar üzrə hüquqlar sahibin «depo» hesabından yeni sahibin «depo» hesabına qiymətli kağızların köçürülməsi yolu ilə ötürülür.

1078-21.6. Qiymətli kağızlarla təsbit edilmiş hüquqlar əldə edən şəxsə həmin kağızlar üzrə hüquqlar keçən andan keçir.

1078-21.7. Orderli qiymətli kağızlara hüquqlar ixtiyarlı sahibin kağız üzərində etdiyi sərəncam vasitəsi ilə yeni sahibə ötürülür.

1078-21.8. Qanunvericiliklə bu Məcəllənin tələbləri nəzərə alınmaqla qiymətli kağızların ayrı-ayrı növləri üzrə hüquqların keçməsinə əlavə üsul və xüsusatlar müəyyən edilə bilər.

1078-21.9. Adlı sənədli qiymətli kağızlar üzrə hüquqların ötürülməsi zamanı qiymətli kağızın sertifikatının yeni sahibin adına rəsmiləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-21.10. Yeni sahib hüquqların keçməsi üzrə qanunvericiliklə müəyyən edilmiş hərəkətlərin icrası və hüquqların qeydiyyatından sonra qiymətli kağızlar üzrə hüquqları əldə edir. (3)

Maddə 1078-22. Qiymətli kağızlarla təsbit edilmiş hüquqların həyata keçirilməsi

1078-22.1. Sənədli qiymətli kağızlarla təsbit edilmiş hüquqlar qiymətli kağızların sahibi tərəfindən həmin qiymətli kağızların sertifikatının təqdim edilməsi ilə həyata keçirilir.

1078-22.2. Sənədsiz qiymətli kağızlarla təsbit edilmiş hüquqlar həmin qiymətli kağızlar barədə reyestr və ya «depo» hesablarında mülkiyyətçi, yaxud nominal saxlayıcı barədə olan məlumatlarla reyestrdə qeydə alınmış şəxs barədə məlumatların eyniləşdirilməsi ilə həyata keçirilir.

1078-22.3. Sənədli qiymətli kağızların sertifikatları depozitarda saxlandıqda həmin qiymətli kağızlarla təsbit edilmiş hüquqlar sahibin tapşırığı ilə depozitarda saxlanılan qiymətli kağızın sertifikatının (sahiblərin siyahısı əlavə olunmaqla) depozitar tərəfindən təqdim edilməsi ilə həyata keçirilir. (3)

Maddə 1078-23. Qiymətli kağızların öhdəliklərlə yüklənməsi

1078-23.1. Qiymətli kağızlar girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yüklənə bilər. Bu, dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

1078-23.2. Qiymətli kağızların öhdəliklərlə yüklənməsi qaydası bu Məcəllə və digər qanunvericilik aktları ilə müəyyən edilir.

1078-23.3. Qiymətli kağızların girovu barədə səlahiyyətli orqanların qəbul etdikləri qərarlar barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanının apardığı rəsmi reyestrdə əks etdirilir.

1078-23.4. Qiymətli kağızlar üzrə girovun (ipotekanın) predmeti olan qiymətli kağızlarla rəsmiləşdirilmiş daşınmaz əmlaka ödənişin yönəldilməsi və ya hüquqların keçməsi həmin əmlaka ödənişin yönəldilməsi və ya hüquqların keçməsidir. Qiymətli kağızlarla rəsmiləşdirilmiş hüquqlar (daşınmaz əmlakın ipotekası da daxil olmaqla) üzrə mülkiyyətin əldə edənə keçməsi həmin qiymətli kağızın verilməsi ilə həyata keçirilir.

1078-23.5. Girov kağızı və ipoteka kağızının tədavül qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3, 23)

Maddə 1078-24. Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması qaydaları

Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

Maddə 1078-25. Xarici investorlar tərəfindən qiymətli kağızların əldə edilməsi

Azərbaycan Respublikasının emitentlərinin qiymətli kağızlarının xarici investorlar tərəfindən əldə edilməsi qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla məhdudlaşdırılmır. (3)

Maddə 1078-26. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası

1078-26.1. Qiymətli kağızların birləşdirilməsi bir növdən olan bütün qiymətli kağızların bir buraxılış daxilində bütün mülkiyyətçilərdə olan qiymətli kağızların sayının mütənasib azaldılması yolu ilə dəyişdirilməsidir. Qiymətli kağızların nominal dəyəri olduqda, onların birləşdirilməsi nominal dəyərin mütənasib artırılması ilə müşayiət olunur.

1078-26.2. Qiymətli kağızların xırdalanması (bölünməsi) bir qiymətli kağızın nominal dəyərinin mütənasib bölünməsi yolu ilə eyni növlü bir neçə qiymətli kağıza çevrilməsidir.

1078-26.3. Qiymətli kağızların konvertasiyası bir emitentin bir növ investisiya qiymətli kağızların digər növlü investisiya qiymətli kağızlara və ya digər emitentin qiymətli kağızlarına (həmin emitent yenidən təşkil edildikdə) əvəzsiz dəyişdirilməsidir (səhmin istiqraza dəyişdirilməsi istisna olmaqla). Bu zaman dəyişdirilmiş qiymətli kağızlar ləğv olunurlar.

1078-26.4. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası həmin qiymətli kağızların yerləşdirilməsi zamanı emitent tərəfindən cəlb edilmiş vəsaitlərin miqdarının dəyişdirilməsinə gətirmir, qiymətli kağızlar sahiblərindən geri alınan qiymətli kağızların dəyərinin qaytarılması üçün əsas deyil və qiymətli kağızlar sahibləri tərəfindən əlavə xərclər edilmədən həyata keçirilir.

1078-26.5. Emitentin yerləşdirilmiş qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası haqqında qərarı müvafiq icra hakimiyyəti orqanında qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmalıdır.

1078-26.6. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-26.7. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası və ödənilməsi bu qiymətli kağızların əvvəlki sertifikatlarının ləğv olunması ilə müşayiət olunur. (3)

Maddə 1078-27. Qiymətli kağızların dövriyyədən çıxarılması və ləğv edilməsi

1078-27.1. Qiymətli kağızların dövriyyədən çıxarılması və ləğv edilməsi aşağıdakı hallarda həyata keçirilir:

1078-27.1.1. emitentin qərarı ilə;

1078-27.1.2. qiymətli kağızların emissiyasının baş tutmamış hesab edildiyi halda müvafiq icra hakimiyyəti orqanının qərarı ilə;

1078-27.1.3. qiymətli kağızların buraxılışı məhkəmə tərəfindən etibarsız hesab edildikdə;

1078-27.1.4. emintentin fəaliyyətinə qanunvericiliklə müəyyən edilmiş qaydada xitam verildikdə;

1078-27.1.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

1078-27.2. Yerləşdirilmiş qiymətli kağızlar dövriyyədən çıxarıldıqda və ya ləğv edildikdə, müvafiq icra hakimiyyəti orqanı qiymətli kağızların dövlət reyestrində müvafiq qeydlər etməlidir.

1078-27.3. Qiymətli kağızların dövriyyədən çıxarılması və ləğv edilməsi haqqında məlumat (ödəniş nəticəsində tədavüldən çıxarılması istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanı tərəfindən qiymətli kağızların dövlət reyestrində müvafiq qeydlər edildiyi gündən yeddi iş günü müddətində rəsmi kütləvi informasiya vasitələrində dərc olunmalıdır.

1078-27.4. Qiymətli kağızların dövriyyədən çıxarılması və ləğv edilməsi barədə məlumatın dərc edildiyi gündən onların dövriyyəsinə yol verilmir. Bu məlumatın dərc edildiyi gündən həmin kağızlarla bağlanmış müqavilələr əhəmiyyətsizdir.

1078-27.5. Qiymətli kağızların dövriyyədən çıxarılması və ləğv edilməsi bu barədə müvafiq məlumat dərc edildikdən sonra həyata keçirilir.

1078-27.6. Qiymətli kağızların dövriyyədən çıxarılması və ləğv edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

§15. Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları

Maddə 1078-28. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin növləri

1078-28.1. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət növlərinə aşağıdakılar aid edilir:

1078-28.1.1. broker fəaliyyəti;

1078-28.1.2. diler fəaliyyəti;

1078-28.1.3. qiymətli kağızların idarə olunması üzrə fəaliyyət;

1078-28.1.4. klirinq fəaliyyəti;

1078-28.1.5. depozitar fəaliyyəti;

1078-28.1.6. qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət;

1078-28.1.7. fond birjası.

1078-28.2. Qanunvericiliklə qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin digər növləri də müəyyən edilə bilər.

1078-28.3. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət yalnız müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş müvafiq xüsusi razılığa (lisenziyaya) malik olan şəxslər tərəfindən həyata keçirilə bilər.

1078-28.4. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin müxtəlif növləri ilə eyni zamanda məşğul olunması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının, banklar istisna olmaqla, qiymətli kağızlar bazarına aid olmayan digər sahibkarlıq fəaliyyəti növləri ilə eyni zamanda məşğul olunmasına yol verilmir.

1078-28.5. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyəti həyata keçirmək üçün xüsusi razılığın (lisenziyanın) verilməsi, dayandırılması və ləğv edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-28.6. Azərbaycan Respublikasının Mərkəzi Bankı qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətli kağızlar bazarında peşəkar fəaliyyət növlərini və ya həmin fəaliyyət növləri çərçivəsində ayrı-ayrı əməliyyatları xüsusi razılıq (lisenziya) olmadan həyata keçirə bilər. (3, 39, 40)

Maddə 1078-29. Broker fəaliyyəti

1078-29.1. Broker fəaliyyəti yalnız hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.

1078-29.2. Brokerin müştərisinin tapşırığını onun üçün daha əlverişli şərtlərlə yerinə yetirməyə maneəçilik törədən marağı varsa, broker tapşırığın icrasını dayandıraraq dərhal müştərini bu barədə xəbərdar etməli və müştərinin yeni tapşırığını icra etməlidir.

1078-29.3. Broker müvafiq tapşırığı alarkən onunla müştərinin maraqları arasında ziddiyyət barədə müştəriyə məlumat verməmişdirsə və bu müştərinin maraqlarına ziyan vurmuşdursa, broker qanunvericiliklə müəyyən edilmiş qaydada həmin zərəri öz hesabına ödəməyə borcludur.

1078-29.4. Brokerin müştərisinin tapşırıqlarının yerinə yetirilməsi ilə bağlı olmayan öhdəlikləri üzrə brokerə tətbiq edilən maddi tənbeh tədbirləri müştərinin brokerdə saxlanılan maddi vəsaitlərinə yönəldilə bilməz.

1078-29.5. Broker komisyoner kimi fəaliyyət göstərdikdə, komissiya müqaviləsində nəzərdə tutulduqda, müştərinin onun sərəncamına verilmiş pul vəsaitlərindən, (qiymətli kağızlara investisiya üçün nəzərdə tutulmuş və ya qiymətli kağızların alınmasından əldə edilmiş) onların qaytarılması anına qədər, müqavilə şərtlərinə uyğun olaraq qiymətli kağızlarla əməliyyatlarda təkrarən istifadə edə bilər. Bu fəaliyyətin nəticəsində əldə edilən gəlirin istifadəsi qaydaları müqavilə ilə müəyyən edilir.

1078-29.6. Broker eyni zamanda diler fəaliyyəti ilə məşğul olduqda, ona müştəri tərəfindən verilmiş sifarişdə diler fəaliyyətinin həyata keçirilməsi ilə bağlı aparıldığı əməliyyatlarla əqdin istiqaməti və şərtləri eyni olduqda, o, ilk növbədə müştərinin tapşırığını yerinə yetirməlidir.

1078-29.7. Broker müflis elan edildikdə broker xidmətinin göstərilməsi haqqında müqaviləyə əsasən müştərinin onda saxlanılan maddi vəsaitlər qaytarılmalıdır.

1078-29.8. Broker fəaliyyətini tənzimləyən qaydalar və broker ilə müştəri arasında bağlanılmış müqaviləyə dair tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-29.9. Broker cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir. (3, 35)

Maddə 1078-30. Diler fəaliyyəti

1078-30.1. Diler fəaliyyəti yalnız hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.

1078-30.2. Diler əvvəlcədən elan etdiyi şərtlərə uyğun gələn alqı-satqı müqavilələrinin bağlanmasından həmin şərtləri dəyişdirmək yolu ilə imtina edə bilməz.

1078-30.3. Diler fəaliyyətini tənzimləyən qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

Maddə 1078-31. Qiymətli kağızların idarə olunması üzrə fəaliyyət

1078-31.1. Qiymətli kağızların idarə olunması üzrə fəaliyyəti həyata keçirən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı idarəçi adlanır.

1078-31.2. İdarəçiyə idarə olunmaq üçün qiymətli kağızların və ya pul vəsaitlərinin verilməsi həmin qiymətli kağızlara və ya pul vəsaitlərinə mülkiyyət hüququnun keçməsinə səbəb olmur.

1078-31.3. İdarəçi ilə müştərisi arasında və ya idarəçinin bir neçə müştəriləri arasında maraqlar ixtilafı yarandıqda idarəçi bu barədə müştərilərinə dərhal məlumat verməlidir. Əks təqdirdə bunun nəticəsində müştəriyə dəymiş zərər idarəçi tərəfindən ödənilməlidir.

1078-31.4. İdarəçinin öhdəlikləri üzrə tənbeh tədbirləri müştərinin idarə etməyə verilmiş əmlakına yönəldilə bilməz.

1078-31.5. İdarəçinin fəaliyyətini tənzimləyən qaydalar və idarəçi ilə müştərinin müqaviləsinə dair tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-31.6. İdarəçi cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir. (3, 35)

Maddə 1078-32. Klirinq fəaliyyəti

1078-32.1. Klirinq fəaliyyətini yalnız hüquqi şəxslər (bundan sonra - klirinq təşkilatları) həyata keçirir.

1078-32.2. Qiymətli kağızlarla əqdlər üzrə hesablaşmaları həyata keçirən klirinq təşkilatları qiymətli kağızlarla əqdlərin icra olunmaması risklərini azaltmaq üçün zəmanət fondu yaratmalıdır. Zəmanət fondunun minimal məbləği bağlanılacaq əqdlərin təmin edilməmiş hissəsindən az olmamalıdır.

1078-32.3. Klirinq fəaliyyətinin həyata keçirilməsinin qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

Maddə 1078-33. Depozitar fəaliyyəti

1078-33.1. Depozitar fəaliyyəti yalnız hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.

1078-33.2. Depozitar fəaliyyətinin həyata keçirilməsi standartları və qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-33.3. Depozitarın qiymətli kağızların saxlanması və uçotu üzrə xidmətlərindən istifadə edən şəxs deponent adlandırılır.

1078-33.4. Depozitar müqaviləsinin bağlanılması qiymətli kağızlar üzrə mülkiyyət hüququnun depozitara keçməsinə əsas deyildir.

1078-33.5. Depozitarın öhdəlikləri üzrə tənbeh tədbirləri deponentin qiymətli kağızlarına yönəldilə bilməz.

1078-33.6. Depozitar, depo hesabları üzrə yazıların tamlığını və düzgünlüyünü təmin etməlidir və öz öhdəliklərinin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə, depo hesabları üzrə yazıların tamlığına və düzgünlüyünə görə məsuliyyət daşıyır.

1078-33.7. Depozitar sisteminin strukturu, onun üzvlərinin qarşılıqlı münasibətlərinin prinsipləri, məzmunu və formasına olan tələblər, onların fəaliyyət qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-33.8. Depozitar eyni zamanda reyestrsaxlayıcı peşəkar fəaliyyətini həyata keçirdikdə emitentlə bağlanılmış müqaviləyə əsasən qiymətli kağız sahiblərinin və (və ya) nominal saxlayıcıların depo hesablarına əsasən reyestri aparır. Bu halda digər depozitarlarda saxlanılan qiymətli kağızlar qiymətli kağız sahiblərinin reyestrini aparan depozitarda nominal saxlayıcı hesabında əks etdirilir.

1078-33.9. Azərbaycan Respublikasının Mərkəzi Bankı dövlət qiymətli kağızlarına hüquqların uçotunu aparan depozitarla bağlanılmış müqavilə əsasında həmin qiymətli kağızlar üzrə ayrı-ayrı depozitar əməliyyatlarını aparmaq hüququna malikdir. (3, 39)

Maddə 1078-34. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət

1078-34.1. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətlə yalnız hüquqi şəxslər məşğul ola bilər.

1078-34.2. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyəti həyata keçirən şəxs (bundan sonra - reyestrsaxlayıcı) qiymətli kağız sahiblərinin reyestrinin aparılması sistemində qeydə alınmış emitentin qiymətli kağızları ilə əqdləri bağlaya bilməz.

1078-34.3. Qiymətli kağız sahiblərinin reyestri müəyyən tarixə qeydə alınmış qiymətli kağızların sahiblərinin və nominal saxlayıcılarının, onlara məxsus qiymətli kağızların sayının və növünün eyniləşdirilməsini təmin edən siyahıdır. Qiymətli kağızların reyestrində emitent haqqında məlumat, hər bir qiymətli kağız sahiblərinə və nominal saxlayıcılarına məxsus olan qiymətli kağızların sayı, nominal dəyəri, növü, forması, öhdəliklər ilə yükləndirilməsi və qanunvericiliklə müəyyən edilmiş digər məlumatlar göstərilməlidir.

1078-34.4. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-34.5. Adsız qiymətli kağızların sahiblərinin reyestri aparılmır.

1078-34.6. Bir emitentin adlı investisiya qiymətli kağızlarının sahiblərinin sayı iyirmidən artıq olduqda, qiymətli kağız sahiblərinin reyestrinin aparılması yalnız qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcı tərəfindən keçirilməlidir. Bir emitentin adlı investisiya qiymətli kağızlarının sahiblərinin sayı iyirmi və daha az olduqda, onların reyestri həm qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcı, həm də emitentin özü tərəfindən aparıla bilər.

1078-34.7. Emitentin eyni növ qiymətli kağızlarının sahiblərinin reyestri eyni zamanda yalnız bir reyestrsaxlayıcı tərəfindən aparılmalıdır.

1078-34.8. Reyestrsaxlayıcı reyestrdən verdiyi çıxarışlar üzrə yazıların tamlığını və düzgünlüyünü təmin etməlidir və öz öhdəliklərinin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

1078-34.9. Emitent reyestrsaxlayıcısını dəyişdiyi halda, bu barədə kütləvi informasiya vasitələrində elan verməli və ya bütün qiymətli kağız sahiblərinə öz hesabına yazılı bildiriş göndərməlidir.

1078-34.10. Qiymətli kağız sahiblərinin reyestrində qiymətli kağızların nominal saxlayıcısı qismində broker (yalnız deponentləşdirilməmiş qiymətli kağızlar üzrə) və ya depozitar çıxış edə bilərlər.

1078-34.11. Qiymətli kağızlar depozitarda deponentləşdirildikdə depozitar həmin qiymətli kağızların sahiblərinin reyestrində nominal saxlayıcı kimi qeydə alınır.

1078-34.12. Qiymətli kağızların nominal saxlayıcısı həmin qiymətli kağızlarla təsbit edilmiş hüquqları yalnız onların mülkiyyətçisi tərəfindən bu barədə səlahiyyət aldıqda həyata keçirə bilər.

1078-34.13. Reyestrin aparılması sistemində nominal saxlayıcının adının qeyd edilməsi qiymətli kağızlara mülkiyyət hüququnun nominal saxlayıcıya keçməsinə əsas deyildir.

1078-34.14. Bir nominal saxlayıcının müştəriləri olan qiymətli kağız sahiblərinin arasında əqdlərin nəticələri reyestrdə əks etdirilmir.

1078-34.15. Qiymətli kağızların bir nominal saxlayıcıdan başqa nominal saxlayıcıya ötürülməsi haqqında məlumat nominal saxlayıcılar tərəfindən üç iş günü ərzində reyestrsaxlayıcıya təqdim olunmalıdır.

1078-34.16. Qiymətli kağız sahibləri tərəfindən qiymətli kağızlar üzrə hüquqların həyata keçirilməsinin təmin edilməsi üçün nominal saxlayıcı reyestrsaxlayıcının tələbi ilə müəyyən tarixə nominal saxlayıcısı olduğu şəxslərin siyahısını yeddi iş günü ərzində ona təqdim etməlidir. (3)

Maddə 1078-35. Fond birjası

1078-35.1. Fond birjası - qapalı səhmdar cəmiyyəti formasında yaradılan, öz üzvləri arasında qiymətli kağızlarla ticarəti təşkil edən və bağlanmış əqdlərin icrasını təmin edən ticarət təşkilatçısıdır.

1078-35.2. Adında «Fond birjası» ifadəsini yalnız fond birjası peşəkar fəaliyyətini həyata keçirən şəxs istifadə edə bilər.

1078-35.3 Fond birjası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş standartlar əsasında fəaliyyətini tənzimləyən daxili qaydaları təsdiq etməlidir.

1078-35.4. Fond birjasının nizamnamə kapitalının minimal miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-35.5. Fond birjası yalnız adi adlı səhmlər emissiya edə bilər.

1078-35.6. Fond birjasının səhmdarlarının hər biri birjanın səhmlərinin sayının iyirmi faizindən çox olmamaqla səhmlərin sahibləri ola bilərlər.

1078-35.7. Fond birjası ticarəti öz üzvləri arasında təşkil edir. İstisna qaydasında Azərbaycan Respublikasının Mərkəzi Bankı birja ticarətində birja üzvü olmadan iştirak edə bilər.

1078-35.8. Fond birjasının işçiləri qiymətli kağızlar bazarının peşəkar iştirakçıları və onların təsisçiləri ola bilməzlər, həmçinin fond birjasının fəaliyyətində sahibkarlar kimi iştirak edə bilməzlər. (3, 39)

Maddə 1078-36. Fond birjasının üzvləri

1078-36.1. Fond birjasının üzvləri birjanın daxili qaydalarına uyğun olaraq birja ticarətində bilavasitə iştirak etmək hüququna malik olan broker və ya dilerlərdir.

1078-36.2. Fond birjası üzvlüyünə daxil olması, fond birjası üzvlüyündən çıxarılması, xaric edilməsi və birjada üzvlüyün dayandırılması qaydaları, habelə fond birjasında üzvlərin fəaliyyətinin qaydaları müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktları, həmçinin birjanın nizamnaməsi və digər daxili sənədləri ilə müəyyən edilir.

1078-36.3. Fond birjasının üzvlərinin broker və diler fəaliyyətinə xüsusi razılıqları (lisenziyaları) olmalıdır və onlar birja tərəfindən onların ödəniş qabiliyyətinə və özlərinin fəaliyyətlərinin təşkilinə dair müəyyən edilən ixtisas tələblərinə cavab verməlidirlər.

1078-36.4. Birjada üzvlüyə aşağıdakı hallarda xitam verilir:

1078-36.4.1. birja üzvlüyündən könüllü qaydada çıxdıqda;

1078-36.4.2 müvafiq icra hakimiyyəti orqanının qərarı nəticəsində birja üzvü olan brokerə və dilerə verilən xüsusi razılıq (lisenziya) ləğv edildikdə;

1078-36.4.3. birjanın müvafiq idarəetmə orqanının qərarı ilə birja üzvü birja qaydalarını kobud surətdə pozduqda və ya birja tərəfindən müəyyən edilən ixtisas tələblərinə cavab vermədikdə;

1078-36.4.4. birjanın fəaliyyətinə xitam verildikdə.

1078-36.5. Fond birjası öz üzvlərinin sayını məhdudlaşdırmaq hüququna malikdir.(3)

Maddə 1078-37. Fond birjası tərəfindən yığılan ödənişlər

1078-37.1. Fond birjası tərəfindən aşağıdakı hallarda pul ödənişləri müəyyən edilə bilər:

1078-37.1.1. fond birjasının üzvlüyünə daxil olmaq üçün;

1078-37.1.2. qiymətli kağızların listinqi üçün;

1078-37.1.3. birja əqdlərinin təşkili üçün.

1078-37.2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalarda, birjanın nizamnaməsi və birja qaydaları ilə nəzərdə tutulmuş digər hallarda da ödənişlərin alınması müəyyən edilə bilər.(3)

Maddə 1078-38. Birja əqdləri

1078-38.1. Birja ticarətinin iştirakçıları arasında bağlanılmış müqavilə birja əqdidir.

1078-38.2. Fond birjasında bağlanılmış bütün əqdlər qanunvericiliklə və birja qaydaları ilə müəyyən edilmiş qaydada qeydiyyata alınmalıdır və rəsmiləşdirilməlidir.

1078-38.3. Birjanın müvafiq səlahiyyətli orqanı birja qaydalarına əsasən birja üzvünü müvəqqəti olaraq birja əqdlərinin bağlanılmasından kənarlaşdıra bilər. (3)

Maddə 1078-39. Birja qaydaları

1078-39.1. Fond birjası qiymətli kağızların birjada dövriyyəyə buraxılma qaydalarını, onları birjada kotirovka edilən qiymətli kağızların siyahısına daxil edilməsi (listinq) və göstərilən siyahıdan çıxarılması (delistinq), birjada əqdlərin bağlanması, qeydiyyatı, icrası və təmin edilməsi, əqdlər üzrə hesablaşmaların aparılması, birja üzvləri arasında birja əməliyyatlarının aparılması zamanı yaranan mübahisələrin həlli və fond birjasının

fəaliyyətilə əlaqədar digər qaydaları müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarına uyğun olaraq qəbul edir.

1078-39.2. Fond birjası ticarətin aparılması vaxtı haqqında, birjada ticarətə buraxılmış qiymətli kağızların siyahısı və qiymətləri (kotirovkası), ticarət sessiyasının nəticələri haqqında və qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatları vaxtında təqdim etməklə aparılan ticarətin şəffaflığını təmin etməlidir. (3)

§16. Qiymətli kağızlar bazarının tənzimlənməsi

Maddə 1078-40. Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi

1078-40.1. Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi aşağıdakılardan ibarətdir:

1078-40.1.1. qiymətli kağızlar bazarının tənzimlənməsi üzrə normativ hüquqi aktların qəbul edilməsi və onlara riayət olunmasına nəzarətin həyata keçirilməsindən;

1078-40.1.2. qiymətli kağızlar bazarının iştirakçılarına tələblərin və onların fəaliyyəti qaydalarının müəyyən edilməsindan;

1078-40.1.3. qiymətli kağızlar buraxılışlarının dövlət qeydiyyatının aparılmasından;

1078-40.1.4. qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin həyata keçirilməsi üçün xüsusi razılığın (lisenziyanın) verilməsindən;

1078-40.1.5. qiymətli kağızlar bazarında investorların və qiymətli kağızlar sahiblərinin hüquqlarının müdafiəsindən;

1078-40.1.6. qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsindən;

1078-40.1.7. qiymətli kağızlar bazarında qanunvericiliyi pozan şəxslərin məsuliyyətə cəlb edilməsi üzrə müvafiq tədbirlərin görülməsindən;

1078-40.1.8. qiymətli kağızlar bazarının iştirakçılarının peşə səviyyəsinin artırılması üzrə müvafiq tədbirlərin görülməsindən;

1078-40.1.9. qiymətli kağızlar bazarının inkişafı istiqamətlərinin müəyyən edilməsindən;

1078-40.1.10. qiymətli kağızlar bazarında sağlam rəqabət mühitinin yaradılmasından;

1078-40.1.11. qiymətli kağızlarla əqdlərin bağlanmasına dair tələblərin müəyyən edilməsindən;

1078-40.1.12. hüquqi və fiziki şəxslərin borc öhdəliklərinin qiymətli kağızlarla rəsmiləşdirilməsi və ödənilməsi qaydalarının müəyyənləşdirilməsindən;

1078-40.1.13. qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəlikləri bazarının tənzimlənməsinin həyata keçirilməsindən;

1078-40.1.14. Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının dünya maliyyə bazarına inteqrasiyası üzrə tədbirlərin hazırlanmasında və müvafiq icra hakimiyyəti orqanına təsdiq edilmək üçün təqdim edilməsindən, müvafiq tədbirlərin həyata keçirilməsindən;

1078-40.1.15. qiymətli kağızların öhdəliklərlə yüklənməsi və qiymətli kağızlarla rəsmiləşdirilən daşınmaz əmlakın ipotekasının qeydiyyatının və uçotunun aparılmasından;

1078-40.1.16. qiymətli kağızlarla bağlı müvafiq dövlət reyestrlərinin (qiymətli kağızların buraxılışının dövlət reyestri, veksel və çeklərin dövlət reyestri, qiymətli kağızlarla girovun rəsmi reyestri, qiymətli kağızlarla rəsmiləşdirilən əmlakın ipotekasının dövlət reyestri və s.) aparılmasından;

1078-40.1.17. qiymətli kağızlar bazarında sığortalanmalı olan risklərin sığorta standartlarının müəyyən edilməsindən;

1078-40.1.18. qiymətli kağızlar bazarında məlumatların açıqlanması üzrə qaydaların müəyyən edilməsi və sisteminin təşkilindən;

1078-40.1.19. qiymətli kağızların (sertifikatların) blanklarının çap edilməsi və onların ölkəyə gətirilməsi və aparılması üzrə fəaliyyətin tənzimlənməsindən;

1078-40.1.20. qiymətli kağızlar bazarının iştirakçılarına qanunvericiliklə müəyyən edilmiş qaydada icrası məcburi olan göstərişlərin verilməsindən;

1078-40.1.21. qiymətli kağızlar bazarının və onun infrastrukturunun inkişafı məqsədi ilə istifadə edilən fondların qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılması və onların fəaliyyətinin tənzimlənməsindən;

1078-40.1.22. qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyalara yol verilməməsi üzrə tədbirlərin görülməsindən.

1078-40.2. Qiymətli kağızlar bazarında dövlət tənzimlənməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. (3)

Maddə 1078-41. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatları

1078-41.1. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatları Azərbaycan Respublikasının qanunvericiliyinə və öz nizamnamələrinə müvafiq olaraq yaradılır və fəaliyyət göstərir.

1078-41.2. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatlarının fəaliyyəti aşağıdakı əsas məqsədləri daşıyır:

1078-41.2.1. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının səmərəli peşəkar fəaliyyəti üçün şəraitin yaradılması;

1078-41.2.2. qiymətli kağızlar bazarında investorların və digər iştirakçıların maraqlarının qorunması;

1078-41.2.3. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatının üzvləri arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi qaydalarının müəyyən edilməsi;

1078-41.2.4. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatlarının üzvlərinin fəaliyyətinin etik normalarının müəyyən edilməsi və bu normalara riayət olunmasının təmin edilməsi.

1078-41.2.5. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatların fəaliyyətləri haqqında məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada və həcmdə açıqlamalıdırlar. (3)

§17. Qiymətli kağızlar bazarında investorların maraqlarının müdafiəsi

Maddə 1078-42. Qiymətli kağızlar bazarında məlumatların açıqlanması

1078-42.1. Qiymətli kağızlar bazarında məlumatların açıqlanması hər bir maraqlı şəxsin həmin məlumatlarla tanış olması imkanının təmin edilməsindən ibarətdir.

1078-42.2. Bu Məcəllə və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada emitent, qiymətli kağızlar bazaranının peşəkar iştirakçısı, qiymətli kağızlar bazarının özünü tənzimləyən təşkilat fəaliyyətləri ilə bağlı kütləvi informasiya vasitələrində məlumatları açıqlamalıdırlar. Hamı üçün müyəssər olan məlumatlar açıqlanmış məlumatlar hesab olunur. (3)

Maddə 1078-43. Emitent tərəfindən məlumatların açıqlanması

1078-43.1. Kütləvi təklif vasitəsi ilə yerləşdirilən qiymətli kağızların emitenti dərc etmək və müvafiq icra hakimiyyəti orqanına təqdim etmək yolu ilə özünün qiymətli kağızları və maliyyə-təsərrüfat fəaliyyəti haqqında aşağıdakı məlumatları açıqlamağa borcludur:

1078-43.1.1. emitentin illik hesabatını;

1078-43.1.2. onun maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən mühüm hadisələr və hərəkətlər haqqında məlumatları;

1078-43.1.3. qiymətli kağızların emissiya prospektini;

1078-43.1.4. qiymətli kağızların emissiyasının yekunları haqqında hesabatını.

1078-43.2. Emitentin açıqlanmalı olan qiymətli kağızlar haqqında illik hesabatına, maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən mühüm hadisələrin və hərəkətlərin, qiymətli kağızların emissiya prospekti, emissiyasının yekunları haqqında məlumatların dairəsi, onlar barəsində tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-43.3. Emitentin illik hesabatı ilin nəticələri üzrə hazırlanır, onun ali idarəetmə orqanı tərəfindən təsdiq edilir və təsdiq edildiyi tarixdən etibarən otuz gündən gec olmayaraq açıqlanır.

1078-43.4. Emitentin maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən mühüm hadisələr və hərəkətlər barədə məlumat müvafiq icra hakimiyyəti orqanına həmin hərəkətlər və hadisələr baş verdiyi gündən on beş gündən gec olmayraq təqdim olunur.

1078-43.5. Banklar və digər kredit təşkilatları tərəfindən məlumatların açıqlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankının rəyi alınmaqla müəyyən edilir. (3, 39)

Maddə 1078-44. Fond birjası tərəfindən məlumatın açıqlanması

Fond birjası nizamnaməsi, qaydaları, üzvlərinin siyahısı, dövriyyəyə buraxılan qiymətli kağızları, bağlanılan əqdlər haqqında məlumatları açıqlamalıdır. (3)

Maddə 1078-45. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı tərəfindən məlumatların açıqlanması

Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı, nizamnaməsi, qaydaları, standartları və üzvləri haqqında məlumatları açıqlamalıdır. (3)

§18. Qiymətli kağızlar bazarında xidməti məlumat

Maddə 1078-46. Qiymətli kağızlar bazarında xidməti məlumatın anlayışı

1078-46.1. Xidməti məlumat ümumi qaydada əldə edilə bilməyən, qiymətli kağızlar bazarının iştirakçısı olan təşkilatlarda, yaxud müvafiq dövlət orqanlarında tutduğu vəzifə ilə əlaqədar olaraq əldə edilən və ya emitentlə bağlanmış müqaviləyə əsasən, qiymətli kağızlar bazarının subyektləri, qiymətli kağızlar, onlarla əməliyyatlar, qiymətlər və digər xüsusatlar üzrə açıqlanmamalı olan və istifadə edildikdə məlumat sahibinə qiymətli kağızlarla əməliyyatların aparılmasında digər iştirakçılardan daha üstün mövqe təmin edən məlumatdır.

1078-46.2. İnsayder - bu Məcəllənin 1078-46.1-ci maddəsinə əsasən xidməti məlumata malik olan şəxsdir. (3)

Maddə 1078-47. İnsayderlər

1078-47.1. İnsayderlərə aşağıdakılar aiddir:

1078-47.1.1. emitentin direktorlar (müşahidə) şurasının (bu orqanlar olduqda) və icra orqanlarının üzvləri;

1078-47.1.2. emitentin fəaliyyətinə nəzarət edən şəxslər;

1078-47.1.3. xidməti məlumatı tutduğu vəzifəyə, müqaviləyə, yaxud emitent və ya digər insayder tərəfindən müvafiq hüququn verilməsi nəticəsində əldə etmək imkanı olan şəxslər;

1078-47.1.4. emitentin nizamnamə kapitalının on faizindən artıq hissəsinə malik olan şəxslər;

1078-47.1.5. son altı ay ərzində bu Məcəllənin 1078-47.1.1-1078-47.1.4-cü maddələrinin təsiri altına düşən şəxslər.

1078-47.2. İnsayderlər öz fəaliyyətində aşağıdakılara yol verməməlidirlər:

1078-47.2.1. qiymətli kağızların dövriyyəsinə təsir göstərə bilən xidməti məlumatın istifadəsi ilə əməliyyatlara;

1078-47.2.2. digər şəxslərə xidməti məlumatı təqdim etməklə onları bununla bağlı əqdlərin bağlanmasına təhrik etmək.

1078-47.3. İnsayder özünə məxsus olan qiymətli kağızlarla apardığı əməliyyat barədə məlumatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada açıqlamalıdır.

1078-47.4. Xidməti məlumatın istifadəsi ilə əqdlərin bağlanması faktı və ya belə əqdin bağlanması cəhdi aşkar edildikdə qiymətli kağızlar bazarının peşəkar iştirakçıları əqdin bağlanmasını və icrasını dayandırmalı və bu barədə məlumatı dərhal müvafiq icra hakimiyyəti orqanına verməlidirlər.

1078-47.5. Xidməti məlumatın saxlanılması və təqdim edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (3)

55-ci fəsil. Xüsusi mükafatlandırmanın açıq elan edilməsi. Müsabiqə

Maddə 1079. Xüsusi mükafatlandırmanın açıq elan edilməsi anlayışı

Hər hansı hərəkəti yerinə yetirməyə, məsələn, hər hansı müəyyən nəticəyə nail olmağa görə açıq elan çərçivəsində mükafat təyin edən şəxs həmin hərəkəti yerinə yetirmiş şəxsə mükafat ödəməlidir. Bu qayda şəxsin həmin hərəkəti yerinə yetirərkən mükafat gözləmədiyi halda da qüvvədədir.

Maddə 1080. Xüsusi mükafatlandırmanın açıq elan edilməsinin ləğvi

1080.1. Mükafatlandırma vədi açıq elanda nəzərdə tutulan hərəkətin yerinə yetirilməsinə qədər ləğv edilə bilər.

1080.2. Açıq elanda nəzərdə tutulan mükafatlandırmanın ləğv edilməsi yalnız o halda etibarlıdır ki, mükafatlandırmanın təyin edilməsi hansı qaydada elan olunmuşdusa, ləğv edilməsi də o cür elan olunsun, ya da xüsusi məlumatda elan olunsun.

1080.3. Mükafatlandırmanın açıq elanında ləğvetmənin mümkünlüyü istisna oluna bilər. Şübhə yarandıqda bu cür istisnaya o halda yol verilir ki, açıq elanda nəzərdə tutulan hərəkəti yerinə yetirmək üçün müddət müəyyənləşdirilmiş olsun.

Maddə 1081. Açıq elanda nəzərdə tutulan mükafatın verilməsi

1081.1. Mükafat təyin edilmiş hərəkəti bir neçə şəxs yerinə yetirdikdə, mükafatı həmin hərəkəti birinci yerinə yetirmiş şəxs alır.

1081.2. Hərəkəti bir neçə şəxs eyni zamanda yerinə yetirdikdə, mükafat onların arasında bərabər bölünür.

1081.3. Mükafat təyin edilmiş nəticəyə nail olmaqda bir neçə şəxs iştirak etdikdə mükafatı təyin etmiş şəxs ayrılıqda onlardan hər birinin nəticəyə nail olmaqda iştirak

payını nəzərə alaraq, mükafatı onların arasında ədalətli mülahizə əsasında bölür. Açıq-aşkar ədalətsiz bölgünün məcburi qüvvəsi yoxdur və iştirakçılardan birinin ərizəsinə əsasən məhkəmənin qərarı ilə dəyişdirilə bilər. İştirakçılardan biri bölgünün məcburi qüvvəsini qəbul etmədikdə, mükafatı təyin etmiş şəxsin, bütün iştirakçılar kimin nəyə ixtiyarı çatdığı barədə aralarındakı mübahisəni həll edib qurtarmayınca, mükafatı verməkdən imtina etmək hüququ vardır. İştirakçıların hər biri mükafatın hamı üçün depozitə qoyulmasını tələb edə bilər.

1081.4. Bu Məcəllənin 1081.2 və 1081.3-cü maddələrində nəzərdə tutulan hallarda mükafat öz xarakterinə görə bölünmədikdə və ya elana əsasən bir şəxs üçün nəzərdə tutulduqda, püşkatma yolu ilə verilir.

Maddə 1082. Müsabiqə anlayışı və onun hüquqi nəticələri

1082.1. Müsabiqə müəyyən hərəkəti yerinə yetirməyə görə mükafatlandırma barədə açıq elandır; bu zaman hərəkəti yerinə yetirən şəxslər (iştirakçılar) bir və ya bir neçə nəfərdən ibarət münsiflər heyətinin və ya mükafatı təyin etmiş şəxsin verdiyi prizi almaq üçün müsabiqədə iştirak etməkdən ötrü işlərin təqdim edilməsi barədə ərizə verirlər. Priz qalibə sifariş veriləcəyi vədindən də ibarət ola bilər.

1082.2. Mükafatlandırmaya dair açıq elanın predmeti priz verilməklə müsabiqədə iştirak etmək üçün işlərin təqdim edilməsi barədə ərizə olduqda bu elan yalnız işlərin təqdim edilməsi müddəti göstərildikdə qüvvəyə malikdir.

1082.3. Vaxtında təqdim edilmiş işin müsabiqənin şərtlərinə uyğun gəlib-gəlmədiyi və iştirakçılardan kimin üstünlük verilməyə layiq olduğu barədə qərar müsabiqənin şərtlərində göstərilən şəxs tərəfindən, şərtlərdə bu göstərilmədikdə isə müsabiqəni elan etmiş şəxs tərəfindən qəbul olunur. Qərar bütün iştirakçılar üçün məcburi qüvvəyə malikdir və ondan məhkəməyə şikayət verilə bilməz. Əgər prizin verilməsi proseduru və şərtləri başqa şəkildə tənzimlənmişsə, bu qayda tətbiq olunmur.

1082.4. İşlər eyni məziyyətli olduqda, müsabiqə prizinin verilməsinə bu Məcəllənin 1081.2 və 1081.4-cü maddələrinin müddəaları tətbiq edilir.

1082.5. Müsabiqə elan etmiş şəxs priz almaqdan ötrü iştirakçılardan birinin təqdim etdiyi əsərə mülkiyyət hüququnun verilməsini yalnız o halda tələb edə bilər ki, müsabiqənin şərtlərində hüququn bu cür keçməsini təsbit etmiş olsun.

1082.6. Əgər layihə işlənməsi üçün müsabiqənin şərtlərində müsabiqə elan etmiş şəxsin layihənin sonrakı işlənməsini priz alana tapşırmaq niyyəti göstərilmişsə, müsabiqə elan etmiş şəxs layihə həyata keçirildikdən sonra onun sonrakı işlənməsini priz alanlardan birinə tapşırmağa borcludur.

1082.7. Müsabiqədə iştirak müsabiqəni elan etmiş şəxsdən mallar və ya digər xidmətlər alınması ilə əlaqələndirildikdə onun keçirilməsi qadağandır. Müsabiqədə iştirak etməklə əlaqədar bağlanmış, mallar və ya digər xidmətlər alınması barədə müqavilələrin qüvvəsi yoxdur.

56-cı fəsil. Oyunların və mərclərin keçirilməsi

Maddə 1083. Oyunlar və mərclər anlayışı

1083.1. Oyunlar və mərclər hər hansı təsərrüfat məqsədi daşımayan müqavilələrdir, onlara əsasən iştirakçılar qismən də olsa, qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan mənfəət götürür və ya zərər çəkirlər.

1083.2. Aşağıdakılar oyun və mərc kimi qiymətləndirilir:

1083.2.1. oyun və ya mərc üçün şüurlu surətdə borc və avans verilməsi;

1083.2.2. oyun və ya mərc xarakteri daşıyan əmtəə əqdləri və ya qiymətli kağızlarla əməliyyatlar.

Maddə 1084. Oyun və mərc üzrə tələblərin istisna edilməsi

Oyun və mərc üzrə heç bir tələb əmələ gəlmir.

Maddə 1085. Könüllü ödənişlər

1085.1. Oyun və mərc prosesində könüllü verilmiş ödənişlər geri tələb edilə bilməz.

1085.2. Oyunda və ya mərcdə uduzulan məbləği ödəmək məqsədi ilə oyunçunun və ya mərc gələnin imzaladığı, mövcud borcun etirafına dair müqavilə və ya qiymətli kağız, onun verilməsinə baxmayaraq, reallaşdırıla bilməz.

Maddə 1086. Lotereyalar üzrə tələb

Lotereyanın qanunvericiliklə nəzərdə tutulmuş hallarda dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi lotereya biletinin (ona bərabər tutulan digər məlumat daşıyıcısının) sahibinin lotereya təşkilatçısına qarşı uduşların verilməsi (ödənilməsi) tələbini istisna etmir. (8)

Səkkizinci bölmə. Qanundan əmələ gələn öhdəliklər

57-ci fəsil. Özgə işlərini tapşırıqsız aparma

Maddə 1087. Özgə işlərini tapşırıqsız vicdanla aparma

1087.1. Özgəsinin (sahibkarın) işlərini tapşırıq və ya digər əsas olmadan aparan şəxs (icraçı) onu vicdanla aparmağa borcludur.

1087.2. İşlərin tapşırıqsız aparılmasını sonradan sahibkar bəyəndikdə bu bölmənin müddəaları əvəzinə tapşırıq haqqında müddəalar tətbiq olunur.

Maddə 1088. Xəbərdaretmə vəzifəsi

1088.1. İcraçı işləri idarəetməyə qəbul etməsi barədə sahibkarı mümkün qədər qısa müddətdə xəbərdar etməli və əgər ləngimə hər hansı risklə bağlı deyilsə, onun qərarını gözləməlidir.

1088.2. İcraçı başladığı işləri sahibkarın özünün fəaliyyət göstərə biləcəyi vaxtadək davam etdirməlidir.

Maddə 1089. İcraçının məsuliyyəti

1089.1. İcraçı işləri aparması gedişində qəsdən və ya ehtiyatsızlıq üzündən vurulan zərərin kompensasiyası üçün sahibkar qarşısında məsuliyyət daşıyır.

1089.2. İşlərin aparılmasından məqsəd sahibkarı yaxınlaşmaqda olan təhlükədən qorumaq olduqda, icraçının məsuliyyəti qəsd və *kobud ehtiyatsızlıq* üçün məsuliyyətin hədləri ilə məhdudlaşır.

1089.3. Əgər *işlərin aparılması* sahibkarın elan edilmiş və ya başqa şəkildə aşkar olunmuş iradəsinə ziddirsə, icraçı zərəri qəsdən və ya ehtiyatsızlıq üzündən vurmamış olduqda belə, sahibkar qarşısında məsuliyyət daşıyır, amma icraçının öz müdaxiləsi olmadan da zərərin yarana biləcəyini sübuta yetirdiyi hallar istisna təşkil edir.

1089.4. İcraçı fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli olduqda, yalnız hüquqa zidd hərəkətlər və əsassız varlanma haqqında müddəalara uyğun məsuliyyət daşıyır. (12)

Maddə 1090. İcraçının hüquqları

1090.1. Əgər *işlərin aparılması* sahibkarın mənafeyinə və ehtimal olunan istəyinə uyğun gəlirsə, icraçı xərclərin əvəzinin ödənilməsini və öhdəliklərdən azad olunmasını tələb edə bilər. İcraçı lazımi vicdanlılıqla fəaliyyət göstərmişsə, bu qayda *işlərin aparılmasının* gözlənilən nəticə ilə qurtarmadığı halda da tətbiq olunur.

1090.2. *İşlərin aparmağa* qəbul olunması sahibkarın mənafeyinə və ehtimal olunan istəyinə uyğun gəlmirsə, icraçı sahibkardan xərclərin əvəzinin ödənilməsini və öhdəliklərdən azad olunmasını yalnız *işlərin aparılması* prosesində sahibkarın varlandığı halda tələb edə bilər.

1090.3. İşlərin tapşırıqsız aparılmasında sahibkarın mənafeyi və ehtimal olunan istəyi o halda nəzərə alınmır ki, belə işlərin aparılması sahibkarın ictimai vəzifələrinin və ya digər tələblərinin yerinə yetirilməsi ilə bağlı olsun. (12)

58-ci fəsil. Əsassız varlanma

Maddə 1091. Əsassız varlanma anlayışı

1091.1. Əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) *hesabına əmlak əldə etsin*.

1091.2. Əsassız varlanma yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir. (12)

Maddə 1092. Əsassız varlanma nəticəsində əldə edilənləri qaytarmaq vəzifəsi

1092.1. Varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır. Qaytarma vəzifəsi aşağıdakılara da şamil edilir:

1092.1.1. *bu Məcəllənin 157.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla,* əldə edilənlərdən götürülən faydaya;

1092.1.2. əldə edən şəxsin əldə etdiklərinə əsasən və ya onlar üçün kompensasiya kimi əldə etdiyinə və ya qəsdən əldə etmədiyinə.

1092.2. Əldə edilənləri vermək mümkün olmadıqda, onların dəyəri ödənilir.

1092.3. Varlanmış şəxs qaytarmanın tələb olunduğu anda daha özünün varlı olmadığını sübut edərsə, bu Məcəllənin 1092.1 və 1092.2-ci maddələrinə uyğun iddiaların irəli sürülməsi istisna edilir. *Varlanmadan əvvəl və ya bilavasitə varlanma zamanı bunun üçün hüquqi əsasın olmadığını bilən varlanmış şəxsə bu qayda şamil edilmir.* (12)

Maddə 1093. Qaytarma tələbi

1093.1. Öhdəliyin icrası üçün deyil, varlanmış şəxsin hər hansı hərəkəti yerinə yetirməsi və ya yerinə yetirməməsi üçün varlanmış şəxsə nə isə verən məhrum olan, varlanmış şəxsin əməli gözlənilən məqsədə uyğun olmadıqda verdiyini geri tələb edə bilər.

1093.2. Aşağıdakı hallarda qaytarma tələbi istisna edilir:

1093.2.1. əgər məqsədə çatılması əvvəlcədən qeyri-mümkün idisə və verən bunu bilirdisə;

1093.2.2. əgər verən məqsədə çatmağa vicdansızcasına mane olmuşsa.

Maddə 1094. Varlanmış şəxsin xərclərinin kompensasiyası

Əsassız varlanmış şəxsin heç bir hüquqi əsas olmadan əldə etdiyi əşyaya çəkilən xərclərin qaytarılması bu Məcəllənin 157.6-cı və 157.7-ci maddələri ilə müəyyən edilmiş qaydada həyata keçirilir. (12)

Maddə 1095. Əsassız varlanma obyektini qaytarmaq üçün müddətin keçməsi

Əsassız varlanma obyektini qaytarmaq hüququ məhrum olana öz hüququnun məlum olduğu vaxtdan ən geci iki il sonra müddətin keçməsinə görə qüvvədən düşür. Qalan hallarda müddətin keçməsi ümumi göstərişlərə uyğun müəyyənləşdirilir.

Doqquzuncu bölmə. Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər

59-cu fəsil. Mülki hüquq pozuntuları (deliktlər)

Maddə 1096. Mülki hüquq pozuntuları (deliktlər) anlayışı

1096.1. Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir).

1096.2. Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır.

~~1096.3. Qanunla müəyyənləşdirilmiş hallarda obyektiv surətdə hüquqa zidd əməllər üçün məsuliyyət baş verə bilər.~~ (12)

Maddə 1097. Mülki hüquq pozuntuları üçün məsuliyyətin əsasları

1097.1. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin öhdəsinə qoyula bilər.

~~1097.2. Mülki hüquq pozuntusunu (delikti) törətmiş şəxs zərərin onun təqsiri üzündən vurulmadığını sübuta yetirərsə, zərərin əvəzini ödəməkdən azad edilir.~~

1097.3. Qanunla zərərvuranın təqsiri olmadıqda da (obyektiv surətdə hüquqa zidd əməl üçün) zərərin əvəzinin ödənilməsi nəzərdə tutula bilər.

~~1097.4. Hüquqa uyğun hərəkətlərlə vurulmuş zərərin əvəzi qanunda nəzərdə tutulan hallarda ödənilməlidir.~~

1097.5. Əgər zərər zərərçəkənin xahişi və ya razılığı ilə vurulmuşsa, onun əvəzini ödəməkdən imtina edilə bilər. (12)

Maddə 1098. Zərər vurulmasının qarşısının alınması

1098.1. Gələcəkdə zərər vurulması təhlükəsi bu cür təhlükəni yaradan fəaliyyətin qadağan edilməsi barədə iddiaya əsas verə bilər.

1098.2. Əgər vurulmuş zərər onu vurmaqda davam edən və ya yeni zərər vurulması təhlükəsi törədən binanın, qurğunun istismarının və ya digər istehsal fəaliyyətinin nəticəsidirsə, məhkəmə cavabdehin üzərinə zərərin əvəzini ödəməkdən əlavə, müvafiq fəaliyyəti dayandırmaq və ona xitam vermək vəzifəsini də qoya bilər.

1098.3. Məhkəmə müvafiq fəaliyyətin dayandırılması və ya ona xitam verilməsi barədə iddiadan yalnız o halda imtina edə bilər ki, həmin fəaliyyətin dayandırılması və ya ona xitam verilməsi dövlət mənafelərinə zidd olsun. Bu cür fəaliyyəti dayandırmaqdan və ya ona xitam verməkdən imtina edilməsi zərərçəkənləri həmin fəaliyyətlə vurulmuş zərərin əvəzinin ödənilməsi hüququndan məhrum etmir.

Maddə 1099. Hüquqi və ya fiziki şəxsin öz işçisi tərəfindən törədilmiş mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyəti

1099.1. Hüquqi və ya fiziki şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir.

1099.2. Bu Məcəllənin bu fəslində nəzərdə tutulan qaydalara tətbiqən, işçi əmək müqaviləsi əsasında iş görən fiziki şəxsdir, habelə mülki hüquq müqaviləsi üzrə iş görən fiziki şəxsdir, bir şərtlə ki, bu zaman o, müvafiq hüquqi və ya fiziki şəxsin tapşırığı ilə və işlərin təhlükəsiz aparılmasına onun nəzarəti altında fəaliyyət göstərsin və ya fəaliyyət göstərməli olsun.

Maddə 1100. Dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və onların vəzifəli şəxslərinin vurduqları zərər üçün məsuliyyət

Dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və ya bu orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində, o cümlədən dövlət orqanının və ya yerli özünüidarə orqanının qanuna və ya digər hüquqi akta uyğun gəlməyən aktının qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə vurulmuş zərərin əvəzini Azərbaycan Respublikası və ya müvafiq bələdiyyə ödəməlidir.

Maddə 1101. Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri ilə vurulmuş zərər üçün məsuliyyət

1101.1. Qanunsuz məhkum etmə, cinayət məsuliyyətinə qanunsuz cəlb etmə, qəti imkan tədbiri kimi həbsəalmanın və ya başqa yerə getməmək haqqında iltizamın qanunsuz tətbiqi, inzibati tənbehin qanunsuz verilməsi nəticəsində fiziki şəxsə vurulmuş zərərin əvəzini təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq, Azərbaycan Respublikası qanunla müəyyənləşdirilmiş qaydada tam həcmdə ödəyir.

1101.2. Təhqiqat, ibtidai istintaq, prokurorluq orqanlarının qanunsuz fəaliyyəti nəticəsində fiziki və ya hüquqi şəxsə vurulmuş zərər bu Məcəllənin 1101.1-ci maddəsində nəzərdə tutulan nəticələrə səbəb olmadıqda onun əvəzi qanunla müəyyənləşdirilmiş əsaslarla və qaydada ödənilir.

1101.3. Ədalət məhkəməsinin həyata keçirilməsi zamanı vurulmuş zərərin əvəzi o halda ödənilir ki, hakimin təqsiri məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyənləşdirilsin.

~~***Maddə 1102. Öz məsuliyyətini sığorta etdirmiş şəxs tərəfindən zərərin əvəzinin ödənilməsi***~~

~~Öz məsuliyyətini könüllü və ya icbari sığorta qaydasında zərərçəkənin xeyrinə sığorta etdirmiş fiziki və ya hüquqi şəxs sığorta ödənişinin vurulmuş zərərin əvəzini tam ödəməyə kifayət etmədiyi halda sığorta ödənişi ilə zərərin faktik miqdarı arasındakı fərqi ödəyir.~~ (12)

Maddə 1103. On dörd yaşınadək olan yetkinlik yaşına çatmayanın törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət

1103.1. On dörd yaşınadək olan yetkinlik yaşına çatmayanın (azyaşlının) törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərər üçün onun valideynləri (övladlığa götürənlər) və ya qəyyumu, zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, məsuliyyət daşıyırlar.

1103.2. Əgər qəyyumluğa möhtac azyaşlı müvafiq tərbiyə, müalicə müəssisəsində və ya qanuna görə onun qəyyumu olan digər oxşar müəssisədə olmuşdursa, həmin müəssisə azyaşlının vurduğu zərərin əvəzini, əgər zərərin müəssisənin təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, ödəməyə borcludur.

1103.3. Əgər azyaşlı təhsil, tərbiyə, müalicə müəssisəsinin və ya ona nəzarət etməyə borclu olan digər müəssisənin və ya müqavilə əsasında nəzarət edən şəxsin nəzarəti altında olduğu dövrdə zərər vurmuşdursa, həmin müəssisə və ya şəxs, zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, zərər üçün məsuliyyət daşıyır.

1103.4. Valideynlərin (övladlığa götürənlərin), qəyyumların, təhsil, tərbiyə, müalicə müəssisələrinin və digər müəssisələrin azyaşlının vurduğu zərərin əvəzini ödəmək vəzifəsinə azyaşlı yetkinlik yaşına çatdıqda və ya zərərin əvəzini ödəmək üçün yetərli əmlak əldə etdikdə xitam verilmir.

1103.5. Əgər valideynlər (övladlığa götürənlər), qəyyumlar və ya bu Məcəllənin 1103.3-cü maddəsində göstərilmiş digər fiziki şəxslər ölmüşlərsə və ya zərərçəkənin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzini ödəmək üçün yetərli vəsaitə malik deyildirlərsə, tam fəaliyyət qabiliyyətli olmuş zərərvuranın isə bu cür vəsaiti vardırsa, məhkəmə zərərçəkənin və zərərvuranın əmlak vəziyyətini, habelə digər halları nəzərə almaqla, zərərin əvəzinin tamamilə və ya qismən zərərvuranın özünün hesabına ödənilməsi barədə qərar qəbul edə bilər.

Maddə 1104. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət

1104.1. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar zərər vurulmasına gətirib çıxarmış mülki hüquq pozuntusu üçün ümumi əsaslarla müstəqil surətdə məsuliyyət daşıyırlar.

1104.2. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı olmadıqda zərərin hamısını və ya çatışmayan hissəsini onun valideynləri (övladlığa götürənlər) və ya himayəçisi zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, ödəməlidirlər.

1104.3. Əgər on dörd yaşından on səkkiz yaşınadək olan və himayəçiliyə ehtiyac duyan yetkinlik yaşına çatmayan müvafiq tərbiyə, müalicə müəssisəsində və ya qanuna görə onun himayəçisi olan digər oxşar müəssisədə olmuşdursa, həmin müəssisə, zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, zərərin hamısını və ya çatışmayan hissəsini ödəməyə borcludur.

1104.4. Valideynlərin (övladlığa götürənlərin), himayəçinin və müvafiq müəssisənin on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın vurduğu zərərin əvəzini ödəmək vəzifəsinə zərərvuran yetkinlik yaşına çatdıqda və ya yetkinlik yaşına çatdıqdan sonra zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı yarandıqda və ya yetkinlik yaşına çatanadək fəaliyyət qabiliyyəti əldə etdikdə xitam *verilmir*. (12)

Maddə 1105. Fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət

1105.1. Fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərərin əvəzini onun qəyyumu və ya ona nəzarət etməli olan təşkilat, zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, ödəyirlər.

1105.2. Qəyyumun və ya nəzarət etməli təşkilatın fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxs tərəfindən vurulmuş zərərin əvəzini ödəmək vəzifəsinə həmin şəxsin sonradan fəaliyyət qabiliyyətli sayıldığı halda xitam verilmir.

1105.3. Əgər qəyyum ölmüşdürsə və ya zərərçəkənin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzini ödəmək üçün yetərli vəsaitə malik deyildirsə, zərərvuranın isə belə vəsaiti vardırsa, məhkəmə zərərçəkənin və zərərvuranın əmlak vəziyyətini, habelə

digər halları nəzərə almaqla, zərərin hamısının və ya bir hissəsinin zərərvuranın özünün hesabına ödənilməsi barədə qərar qəbul edə bilər.

Maddə 1106. Məhdud fəaliyyət qabiliyyətli sayılmış fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət

Məhdud fəaliyyət qabiliyyətli sayılmış fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərərin əvəzini zərərvuran özü ödəyir.

Maddə 1107. Öz hərəkətlərinin mənasını başa düşə bilməyən fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət

1107.1. Fəaliyyət qabiliyyətli fiziki şəxs və ya on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayan öz hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə mülki hüquq pozuntusu törətdikdə vurduğu zərər üçün məsuliyyət daşımır. Əgər zərərçəkənin həyatına və ya sağlamlığına zərər vurulmuşdursa, məhkəmə zərərçəkənin və zərərvuranın əmlak vəziyyətini, habelə digər halları nəzərə almaqla, zərərin əvəzini tamamilə və ya qismən ödəmək vəzifəsini zərərvuranın üzərinə qoya bilər.

1107.2. Mülki hüquq pozuntusu törətmiş şəxs spirtli içkilərdən, narkotik vasitələrdən *və ya psixotrop maddələrdən* istifadə etməklə və ya başqa üsulla özünü hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətə özü gətirdikdə məsuliyyətdən azad edilmir. (22)

1107.3. Əgər psixi pozuntu nəticəsində öz hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilməyən şəxs mülki hüquq pozuntusu törətmişdirsə, məhkəmə zərərin əvəzini ödəmək vəzifəsini həmin şəxslə birlikdə yaşayan, zərərvuranın psixi pozuntusundan xəbərdar olmuş, lakin onun fəaliyyət qabiliyyəti olmayan sayılması məsələsini qaldırmamış arvadının (ərinin), valideynlərinin, yetkinlik yaşına çatmış uşaqlarının öhdəsinə qoya bilər.

Maddə 1108. Ətrafdakılar üçün yüksək təhlükə yaradan fəaliyyətlə törədilmiş zərərə görə məsuliyyət

1108.1. Ətrafdakılar üçün yüksək təhlükə ilə bağlı fəaliyyəti (nəqliyyat vasitələrindən, mexanizmlərdən, yüksək gərginlikli elektrik enerjisindən, atom enerjisindən, partlayıcı maddələrdən, güclü təsir edən zəhərlərdən və i.a. istifadə edilməsi; tikinti fəaliyyətinin və onunla bağlı digər fəaliyyətin həyata keçirilməsi və s.) nəticəsində mülki hüquq pozuntusu törətmiş fiziki və hüquqi şəxslər yüksək təhlükə mənbəyinin vurduğu zərərin əvəzini ödəməyə borcludurlar, bu şərtlə ki, zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin qəsdi nəticəsində əmələ gəldiyini sübuta yetirməsinlər. ~~Məhkəmə yüksək təhlükə mənbəyinin sahibini bu Məcəllənin 1116.2 və 1116.3-cü maddələrində nəzərdə tutulan əsaslar üzrə də məsuliyyətdən tamamilə və ya qismən azad edə bilər~~. Zərərin əvəzini ödəmək vəzifəsi yüksək təhlükə mənbəyinə mülkiyyət hüququ ilə və ya digər qanuni əsasla (icarə hüququ ilə, nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə üzrə və i.a.) sahiblik edən fiziki və ya hüquqi şəxsin öhdəsinə qoyulur.

1108.2. Yüksək təhlükə mənbəyinin sahibi digər şəxslərin hüquqa zidd hərəkətləri nəticəsində mənbənin onun sahibliyindən çıxdığını sübuta yetirərsə, həmin mənbənin vurduğu zərər üçün məsuliyyət daşımır. Belə hallarda yüksək təhlükə mənbəyinin vurduğu zərər üçün məsuliyyəti mənbəyə hüquqa zidd yiyələnmiş şəxslər daşıyırlar.

Yüksək təhlükə mənbəyinin sahibi həmin mənbənin onun sahibliyindən hüquqa zidd götürülməsində təqsirli olduqda məsuliyyət həm mənbə sahibinin, həm də yüksək təhlükə mənbəyinə hüquqa zidd yiyələnmiş şəxsin üzərinə qoyula bilər.

1108.3. Yüksək təhlükə mənbələrinin sahibləri bu mənbələrin qarşılıqlı təsiri (nəqliyyat vasitələrinin toqquşması və i.a.) nəticəsində üçüncü şəxslərə dəymiş zərər üçün bu Məcəllənin 1108.1-ci maddəsində nəzərdə tutulan əsaslar üzrə birgə məsuliyyət daşıyırlar. Yüksək təhlükə mənbələrinin qarşılıqlı təsiri nəticəsində onların sahiblərinə dəymiş zərərin əvəzi ümumi əsaslarla ödənilir. (12)

~~***Maddə 1109. Yanğının söndürülməsi zamanı əmələ gəlmiş zərərin əvəzinin ödənilməsi***~~

~~Yanğının söndürülməsi, qonşu mənzillərə və binalara yayılmasının qarşısının alınması zamanı başqa şəxslərə dəymiş zərərin əvəzini yanğının törənməsində təqsiri olan şəxs ödəyir.~~ (12)

Maddə 1110. Heyvanın vurduğu zərərin əvəzinin ödənilməsi

Heyvanın sahibi öz heyvanının başqalarına vurduğu zərərin əvəzini ödəməyə borcludur. Bu zaman heyvanın nəzarət altında olduğunun, itdiyinin və ya qaçdığının əhəmiyyəti yoxdur. Əgər heyvanın sahibi üçüncü şəxslərin müdafiəsi üçün zəruri tədbirlər görmüşsə, zərərin əvəzinin ödənilməsi öhdəliyi tətbiq edilmir.

Maddə 1111. Binanın uçması nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi

1111.1. Binanın sahibi binanın tamamilə və ya ayrı-ayrı hissələrinin uçması nəticəsində əmələ gələn zərərin əvəzini ödəməyə borcludur, amma zərərin binanın lazımınca saxlanmamasından və ya qüsurundan irəli gəlmədiyi hallar istisna təşkil edir.

1111.2. Əgər zərər binadan nəyinsə atılması və ya düşməsi, yaxud axıdılması nəticəsində vurulmuşdursa, məsuliyyəti müvafiq otağı tutan şəxs daşıyır, amma zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin təqsiri üzündən baş verdiyi hallar istisna təşkil edir.

Maddə 1112. Tibb müəssisəsinin vurduğu zərərin əvəzinin ödənilməsi

Tibb müəssisəsində müalicə zamanı (cərrahiyyə əməliyyatı, yanlış diaqnoz və s. nəticəsində) şəxsin sağlamlığına vurulmuş zərərin əvəzi ümumi əsaslarla ödənilir. Zərərvuran zərərin onun təqsiri üzündən baş vermədiyini sübuta yetirərsə, məsuliyyətdən azad edilir.

Maddə 1113. Birlikdə törədilmiş mülki hüquq pozuntusu üçün məsuliyyət

1113.1. Birlikdə mülki hüquq pozuntusu törətmiş şəxslər vurulmuş zərər üçün zərərçəkən qarşısında birgə məsuliyyət daşıyırlar.

1113.2. Zərərçəkənin ərizəsi ilə və onun mənafeləri üçün məhkəmə zərəri birlikdə vurmuş şəxslərin üzərinə məsuliyyəti hissələr şəklində qoya bilər. Həmin hissələr bu Məcəllənin 1114.2-ci maddəsində nəzərdə tutulan qaydalara əsasən müəyyənləşdirilir.

Maddə 1114. Zərər vurmuş şəxsə reqres hüququ

1114.1. Başqa şəxsin (qulluq, mənsəb və ya əmək vəzifələrinin icrası zamanı işçinin, nəqliyyat vasitəsini idarə edən şəxsin və i.a.) vurduğu zərərin əvəzini ödəmiş şəxsin həmin şəxsə, əgər qanunla ayrı miqdar müəyyənləşdirilməyibsə, ödənilmiş əvəz miqdarında geriyə tələb (reqres) hüququ vardır.

1114.2. Birlikdə vurulmuş zərərin əvəzini ödəmiş zərərvuran digər zərərvuranların hər birindən zərərçəkənə ödədiyi əvəzin həmin zərərvuranın təqsirinin dərəcəsinə uyğun məbləğdə hissəsini tələb edə bilər. Təqsirin dərəcəsini müəyyənləşdirmək mümkün olmadıqda hissələr bərabər sayılır.

1114.3. Təhqiqat, ibtidai istintaq, prokurorluq və ya məhkəmə orqanları vəzifəli şəxsinin vurduğu zərərin əvəzinin ödənildiyi halda, əgər onun təqsiri məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyənləşdirilmişdirsə, Azərbaycan Respublikasının həmin şəxsə reqres hüququ vardır.

1114.4. Bu Məcəllənin 1103-1105-ci maddələrində göstərilmiş əsaslar üzrə zərərin əvəzini ödəmiş şəxslərin zərərvurmuş şəxsə reqres hüququ yoxdur.

Maddə 1115. Zərərin əvəzinin ödənilməsi üsulları

Zərərin əvəzinin ödənilməsi tələbini təmin edərkən məhkəmə zərərin vurulması üçün məsuliyyət daşıyan şəxsin üzərinə işin hallarına uyğun olaraq zərərin əvəzini naturada ödəmək (eyni növlü və keyfiyyətli əmlak vermək, zədələnmiş əmlakı düzəltmək və i.a.) və ya vurulmuş zərərin əvəzini ödəmək öhdəliyi qoyur.

~~***Maddə 1116. Zərərçəkənin təqsirinin və zərərvuranın əmlak vəziyyətinin nəzərə alınması***~~

~~1116.1. Zərərçəkənin qəsdi nəticəsində əmələ gəlmiş zərərin əvəzi ödənilmir.~~

~~1116.2. Əgər zərərin əmələ gəlməsinə və ya artmasına zərərçəkənin özünün kobud ehtiyatsızlığı şərait yaratmışdırsa, zərərçəkənin və zərərvuranın təqsirinin dərəcəsindən asılı olaraq əvəz ödənilməsi miqdarı azaldılmalıdır. Zərərçəkənin kobud ehtiyatsızlığa yol verdiyi, zərərvuranın təqsirinin olmadığı və təqsirdən asılı olmayaraq məsuliyyətinin baş verdiyi hallarda, əgər qanunla ayrı qayda nəzərdə tutulmayıbsa, əvəz ödənilməsinin miqdarı azaldılmalı və ya zərərin əvəzini ödəməkdən imtina edilməlidir. Fiziki şəxsin həyatına və ya sağlamlığına zərər vurulduqda onun əvəzini ödəməkdən imtina edilməsinə yol verilmir. Əlavə xərclərin əvəzi ödənilərkən, ailə başçısının ölümü ilə əlaqədar zərərin əvəzi ödənilərkən, habelə dəfn xərclərinin əvəzi ödənilərkən zərərçəkənin təqsiri nəzərə alınmır.~~

~~1116.3. Zərərin qəsdən törədilmiş hərəkətlər nəticəsində vurulduğu hallar istisna olmaqla, məhkəmə fiziki şəxsin vurduğu zərərin əvəzinin ödənilməsi miqdarını onun əmlak vəziyyətini nəzərə almaqla azalda bilər.~~ (12)

60-cı fəsil. Fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi

Maddə 1117. Müqavilə öhdəliklərinin və ya digər vəzifələrin icrası zamanı fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi

Müqavilə öhdəliklərinin icrası zamanı, habelə hərbi qulluq, polisdə qulluq vəzifələrinin və digər müvafiq vəzifələrin icrası zamanı fiziki şəxsin həyatına və ya sağlamlığına

vurulmuş zərərin əvəzi, əgər qanunda və ya müqavilədə daha yüksək məsuliyyət ölçüsü nəzərdə tutulmayıbsa, bu Məcəllənin bu fəslində nəzərdə tutulmuş qaydalar üzrə ödənilir.

Maddə 1118. Sağlamlığı pozmaqla vurulmuş zərərin əvəzinin ödənilməsi həcmi və xarakteri

1118.1. Fiziki şəxsə xəsarət yetirilərkən və ya onun sağlamlığı başqa şəkildə pozularkən zərərçəkənin malik olduğu, yaxud yəqin ki, malik ola biləcəyi və itirdiyi qazancın (gəlirin), habelə sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclərin, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitələri əldə edilməsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzi ödənilir, bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun olmadığı müəyyənləşdirilsin.

1118.2. İtirilmiş qazanc (gəlir) müəyyənləşdirilərkən zərərçəkənə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə pozulması ilə əlaqədar təyin edilmiş əlilliyə görə pensiya, eləcə də həm sağlamlığına zərər vurulanadək, həm də zərər vurulduqdan sonra təyin edilmiş digər pensiyalar, müavinətlər və digər bu cür ödənişlər nəzərə alınmır və zərərin əvəzinin ödənilməsi miqdarının azaldılmasına səbəb olmur (zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir). Zərərçəkənin sağlamlığı pozulduqdan sonra əldə etdiyi qazanc (gəlir) da zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir.

1118.3. Bu Məcəllənin 1118-ci maddəsinə uyğun olaraq zərərçəkənə ödənilməli zərərin əvəzinin həcmi və miqdarı qanunla və ya müqavilə ilə artıla bilər.

Maddə 1119. Sağlamlığın pozulması nəticəsində itirilmiş qazancın (gəlirin) müəyyənləşdirilməsi

1119.1. Zərərçəkənin itirdiyi və əvəzi ödənilməli qazancın (gəlirin) miqdarı onun xəsarətdən və ya sağlamlığının başqa şəkildə pozulmasından və ya əmək qabiliyyətini itirməsindən əvvəlki orta aylıq qazancından (gəlirindən) faizlər şəklində müəyyənləşdirilir. Bu faizlər zərərçəkənin professional əmək qabiliyyətini itirməsi dərəcəsinə, professional əmək qabiliyyəti olmadıqda isə ümumi əmək qabiliyyətini itirməsi dərəcəsinə uyğun gəlməlidir.

1119.2. Zərərçəkənin itirdiyi qazancın (gəlirin) tərkibinə onun həm əsas iş yerində, həm də əvəzçilik üzrə əmək və mülki hüquq müqavilələri əsasında əməyinin ödənilməsinin gəlir vergisi tutulan bütün növləri daxil edilir. Birdəfəlik xarakterli ödənclər, o cümlədən istifadə edilməmiş məzuniyyətə görə kompensasiya və işdən azad edilərkən işdənçıxma müavinəti nəzərə alınmır. Müvəqqəti əmək iqtidarsızlığı və ya hamiləliyə və doğuşa görə məzuniyyət dövrü üçün ödənilmiş müavinət nəzərə alınır. Sahibkarlıq fəaliyyətindən götürülən gəlir, habelə müəllif qonoraı itirilmiş qazancın tərkibinə daxil edilir, bu zaman sahibkarlıq fəaliyyətindən götürülən gəlir *müvafiq icra hakimiyyəti orqanının* məlumatına əsasən daxil edilir. Qazancın (gəlirin) bütün növləri vergilər tutulanadək hesablanmış məbləğlərdə nəzərə alınır.

1119.3. Zərərçəkənin orta aylıq qazancı (gəliri) onun sağlamlığının pozulmasından əvvəlki on iki aylıq qazancının (gəlirinin) ümumi məbləğinin on ikiyə bölünməsi yolu ilə hesablanır. Zərər vurulanadək zərərçəkənin on iki aydan az işləmiş olduğu halda orta aylıq qazanc (gəlir) sağlamlığın pozulmasından əvvəlki faktik işlənilmiş aylar üçün qazancın (gəlirin) ümumi məbləğinin həmin ayların sayına bölünməsi yolu ilə hesablanır.

Zərərçəkənin tam işləmədiyi aylar onun arzusu ilə tam işlənilmiş əvvəlki aylarla əvəz edilir və ya əvəz etmək mümkün olmadıqda hesabdan çıxarılır.

1119.4. Zərərin vurulduğu an zərərçəkənin işləmədiyi halda öz arzusu ilə onun işdən azad edilənədək əldə etdiyi qazanc və ya həmin ərazidə onun ixtisasından olan işçiyə verilən muzdun adi miqdarı, lakin *altı manatdan* az olmamaqla nəzərə alınır.

1119.5. Əgər xəsarət yetirilənədək və ya sağlamlığı başqa şəkildə pozulanadək zərərçəkənin qazancında (gəlirində) onun əmlak vəziyyətini yaxşılaşdıran sabit dəyişikliklər baş vermişdirsə (tutduğu vəzifə üzrə əmək haqqı artırılmışdırsa, daha yüksək maaşlı işə keçirilmişdirsə, əyani təhsil aldığı təhsil müəssisəsini bitirdikdən sonra işə girmişdirsə və zərərçəkənin əməyinin ödənilməsində dəyişikliyin və ya dəyişiklik imkanının sabitliyinin sübuta yetirildiyi başqa hallarda), onun orta aylıq qazancı (gəliri) müəyyənləşdirilərkən yalnız müvafiq dəyişiklikdən sonra aldığı və ya almalı olduğu qazanc (gəlir) nəzərə alınır. (32, 33)

Maddə 1120. Yetkinlik yaşına çatmayan şəxsin sağlamlığı pozulduqda zərərin əvəzinin ödənilməsi

1120.1. On dörd yaşı tamam olmamış və qazancı (gəliri) olmayan yetkinlik yaşına çatmayana (azyaşlıya) xəsarət yetirildikdə və ya onun sağlamlığı başqa şəkildə pozulduqda zərərin vurulması üçün məsuliyyət daşıyan şəxs sağlamlığın pozulması ilə bağlı çəkilən xərclərin əvəzini ödəməlidir.

1120.2. Zərərçəkən azyaşlı on dörd yaşına çatdıqda, habelə qazancı (gəliri) olmayan on dörd yaşından on səkkiz yaşınadək yetkinlik yaşına çatmayana zərər vurulduqda zərərin vurulması üçün məsuliyyət daşıyan şəxs zərərçəkənə sağlamlığın pozulması ilə bağlı xərclərdən əlavə, əmək qabiliyyətinin itirilməsi və ya azalması ilə bağlı zərərin əvəzini də, lakin *altı manatdan* az olmamaqla ödəməyə borcludur.

1120.3. Əgər yetkinlik yaşına çatmayanın sağlamlığı pozularkən onun qazancı olmuşdursa, zərərin əvəzi bu qazancın miqdarı əsas götürülməklə, lakin *altı manatdan* az olmamaqla ödənilir.

1120.4. Əvvəllər sağlamlığına zərər vurulmuş yetkinlik yaşına çatmayanın əmək fəaliyyətinə başladıqdan sonra ixtiyarı var ki, əldə etdiyi qazanc əsas götürülməklə, lakin tutduğu vəzifə üzrə müəyyənləşdirilmiş muzdun və ya iş yeri üzrə eyni ixtisaslı işçinin qazancının miqdarından çox olmamaqla zərərin əvəzinin ödənilməsi miqdarının artırılmasını tələb etsin. (32)

Maddə 1121. Ailə başçısının ölümü nəticəsində zərər çəkmiş şəxslərə zərərin əvəzinin ödənilməsi

1121.1. Zərərçəkənin (ailə başçısının) öldüyü halda aşağıdakıların zərərin əvəzinin ödənilməsi hüququ vardır:

1121.1.1. ölənin himayəsində olmuş və ya onun öldüyü günədək ondan dolanacaq təminatı almaq hüququna malik olmuş əmək qabiliyyəti olmayan şəxslər;

1121.1.2. şəxsin ölümündən sonra doğulmuş uşağı;

1121.1.3. ölənin himayəsində olmuş və onun on dörd yaşına çatmamış, yaxud bu yaşa çatsa da, tibb orqanlarının rəyinə əsasən sağlamlıq vəziyyətinə görə başqasının qulluğuna möhtac olan uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan və işləməyən valideynlərdən biri, arvad (ər) və ya digər ailə üzvü—əmək qabiliyyətindən asılı olmayaraq;

1121.1.4. ölənin himayəsində olmuş və onun ölümündən sonra beş il ərzində əmək qabiliyyətini itirmiş şəxslər.

1121.2. İşləməyən və ölənin uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan və qulluq etdiyi dövrdə əmək qabiliyyətini itirən valideynlərdən biri, arvad (ər) və ya digər ailə üzvü zərərin əvəzinin ödənilməsi hüququnu həmin şəxslərə qulluq qurtardıqdan sonra da saxlayır.

1121.3. Zərərin əvəzi aşağıdakılara ödənilir:

1121.3.1. yetkinlik yaşına çatmayanlara—on səkkiz yaşına çatanadək;

1121.3.2. on səkkiz yaşından yuxarı tələbələrə—əyani təhsil forması üzrə təhsil müəssisələrində təhsili bitirənədək, lakin ən çoxu iyirmi üç yaşınadək;

1121.3.3. əlli beş yaşından yuxarı qadınlara və altmış beş yaşından yuxarı kişilərə—ömürlük;

1121.3.4. əlillərə—əlillik müddəti üçün;

1121.3.5. ölənin himayəsində olmuş uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan valideynlərdən birinə, arvada (ərə) və ya digər ailə üzvünə—qulluq etdikləri on dörd yaşına çatanadək.

Maddə 1122. Ailə başçısının öldüyü halda dəymiş zərərin əvəzinin ödənilməsi miqdarı

1122.1. Ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsinə hüququ çatan şəxslərə zərərin əvəzi ölənin bu Məcəllənin 1119-cu maddəsinin qaydalarına əsasən müəyyənləşdirilmiş qazancının (gəlirinin) o hissəsi miqdarında ödənilir ki, həmin hissəni onlar ölənin sağlığında öz dolanacaqları üçün alırdılar və ya almaq hüququna malik idilər. Həmin şəxslərə ödənilən zərərin əvəzi müəyyənləşdirilərkən ölənin gəlirinin tərkibinə qazanc (gəlir) ilə yanaşı onun sağlığında aldığı pensiya və digər bu cür ödənclər də daxil edilir.

1122.2. Zərərin əvəzinin ödənilməsi miqdarı müəyyənləşdirilərkən ailə başçısının ölümü ilə əlaqədar şəxslərə təyin edilmiş pensiyalar və həm ailə başçısı ölməzdən əvvəl, həm də öldükdən sonra təyin edilmiş digər növ pensiyalar, habelə həmin şəxslərin götürdükləri qazanc (gəlir) və aldıqları təqaüd onlara zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir.

1122.3. Ailə başçısının ölümü ilə əlaqədar zərərin əvəzinin ödənilməsinə hüququ çatan hər kəsə təyin edilmiş əvəz miqdarı, aşağıdakı hallar istisna olmaqla, sonralar yenidən hesablanmamalıdır:

1122.3.1. ailə başçısı öldükdən sonra uşaq doğulması;

1122.3.2. ölmüş ailə başçısının uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan şəxslərə əvəz ödənişi təyin edilməsi və ya əvəz ödənilməsinə xitam verilməsi.

1122.4. Əvəz miqdarı qanunla və ya müqavilə ilə artırıla bilər.

Maddə 1123. Zərərin əvəzinin ödənilməsi miqdarının sonradan dəyişdirilməsi

1123.1. Əmək qabiliyyətini qismən itirmiş zərərçəkənin sağlamlığının pozulması ilə əlaqədar əmək qabiliyyəti sonralar zərərin əvəzinin təyin edildiyi məqamdakına nisbətən azaldıqda o, zərərin əvəzinin ödənilməsi vəzifəsinin həvalə olunduğu şəxsdən əvəz miqdarının müvafiq surətdə artırılmasını istənilən vaxt tələb edə bilər.

1123.2. Əgər zərərçəkənin əmək qabiliyyəti zərərin əvəzinin təyin edildiyi məqamdakına nisbətən artarsa, zərərçəkənin sağlamlığına vurulmuş zərərin əvəzini ödəmək vəzifəsinin həvalə olunduğu şəxs əvəz miqdarının müvafiq surətdə azaldılmasını tələb edə bilər.

1123.3. Əgər zərərin əvəzini ödəmək vəzifəsinin həvalə olunduğu fiziki şəxsin əmlak vəziyyəti yaxşılaşmışsa, əvəz miqdarı isə bu Məcəllənin 1116.3-cü maddəsinə uyğun azaldılmışsa, zərərçəkən zərərin əvəzinin ödənilməsi miqdarının artırılmasını tələb edə bilər.

1123.4. Əgər zərər vurmuş fiziki şəxsin əmlak vəziyyəti əlilliklə*, sağlamlıq imkanlarının məhdudluğu ilə* və ya pensiya yaşına çatmaqla əlaqədar olaraq zərərin əvəzinin ödənilməsinin təyin edildiyi məqamdakı vəziyyətə nisbətən pisləşmişdirsə, onun tələbi ilə məhkəmə zərərin əvəzinin ödənilməsi miqdarını azalda bilər, amma zərərin qəsdən törədilmiş hərəkətlərlə vurulduğu hallar istisna təşkil edir. (30)

Maddə 1124. Dolanacaq xərclərinin yüksəlməsi və minimum əmək haqqının artması ilə əlaqədar zərərin əvəzinin ödənilməsi miqdarının artırılması

1124.1. Dolanacaq xərcləri artdıqda zərərçəkənin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi miqdarı qanunla müəyyənləşdirilmiş qaydada indeksləşdirilməlidir.

1124.2. Minimum əmək haqqının artırıldığı halda itirilmiş qazancın (gəlirin), zərərçəkənin sağlamlığının pozulması və ya ölümü ilə əlaqədar təyin edilmiş digər ödənişlərin əvəzinin ödənilməsi miqdarı minimum əmək haqqının artımına mütənasib surətdə artırılır.

Maddə 1125. Zərərin əvəzinin ödənilməsi üzrə ödənişlər

1125.1. Zərərçəkənin əmək qabiliyyətinin azalması və ya ölümü nəticəsində dəyən zərərin əvəzi aylıq ödənişlər yolu ilə ödənilir. Üzrlü səbəblər varsa, məhkəmə zərərin əvəzinin ödənilməsinə hüququ olan fiziki şəxsin tələbi ilə ona çatası ödənişləri zərərvuranın imkanlarını nəzərə almaqla bir dəfəliyə, lakin ən çoxu üç illiyə təyin edə bilər.

1125.2. Əlavə xərclərin ödənilməsi məbləğləri putyovkaların alınması, gediş haqqının, xüsusi nəqliyyat vasitələri haqqının ödənilməsi də daxil olmaqla, müvafiq xidmətlərin və əmlakın dəyərinin qabaqcadan ödənilməsi zərurəti olduqda tibb ekspertizasının rəyinə əsasən müəyyənləşdirilən müddətlər daxilində gələcək zaman üçün də təyin edilə bilər.

Maddə 1126. Hüquqi şəxsə xitam verildikdə zərərin əvəzinin ödənilməsi

1126.1. Həyata və ya sağlamlığa zərər vurulması üçün məsuliyyəti müəyyənləşdirilmiş qaydada təsdiq edilən hüquqi şəxsin yenidən təşkil edildiyi halda müvafiq ödənişləri icra etmək vəzifəsini onun hüquq varisi daşıyır. Zərərin əvəzinin ödənilməsi tələbləri də ona qarşı irəli sürülür.

1126.2. Həyata və ya sağlamlığa vurulmuş zərər üçün məsuliyyəti müəyyənləşdirilmiş qaydada təsdiq edilən hüquqi şəxsin ləğv olunduğu halda müvafiq ödənişlər zərərçəkənə verilmək üçün qanunvericiliklə müəyyənləşdirilmiş qaydalara uyğun kapitallaşdırılmalıdır. Qanunvericiliklə ödənişlərin kapitallaşdırıla bildiyi başqa hallar da müəyyənləşdirilə bilər.

Maddə 1127. Dəfn xərclərinin əvəzinin ödənilməsi

Zərərçəkənin ölümü nəticəsində dəyən zərər üçün məsuliyyət daşıyan şəxslər dəfn xərclərini çəkmiş şəxsə həmin xərclərin əvəzini ödəməlidirlər. Bu xərcləri çəkmiş fiziki şəxsin dəfn üçün aldığı müavinət zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir.

61-ci fəsil. Malın, işin və ya xidmətin qüsurları nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi

Maddə 1128. Malın, işin və ya xidmətin qüsurları nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi əsasları

1128.1. Malın, işin və ya xidmətin konstruksiya, resept və ya digər qüsurları (keyfiyyətsiz məhsul) nəticəsində, habelə mala (işə, xidmətə) dair yanlış və ya yarımçıq informasiya nəticəsində fiziki şəxsin həyatına, sağlamlığına və ya əmlakına~~, yaxud hüquqi şəxsin əmlakına~~ dəyən zərərin əvəzini malın satıcısı və ya istehsalçısı, işi görmüş və ya xidməti göstərmiş şəxs (icraçı), təqsirli olub-olmadığına və zərərçəkənin onlar ilə müqavilə münasibətlərində olub-olmadığına baxmayaraq, ödəməlidirlər. *Malın, işin və ya xidmətin qüsurları nəticəsində əmlaka zərər vurulan hallarda bu qayda yalnız o şərtlə tətbiq edilir ki, keyfiyyətsiz məhsul digər əmlaka zərər vurmuş və həmin digər əmlak öz təyinatına görə əsasən istehlak məqsədi üçün istifadə edilmiş olsun.*

~~1128.2. Bu Məcəllənin 1128-ci maddəsində nəzərdə tutulan qaydalar sahibkarlıq məqsədi ilə istifadə edilmək üçün deyil, yalnız istehlak məqsədi ilə malın əldə edildiyi (işin görüldüyü, xidmətin göstərildiyi) hallarda tətbiq edilir.~~

1128.3. Əgər məhsul bütün hallar nəzərə alınmaqla ondan gözlənilən etibarlığı təmin etmirsə, keyfiyyətsiz məhsul sayılır.

1128.4. Məhsul yalnız sonradan dövriyyəyə daha yaxşı məhsulun daxil edilməsi nəticəsində keyfiyyətsiz sayılmır.

1128.5. Bu Məcəlləyə görə istənilən daşınar əşya digər daşınar və ya daşınmaz əşyanın bir hissəsi olduqda da, habelə elektrik cərəyanı məhsul sayılır. Əkinçilik nəticəsində əldə edilmiş və hələ emal olunmamış kənd təsərrüfatı məhsulları, heyvandarlıq, arıçılıq və balıqçılıq məhsulları (natural kənd təsərrüfatı məhsulları) məhsullara aid edilmir. Ov yolu ilə əldə edilmiş məhsullar barəsində də eyni qayda tətbiq edilir.

1128.6. Bu Məcəlləyə görə son məhsulu, məhsulun əsas ünsürünü və ya hissəsini istehsal etmiş şəxs istehsalçı sayılır. Öz adından, əmtəə nişanı ilə və ya digər fərqləndirici nişanla istehsalçı kimi çıxış edənlərin hamısı istehsalçı sayılırlar.

~~1128.7. Bundan başqa, bu Məcəllədə nəzərdə tutulan şərtləri gözləməklə, öz fəaliyyəti sahəsində təsərrüfat məqsədləri üçün məhsulu satış, kirayəyə vermək, lizinq üçün və ya digər formada çıxaran şəxs istehsalçı sayılır.~~

1128.8. Əgər istehsalçını müəyyənləşdirmək mümkün deyildirsə, hər hansı məhsul göndərən (bu barədə tələb verildikdən sonra bir ay ərzində onun istehsalçı barəsində zərərçəkənə məlumat verdiyi hallar istisna olmaqla) və ya ona bu məhsulu göndərmiş şəxs istehsalçı sayılır. İstehsalçının adı məlum olsa da, məhsulu ilk satanın kim olduğunu müəyyənləşdirmək mümkün olmadıqda idxal malına da bu qayda tətbiq edilir. (12)

Maddə 1129. Malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərər üçün məsuliyyət daşıyan şəxslər

1129.1. Malın qüsurları nəticəsində vurulmuş zərərin əvəzini zərərçəkənin seçimi üzrə məhsulun satıcısı və ya istehsalçısı ödəməlidir.

1129.2. İşin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərərin əvəzini işi görmüş və ya xidməti göstərmiş şəxs (icraçı) ödəməlidir.

1129.3. Mal (iş, xidmət) haqqında tam və ya düzgün informasiya verilməməsi nəticəsində vurulmuş zərərin əvəzini bu Məcəllənin 1129.1 və 1129.2-ci maddələrində göstərilmiş şəxslər ödəməlidirlər.

1129.4. Keyfiyyətsiz məhsulun nəticəsində vurulmuş zərəri məhsulun satıcısı ödədiyi halda, bu Məcəllənin 1114.2-ci maddəsinin müddəaları tətbiq edilir. (12)

Maddə 1130. Malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi müddətləri

1130.1. Malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulan zərərin əvəzi, əgər zərər malın (işin, xidmətin) müəyyənləşdirilmiş yararlıq müddəti ərzində əmələ gəlmişdirsə, ödənilməli, yararlıq müddətinin müəyyənləşdirilmədiyi halda isə malın (işin, xidmətin) istehsal edildiyi gündən on il ərzində əmələ gəlmişdirsə, ödənilməlidir.

~~1130.2. Aşağıdakı hallarda zərərin əvəzi onun vurulduğu vaxtdan asılı olmayaraq ödənilməlidir:~~

~~1130.2.1. qanunun tələbləri pozularaq yararlıq müddəti müəyyənləşdirilmədikdə;~~

~~1130.2.2. malın satıldığı, işin görüldüyü və ya xidmətin göstərildiyi şəxsə yararlıq müddəti qurtardıqdan sonra zəruri olan hərəkətlər və bu hərəkətlərin yerinə yetirilmədiyi halda mümkün nəticələr barəsində xəbərdarlıq edilmədikdə.~~ (12)

Maddə 1131. Malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərər üçün məsuliyyətdən azad edilmə əsasları

Malın satıcısı və ya istehsalçısı, işin və ya xidmətin icraçısı zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya istehlakçının maldan, işin, xidmətin nəticələrindən istifadə və onları

saxlama qaydalarını pozması nəticəsində əmələ gəldiyini sübuta yetirərsə, məsuliyyətdən azad edilir.

Maddə 1132. Sübutetmə yükü

Malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərər üçün məsuliyyət halında sübutetmə yükü zərərçəkənin öhdəsinə qoyulur.

Onuncu bölmə. Vərəsəlik hüququ

62-ci fəsil. Vərəsəlik hüququnun ümumi müddəaları

Maddə 1133. Vərəsəlik anlayışı

1133.1. Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir.

1133.2. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

Maddə 1134. Vərəsələr

1134.1. Qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər.

1134.2. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq, ola bilərlər.

Maddə 1135. Hüquqi şəxslər vərəsələr kimi

Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsəliyə mirasın açıldığı vaxtadək təşkil edilmiş hüquqi şəxslər çağırılırlar.

Maddə 1136. Nikahdankənar uşaqlar atanın vərəsələri kimi

Nikahdankənar uşaq o halda atasının vərəsəsi sayılır ki, atalıq qanunda nəzərdə tutulmuş qaydada müəyyənləşdirilmiş olsun. Əgər həmin uşaq atasından əvvəl ölərsə, onun uşaqları atalarına çatası mirasdan pay tələb edə bilərlər.

Maddə 1137. Ləyaqətsiz vərəsə

Miras qoyanın son iradəsini həyata keçirməsinə qəsdən manea törətmiş və bununla da özünün və ya özünə yaxın şəxslərin vərəsəliyə çağırılmasına və ya miras paylarının artırılmasına kömək göstərmiş, yaxud vəsiyyət edənin vəsiyyətnamədə ifadə edilmiş son iradəsinə qarşı qəsdən cinayət və ya digər əxlaqsız hərəkət törətmiş şəxs (ləyaqətsiz vərəsə) nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə ola bilməz, bu şərtlə ki, həmin hallar məhkəmə tərəfindən təsdiq edilsin.

Maddə 1138. Vərəsə ola bilməyən valideynlər

Valideynlik hüquqlarından məhrum edilmiş və mirasın açıldığı günədək bu hüquqları bərpa edilməmiş valideynlər uşaqlarının qanun üzrə vərəsələri ola bilməzlər. Miras qoyanın saxlanması üzrə öhdələrinə qoyulmuş vəzifələrdən qəti surətdə boyun qaçıran şəxslər də qanun üzrə vərəsə ola bilməzlər, bir şərtlə ki, bu hal məhkəmə tərəfindən təsdiq edilsin.

Maddə 1139. Məhkəmə tərəfindən vərəsəlik hüququndan məhrum edilmə

Ləyaqətsiz vərəsənin vərəsəlik hüququndan məhrum edilməsinə əsas verən hal ləyaqətsiz vərəsənin vərəsəlik hüququndan məhrum edilməsindən müəyyən əmlak nəticələri əldə edən şəxsin iddiası üzrə məhkəmə tərəfindən müəyyənləşdirilməlidir.

Maddə 1140. Ləyaqətsiz vərəsənin bağışlanması

Əgər miras qoyan vərəsəlik hüququnun itirilməsinə səbəb olan hərəkətlər törətdiyinin üstü açılmış şəxsi bağışlayarsa və bu qərarını vəsiyyətnamədə aydın şəkildə ifadə edərsə, həmin şəxs bu hərəkətlərinə baxmayaraq vərəsəliyə buraxılır. Bağışlamanın geri götürülməsinə yol verilmir.

Maddə 1141. Başqa miras qoyanın əmlakını miras almaq hüququ

Vərəsəlik hüququndan məhrum edilmə vərəsəlik hüququndan məhrum edilmiş həmin şəxsin başqa miras qoyanın əmlakının vərəsəsi olmasına maneçilik törətmir.

Maddə 1142. Ləyaqətsiz vərəsə sayılmış şəxsin vəzifələri

Əgər şəxs mirası aldıqdan sonra məhkəmə tərəfindən ləyaqətsiz vərəsə sayılarsa, vərəsəlik üzrə aldıqlarının hamısını bəhərlər və gəlirlər ilə birlikdə qaytarmağa borcludur.

Maddə 1143. Ləyaqətsiz vərəsə sayılma barəsində iddianın irəli sürülməsi müddəti

Şəxsin ləyaqətsiz vərəsə sayılması barəsində iddianı maraqlı şəxslər həmin şəxsin mirasa sahibliyə başladığı andan beş il ərzində irəli sürməlidirlər.

Maddə 1144. Vərəsəlik hüququndan məhrum edilmiş şəxsin miras payı

Vərəsəlik hüququndan məhrum edilmiş şəxsin payı vərəsəliyə çağırılmış qalan vərəsələrə keçir və onların arasında *paylarına mütənasib surətdə* bölüşdürülür. (12)

Maddə 1145. Mirasın açılması

Miras fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır.

Maddə 1146. Mirasın açıldığı vaxt

Miras qoyanın öldüyü gün və ya fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı vaxt sayılır.

Maddə 1147. Mirasın açıldığı yer

1147.1. Miras qoyanın yaşayış yeri, bu məlum olmadıqda isə mirasın olduğu yer mirasın açıldığı yer sayılır.

1147.2. Əgər miras müxtəlif yerlərdədirsə, mirasın açıldığı yer daşınmaz əmlakın və ya onun qiymətli hissəsinin olduğu yer, daşınmaz əmlak olmadıqda isə daşınar əmlakın və ya onun əsas hissəsinin olduğu yer sayılır.

Maddə 1148. Xaricdə yaşayan şəxslərin mirasının açıldığı yer

Müvəqqəti xaricdə yaşamış və orada ölmüş Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer onun xaricə getməzdən əvvəl Azərbaycan Respublikasında yaşadığı yer, bu yer məlum olmadıqda isə mirasın və ya onun əsas hissəsinin olduğu yer sayılır.

Maddə 1149. Xaricdə daimi yaşamış şəxslərin mirasının açıldığı yer

Xaricdə daimi yaşamış Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer onun yaşadığı ölkə sayılır.

Maddə 1150. Xaricdə mirasın açılması

Azərbaycan Respublikasında yaşamış Azərbaycan Respublikası vətəndaşı xarici dövlətdə mirası həmin dövlətin qanunvericiliyinə uyğun alır.

Maddə 1151. Miras əmlak

1151.1. Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

1151.2. Mirasa ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölünməsi mümkün olmadıqda isə bu əmlakın dəyəri daxildir.

Maddə 1152. Gələcək əmlakın vəsiyyət edilməsi

Miras qoyan vəsiyyətnamənin tərtib edildiyi vaxt onda olmayan əmlakı vəsiyyətnamədə o halda nəzərdə tuta bilər ki, mirasın açılacağı vaxtadək bu əmlak onun mülkiyyəti olsun.

Maddə 1153. Şəxsi xarakterli hüquq və vəzifələrin vərəsəlik üzrə verilməsinin yolverilməzliyi

Şəxsi xarakter daşıyan və yalnız miras qoyana mənsub ola bilən əmlak hüquqları və vəzifələr, habelə qanunda və ya müqavilədə nəzərdə tutulan, yalnız kreditorun və borclunun sağlığında qüvvədə olan və onların ölümü ilə xitam verilən hüquq və vəzifələr mirasın tərkibinə daxil deyildir.

Maddə 1154. Miras qoyanın qeyri-əmlak hüquqlarının müdafiəsi

Miras qoyanın mirasa daxil olmayan qeyri-əmlak hüquqlarını vərəsələr qanunda nəzərdə tutulan qaydada həyata keçirə və müdafiə edə bilərlər.

Maddə 1155. Mirasa daxil olmayan əmlak

1155.1. Ailə dəftər-kitabları (və ya yazıları), ailə xronikaları, xatirə və digər ayin predmetləri və qəbirlər mirasa daxil deyildir və vərəsələr arasında bölüşdürülmür. Bu predmetlər bərqərar olmuş adətə görə vərəsənin mülkiyyətinə verilir. Həmin predmetləri mirasdan imtina etmiş vərəsə də qəbul edə bilər.

1155.2. Miras qoyanın şəxsiyyətinə, ailəsinə və ya bütün mirasa aid sənədlər ümumi əmlak kimi qalır.

Maddə 1156. Vəsiyyətnamədə nəzərdə tutulan əmlakın artırılmasının nəticələri

Əgər vəsiyyət edən vəsiyyətnaməni tərtib etdikdən sonra vəsiyyətnamədə nəzərdə tutulan daşınmaz əmlakı həmin əmlakla əlaqədar əmlakı əldə etmək yolu ilə artırarsa, vəsiyyətnamə tərtib edildikdən sonra əldə edilmiş əmlaka dair yeni sərəncam verilmədikdə bu əmlak mirasa daxil olmur.

Maddə 1157. Miras şərikləri

Əgər bir neçə vərəsə vardırsa, miras vərəsələr arasında bölüşdürülənədək vahid əmlak şəklində bütün vərəsələrə mənsubdur. Bu əmlakdan sonuncu xəstəliyi zamanı miras qoyana qulluq və onun müalicəsi, dəfn, mirasın mühafizəsi və idarə edilməsi, əmək haqqı verilməsi və vəsiyyətin icrası üçün lazımi xərclər ödənilə bilər. Bu tələblər mirasın dəyərindən, həm də bütün başqa tələblərə, o cümlədən ipoteka və digər girovla təmin edilmiş tələblərə nisbətən üstün qaydada ödənilməlidir.

Maddə 1157-1. Miras şərikləri tərəfindən mirasın idarə edilməsi

1157-1.1. Miras şərikləri mirasın bölüşdürülməsinə qədər onu birgə idarə edirlər. İdarəçiliklə bağlı qərarlar vərəsələr tərəfindən onların miras paylarına mütənasib surətdə sadə səs çoxluğu ilə qəbul edilir.

1157-1.2. Mirasın mühafizəsi (qorunması) ilə bağlı tədbirləri hər bir vərəsə digər miras şəriklərinin razılığı olmadan da həyata keçirə bilər.

1157-1.3. Mirasın idarə edilməsi ilə bağlı xərcləri vərəsələr özlərinin miras paylarına mütənasib surətdə çəkirlər. (12)

Maddə 1158. Mirasdan əşyanın tələb edilməsi hüququ

1158.1. Əgər vəsiyyət edən vərəsə üçün əşyanı yanlış qoymuşdursa, həmin əşyanın mülkiyyətçisi əşyanı ümumi qaydada tələb edə bilər.

1158.2. Əgər ölənin əmlakında başqa şəxsin əmlakı gizli şəkildə mövcuddursa, əmlakın bu hissəsi aşkar edilməli və müvafiq şəxsə verilməlidir.

63-cü fəsil. Qanun üzrə vərəsəlik

Maddə 1159. Qanun üzrə vərəsələr

1159.1. Qanun üzrə vərəsəlik zamanı aşağıdakılar bərabər pay hüquqlu vərəsələr sayılırlar:

1159.1.1. Birinci növbədə—ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər).

1159.1.2. Övladlığa götürülən və onun övladları övladlığa götürənin vərəsələri və ya qohumları kimi övladlığa götürənin uşaqlarına və onların övladlarına bərabər tutulurlar.

1159.1.3. Bu sonuncuların nəvələri, nəticələri və uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsələri olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası paydan bərabər miras alırlar.

1159.1.4. Sonuncuların nəvələri, nəticələri və uşaqları, əgər onların valideynləri mirasın qəbulundan imtina etmişlərsə, vərəsə ola bilməzlər.

1159.1.5. Övladlığa götürən və onun qohumları övladlığa götürülənin və onun övladlarının vərəsələri kimi övladlığa götürülənin valideynlərinə və digər qan qohumlarına bərabər tutulurlar. Övladlığa götürülən və ya onun övladları öldükdən sonra övladlığa götürülənin valideynlərinə, onun yüksələn xətt üzrə digər qan qohumlarına, bacı və qardaşlarına qanun üzrə vərəsəlik hüququ daha mənsub olmur.

1159.2. İkinci növbədə—ölənin bacıları və qardaşları. Miras qoyanın bacısı uşaqları və qardaşı uşaqları və onların uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsəsi olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası miras payını bərabər olaraq miras alırlar.

1159.3. Üçüncü növbədə—həm ana tərəfdən, həm də ata tərəfdən nənə və baba, nənənin anası və atası, babanın anası və atası. Nənənin anası və atası, babanın anası və atası o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt nənə və baba sağ olmasın.

1159.4. Dördüncü növbədə—xalalar və bibilər, dayılar və əmilər.

1159.5. Beşinci növbədə—xala uşaqları və bibi uşaqları, dayı uşaqları və əmi uşaqları, onlar sağ olmadıqda isə onların uşaqları.

Maddə 1160. Qanun üzrə vərəsəlik zamanı növbəlik

Əvvəlki növbənin vərəsələrindən, heç olmasa, birinin mövcudluğu sonrakı növbənin vərəsəliyini istisna edir.

Maddə 1161. Vərəsəlik zamanı əmək qabiliyyəti olmayan şəxslərin hüquqları

Əgər miras qoyanın himayəsində olmuş və özlərini müstəqil saxlaya bilməyən əmək qabiliyyəti olmayan şəxslərin adları vəsiyyətnamədə çəkilməmişdirsə, onlar mirasdan dolanacaq təminatı (alimentlər) tələb edə bilərlər. Dolanacaq təminatı kimi ödənilməli məbləğin ölçüsü miras aktivinin həcmi nəzərə alınmaqla azaldıla bilər.

Maddə 1162. Sağ qalan arvadın (ərin) birgə mülkiyyətdə paya hüququ

Sağ qalan arvadın (ərin) vərəsəlik hüququ ər-arvadın birgə mülkiyyətindən ona çatası əmlak hissəsinə aid deyildir.

Maddə 1163. Boşanmış ər-arvadın vərəsəlik zamanı vəziyyəti

Nikahı ləğv etmiş ər-arvad bir-birindən sonra vərəsə ola bilməzlər.

Maddə 1164. Nikah münasibətlərinin faktik xitamı zamanı vərəsəlik hüququndan məhrum edilmə

Əgər arvadın (ərin) miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl faktik xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edilərsə, məhkəmənin qərarı ilə arvad (ər) qanun üzrə vərəsəlik hüququndan məhrum edilə bilər.

Maddə 1165. Vərəsələri olmayan əmlakın xəzinəyə keçməsi

1165.1. Əgər nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə yoxdursa və ya vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə, yaxud bütün vərəsələr vərəsəlik hüququndan məhrum edilmişdirsə, vərəsələri olmayan əmlak dövlətə keçir; əgər miras qoyan şəxs qocalar, əlillər *və sağlamlıq imkanları məhdud uşaqlar* üçün müəssisələrin, müalicə, tərbiyə və sosial təminat müəssisələrinin təminatında olmuşdursa, onların mülkiyyətinə keçir.

~~1165.2. Səhmlər və ya birgə əmlakdakı hissə, pay şəklində əmlakın vərəsələri olmadıqda, bu əmlak həmin hüquqi şəxslərə keçir.~~ (12, 30)

64-cü fəsil. Vəsiyyət üzrə vərəsəlik

Maddə 1166. Vəsiyyət anlayışı

Fiziki şəxs ölməsi halı üçün öz əmlakını və ya onun bir hissəsini həm vərəsələr sırasından, həm də kənar adamlar sırasından bir və ya bir neçə şəxsə qoya bilər.

Maddə 1167. Vəsiyyət edə bilən şəxs

Vəsiyyətnamənin tərtib edildiyi məqamda öz hərəkətləri barəsində şüurlu mühakimə yürüdə bilən və öz iradəsini aydın ifadə edə bilən yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli şəxs vəsiyyət edə bilər.

Maddə 1168. Vəsiyyətnamənin şəxsən vəsiyyət edən tərəfindən tərtibi

Vəsiyyətnaməni şəxsən vəsiyyət edən tərtib etməlidir. Vəsiyyətnamənin nümayəndə vasitəsi ilə tərtibinə yol verilmir.

Maddə 1169. Birgə vəsiyyətnamə

Vəsiyyətnamədə bir miras qoyanın sərəncamı olmalıdır. Vəsiyyətnamənin iki və ya daha çox şəxs tərəfindən birgə tərtibinə yol verilmir. Yalnız ərlə arvad qarşılıqlı vərəsəlik haqqında birgə vəsiyyətnamə tərtib edə bilərlər. Bu vəsiyyətnamə ərin və ya arvadın tələbi ilə, lakin onların hər ikisinin sağlığında ləğv edilə bilər.

Maddə 1170. Vəsiyyət edənin payları müəyyənləşdirməsi

1170.1. Vəsiyyət edən vəsiyyətnamə ilə təyin edilmiş vərəsələrin miras paylarını müəyyənləşdirə bilər və ya hansı vərəsəyə hansı əmlakın verildiyini konkret göstərə bilər. Əgər vəsiyyətnamədə bu cür göstəriş yoxdursa, miras vərəsələr arasında bərabər bölüşdürülür.

1170.2. Əgər vəsiyyətnamə ilə bir neçə vərəsə təyin edilmişdirsə, lakin vəsiyyətnamədə yalnız bir vərəsənin payı müəyyənləşdirilmişdirsə, digər vərəsələr qalan əmlakı bərabər alırlar.

Maddə 1171. Mirasın vəsiyyət üzrə vərəsələr arasında bölüşdürülməsi

Əgər vəsiyyətnamə ilə bir neçə vərəsə təyin edilmişdirsə və vərəsələrdən birinə təyin edilmiş pay mirasın hamısından ibarətdirsə, vəsiyyət üzrə bütün vərəsələr bərabər paylar almalıdırlar.

Maddə 1172. Vəsiyyətnamədən kənarda qalmış əmlaka vərəsəlik

Əgər vəsiyyətnamə ilə təyin edilmiş vərəsələrin payları bütövlükdə mirasın hamısını əhatə etmirsə, vəsiyyətnamədən kənarda qalmış əmlaka qanun üzrə vərəsəlik həyata keçirilir və əgər vəsiyyətnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, bu cür vərəsəlik əmlakın bir hissəsinin vəsiyyət edildiyi qanun üzrə vərəsələrə də aid olunur.

Maddə 1173. Vəsiyyət üzrə vərəsələr arasında payların mütənasib artırılması

Yalnız vəsiyyətnamə ilə təyin edilmiş vərəsələr olduqda, əgər vəsiyyət üzrə hər bir vərəsənin öz payı müəyyənləşdirilmişdirsə, lakin onların hamısının payları birlikdə götürüldükdə mirası tam əhatə etmirsə, onların payları mütənasib surətdə artırılır.

Maddə 1174. Miras payının müəyyənləşdirilməsində üçüncü şəxsin iştirakının yolverilməzliyi

Vəsiyyət edən mirasdan kimin və hansı miqdarda pay almalı olduğunu müəyyənləşdirməyi başqa şəxsə tapşıra bilməz.

Maddə 1175. Vərəsələri dəqiq müəyyənləşdirməyin mümkün olmaması

Əgər vəsiyyət edən vərəsənin şəxsiyyətini bir neçə şəxsə uyğun gələ bilən əlamətlərlə müəyyənləşdirmişdirsə və onlardan hansını nəzərdə tutduğunu təyin etmək mümkün deyildirsə, onların hamısı bərabər pay hüququ ilə vərəsə sayılırlar.

Maddə 1176. Vəsiyyət üzrə vərəsəlik hüququndan məhrumetmə

1176.1. Vəsiyyət edən qanun üzrə vərəsələrdən birini, bir neçəsini və ya hamısını vəsiyyətnamə ilə mirasdan məhrum edə bilər və bunu əsaslandırmağa borclu deyildir.

1176.2. Vəsiyyətnamədə birbaşa göstərişlə mirasdan məhrum edilmiş şəxs vəsiyyətnaməyə daxil olmamış əmlak hissəsinə, vəsiyyət üzrə vərəsələrin mirası qəbul etməkdən imtina etdikləri halda da, qanun üzrə vərəsə ola bilməz.

Maddə 1177. Vərəsəlik hüququnun saxlanması

Vəsiyyətnamədə göstərilməmiş qanun üzrə vərəsələr vəsiyyətnamədə toxunulmamış miras hissəsinə vərəsəlik hüququnu saxlayırlar; əgər mirasın açıldığı məqamda vəsiyyət

üzrə vərəsələrdən heç biri sağ deyildirsə və ya onların hamısı mirası qəbul etməkdən imtina etmişlərsə, onlar vəsiyyətnamədə nəzərdə tutulan əmlakı da alırlar.

Maddə 1178. Qanun üzrə vərəsəliyin yolverilməzliyi

Əgər vəsiyyətnamədə bütün miras əmlak vəsiyyət üzrə vərəsələr arasında bölüşdürülmüşdürsə, lakin mirasın açıldığı vaxt vərəsələrdən biri sağ deyildirsə, qanun üzrə vərəsəlik əmələ gəlmir və onun əmlak payını vəsiyyət üzrə digər vərəsələr *paylarına mütənasib surətdə* alırlar. (12)

65-ci fəsil. Vəsiyyətnamənin forması

Maddə 1179. Notariat forması

1179.1. Vəsiyyətnamə yazılı formada tərtib edilməlidir. Həm də notariat formasında və ya bunsuz yazılı vəsiyyətnaməyə yol verilir.

1179.2. Notariat forması tələb edir ki, vəsiyyətnaməni vəsiyyət edən tərtib etsin və imzalasın, notarius, notariusun olmadığı yerlərdə isə yerli özünüidarə orqanı təsdiqləsin.

Maddə 1180. Vəsiyyətnamənin notarius tərəfindən yazılması

1180.1. Vəsiyyətnaməni vəsiyyət edənin sözlərindən notariusun iki şahidin yanında yazmasına yol verilir. Vəsiyyətnamənin yazılması zamanı hamılıqla qəbul olunmuş texniki vasitələr tətbiq edilə bilər.

1180.2. Vəsiyyət edənin sözlərindən notariusun yazdığı vəsiyyətnaməni vəsiyyət edən oxumalı və notariusun, şahidlərin yanında imzalamalıdır.

Maddə 1181. Notariusa bərabər tutulan şəxslər

Vəsiyyətnamə təsdiqlənərkən aşağıdakılar notariusa bərabər tutulurlar:

1181.1. Xəstəxananın, hospitalın, digər müalicə müəssisəsinin, sanatoriyanın baş həkimi, rəisi, onların tibbi hissə üzrə müavinləri və növbətçi həkimi və ya əlillər*, sağlamlıq imkanları məhdud uşaqlar, qocalar* evinin baş həkimi*, xüsusi təhsil müəssisəsinin rəhbəri*—əgər vəsiyyət edən bu müəssisədə müalicə edilirsə və ya yaşayırsa;

1181.2. Axtarış, coğrafi və digər bu cür ekspedisiyaların rəisi—əgər vəsiyyət edən belə ekspedisiyadadırsa;

1181.3. Dəniz və ya hava gəmisinin kapitanı—əgər vəsiyyət edən dəniz və ya hava gəmisindədirsə;

1181.4. Hərbi hissənin, birləşmənin, müəssisənin və məktəbin komandiri (rəisi)—əgər hərbi hissənin yerləşdiyi məntəqədə notarius yoxdursa və əgər vəsiyyət edən hərbi hissədə hərbi qulluqçudursa və ya həmin hissədə qulluq edən mülki şəxs, yaxud onun ailə üzvüdürsə;

1181.5. Azadlıqdan məhrumetmə yerinin rəisi—əgər vəsiyyət edən azadlıqdan məhrumetmə yerindədirsə. (30)

Maddə 1182. Vəsiyyətnamənin başqa şəxs tərəfindən imzalanması

Əgər vəsiyyət edən hər hansı səbəbdən vəsiyyətnaməni özü imzalaya bilmirsə, onun xahişi ilə başqa fiziki şəxs imzalaya bilər. Bu zaman vəsiyyət edənin hansı səbəbdən vəsiyyətnaməni imzalaya bilmədiyi göstərilməlidir.

Maddə 1183. Lal-kar və kor şəxsin vəsiyyətnaməsi

1183.1. Əgər vəsiyyət edən lal-kardırsa və ya lal-kar və savadsızdırsa, vəsiyyət sərəncamını o, notariusda iki şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyə bilən bir nəfər şəxsin yanında tərtib etməlidir.

1183.2. Kor və ya savadsız olan vəsiyyət edən vəsiyyət sərəncamını notariusda üç şahidin yanında tərtib etməlidir. Bu barədə müvafiq qeyd yazılıb ona oxunmalıdır.

1183.3. Əgər vəsiyyət edən lal-kar-kordursa və ya lal-kar-kor və savadsızdırsa, vəsiyyət sərəncamını notariusda dörd şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyə bilən bir nəfər şəxsin yanında tərtib etməlidir.

1183.4. Vəsiyyətnaməni şahidlər yaza və oxuya bilərlər, lakin vəsiyyətnaməni onu yazan oxumamalıdır.

1183.5. Qeyddə onu kimin yazdığı və vəsiyyət edənə oxuduğu göstərilməlidir. Qeyd şahidlər tərəfindən imzalanmalı və notarius tərəfindən təsdiqlənməlidir.

Maddə 1184. Vəsiyyətin şahidləri

Yetkinlik yaşına çatmayanlar, fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxslər, vəsiyyət üzrə vərəsələr və onların yüksələn və enən xətt üzrə qohumları, bacıları, qardaşları, arvadı (əri) və vəsiyyət tapşırığını alan (leqatari) vəsiyyətin şahidləri ola bilməzlər.

Maddə 1185. Vəsiyyətnamə sirri

Notarius, vəsiyyətnaməni təsdiqləmiş digər şəxs, şahid, habelə vəsiyyətnaməni vəsiyyət edənin əvəzinə imzalamış şəxslər vəsiyyətnamənin məzmununa, tərtibinə, dəyişdirilməsinə və ya ləğvinə aid məlumatları miras açılanadək açıqlaya bilməzlər.

Maddə 1186. Ev vəsiyyətnaməsi

Vəsiyyət edən vəsiyyətnaməni öz əli ilə yazıb imzalaya bilər.

Maddə 1187. Vəsiyyətnamənin notariusda saxlanması

1187.1. Vəsiyyət edən öz əli ilə yazdığı və imzaladığı vəsiyyətnaməni zərfə qoyub bağlayaraq üç şəxsin yanında notariusa (və ya digər müvafiq vəzifəli şəxsə) verə bilər; həmin şəxslərin orada olması onların zərfdəki imzaları ilə təsdiqlənir.

1187.2. Bu növ vəsiyyətnamənin saxlanması onun notariusda (və ya digər müvafiq vəzifəli şəxsdə) rəsmən depozitə qoyulması ilə təmin edilməlidir.

Maddə 1188. Vəsiyyətnamənin texniki vasitələrdən istifadə edilməklə tərtibi

Vəsiyyətnamənin mətni hamılıqla qəbul olunmuş texniki vasitənin köməyi ilə ifadə edilə bilər, lakin imzanı vəsiyyət edən qoymalıdır. Bu halda vəsiyyət edən vəsiyyətnaməni iki şahidin yanında tərtib etməli və imzalamalıdır. Həmin şahidlər təsdiq etməlidirlər ki, vəsiyyətnamə onların yanında texniki vasitədən istifadə edilməklə tərtib olunmuşdur. Vəsiyyət edən vəsiyyətnaməni imzaladıqdan dərhal sonra şahidlər vəsiyyətnamədə öz adlarını, soyadlarını və yaşayış yerlərini göstərməklə müvafiq qeyd vasitəsi ilə vəsiyyətnaməni təsdiqləməlidirlər.

Maddə 1189. Qapalı vəsiyyətnamə

1189.1. Vəsiyyət edənin arzusu ilə şahidlər vəsiyyətnaməni onun məzmunu ilə tanış olmadan (qapalı vəsiyyət) təsdiqləməlidirlər. Bu halda şahidlər vəsiyyətnamənin tərtibi zamanı vəsiyyət edənin yanında olmalıdırlar.

1189.2. Qapalı vəsiyyətnaməni təsdiqləyərkən şahidlər vəsiyyətnamənin vəsiyyət edən tərəfindən onların yanında tərtib edildiyini, lakin vəsiyyətnamənin məzmununu bilmədiklərini göstərməlidirlər.

Maddə 1190. Vəsiyyətnamənin tərtib edildiyi tarix

Vəsiyyətnamədə onun tərtib edildiyi tarix göstərilməlidir. Tarixin göstərilməməsi vəsiyyətnamənin etibarsızlığına yalnız vəsiyyətnamənin tərtibi, dəyişdirilməsi və ya ləğvi zamanı vəsiyyət edənin fəaliyyət qabiliyyətli olmasına dair şübhələrin aradan qalxmadığı, habelə bir neçə vəsiyyətnamənin olduğu halda səbəb olur.

Maddə 1191. Maraqlı şəxslərin vəsiyyətnamənin məzmunu ilə tanış olması

Vəsiyyət edən öldükdən sonra notarius gün təyin edərək maraqlı şəxsləri vəsiyyətnamənin məzmunu ilə tanış edir. Bu barədə müvafiq protokol tərtib edilməlidir. Əgər vəsiyyətnamənin qoyulduğu zərf möhürlənmişdirsə, möhürün salamatlığı qeyd edilməlidir.

Maddə 1192. Ehtiyat vərəsə

1192.1. Vəsiyyət edən özünün təyin etdiyi vərəsənin miras açılanadək ölməsi və ya mirası qəbul etməməsi, yaxud vərəsəlik hüququndan məhrum edilməsi halı üçün vəsiyyətnamədə başqa vərəsənin (ehtiyat vərəsənin) adını göstərə bilər.

1192.2. Bu Məcəllənin 1134-1136-cı maddələrinə görə vərəsə ola bilən istənilən şəxs ehtiyat vərəsə ola bilər.

66-cı fəsil. Mirasda məcburi pay

Maddə 1193. Mirasda məcburi pay anlayışı

Vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir.

Maddə 1194. Məcburi payı tələb etmək hüququnun əmələ gəldiyi an

Məcburi payı tələb etmək hüququ mirasın açıldığı an əmələ gəlir. Bu cür tələb hüququ vərəsəlik üzrə keçir. *Məcburi payı tələb etmək hüququ olan şəxs qarşısında digər vərəsələr birgə borclu kimi çıxış edirlər.* (12)

Maddə 1195. Məcburi payın həcminin müəyyənləşdirilməsi

Məcburi payın tam həcmi vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak da daxil olmaqla, bütün mirasdan müəyyənləşdirilir.

Maddə 1196. Vərəsələrdən hər birinin məcburi payının müəyyənləşdirilməsi

Vərəsələrdən hər birinin məcburi payı müəyyənləşdirilərkən əgər vəsiyyətnamə olmasaydı, miras almağa çağırıla biləcək qanun üzrə vərəsələrin hamısı nəzərə alınmalıdır. Vəsiyyət üzrə vərəsələr nəzərə alınmır.

Maddə 1197. Alınmış əmlakın məcburi paya daxil edilməsi

Məcburi pay almaq hüququ olan şəxs miras qoyanın sağlığında ondan məcburi paya daxil edilmək şərti ilə aldıqlarının hamısını məcburi paya daxil etməyə borcludur.

Maddə 1198. Vəsiyyət tapşırığından imtinanın nəticələri

Məcburi pay almaq hüququ olan, eyni zamanda vəsiyyət tapşırığını (leqatı) alan şəxs vəsiyyət tapşırığından imtina edərsə, məcburi pay tələb edə bilər. Əgər o, vəsiyyət tapşırığından imtina etməzsə, məcburi paya hüququnu vəsiyyət tapşırığının dəyəri həddində itirir.

~~***Maddə 1199. Vəsiyyətnamədə nəzərdə tutulmayan əmlakdan məcburi payın ayrılması***~~

~~Əgər vəsiyyətnamədə miras əmlakının heç də hamısı nəzərdə tutulmamışdırsa, məcburi pay birinci növbədə vəsiyyətnamədə nəzərdə tutulmayan əmlakdan ayrılır, bu, yetərli olmadıqda isə vəsiyyətnamədə nəzərdə tutulan əmlakın hesabına tamamlanır~~. (12)

Maddə 1200. Məcburi payın bağışlanmış əşya hesabına artırılması

Miras qoyan əşyanı üçüncü şəxsə bağışladıqda, məcburi paya hüququ olan şəxs, əgər bağışlanmış əşya mirasa daxil olsaydı, onun məcburi payının arta biləcəyi məbləğdə məcburi payın tamamlanmasını tələb edə bilər. Əgər mirasın açıldığı vaxtadək hədiyyənin verilməsindən iki il keçirsə, hədiyyə hesaba alınmır.

Maddə 1201. Payın tamamlanmasını tələb etmək hüququ

Əgər məcburi pay almaq hüququ olan şəxsə onun qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az əmlak vəsiyyət edilmişdirsə, o, vəsiyyət üzrə aldığı payın qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az olduğu hissəni tələb edə bilər.

Maddə 1202. Məcburi payı qəbul etməkdən imtina

1202.1. Məcburi pay almaq hüququ olan vərəsə onu qəbul etməkdən imtina edə bilər, lakin bu imtina digər vərəsələrin məcburi payının artmasına səbəb olmur. Onun payı vəsiyyət üzrə vərəsələrə keçir.

1202.2. Məcburi payın qəbul edilməsi və ya ondan imtina olunması mirasın qəbul edilməsi və ya ondan imtina olunması üçün müəyyənləşdirilmiş vaxt ərzində həyata keçirilməlidir.

Maddə 1203. Məcburi pay almaq hüququndan məhrumetmə

1203.1. Məcburi pay almaq hüququndan məhrumetmə, ümumiyyətlə, vərəsəlik hüququndan məhrumetməyə səbəb olan hallar olduqda mümkündür.

1203.2. Məcburi pay almaq hüququndan məhrumetməni miras qoyan hələ öz sağlığında məhkəməyə müraciət etmək yolu ilə həyata keçirə bilər.

1203.3. Məcburi pay almaq hüququndan məhrumetmə barəsində məhkəmənin çıxardığı qərar mirasın açıldığı andan qüvvədə olur. Miras qoyanın hələ öz sağlığında məhkəməyə müraciət etdiyi, lakin qərarın onun ölümündən sonra qəbul edildiyi halda da bu cür nəticə baş verir.

~~***Maddə 1204. Məcburi payın vəsiyyət üzrə vərəsələrə keçməsi***~~

~~Məcburi pay almaq hüququndan məhrum edilmiş vərəsənin payı vəsiyyət üzrə vərəsələrə keçir.~~ (12)

67-ci fəsil. Vəsiyyət tapşırığı (leqat)

Maddə 1205. Vəsiyyət tapşırığı anlayışı

Vəsiyyət edən miras hesabına hər hansı öhdəliyin bir və ya bir neçə şəxsin xeyrinə icra olunmasını vərəsəyə həvalə edə bilər (vəsiyyət tapşırığı—leqat).

Maddə 1206. Vəsiyyət tapşırığının predmeti

Vəsiyyət tapşırığının predmeti miras əmlaka daxil olan əşyaların vəsiyyət tapşırığını alanın (leqatarinin) mülkiyyətinə, istifadəsinə və ya digər əşya hüququ ilə verilməsi, mirasa daxil olmayan əmlakın əldə edilməsi və ona verilməsi, müəyyən işin görülməsi, xidmətlərin göstərilməsi və i.a. ola bilər.

Maddə 1207. Vəsiyyət tapşırığına əsasən yaşayış otağından istifadə

Vəsiyyət edən yaşayış evinin, mənzilin və ya digər yaşayış otağının keçdiyi vərəsənin üzərinə miras açılanadək bir ildən az olmayan müddətdə miras qoyanla birlikdə yaşamış şəxsə otaqdan və ya onun müəyyən hissəsindən ömürlük istifadə hüququ verməк vəzifəsini qoya bilər. Yaşayış otağına mülkiyyət hüququ sonradan başqasına keçdikdə ömürlük istifadə hüququ qüvvədə qalır.

Maddə 1208. Yaşayış otağından ömürlük istifadə hüququnun özgəninkiləşdirilməməsi

1208.1. Yaşayış otağından ömürlük istifadə hüququ özgəninkiləşdirilmir və vəsiyyət tapşırığını alanın vərəsələrinə keçmir.

1208.2. Əgər vəsiyyətnamədə ayrı hal nəzərdə tutulmayıbsa, yaşayış otağından ömürlük istifadə hüququ vəsiyyət tapşırığını alanın ailə üzvlərinin həmin otaqda yaşamasına əsas vermir.

Maddə 1209. Vəsiyyət tapşırığının icra hədləri

Vəsiyyət tapşırığının icrasının həvalə edildiyi vərəsə həmin tapşırığı, miras qoyanın borclarından ödəməli olduğu hissəni çıxmaqla, vəsiyyət edilmiş mirasın həqiqi dəyəri hədlərində icra etməlidir.

Maddə 1210. Vəsiyyət tapşırığının başqa vərəsələr tərəfindən icrası

Əgər vəsiyyət tapşırığının icrasının həvalə olunduğu vərəsə miras açılanadək ölərsə və ya mirasdan imtina edərsə, vəsiyyət tapşırığını icra etmək vəzifəsi onun payını almış digər vərəsələrə keçir, bu şərtlə ki, vəsiyyətdən ayrı hal irəli gəlməsin.

Maddə 1211. Vəsiyyət tapşırığının icrasına xitam verilməsi

Vəsiyyət tapşırığının icrasının həvalə olunduğu vərəsənin öldüyü halda, əgər vəsiyyət tapşırığının icrası onun iştirakı olmadan mümkün deyildirsə, vəsiyyət tapşırığını icra etmək öhdəliyinə xitam verilir.

Maddə 1212. Vəsiyyət tapşırığının mirasdakı paya mütənasib surətdə icrası

Vəsiyyət tapşırığının icrası bir neçə vərəsəyə həvalə olunduqda, əgər vəsiyyətnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, onlardan hər biri vəsiyyət tapşırığını mirasdakı payına mütənasib surətdə icra edir.

Maddə 1213. Vəsiyyət tapşırığının icrası müddəti

Vəsiyyət tapşırığını alan vəsiyyət tapşırığının miras açılan gündən hesablanan üç illik iddia müddəti ərzində icra olunmasını tələb edə bilər.

Maddə 1214. Məcburi pay alınarkən vəsiyyət tapşırığı

Vəsiyyət tapşırığının icrasının həvalə edildiyi vəsiyyət üzrə vərəsənin məcburi pay almaq hüququ da olduqda, o, vəsiyyət tapşırığını yalnız vəsiyyət edilmiş əmlakın məcburi paydan əlavə aldığı hissəsi həddində icra edir.

Maddə 1215. Vəsiyyət tapşırığını alanın məsuliyyəti

Vəsiyyət tapşırığını alan miras qoyanın borcları üçün məsuliyyət daşımır.

Maddə 1216. Vəsiyyət tapşırığından imtina

Vəsiyyət tapşırığını alan vəsiyyət tapşırığını qəbul etməkdən imtina edə bilər. Bu halda mirasın müvafiq hissəsi vəsiyyət tapşırığının həvalə olunacağı vərəsəyə qalır.

Maddə 1217. Vəsiyyət tapşırığının icrasından azad edilmə

Əgər vəsiyyət tapşırığını alan onu qəbul etməkdən imtina edərsə, vəsiyyət tapşırığının icrasının həvalə olunduğu vərəsə onu icra etmək vəzifəsindən azad edilir.

Maddə 1218. Vəsiyyət tapşırığının vərəsələrə keçməsi

Əgər vəsiyyət tapşırığını alan miras açıldıqdan sonra vəsiyyət tapşırığının qəbuluna razılıq verməyə macal tapmadan ölərsə, vəsiyyət tapşırığını almaq hüququ tapşırığı onun əvəzinə qəbul edəcək vərəsələrinə keçir.

Maddə 1219. Ümumi faydalı məqsədlər üçün vəsiyyət tapşırığı

1219.1. Vəsiyyət edən vərəsəyə ümumi faydalı məqsədlər üçün hər hansı hərəkətin icrasını tapşıra bilər. Bu hərəkət həm əmlak, həm də qeyri-əmlak xarakteri daşıya bilər.

1219.2. Əgər tapşırılmış hərəkət əmlaka aiddirsə, vəsiyyət tapşırığını tənzimləyən normalar tətbiq edilir.

1219.3. Vəsiyyətdə ümumi faydalı məqsədlər üçün hər hansı hərəkətin icrasının tapşırıldığı vərəsənin öldüyü halda bu öhdəliyin icrası mirası qəbul etmiş digər vərəsələrə keçir.

1219.4. Vərəsəyə tapşırılmış hərəkətin icrasını ondan vəsiyyətnamənin icraçısı, beləsi olmadıqda isə hər hansı vərəsə, habelə maraqlı siyasi partiya, ictimai birlik, həmkarlar ittifaqı və dini təşkilat, fond, dövlət hakimiyyəti və ya yerli özünüidarə orqanları məhkəmə yolu ilə tələb edə bilərlər.

68-ci fəsil. Vəsiyyətnamənin dəyişdirilməsi və ya ləğvi

Maddə 1220. Vəsiyyətnamənin dəyişdirilməsi imkanları

1220.0. Vəsiyyət edən vəsiyyətnaməni aşağıdakı üsullarla həmişə dəyişdirə və ya ləğv edə bilər:

1220.0.1. əvvəlki vəsiyyətnaməni və ya onun yeni vəsiyyətnaməyə zidd hissəsini birbaşa ləğv edən yeni vəsiyyətnamə tərtib etməklə;

1220.0.2. notariat orqanına ərizə verməklə;

1220.0.3. vəsiyyətnamənin bütün nüsxələrinin vəsiyyət edən tərəfindən və ya onun sərəncamı ilə notarius tərəfindən məhv edilməsi ilə.

Maddə 1221. Ləğv edilmiş vəsiyyətnamənin bərpasının yolverilməzliyi

Sonradan tərtib edilmiş vəsiyyətnamə ilə ləğv edilən vəsiyyətnamə sonradan tərtib edilmiş vəsiyyətnamənin ərizə vermək yolu ilə ləğv edildiyi halda da bərpa oluna bilməz.

Maddə 1222. Bir neçə vəsiyyətnamə

Əgər vəsiyyət edən bir neçə vəsiyyətnamə tərtib etmişdirsə, lakin onlar bir-birini tamamlayır və tam əvəz etmirsə, bütün vəsiyyətnamələr qüvvədə qalır. Əvvəlki vəsiyyətnamənin göstərişləri sonrakı vəsiyyətnamə ilə dəyişdirilmədiyi halda qüvvədə qalır.

Maddə 1223. Notariat vəsiyyətnaməsinin üstünlüyü

1223.1. Əgər bir şəxs bir neçə vəsiyyətnamə tərtib etmişdirsə və onlardan yalnız biri notariat formasında tərtib edilmişdirsə, notariat formasında tərtib edilmiş vəsiyyətnaməyə üstünlük verilir.

1223.2. Notariat vəsiyyətnaməsi başqa formalı vəsiyyətnamə ilə ləğv edilə bilməz.

Maddə 1224. Vəsiyyətnamənin qüvvədən düşmüş sayılmasının əsasları

1224.0. Vəsiyyətnamə aşağıdakı hallarda qüvvədən düşür:

1224.0.1. xeyrinə vəsiyyətnamə tərtib edilmiş şəxs vəsiyyət edəndən tez öldükdə;

1224.0.2. vəsiyyət edilmiş əmlak vəsiyyət edənin sağlığında itirildikdə və ya onun tərəfindən özgəninkiləşdirildikdə;

1224.0.3. yeganə vərəsə mirası qəbul etməkdən imtina etdikdə.

Maddə 1225. Vəsiyyətnamənin etibarsızlığı

1225.1. Vəsiyyətnamə, ümumiyyətlə, əqdlərin etibarsızlığına səbəb olan hallar olduqda etibarsız sayılır.

1225.2. Qanuna zidd olan vəsiyyət sərəncamları, habelə aydın olmayan və ya bir-birinə zidd olan şərtlər etibarsızdır.

1225.3. Əgər vəsiyyətnamə bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydalar pozulmaqla, habelə şəxsin öz hərəkətinin mənasını başa düşə bilmədiyi və öz hərəkətini idarə edə bilmədiyi vəziyyətdə tərtib edilmişdirsə, məhkəmə tərəfindən etibarsız sayıla bilər.

Maddə 1226. Ayrı-ayrı vəsiyyət sərəncamlarının etibarsızlığı

1226.1. Mirasda olmayan əşyaya vərəsəliyə çağırmağa əsas verən vəsiyyət sərəncamı etibarsızdır.

1226.2. Əgər kiməsə miras əmlakda olmayan pul məbləği vəsiyyət edilmişdirsə, vəsiyyətnamənin bu cür sərəncamı etibarsızdır.

1226.3. Vərəsənin mirası müəyyən dövr üçün və ya miras qoyanın öldüyü gündən deyil, sonralar alacağı barədə, habelə vərəsənin ölümündən sonra mirasın kimə keçməli olduğu barədə vəsiyyət sərəncamı etibarsızdır.

Maddə 1227. Vəsiyyət sərəncamının icrasının qeyri-mümkünlüyü nəticəsində etibarsızlığı

Vəsiyyət sərəncamı vərəsə tərəfindən sağlamlıq vəziyyətinə və ya digər obyektiv səbəblərə görə yerinə yetirilə bilmədikdə vərəsənin iddiası üzrə etibarsız sayıla bilər.

Maddə 1228. Vəsiyyət sərəncamlarından birinin etibarsızlığının nəticələri

Əgər bir neçə vəsiyyət sərəncamından biri etibarsızdırsa və ya qüvvədən düşmüşdürsə və miras qoyan başqa sərəncamlar verməmişdirsə, vəsiyyətnamənin qalan sərəncamları qüvvədə qalır.

Maddə 1229. Vəsiyyətnamənin etibarsızlığı halında mirasın alınması

Vəsiyyətnamənin etibarsız sayıldığı halda bu vəsiyyətnamə ilə vərəsəlik hüququndan məhrum edilmiş vərəsə mirası ümumi əsaslar üzrə ala bilər.

Maddə 1230. Vəsiyyətnamənin etibarlığı barəsində mübahisə edilməsi

Qanun üzrə vərəsələr və digər əlaqədar şəxslər əqdin etibarsızlığına səbəb olan hallar üzrə vəsiyyətnamənin etibarlığı barəsində mübahisə edə bilərlər.

Maddə 1231. İddia verilməsi müddəti

1231.1. Vəsiyyətnamənin qüvvədən düşmüş sayılması barədə iddia mirasın açıldığı gündən iki il ərzində irəli sürülə bilər.

1231.2. Vəsiyyət edən özgəsinin əmlakını yanlış olaraq öz əmlakı kimi vərəsəyə vəsiyyət etdikdə, bu Məcəllənin 1231.1-ci maddəsində nəzərdə tutulan iddia müddəti mülkiyyətçinin iddiasına şamil edilmir.

69-cu fəsil. Vəsiyyətnamənin icrası

Maddə 1232. Vəsiyyətnamənin icrası subyektləri

Vəsiyyətnamədə göstərişin olmadığı halda onun icrası vəsiyyət üzrə vərəsələrin öhdəsinə qoyulur. Vərəsələr vəsiyyətnamənin icrasını qarşılıqlı razılaşmaya əsasən özlərindən birinə və ya başqa şəxsə etibar edə bilərlər.

Maddə 1233. Vəsiyyətnamənin icraçısının təyin edilməsi

Vəsiyyət sərəncamlarının dəqiq icrası məqsədi ilə vəsiyyət edən vəsiyyətnamə ilə həm vəsiyyət üzrə vərəsələr sırasından vəsiyyətnamənin bir və ya bir neçə icraçısını, həm də vərəsə olmayan başqa şəxsi təyin edə bilər. Başqa şəxsin təyin edildiyi halda vəsiyyətnamə icraçısının razılığı zəruridir. Bu razılığı o, vəsiyyətnamənin özündə və ya vəsiyyətnaməyə qoşulmuş ərizədə yazmaqla ifadə etməlidir.

Maddə 1234. Vəsiyyətnamənin icrasından imtina

Vəsiyyətnamənin icraçısı vəsiyyət edənin onun öhdəsinə qoyduğu vəzifədən istənilən vaxt imtina edə bilər. Bu barədə o, vəsiyyət üzrə vərəsələri qabaqcadan xəbərdar etməlidir.

Maddə 1235. Vəsiyyətnamənin icraçısının üçüncü şəxs tərəfindən təyin edilməsi

Vəsiyyət edən vəsiyyətnamənin icraçısını təyin etməyi üçüncü şəxsə tapşıra bilər. Həmin şəxs miras açıldıqdan sonra dərhal vəsiyyətnamənin icraçısını təyin etməli və bu barədə vərəsələrə məlumat verməlidir. O, həmin tapşırığı yerinə yetirməkdən imtina edə bilər. Bu barədə də o, vərəsələrə ləngimədən məlumat verməlidir.

Maddə 1236. Vəsiyyətnamənin tamamilə və ya qismən icrası

Vəsiyyətnamənin icraçısına vəsiyyətnaməni tamamilə və ya onun ayrı-ayrı sərəncamlarını icra etmək tapşırıla bilər.

Maddə 1237. Mirasın mühafizə və idarə edilməsi

Mirasın açıldığı andan vəsiyyətnamənin icraçısı mirası mühafizə və idarə etməyə başlamalıdır; o, vəsiyyətnamənin icrası üçün zəruri olan bütün hərəkətləri yerinə yetirməyə səlahiyyətlidir. Bu səlahiyyət daxilində vərəsələr mirası idarə etmək hüququnu itirirlər.

Maddə 1238. Mirasın bir neçə icraçı tərəfindən mühafizə və idarə edilməsi

Əgər vəsiyyətnamənin bir neçə icraçısı vardırsa, təkbaşına hərəkətlərə yalnız mirasın mühafizəsi məqsədi ilə yol verilir, qalan hallarda onlar arasında razılıq zəruridir.

Maddə 1239. Vəsiyyətnamənin icrası xərclərinin əvəzinin ödənilməsi

1239.1. Vəsiyyətnamənin icraçısı öz vəzifələrini əvəzsiz yerinə yetirir, hərçənd, vəsiyyətnamədə nəzərdə tutulmuşdursa, muzd da ala bilər.

1239.2. Vəsiyyətnamənin icraçısı əmlakın mühafizəsinə və idarə edilməsinə çəkdiyi zəruri xərclərin əvəzinin mirasdan ödənilməsi hüququna malikdir.

1239.3. Vərəsə olmayan vəsiyyətnamə icraçısı, bu Məcəllənin 1249-cu maddəsində nəzərdə tutulan hallardan başqa, digər xərcləri mirasdan ödəyə bilməz.

Maddə 1240. İcraçının hesabatı

Vəsiyyətnaməni icra etdikdən sonra vəsiyyətnamənin icraçısı vərəsələrin tələbi ilə onlara öz fəaliyyəti barəsində hesabat verməyə borcludur. Vəsiyyətnamənin icraçısı öz funksiyalarını bütün vərəsələr mirası qəbul edənədək yerinə yetirir.

Maddə 1241. Vəsiyyətnamə icraçısının kənar edilməsi

Vəsiyyətnamənin icraçısı öz vəzifələrini yerinə yetirmədikdə, maraqlı şəxs icraçının kənar edilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər.

Maddə 1242. Vəsiyyətnamə icraçısının məsuliyyəti

Əgər vəsiyyətnamənin icraçısı vəsiyyətnamə ilə onun öhdəsinə qoyulmuş vəzifələrin icrasından qəsdən və ya kobud ehtiyatsızlıq üzündən kənara çıxarsa və bununla da vərəsələrə zərər vurarsa, bu zərər üçün məsuliyyət daşımalıdır.

70-ci fəsil. Mirasın qəbul edilməsi və onun qəbulundan imtina olunması

Maddə 1243. Mirasın qəbul edilməsi

1243.1. Mirası istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə qəbul edir.

1243.2. Vərəsə mirasın açıldığı yer üzrə notariat kontoruna mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır.

1243.3. Vərəsə mirasın bir hissəsinə sahiblik etməyə faktik başladıqda hesab edilir ki, mirasın nədə ifadə edilməsindən və harada olmasından asılı olmayaraq, o, mirası tamamilə qəbul etmişdir.

~~1243.4. Əgər vərəsələrdən biri miras payını qəbul etməkdən başqa vərəsənin xeyrinə imtina edərsə, belə hərəkət mirasın qəbul olunması sayılır~~. (12)

Maddə 1244. Mirasın fəaliyyət qabiliyyəti olmayan şəxs tərəfindən qəbul edilməsi

Mirası fəaliyyət qabiliyyətli şəxs qəbul edə bilər. Fəaliyyət qabiliyyəti olmayan və məhdud fəaliyyət qabiliyyətli şəxslər mirası öz qanuni nümayəndələri vasitəsi ilə qəbul edirlər.

Maddə 1245. Mirasın nümayəndə vasitəsi ilə qəbul edilməsi

Vərəsə mirası şəxsən və ya nümayəndə vasitəsi ilə qəbul edə bilər.

Maddə 1246. Mirasın qəbul edildiyi müddət

Vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir. (12)

Maddə 1247. Mirasın qəbul edilməsinin xüsusi müddəti

Əgər miras almaq hüququ digər vərəsələrin mirası qəbul etmədikləri halda yaranırsa, miras onun qəbulu üçün müəyyənləşdirilmiş müddətin qalan hissəsi ərzində qəbul edilməli, bu müddət *altı həftədən az olduqda isə altı həftəyədək* uzadılmalıdır. (12)

Maddə 1248. Mirasın qəbul edilməsi vaxtının uzadılması

1248.1. Mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş müddəti məhkəmə, gecikdirmənin səbəbini üzrlü sayarsa, uzada bilər. Müddət qurtardıqdan sonra, əgər mirası qəbul edən bütün digər vərəsələr razıdırlarsa, miras məhkəməyə müraciət edilmədən də qəbul oluna bilər.

1248.2. Bu Məcəllənin 1248.1-ci maddəsində nəzərdə tutulan halda mirasın qəbulunu gecikdirmiş vərəsəyə digər vərəsələrin aldığı və ya dövlətin mülkiyyətinə keçmiş əmlakdan pay qalan əmlakdan naturada verilir; ona çatası əmlakın qalan hissəsinin dəyərinin məbləği də verilir.

Maddə 1249. Mirasa dair sərəncam verilməsinin yolverilməzliyi

Digər vərəsələrin gəlməsini gözləməyən və mirasa sahiblik etməyə və ya onu idarə etməyə başlayan vərəsə, xəstəlik zamanı miras qoyana qulluq, onun müalicəsi və dəfn edilməsi, miras qoyanın öhdəsində olmuş şəxslərin saxlanması, əmək haqqının ödənilməsi, mirasın mühafizə və idarə edilməsi xərclərindən başqa, mirasın açıldığı gündən altı ay keçənədək və ya miras hüququ haqqında şəhadətnamə alınanadək mirasa dair sərəncam verə bilməz.

Maddə 1250. İddia qaldırılanadək alınmış gəlirə hüquq

Əgər qanun üzrə vərəsə vəsiyyətnamənin olduğunu bilmədən mirasa sahiblik etməyə başlayarsa, vəsiyyət üzrə vərəsə isə vəsiyyətnamənin etibarsız olduğunu bilməzsə və ya qanun üzrə və vəsiyyət üzrə vərəsələr qanun üzrə daha yaxın vərəsələrin olduğunu və ya başqa vəsiyyətnamənin olduğunu bilməzlərsə, iddia qaldırılanadək mirasdan aldıqları gəlir onlara qalır; onlar mirasa qoyduqları bütün kapitalı da tələb edə bilərlər.

Maddə 1251. Mirasa daxil olan ayrı-ayrı əşyalar üzərində səlahiyyətsiz şəxsin sərəncəm verməsinin nəticələri

Əgər səlahiyyətsiz şəxs mirasa daxil olan əşya üzərində həqiqi vərəsəyə münasibətdə etibarlı olan sərəncam vermişsə, o, bunun nəticəsində əldə etdiyini həqiqi vərəsəyə verməyə borcludur. (12)

Maddə 1252. İrsi transmissiya

Əgər vərəsə miras açıldıqdan sonra, lakin miras qəbul edilənədək ölərsə, mirasdan pay almaq hüququ onun vərəsələrinə keçir (irsi transmissiya). Ölmüş vərəsənin vərəsələri mirası onun qəbulu müddətinin sonunadək qalmış vaxt ərzində qəbul etməlidirlər. Əgər bu müddət üç aydan azdırsa, üç ayadək uzadılmalıdır.

Maddə 1253. Mirasın irsi transmissiya üzrə qəbul edilməməsinin nəticələri

1253.1. Mirasın irsi transmissiya üzrə qəbul edilməməsi vərəsəni bilavasitə ölən vərəsəyə çatası mirası almaq imkanından məhrum etmir.

1253.2. Əmlakı irsi transmissiya üzrə almaqdan imtina edildikdə əmlak ölmüş vərəsələrlə birlikdə mirası qəbul etməyə çağırılmış şəxslərə keçir.

Maddə 1254. Mirasın siyahısı

Vərəsə mirasın siyahıya alınmasını tələb edə bilər. Bunun üçün iki aylıq müddət verilir və bu müddət mirasın qəbulu üçün ümumi müddətə daxil olur.

Maddə 1255. Mirasa mülkiyyətin əmələ gəlməsi

Qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır.

Maddə 1256. Mirasın qəbulundan imtina müddəti

Vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirasın qəbulundan imtina edə bilər. Üzrlü səbəb olduqda məhkəmə bu müddəti iki aydan çox olmayaraq uzada bilər. Mirasın qəbulundan imtina notariat orqanında rəsmiləşdirilməlidir.

Maddə 1257. Mirası qismən qəbul etməyin yolverilməzliyi

1257.1. Hər hansı şərtlə və ya hər hansı müddətə mirası qismən qəbul etməyə və ya ondan qismən imtina etməyə yol verilmir.

1257.2. Əgər vərəsə mirasın bir hissəsindən imtina edərsə və ya hər hansı şərt qoyarsa, hesab edilir ki, o, mirasdan imtina etmişdir.

Maddə 1258. Vərəsənin kənd təsərrüfatı təyinatlı torpağı qəbul etməkdən imtina etməsi

Kənd təsərrüfatı ilə məşğul olmayan vərəsə kənd təsərrüfatı təyinatlı torpağı, avadanlığı, əmək alətlərini, mal-qaranı qəbul etməkdən imtina edə bilər, lakin bu, ümumiyyətlə, mirasın qəbulundan imtina sayılmır.

Maddə 1259. Mirasdan bir neçə payın qəbul edilməsi

Əgər müxtəlif əsaslar üzrə vərəsəyə mirasdan bir neçə pay düşürsə, o bir payı qəbul edə, digərindən imtina edə bilər, yaxud bütün paylardan imtina edə bilər.

Maddə 1260. Mirasın bir hissəsindən imtina

Vərəsə mirasın qalan hissəsinə baxmayaraq, birləşdirilmə hüququ ilə ona mənsub olan miras hissəsindən imtina edə bilər.

Maddə 1261. Başqa şəxslərin xeyrinə imtina

Vərəsə mirası qəbul etməkdən qanun üzrə və ya vəsiyyət üzrə vərəsələr sırasından başqa şəxslərin xeyrinə imtina edə bilər. Ləyaqətsiz vərəsə sayılmış və ya vəsiyyətnamənin birbaşa göstərişi ilə vərəsəlik hüququndan məhrum edilmiş şəxsin xeyrinə mirasdan imtina yolverilməzdir. Bu cür imtina barəsində digər vərəsələr məhkəməyə şikayət verə bilərlər.

Maddə 1262. Mirasdan imtina zamanı payın birləşdirilməsi

Əgər vərəsə mirası qəbul etməkdən imtina etmişdirsə, lakin kimin xeyrinə imtina etdiyini bildirməmişdirsə, onun payı qanun üzrə vərəsəliyə çağırılmış vərəsələrin payına, vəsiyyətnamə ilə bütün əmlakın bölüşdürüldüyü halda isə vəsiyyət üzrə vərəsələrin payına əlavə edilir və onların arasında paylarına mütənasib surətdə bölüşdürülür, bu şərtlə ki, vəsiyyətnamədə ayrı qayda nəzərdə tutulmasın.

Maddə 1263. Yeganə vərəsənin mirasdan imtina etməsi

Əgər mirasdan imtina etmiş vərəsə həmin növbənin vərəsələri arasında yeganə vərəsədirsə, miras sonrakı növbənin vərəsələrinə keçir.

Maddə 1264. Bir neçə vərəsənin xeyrinə imtina

Əgər vərəsə mirası qəbul etməkdən bir neçə şəxsin xeyrinə imtina edirsə, onlardan hər birinin payını göstərə bilər. Belə göstəriş olmadıqda onun payı mirasın qəbulundan imtina xeyirlərinə edilmiş vərəsələr arasında bərabər bölüşdürülür.

Maddə 1265. Mirasdan nəvələrin xeyrinə imtina

Mirasdan nəvənin xeyrinə imtina etməyə o halda yol verilir ki, mirasın açıldığı gün onun miras qoyanın vərəsəsi olmalı valideyni sağ olmasın və ya nəvə vəsiyyət üzrə vərəsə olsun.

Maddə 1266. Dövlətin mirası qəbul etməkdən imtinasının yolverilməzliyi

Dövlət ona keçmiş mirası qəbul etməkdən imtina edə bilməz.

Maddə 1267. Notariat orqanına ərizə verildikdən sonra imtinanın yolverilməzliyi

Vərəsə mirasın açıldığı yer üzrə notariat orqanına mirası qəbul etməsi və ya vərəsəlik haqqında şəhadətnamə alınması barədə ərizə verdikdən sonra mirasdan imtina edilməsinə yol verilmir.

Maddə 1268. Mirasdan imtinanın geri götürülməməsi

1268.1. Vərəsə mirası qəbul etməkdən imtina etdiyi barədə ərizəni geri götürə bilməz.

1268.2. Əgər vərəsə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxsdirsə, mirasdan imtinaya məhkəmənin icazəsi ilə yol verilir.

Maddə 1269. Mirasa faktik sahiblik zamanı imtina

Mirasa sahiblik etməyə və ya onu idarə etməyə faktik başlamış vərəsə mirasın qəbulu üçün müəyyənləşdirilmiş vaxt ərzində mirasın qəbulundan imtina edə bilər. Bu barədə ərizə ilə o, notariat orqanına müraciət etməlidir.

Maddə 1270. İmtina hüququnun vərəsəlik üzrə keçməsi

1270.1. Mirasdan imtina hüququ vərəsəlik üzrə keçir.

1270.2. Əgər vərəsə mirasın qəbulundan imtina üçün müəyyənləşdirilmiş müddət bitənədək ölmüşdürsə, bu müddət vərəsənin ölümündən sonra qalmış vaxt bitənədək qurtarmır.

1270.3. Ölmüş vərəsənin bir neçə vərəsəsinin hər biri yalnız öz miras payından imtina edə bilər.

Maddə 1271. Mirası qəbul etməkdən nümayəndə vasitəsi ilə imtina

Mirasdan nümayəndə vasitəsi ilə imtina tapşırıqda (etibarnamədə) imtina səlahiyyətinin xüsusi nəzərdə tutulduğu halda mümkündür.

Maddə 1272. Mirasın qəbulu və ya ondan imtina barəsində mübahisə açılması müddəti

Mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisə maraqlı şəxsin bundan ötrü müvafiq əsas olduğunu bildiyi gündən iki ay ərzində açıla bilər.

Maddə 1273. Mirasın qəbulunun hüquqi nəticələrinin baş verməsi vaxtı

Mirasın qəbulunun və ya qəbulundan imtinanın hüquqi nəticələri mirasın açıldığı andan baş verir.

Maddə 1273-1. Vərəsənin susması

Vərəsə bu Məcəllə ilə müəyyən edilmiş müddətlər daxilində mirası qəbul etmədikdə və ya ondan imtina etmədikdə, müvafiq olaraq bu Məcəllənin 1262-ci və 1263-cü maddələri tətbiq edilir. (12)

71-ci fəsil. Mirasın bölüşdürülməsi

Maddə 1274. Mirasın bölüşdürülməsi anlayışı

Miras onu qəbul edən vərəsələrin razılaşması üzrə onlardan hər birinə qanun və ya vəsiyyətnamə üzrə düşən paya uyğun bölüşdürülür.

Maddə 1275. Miras qoyan tərəfindən mirasın bölüşdürülməsi qaydasının müəyyənləşdirilməsi

Miras qoyan vəsiyyətnamədə mirasın bölüşdürülməsi qaydasını müəyyənləşdirə bilər, o cümlədən mirası bölüşdürməyi üçüncü şəxsə etibar edə bilər. Üçüncü şəxsin qərarı aşkar ədalətsizdirsə, vərəsələr üçün məcburi deyildir. Bu halda bölgü məhkəmənin qərarı ilə aparılır.

Maddə 1276. Mirasdan payın naturada ayrılması

Hər bir vərəsə həm daşınar, həm də daşınmaz əmlakdan öz payının naturada ayrılmasını tələb edə bilər, bir şərtlə ki, bu şəkildə ayırma mümkün olsun və ya qanunla qadağan edilməsin.

~~***Maddə 1277. Hədiyyənin vərəsənin payına daxil edilməsi***~~

~~Miras bölüşdürülərkən hər bir vərəsənin payına onun miras açılanadək iki il ərzində miras qoyandan hədiyyə kimi aldığı əmlakın dəyəri də daxil edilir.~~ (12)

Maddə 1278. Miras şəriklərinin razılaşması üzrə mirasın satılması

Miras şəriklərinin razılaşması üzrə bütün mirasın satılmasına və pulların vərəsələr arasında onların paylarına uyğun bölüşdürülməsinə yol verilir.

Maddə 1279. Mirasın bir miras şərikinə keçməsi

Miras şəriklərinin razılaşması üzrə bütün mirasın bir miras şərikinə keçməsi mümkündür. Öz növbəsində o, digər miras şəriklərinə müvafiq kompensasiya verməyə borcludur.

Maddə 1280. Mirasın bölüşdürülməsinin dayandırılması

Miras şərikləri razılığa gələ bilərlər ki, mirasın bölüşdürülməsi müəyyən müddətə dayandırılsın.

Maddə 1281. Bölünməz əmlaka paylı mülkiyyət

Əgər mirası qəbul edən bütün vərəsələrin razılaşması ilə ayrı qayda müəyyənləşdirməyibsə, bölünməsi təsərrüfat təyinatının itirilməsinə və ya zəifləməsinə səbəb olacaq əmlak bölüşdürülmür və vərəsələrin paylarına uyğun onların ümumi mülkiyyəti olur.

Maddə 1282. Kənd təsərrüfatı təyinatlı torpağın vərəsələr arasında bölüşdürülməsi

1282.1. Əgər kəndli təsərrüfatının yerləşdiyi kənd təsərrüfatı təyinatlı torpağın mülkiyyətçisi vəsiyyətnamə ilə onu bir neçə vərəsəyə qoymuşdursa və ya vəsiyyətnamə qoyulmamışdırsa və qanun üzrə bir neçə vərəsə vardırsa, kənd təsərrüfatı təyinatlı torpaq orada yerləşən kəndli təsərrüfatı ilə birlikdə vərəsələr arasında bölüşdürülə bilər, bu şərtlə

ki, bölgü nəticəsində vərəsələrdən hər birinə keçən torpaq sahəsi həyat qabiliyyətli təsərrüfatın mövcudluğunu təmin etsin.

1282.2. Bölgüyə yalnız vərəsələrin özlərinin təsərrüfatla məşğul olmağa hazırlaşdıqları halda yol verilir. Əgər vərəsələrdən heç biri təsərrüfatla məşğul olmaq istəməzsə, onların razılaşması üzrə torpaq orada yerləşən təsərrüfatla birlikdə satıla bilər və vərəsələr öz paylarını pul şəklində ala bilərlər.

Maddə 1283. Kənd təsərrüfatı təyinatlı torpağın bölüşdürülməsinin yolverilməzliyi

Əgər kənd təsərrüfatı təyinatlı torpağın bölüşdürülməsi mümkün deyildirsə, torpaq kəndli təsərrüfatında yaşayan və miras qoyanla birlikdə təsərrüfatı aparmış vərəsəyə, belə vərəsə olmadıqda isə təsərrüfat aparmağa iqtidarı və arzusu olan şəxsə verilməlidir.

Maddə 1284. Payın kompensasiyası

Torpaq sahəsini ala bilməyən vərəsə başqa əmlakdan müvafiq pay, belə əmlak kifayət etmədikdə isə müəyyənləşdirilmiş qaydada müvafiq kompensasiya alır.

Maddə 1285. Kəndli təsərrüfatının vərəsəlik üzrə keçməsi

1285.1. Əgər kəndli təsərrüfatı həyət təsərrüfatıdırsa və həyətin sonuncu üzvü vəsiyyətnamə qoymamışdırsa, həyətin ümumi əmlakı qanun üzrə vərəsələrə həyət təsərrüfatının dağılmaması şərti ilə keçir.

1285.2. Həyətin sonuncu üzvünün vəsiyyətnamə ilə bir neçə vərəsə təyin etdiyi halda, ümumiyyətlə, torpaq təsərrüfatına aid olan qayda tətbiq edilməlidir.

Maddə 1286. Kəndli təsərrüfatına ümumi mülkiyyət

Miras şəriklərinin razılaşması üzrə torpaq və orada yerləşən kəndli təsərrüfatı onların ümumi mülkiyyətində qala bilər.

Maddə 1287. Mayası bağlanmış vərəsənin miras bölgüsündə payı

1287.1. Əgər vərəsənin mayası bağlanmışdırsa, lakin o hələ doğulmamışdırsa, mirasın bölüşdürülməsi yalnız həmin vərəsənin doğumundan sonra mümkündür.

1287.2. Əgər mayası bağlanmış, lakin hələ doğulmamış vərəsə sağ doğularsa, qalan vərəsələr mirası yalnız ona düşən payı ayırmaqla bölüşdürə bilərlər. Yeni doğulanın mənafelərinin müdafiəsi məqsədi ilə onun nümayəndələri bölgüdə iştiraka dəvət edilməlidirlər.

Maddə 1288. Borc tələblərinin vərəsələrdən birinin öhdəsinə qoyulması

Miras şəriklərinin razılaşması üzrə bütün borc tələblərinin tam ödənilməsinin vərəsələrdən birinin öhdəsinə qoyulmasına, bunun əvəzində ona mirasdan müvafiq surətdə artırılmış pay verilməsinə yol verilir.

Maddə 1289. Pay almağın təmin edilməsi öhdəliyi

Hər bir miras şəriki digər miras şəriklərinin müvafiq payları almasını təmin etməyə borcludur. Miras şəriki bölgü nəticəsində tələb hüququ əldə etdikdə, digər miras şərikləri borclunun ödəniş qabiliyyətinə bölgü məqamında, bu cür öhdəliyin icra müddəti çatmadıqda isə öhdəliyin icrası məqamında öz paylarına uyğun kömək göstərməlidirlər.

Maddə 1290. Payın mütənasib azaldılması

Əgər vəsiyyətnamə ilə müəyyənləşdirilmiş payların cəminin bütün mirasdan çox olduğu aşkara çıxarsa, hər bir vərəsənin payı mütənasib surətdə azaldılır.

Maddə 1291. Əmlakın bölüşdürülməsi zamanı mübahisələrə baxılması

Miras şərikləri arasında mirasın bölüşdürülməsi haqqında ixtilaflar olduqda, mübahisəyə məhkəmə baxır. Əmlakın bölüşdürülməsi zamanı məhkəmə bölüşdürülməli əmlakın xarakterini, miras şəriklərindən hər birinin fəaliyyətini və digər konkret halları nəzərə almalıdır.

Maddə 1292. Paya dair sərəncam vermək hüququ

1292.1. Hər bir miras şəriki öz miras payına dair sərəncam verə bilər. Miras şəriklərindən birinin öz payına dair sərəncam verməsi barədə müqavilə notarius tərəfindən təsdiqlənməlidir.

1292.2. Miras şəriki öz payından olan ayrı-ayrı predmetlərə dair sərəncam verə bilməz.

1292.3. Miras şəriki öz payına dair sərəncam verərkən digər miras şəriklərinin satın almaqda üstünlük hüququ vardır. Satın almaqda üstünlük hüququ iki ay ərzində həyata keçirilməlidir. Bu hüquq vərəsəlik üzrə keçir.

Maddə 1293. Satın almaqda üstünlük hüququna xitam verilməsi

Pay miras şərikinə verildikdən sonra satın almaqda üstünlük hüququna xitam verilir.

Maddə 1294. Pay özgəninkiləşdirilərkən kreditorların təmin edilməsi

Payın özgəninkiləşdirildiyi halda kreditorun tələbini təmin etmək vəzifəsi payı əldə edənə həmin payın miqdarına uyğun olaraq keçir.

~~***Maddə 1295. Payın bərabərləşdirilməsi***~~

~~Vərəsəliyə çağırılmış vərəsələr miras onların arasında bölüşdürülənədək öz paylarını bərabərləşdirmək üçün, əgər miras qoyan ayrı qayda müəyyənləşdirməyibsə, miras qoyanın sağlığında ondan valideynlərin əmlakından ayırma şəklində aldıqlarının hamısını mirasa aid etməlidirlər.~~ (12)

~~***Maddə 1296. Övladın sıradan çıxmasının nəticələri***~~

~~Əgər vərəsə kimi payı bərabərləşdirməyə borclu olan övlad miras açılanadək və ya açıldıqdan sonra sıradan çıxarsa, payı bərabərləşdirmək vəzifəsi onun payını almalı olan vərəsənin öhdəsinə qoyulur.~~ (12)

Maddə 1297. Miras payı bərabərləşdirilərkən xüsusi töhfənin nəzərə alınması

Ailə təsərrüfatında əməyi ilə, miras qoyanın peşə və kommersiya fəaliyyətində iştirakla, özünün çəkdiyi xeyli xərclərlə, yaxud başqa şəkildə miras qoyanın əmlakının qorunmasına və artırılmasına xüsusi töhfə vermiş övlad (enən xətt üzrə qohum) miras qoyanın əmlakı bölüşdürülərkən onunla birlikdə qanun üzrə vərəsə sayılan və miras tələb edən qohumlarla bərabərləşdirilməsini tələb edə bilər.

Maddə 1298. Miras payını bərabərləşdirməyi tələb etməyin yolverilməzliyi

Əgər qohum xidmətləri üçün muzd almışdırsa və ya muzd qabaqcadan müəyyənləşdirilmişdirsə və ya qohum göstərdiyi xidmətlər əsasında digər hüquqi əsaslar üzrə hər hansı tələb irəli sürə bilərsə, miras payının bərabərləşdirilməsi tələb edilə bilməz.

Maddə 1299. Ədalətli bölgü tələbi

1299.1. Miras payının bərabərləşdirilməsi göstərilmiş xidmətlərə və mirasın həcminə uyğun olaraq ədalətlə aparılmalıdır.

1299.2. Əmlak bölgüsü zamanı miras payının bərabərləşdirilməsi məbləği mirasın ümumi məbləğindən çıxılır və bərabərləşdirmə tələbinə hüququ olan miras şərikinin payına əlavə edilir.

Maddə 1300. Vərəsənin olduğu yeri müəyyənləşdirmək vəzifəsi

Əgər vərəsələr arasında olduqları yer məlum olmayan şəxslər vardırsa, qalan vərəsələr onların olduqları yerin müəyyənləşdirilməsi və vərəsəliyə çağırılması üçün ağalabatan tədbirlər görməyə borcludurlar.

Maddə 1301. Vərəsənin gəlməməsinin nəticələri

1301.1. Əgər vərəsəliyə çağırılmış, yerində olmayan, lakin olduğu yer müəyyənləşdirilmiş vərəsə mirasdan üç ay ərzində imtina etməzsə, digər vərəsələr mirası bölüşdürmək niyyətləri barəsində ona bildiriş göndərməlidirlər.

1301.2. Əgər bu cür vərəsə bildirişdən sonra üç ay ərzində özünün əmlak bölgüsü haqqında razılaşmada iştirak etmək arzusu barəsində digər vərəsələrə məlumat verməzsə, digər vərəsələr qarşılıqlı razılaşma üzrə əmlakı bölüşdürə bilər və yerində olmayan vərəsənin payını ayıra bilərlər.

1301.3. Əgər miras açıldıqdan sonra altı ay ərzində qaib vərəsənin olduğu yer müəyyənləşdirilməzsə və mirasın qəbulundan imtina barəsində ondan bir xəbər alınmazsa, digər vərəsələr bu Məcəllənin 1301.2-ci maddəsində müəyyənləşdirilmiş qaydada əmlakı bölüşdürə bilərlər.

Maddə 1302. Vərəsəlikdə üstünlük hüququ

Miras qoyanla birlikdə əmlaka ümumi mülkiyyət hüququ olan vərəsələrin ümumi mülkiyyətə daxil olan əmlaka vərəsəlikdə üstünlük hüququ vardır.

Maddə 1303. Yaşayış evini almaqda üstünlük hüququ

Miras açılanadək azı bir il miras qoyanla birlikdə yaşamış vərəsənin əmlak bölgüsü zamanı mirasdan yaşayış evini, mənzili və ya digər yaşayış otağını, habelə ev müxəlləfatı predmetlərini almaqda üstünlük hüququ vardır.

Maddə 1304. Vərəsələrin əmlak mənafelərinin nəzərə alınması

Üstünlük hüququnun həyata keçirilməsi zamanı miras bölgüsündə iştirak edən digər vərəsələrin əmlak hüquqları nəzərdə tutulmalıdır. Əgər əmlak onlara çatası payı almağa kifayət etməzsə, üstünlük hüququnu həyata keçirən vərəsələr onlara müvafiq pul və ya əmlak kompensasiyası verməlidirlər.

Maddə 1305. Kompensasiyaya möhlət verilməsi

Üstünlük hüququnu həyata keçirən vərəsələrin tələbi ilə məhkəmə kompensasiyanın həcmini nəzərə almaqla, ona on ildən çox olmayan müddətə möhlət verə bilər.

72-ci fəsil. Vərəsələr tərəfindən kreditorların təmin edilməsi

Maddə 1306. Vərəsələrin kreditorlar qarşısında məsuliyyəti

1306.1. Vərəsələr miras qoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə *birgə borclu kimi* tam ödəməyə borcludurlar.

1306.2. Əgər miras qoyan vərəsələrə keçmiş borclar üzrə birgə borclu olmuşdursa, vərəsələr birgə məsuliyyət daşıyırlar.

~~1306.3. Məcburi pay almış vərəsələr də miras qoyanın borcları üçün məsuliyyət daşıyırlar.~~ (12)

Maddə 1307. Vərəsələr tərəfindən kreditorların təmin edilməsi zamanı sübutetmə yükü

Mirasın notarius tərəfindən siyahıya alındığı haldan başqa, vərəsə miras qoyanın borclarının mirasdan çox olduğunu sübut etməlidir.

Maddə 1308. Borcun ödənilməsinin vərəsəyə həvalə edilməsi

Vəsiyyət edən bütünlüklə borcun və ya onun bir hissəsinin ödənilməsini bir və ya bir neçə vərəsəyə həvalə edə bilər.

Maddə 1309. Mirasın açılması barədə kreditorlara məlumat vermək vəzifəsi

Vərəsələr, əgər ölənin borcları onlara məlumdursa, mirasın açılması barədə miras qoyanın kreditorlarına məlumat verməyə borcludurlar.

~~***Maddə 1310. Kreditorların tələblərinin irəli sürülməsi müddəti***~~

~~1310.1. Miras qoyanın kreditorları mirasın açıldığının onlara məlum olduğu gündən altı ay ərzində mirası qəbul etmiş vərəsələrə qarşı tələblərini, bunların müddətinin çatıb-çatmamasından asılı olmayaraq, irəli sürməlidirlər.~~

~~1310.2. Əgər vərəsələrin kreditorları mirasın açıldığını bilməmişlərsə, vərəsələrə qarşı tələbi onun müddətinin çatdığı gündən bir il ərzində irəli sürməlidirlər.~~

~~1310.3. Bu qaydalara riayət edilməməsi kreditorların tələb hüququnu itirməsinə səbəb olur.~~ (12)

~~Maddə 1311. Ümumi iddia müddətlərinin tətbiqi~~

~~1311.1. Kreditorların tələbləri irəli sürməsi müddəti miras qoyanın sonuncu xəstəliyi zamanı ona qulluq edilməsi və onun müalicəsi, əmək haqqı verilməsi, dəfn, mirasın mühafizə və idarə edilməsi ilə bağlı xərclər haqqında tələblərə, habelə üçüncü şəxslərin əmlaka mülkiyyət hüquqlarının tanınması və onlara mənsub əmlakı tələb etmək haqqında tələblərinə şamil edilmir.~~

~~1311.2. Bu Məcəllənin 1311.1-ci maddəsində göstərilmiş tələblər barəsində ümumi iddia müddətləri tətbiq edilir.~~ (12)

Maddə 1312. İcra müddətinin təxirə salınması

Əgər kreditor tələbi icra müddəti çatanadək irəli sürmüşdürsə, vərəsə icranı müddət çatanadək təxirə sala bilər. Müddət çatdıqda kreditor ümumi iddia müddəti ərzində icranı tələb edə bilər.

Maddə 1313. Miras qoyanın kreditorlarının üstünlüyü

Tələblərin ödənilməsi zamanı miras qoyanın kreditorları vərəsənin kreditorları qarşısında üstünlüyə malikdirlər.

Maddə 1314. Dövlətin kreditorlar qarşısında məsuliyyəti

Vərəsələri olmayan əmlak dövlətə keçdikdə, miras qoyanın borcları üzrə o, vərəsə kimi məsuliyyət daşıyır.

Maddə 1315. Mirasın kreditor tərəfindən alınmasının nəticələri

Əgər miras qoyan öz əmlakını kreditora vəsiyyət etmişdirsə, bu, kreditorun tələb hüququnun əvəzləşdirilməsi sayıla bilməz.

~~Maddə 1316. Kreditorların təmin edilməsi qaydası~~

~~Kreditorların tələblərini vərəsələr, əgər onların arasında razılaşmada ayrı qayda müəyyənləşdirilməyibsə, birdəfəlik ödənişlər yolu ilə ödəməlidir.~~ (12)

73-cü fəsil. Mirasın qorunması

Maddə 1317. Mirasın qorunması anlayışı

1317.1. Mirasın qəbul edilməsinə qədər mirasın açıldığı yerdəki notariat orqanı, zərurət olarsa, mirasın qorunması üçün tədbirlər görür. Həmin qayda vərəsənin məlum olmadığı və ya onun mirası qəbul edib-etməməsinin bilinmədiyi hala da şamil edilir.

1317.2. Notariat orqanı mirasın qorunması üçün mirası siyahıya ala bilər. (12)

Maddə 1318. Vərəsələrin axtarılması

Notariat orqanı mirasın açıldığı yerdə olmayan vərəsələrin axtarılması üçün tədbirlər görür. (12)

Maddə 1319. Əmlak idarəçisinin təyin edilməsi

Bu fəsildə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün notariat orqanı əmlak idarəçisini təyin edə bilər. (12)

Maddə 1320. Bu fəsildə nəzərdə tutulmuş tədbirlərlə bağlı xərclər

Bu fəsildə nəzərdə tutulmuş tədbirlərlə bağlı xərclər mirasın passivinə aid edilir. (12)

74-cü fəsil. Vərəsəlik şəhadətnaməsi

Maddə 1321. Vərəsəlik şəhadətnaməsi anlayışı

1321.1. Vərəsəliyə çağırılmış şəxslər mirasın açıldığı yerdəki notariat orqanından vərəsəlik şəhadətnaməsi tələb edə bilərlər.

1321.2. Qanunda nəzərdə tutulmuş hallarda vərəsəlik şəhadətnaməsinin alınması məcburidir.

1321.3. Vərəsəlik şəhadətnaməsində vərəsə kimi qeyd olunan şəxsin həmin şəhadətnamədə göstərilən hüquqa malik olması qəbul edilir. Bu, vərəsəlik şəhadətnaməsində vərəsə kimi qeyd olunan şəxsdən onun miras payına aid olan hər hansı bir predmeti, belə predmetlə bağlı hüququ və ya miras payına daxil olan hər hansı bir hüquqdan azad etməni əldə edən şəxsin xeyrinə də qüvvədədir, bir şərtlə ki, əldə edən vərəsəlik şəhadətnaməsinin düzgün olmadığını bilməmiş olsun. (12)

Maddə 1322. Vərəsəlik şəhadətnaməsinin verildiyi müddət

Vərəsəlik şəhadətnaməsi vərəsələrə mirasın açıldığı gündən altı ay *keçdikdən sonra* istənilən vaxt verilir. Əgər notariat orqanında şəhadətnamə tələb edən şəxslərdən savayı, başqa vərəsələrin olmadığı barədə məlumat vardırsa, vərəsəlik şəhadətnaməsi altı aydan da tez verilir. (12)

Maddə 1323. Şəhadətnaməyə yazılmağa razılıq

Bu Məcəllə ilə müəyyənləşdirilmiş müddətdə mirası qəbul etməyən vərəsələr mirası qəbul etmiş vərəsələrin hamısının razılığı ilə vərəsəlik şəhadətnaməsinə yazıla bilərlər. Razılıq vərəsəlik şəhadətnaməsi verilənədək yazılı surətdə ifadə edilməlidir.

Maddə 1324. Vərəsənin vərəsəsinə vərəsəlik şəhadətnaməsi verilməsi

Əgər mirası qəbul etməyə çağırılmış vərəsə miras açıldıqdan sonra onu müəyyənləşdirilmiş müddətdə qəbul etməyə macal tapmadan ölərsə, onun vərəsələri ilkin miras qoyanın ölümündən sonra qalmış əmlaka vərəsəlik şəhadətnaməsi ala bilərlər.

Maddə 1325. Miras şəriklərinə vərəsəlik şəhadətnaməsi verilməsi

Vərəsəlik şəhadətnaməsi həm bütün miras, həm də onun bir hissəsi üçün verilə bilər. Şəhadətnamə həm bütün vərəsələrə birlikdə, həm də ayrılıqda hər birinə arzularına uyğun

olaraq verilir. Vərəsələrdən birinə mirasın bir hissəsi üçün vərəsəlik şəhadətnaməsinin verilməsi digər vərəsələri mirasın qalan hissəsi üçün şəhadətnamə almaq hüququndan məhrum etmir.

«Azərbaycan» qəzetində dərc edilmişdir (Xüsusi buraxılış, 19 may 2000-ci il, № 1).

«Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 aprel 2000-ci il, № 4, maddə 250) («VneshExpertService»).

Məcəlləyə dəyişiklik və əlavələrin edildiyi sənədlərin Siyahısı

1. Azərbaycan Respublikasının 6 dekabr 2002-ci il tarixli, 399-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (29 dekabr 2002-ci il, № 300).

2.Azərbaycan Respublikasının 17 iyun 2003-cü il tarixli, 479-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (9 avqust 2003-cü il, № 181).

3. Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli, 566-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (6 mart 2004-cü il, № 55).

4. Azərbaycan Respublikasının 20 aprel 2004-cü il tarixli, 639-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti 14 may 2004-cü il, № 112).

5. Azərbaycan Respublikasının 1 iyun 2004-cü il tarixli, 677-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (20 iyun 2004-cü il, № 142).

6. Azərbaycan Respublikasının 26 oktyabr 2004-cü il tarixli, 782-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (10 noyabr 2004-cü il, № 262).

7. Azərbaycan Respublikasının 7 sentyabr 2004-cü il tarixli, 731-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (22 oktyabr 2004-cü il, № 246).

8. Azərbaycan Respublikasının 24 dekabr 2004-cü il tarixli, 815-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (10 fevral 2005-ci il, № 31).

9. Azərbaycan Respublikasının 15 aprel 2005-ci il tarixli, 890-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (11 iyun 2005-ci il, № 132).

10. Azərbaycan Respublikasının 10 iyun 2005-ci il tarixli, 925-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (29 avqust 2005-ci il, № 199).

11. Azərbaycan Respublikasının 24 iyun 2005-ci il tarixli, 948-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (3 sentyabr 2005-ci il, № 204).

12. Azərbaycan Respublikasının 24 iyun 2005-ci il tarixli, 949-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (12 avqust 2005-ci il, № 185).

13. Azərbaycan Respublikasının 20 sentyabr 2005-ci il tarixli, 995-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (24 noyabr 2005-ci il, № 272).

14. Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli, 1038-IIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (14 dekabr 2005-ci il, № 289).

15. Azərbaycan Respublikasının 23 dekabr 2005-ci il tarixli, 39-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (16 fevral 2006-cı il, № 34).

16. Azərbaycan Respublikasının 3 mart 2006-cı il tarixli, 80-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (13 may 2006-cı il, № 104).

17. Azərbaycan Respublikasının 3 mart 2006-cı il tarixli, 82-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (1 aprel 2006-cı il, № 69).

18. Azərbaycan Respublikasının 21 aprel 2006-cı il tarixli, 100-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (25 iyun 2006-cı il, № 139).

19. Azərbaycan Respublikasının 30 may 2006-cı il tarixli, 122-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (4 avqust 2006-cı il, № 172).

20. Azərbaycan Respublikasının 20 oktyabr 2006-cı il tarixli, 167-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (30 dekabr 2006-cı il, № 294).

21. Azərbaycan Respublikasının 1 fevral 2007-ci il tarixli, 234-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (21 fevral 2007-ci il, № 38).

22. Azərbaycan Respublikasının 17 aprel 2007-ci il tarixli, 313-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (29 iyun 2007-ci il, № 140).

23. Azərbaycan Respublikasının 17 aprel 2007-ci il tarixli, 315-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (19 avqust 2007-ci il, № 184).

24. Azərbaycan Respublikasının 9 oktyabr 2007-ci il tarixli, 428-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (28 oktyabr 2007-ci il, № 242).

25. Azərbaycan Respublikasının 9 oktyabr 2007-ci il tarixli, 430-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (27 noyabr 2007-ci il, № 267) (Bu Qanun Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə eyni gündə qüvvəyə minir).

26. Azərbaycan Respublikasının 7 dekabr 2007-ci il tarixli, 506-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (30 dekabr 2007-ci il, № 294).

27. Azərbaycan Respublikasının 7 dekabr 2007-ci il tarixli, 510-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (28 dekabr 2007-ci il, № 292).

28. Azərbaycan Respublikasının 25 dekabr 2007-ci il tarixli, 520-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (14 mart 2008-ci il, № 57).

29. Azərbaycan Respublikasının 30 may 2008-ci il tarixli, 610-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (24 iyun 2008-ci il, № 136).

30. Azərbaycan Respublikasının 13 iyun 2008-ci il tarixli, 648-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (10 iyul 2008-ci il, № 149).

31. Azərbaycan Respublikasının 28 oktyabr 2008-ci il tarixli, 711-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (14 dekabr 2008-ci il, № 279).

32. Azərbaycan Respublikasının 16 dekabr 2008-ci il tarixli, 742-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (17 fevral 2009-cu il, № 37).

33. Azərbaycan Respublikasının 3 aprel 2009-cu il tarixli, 782-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (16 may 2009-cu il, № 104).

34. Azərbaycan Respublikasının 26 may 2009-cu il tarixli, 821-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (26 iyun 2009-cu il, № 137).

35. Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli, 856-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (22 iyul 2009-cu il, № 158).

36. Azərbaycan Respublikasının 1 fevral 2010-cu il tarixli, 950-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (24 fevral 2010-cu il, № 43).

37. Azərbaycan Respublikasının 1 fevral 2010-cu il tarixli, 951-IIIQD nömrəli Qanunu — «Respublika» qəzeti (18 mart 2010-cu il, № 60).

38. Azərbaycan Respublikasının 12 fevral 2010-cu il tarixli, 952-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (18 aprel 2010-cu il, № 82).

39. Azərbaycan Respublikasının 5 mart 2010-cu il tarixli, 972-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (17 aprel 2010-cu il, № 81).

40. Azərbaycan Respublikasının 23 fevral 2010-cu il tarixli, 960-IIIQD nömrəli Qanunu — «Azərbaycan» qəzeti (22 aprel 2010-cu il, № 85).

(km1) Konstitusiya Məhkəməsinin 27 iyul 2001-ci il tarixli qərarına əsasən 2001-ci il sentyabrın 1-dən sonra yaşayış evindən (mənzildən) istifadə edilməsi ilə əlaqədar yaranan hüquq münasibətləri ilə bağlı mübahisələr Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrinin qaydalarına uyğun, bu tarixədək yaranmış hüquq münasibətləri ilə bağlı mübahisələr isə Mənzil Məcəlləsinin 123-cü maddəsinin qaydalarına uyğun həll edilməlidir.

(km2) Konstitusiya Məhkəməsinin 27 dekabr 2001-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsində göstərilən iddia müddətləri 2000-ci il sentyabrın 1-dən sonra yaranan hüquq münasibətlərindən irəli gələn tələblərə tətbiq edilir. Həmin iddia müddətləri Mülki Məcəllənin 7-ci maddəsinin müddəaları nəzərə alınmaqla bundan əvvəl əmələ gəlmiş hüquq münasibətlərindən irəli gələn tələblərə də tətbiq oluna bilər.

(km3) Konstitusiya Məhkəməsinin 28 yanvar 2002-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin daşınmaz əmlaka mülkiyyət hüququnu

əldəetmə müddətini müəyyənləşdirən 179-cu maddəsinin hüquqi qüvvəsi 2000-ci il sentyabrın 1-dən sonra yaranan hüquq münasibətlərinə tətbiq olunmalıdır.

(km4) Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21-ci maddəsinin müddəaları yalnız real zərərin, habelə əldən çıxmış faydanın ödənilməsini nəzərdə tutur. Həmin Məcəllənin 23-cü maddəsində nəzərdə tutulmuş zərər dedikdə şərəfin, ləyaqətin və işgüzar nüfuzun ləkələnməsi ilə bağlı şəxsə dəymiş mənəvi zərər (fiziki və mənəvi iztirablar) və maddi zərər başa düşülür.

Mənəvi zərərin ödənilməsi, habelə qanunvericilikdə nəzərdə tutulmuş başqa məhdudiyyətlərin tətbiq edilməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunan digər əsas hüquq və azadlıqlarla mütənasib olmaqla hər bir konkret halda məhkəmənin mülahizəsindən asılıdır.

(km5) Konstitusiya Məhkəməsinin 27 dekabr 2002-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 440.4-cü maddəsi Azərbaycan Respublikası Konstitusiyasının 12, 13, 29, 60 və 71-ci maddələrinə uyğun olmadığından qüvvədən düşmüşdür.

(km6) Konstitusiya Məhkəməsinin 9 iyul 2009-cu il tarixli qərarına əsasən:

> 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449.1-ci maddəsinin «ondan faydalanmağa görə» müddəası özgəsinin vəsaitinin qanunsuz saxlanılması, onun qaytarılmasından boyun qaçırılması, onun ödənilməsinin digər şəkildə gecikdirilməsi və ya başqa şəxsin hesabına pul vəsaitin əsassız əldə edilməsi və ya toplanılması nəticəsində Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152.3-cü maddəsində göstərilmiş gəlirin, artımın, bəhərin və ya sair maddi xeyirin əmələ gəlməsini nəzərdə tutur.
>
> 2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449.3-cü və 449.4-cü maddələrinin müvafiq olaraq «pul vəsaitindən qanunsuz istifadə» və «özgə vəsaitindən istifadə» müddəaları həmin Məcəllənin 449.1-ci maddəsində göstərilmiş halların mövcud olmasını nəzərdə tutur.

(km7) Konstitusiya Məhkəməsinin 25 oktyabr 2010-cu il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 178.8-ci maddəsi həmin Məcəllənin 146.1-ci, 146.2-ci, 178.1-ci və 178.2-ci maddələrinin və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 113-cü maddəsinin müddəalarına uyğun olaraq tətbiq edilməlidir. Kooperativin üzvü və pay yığımına hüququ olan digər şəxslər kooperativin verdiyi mənzil, bağ, qaraj və ya ayrı qurğu üçün pay haqqını tam verdikdə həmin əmlaka sahiblik və istifadə etmək hüququnu, daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqdan sonra isə sərəncam vermək hüququnu əldə edirlər.

© *VneshExpertService*